ERMƏNİ ƏSİRLİYİNDƏ

işgəncə və qətl antologiyası

BAKI–2017

Tərtibçilər: **Eldar Səmədov**
Emin Vəliyev
Cəmilağa Ağayev

Redaktor qrupu: **Binnət Məmmədov**
Yusif İsmayılov
Fidan İsmayıllı

E76 Erməni əsirliyində: işgəncə və qətl antologiyası.
Bakı, "Təhsil", 2017, 368 səh.

Kitab müxtəlif yaşa məxsus insanların xatirələri əsasında tərtib edilmişdir. Xatirələr qadın, uşaq, qocalara, eyni zamanda həm mülki şəxslərə, həm də hərbçilərə aiddir. "Xatirə" ifadəsi ilk anlamda insanda şirin və həzin hislər yaratsa da, bu kitabda yer almış xatirələr oxucuda daha çox insanın insana münasibəti kontekstində təəssüf və təəccüb hissi doğuracaq, bir çox hallarda isə dəhşət hissi yaradacaq.

Kitabda Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı Ermənistan hərbçiləri və erməni separatçı, terrorçu-quldur dəstələri tərəfindən əsir-girov götürülmüş azərbaycanlılara, o cümlədən digər xalqların nümayəndələrinə qarşı adi insani dəyərlərin və beynəlxalq humanitar hüquq normalarının pozulması faktları toplanmışdır. Bunlar adi xatirələr deyil, insanlığa və bəşəriyyətə qarşı törədilmiş cinayət əməllərini təsdiq edən ifadələrdir. Kitabda əsir-girovluqdan azad edilmiş 1440 Azərbaycan vətəndaşından 339 nəfərinin ifadəsi toplanmışdır. Bu cinayətləri törətmiş insanların beynəlxalq hüquq müstəvisində öz cəzalarını alacağına inanaraq, kitabı dünyanın geniş oxucu kütləsinin diqqətinə təqdim edir və müharibə canilərini onların vicdan mühakiməsinə buraxırıq.

E $\frac{4502020000}{053}$ 2017

ISBN 978–99-52-805-89-6

© Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası

ERMƏNİ ƏSİRLİYİNDƏ
işgəncə və qətl antologiyası

Mündəricat

Ön söz....5

I FƏSİL
Ermənistan Silahlı Qüvvələri tərəfindən Azərbaycan Respublikası ərazilərinin işğalı zamanı əsir-girov götürülmüş və sonradan azad edilmiş azərbaycanlıların ifadələrindən:....11
A....13
B....44
C....54
D....66
E....67
Ə....69
F....96
H....98
X....122
İ....123
K....139
Q....144
M....166
N....201
O....216
Ö....217
P....218
R....219
S....233
Ş....240
T....247
U....253
V....254
Y....259
Z....260

II FƏSİL
Sənədlər, faktlar....263

ÖN SÖZ

Əsrlər boyu yaranmış və hər bir hayın təfəkküründə hakim kəsilmiş "Böyük Ermənistan" ideyası XX əsrdə özünün ifrat və radikal həddinə yüksəlmişdir. Əlbəttə, bu xəstə, lakin mühafizəkar ideologiyanın törətdiyi fəsadlar obyektiv mühakimə qabiliyyəti olan və mütərəqqi düşüncəli hər bir insana məlumdur. Öncə qeyd etmək lazımdır ki, coğrafi və siyasi məna kəsb etməsindən asılı olmayaraq, əslində "Böyük Ermənistan" adlı məkanın və "erməni" etnosunun hazırkı ermənilərə heç bir aidiyyəti yoxdur. Eramızdan öncə Balkanlardan Ön Asiyaya, sonradan isə məqsədyönlü şəkildə Qafqazın cənubuna yerləşdirilmiş ermənilər bu ərazilərin aftoxton əhalisinin tarixini, dilini, mədəniyyətini, incəsənətini, mətbəxini mənimsədikləri kimi, mədəni və siyasi toponimləri də özününküləşdirərək özlərini onların daşıyıcıları kimi qələmə vermişlər. Sonrakı dövrlərdə isə fikir və düşüncələrini inkişaf etdirərək etnoideoloji səviyyəyə qaldırmış, əvvəl özlərini, zaman keçdikdən sonra isə beynəlxalq aləmi bu ekstremist ideologiyaya inandırmağa müvəffəq olmuşlar.

Ermənistanın Azərbaycana təcavüzü və süni Dağlıq Qarabağ probleminin yaradılması "Böyük Ermənistan" ideyasının tərkib hissəsidir. Erməni ictimai və siyasi xadimləri bu ideyanın həyata keçirilməsi üçün zaman-zaman makiavellist siyasət yeritməkdən çəkinməmiş, hər bir vasitəyə əl ataraq özlərinə haqq qazandırmaq üçün beynəlxalq aləmə həqiqətə uyğun olmayan məlumatlar yaymışlar. Beləliklə, beynəlxalq ictimai rəyi çaşdıran ermənilər öz "mübarizə"lərinin ədalətli olduğuna don geyindirə bilmişlər. Münaqişənin başlanmasının tarixi və xronologiyası məlumdur. Ona görə də münaqişənin xarakterini və onun humanitar fəsadlarını araşdırmağa cəhd edəcəyik.

1988-ci ildən başlayan münaqişə özü ilə Azərbaycan Respublikasına, eyni zamanda bölgəyə çox ağır fəlakətləri, xüsusən də humanitar problemləri gətirdi. Erməni terrorçu-quldur dəstələri tərəfindən ilkin olaraq azərbaycanlıların qətlə yetirilməsi, tarixi-etnik torpaqlarından zorla qovulması, mülklərinin talan edilməsi hallarına yol verilməsi sonradan inkişaf edərək yeni mərhələyə qədəm qoydu. Bu mərhələdə artıq yeni təzahürlər – insanların əsir və girov götürülməsi, uzun müddət saxlanılması və dəhşətli işgəncələrə məruz qalması, eyni zamanda itkin düşməsi halları meydana çıxdı. Bu isə artıq münaqişənin lokal toqquşmalardan intensiv hərbi əməliyyatlara keçdiyini təsdiq edirdi. Həqiqətdə isə baş verən hadisə Ermənistan Respublikasının Azərbaycan Respublikasına ərazi iddialı təcavüzü idi.

Əlbəttə, təcavüz və onun törətdiyi humanitar problemlə qəflətən üzləşmiş Azərbaycan Respublikasında müharibə qurbanları ilə bağlı işi təşkil etmək bir çox hallarda mümkün deyildi. Ona görə də yaxınlarını itirmiş insanlar öz şəxsi təşəbbüsləri və əlaqələri ilə bu ağır problemi həll etməyə cəhdlər göstərirdi. Belə şəraitdən istifadə edərək özlərinə qazanc mənbəyi tapanlar da meydana çıxır və müharibənin qurbanı olan insanlar alqı-satqı obyektinə çevrilirdi. Çox vaxt isə nəticələr daha da dəhşətli olurdu. Buna misal olaraq iki faktı diqqətə çatdırmaq yerinə düşər:

- 31 dekabr 1992-ci ildə Qazax rayonunun Ermənistanla sərhəd ərazisində itkin düşmüş İsayev Əsgər İsmayıl oğlunun axtarışı ilə məşğul olmuş qardaşı İsayev Cahangir İsmayıl oğlu və bacısının həyat yoldaşı Məmmədov Məmməd Qərib oğlu 7 noyabr 1993-cü il tarixdə Ermənistanın Gürcüstanla sərhəd ərazisinə gedərək orada ermənilərlə danışığa girmiş və sonda Əsgər İsayevlə görüşdürəcəkləri və onu azad edəcəkləri adı altında aldadılaraq Ermənistana aparılmışlar. Hazırda onların hər üçünün sonrakı taleyi qaranlıq qalmışdır;
- 1993-cü ilin fevral ayında Azərbaycan Respublikasının Ağdərə rayonu uğrunda gedən döyüşlərdə itkin düşmüş Azərbaycan ordusunun əsgəri Quliyev Xaqani Nurəddin oğlunun axtarışı ilə məşğul olmuş doğmaları öz təşəbbüsləri ilə Rusiyada yaşayan ermənilərlə əlaqə yaratmışlar. Onları Xaqani Quliyevin sağ olduğuna inandırmış ermənilər 25 min ABŞ dolları müqabilində onu azad edəcəklərini bildirmişlər. Yaxın qohumlarının köməkliyi ilə həmin vəsaiti toplamış Xaqani Quliyevin qardaşı Mahir Quliyev 1996-cı ilin yayında Rusiyaya getmişdir. Lakin ermənilər göstərilən məbləği gətirmiş Mahir Quliyevi orada qətlə yetirərək pulu götürmüş və qaçmışlar. Mahir Quliyevin meyiti həmin ilin avqust ayında ailəsi tərəfindən gətirilərək Şamaxı şəhərində dəfn edilmişdir.

Bu iki fakta əlavə şərh verməyə ehtiyac yoxdur.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunda toplanmış materialların təhlili göstərir ki, Ermənistan Silahlı Birləşmələri tərəfindən ərazilərin işğalı zamanı əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarına qeyri-insani münasibətlər göstərilmiş və onlar müxtəlif məqsədlər üçün istifadə olunmuşlar. Bu məqsədləri aşağıdakı kimi təsnif etmək olar:

– Əsir və girovlardan qul kimi istifadə olunması, xüsusən də zərərli istehsal sahələrində;

– Onların antitürk, antiazərbaycan ideoloji-təbliğat vasitəsinə çevrilməsi. Yəni Azərbaycan əsgərinin təhqiredici vəziyyətə salınaraq yaşayış məntəqələrində, xüsusən orta məktəblərdə "Baxın, bu türkdür, sizin düşmənizdir" kimi təqdim edilməsi;

– Eyni zamanda nifrət hissinin artırılması məqsədi ilə əsir və girovların açıq şəkildə mülki əhalinin ixtiyarına verilərək meydanlarda nümayişkaranə şəkildə döyülməsinin təşkili;

– Döyüşlərdə həlak olmuş terrorçu-quldur dəstəsi üzvlərinin və Ermənistan əsgərlərinin məzarı üzərində və "erməni soyqırımı"nın anım günlərində əsir-girovların qurban kəsilməsi;

– Əsir və girov götürülmüş şəxslərdən Azərbaycana qarşı istifadə, onların məxfi əməkdaşlığa cəlb olunması və Azərbaycanda terror-təxribat aktlarının törədilməsinə təhrik olunması. Eyni zamanda, əsir və girovların müxtəlif telekanallara çıxarılaraq öz ölkəsinin əleyhinə müsahibələr verməsinə təhrik edilməsi;

– Əsirləri Vətənə qayıtmaqdan imtinaya və üçüncü ölkəyə getməyə təhrik edərək, beynəlxalq aləmdə Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının pozulması barədə həqiqətə uyğun olmayan fikirlərin formalaşdırılması;

– Əsir və girovların işğal olunmuş yaşayış məntəqələrinin sökülməsində və talan olunmasında, başqa sözlə, vandalizm aktlarında istifadəsi;
– Əsir və girovların bir-birinə qarşı fiziki və qeyri-əxlaqi əməllər törətməsinə təhrik edilməsi;
– Nəhayət, əsir və girovların alver obyektinə çevrilməsi kimi cinayət faktı.

Materialların təhlili təsdiq edir ki, 67 nəfər Azərbaycan vətəndaşı böyük məbləğdə pulun ödənilməsi müqabilində əsir və ya girovluqdan azad olunmuşdur.

Əlbəttə, bu, Dövlət Komissiyasının sənədlərində əksini tapmış faktlardır.

Müharibələr tarixinə nəzər saldıqda aydın olur ki, 100% etnik təmizləmənin həyata keçirilməsi yalnız Ermənistanın Azərbaycana təcavüzü zamanı Ermənistan hərbçiləri tərəfindən reallaşdırılmışdır. Əlbəttə, burada məqsəd türksüz Ermənistanın yaradılmasından ibarət idi. Bunun nəticəsidir ki, hazırda Ermənistan dünyada yeganə monoetnik dövlətdir. XX əsrin əvvəllərində özünə həyat vəsiqəsi almış bu ideya həmin əsrin sonlarında daha çılpaqlığı ilə təzahür etməyə başlamışdır. Qəflətən hücuma və işğala məruz qalmış tarixi-etnik Azərbaycan torpaqlarında yaşayan sakinlərin bir hissəsi öz evlərində öldürülmüş, girov götürülmüş, digər hissəsi isə bir çox hallarda sonradan kütləvi şəkildə qətlə yetirilmişdir.

Bunu 1993-cü ilin aprel ayında Kəlbəcər rayonunun işğalı zamanı Azərbaycan xüsusi xidmət orqanlarının radio əks-kəşfiyyat xidməti tərəfindən əldə olunmuş material da təsdiq edir. Belə ki, həmin zaman Ermənistanın Vardenis rayonundakı qərargah radiostansiyasından Kəlbəcər döyüş bölgəsindəki baş radiostansiyaya bölgədəki bütün səyyar radiostansiyalara çatdırmaq üçün təcili əmr verilmişdir. Əmrdə əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarını, o cümlədən qocaları, qadınları və uşaqları təcili məhv edib basdırmaq tələb olunurdu. Tələsikliyə səbəb azərbaycanlılara qarşı törətdikləri cinayətlərin izlərini həmin vaxt döyüş bölgəsinə gələn beynəlxalq nümayəndə heyətindən, o cümlədən jurnalistlərdən gizlətmək olmuşdur. Dövlət Komissiyasında toplanmış materialların təhlili işğal zamanı mülki əhalinin müəyyən bir hissəsinin məqsədyönlü şəkildə girov götürülməsi faktını sübuta yetirir.

Təhlil və araşdırmalar Ermənistan hərbçilərinin Azərbaycana təcavüzü zamanı, Cenevrə Konvensiyalarının tələblərinə zidd olaraq, əsir və girov götürülmüş insanlarla davranışı və onların saxlanma şəraiti ilə bağlı münasibətini aşağıdakı kimi təsnif etməyə əsas verir:

- Beynəlxalq humanitar hüquq normalarına zidd olaraq mülki əhali qorunmamış, onlar girov götürülmüş və bir çox hallarda uzun müddət girovluqda saxlanmışlar;
- Yaşına və cinsinə məhəl qoyulmadan onlara dəhşətli işgəncələr verilmiş və dözülməz şəraitdə saxlanmışlar;
- Düşərgələr yaradılmamış, bir çox hallarda isə əsir və girovlar hərbi hissələrdə saxlanılmışlar;
- Əsir və girovlar Ermənistanda ağır cinayətlər törətmiş şəxslərlə birlikdə həbsxanalarda saxlanılmışlar;
- Ayrı-ayrı səhra komandirləri və "səlahiyyətli" şəxslər tərəfindən evlərdə və müxtəlif fərdi yerlərdə saxlanmış və çirkin məqsədlər üçün istifadə olunmuşlar;
- Müxtəlif məlumatların əldə olunması üçün dəhşətli işgəncələrin müşayiəti ilə qeyri-qanuni sorğu-suallara cəlb olunmuşlar;

- Müxtəlif tibbi və digər eksperiment obyektinə çevrilmiş, bədənlərinə şüalar verilmiş və tərkibi məlum olmayan maddələr yeridilmişdir;
- Bir-birinə qarşı alçaldıcı və təhqiredici əməllər törətməyə təhrik edilmişlər;
- Bir-birinin əleyhinə ifadələr verməyə məcbur edilmişlər;
- Onlara qarşı yalançı ittihamlar irəli sürülmüş və günahsız olaraq "cinayət" məsuliyyətinə cəlb edilmişlər;
- Soyuq və qarlı havada bayırda paltarsız vəziyyətdə saxlanılmış və heyvan hərəkətlərini yerinə yetirməyə təhrik edilmişlər;
- Heyvanlarla bir qabdan yemək yeməyə məcbur edilmişlər;
- Nəhayət, hər bir vəchlə beynəlxalq təşkilatlardan gizlədilmişlər və s.

Əlbəttə, bu təsnifatı genişləndirmək də olar, lakin qeyd olunanlar da deməyə kifayət edir ki, Ermənistanın Azərbaycana təcavüzü zamanı insanlığa və bəşəriyyətə qarşı ağır cinayətlər törədilmişdir. Çox təəssüf ki, həmin cinayətlərin təşkilatçıları və icraçıları yüksək tribunalardan səslənərək özlərinə haqq qazandırmaqdan və bəşəriyyəti "ədalətli" mübarizə apardıqlarına inandırmaqdan utanmırlar.

Bütün bu qeyd olunan sənədlərə əsaslanan faktlar hazırda bəşəriyyətə "erməni soyqırımı"nı sırımaq istəyən ermənilər, özünü müasir sivil bəşəriyyətin tamhüquqlu üzvü elan etmiş Ermənistan Respublikası və onun siyasi-cinayətkar rejimi tərəfindən törədilmişdir. Həmin Ermənistan ki, beynəlxalq humanitar hüquq normalarını rəsmi şəkildə qəbul etsə də, onlara əməl etməyi siyasi, cinayətkar və ideoloji prinsiplərinə zidd hesab edir.

Azərbaycan Respublikası müstəqillik əldə etdiyi ilk illərdən etibarən demokratik quruluşu, qanunların aliliyini təmin edən hüquqi dövlətin qurulmasını bəyan etmiş və bu məqsədlə zəruri addımlar atmışdır. Hüquqi dövlət quruculuğunu prioritet seçmiş milli qanunvericiliyində ümumbəşəri dəyərlərin əks olunmasını, insan hüquq və azadlıqlarının geniş təmin edilməsini və Azərbaycanın dünya birliyinə inteqrasiyasını mühüm amil saymışdır. Məlumdur ki, bəşəriyyətin diqqət mərkəzində olan müasir hüquq doktrinalarından biri də müharibə hüququ və humanitar hüquqdur. Müasir beynəlxalq humanitar hüquq – humanizm prinsiplərinə əsaslanan və silahlı qarşıdurmaların nəticələrinin məhdudlaşdırılmasına yönələn normalar məcmusudur. Bu hüquq, eyni zamanda hərbi əməliyyatlarda bilavasitə iştirak etməyən və ya hərbi əməliyyatların aparılmasında iştirakını dayandıran şəxslərin himayəsini təmin edərək müharibə aparılması üsullarını və qaydalarını məhdudlaşdırır.

Beynəlxalq humanitar hüququn əsas mənbələri "Döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında", "Dənizdə silahlı qüvvələrin tərkibində yaralıların, xəstələrin və gəmi qəzasına uğrayanların vəziyyətinin yaxşılaşdırılması haqqında", "Hərbi əsirlərlə rəftar haqqında" və "Müharibə zamanı mülki əhalinin qorunması haqqında" 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyaları və 1977-ci il tarixli onlara əlavə I və II Protokollardır. Müharibə qurbanlarının müdafiəsini təmin edən bu Konvensiyaları beynəlxalq birliyin üzvü olan dövlətlərin əksəriyyəti, o cümlədən hazırda münaqişədə olan Ermənistan və Azərbaycan da qəbul etmişdir.

21 aprel 1993-cü il tarixdə Azərbaycan Respublikası adı çəkilən Konvensiyalara qoşularaq bu sənəddən irəli gələn öhdəlikləri öz üzərinə götürmüşdür. Bundan başqa, Azərbaycan Respublikası 1993-cü ildə "Silahlı münaqişələr zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" 14 may 1954-cü il tarixli Haaqa Konvensiyasına da qoşulmuşdur.

Təbii ki, Azərbaycan Respublikasının bu Konvensiyalara qoşulması onlardan irəli gələn tələblərin milli qanunvericilikdə əks etdirilməsi və milli qanunvericiliyin beynəlxalq sənədlərə uyğunlaşdırılması zərurətini də yaratmışdır. Hər şeydən öncə qeyd olunmalıdır ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış humanitar problemin həlli və mərkəzləşmiş siyasətin həyata keçirilməsi üçün 1993-cü ilin yanvar ayında Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası, həmin ilin mart ayında isə daimi icraçı orqan olan Komissiyanın İşçi qrupu yaradılmışdır. Başqa sözlə, əsir, itkin və girovlar problemi ilə məşğul olan qurum Azərbaycan Respublikası Cenevrə Konvensiyalarına qoşulmazdan əvvəl yaradılmışdır. Beynəlxalq humanitar hüquq normaları ilə bağlı qəbul olunmuş normativ sənədlərdən, 1995-ci ildə "Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında", "Vətəndaşların müraciətlərinə baxılması haqqında" Azərbaycan Respublikasının qanunlarını, "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında 19 dekabr 2006-cı il tarixli Fərmanını və digərlərini göstərmək olar. Beynəlxalq humanitar hüququn prinsip və normaları, həmçinin Azərbaycan Respublikasının cinayət, cinayət-prosessual, mülki və digər məcəllələrində də öz əksini tapmışdır.

Ermənistan Respublikasının təcavüzünün qurbanına çevrilmiş şəxslərlə bağlı problemlərin həlli məqsədilə Dövlət Komissiyasından başqa Azərbaycan Respublikasında bir sıra digər qurumlar da yaradılmışdır. Komissiya fəaliyyətə başladığı ilk gündən etibarən humanitar missiyaları yerinə yetirməkdə böyük təcrübə qazanmış Beynəlxalq Qızıl Xaç Komitəsi ilə əməkdaşlığa önəm vermiş, bu qurumla birlikdə müntəzəm və səmərəli fəaliyyət göstərmişdir. Məhz bu əməkdaşlığın nəticəsində əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarından 1440 nəfəri azad edilmişdir. İndiki mərhələdə Dövlət Komissiyası Beynəlxalq Qızıl Xaç Komitəsi ilə birlikdə itkin düşmüş şəxslərlə bağlı mövcud siyahıların dəqiqləşdirilməsi, əsir və girovluqda saxlanan şəxslərin azad olunması, "Ante Mortem" proqramı və digər vacib məsələlər üzrə əməkdaşlığı davam etdirir.

Azərbaycan Respublikası, eyni zamanda beynəlxalq humanitar hüquqla bağlı beynəlxalq sənədlərin qəbul olunması sahəsində də səmərəli işlər aparmışdır. Bu baxımdan, Azərbaycan Respublikası tərəfindən irəli sürülmüş və 2002-ci ildə Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurası tərəfindən qəbul olunmuş "İtkin düşmüş şəxslər" adlı qətnaməni göstərmək kifayətdir. Həmin qətnamə sonrakı illərdə yenidən bir neçə dəfə qəbul olunmuşdur. Bu qətnamədə də münaqişə tərəflərinin itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi üçün Beynəlxalq Qızıl Xaç Komitəsi ilə əməkdaşlığın vacibliyi öz əksini tapmışdır. Qətnamə, həmçinin tərəfləri insanların itkin düşməsinə şərait yaradan halların aradan qaldırılmasına çağırır.

Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin **20 faizi** işğal edilmiş, **20 mindən** çox insan qətlə yetirilmiş, **50 mindən** artıq adam yaralanmış və şikəst olmuşdur. **Bir milyondan artıq** insan **28 ildir** ki, qaçqın və məcburi köçkün şəraitində yaşayaraq Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin qurbanı olmuş, elementar insan haqlarından məhrum edilmişdir.

Təcavüzün ən ağır, həm də davam edən problemi isə əsir, girov və itkinlər məsələsidir. Hazırda Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında 1 oktyabr 2017-ci il tarixə olan məlumata əsasən, **3874 nəfər** itkin düşmüş şəxs kimi qeydiyyata alınmışdır. Onlardan 3126 nəfəri hərbçi, 748 nəfəri

mülki şəxslərdir. Mülki şəxslərin arasında 66 nəfər uşaq, (44 oğlan, 22 qız), 265 nəfər qadın, 302 nəfər qoca da var. Bundan başqa, itkin düşmüş 3874 nəfərdən **871** nəfərinin intensiv hərbi əməliyyatların gedişində Ermənistan hərbçiləri tərəfindən əsir-girov götürülməsi və saxlanması barədə məlumatlar əldə edilmişdir. Onlardan 590 nəfəri hərbçi, 281 nəfəri mülki şəxslərdir. Mülki şəxslərin arasında 29 uşaq (22 oğlan, 7 qız), 98 qadın, 111 qoca (49 nəfər kişi, 62 nəfər qadın) da olmuşdur. Göründüyü kimi, ortada işğal faktoru olduğu və müharibə Azərbaycan ərazilərində getdiyi üçün daha çox zərər çəkən azərbaycanlılar əsir və girov götürülmüş, itkin düşmüş, qətlə yetirilmiş, tarixi yurdlarından qovulmuşlar.

Ermənistan Respublikası işğal etdiyi Azərbaycan ərazilərində etnik təmizləmə və soyqırımı siyasəti həyata keçirmiş, münaqişə zonasından xeyli uzaqda da dinc əhaliyə qarşı ardıcıl surətdə terror-təxribat aksiyaları törətmişdir. Təkcə terror aktları nəticəsində yüzlərlə adam həlak olmuş və yaralanmışdır. Aparılmış istintaq və məhkəmə təhqiqatları zamanı terror aktlarının Ermənistan Respublikasının xüsusi xidmət orqanları, erməni terrorçu təşkilatları və separatçı qurumlar tərəfindən törədilməsi sübuta yetirilmişdir.

Oxuculara təqdim olunan kitabda Ermənistan Silahlı Birləşmələri tərəfindən Azərbaycan Respublikasının BMT tərəfindən tanınmış ərazilərinin işğalı zamanı əsir-girov götürülmüş, onlara qarşı münasibətdə bütün insani dəyərlər və beynəlxalq humanitar hüquq normaları pozulmuş şəxslərin bir qisminin ifadələri toplanmışdır. Bu ifadələri təqdim edərək, onların müəlliflərinə qarşı ən alçaldıcı cinayətləri törətmiş Ermənistan Silahlı Qüvvələri hərbçilərinin, erməni terrorçu-quldur birləşmələrinin və nəhayət, Ermənistanın siyasi-cinayətkar rejiminin mühakiməsini beynəlxalq ictimaiyyətin öhdəsinə buraxırıq.

1988-1993-cü illərdə işğal edilmiş Azərbaycan əraziləri

Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının **Dağlıq Qarabağ** ərazisi və onun ətrafındakı **7 inzibati rayon** işğal altına düşmüşdür:

Dağlıq Qarabağ: işğal tarixi – 1988-1993-cü illər, ərazisi 4400 km^2 (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut).

Laçın rayonu:	işğal tarixi	– 18 may 1992-ci il,	ərazisi – 1875 km^2
Kəlbəcər rayonu:	işğal tarixi	– 2 aprel 1993-cü il,	ərazisi - 1936 km^2
Ağdam rayonu:	işğal tarixi	– 23 iyul 1993-cü il,	ərazisi - 1154 km^2
Cəbrayıl rayonu:	işğal tarixi	– 23 avqust 1993-cü il,	ərazisi - 1050 km^2
Füzuli rayonu:	işğal tarixi	– 23 avqust 1993-cü il,	ərazisi - 1112 km^2
Qubadlı rayonu:	işğal tarixi	– 31 avqust 1993-cü il,	ərazisi - 826 km^2
Zəngilan rayonu:	işğal tarixi	– 29 oktyabr 1993-cü il,	ərazisi - 707 km^2

I FƏSİL

Ermənistan Silahlı Qüvvələri tərəfindən Azərbaycan Respublikası ərazilərinin işğalı zamanı əsir-girov götürülmüş və sonradan azad edilmiş azərbaycanlıların ifadələrindən:

Abbasov Adil Əsəd oğlu – 1958-ci ildə Azərbaycan Respublikası Ağdam rayonu, Qiyaslı kəndində doğulmuşdur. 1993-cü ilin iyun ayında girov götürülmüş, iyul ayında azad olmuşdur. İfadəsində bildirmişdir:

1993-cü il iyun ayının 23-də şəxsi təsərrüfatına aid xırdabuynuzlu ev heyvanlarını satmaq məqsədi ilə Qəbələ rayonuna aparmış, lakin geri qayıdarkən yaşadığı Qiyaslı kəndinin sakinlər tərəfindən tərk edildiyini görmüşdür. Atəş səsləri eşitdiyi üçün "Jiquli" markalı şəxsi maşını ilə kənddən çıxmaq istəyərkən Ermənistan hərbçiləri tərəfindən girov götürülmüşdür. Onu polkovnik Troqasyan Artur adlı Ermənistan hərbçinin komandir olduğu hissənin əsgərləri girov götürmüşlər. Üzərinə tökülüşən Ermənistan hərbçiləri əvvəlcə onu avtomatın qundağı və təpiklə vuraraq möhkəm döymüş, avtomobilini və pullarını əlindən almışlar. Sata bilmədiyi qoyunlar isə həyətində qalmışdır. Sonra onu Ağdam rayonunun Şahbulaq kəndinə apararaq yeməkxana binasına salmışlar. Binada həmkəndliləri – Hüseynov Süleyman Təhməz oğlu, onun iki övladı və anası Başxanım, Vəliyev İsa Hümbət oğlu, Qarayev Cəbrayıl Xasay oğlu və bir neçə qadın da olmuşdur. Orada Kamo və podpolkovnik rütbəli Artur adlı Ermənistan hərbçiləri girovları möhkəm döymüşlər. Onlar yaşlı bir qadının protez qızıl dişlərini çıxarıb götürmüş, Cəbrayılın bədəninə yanar siqaretlə dağ basmış, Əliyev Yaqub İsfəndiyar oğlunun gözünü partlatmışlar. Yaqub müəllim döyülməkdən hərəkət edə bilmədiyi üçün onu ayaqyoluna Adil Abbasov aparırmış. Ancaq ona kömək etdiyinə görə A.Abbasov ermənilər tərəfindən möhkəm döyülmüşdür. Kamo və Artur təpiklə vuraraq burnunu və qabırğalarını sındırmış, bıçaqla kürəyinə və alnına xaç şəkli çəkmişlər. Artur, əsasən, əsir-girovları döyməklə məşğul idi. Adil Abbasovu, Cəbrayılı, Süleymanı və onun övladlarını doğma kəndlərinə – Qiyaslıya apararaq zorla evlərin qarət edilməsində işlətmiş, evlərin əşyalarını Şahbulaq kəndinə daşıtdırmışlar. Şahbulaqda saxlandıqları beş gün müddətində girovlar evlərin qarət olunmasına cəlb edilmişlər. Beş gündən sonra onları Ağdamın daş karxanasına aparmışlar. Bir müddət də orada işlədildikdən sonra Maqsudlu kəndinin sahibsiz evlərinin qarətinə cəlb edilmişlər. Evləri əsir-girovlara zorla əşyaları maşınlara yığdırmışlar. Onun tanımadığı əsir-girovlar da evləri qarət etmək üçün oraya gətirilmişlər. Adilgilə onlarla danışmağa icazə verməmişlər. Yerevandan gəlmiş bir hərbçi Qarabağın ermənilərə məxsus olduğunu deyərək, Adil Abbasovu ağaca bağlayıb ağzındakı 16 ədəd qızıl dişini mismar kəlbətini ilə çıxardığı üçün o, huşunu itirmişdi. Bütün günü işlədilmələrinə baxmayaraq, əsir-girovları ac-susuz saxlayırmışlar. Təxminən 15 gündən sonra Adil Abbasovu və Cəbrayıl Qarayevi yenidən Qiyaslı kəndinin evlərini qarət etməyə aparmışlar. Kənddə olarkən Ermənistan hərbçilərinin başlarının qarışıq olduğunu görən Adil Abbasov Cəbrayıla qaçmağı təklif etmişdir. Cəbrayıl Qarayev ermənilərin onları öldürəcəyindən ehtiyat edərək razı olmamışdı. Adil Abbasov isə əlinə düşən fürsətdən istifadə edərək qaçmışdır. Təxminən 150 metr qaçdıqdan sonra ermənilər tərəfindən axtarıldığını anlayıb həmkəndlisi Bəhramgilin hovuzunda giz-

lənmişdir. Gündüz saat 12-dən axşam 24-dək gizləndikdən sonra hovuzdan çıxmışdır. Bu vaxt digər həmkəndlisi Surxay kişinin meyitini görmüşdür. Surxay kişini avtomatla güllələyib öldürmüşdülər. Adil Abbasov əlinə bel götürərək kanalın kənarı və üzüm bağlarının içi ilə getmişdir. Həmin yerdən təxminən 500 metr aralıqda daha iki nəfər yaşlı mülki şəxsin də qətlə yetirildiyini görmüş, lakin onları tanıya bilməmişdir. Dörd gecə Bərdə istiqamətində yol getdiyini zənn etsə də, Füzuli rayonunun Göytəpə kəndi ərazisinə gəlib çıxmış və orada əsgərlərlə qarşılaşmışdır. Əvvəlcə Azərbaycan və rus dilində sözlər və atəş səsləri eşidib kolluqda gizlənmişdir. Əsgərlər əvvəlcə qumbara atmaq istəmiş, lakin onlardan biri Adilin əlindəki beli yerə atdığını görüb, kənddən kiminsə qaçdığını söyləyərək "Yəqin bizimkidir," – demişdir. Adil Abbasov gizlənməyin mənasız olduğunu görüb kolluqdan çıxmış və beləliklə, girovluqdan azad olmuşdur.

Abbasov Araz İsmi oğlu – 1973-cü ildə Azərbaycan Respublikası Ucar rayonu, Lək kəndində doğulmuşdur. 5 iyun 1993-cü il tarixdə əsir götürülmüş, 24 avqust 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü il iyun ayının 5-də Ağdam rayonu, Şelli kəndində yaralı vəziyyətdə əsir götürülmüşdür. O, əsir götürülərkən ağır yaralı olan üç döyüş yoldaşı Ermənistan hərbçiləri tərəfindən amansızcasına güllələnmişlər. Onu isə əvvəl Xocalı rayonu, Naxçıvanlı *(keçmiş Əsgəran rayonu, Naxçıvanik kəndi – tərt.)* kəndinə, oradan isə Xankəndi şəhərindəki Rusiyaya aid 366-cı alayın təcridxanasına aparmışlar. İki gün sonra Ağdam rayonu, Boyəhmədli kənd sakini Adıgözəlov Əhməd Hidayət oğlunu da onun saxlandığı kameraya gətirmişlər. Digər kameralarda da azərbaycanlı əsir-girovlar saxlanılırmış. Bir gün kameraya daxil olmuş Ermənistan hərbçiləri ondan meyxana *(Azərbaycan folkloruna məxsus musiqi növü. Əsasən zərb alətinin müşayiəti ilə iki və daha artıq meyxanaçı – yəni xüsusi istedadı olan şəxs – deyişmə şəklində bədahətən özünəməxsus tərzdə oxuyur – tərt.)* oxumasını tələb etmişlər. Oxuya bilmədiyi üçün ermənilərdən biri tapançanın dəstəyi ilə onun başından vurmuş və qan açılmışdır. Qanaxmanın qarşısını almağa və silməyə isə imkan verməmişlər. Ermənistan hərbçiləri alayın həyətində əkdikləri çoxlu miqdarda nəşə kollarına xüsusi qulluq göstərir, həyəti təmizlədərkən əsir-girovları nəşə kollarına toxunmağa qoymurmuşlar. Xankəndində 28 gün saxlanıldıqdan sonra onları Şuşa şəhərinin Kosalar kəndinə aparıb orada ot çaldırmışlar. Əsirlikdə olduğu müddətdə Xankəndindəki 366-cı alayın təcridxanasında və işğal edilmiş Ağdam rayon Milis Şöbəsinin təcridxanasında saxlanılmışdır. Onunla birlikdə çoxlu sayda azərbaycanlı mülki şəxslər və hərbçilər də saxlanılırmış. Ermənistan hərbçiləri və mülki şəxslər onlara vəhşicəsinə işgəncələr verir, döyərək təhqir edirdilər. Yaralı olmasına baxmayaraq, Ağdam təcridxanasında da ona vaxtaşırı işgəncələr vermiş və döymüşlər. Ermənistan hərbçiləri Gəncədən və Ağdamdan olan üç əsiri burada vəhşicəsinə döymüş, Sumqayıtdan olan əsir İsayev Rauf Əhməd oğlunu isə daha çox döyərək ölümcül hala salmışlar. Ağdamlı Ələmşadın qızıl dişlərini vuraraq tökmüşlər. Bir girov kişini təhdidlə girov qadınları zorlamağa məcbur etmişlər. Keçmiş tabor komandiri, Xankəndi çörək zavodunun müdiri olmuş erməni bir qadınla təşkil etdiyi eyş-işrət məclisində Qəbələdən olan 19 yaşlı əsirin qulağını digər əsirlərin gözləri qarşısında bıçaqla kəsmişdir. Abbasov Araz İsmi oğlu 24 avqust 1993-cü il tarixdə əsirlikdən azad edilmişdir.

Abbasov Aydın Mehdi oğlu – 1932-ci ildə Xocavənd rayonu, Qaradağlı kəndində anadan olmuşdur. 17 fevral 1992-ci il tarixdə girov götürülmüş, 31 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Yaşadıqları Xocavənd rayonu, Qaradağlı kəndi 17 fevral 1992-ci il tarixdə Ermənistan Silahlı Birləşmələri və terrorçu-quldur dəstələri tərəfindən işğal edilərkən adi silahlarla müdafiə olunan 117 nəfər kənd sakini ilə birlikdə girov götürülmüşdür. Girovluqda saxlanıldığı müddətdə Ermənistan hərbçiləri adi mismar kəlbətini ilə ağzındakı bütün dişlərini çıxarmışlar. Gün ərzində müntəzəm olaraq huşunu itirənə qədər döymüşlər. Ayaq barmaqlarının arasına qaynar dəmir parçası qoyub barmaqlarını möhkəm sıxaraq kəndirlə bağlamış və uzun müddət bu vəziyyətdə saxlamışlar. Antisanitar şəraitdə saxlanıldıqları yerdə saqqalları uzandığı üçün əsir-girovları döyə-döyə bir-birinin saqqalını əlləri ilə yolmağa məcbur etmişlər.

Abbasov Ələmdar Məmmədvəli oğlu – 1946-cı ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 28 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Yaşadığı Xocalı şəhəri 25 fevral 1992-ci il tarixdə Ermənistan ordusu tərəfindən mühasirəyə alınaraq işğal edilmişdir. İşğal zamanı şəhər hər tərəfdən tanklar və toplarla atəşə tutulmuş, evlər və digər tikililər alışaraq yanmış, silahsız sakinlər şəhəri tərk etməyə başlamışdır. Bütün çıxış yolları Ermənistan hərbçiləri və terrorçu-quldur dəstələri tərəfindən tutulduğu üçün, əhali şəhərdən çıxmağa cəhd etdiyi bütün istiqamətlərdə atəşlə qarşılaşırdı. Ermənilər sakinləri addım-addım izləyir, qarşılarına çıxanı güllələyirdi. Ə.Abbasovun da olduğu sakinlərdən ibarət dəstə iki gün qarlı meşədə ac-susuz yol axtarandan sonra ermənilərin yaşadığı Dəhraz kəndinə gəlib çıxmış və kəndin yaxınlığında əllərində avtomat silahlar olan Ermənistan hərbçiləri onları girov götürmüşlər. Hərbçilərin arasında əvvəllər Sumqayıtda yaşamış erməni Serjik də olmuşdur. Əvvəlcə üst-başlarını axtarmışlar. Ermənilər Ələmdar Abbasovun və qardaşının üstündə olan qızıl əşyaları qarət etmişlər. Sonradan məlum olmuşdur ki, elə həmin gecə onun həyat yoldaşı da girov götürülmüş, ondakı qızıllar və 4 min manat pul Ermənistan hərbçiləri tərəfindən qarət edilmişdir. Sonra onları Dəhraz kəndindəki böyük bir tövləyə aparmış və iki gün orada saxlamışlar. Fermada 150 nəfər girov saxlanılırmış. Orada Xocalı camaatına görünməz dərəcədə zülm etmiş, uşaqları, qadınları, qocaları döyərək təhqir etmiş, ac-susuz saxlamışlar. Baş verənləri anlamayan uşaqların dəhşətdən gözləri böyümüşdü. Orada Ermənistan hərbçiləri 13 yeniyetmə oğlanı valideynlərindən zorla ayıraraq naməlum istiqamətdə aparmışlar *(Onların sonrakı taleyi barədə hazırkı vaxta qədər heç bir məlumat verilməmiş, hadisə beynəlxalq təşkilatlardan gizlədilmişdir – tərt.).* Onu 17 nəfərlə birlikdə Xankəndi şəhərinə aparmış və Milis idarəsinin təcrid-xanasına yerləşdirmişlər. Təcridxanada onlarla yanaşı, digər əsir-girovlar da saxlanırmış. Onlardan 56 nəfəri Xocalı şəhərinin, qalanları isə 17 fevral 1992-ci il tarixdə girov götürülmüş Xocavənd rayonunun Qaradağlı kəndinin sakinləri idi. Girovların saxlandığı tikilinin pəncərəsinin şüşələri olmadığı üçün bayırla içəridəki temperaturda heç bir fərq yox imiş. Əslində isə şüşələri ermənilər bilərəkdən vurub sındırmışdılar. Girovlara sutka ərzində 50 qram çörək verir, səbəbsiz yerə tez-tez döyüb incidirdilər. Hamı kimi Ələmdar Abbasova da işgəncə verirdilər. Martın 18-də, saat 09:00 radələrində ona və Salahov

Məhəmməd Əbdül oğluna onları dəyişməyə aparacaqlarını bildirmiş və mülki geyimdə olan ermənilər tərəfindən Əsgərandakı təcridxanaya aparılmışlar. Həmin gün saat 12:00-da o, gözətçilərdən onlara bir tikə çörək verməsini xahiş etsə də "Sizi dəyişəcəyik, özünüz də yeyib-içərsiniz", cavabını almışdır. Saat 14:00-da Ə.Abbasovu aparıb dörd nəfər xüsusi təyinatlı erməni milisinin olduğu otağa salmışlar. Onlar masa arxasında oturub yeyib-içirmişlər. Hətta qarşılarında tiryək də olmuşdur. Orada milislər Ə.Abbasovdan soruşmuşlar: "Qarabağ Azərbaycanındır, yoxsa Ermənistanın?", "Azərbaycanındır" cavabını aldıqdan sonra xüsusi təyinatlı milis nəfərinin dördü də ayağa qalxaraq onu vəhşicəsinə təpikləmişlər. O qədər vurmuşlar ki, huşunu itirmişdir. Sonra onlar Ə.Abbasovu bayıra çıxarıb soyundurmuşlar. Huşu özünə gələndən sonra yenidən təpiklə döymüş, siqaret yandırıb közünü bədəninə basmışlar. Elə vururmuşlar ki, futbol topu kimi yuxarı qalxırmış. Döyülməkdən onun iki qabırğası sınmış, böyrəkləri ağır zədələr almışdır. Döydükdən sonra onu huşsuz halda kameraya atmışlar. Ayılarkən Salahov Məhəmmədin onun paltarlarını geyindirdiyini görmüşdür. O, özünə gələndən sonra isə Məhəmməd Salahovu aparmış, təxminən 20 dəqiqə döyərək işgəncə verdikdən sonra kameraya gətirmişlər. Orada Yerevandan gəlmiş, hərbi geyimdə olan Manvel adlı erməni Ə.Abbasovu armaturla döymüş, bədəninin hər tərəfinə ağır zərbələr vurmuşdur. Zərbələrin təsirindən sağ qolu bir neçə yerdən, sol əlinin barmaqları və qabırğaları sınmışdır. Mart ayının 19-da, səhər girovlara 50 qram çörək və bir stəkan su vermişlər. Döyülməkdən ağızları şişdiyi üçün daş kimi olan çörəyi heç kim yeyə bilməmiş, yalnız su içmişlər. Həmin gün təxminən saat 14:00-da onu yenidən ayrıca bir otağa aparmışlar. Andranikin *(Ozanyan Andranik Torosoviç – 1918-1920-ci illərdə Türkiyədə, Azərbaycanda və indiki Ermənistan ərazisində türk-müsəlman əhalinin soyqırımına rəhbərlik etmiş erməni general – tərt.)* divardan asılmış şəklini göstərərək onu tanıyıb-tanımadığını soruşmuş, Ə.Abbasovu "azərbaycanlılar Andranikin ayıb yerlərini yeyirlər" deməyə məcbur etmiş, demədiyi üçün ağır çəkmələri ilə təpikləmiş, əllərinə daş alaraq amansızcasına döymüşlər. Martın 21-də azərbaycanlıların milli bayramı – Novruz bayramı günü Qarik və Manvel adlı ermənilər onu o qədər şiddətlə döymüşlər ki, bütün günü huşsuz halda qalmış, Məhəmməd Salahovun isə böyrəklərinə və başına çəkmə ilə o qədər vurmuşdular ki, o, bir daha özünə gəlməmiş və 24 mart 1992-ci ildə Ə.Abbasovun qucağında ölmüşdür. Martın 26-da Ə.Abbasovu milis rəisinin müavininin yanına aparmışlar. Onun vəziyyətini görəndə: "Bunun qardaşı və oğlu da buradadır, bunu bu vəziyyətdə qəbul edə bilmərəm", – deyərək onu saxlamaqdan imtina etmişdir. Mülki geyimli Robik adlı erməni onu oradan öz evinə aparmış, növbəti gün səhər Əsgərana, oradan da Ağdam istiqamətindəki posta gətirərək Azərbaycan hərbçilərinə təhvil vermişdir. Azad olunarkən rast gəldiyi xarici jurnalistlər ona yardım etmişlər.

Abbasova Göyçək Qabil qızı – 1966-cı ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 1992-ci il fevral ayının 25-də girov götürülmüş, 28-də azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci il fevralın 25-dən 26-na keçən gecə, təxminən saat 23:00 radələrində iki uşağı və qaynı Süleyman Abbasovla birlikdə evlərində olmuşlar. Qəflətən atışma başlamış, şəhər hər tərəfdən atəşə tutulmuşdur. Süleyman bayıra çıxmış, 5-10 dəqiqədən sonra qayıdaraq ermənilərin şəhəri mühasirəyə aldığını və uşaqları götürüb tez evdən

çıxmağın lazım olduğunu demişdir. Onlar uşaqları götürüb şəhər orta məktəbinin binasına getmişlər. Əhali bir-birinə qarışmış, qadınlar, uşaqlar qışqırır, atəş səsləri isə güclənirdi. Şəhər əhalisi hər tərəfdən mərkəzə sıxışdırılırdı. Tanklar, zirehli döyüş maşını, piyadaların döyüş maşını (PDM) və üzərində zenit-raket kompleksləri quraşdırılmış digər hərbi texnika dayanmadan atəş yağdırırmış. Şəhərə yalnız Ermənistan hərbçiləri deyil, həm də ruslar hücum edirdi. Ruslar açıq şəkildə öz dillərində danışırdılar. Təxminən gecə saat 02:00 radələrində məktəbin ətrafına yığışanlar da şəhəri tərk etməyə başladılar. G.Abbasovanın olduğu dəstə şəhərin aşağı tərəfindən asfalt və dəmir yolunu keçərək ermənilərin yaşadığı Kətik kəndi istiqamətində meşəyə girmişlər. Dağlıq ərazidə xeyli yuxarı qalxdıqdan sonra sol tərəfə, Ağdam şəhəri istiqamətində getməyə başlamışlar. Onlar meşədən baxarkən Xocalı şəhərinin hər tərəfindən alov qalxdığının şahidi olmuşlar. İşıq düşdükcə ətrafa qaçan adamların atəş nəticəsində yerə sərildiyi görünürmüş. Naxçıvanlı kəndinin aşağı tərəfi istiqamətində meşədən çıxmaq istəyirmişlər ki, qəflətən hər tərəfdən atəşə tutulmuşlar. Təxminən 50-60 silahlı erməni onlara yaxınlaşaraq girov götürmüş və onlarla getməyi tələb etmişlər. Girovların arasında 13 qadın da olmuşdur. Onları Əsgəran rayonuna aparıb 12 metr uzunluğu olan zirzəmiyə salmış, iki gün ac-susuz saxlamış, qadınların başına hər cür oyunlar açmışlar. Yalnız uşaqlara acından ölməmək üçün bir parça çörək və neftli vedrədə su verirmişlər. Ayın 28-də onları buraxacaqlarını deyərək, Ağdam istiqamətindəki posta gətirib, azad etmişlər. Ancaq aralarında olan 3 nəfər gənc gəlini isə buraxmamışlar. Onlardan birinin adı Elza imiş. Ermənilər girovlara deyirmişlər ki, sizin hamınızı qıracağıq.

Abbasova Humay Müseyib qızı – 1930-cu ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 1992-ci ilin fevral ayının 25-də girov götürülmüş, mart ayının 2-də azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan hərbçiləri Xocalıya hücum edən zaman o, həyat yoldaşı Ümidvar ilə evdə, oğlanları Taleh və Vəliyəddin isə Xocalı şəhərini müdafiə etmək üçün postlarda olmuşlar. Əhalinin bir hissəsi ilə birlikdə onlar da yaxınlıqdakı beşmərtəbəli binanın zirzəmisinə girmişlər. Orada xeyli Xocalı sakini olmuşdur. Bir müddət zirzəmidə qaldıqdan sonra artıq gözləməyin mənasız olduğunu görüb meşəyə doğru qaçmışlar. Yolun kənarında və meşənin içində xeyli meyitlər var imiş. Onlar meşə ilə qaçarkən meyitlərin üstündən atılıb keçməli olurmuşlar. Bir müddət meşədə gizləndikdən sonra Əsgəran rayonu tərəfə getməyə məcbur olmuşlar. Bu vaxt qaçanları görən Ermənistan hərbçiləri onları girov götürmüşlər. Əvvəlcə girovları qarət etmiş, pullarını və sənədlərini zorla almış, kişiləri döyməyə başlamışlar. Onun həyat yoldaşı Ümidvarın çənəsini qırmışlar. Sonra girovları maşınlara doldurub Əsgərana aparmışlar. Yolda maşını saxlayıb iki sakini öldürərək, qollarını bədənlərindən ayırmışlar. Sonra bir neçə cavan oğlanı da maşından düşürüb avtomatla güllələmişlər. Digərlərini isə yenidən maşına mindirib Əsgərana aparmışlar. Orada kişiləri ayrı, qadınları ayrı kameralara salmışlar. Ermənilər girovları rezin dəyənəklə, təpik və avtomatın qundağı ilə vəhşicəsinə döymüşlər. Cavan qız-gəlini aparıb zorladıqdan sonra gətirmişlər. Camaata dözülməz əziyyət və işgəncələr vermişlər. Ermənilər ac-susuz qalan uşaqların davamlı ağlamasına da əhəmiyyət vermir, yaşlı qadınları da döyür, təpikləyirdilər. Girovluqdan azad olunandan sonra xeyli vaxt özlərinə gələ bilmir, hamısı dəhşət, qorxu

və stresdən keyləşmiş, şok vəziyyətində olmuşlar. Humay gecələr qorxudan yata bilmirdi. Gözünü yuman kimi o qorxunc hadisələr gözləri önünə gəlir, qışqırıb ayılırdı.

Abbasov İdris Qaraş oğlu – 1936-cı ildə Azərbaycan Respublikasının Laçın rayonu, Pircahan kəndində doğulmuşdur. 18 may 1992-ci il tarixdə girov götürülmüş, 21 may 1992-ci il tarixdə azad olmuşdur. İfadəsində bildirmişdir:

Azərbaycan Respublikasının Laçın rayonunun Ermənistan Hərbi Qüvvələri tərəfindən işğalı zamanı 30 nəfər erməni hərbçi tərəfindən girov götürülmüşdür. Onu Laçın rayonunun işğal edilmiş Qaladərəsi kəndinə apararaq möhkəm döymüşlər. Oraya daha 7 nəfər girov da gətirmişlər. Girovları 8 saat orada saxladıqdan sonra Xankəndi şəhərinə aparıb maşın qarajına salmışlar. Ermənistan hərbçiləri onları döyür, işgəncə verirmişlər. Ağanis kəndində saxlanılarkən hərbçilər onun qızıl dişlərini adi mismar kəlbətini ilə çıxarmış, avtomatın qundağı ilə möhkəm döymüşlər. Sağ gözündən elə zərbə endirmişlər ki, hələ də gözündə tor var və görmə qabiliyyətini, demək olar ki, itirib. Möhkəm döyülməkdən vəziyyəti ağırlaşan İdris Abbasovu axşam hava qaralanda qarajdan çıxarıb tanımadığı yerə aparmış, beşmərtəbəli binanın ikinci mərtəbəsində bir evə salaraq qapını bağlamışlar. Böyrəyinin ağrısından tərpənə bilmədiyi üçün təxminən bir günə yaxın yıxılıb qalmışdır. Orada onunla maraqlanan olmadığı üçün, bir az özünə gələn kimi ayağa qalxmışdır. Divardan tuta-tuta eyvana tərəf gedərkən eyvanın qapısının açıq olduğunu görmüşdür. Bütün gücünü toplayıb eyvana çıxmış və gizlincə aşağı düşmüşdür. Gizlənə-gizlənə qaçmağa başlamış, lakin vəziyyəti ağır olduğu üçün tez-tez dayanmalı olmuşdur. Ancaq "Ya ölmək, ya xilas olmaq!" – deyərək son gücünü toplamış, qaçaraq Ağdam rayonunun işğal olunmamış ərazisinə keçmiş və azad olmağı bacarmışdır.

Abbasov Natiq Əliş oğlu – 1969-cu ildə Azərbaycan Respublikası Beyləqan rayonu, Gödəklər kəndində doğulmuşdur. 23 sentyabr 1993-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan ordusunun növbəti hücumu zamanı, 1993-cü il sentyabr ayının 23-də Beyləqan rayonundan olan hərbçilər – Pəsiyev Rizvan Salam oğlu, Camalov Fədai İsmayıl oğlu, Şükürov Fariz Teyyub oğlu, Məmmədov Anar Zakir oğlu, İsmayılov Ələddin Məmmədxan oğlu, Qarayev Namiq Cavanşir oğlu, Əhmədov Amil Əhməd oğlu, Həsənov Rasim Əşrəf oğlu, İlqar və adını xatırlamadığı daha beş döyüş yoldaşı ilə birlikdə "Haramı düzü"ndə əsir götürülmüşlər. Ermənistan hərbçiləri onları möhkəm döymüş və Xocavənd rayonundakı qərargaha aparmışlar. Orada onlardan başqa 7-8 nəfər əlavə əsir-girov da olmuşdur. Qərargahda saxlandıqları dörd gün müddətində rezin dəyənəklərlə, armatur və kabellə hər axşam döyülmüşlər. Sonra Natiq Abbasovu 15 əsirlə birlikdə Şuşa şəhərindəki həbsxanaya aparmışlar. Orada yeni gətirilənlərdən başqa təxminən 30 nəfərdən artıq əsir-girov da saxlanılırmış. Hərbi əsirləri ayrı, girovları ayrı kamerada yerləşdirmişlər. Hərbi əsirlərdən Yardımlıdan Ağayev Nurəddin Yaşar oğlu, Cəbrayıldan Verdiyev Camal Soltan oğlu, Füzulidən Qafarov Rauf Şəmsəddin oğlu, Siyəzəndən Qəniyev Ariz Məhərrəm oğlu, Salyandan Eminov Vüqar Əhməd oğlu, Ələkbərov Qaraxan Bayram oğlu, Cəfərov Mübariz Qara oğlunu xatırlayır. Şuşa türməsində hər gün yeyib-içərək sərxoş vəziyyətdə olan Ermənistan hərbçiləri əsir-girovları yerə uzadır, bellərini tapdalayır, sonra növbə ilə rezin dəyənəklərlə, ağacla, kabellə, armaturla döyürmüşlər.

Döyülməkdən huşunu itirənləri sürüyüb kameraya atırmışlar. Əsirləri tikinti işlərində dayanmadan işlədir, döyə-döyə odun doğradır, təlim görmüş itləri tez-tez üstlərinə buraxaraq, dəhşətli işgəncələr və əzab-əziyyət verirmişlər. Altı-yeddi aydan sonra onların yanına gətirilmiş və əslən Bakı şəhərindən olan əsir 2-3 aydan sonra işgəncələrə dözməyərək özünü elektrikə verərək intihar etmişdir. Onun meyitini Şuşa qəbiristanlığında əsirlərə dəfn etdirmişlər. İlqar adlı digər bir əsiri isə işgəncə verdikdən sonra itlərə yedirtmişlər. Heç bir tibbi yardım göstərilmədiyi üçün İlqar əzablar içində ölmüşdür. Əsir-girovları Xankəndinə apararaq, tikinti işlərində və küçələrdə işlədirmişlər. Belə günlərin birində bir neçə əsiri Füzuli rayonuna apararaq, rayon mərkəzindəki qəbiristanlıqdan sökülmüş başdaşı və sinə daşlarını maşına yüklətmiş və Şuşa şəhərinə gətirmişlər. Eşitdiyinə görə, həmin daşlardan erməni məzarlarının tikintisində istifadə edirmişlər. Bir müddət sonra Natiq Abbasovu, kəlbəcərli Abutalıbov Mikayıl Musa oğlu, bakılı Aydınla birlikdə işğal edilmiş Xocalı şəhərinin ərazisində tərəvəz əkib-becərməyə aparmışlar. Orada 23 ay qaldıqdan sonra nəzarətçini qəfildən vuraraq əl-qolunu bağlayıb qaçmışlar. 12 gün gizli hərəkət etdikdən sonra Kəlbəcər rayonunun tanımadığı kəndinə gəlib çatmışlar. Orada Mikayıl onlara kəndin kənarında gözləməyi təklif etmiş və təkbaşına kəndə girib Ermənistan hərbçilərinin olub-olmadığını öyrənəcəyini bildirmişdir. Mikayıl kəndə girmiş, ancaq geri qayıtmamışdır. Onlar dörd saat Mikayılı gözlədikdən sonra məcbur olub yollarına davam etmişlər. Gecənin yarısı, təxminən saat 3 radələrində, Aydın sürüşüb uçuruma düşmüş və əl-ayağı sınmışdır. Onu yalnız səhərə yaxın tapan Natiq Abbasov daşların arasında gizlətmişdir. Razılaşmışlar ki, Natiq irəli getsin, əgər çıxış yolunu tapsa, gəlib Aydını da aparsın. Ancaq Aydından aralandıqdan təxminən bir saat sonra Ermənistan hərbçiləri Natiq Abbasovu yenidən tutmuş və Şuşa həbsxanasına qaytarmışlar. Orada qaçmağa cəhd etdiyi üçün ona daha dəhşətli işgəncələr vermişlər. Sonralar o, BQXK-nın nümayəndəsindən ermənilərin Aydını da tapıb Xankəndinə apardıqlarını eşitmiş, amma sonrakı taleyindən xəbərsiz olmuşdur. Natiq Abbasov Rusiyanın vasitəçiliyi ilə əldə edilmiş razılığa uyğun olaraq, 10 may 1996-cı il tarixdə azad edilmişdir.

Abbasov Oqtay Məmmədhəsən oğlu – 1949-cu ildə Azərbaycan Respublikası Zəngilan rayonu, Mincivan kəndində doğulmuşdur. 1991-ci il sentyabr ayının 11-dən 12-dək Ermənistanda girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

1991-ci il sentyabrın 11-də gecə Culfa dəmiryol stansiyasına doğru hərəkət edən yük qatarını müşayiət edirmiş. Mincivana qayıdarkən Ermənistan ərazisindəki Astazur stansiyasında qatarı dayandırmışlar. Oqtay Abbasov və iş yoldaşları – Abasquluyev Bayram Abbasqulu oğlu, Əsgərov Səmiyəddin Əsgər oğlu Ermənistanın milis işçiləri və silahlı terrorçu-quldur dəstəsi tərəfindən qatardan endirilərək, tərksilah edilmiş və girov götürülmüşlər. Girovları Ermənistan Respublikası Mehri şəhərinin Milis idarəsinə gətirmişlər. Orada girovları meydanda toplaşmış kütlənin əlinə vermişlər. Gözü qızmış kütlə və milis əməkdaşları onları vəhşicəsinə təpiklədikdən sonra döyə-döyə Milis idarəsinə salmışlar. İdarədə də milis əməkdaşları onları döyərək üstlərində qiymətli nə varsa, hamısını almışlar. Sonra onların üçünü birlikdə təkadamlıq kameraya salmışlar. Oraya yan-yana güclə yerləşirmişlər. Milis idarəsinə daxil olan hər kəs, istər mülki olsun, istərsə də milis əməkdaşı, mütləq onları təpikləyir, nalayiq söyüşlərlə təhqir edirmiş. O

qədər döyülmüşlər ki, saxlanıldıqları kameranın döşəməsi tamam qan içində imiş. Hər 10-15 dəqiqədən bir girovları araya atıb təpik və yumruqla döyür, sonra yuyunmağa aparır və təkrar döyürmüşlər. Hətta Milis idarəsində saxlanılan cinayətkarları da dəhlizə çıxarıb girovları döyməyi əmr edirmişlər. Vurulmuş zərbələrin nəticəsində O.Abbasovun sol və sağ qabırğaları sınmış, kəllə sümüyü ağır zədələnmişdir. Aldığı xəsarətlər ona indi də əziyyət verir.

Abbasov Qədim Məmmədvəli oğlu – 1942-ci ildə Azərbaycan Respublikasının Kəlbəcər rayonunda doğulmuşdur. 28 fevral 1992-ci il tarixdə girov götürülmüş, 12 aprel 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

25 fevral 1992-ci il tarixdə Xocalı şəhəri Ermənistan Hərbi Qüvvələri tərəfindən işğal edilən vaxt bütün sakinlər kimi, o da şəhəri tərk etməyə məcbur olmuşdur. Əsgəran rayonunun Dərələr kəndinin yaxınlığında yerləşən meşəyə doğru hərəkət edən bir dəstə sakinə qoşularaq gecəni meşədə qaldıqdan sonra növbəti gün, fevral ayının 27-dən 28-nə keçən gecə Ağdam istiqamətində getməyi qərara almışlar. Ancaq bir az getdikdən sonra qəfildən Ermənistan ordusunun hərbçiləri tərəfindən mühasirəyə alınmışlar. Mühasirə zamanı ermənilərin atdığı güllə Vəliyev Şahmarın bacısının ağzından dəyib beyin hissəsindən çıxmış və nəticədə o, ölmüşdür. Qonşuları Aslan kişinin oğlu Oruc və digər sakin Mehti də qətlə yetirilmişdir. Girov götürüldükləri zaman dəstədə təxminən 120 nəfər olmuşdur. Girovları oradan Dəhraz kəndinə gətirib tövləyə salmışlar. Növbəti gün səhər tezdən erməni hərbçi, polkovnik Qariginyan Razmik Ralaisoviç saxlanma yerinə gələrək, "Əvvəl qardaş idik, indi düşmənik. Mən heç nə edə bilmərəm", – demişdir. Qədim Abbasov Qariginyanı 1969-cu ildən tanıyırdı. O, Xankəndində dövlət yol milisinin rəisi işləyirdi və azərbaycanlıların evində çoxlu çörək kəsmiş, qonaq olmuşdu. İndi isə üzü dönmüşdü. Saxlanıldıqları tövlədə xeyli sayda girov varmış. Cavanları nə qədər çox döyürdülərsə, yaşlılara və qadınlara da bir o qədər zülm edirmişlər. Uşaqlar acından və qorxudan qışqırıb ağlayırdılar. Ermənistan hərbçiləri girovların arasında olan 13 nəfər yeniyetmə və gənc oğlanı seçib zorla doğmalarından ayıraraq naməlum istiqamətdə aparmışlar. Aparılmış həmin şəxslər barədə bu vaxta qədər heç bir məlumat verilmir. Onları tövlədən çıxararkən aralarında olan Usubəlinin balaca qızı qaçaraq atasının boynuna sarılmışdır. Ermənistan hərbçiləri isə zorla və vəhşicəsinə uşağı onun boynundan ayırıb yerə atmış və Usubəlini aparmışlar. Onları aparandan sonra girovlar güllə səsləri eşitmiş, eyni zamanda "UAZ" markalı maşının kənd istiqamətində hərəkətə başladığını da görmüşlər. Elə həmin gün Q.Abbasovu 18 nəfər kişi ilə birlikdə digər girovlardan ayıraraq, Xankəndi şəhərindəki təcridxanaya aparmışlar. Orada bir kamerada 9 nəfər saxlanılırdı. Əsir-girovlara qarşı qeyri-insani rəftar isə davam edirdi. Sol çiynindən və hər iki ayağından yaralı olan İlqarın qızıl dişlərini mismarla çıxarmışlar. Yaralı olmasına baxmayaraq, onu dəyənək, təpik, əllərinə keçən nə varsa onunla döymüşlər. Girovlara hətta bir içim su da verməmişlər. İlqar mart ayının 16-da ac-susuz, taqətsizlikdən və döyülməkdən ölmüşdür. Ermənilər Nəbiyev Niftalı İbad oğlu, Ağayev Səttar Muxtar oğlu, Aslanov Qəyyum Bəhram oğlu və Əlinin qızıl dişlərini ucu əyilmiş yüzlük mismarla dartıb çıxarmışlar. Q.Abbasovun və Hacıyev Qənahət Məmmədəli oğlunun əl-qollarını bağlamış, dəfələrlə yuxarı qaldırıb yerə çırpmışlar. Ayaqlarını o qədər təpikləmişlər ki, keyləşmiş və hissiyyatını itirmişdi. Qədimin sinəsini təpikləyərək

döş qəfəsini və qabırğalarını qırmışlar. İndiyədək o, zərbələrin ağrısını çəkir. Ayaqlarında hələ də işgəncə izləri qalır. Novruz bayramı günlərində, martın 21-22-də girovları o qədər döymüş və işgəncə vermişlər ki, üç gün yerlərindən qalxa bilməmişlər. Onları ağacla, bel sapı ilə, avtomat qundağı ilə döymüşlər. İşgəncələr Xankəndi milisinin əməkdaşı Roma adlı ermənininin rəhbərliyi ilə verilmişdir. 1992-ci il mart ayının 26-da BQXK girovları qeydiyyata almışdı. 1992-ci il aprelin 12-də Q.Abbasovu 11 nəfər girovla birlikdə Ağdam rayonu ilə Əsgəran rayonu arasındakı məntəqədə azad etmişlər.

Abbasov Rasim Tofiq oğlu – 1975-ci ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. 6 avqust 1994-cü il tarixdə əsir götürülmüş, 27 oktyabr 1995-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Füzuli rayonu, Horadiz kəndinin müdafiəsi zamanı qəlpə yarası alaraq huşunu itirmiş, ayılanda Ermənistan ordusu tərəfindən əsir alındığını görmüşdü. Oradan onu Yerevan şəhərinə apararaq, Milli Təhlükəsizlik Nazirliyinin istintaq təcridxanasının zirzəmisindəki balaca, qaranlıq kameraya salmışlar. Hər gün onu dindirir, qeyri-müəyyən, çaşdırıcı suallar verir, cavab verməyəndə döyür, üzərində eksperiment aparacaqları ilə hədələyirmişlər. Bərbad halda olan istintaq təcridxanasına elektrik enerjisi də verilmir, xəstələnəndə ona baxmır, həkim müayinəsi belə təyin edilmirmiş. Onu iki gündən bir əlləri bağlanmış vəziyyətdə kətillə, rezin dəyənəklə, lomla döyür, zirzəmiyə su buraxaraq orada saxlayırdılar. Erməni zabitin tapançanın dəstəyi ilə vurduğu zərbənin izi hələ də alnında qalır. Əsasən hündürboylu, təlim keçmiş şəxslər işgəncə verirmiş. Saxlandığı yer tam qapalı imiş və bir il müddətində bir dəfə də günəş işığına çıxarılmamışdır. Ermənilər deyirmiş ki, onlarla əməkdaşlıq etməyənləri, istər qadın olsun, istərsə də uşaq və ya yaşlı, hamısını məhv edəcəklər. Onlar bu barədə xəbərdarlıq edərək, Rasim Abbasovdan Azərbaycanın hərbi qüvvələri haqqında məlumat istəyirmişlər. İşgəncə verildiyi barədə ona baş çəkən beynəlxalq təşkilatların nümayəndələrinə məlumat verəcəyi təqdirdə onu öldürəcəkləri barədə xəbərdar edirmişlər. Beynəlxalq təşkilatın nümayəndəsi onu qəbul edəndə isə Ermənistan hərbçilərinin biri otaqda qalırdı ki, guya əsir tərəfindən nümayəndəyə hücum ola bilər. Əslində isə hərbçi söhbəti dinləyirmiş. Rasim Abbasov 27 oktyabr 1995-ci il tarixdə əsirlikdən azad edilmişdir.

Abbasov Saleh Allahqulu oğlu – 1937-ci ildə Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, Ordubad rayonunun Gənzə kəndində doğulmuşdur. 1991-ci il oktyabr ayının 4-də girov götürülmüş, 27-də azad edilmişdir. İfadəsində bildirmişdir:

1991-ci il oktyabrın 4-də, axşam saat 21 radələrində yaşadığı evdən həyətə çıxarkən hərbi geyimli 18-19 yaşlı bir oğlanın həyətdə gəzdiyini görmüşdür. Ondan həyətdə nə axtardığını soruşanda, o, hərbçi olduğunu, düyü, yağ və kartof satdığını söyləmişdi. Onun almaq niyyətinin olmadığını görən oğlan, avtomobilinin hansısa hissəsinin sıradan çıxdığını, onu düzəltmək üçün ərzaq satdığını bildirmişdi. Bu vaxt həyətə çıxan həyat yoldaşı ondan kartof almasını təkid etmişdi. Hərbçi ərzağın maşında olduğunu söyləmiş və Saleh Abbasov kartof almaq üçün həyətdən təxminən 50-60 metr aralıda dayanmış "KAMAZ" tipli hərbi maşına tərəf getmişdi. Maşına çatanda orada təxminən 10 nəfərə yaxın silahlı hərbçinin olduğunu görmüşdür. Yaxınlaşarkən onların erməni olduqlarını

bilmiş və elə bu vaxt hərbçilərdən biri onunla gələnə ermənicə "Xıpı, pırnı" *(vur, tut – tərt.)* əmrini vermişdir. Bir neçə saniyə ərzində onu dövrəyə alıb yük maşınına atmışlar. Maşın hərəkət etməyə başlamış və hərbçilər tərpənəcəyi və səs çıxaracağı təqdirdə onu öldürəcəkləri ilə hədələmişlər. Maşını "Gədik" deyilən ərazidə saxlamışlar. Orada onları biri zabit, digəri isə əsgər olan iki rus hərbçi gözləyirmiş. "Salam təpəsi" adlanan dağ aşırımında ermənilər onu maşından endirərək özləri ilə aparmış, maşını isə rus hərbçilərinə təhvil vermişlər. Sonra təxminən 2-3 km. dərə ilə piyada aşağı enməyə başlamışlar. "Çuxur yatağı ovası" adlanan yerdə onları "UAZ" və "QAZ-69" markalı maşınlar gözləyirmiş. Erməni komandir orada hava rabitəsi ilə kiminləsə əlaqə yaradaraq: "Tutmuşuq, gətiririk", – demişdir. Bir saat ərzində ermənilər spirtli içki içib, yemək yeyəndən sonra Saleh Abbasovu maşına mindirib Ermənistanın Mehri rayonuna aparmış və Milis idarəsinə təhvil vermişlər. Ertəsi gün Milis şöbəsinin rəisi Jora Karapetyan Saleh Abbasovu görən kimi tanımışdı. Onunla Mehri rayon Milis şöbəsinin pasport-masa xidmətinin rəisi işlədiyi vaxtdan tanış imişlər. J.Karapetyan tez-tez girovun yanına gəlir, tezliklə buraxılacağını söyləyirmiş. Girovu 22-25 yaşlı bir hərbçi sorğu-suala tuturmuş. Saxlandığı 4 və ya 5-ci gün yanına gəlmiş kapitan rütbəli rus zabiti ona məktub yazıb ailəsinə sağ-salamat olmasını və işgəncələrə məruz qalmadığını bildirməsini təklif etmişdir. Bu, ermənilərin "KAMAZ" maşınını təhvil verdiyi həmin rus zabiti idi. Saxlandığı 11-ci gün onun yanına Naxçıvan Muxtar Respublikasının Şahbuz rayon sakini olan Telmanı və adını xatırlamadığı digər bir şəxsi də gətirmişlər. Onlar 48 günə yaxın Yerevan şəhərində beton qarajda saxlandıqlarını, yalnız quru çörək və su ilə qidalandıqlarını, hər gün döyülərək işgəncələrə məruz qaldıqlarını söyləmişlər. Adını xatırlamadığı əsirin dediyinə görə, ermənilər Telmana dizel yanacağı doldurulmuş iynə vurmuşlar. Bir müddət sonra Saleh Abbasovu və həmin iki əsiri azad etmişlər. Azad edildikdən sonra Telmanın vəfat etdiyini eşitmişdir.

Abbasov Salman Məşədi oğlu – 1940-cı ildə Xocalı şəhərində doğulmuşdur. 4 mart 1992-ci il tarixdə girov götürülmüş, 7 mart 1992-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Xocalı şəhərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən işğalı zamanı canını qurtarmaq məqsədi ilə sakinlərlə birlikdə şəhəri tərk etmişdir. Təxminən səksən nəfərlə birlikdə səkkiz gün Kətik meşəsində ac-susuz, üst paltarsız və ayaqyalın qalmışlar. Buna görə də onun və digərlərinin ayaqlarını don vurmuşdur. Ailə üzvləri də onunla olmuşdur. Acından ağacların, itburnu kollarının donmuş nazik budaqlarını yemişlər. Uşaqlar yemək istəyəndə qarı yumrulayıb verirmişlər ki, səslərini kəssinlər. Aclıq və soyuq adamları əldən salmışdı. Şiddətli qar yağırdı. Ermənilərin görə biləcəyindən ehtiyat edərək qızınmaq üçün ocaq qalaya bilmirdilər. Ermənilər işartı gələn bütün yerləri atəşə tuturdular. Təxminən 3-4 mart tarixində soyuğa dözməyərək, Ağdam istiqamətində hərəkət etmiş və mart ayının 4-də Əsgəran rayonunun Pircamal kəndində pusquda durmuş Ermənistan hərbçiləri tərəfindən mühasirəyə alınaraq girov götürülmüşlər. Girov götürülərkən onun gözləri qarşısında bacısı Abbasova Məryəm Məşədi qızını, 8 aylıq hamilə olan gəlini Abbasova Gülzar Gülalı qızını və 25 nəfərə yaxın dinc sakini güllələmiş, qalanları isə kəndin mal tövləsinə salmışlar. Orada yeddi nəfər cavan oğlanı da qabağa çıxararaq güllələmişlər. Onlardan 4 nəfəri Ahıska türkü *(Ahıska türklərinin bir qismi 1989-cu ildə*

Özbəkistanın Fərqanə vadisində baş vermiş etnik qarşıdurma nəticəsində Azərbaycana köçmüşlər – tərt.), 3 nəfəri isə yerli sakin olmuşdur. Ermənilər əsir və girovları gündə ən azı iki dəfə avtomatın qundağı, ağacla, təpik və yumruqla döyür, ağır işgəncələr verirmişlər. Döyülməkdən iki nəfər yaşlı adam ölmüşdü. Sonra girovların bir qismini Əsgəran rayonundakı həbsxanaya aparmışlar. Həmin gün erməni əsgərləri onu avtomatın qundağı və təpiklə xeyli döymüş, 4 qabırğasını sındırmış, yarıcan vəziyyətdə sürüyüb kameraya atmışlar. Martın 7-də, dəyişilməzdən əvvəl də onu aparıb xeyli döymüşlər. Adını bilmədiyi erməni avtomatın qundağı ilə donvurmadan qaralmış ayaq barmaqlarına elə güclü zərbə endirmişdir ki, iki barmağı qopub düşmüşdür. O, həmin anda huşunu itirmişdir. İşgəncə verənlər, əsasən Ermənistandan gəldiyi üçün S.Abbasov onları tanımırmış, həm də onlar qarabağlı ermənilərdən fərqli ləhcədə danışırmış. S.Abbasova və ailə üzvlərinə dəhşətli zülmlər etmişlər. Qızlarına isə daha çox əziyyət vermişlər. S.Abbasovun ayaqları şikəst olmuş, üç qızının ayaq barmaqları kəsilmişdir.

Abbasov Sərvər İdris oğlu – 1963-cü ildə Zəngilan rayonunda doğulmuşdur. 16 dekabr 1991-ci il tarixdə girov götürülmüş, 29 dekabr 1991-ci ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

16 dekabr 1991-ci il tarixdə Bakı-Şərur marşrutu üzrə hərəkət edən qatarla evlərinə gedərkən, Ermənistanın Mehri dəmiryol stansiyasında erməni terrorçu-quldur dəstələri tərəfindən girov götürülmüş, 28 dekabr 1991-ci il tarixədək Mehri rayon Milis idarəsində və Karçivan kəndində yaşayan Poqos adlı ermənin evinin zirzəmisində saxlanılmışdır. Ermənilər sərxoş vəziyyətdə ona hər gün fiziki və psixoloji işgəncələr vermiş, avtomatın qundağı ilə, əsasən, ürək və böyrək nahiyəsindən ağır zərbələr endirmiş, zirzəmidə əl və ayaqları zəncirlənmiş halda saxlamışlar. Azad edildikdən sonra girovluqda baş, ürək, böyrək, qol və ayaq nahiyələrindən aldığı zərbələr nəticəsində səhhətində ciddi problemlər yaranmış, mütəmadi müalicə kursları keçsə də, sağlamlığı bərpa olunmamışdır.

Abbasov Ümidvar Məşədi oğlu – 1930-cu ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 25 fevral 1992-ci il tarixdə girov götürülmüş, 19 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

"Xocalı" onun 1992-ci ilin fevral ayının 25-dək sevə-sevə işlətdiyi bir söz idi. Çünki bu, onun doğulub boya-başa çatdığı şəhərin adıdır. Amma indi Ümidvar Abbasov bu adı dilinə gətirə bilmir. Ona görə ki, həyatının ən ağır anlarının simvoluna dönüb Xocalı. 1992-ci il fevral ayının 25-də Ermənistan ordusu Rusiyanın Dağlıq Qarabağda olan 366-cı motoatıcı alayı ilə birləşərək Xocalı şəhərinə hücum etdi. Rusların ermənilərə kömək etdiyini şəhər sakinləri əvvəlcədən bilirdi. Çünki ermənilərin yaşadığı Xankəndi *(Dağlıq Qarabağda erməni separatizminin baş qaldırdığı 1988-ci ildən etibarən tarixən şəhərdə yaşayan azərbaycanlılar oradan zorla qovulmuşlar – tərt.)* şəhərindəki 366-cı Rusiya alayında erməni milliyyətli zabitlər çox idi. Məlumata görə, onların sayı 30-dan çox olmuşdur. Buna görə də sonuncu hücum baş tutana qədər gecələr Xocalını həmin alayın topları və tankları ilə atəşə tuturdular. Fevralın 25-də isə mənfur niyyətlərini həyata keçirmişlər. Həmin gecə Xocalı şəhəri Rusiya alayının köməyi ilə Ermənistan ordusu tərəfindən işğal olundu. Atəşin şiddətləndiyini görəndə o, sakinlərlə şəhərdəki beşmər-

təbəli binanın zirzəmisində gizlənmişdir. Lakin artıq erməni-rus tanklarının şəhərə girdiyini görüb, binadan çıxıb meşəyə qaçmağa məcbur olmuşlar. Hava çox soyuq idi. Bərk qar yağırdı. Hər tərəf meyitlərlə dolu olan meşədə yolu tapa bilmir, saatlarla ora-bura gedir, çıxış axtarırdılar. Meyitlərin bəzilərinin qanı buxarlanır, ancaq qısa müddətdə donurdu. Qaçmağa cəhd edən insanların əksəriyyəti nazik geyinmiş, başlarını örtə bilməmiş, qaçaqaçda ayaqqabılarını da itirmişdilər. Onlar ermənilərin yaşadığı Əsgəran rayonu istiqamətinə getməyə məcbur olmuşlar. Oraya yaxınlaşan kimi, onları girov götürüb Əsgəran rayonuna aparmış və möhkəm döyərək onun çənəsini sındırmışlar. Sonra kişiləri qadınlardan ayırmışlar. Onunla birlikdə 18 nəfər kişi saxlanılırmış. Yaşlı olmaqlarına baxmayaraq, Ermənistan hərbçiləri və quldur dəstələri hər gün onları rezin dəyənək, dəmir parçaları, yumruq, təpik və avtomat qundağı ilə döymüşlər. Kimin ağzında qızıl diş vardısa *(həmin dövrdə keçmiş Sovet İttifaqı ərazisində qızıl diş saldırmaq dəbdə idi – tərt.),* zorla küt alətlərlə çıxarmışlar. İşgəncələr nəticəsində girovluqdan azad olunandan sonra uzun müddət özünə gələ bilməmişdi. Ümidvar Abbasov 19 mart 1992-ci ildə azad edilmişdir.

Abbasova Nina Georgiyevna – 1937-ci ildə Rusiya Federasiyasının Kemerovo vilayətində doğulmuşdur. Milliyyətcə rusdur. 23 iyul 1993-cü il tarixdə girov götürülmüş, 25 iyul 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü il iyul ayının 23-də Azərbaycan Respublikasının Ağdam rayonu Ermənistan Silahlı Birləşmələri tərəfindən işğal olunan gün Abbasova Nina Georgiyevna həyat yoldaşı – 1930-cu il təvəllüdlü Abbasov Əli Rəsul oğlu ilə birlikdə girov götürülmüşdür. Girov götürülən kimi həyat yoldaşını dərhal ondan ayırmışlar. Nina onu bir də yalnız azad edildikdən sonra görmüşdür. Nina Georgiyevna girovluqda gördüklərini və yaşadıqlarını heç faşizmlə bağlı filmlərdə belə görmədiyini bildirir. Ermənistan hərbçiləri onun gözləri qarşısında Beyləqan rayonundan ailəsi ilə birlikdə girov götürülmüş müəllim – Sarıyev Əli Zöhrab oğluna dəhşətli işgəncələr vermiş, girov götürülmüş nişanlı qızı təhqir edərək zorlamışlar. Ağdam sakini olmuş Azərbaycan əsgərini döyə-döyə öldürmüşlər. Ermənilər əsir və girovlara qarşı çox qəddar davranırmış. Milliyyətcə rus olduqları üçün onlara baş çəkən BQXK-nın əməkdaşları Nina Georgiyevnaya və onunla birlikdə girov götürülmüş İmanova Lyubov Yakovlevnaya Rusiyaya getməyi təklif etmiş, lakin onlar imtina edərək Azərbaycanda qalmaq istədiklərini bildirmişlər. Rus milliyyətindən və qadın olmasına baxmayaraq, bir il girovluqda saxlandıqdan sonra Nina Georgiyevna 25 iyul 1994-cü il tarixdə azad edilmişdir. Həyat yoldaşı 65 yaşlı Abbasov Əli Rəsul oğlu isə daha bir il saxlandıqdan sonra 8 iyun 1995-ci ildə azad edilmişdir. Həyat yoldaşı girovluqda aldığı bədən xəsarətlərindən daim əziyyət çəkir, azad edildikdən sonra bütün gecəni sayıqlayır, özünə gələ bilmirdi. Bədənindəki yanıq izləri ona əziyyət verirdi. Verilmiş mənəvi və fiziki işgəncələrdən əzab çəkən həyat yoldaşı Abbasov Əli Rəsul oğlu bir il yaşadıqdan sonra 1996-cı ildə vəfat etmişdir.

Abasquliyev Bayram Abasqulu oğlu – 1961-ci ildə Azərbaycan Respublikası Zəngilan rayonu, Mincivan qəsəbəsində doğulmuşdur. 11-12 sentyabr 1991-ci il tarix-lərində girovluqda saxlanılmışdır. İfadəsində bildirmişdir:

1991-ci il sentyabrın 10-dan 11-nə keçən gecə Abbasov Oqtay Məmmədhəsən oğlu və Əsgərov Samiyəddin Əsgər oğlu ilə birlikdə girov götürülmüşdür. Onlar Azərbaycan Respublikası Dövlət Dəmiryolu İdarəsinin hərbiləşdirilmiş dəstəsinin əməkdaşları olmuşlar. Həmin gün onlar dəmiryolunun Mincivan stansiyasından qatarları müşayiət edib Culfa stansiyasına aparırmış. Qayıdarkən qatar Astazur stansiyasında ermənilər tərəfindən qeyri-qanuni saxlanılmışdır. Qatara "UAZ" markalı maşın yaxınlaşmış, içərisindən bir milis əməkdaşı və mülki geyimli şəxslər düşərək qatarı mühasirəyə almış və yoxlama aparmışlar. Mülki geyimli şəxs maşinist M.Məmmədova teplovozdakı şəxslərlə stansiya rəisinin otağında söhbət aparacağını demişdir. M.Məmmədov etiraz etdiyi üçün ermənilərdən biri ona şillə vurmuş və teplovoza daxil olmuşdur. Ermənilər B.Abasquliyevi, O.Abbasovu və S.Əsgərovu qatardan düşürmüş, sənədlərini və silahlarını götürmüş, maşına mindirib Mehri şəhərinə aparmışlar. Şəhərdə maşın ermənilər tərəfindən əhatəyə alınmışdır. Əllərində taxta parçası, dəmir dəyənək və digər metal parçalar olan ermənilər onları maşından düşürüb amansızcasına döymüş, işgəncələr vermişlər. Bayram: "Sizə heç nə etməmişik, niyə öldürürsünüz?" – deyə soruşanda, ermənilər: "Türksən, onun üçün ölməlisən", – demiş və onları daha şiddətlə döymüşlər. Sonra axan qanı təmizləmək üçün başlarını su ilə dolu vannaya salmış, kameraya aparmışlar. Kameradakı deşikdən küçəyə baxarkən, Bayram nə üçünsə tonqal qalandığını görmüşdür. Erməni dilini bilən Oqtay Abbasov tonqalın onlar üçün hazırlandığını eşitmişdir. "Türk! Türk!" – deyə bağıraraq içəri girən ermənilər Samiyəddinin çənəsinə və müxtəlif yerlərinə təpiklər vurmuşlar. Samiyəddinin çənəsi sınmış və o, zərbələrdən huşsuz halda yerə yıxılmışdır. Ermənilər onu sürüyüb yandırmaq üçün aparmaq istərkən, Oqtay və Bayram onu buraxmamağa çalışmış və hay-küy salmışlar. Onların harayına rəis gəlmiş, ermənilər uzaqlaşmışlar. Abasquliyev yandırılacaqlarını bilib əlini divardakı açıq elektrik xəttinə toxundurmuş, lakin cərəyan zəif olduğundan onu vurmamışdır. Bu vaxt bir erməni gəlmiş və Abasquliyevi idman zalına bənzər otağa salaraq, qapını bağlayıb getmişdir. Abasquliyev idman döşəyinin üstündə oturmaq istərkən, otağın küncündəki döşəklərin arxasından dörd erməni çıxaraq onu amansızcasına döymüşlər. Aldığı zərbələrdən Bayramın qabırğası və ayağı sınmış, başı və beli zədələnmişdir. Bir gündən sonra ermənilər girovları Astazur stansiyasına apararaq orada gözləyən M.Məmmədova təhvil vermişlər. Onları bu vəziyyətdə görüb dəhşətə gələn Məmmədov ermənilərə "Sizin insafınız yoxdur? Niyə bunları bu vəziyyətə salmısınız?" – deyə soruşarkən, ermənilər "Hələ sağ ol deyin ki, onları sizə gətirmişik, yandırmaq istəyirdik", – cavabını vermişlər.

Abdullayev Altay Qorxmaz oğlu – 1996-cı ilin 1 avqustunda əsir götürülmüş, 5 aprel 1997-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan Respublikası ilə sərhəd bölgəsində xidmət edərkən Qazax rayonu, Cəfərli kəndi istiqamətində əsgər yoldaşı Məliklə birlikdə Ermənistan hərbçiləri tərəfindən mühasirəyə alınaraq əsir götürülmüş, Yerevan şəhərinə aparılaraq qauptvaxtaya salınmışlar. Orada saxlanarkən mayor rütbəli erməni hərbçi ona davamlı olaraq fiziki, mənəvi və psixoloji işgəncələr vermişdir. Ermənistan Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasında saxlanarkən onu digər azərbaycanlı əsir və girovlardan ayıraraq ermənilərin saxlandığı kameraya salmışlar. Həmin kamerada saxlanıldığı bütün müddət ərzində Armen və Arsem adlı erməni məhbuslar ona dözülməz işgəncələr

vermişlər. Armen bütün sutkanı onu küncdə saxlayır və təpiklə başından davamlı vururmuş. Vurulan zərbələrdən o, tez-tez huşunu itirirmiş. Həmçinin, Gevorq adlı nəzarətçi müntəzəm olaraq onu dəhlizə çıxarıb rezin dəyənəklə döyürmüş. Altay Abdullayev 5 aprel 1997-ci il tarixdə azad edilmişdir.

Abdullayev Bəxşeyiş Məiş oğlu – 1956-cı ildə Azərbaycan Respublikası Laçın rayonu, Xələmlər kəndində doğulmuşdur. 1988-ci ilin sentyabr ayında girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

Həmin vaxt Əsgəran rayonunda gözətçi işləyirmiş. 1988-ci ilin sentyabrında Əsgəran rayonunun erməni milis əməkdaşları Sovet ordusunun hərbçiləri ruslarla birlikdə B.Abdullayevin idarə etdiyi maşını saxlayaraq zorla əlindən almışlar. Həmin gün erməni terrorçu-quldur dəstələri, eyni zamanda Xocalı şəhərinə də hücum etmiş, ot tayalarını və tikililəri yandırmışlar. Buna baxmayaraq, B.Abdullayev Xocalıya gedərək tanışı Təşəkkülə onu evə aparmasını xahiş etmişdir. Kəndə yaxınlaşarkən ermənilər onları saxlamışlar. Onu Təşəkkülün idarə etdiyi traktordan düşürmüş və əhatəyə alaraq əllərinə nə keçsə başına vurmuşlar. Bu vaxt Təşəkkül özünü traktordan atıb Xocalı tərəfə qaçaraq, canını qurtara bilmişdir. Qrişa, onun iki oğlu, Lyova və 15 erməni B.Abdullayevi Daşbulaq kəndinə apararaq, kolxoz idarəsinin zirzəmisində üç gün ac-susuz saxlamış, dözülməz işgəncələr vermişlər. Abo adlı kənd sakini isə vurub çənəsini sındırmışdır. Təpik və müxtəlif küt alətlərlə hər yerindən vururmuşlar. Milli hisləri ilə oynayır, təhqir edirdilər. Erməni quldurları Azərbaycan türkü olmasına lağ edərək, onu aşağılayır, yaşamağa haqqının olmadığını deyir, azərbaycanlıları və bütün türkləri yer üzündən siləcəklərini deyirmişlər. Erməni qadınlar uzun dırnaqları ilə gözlərini deşir və üzünə tüpürürmüşlər. Üç gün sonra azad edilərkən Bəxşeyiş Abdullayev ayaq üstə dura bilmədiyi üçün, onu sürüyüb aparmışlar.

Abdullayev Rövşən Əbdülrəhman oğlu – 1973-cü ildə Azərbaycan Respublikasının Əli-Bayramlı (hazırda Şirvan) şəhərində doğulmuşdur. 16 iyun 1993-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ağdam rayonunun Xındırıstan kəndində hərbi xidmətdə olarkən, 7 nəfər döyüş yoldaşı – Musayev İdris Göyərçin oğlu, Əsədov Rizvan İsfəndiyar oğlu, İsmayılov Yunis Suca oğlu, Şükürov Mürsəl Şəmsəddin oğlu və digərləri ilə birlikdə əsir götürülmüşdür. Əllərini bağlayaraq döyə-döyə "KAMAZ" markalı yük maşınına mindirərək, işğal altında olan Şuşa şəhərində yerləşən hərbi hissəyə aparmışlar. Hərbi hissədə maşından düşər-düşməz əsirləri xüsusi qəddarlıqla döymüş və su doldurulmuş kameraya salaraq, 12 saat ərzində əlləri bağlı vəziyyətdə saxlamışlar. 25-26 yaşlı, sarışın, göygöz, kök və hündürboylu Artur adlı nəzarətçi əsirlərin başlarını kameranın dəmir barmaqlıqlarına çırpmış, çəkdiyi siqaretləri onların kürəyində söndürmüş, külünü onlara yedizdirmişdir. Artur heç bir səbəb olmadan tapançadan atəş açaraq onun qolunu yaralamışdır. Bundan sonra o, Arturu bir daha görməmişdir. Əsirliyinin ilk günü aldığı xəsarətlərin izləri hələ də kürəyində qalmaqdadır. Yaralandıqdan sonra alay komandirinin köməkçisi, erməni Rafiq hər gün onu bayıra çıxardaraq qolunun ağrıyıb-ağrımadığını soruşur, "ağrıyır" cavabı aldıqda, "ağrımır" deyənə qədər döyürdü. Rafiq həmişə təpiklə əsirlərin cinsiyyət orqanlarından vurur, üzü üstə yerə uzadaraq başlarını təpikləyir, nəticədə onların yerə

dəyən ağız-burunlarını qan aparırdı. Ermənistan əsgərlərinin komandiri, 45-46 yaşlı, hündürboylu digər Artur əlləri bağlı olan əsirlərin başlarını divara vurur, hovuza salıb suyun içində sürünməyə məcbur edir, tabeliyində olan əsgərlər isə onları rezin dəyənək və bel ilə döyürdülər. Alayda xidmət edən Arnold adlı erməni hərbçi əsirləri özünün və başqalarının həyətlərinə aparıb yer qazdırır, torpaqdan daşları təmizlətdirir, iş zamanı da əsirləri rezin dəyənəklə döyürdü. Yerevandan gəlmiş David adlı erməni hərbçi əsirləri soyuq havada çılpaq soyundurub döyür, qarın içinə atır, pilləkənlərdə qar təmizləyərkən isə onları təpiklə vurub aşağı salırdı. David, Parol və Aşot adlı erməni hərbçilər ovçarka cinsli itləri üstlərinə qısqırdır, it əsirlərin qol və ayaqlarını parçalayaraq paltarlarını cırıq-cırıq edirdi. Aramın işgəncə metodu isə fərqli idi. O, əsirləri döyə-döyə alayın həyətinə aparıb işlədir, döyə-döyə də geri qaytarırdı. Şuşa alayının komandiri Vaçaqan da şəxsən əsirləri yumruqla, təpiklə və avtomatın qundağı ilə döyürmüş. Seqo və Martik adlı erməni əsgərlər onu adlarını unutduğu 3 nəfər əsirlə birlikdə Şuşa qəbiristanlığına aparır, azərbaycanlılara aid məzarların mərmər daşlarını sökdürərək maşınlara yığdırırdılar. Baş daşlarının üstündəki şəkillərin, demək olar ki, hamısının üzərində güllə və yanıq izləri var imiş. Qəbiristanlığın və məzarların dəmir barmaqlıqları da tam sökülmüşdü. Sökülmüş baş daşlarını Xankəndindəki qəbir daşları hazırlanan sexə aparırdılar. Şəhərin evlərini də sökdürür, daşlarını yük maşınlarına yığdırırdılar. Döyüş bölgəsindən erməni meyitləri gətirilərkən: "Siz öldürmüsünüz", – deyərək əsirləri vəhşicəsinə döyür, onları yerə uzadıb başlarını təpikləyirdilər. Altı aydan sonra BQXK-nın əməkdaşı Pyer əsirləri qeydiyyata götürərək, onlara tez-tez baş çəkdiyi üçün işgəncələr qismən azalmışdı. Buna baxmayaraq, nəzarətçi Armen bir əsiri döyərək zorlamışdı *(şəxsiyyəti məlumdur – tərt.)*.

"Şuka" ləqəbi ilə çağırılan komandirin 9-10-cu sinifdə oxuyan Marat adlı oğlu da əsirləri döyürmüş. Boyu çatmadığı üçün o, pilləkənə çıxaraq təpiklə vurub R.Abdullayevin ağzını partlatmışdı. Bir çox hallarda isə uşaq onu dizi üstə oturdaraq, ağzı partlayıb qanayanadək təpikləyirdi. Alayda saxlanılarkən oraya müxtəlif vaxtlarda əsirlər – Tahirov Osman Rüstəm oğlu, Kazımov Kərim Əvəz oğlu, Əliyev Fikrət Rəhman oğlu, Nağıyev Bəxtiyar Bayram oğlunu və Vüqarı da gətirmişlər. Onlar avtobazada işlədikləri vaxt əsirlikdən qaçdıqları üçün, başda Seqo olmaqla, bütün nəzarətçilər digər əsirləri armaturla döymüşlər. 1996-cı il martın 16-17-də alayda qalan digər əsirlərin hamısını Şuşa türməsinə aparmışlar. R.Abdullayev türmədə xeyli əsir-girov görmüşdür. Şuşa həbsxanasında saxlanılan zaman əsirlərə kartof əkdirir, maşın yudurur, alayın ərazisini və küçələri süpürtdürürmüşlər. Ermənilər əsirləri işlətməyə aparıb-qaytararkən rezin dəyənəklə döyür, söyür, təhqir edirdilər. Beynəlxalq təşkilatları da çox rahat aldadır, onların əsirlərə verdiyi ərzağı, geyimləri əllərindən alırdılar. Ermənilər əsirləri döyməklə yanaşı, onları bir-birini döyməyə məcbur edirmişlər. Abdullayev Rövşən Əbdülrəhman oğlu 10 may 1996-cı il tarixdə əsirlikdən azad edilmişdir.

Abdullayeva Sənəm Həsən qızı – 1962-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 5 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

25 fevral 1992-ci ildə yaşadıqları Xocalı şəhərinə şiddətli hücum başlanan zaman onlar həmişəki kimi atəşdən qorunmaq üçün hazırladıqları sığınacağa girmiş və gecə

saat 2-yə kimi orada qalmışlar. Ancaq əvvəlkilərdən fərqli olaraq atışma dayanmadığı üçün sığınacaqdan çıxmağa məcbur olmuşlar. Başıaçıq, ayaqyalın vəziyyətdə atası Həsənov Həsən, anası Həsənova Göyçək, bacıları – 25 yaşlı Orucova Xədicə, 20 yaşlı Həsənova Təzəgül, 8 yaşlı Lətafət, qızları – 4 yaşlı Vüsalə, 1 yaşlı Xəyalə, qardaşı oğlu Orucov Ruslan və nənəsi ilə birlikdə meşəyə qaçmışlar. Tələsiklikdə isti paltar da götürə bilməmişlər. İməkləyə-iməkləyə qayanın dibinə girmişlər. Güllə dəyməsin deyə nənəsi balaca uşaqları belinə şələləmişdi. Dörd-beş saat getdikdən sonra hamısı yorulub əldən düşmüşdülər. Artıq hərəkət etməyə taqətləri yox imiş. Min bir çətinliklə ocaq qalamışlar. Qəfildən nənəsinin yerə uzanıb sayıqladığını görmüşdür. "Balalarımı yandırırlar! Balalarımı yandırırlar!" – deyərək nənəsi can verirmiş. Az keçməmiş yazıq arvad keçinmişdir. Meyiti özləri ilə götürməyə gücləri çatmamışdı. Qorxu içində, soyuqdan donmuş halda bir gün yol getmişlər. 27 fevral, saat 10:00 radələrində bacısı Lətafət də şaxtadan donaraq ölmüşdür. Növbəti dəfə oturub dincələrkən, atası ocaq qalamış və bir az isinmişlər. Bu vaxt o, böyük qızı Vüsaləni ölmüş bilib qarın üstünə qoymuşdu, kiçik qızı Xəyalə isə kürəyində imiş. Orada bacısı Xədicə də ölmüşdü. Bütün bunlara dözməyən atası Həsənov Həsən yerə uzanmışdı. Əvvəlcə elə bilmişlər ki, yorulub yatıb. Birdən Sənəm Abdullayeva atasının bu halından şübhələnmiş və onu silkələməyə başlamışdır, lakin atası artıq tərpənmirdi, baş verənlərə dözməyən atanın ürəyi partlamışdı. Ailənin hələlik sağ qalan digər üzvləri doğmalarının meyitlərini meşədə qoyub göz yaşları içində yollarına davam etmişlər. Onlarla birlikdə olan bibisi qızı Behbudova Gülbahar da meşədə yol gələrkən donub qalmışdı. Dəstədə olan hər kəs artıq ölümünü gözləyirdi. Üç gün yol getdikdən sonra irəlidə işıqları yanan kənd görmüşlər. Lakin yaxınlaşanda oranın ermənilərin yaşadığı Pircamal kəndi olduğunu anlamışlar. Saat 08:00 radələrində silahlı iki erməni atəş aça-aça onlara yaxınlaşmışdır. Bu vaxt ermənilər hər tərəfdən onların üstünə tökülüşmüş, İlqar adlı bir oğlan ermənilərin əlinə keçməmək üçün özünü güllə ilə vuraraq öldürmüşdür. Pircamal kəndinin ərazisində anası Göyçək Həsənovanın da ürəyi partlayaraq ölmüşdür. Ailədən ancaq qadın və uşaqlar qalmışlar. Ermənilər yerindəcə onların üst paltarlarını, üzük və sırğalarını, sənədlərini, əmanət kitabçalarını, pullarını – bir sözlə, gördükləri bütün əşyalarını qarət etmişlər. Yolda ermənilər Vəliyəddin adlı bir oğlanın qolunu burub sındırmışlar. Silahlı ermənilər girovları qabaqlarına salaraq döyə-döyə kəndə gətirmiş və balaca bir daxmaya salmışlar. Daxmaya girəndə 25 yaşlı kənd sakini İsmayılın da orada olduğunu görmüşlər. 4-5 erməni İsmayılı təpik altına salaraq top kimi vurur, avtomatın qundağı ilə başına və bədəninə zərbələr endirirdilər. Orada onları təkrar olaraq soymuş, paltarlarının altında gizlətdikləri hər şeyi əllərindən almışlar. Sənəm Abdullayevanın 18 min manat pulunu, anasının protez qızıl dişini də əlindən almışlar. Qızları Vüsalənin və Xəyalənin qulaqlarındakı qızıl sırğaları belə zorla dartaraq çıxarmışlar. Vüsalənin sırğası sapla bağlandığı üçün onu çıxara bilməyən erməni bıçaq çıxaranda Vüsalə qışqırmışdır. Erməni isə uşağın ağlamasına məhəl qoymadan bıçaqla onun qulağını kəsib sırğanı götürmüşdür. Sonra bütün girovları gətirib Pircamalda tövləyə salmışlar. Orada çoxlu qadın və uşaqlar varmış. Onları bir gecə Pircamalda saxlamışlar. Orada 100-ə qədər girov saxlanılırmış. 150-200 silahlı erməni tövləni mühasirəyə almışdılar, aralarında 5-6 nəfər rus da varmış. Azərbaycan Milli Ordusunun geyimində olanları seçib ayırır, çölə çıxarıb güllələyirdilər. O, aralarında olan gənclərdən Şahmalı müəllimin oğlanları – Yaşar, Namiq və Faiq

Əlməmmədovları, Kamil Cəmil oğlu Məmmədovu, İsmayıl Murad oğlu Osmanovu və Ahıska türkü olan 6 cavan oğlanı tanımışdır. Əlməmmədov Faiq Şahmalı oğlu ermənilərin bütün söyüş və təhqirlərinə cavab qaytardığı üçün onu döyə-döyə öldürmüşdülər. 13 nəfərədək cavan oğlanı bayıra çıxarmış, aparıb erməni qəbirlərinin üstündə qurban kəsəcəklərini bildirmişlər. Fiziki işgəncələrlə yanaşı, girovlara mənəvi-psixoloji işgəncələr də verirmişlər. Bir erməni tez-tez içəri gələrək onlara iynə vuracaqlarını deyirmiş. Hamı qorxu içində idi. Orada tez-tez qarayanız, qulağı sırğalı şəxsləri də görmüşlər. Kimdənsə onların xaricdən gəlmiş ermənilər olduğunu öyrənmişlər. Hamısı hündürboylu və əzazil görkəmli idi. Onlar əsir-girovlara daha çox əzab verirmiş. S.Abdullayevanın uşaqları acından ağlayır, lakin qoca bir yerli erməni gözətçiyə "O uşağa çörək verməyin, qoyun acından ölsün", – deyirmiş. Həmin qoca erməni əsir-girovlara nifrət edirdi, çox qəddar idi. Bütün ermənilər girovları təpikləyir, qəddarcasına döyürmüş. Oradan girovları əvvəlcə Xankəndinə, bir neçə gündən sonra isə Əsgəran Milis idarəsinə aparmışlar. Milis idarəsində də girovların başına olmazın müsibətlər gətirmişlər. Uşaqlar acından, soyuqdan və qorxudan ağlasa da, onlara yemək vermirdilər. Əsgəranda bir saqqallı erməni Sənəmə yaxınlaşaraq uşaqlarının atasının harada olması ilə maraqlanmışdır. Sənəm həyat yoldaşının bir neçə il əvvəl öldüyünü bildirsə də, saqqallı onun yalan dediyini və ərinin milli orduda xidmət edərək onlara güllə atdığını demiş və əlindəki rezin dəyənəklə o qədər döymüşdür ki, Sənəm huşunu itirmişdir. Orada Yaşarı da o qədər döymüşlər ki, o da huşsuz halda yıxılaraq qalmışdır. 5 mart 1992-ci il tarixdə uşaqlarını və onu ölümcül halda gətirib dəyişmişlər. Azad edildikdən sonra onun sağ və sol ayağının hər birinin 2 barmağı, qızı Vüsalənin 9 ayaq barmağı, bacısı Xədicənin isə hər iki ayağı topuğa qədər amputasiya edilmişdir. Qızı Vüsalə o vaxtdan bəri əli bıçaqlı adam görəndə "Erməni məni öldürür, erməni məni öldürür!" – deyərək qışqırır. Azad edildikdən sonra üç-dörd ay uşaq özündə olmamış, elə hey saçlarını yolur, tez-tez diksinir, qışqırıb ağlayırmış.

Abdullayev Şamil Ramazan oğlu – 1972-ci ildə Balakən rayonunda anadan olmuşdur. 1992-ci ilin iyul ayında əsir götürülmüş, 20 noyabr 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Hərbi xidmətdə olarkən, 1992-ci ilin iyul ayında Ağdərə istiqamətində gedən döyüşlərdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Əsirlikdə olduğu müddətdə ermənilər tərəfindən verilmiş işgəncələr nəticəsində baş nahiyəsindən qan axmağa başladığına görə huşsuz vəziyyətdə hospitala aparılmışdır. Hospitalda ona yardım etmək əvəzinə qanını götürərək yaralı erməni hərbçiyə köçürmək, özünü isə tullamaq istəmişlər. Lakin qan qrupu uyğun gəlmədiyindən niyyətləri baş tutmamışdır. Edik adlı erməni Şamili və Elxan adlı digər əsiri jurnalist Salatın Əsgərovanın qatili olmuş və məhkəmənin hökmü ilə Azərbaycanda həbs cəzası çəkən A.Ayriyanla dəyişmək məqsədilə öz evinin zirzəmisində saxlamışdır. Orada onlar Edikin ailə üzvləri tərəfindən daim təhqir olunmuş, işgəncələrə məruz qalmışlar. Abdullayev Şamil Ramazan oğlu 20 noyabr 1993-cü ildə azad edilmişdir.

Abdullayev Zaur Abdulla oğlu – 1975-ci ildə Naxçıvan MR, Culfa rayonunda doğulmuşdur. 1 yanvar 1996-cı il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Naxçıvan MR, Şahbuz rayonunun Ermənistanla həmsərhəd ərazisində hərbi xidmətdə olarkən əsgər yoldaşı – Xəlil İbrahimovla birlikdə qar uçqununa düşərək donmuş vəziyyətdə huşunu itirmişdir. Ayılanda Ermənistan Respublikasının Sisian rayonunda, ermənilərin əlində əsirlikdə olduğunu başa düşmüşdür. Əsirlikdə saxlanıldığı müddətdə ermənilər mütəmadi olaraq onu və digər əsirləri huşlarını itirənədək döymüş, işgəncələr vermiş, açıq havada soyuq suya salmış, sonra onları meyit kimi kameraya atmışlar. Ermənistan hərbçiləri Zaurun sağlam dişlərini çəkmiş və iynə ilə onun bədəninə vaxtaşırı naməlum məhlul yeritmişlər. Zaurla Xəlili təkcə döyüb işgəncələr verməklə kifayətlənməmiş, onları ömür boyu unutmayacaqları qeyri-insani davranış, mənəvi-psixoloji təzyiqlərə məruz qoymuş, üstlərinə təlim görmüş 3-4 it buraxmış, it damında zəncirlə bağlamışlar. Yerli sakinlər əsirlərin üzünə tüpürmüş, üstlərinə sidik ifraz etmiş, ayaqlarını başlarına qoyaraq fotoşəkillər çəkdirərək əylənmişlər. Bir müddətdən sonra Zaur və Xəlilin başlarına torba keçirib "Niva" markalı avtomobilin yük yerində Yerevan şəhərinə aparmış və paytaxt qarnizonunda ayrı-ayrı kameralara salmışlar. Orada saxlanıldıqları təxminən 1 ay müddətində ermənilər tərəfindən daim döyülərək müxtəlif işgəncələrə məruz qalmışlar. Bir aydan sonra yenidən onların gözlərini bağlayaraq naməlum həbsxanaya aparmış, ayrı-ayrı kameralara yerləşdirmişlər. Orada Zauru 3 nəfər erməni cinayətkarın – Armen, Surik və Rudikin saxlanıldığı kameraya salmışlar. Surik Zauru kameranın tualetini yalamağa məcbur etmiş, yediyindən qalan sür-sümüyü qabağına atmış, onu zorlamaqla hədələmişdir. Zaura verilən yeməklər kamera yoldaşları olan ermənilər tərəfindən əlindən alınırmış. BQXK-nın əməkdaşları ona baş çəkməzdən bir saat qabaq Zaurun yataq yerini qaydaya salır, ona yemək və mütaliə üçün kitab verir, nümayəndələr oranı tərk etdikdən sonra isə qurumun gətirdiyi payı da əlindən alırmışlar. Abdullayev Zaur Abdulla oğlu 10 may 1996-cı il tarixdə əsirlikdən azad edilmişdir.

Abışov Etibar Yusif oğlu – 1971-ci ildə Azərbaycan Respublikası Ağdam rayonu, Tərneft kəndində doğulmuşdur. 22 iyun 1993-cü il tarixdə girov götürülmüş, 24 avqust 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ağdam rayonunun Ermənistan Hərbi Qüvvələri tərəfindən işğalı zamanı girov götürülərək möhkəm döyülmüşdür. Sonra onu Aslan adlı yaşlı bir girovun saxlandığı yerə salmışlar. Az sonra adını bilmədiyi bir nəfər Gəncə şəhər sakinini və İmişli rayonundan olan azərbaycanlı hərbçini də onların yanına gətirmişlər. Əsir-girovların əl-ayaqlarını bağlayaraq yerə uzatmışlar. Bir gün həmin vəziyyətdə qaldıqdan sonra gəncəli oğlan əl-ayaqlarını açaraq qaçmışdır. Bir azdan kameraya gələn Ermənistan hərbçiləri qaçan gəncəli oğlanı Tərneft kəndində tapıb öldürdüklərini bildirmişlər. Sonra orada qalan üç nəfəri əlləri bağlı halda Əsgəran rayonuna aparmışlar. Ermənistan hərbçiləri əsir-girovlara, əsasən, işğal etdikləri rayonlarda sahibsiz qalmış evlərdən qarət etdikləri əşyaları maşınlardan boşaltdırırdılar. Oradan isə onları Xankəndindəki müvəqqəti saxlama təcridxanasına aparmışlar. Təcridxanada onlardan başqa təxminən dörd nəfər girov da saxlanılırmış. Onlardan biri Ağdam rayonu, Ətyeməzli kənd sakini Karlen, digərləri isə adlarını bilmədiyi bir yaşlı qadın və iki uşaq imiş. Girovları müntəzəm olaraq lom, təpik, rezin dəyənək və avtomat qundağı ilə döyürmüşlər. Orada saxlandıqları bir həftə ərzində hər gün beş dəqiqədən bir müxtəlif küt alətlərlə möhkəm döyürmüşlər. Bir həftədən sonra Etibar Abışovu, Aslan kişini və İmişlidən olan əsiri Şuşa həbsxanasına

aparmışlar. Şuşada sayı bilinməyən qədər əsir-girov var imiş. Yeni gətirilənləri bir-birindən ayıraraq kameralara salmışlar. Kamerada onunla birlikdə təxminən 50 nəfərdən çox əsir-girov saxlanılırmış. Onlardan Ağcabədidən Alıyev Zaur Abbas oğlunu, Qaradağ sakini Kərimov Yusif Şükür oğlunu, Kəlbəcər sakinləri – Alışanov Budaq Əli oğlunu, Namazov Lətif Abutalıb oğlunu və İlham adlı Bakı şəhər sakinini xatırlayır. Əsir-girovları hər gün döyərək Şuşa şəhəri ərazisində və ətrafında müxtəlif işləri görməyə məcbur edirmişlər. Əsirləri ən çox döyən və işgəncə verən Valera adlı erməni imiş. Dörd-beş gün döyə-döyə, işgəncə verə-verə saxladıqdan sonra Etibar Abışovu, Budağı, Zauru, Yusifi və adlarını xatırlamadığı digər beş nəfəri yenidən Xankəndindəki müvəqqəti saxlama təcridxanasına aparmışlar. Orada saxlanılan zaman hər gün müxtəlif ağır işlərdə işləyir, axşamlar isə erməni hərbçiləri tərəfindən vəhşicəsinə döyülürmüşlər. Onlara işgəncələr verərək döyən ermənilərdən Muradı daha çox xatırlayır. Təxminən 20 gündən sonra onları yenidən Şuşa həbsxanasına aparmışlar. Orada əsirlərə divar hördürür, ağır betonları daşıtdırırdılar. Dörd gündən sonra isə yenidən Ağdama qaytarılmışlar. Orada sahibsiz qalmış evləri boşaltdırır, sökdürür, maşınlara yüklədirdilər. Girovluqda çəkdiyi ən dəhşətli əzab da əslində bu imiş. Əsirlərə öz əlləri ilə öz evlərini sökdürürmüşlər. Etibar Abışov 24 avqust 1993-cü ildə azad edilmişdir.

Abışov Kamal Məmməd oğlu – 1934-cü ildə Xocalı şəhərində doğulmuşdur. 28 fevral 1992-ci il tarixdə girov götürülmüş, 14 aprel 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Xocalı şəhərinin işğalı zamanı girov götürülərkən Ermənistan hərbçiləri şəhər sakinləri – Hüseyn kişiyə və Qüdrət müəllimə atəş açaraq onları ağır yaralamış, bununla da kifayətlənməyərək, Qüdrət müəllimi ağır yaralı vəziyyətdə amansızlıqla döymüşlər. Girovların üstlərində olan pul və qızıl-zinət əşyalarını onlardan almışlar. Əsgəran Milis şöbəsinin həyətində Qüdrət müəllimin oğlu Mehmanı erməni hərbçilər kəsici alətlə doğramışlar. Əvvəlcə iki qolunu kəsmiş, sonra başını balta ilə vurmuş, 5 dəqiqənin içərisində doğram-doğram etmişlər. Gördüyü mənzərədən Kamal Abışov huşunu itirmişdir. Kameraya qaytardıqdan sonra erməni hərbçilər Kamalı vəhşicəsinə döymüşlər. Bir müddət sonra azərbaycanlı əsir-girovları sıraya düzərək sorğu-sual etmək istəsələr də, heç kim danışmamışdır. Xocalı şəhərindən olan Səfiyev Elxan Nəsib oğlunu naməlum istiqamətdə aparmış və o, bir daha geri qayıtmamışdır. Abışov Kamal Məmməd oğlu 14 aprel 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Abutalıbov Mikayıl Musa oğlu – 1955-ci ildə Azərbaycan Respublikası Kəlbəcər rayonu, Bozulu kəndində doğulmuşdur. 15 may 1993-cü il tarixdə girov götürülmüş, 4 iyul 1994-cü ildə azad olmuşdur. İfadəsində bildirmişdir:

Yeznəsi Kamal və bacanağı Novruzla birlikdə Kəlbəcər rayonunda 5 nəfər erməni hərbçi tərəfindən girov götürülmüşlər. Girov götürülərkən hərbçilər onları möhkəm döymüşlər. Sonra Drombon kəndinə, oradan da Şuşa həbsxanasına aparılmışlar. Orada Slavik adlı erməni hərbçi onu döymüş və bıçağın sapı ilə möhkəm vuraraq başını deşmişdir. Ermənilər əsir-girovları gündə 10-15 dəfə möhkəm döyərək ağır işgəncələr vermişlər. Onlara işgəncə verən Ermənistan hərbçilərindən – balaca Jirik, böyük Jirik, Yura, Qor və Armenin adını xatırlayır. İlqar adlı beyləqanlı bir əsiri işləyə bilmədiyi üçün

daha çox döyürmüşlər. Döyülməkdən o, ölümcül hala düşmüş, bir gün isə döyüldükdən sonra yerə yıxılıb qalmışdır. O və Füzulidən olan İlham adlı əsir İlqarın qoluna girərək kameraya aparmışlar. İlqar isə artıq özündə deyilmiş. Müayinə üçün İlqara baxmağa gəlmiş Şuşa həbsxanasının həkimi olan erməni qadın ölüm halında olduğunu gördükdən sonra onun üzünə tüpürmüş, təpiklə sifətindən vuraraq kameradan çıxmışdır. Həkim getdikdən sonra İlqar ölmüşdür. Mikayıl və Budaq adlı yaşlı girovlar İlqarın meyitini dəfn etmişlər. Orada Kəlbəcərdən Mehdi adlı yaşlı kişini, Ağdamdan olan Binnətlə Həmidi də müntəzəm olaraq möhkəm döyürmüşlər. Onlar da bir neçə gün kamerada xəstə yatdıqdan sonra ölmüşlər. Onların meyitlərini də əsir-girovlara Şuşa qəbiristanlığında dəfn etdirmişlər. Mikayıl Abutalıbov Şuşada saxlanılarkən həbsxanada 7-8 nəfər əsir girovun işgəncələrlə qətlə yetirilməsinin şahidi olmuşdur. Bir gün Ağdam rayonundan olan bir cavan oğlanı da Albert və idmançı olduğu bildirilən Valeri adlı ermənilər möhkəm döyərək öldürmüşlər. Ermənilər istədikləri adamı döyür, istədiklərini öldürürdülər. İki ay saxlandıqdan sonra kəndlərin birində işlədildikləri zaman əsir-girovlara nəzarət edən iki ermənidən biri evinə getmişdi. Ermənilər hər gün yeyib-içərək sərxoş vəziyyətdə olurmuşlar. Əsir-girovların yanında qalan erməni nəzarətçi sərxoş halda yerə uzanaraq Cəfərov Aydın Əlibala oğlundan otaqdan çörək gətirməyi əmr etmişdir. Aydın ora girən zaman nəzarətçilərin avtomatlarını görüb götürmüşdür. Sonra Mikayıl, Aydın və Abbasov Natiq Əliş oğlu nəzarətçi ermənini saxlandıqları otağa salaraq qapını bağlamış və qaçmışlar. Həmin erməni Aydına müqavimət göstərən zaman Aydın məcbur olub avtomatla atəş açmış, ancaq onun ölüb-ölmədiyindən xəbərsiz olmuşlar. Lakin əsirlər meşə ilə qaçarkən Ermənistan hərbçiləri onların qaçdıqlarını bilmişlər. Ermənilər çaşdırmaq məqsədilə hərə bir istiqamətdə qaçmışdır. Mikayıl Abutalıbov təxminən 14 gün meşə ilə qaçaraq girovluqdan azad olmuşdur. Aydınla Natiq isə, təəssüf ki, yenidən tutulmuşlar. Ancaq sonradan onlar da girovluqdan azad edilmişlər. Arturyan Aşot Mixayloviç, Movsesyan Henrix Qriqoryeviç, Qriqoryan Bella Setrakovna və Albert Voskanyanın əmrləri ilə erməni hərbçilər əsir və girovlara ağır işgəncələr vermişlər. Mikayıl Abutalıbov 4 iyul 1994-cü il tarixdə girovluqdan azad olmuşdur.

Ağamalıyev İlham Mirzəbaba oğlu – 1972-ci ildə Bakı şəhərində doğulmuşdur. 10 may 1993-cü il tarixdə əsir götürülmüş, 12 may 1995-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan Respublikasının xüsusi xidmət orqanının təcridxanasında saxlanılarkən bütün əsirlər, o cümlədən İlham Ağamalıyev təzyiq və işgəncələrə məruz qalmışlar. Onları sorğu-sual edir, vəhşicəsinə döyürmüşlər. Əsas işgəncə vasitələrindən biri də əsirləri 24 saat ayaq üstə saxlamaqdan ibarət idi. Buna dözməyənləri vəhşicəsinə döyürmüşlər. Qış aylarında əsirlərin üst geyimlərini soyundurub 4-5 saat qarın üstünə uzadıb döyürmüşlər. Yerevan Hərbi Polisinin təcridxanasında saxlanılarkən azərbaycanlı əsirlər müxtəlif xəstəliklərə düçar olmuşdular. Vərəm xəstəliyinə yoluxanların kameralarını isə dəyişmirdilər. Sumqayıt şəhərindən olan Rafiq adlı şəxs ermənilərin işgəncələrinə dözməyərək ruhi xəstəliyə düçar olmuş, bir müddət sonra isə Yerevan şəhər Hərbi Polis idarəsinin təcridxanasında ölmüşdür. İlham Ağamalıyevlə birlikdə saxlanılan şəxslərdən Masallı rayonundan Ağayev Rüstəm Ramazan oğlu, Siyəzən rayonundan Qiyasov Bəhram Akif oğlu, Bakı şəhərindən Quliyev Faiq Qabil oğlu,

Məmmədov Eldar Şahbaba oğlu, Kəlbəcər rayonundan Məmmədov Gürşad Qiyas oğlu, Sumqayıt şəhərindən Cəfərov Ənvər Əsgər oğlu, Yevlax rayonundan Əhmədov Elman Məmməd oğlu, Lerik rayonundan Mərdan, Hacıqabul rayonundan Fərhad erməni nəzarətçilər tərəfindən qətlə yetirilmişlər. Ağamalıyev İlham Mirzəbaba oğlu 12 may 1995-ci il tarixdə əsirlikdən azad edilmişdir.

Ağayarov Yunus Behbud oğlu – 1930-cu ildə Azərbaycan Respublikası Xocalı şəhərində doğulmuşdur. 26 fevral 1992-ci ildə girov götürülmüş, 30 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan ordusunun Xocalı şəhərinə hücumu zamanı girov götürülmüşdür. Həmin gün o, həyat yoldaşı Kübra və ruhi xəstə olan qızı Züleyxa ilə evdə imiş. Bu zaman oğlu İsaq evə gələrək "Niyə oturmusunuz? Ermənilər şəhərə dolublar", – demişdir. Bu xəbəri eşidən kimi evdən çıxaraq çaylağa *(suyu qurumuş çay yatağı – tərt.)* tərəf getmiş və oraya yığışmış şəhər sakinlərinə qoşulmuşdur. Bu vaxt ailə üzvlərinin yanında olmadığını görmüş, geriyə baxarkən oğlu İsaqın anasını gətirməsinin şahidi olmuşdur. İsaq nə qədər israr etsə də, bacısı Züleyxanın gəlmədiyini demiş və anası Kübranı atasının yanında qoyaraq bacısını gətirmək üçün təkrar evlərinə qayıtmışdır. Ancaq İsaq evə qayıdarkən Ermənistan hərbçilərinin bacısı Züleyxanı həyətə çıxarıb tut ağacının altında üstünə benzin tökərək yandırdıqlarını görmüşdür. O, bu barədə atasına bir söz deməmiş, nə qədər yalvarsa da, bacısının gəlməkdən imtina etdiyini bildirmişdir. Bir qədər çaylaqda qaldıqdan sonra camaat oradan çıxıb təzə tikilmiş "fin" evlərinə yığışmışdır. Səhər açılanda yenidən atışma düşmüş, hərə bir tərəfə qaçmışdı. Bu vaxt Y.Ağayarov oğlu ilə həyat yoldaşını itirmişdi. Yanındakı oğlanı ayağından vurmuşdular. Yaralı oğlan onu qoyub qaçmasınlar deyə qışqırırmış. Y.Ağayarov onun yanına qayıtmış və elə bu vaxt Ermənistan hərbçiləri onları girov götürmüşlər. Canını qurtarmaq üçün meşəyə qaçan adamları da ermənilər tutmuş, pullarını, zinət əşyalarını və sənədlərini alıb, Əsgəran rayon Milis idarəsinə apararaq zirzəmiyə salmışlar. Y.Ağayarovu da Əsgərana aparmışlar. Əsgəran milisində qonşu Noraguh kəndində yaşayan, milliyyətcə erməni Bahaduru görmüşdür. Bahadur onun üçün öz evindən çörək və paltar gətirərkən, oğlu paltarları ondan almış və "Görsələr, səni də, onu da, öldürəcəklər. Çıx get evə, axşam mən özüm ona verərəm", – demişdir. Bahadurun adını unutduğu nəzarətçinin oğlu gecə Y.Ağayarova kartof, paltar və isinmək üçün otla dolu küp vermişdi. Bahadurun oğlu səhər tezdən ermənilərin girovlara soyuqdəymə adı ilə vuracaqları iynədən imtina etməyi ona tapşırmışdır. O, həmin dərmanın sonradan zəhərləyib öldürəcəyini də bildirmişdir. Bu söhbətdən az vaxt keçdikdən sonra kameraya daxil olmuş 2 həkim İbrahimə *(Xocalının Qaçqınkənd kənd sakini, girovluqdan azad olunduqdan 6 ay sonra ölmüşdür – tərt.)*, Hüseyn Nəriman oğluna və Osmanov Cüməli Bahadur oğluna iynə vurmuşlar. Orada girovlara iynə vuran ermənilərdən birinin əvvəllər Sumqayıt şəhərində yaşadığını eşitmişlər. Nəfəslikdən baxan bir erməni Hüseyn Nəriman oğlunu tanıdığını bildirərək içəri girmiş, yumruqla vurub ağzını partlatmış və aldığı zərbədən onu qan aparmışdır. Sonra isə ermənilər bütün girovları kameradan bayıra çıxarmış və Əsgəran milis rəisinin göstərişi ilə 25-26 yaşlarında olan ucaboylu, dolubədənli erməni əsgər Hüseyn Nəriman oğlunun başını xəncərlə kəsmişdir. Hüseynin kəsilmiş başını və bədənini isə girovlara daşıtdıraraq quyuya

atdırmışlar. Hüseynin qanına bulaşmış paltarlarını isə ermənilər Yunusa və İbrahimə yudurtmuşlar. Bu hadisədən sonra əvvəllər Sumqayıtda yaşamış nəzarətçi Y.Ağayarovu, İbrahimi və Xankəndində yaşamış, sonradan Xocalıya köçmüş adını bilmədiyi bir nəfəri milis rəisinin otağına aparmışdır. Otaqda təqribən 20 yaşlı girov bir qız və 15-16 yaşlı bir oğlan da var idi. Qız çılpaq vəziyyətdə çarpayıda uzanmış, oğlan isə geyimdə onun yanında əyləşmişdi. Qızı girovlara göstərən erməni nəzarətçi "Ara, deyirdiniz ki, biz namusluyuq, qeyrətliyik", – deyərək qızı zorladığını bildirmişdir. Bunu eşidən Xankəndindən Xocalıya köçmüş girov "Biz namuslu gəlmişik, namuslu da öləcəyik, onu apar posta və barmağınla toxun, səni dişləri ilə didər", – cavabını vermişdi. Girovun bu cavabından sonra milis rəisinin göstərişi ilə ermənilər onu stolun ayağı və rezin dəyənəklə döyərək yerə yıxmış və xəncərlə başını kəsmişlər. Onun da meyitini girovlara daşıtdırıb quyuya atdırmışlar. Dəhlizə tökülmüş qanı isə Y.Ağayarova və İbrahimə yudurtdurmuşlar. Əsgəran Milis idarəsində saxlanarkən girovlara əvvəlki 2 gündə azacıq çörək və su versələr də, sonradan heç nə verməmişlər. Hamı kimi, Y.Ağayarovu da soyuqda üst paltarsız, ac-susuz saxlamışlar. Bir tikə çörək verəndə də üstünə tüpürüb verirmişlər. Girovları hər gün taxta parçaları və rezin dəyənəklərlə döyürdülər. Həmkəndlisi Allahverdiyev Mirzənin qızıl dişlərini çəngəllə çıxarmış, qalan dişlərini isə yumruqla vurub sındırmışlar. Yunus Ağayarov 30 mart 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Ağayev Elşad Allahverdi oğlu – 1973-cü ildə Xocalı şəhərində doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 28 fevral 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan hərbçiləri tərəfindən girov götürülərkən Elşad Ağayevin sinif yoldaşı Hüseynova Səadət Qədim qızı körpə uşağı ilə birlikdə qətlə yetirilmişdir. Əsgəran Milis şöbəsində saxlanılarkən yanğından mühafizə şöbəsinin rəisi Karo Petrosyan, Vladik və digər ermənilər tərəfindən vəhşicəsinə döyülmüş, ağır işgəncələrə məruz qalmışdır. Orada Məmməd kişini və onun iki oğlunu kameradan çıxarıb naməlum istiqamətdə aparmışlar. Bir müddət sonra Fəxrəddin adlı girovu da aparmışlar. Fəxrəddin kameraya qayıtdıqdan sonra ermənilərin Məmməd kişinin və oğlanlarının başlarını kəsdiklərini və azərbaycanlı əsirlərə dəfn etdirdiklərini danışmışdır. Sonradan Fəxrəddin adlı əsirin özünü yenidən naməlum istiqamətdə aparmış və o, bir daha geri qayıtmamışdır. Elşad Ağayev, Nəsib və Zülfü adlı əsirlər saxlanıldıqları kameranın nəfəsliyindən görmüşlər ki, Karo və digər ermənilər dəhlizdə Əzizov Hüseyn Nəriman oğlunu döyür, ağır işgəncələr verirlər. O, bütün al qanın içində imiş. Ermənilər Hüseyni yerə yıxmış və başına mərminin boş gilizi və digər dəmir parçaları ilə 40-dan çox zərbə endirərək, onu vəhşicəsinə qətlə yetirmişlər. Bu hadisədən sonra Elşad Ağayevi və Abışov Mobil Mövsüm oğlunu Karonun otağına gətirmişlər. Otaqda onları dəmir, taxta parçaları ilə vəhşicəsinə döymüş və ağır zərbələr endirərək Mobil Abışovu da qətlə yetirmişlər. Elşad Ağayev 28 fevral 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Ağayev Mürvət Fətiş oğlu – 1938-ci ildə Azərbaycan Respublikası Füzuli rayonu, Kürdmahmudlu kəndində doğulmuşdur. 15 sentyabr 1993-cü il tarixdə girov götürülmüş, 19 avqust 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan Silahlı Birləşmələrinin hücumu ilə bağlı 1993-cü il sentyabr ayının 15-də yaşadığı evdən əşyalarını çıxarmaq istəyərkən girov götürülmüşdür. Ermənistan hərbçiləri onu at əvəzinə arabaya qoşmuş və Kürdmahmudlu kəndindən 4 km aralıda yerləşən Alxanlı kəndinə qədər aparmağa məcbur etmişlər. Orada isə 5 erməni hərbçi onu ortaya atıb təpiklə və dəmir dəyənəklə döyərək "Torpaq bizimkidir, siz çıxmalısınız", – demişlər. "Bura mənim ata-baba kəndimdir", – cavabını vermiş M.Ağayevi isə iki biləyindən bağlayaraq ağacdan asmış, ayaqlarının altında ocaq qalamışlar. Ayaqları, demək olar ki, tamam yanmışdır. Buna baxmayaraq, ermənilər onun yanmış ayaqlarını təpik və ağacla vuraraq işgəncələri davam etdirmişlər. İkinci dəfə ondan torpağın kimə məxsus olduğunu soruşanda eyni cavabı verdiyi üçün Ermənistan hərbçiləri daha da hiddətlənərək, bıçaqla M.Ağayevin sağ qulağını dibindən kəsmişlər. Sonra isə M.Ağayevə özünə qəbir qazmağı əmr etmişlər. Ancaq qəbri qazdıqdan sonra oraya ölü pişik atıb basdırmağı əmr etmişlər. Orada bir daha onu avtomat qundağı və təpiklə möhkəm döydükdən sonra maşınla əvvəl Füzuli şəhərinə, oradan isə Xocavəndə aparmışlar. Xocavənddə onunla birlikdə 16 nəfər əsir-girov saxlanılırmış. Orada bütün əsir-girovların gözü qarşısında tanımadığı yaralı bir Azərbaycan əsgərini hərbi maşının təkərləri altına atıb əzmiş, meyitini isə maşına qoşaraq sürüyüb harasa aparmışlar. Kənddə yaşayan erməni gənclər hər gecə girovlar saxlanılan yerə gələrək əsir-girovları döyür, təhqir edirdilər. Andranikin *(Ozanyan Andranik Torosoviç – 1918-1920-ci illərdə Türkiyədə, Azərbaycanda və indiki Ermənistan ərazisində türk-müsəlman əhalinin soyqırımına rəhbərlik etmiş erməni generalı – tərt.)* ad günündə girovları aparıb öldürür və ya işgəncə verirdilər. Üç ay 19 gün orada saxlandıqdan sonra 16 əsir-girovu Şuşa türməsinə aparmışlar. Maşından enən kimi onları dəmir dəyənəklə vəhşicəsinə döymüş, soyundurub çılpaq halda yenidən döyərək kameraya doldurmuşlar. Kamerada onları səhərədək it kimi hürməyə məcbur etmişlər. Şuşa türməsində Füzuli rayonundan olan Rafiq adlı cavan bir oğlanı döyərək öldürmüş, qəbrini isə əsirlərə qazdırmışlar. Şuşada döyülməkdən onun bədəni şişmişdi. Əsirlərə baş çəkməyə gəlmiş BQXK nümayəndələri onu bu vəziyyətdə görüb, Xankəndindəki uşaq xəstəxanasına aparılmasını tələb etmişlər. Xəstəxanada bir aya qədər qalmışdır. Ancaq xəstəxana olmasına baxmayaraq, orada da əsir-girovları döyür, müxtəlif işgəncələr verirdilər. Bir dəfə nəzarətçilərdən biri onun başına və sifətinə o qədər vurmuşdu ki, sol gözü görmə qabiliyyətini itirmişdir. Xocavənddə onlarla birlikdə saxlanılan azərbaycanlı gənc qızı və anasını hər gün döyür, müxtəlif işgəncələr verir, namuslarına təcavüz edirdilər. Ağayev Mürvət Fətiş oğlu 19 avqust 1994-cü il tarixdə girovluqdan azad edilmişdir.

Ağayev Rəşid Misir oğlu – 1935-ci ildə Azərbaycan Respublikası Füzuli rayonunun Horadiz kəndində doğulmuşdur. 3 sentyabr 1993-cü il tarixdə girov götürülmüş, 27 mart 1995-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Yaşadığı Füzuli rayonunun Ermənistan ordusu tərəfindən işğalı zamanı – 3 sentyabr 1993-cü ildə şəxsi mənzilindən ev əşyalarını aparmaq istəyərkən girov götürülmüşdür. Onu möhkəm döydükdən sonra Hadrut rayonunun Edilli kəndi ərazisində azərbaycanlı əsir-girovların saxlanıldığı yerə aparmışlar. Orada Ermənistan hərbçiləri onunla yanaşı, digər yaşlı girovları da döyür, söyür, təhqir edirdilər. Hərbi əsirlərə isə daha şiddətli işgəncələr verirdilər. Təxminən 10-15 gündən sonra Rəşid Ağayevi 11 nəfər əsir-girovla

birlikdə keçmiş Şaumyan rayonu ərazisində yerləşən hərbi hissələrdən birinə aparmışlar. Orada əsir-girovları hər tərəfi dəmir barmaqlıqlardan düzəldilmiş, "qəfəs" dedikləri kameraya salmışlar. Əsir-girovlara kinayə ilə "Sizə elə qəfəs yaraşır", – deyərək təhqir edir, alçaldırdılar. Saxlanma yerində dörd nəfər azərbaycanlı hərbi əsir də var imiş. Əsir-girovlardan hərbi hissənin həyətinin təmizlənməsində, təsərrüfat işlərində, bostan-tərəvəz əkilməsində istifadə edirdilər. Gecə-gündüz işlədiklərinə baxmayaraq, nəzarətçilər tərəfindən hərbi hissəyə gətirilmiş mülki geyimli şəxslər, xüsusilə də erməni gənclər əsir-girovları bir-bir bayıra çıxarıb döyür, işgəncə verirdilər. Bu hala etiraz edən yaşlı girovları da erməni hərbçilər yerə yıxaraq təpikləyir, ölümcül vəziyyətə salırdılar. Belə bir vəziyyətdə Füzuli rayon sakini Səfəralının hərarəti 40 dərəcəni keçməsinə baxmayaraq, nəzarətçilər həkim çağırmamış və o, həmin gün səhərə yaxın ölmüşdür. Öləndən sonra Ermənistan hərbçiləri Səfəralının meyitini aparmışlar. Ancaq hara apardıqlarını deməmişlər. Əsir-girovlar aclıqdan, soyuqdan, bit-birə əlindən də əzab çəkir, xəstəliyə düçar olurmuşlar. Həkim tələb edəndə isə, Ermənistan hərbçiləri onları təhqir edərək "Türklərin hamısı ölməlidir", – deyirmişlər. Ağayev Rəşid Misir oğlu 27 mart 1995-ci il tarixdə girovluqdan azad edilmişdir.

Ağayev Səttar Muxtar oğlu – 1937-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 25 fevral 1992-ci il tarixdə girov götürülmüş, 5 aprel 1992-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci il fevral ayının 25-də Ermənistan Silahlı Qüvvələri yaşadığı Xocalı şəhərinə hücum etmişlər. Mülki əhali şəhəri qorumaq üçün durduqları postdan geri çəkilməli olmuşdur. Səttar Ağayev evinə gələrkən qapının bağlı olduğunu görmüşdür. 11 yaşlı oğlu isə küçədə ağlayırmış. Tez onu götürüb meşəyə tərəf qaçmışdır. Şəhər hər tərəfdən mühasirəyə alınaraq atəşə tutulur, qoca, qadın, uşağa fərq qoyulmadan hər kəs qətlə yetirilirdi. Əhali canını qurtarmaq üçün şəhərin ətrafındakı meşələrə üz tutmuşdu. Şiddətli qar yağırdı, hava çox soyuq idi. Adamlar meşəyə səpələnərək xilas yolu arayırmışlar. Ancaq üz tutduqları hər yerdə Ermənistan hərbçilərinin atəşi ilə qarşılaşırdılar. Meşədə 1982-ci il təvəllüdlü oğlu Allahverdini güllə ilə vurmuşlar. S.Ağayev uşağı kürəyinə götürərək bir xeyli getdikdən sonra qarın içində ayaqqabılarını itirmişdir. Meşə qalın qarla örtülmüşdü, hava çox soyuq idi, şaxta insanın nəfəsini dondururdu. O, artıq hara getdiyini bilmirdi. Həm də ayaqyalın olduğundan qarın içində hərəkət etmək çətin idi. Bu vaxt uşaq ona donduğunu deyərək çörək istəmişdir. S.Ağayev: "Bir az da döz, bala, çatmışıq", – demişdir. Ancaq bir azdan uşağın donub öldüyünü hiss edərək onu kürəyindən yerə qoymuşdur. Əynindəki paltonu çıxarıb meyiti bükmüş və yanında oturaraq ağlamağa başlamışdır. Göz yaşları içərisində oğlunun meyitini oradan çıxarmaq istərkən silahlı erməni dəstəsi tərəfindən girov götürülmüşdür. Onu ermənilərin yaşadığı Dəhraz kəndində yerləşən fermaya gətirmişlər. Meşədə şaxtadan ayaqları və əlləri donduğundan hərəkət edə bilmirmiş. Heç oğlunun meyitini götürməyə də icazə verməmişlər. Fermanın pəncərələrinin şüşələrini də vurub qırmışdılar ki, daha da soyuq olsun. Axşam iki erməni nəzarətçi onu girovların yanından çıxarıb başqa bir otağa aparmışlar. Orada onu qayışla, zəncirlə, avtomat qundağı və təpiklə döydükdən sonra adi kəlbətinlə bütün dişlərini çıxarmışlar. Ağzı qanla dolduğundan nəfəs ala bilmirmiş, ermənilər isə onu dayanmadan döyürmüşlər. Döyülməkdən huşunu itirmiş,

ayılanda isə yenidən fermadakı girovların yanında olduğunu görmüşdür. Xocalı sakinləri Səməndər İsmayılov, Abbasov Qədim Məmmədvəli oğlu, Abbasov Ələmdar Məmmədvəli oğlu, Vəliyev Əşrəf Məhəmməd oğlu da orada imiş. Ermənistan hərbçiləri ondan Milli Orduda oğlunun olub-olmamasını soruşmuşlar. Orduda heç kəsinin olmadığını söyləmişdir. Bu vaxt bir erməni onun oğlu Zahid Ağayevin pasportunu göstərərək "Bu, sənin oğlun deyil?" – soruşmuşdur. O, bunu inkar etdikdə, qolundan tutaraq oğlu Zahidin meyitinin yanına gətirərək "Budur sənin oğlun", – demişlər. Meyiti görən S.Ağayevi ağlamaq tutmuşdur. Buna baxmayaraq, ermənilər onu yenə də döyməyə başlamış və bütün günü meyitlə bir kamerada saxlamışlar. Ertəsi gün onu başqa bir binaya aparmışlar. Orada 300 nəfərə yaxın Xocalı sakinini görmüşdür. Orada ermənilər "Bir nəfərimizi öldürmüsünüz, əvəzində 13 nəfəri öldürəcəyik", – deyərək 13 nəfər cavan oğlanı seçərək zorla yaxınlarından ayırmış və naməlum istiqamətdə aparmışlar. Fevralın 29-da isə onunla birlikdə 18 nəfəri seçib Xankəndinə aparmışlar. Orada onu və daha 50 nəfər azərbaycanlını soyuqda beton döşəmənin üstündə saxlamış, müntəzəm olaraq döymüşlər. Meşədə olarkən don vurmuş ayaqları artıq çürüməyə başlamışdı. Şiddətli ağrılara dözə bilmədiyindən, ermənilərə onu öldürmələrini təklif etmişdir. Bir erməni həkim onun ayağına baxaraq hər ikisinin dizdən aşağı kəsilməsinin vacib olduğunu demişdir. Buna baxmayaraq, erməni nəzarətçilər onu döyərkən məhz ayaqlarını təpikləyir, ona bu cür işgəncə verirmişlər. Ağayev Səttar Muxtar oğlu 5 aprel 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Alıyev Zaur Abbas oğlu – 1974-cü ildə Azərbaycan Respublikasının Gəncə şəhərində doğulmuşdur. 14 fevral 1992-ci il tarixdə əsir götürülmüş, 24 avqust 1993-cü il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ağdərə rayonu, Drombon kəndinin müdafiəsi uğrunda gedən döyüşlər zamanı mühasirəyə düşərək, Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Əsgər yoldaşlarından ikisi güllə ilə vurulub öldürülmüş, onu isə möhkəm döyərək Ağdərə rayonu, Çaldıran kəndindəki bir həyətə aparmışlar. Orada yenidən döyərək burnunu sındırmış, bıçaqla əlini kəsmişlər. Dəmir beli odda qızdıraraq kürəyinə və sinəsinə damğa basmış, ağır işgəncələr vermişlər. Orada üç gün ac-susuz saxladıqdan sonra Xankəndi şəhərindəki türməyə aparmışlar. Türmədə ondan əlavə 3-4 hərbi əsir də ayrı-ayrı kameralarda saxlanılırmış. Onlardan Ağsu sakini Məmmədov Etibar İslam oğlunu, Əli Bayramlı sakini Gülmalıyev Daşqın Rahil oğlunu, Quba sakini Raufu *(digər şahidlərin ifadəsinə görə, o, əsirlikdə ölmüş Quba rayon sakini Əmirullayev Zahid Nəsibulla oğlu olmuşdur – tərt.*), bakılı Zəkiyev Zakir Həmid oğlunu və Füzuli sakini Qurbanov İlham Sabir oğlunu xatırlayır. Əvvəlcə onu kazarmanın 4-cü mərtəbəsində tək saxlamış, sonradan isə Məmmədov Etibar İslam oğlunu da yanına gətirmişlər. Növbəti gün isə onu oradan aparıb bir evin zirzəmisinə salmışlar. Bakıdan olan Zakir də orada saxlanılırmış. Bir aydan sonra isə Etibarla Z.Alıyevi Xankəndi Milis idarəsinə gətirmişlər. Orada onları Daşqın və Rauf adlı əsirlərin saxlandığı kameraya salmışlar. Ürəyinin yuxarı hissəsindən güllə yarası almış Raufa heç bir tibbi yardım göstərilmirdi. İki aydan sonra isə onu, Etibarı, Raufu və Daşqını Şuşa türməsinə aparmışlar. Orada təxminən 50 nəfərədək əsir-girov saxlanılırmış. Onlardan Sumqayıtdan İsmayılov Yaşar Vilayət oğlunu, Qaradağlı kəndinin sakini Kərimov Yusif Şükür oğlunu, Kəlbəcərdən Abutalıbov Mikayıl Musa

oğlunu və Qusardan Hüseynov Yelmar Məmmədhüseyn oğlunu xatırlayır. Şuşada müntəzəm olaraq hamını möhkəm döyür, təhqir edir, incidirdilər. Yer bellədir, ağır daşları daşıdır, dayanmadan işlədirdilər. Yaralı olmasına baxmayaraq, Raufu da döyür və işləməyə məcbur edirmişlər. O, gecələr zarıyır, inildəyir, gündən-günə geri gedirdi. Arabir rayonlarının gözəlliyindən, alma bağlarından danışır, əsirlikdən sonra onları qonaq aparacağını deyirmiş. Ancaq bir gün səhər Raufun öldüyünü görmüşlər. Bu hadisə may və ya iyun ayında baş vermişdi. Meyiti həbsxananın yaxınlığındakı qəbiristanlıqda əsir-girovlara dəfn etdirmişlər. Orada Ağdam rayonundan olan, adını bilmədiyi bir oğlanı da vəhşicəsinə döyərək öldürmüşdülər. Mingəçevirdən olan Həmzəyev İlqar Əli oğlunu döyərək qollarını sındırmış, burnunu kəsmişdilər. İşgəncələrə dözməyən İlqar da orada ölmüşdür. Əsirləri döyərək işgəncə verən nəzarətçilərdən 40-42 yaşlarında olan Valeranı və təxminən 35 yaşlı Yuranı daha çox xatırlayır. Təxminən 4 aydan sonra onu, Daşqını və Etibarı Ağdam rayonundakı təcridxanaya aparmışlar. Sonradan daha 13 nəfər əsir-girovu da Şuşa həbsxanasından Ağdama aparmış və 24 avqust 1993-cü il tarixdə 40 nəfər əsir-girovla bərabər azad etmişlər.

Allahverdiyev Kamil Şiraslan oğlu – 1977-ci ildə Azərbaycan Respublikası Goranboy rayonu, Tapqaraqoyunlu kəndində doğulmuşdur. 16 may 1993-cü il tarixdə girov götürülmüş, 29 sentyabr 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü ilin may ayında ailəsinə məxsus kiçik müəssisənin ərazisində 1945-ci il təvəllüdlü atası Şiraslan, 1971-ci il təvəllüdlü qardaşı Mətləb, 1943-cü il təvəllüdlü Kazımov Şakir və 1970-ci il təvəllüdlü Həsənov Faiq Əli oğlu ilə birlikdə kartof sahəsində işləyərkən, qəflətən silahlı, saqqallı ermənilər tərəfindən girov götürülmüşlər. Onları girov götürərək meşəyə aparanlardan biri, əvvəllər meşəbəyi işləmiş təxminən 50 yaşlı Şaiq adlı saqqallı erməni olmuşdur. Meşədə 200 nəfərdən artıq silahlı erməni varmış. "Şaumyan" adlanan taborun əsgərləri olan bu silahlı ermənilər ağac, avtomatın qundağı, təpik və yumruqla onları vəhşicəsinə döymüşlər. Döyənlərdən biri də Ağdərə rayonunun Talış kəndindən olan hərbi geyimli Vido imiş. Onları vəhşicəsinə döydükləri üçün Kamil Allahverdiyevin başında çapıqlar əmələ gəlmişdir. Meşədə girovlar ac-susuz iki gün rütubətli və qaranlıq qazmada saxlanılmışlar. Bu iki gün ərzində girovları dəfələrlə amansızcasına döymüşlər. Sonra nəm, qaranlıq bir yerə salmış və iki həftə orada saxlamışlar. Hər gün təpik, yumruq, avtomat qundağı və digər əşyalarla vəhşicəsinə döyür, ac-susuz halda ağac kəsdirir, böyük, ağır kötükləri daşıtdırır, tikinti işlərində işlədirdilər. İki həftədən sonra onları meşədə qazılmış digər bir qaranlıq qazmaya aparmışlar. On gün də orada işgəncələrə, təhqirlərə və istismara məruz qaldıqdan sonra onları helikopterlə Yerevanda yerləşən köhnə qadın həbsxanasına aparmış və beşini bir kameraya salmışlar. Digər kameralarda isə təxminən 35 nəfərə yaxın əsir-girov saxlanılırmış. Onların təxminən 80 faizi hərbçi, digərləri isə mülki şəxslər idi. Girovların içərisində Kəlbəcər rayonundan olan 55-60 yaşlı Həsənova Qəmər Binnət qızı, təxminən 40 yaşlarında olan, bakılı olduğunu eşitdiyi Nəcəfəliyeva Adilə Süleyman qızı döyülməkdən dəli kimi olmuşdular. Ümumiyyətlə, hamının vəziyyəti ağır idi. İnsanların əsəblərini pozmuşdular, döyüb şil-küt etmişdilər. Hərbi əsirlərdən Yevlax rayon sakini Əhmədov Elman, Zaqatalanın Tala kəndindən Tağıyev Bəxtiyar, Bərdədən Əlimərdanov Heydərin adlarını xatırlayır. Orada onları o qədər döyürmüşlər ki, az qala öz adlarını belə unudurmuşlar.

Girovlardan isə Kəlbəcər rayonundan olan İdris Həsənovu *(girovluqda aldığı işgəncələr nəticəsində azad edildikdən sonra vəfat etmişdir – tərt.)*, Əli Məhərrəmovu və Ələkbər Səlimovu xatırlayır. Digər əsirlərlə ancaq ayaqyoluna gedərkən bir-iki dəqiqə görüşüb söhbət etmək imkanları olurdu. Bu qısa söhbətlərin birində bir nəfər əsirin döyülərək öldürüldüyünü eşitmişdi. Əsir-girovları, əsasən, türmə nəzarətçiləri döyürmüş. Sonra əsir alınmış digər 11 hərbçini də saxlanma yerinə gətirmişlər. Yerevan həbsxanasında dörd ay saxlanmışlar. BQXK-nın nümayəndələri türməyə baş çəkməyə gələrkən onları ayrı bir zirzəmiyə salaraq gizlədirmişlər. Bütün əsir-girovlarla amansızcasına davranırdılar. Elə döyürdülər ki, heç heyvanı da belə döyməzlər. Dəyişilmə zamanı yaşca cavan olan əsir-girovları geri qaytarmaq istəmirdilər. Kamil Allahverdiyevlə birlikdə qardaşı Mətləbi, həmkəndlisi Faiqi və yuxarıda adlarını qeyd etdiyi iki qadını 1993-cü il sentyabrın sonlarında Yerevandan Noyemberyan rayonuna gətirmiş və bir neçə gün orada saxladıqdan sonra azad etmişlər.

Allahverdiyev Məhkəmə Muxtar oğlu – 1951-ci ildə Azərbaycan Respublikası Füzuli rayonu, Kövşad kəndində doğulmuşdur. 8 sentyabr 1989-cu il tarixdə girov götürülmüş, 25 sentyabr 1989-cu ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

8 sentyabr 1989-cu il tarixdə Hadrut rayonunun Kolakətin kəndindən yaşadığı Kövşad kəndinə gedərkən saqqallı erməni terrorçu-quldur dəstəsi tərəfindən girov götürülmüşdür. Saqqallılar onu Hadrut rayonundakı Milis şöbəsinə aparmış və 17 gün orada saxlamışlar. Bu müddətdə erməni milis işçiləri, xüsusilə Hadrut rayonu, Edilli kənd sakini olan Albert tərəfindən ağır işgəncələrə məruz qalmışdır. Milis işçisi olan ermənilər M.Allahverdiyevi armatur və təpiklə döyürmüşlər. Təpiklə vurub dişlərini zədələmişlər. Kənardan gətirilmiş bir həkim guya xəstələnməsin deyə, ona iynə vurmaq istəmiş, ancaq o, buna imkan verməmişdir. Ertəsi gün Hadrut rayon Milis şöbəsinin növbətçisi olan çoxdankı tanışı Poqosyan həkimin ona solyarka vurmaq istədiyini bildirmişdir. Qonşu kamerada saxlanılan və Naxçıvan sakini olan, adını bilmədiyi 22-23 yaşlı qadına qarşı zorakılıq hərəkətləri edirdilər. Qadının qışqırtısından və naləsindən şöbədə durmaq mümkün deyildi. Erməni milislər çox amansızlıq edir, ən dəhşətli işgəncələrə əl atırdılar. Onlar qadının körpə uşağının ayaqlarından yapışaraq dartıb qoparmış və uşağı vəhşicəsinə öldürdükdən sonra anasını da işgəncə ilə qətlə yetirmişdilər. Allahverdiyev Məhkəmə Muxtar oğlu 25 sentyabr 1989-cu il tarixdə girovluqdan azad edilmişdir.

Allahverdiyev Mətləb Şiraslan oğlu – 1971-ci ildə Azərbaycan Respublikası Goranboy rayonu, Tapqaraqoyunlu kəndində doğulmuşdur. 16 may 1993-cü il tarixdə girov götürülmüş, 29 sentyabr 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü ilin may ayında ailəsinə məxsus kiçik müəssisənin ərazisində 1945-ci il təvəllüdlü atası Şiraslan, 1977-ci il təvəllüdlü qardaşı Kamil, 1943-cü il təvəllüdlü Kazımov Şakir və 1970-ci il təvəllüdlü Həsənov Faiq Əli oğlu ilə birlikdə kartof sahəsində işləyərkən qəflətən silahlı, saqqallı ermənilər tərəfindən girov götürülmüşlər. Onları girov götürərək meşəyə aparanlardan biri əvvəllər meşəbəyi işləmiş təxminən 50 yaşlı Şaiq adlı saqqallı erməni olmuşdur. Meşədə 200 nəfərdən artıq silahlı erməni varmış. "Şaumyan" adlanan taborun əsgərləri olan bu silahlı ermənilər ağac, avtomatın qundağı, təpik və yumruqla onları vəhşicəsinə döymüşlər. Döyənlərdən biri də Ağdərə rayonunun

Talış kəndindən olan hərbi geyimli Vido imiş. Meşədə girovlar ac-susuz iki gün rütubətli və qaranlıq qazmada saxlanılmışlar. Bu iki gün ərzində girovları dəfələrlə amansızcasına döymüşlər. Sonra nəm, qaranlıq bir yerə salmış və iki həftə orada saxlamışlar. Hər gün təpik, yumruq, avtomat qundağı və digər əşyalarla vəhşicəsinə döyür, ac-susuz halda ağac kəsdirir, böyük, ağır kötükləri daşıtdırır, tikinti işlərində işlədirdilər. İki həftədən sonra onları meşədə qazılmış digər bir qaranlıq qazmaya aparmışlar. On gün də orada işgəncələrə, təhqirlərə və istismara məruz qaldıqdan sonra helikopterlə Yerevanda yerləşən köhnə qadın həbsxanasına aparmış və beşini bir kameraya salmışlar. Digər kameralarda isə təxminən 35 nəfərə yaxın əsir-girov saxlanılırmış. Onların təxminən 80 faizi hərbçi, digərləri isə mülki şəxslər idi. Girovların içərisində Kəlbəcər rayonundan olan 55-60 yaşlı Həsənova Qəmər Binnət qızı, təxminən 40 yaşlarında olan, bakılı olduğunu eşitdiyi Nəcəfəliyeva Adilə Süleyman qızı döyülməkdən dəli kimi olmuşdular. Ümumiyyətlə, hamının vəziyyəti ağır idi. İnsanların əsəblərini pozmuş, döyüb şil-küt etmişdilər. Hərbi əsirlərdən Yevlax rayon sakini Əhmədov Elman, Zaqatalanın Tala kəndindən Tağıyev Bəxtiyar, Bərdədən Əlimərdanov Heydərin adlarını xatırlayır. Orada onları o qədər döyürmüşlər ki, az qala öz adlarını belə unudurdular. Girovlardan isə Kəlbəcər rayonundan olan İdris Həsənovu *(aldığı işgəncələr nəticəsində azad ediləndən sonra vəfat etmişdir – tərt.)*, Əli Məhərrəmovu və Ələkbər Səlimovu xatırlayır. Həbsxanada dörd ay saxlanmışlar. BQXK nümayəndələri türməyə baş çəkməyə gələrkən onları ayrı bir zirzəmiyə salaraq gizlədirmişlər. Bütün əsir-girovlarla amansızcasına davranırdılar. Mətləb Allahverdiyevlə birlikdə qardaşı Kamili, həmkəndlisi Faiqi və yuxarıda adlarını qeyd etdiyi iki qadını 1993-cü il sentyabrın sonlarında Yerevandan Noyemberyan rayonuna gətirmiş və bir neçə gün orada saxladıqdan sonra azad etmişlər.

Allahverdiyev Mirzə Saleh oğlu – 1952-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 12 mart 1992-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

26 fevral 1992-ci il tarixdə Ermənistan Silahlı Birləşmələri Xankəndi şəhərində yerləşdirilmiş Rusiyaya aid 366-cı motoatıcı alayın iştirakı ilə yaşadıqları Xocalı şəhərinə hər tərəfdən hücum etmişlər. Bütün şəhər əhalisi kimi Mirzə Allahverdiyev də canını qurtarmaq üçün şəhərdən çıxaraq meşəyə üz tutmuşdur. Lakin iki gün ac-susuz yol getdikdən sonra halsız vəziyyətdə girov götürülmüşdür. Onu Əsgəran Milis şöbəsinə aparmışlar. Vaqif adlı erməni və digərləri onu möhkəm döydüyü üçün huşunu itirmişdir. Əsgəran Milis şöbəsində girovlara dəhşətli işgəncələr vermiş, onun qabırğalarını sındırmış, dişlərini bıçaqla çıxarmışlar. Noraguhda saxlanarkən də onu və digər girovları hər gün döymüşlər. İşğal zamanı M.Allahverdiyevin atası Allahverdiyev Saleh İmanqulu oğlu, qardaşları –Allahverdiyev Novruz Saleh oğlu, Allahverdiyev Ziyadxan Saleh oğlu və qardaşı oğlu Allahverdiyev Mahir Novruz oğlu itkin düşmüşlər. Allahverdiyev Mirzə Saleh oğlu 12 mart 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Allahverdiyev Mülkədar İsa oğlu – 1976-cı ildə Bərdə rayonu, Cəyirli kəndində doğulmuşdur. 13 avqust 1995-ci il tarixdə əsir götürülmüş, 21 avqust 1995-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Daşkəsən rayonu, Alxanlı kəndi istiqamətində 6 nəfər döyüş yoldaşı ilə birlikdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Ermənistan hərbçiləri onları qurşağadək soyunduraraq suya salmış və əsgər kəməri ilə möhkəm döymüşlər. "Malakan" ləqəbli erməni Mülkədarın başını yarmış, əl barmağına bıçaqla xaç şəkli çəkmişdir. Kəlbəcər rayonu, Lev kəndindəki hərbi hissədə onları yenidən döymüş, Mustafayev Vaqif Sabir oğlunun gözünü partlatmışlar. Əsasən, "Bic" ləqəbli erməni əsgər onları amansızcasına döymüş və avtomatın süngüsünü qızdıraraq Mülkədarın ayağını deşmişdir. Sonra əsirləri Kəlbəcər şəhərinə aparmış, mütəmadi olaraq qəddarcasına döymüş, oradakı evlərin və tikinti materiallarının qarət olunmasına cəlb etmişlər. Bir müddətdən sonra əsirləri yenidən Lev kəndinə qaytarmışlar. Ermənistan hərbçiləri hər yerdə sərxoş halda əsirləri vəhşicəsinə döyürdülər. Anton adlı hərbçi təpiklə Mülkədarın burnunu sındırmış, saçından yapışaraq başını divara vurub yarmışdır. "Bic" ləqəbli erməni isə ayaq zərbələri ilə Mülkədarın qarnını yırtmışdır. Yumruq və ayaq zərbələrindən Rəşad adlı azərbaycanlı əsirin dişləri və barmaqları sınmışdır. Allahverdiyev Mülkədar İsa oğlu 21 avqust 1995-ci il tarixdə əsirlikdən azad edilmişdir.

Alışanov Budaq Əli oğlu – 1933–cü ildə Kəlbəcərdə doğulmuşdur. 30 avqust 1993-cü il tarixdə girov götürülmüş, 28 aprel 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Girov götürüldükdən sonra Ermənistan hərbçiləri tərəfindən işğal edilmiş Kəlbəcər rayonu, Həsənabad kəndində yerləşən istixanada saxlanılmışdır. İstixananın və qarajın müdiri tərəfindən taxta, ağac, təpik və yumruqla müntəzəm döyülmüşdür. Yaşlı olmasına baxmayaraq, qışın şaxtasında çaya girib suyun içində durmağa məcbur edilmişdir. Dəfələrlə başının üzərindən güllə atıb qorxudaraq gülüşmüş, psixoloji işgəncələr vermişlər. Demək olar ki, ac-susuz saxlanmış, onunla saxlanılan bir neçə nəfər əsir-girovu döyərək qətlə yetirmişlər. Alışanov Budaq Əli oğlu 28 aprel 1994-cü ildə girovluqdan azad edilmişdir.

Alışanov Elməddin Orucəli oğlu – 1970-ci ildə Azərbaycan Respublikası, Saatlı rayonunun Qıraqlı kəndində doğulmuşdur. 18 aprel 1994-cü il tarixdə əsir götürülmüş, 8 iyul 1995-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1994-cü il aprel ayının 18-də E.Alışanovun xidmət etdiyi hərbi hissə Ağdamın Cavahirli kəndi istiqamətində mühasirəyə düşmüşdür. Döyüş yoldaşı Abuzərov Abuzər əsir düşməmək üçün tankın altına atılaraq özünü öldürmüşdür. E.Alışanov isə 8 nəfər döyüş yoldaşı ilə birlikdə muzdlu rus hərbçiləri tərəfindən əsir götürülmüşdür. Onlardan Ağdam sakini 18 yaşlı Zahidi, Bakı sakinləri – Elçini və Ağanı xatırlayır. Rus hərbçiləri əsirləri tankın üstünə ataraq Ağdam rayon Milis idarəsinin binasına aparmış və Ermənistan hərbçilərinə təhvil vermişlər. Orada Artur adlı ermənistanlı hərbçi əsirlərə "Ruslar sizin hər birinizi bizə 200 ABŞ dollarına satırlar", – demişdir. Ağdam milisində mülki ermənilər əllərinə keçən küt alətlərlə, hərbçilər isə avtomatın qundağı ilə əsirləri döydüyü üçün asfalt al qana boyanmışdı. Döyüldükdən sonra E.Alışanovu əsir yoldaşlarından ayırıb 30-40 metr aralıda yerləşən təcridxanaya apararkən o, Zahidin meyitinin yerdə qaldığını və ermənilərin yaralıları sürüdüklərini görmüşdür. Bundan sonra o, əsir götürülmüş döyüş yoldaşlarını bir daha görməmişdir. Təcridxanada isə Bakı

şəhəri, A.Bakıxanov qəsəbəsindən olan Rauf adlı əsiri görmüşdür. Rauf onunla birlikdə Salyan rayon sakininin də əsir saxlandığını və ermənilərin onu aparıb güllələdiklərini demişdir. E.Alışanovu təcridxanaya Qarayan Boris Sarkisoviç adlı şəxs aparmışdı. Orada da o, erməni hərbçilər tərəfindən avtomatın qundağı və təpiklə təkrar olaraq döyülmüşdür. Hətta hərbi hospitalda işləyən Surik adlı həkim iki dəfə onu kameradan çıxarıb, dəmir dəyənəklə başını yarmış və qanının axmasına 10-15 dəqiqə tamaşa etmişdir. Təxminən 10 gün kamerada saxlandıqdan sonra 4 əsiri – Yəhyayev Afin Miryusif oğlunu, Quliyev Arzumuz Rza oğlunu, Eminov Vüqar Əhməd oğlunu və Babayev Emin Şəmsi oğlunu da onların yanına gətirmişlər. Ertəsi gün onu, yeni gətirilmiş 4 nəfərlə birlikdə "KAMAZ" markalı maşınla Xankəndindəki təcridxanaya aparmışlar. Orada onları bayıra çıxarıb saat 23:00-dan gecə saat 03:00-a qədər döymüşlər. Digər kameralarda da əsirlər saxlanılırmış. Bir aydan sonra əsirləri Həsənabad kəndinə aparıb əvvəl Samvel Babayanın *(separatçı Dağlıq Qarabağ rejiminin "müdafiə naziri" – tərt.)* istixanasında, sonra isə Xankəndi şəhərində tikdirdiyi villada işlətmişlər. Həsənabadda Movsesyan Henrix adlı erməni əsirləri Ağdam rayonuna aparıb onlara evləri sökdürür, tikinti materialları daşıtdırırdı. Henrixin qardaşı Artur və atası Qrişa isə villa tikintisi və istixana işinə rəhbərlik edirmişlər. Həsənabadda saxlanıldıqları zaman ermənilər Valehin heysiyyətinə toxunmağa cəhd göstərdikləri üçün o, tapdığı qranatı partladaraq Qarqar çayının yanında özünü öldürmüşdür. Orada erməni həkimin verdiyi dərmanı içdikdən sonra Füzulidən olan Vaqif adlı girov da ölmüşdür. Hərbi əsirlər – Arif, Anar və Amil Ağdamda işləyərkən qaçdıqları üçün, 1994-cü ilin noyabr ayında bütün əsirləri Həsənabaddan Şuşa həbsxanasına aparmışlar. Həbsxanada xeyli əsir və girov görmüşdür. Şuşa həbsxanasında nəzarətçilər əsir və girovları zoğal ağacının çubuğu, məftil və avtomat qundağı ilə döyürdülər. Yardımlı rayonundan olan 20 yaşlı, hündürboylu bir əsiri isə daha çox döyürmüşlər. Erməni nəzarətçilər azad edilməzdən iki gün əvvəl əsirlərdən birinin anal dəliyinə dəyənək soxmuş, bir gənc əsiri isə zorlamışdılar. Şuşa həbsxanasında nəzarətçi olan balaca Jirik əsirlərdən ikisini döyərək zorlamışdır. "Vor Zakon" adlandırılan Slavik əsirləri avtomatın qundağı və rezin dəyənəklə mütəmadi olaraq döyürmüş. Qor adlı nəzarətçi isə əsirlərin əllərini yanar siqaretlə dağlayırmış. Şuşa həbsxanasında o, əsirlərin qəddar adam kimi tanıdığı, "Xanım" ləqəbli erməni zabit qadın Elmira Ağayanı da görmüşdür. İşgəncələrdən yaraları çürümə verdiyindən, onu və Həbib adlı digər əsiri BQXK nümayəndəsi 1994-cü ilin dekabr ayında Xankəndi uşaq xəstəxanasına aparmışdır. 10-15 gündən sonra isə Yardımlıdan olan 20 yaşlı əsiri də yanlarına gətirmişlər. Ancaq aldığı zədələrin nəticəsində bir gündən sonra həmin əsir ölmüşdür. BQXK-nın iştirakı ilə əsirlər onun meyitini Malıbəyli kəndində dəfn etmişlər. Sonra xəstəxanaya gətirilən yaşlı bir girov kişi isə Elmira Ağayanın rəhbərliyi ilə üzərində sınaq aparıldığını və bədəninə lazer şüası verildiyini söyləmişdir. Qırmızı rəng almış gözündən davamlı su axan həmin girov kişinin dərisi də həddsiz qızarmışdı. Ümumiyyətlə, bir neçə girova şua verilmişdi. Onlardan biri əslən Ağdam rayonundan idi. Uşaq xəstəxanasında Mahmudov Nadir Sərməst oğlu, Məmmədov Əli Məhəmməd oğlu, Hadıyev Ağarəzi Ağakərim oğlu, Əliyev Həbib Əlibala oğlu, Nəsibov Ömər Nəsib oğlu, Əlizadə İqor Vladimir oğlu, Şükürov Fariz Teyyub oğlu və adlarını xatırlamadığı digər əsir-girovlar saxlanılırmış. E.Alışanov orada saxlanıldığı zaman Füzuli rayonu, Horadiz kənd sakini Mehman adlı şəxsi də xəstəxanaya gətirmişlər. Mehman əsirlərə Şuşa

həbsxanasında saxlandığını və ermənilərin bel ilə vurub qaraciyərini zədələdiklərini bildirmişdir. Aldığı xəsarətin nəticəsində 1995-ci il iyul ayının əvvəllərində Mehman qəflətən ölmüşdür. BQXK-nın nümayəndəsi Pyerin iştirakı ilə əsirlər Mehmanın da meyitini dəfn etmişlər. Elməddin Alışanov 8 iyul 1995-ci il tarixdə 15 nəfərlə birlikdə əsirlikdən azad edilmişdir.

Aslanov Qəyyum Bəhram oğlu – 1939-cu ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 12 aprel 1992-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

25 fevral 1992-ci il tarixdə gecə saat 22-23 radələrində yaşadıqları Xocalı şəhərinə genişmiqyaslı hücum başlanmışdır. Bütün gecə atışma davam etmişdir. Güclü qışqırıq səsləri eşidilirdi. Q.Aslanovun yalnız tir tüfəngi varmış. Ermənistan hərbçiləri artıq şəhərə dolmuşdular. Başa düşmüşdür ki, artıq qaçmaq gecdir, hasara qısılıb gizlənmiş, nə edəcəyini bilməmişdir. Hücumdan əvvəl ailəsini şəhərdən çıxardığı helikopterdə yer olmadığı üçün, anadangəlmə xəstə olan 17 yaşlı qızı Gülsabah evdə qalmışdı. Ermənilərin həyətə dolduğunu və qızını evdən bayıra çıxararaq ona sataşmaq istədiklərini görən Q.Aslanov, bu səhnənin şahidi olmaması üçün məcbur olub əlindəki tir tüfəngi ilə öz balasını, sevimli qızını güllələmişdir. Özü isə şəhərdən çıxan adamlara qoşularaq qaçmışdır. Növbəti gün səhər saat 7 radələrində onun da olduğu 5-6 nəfərlik dəstə mühasirəyə düşmüşdür. Müqavimət göstərmək mümkün olmadığı üçün girov götürülmüşlər. Onlar girov götürüldükləri vaxt Məmmədov Saday yaralı halda çayın içində qalmışdır. Onunla birlikdə Xocalının müdafiəsi zamanı dinc əhalini müdafiə edərək qəhrəmancasına şəhid olmuş milis zabiti, Azərbaycanın Milli qəhrəmanı Əlif Hacıyevin atası Məmmədov Lətif Süleyman oğlu, anası Əliyeva Filyar Əmrah qızı, bacısı Yeganə və qardaşı Süleyman da girov götürülmüşlər. Girov götürülərkən Ermənistan hərbçiləri onları qəddarcasına döymüşlər. Q.Aslanov uzun illər bir yerdə yaşadıqları yerli ermənilər yaxşı tanıdığı üçün, hücum edənlərin arasında daha çox Yerevandan gəlmiş xüsusi təyinatlı qüvvələrin olduğunu vurğulayır. Onların əllərindəki silahlar da fərqli imiş və daha çox amerikan və rus avtomat silahları ilə silahlanmışdılar. Onları əvvəlcə Xocalı şəhərindəki dükana yığmışlar. Orada çox adam var idi. Hamısını tanınmaz dərəcədə döymüşdülər. Süleymanı o qədər döymüşdülər ki, huşsuz və yarımcan halda idi. Sonra bir lafet gətirib hamını ora doldurmuşlar. Q.Aslanov son gücünü toplayaraq meyit kimi düşüb qalmış Süleymanı da lafetə qaldırmışdır. Hamını üst-üstə yığıb Xankəndi Milis şöbəsinə gətirmişlər. Milis idarəsinin həyətində girovları soyundurub qarın üstünə uzatmışdılar. Orada hərbçilər və milislərlə yanaşı, yerli əhali də girovları zopa, dəmir dəyənək və armaturlarla dözülməz dərəcədə döymüşlər. Uşağa-qocaya, qadına-kişiyə baxmır, haradan və necə gəldi, vəhşicəsinə vururdular. Sonra sürüyüb dar kameralara atmışlar. O, halsız vəziyyətdə kameraya qədər sürünsə də, sonrasını xatırlamır. Bu işgəncədən sonra Q.Aslanov bir ay heç kimi tanımamışdır. Onu kamerada dörd nəfərlə birlikdə saxlamışlar. Yalnız bir nəfəri – Bakı şəhəri, Binə qəsəbəsindən olan Elçini xatırlayır. Başından yaralı olan Elçini hamıdan çox döyürmüşlər. Sonra onu çıxarıb 11 nömrəli kameraya salmışlar. Şəhər sakinləri Qənahət, Əşrəf, Kamil, Əbülfət, Hüseyn, Abbasov Qədim, Qədimin qardaşı oğlu, Əli də o kamerada imiş. İşgəncələrin isə sonu görünmürdü. Xankəndində onun dörd dişini çəngəllə çıxarmışdılar. Mart ayının 17-də isə Xocalı sakini

Salahov Məhəmmədin başını erməni qəbrinin üstündə kəsmişlər. Qəyyum Aslanov 12 aprel 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Aslanova (Alışanova) Tamara Göyüş qızı – 1930-cu ildə Kəlbəcər rayonunda doğulmuşdur. 30 mart 1993-cü il tarixdə girov götürülmüş, 29 iyul 1994-cü il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü ilin mart ayında doğulub yaşadığı Kəlbəcər rayonu Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunarkən 63 yaşında və qadın olmasına baxmayaraq, girov götürülmüşdür. Girov götürülərkən pulları və qızılları Ermənistan hərbçiləri tərəfindən qarət edilmişdir. Sonra onu maşına mindirib Xankəndindəki uşaq bağçasına aparmışlar. Saxlanma şəraitinin dözülməz olması, ac-susuz saxlanıldıqları və azad etmədikləri üçün Əsli, Şaxanım və digərləri – bütövlükdə beş nəfər yaşlı girovun ölməsinin şahidi olmuşdur. Orada əslən Kəlbəcərdən olan 14 yaşlı Ofelya adlı qızı zorlamaq istəyən ermənistanlı hərbçi istəyinə nail olmadığı üçün avtomatdan atəş açaraq onu ağır yaralamışdır. Onlara baş çəkməyə gələn BQXK əməkdaşlarının verdiyi ərzaq və dərmanları da erməni nəzarətçilər döyərək əllərindən alırmışlar.

Aslanova (Alışanova) Tamara Göyüş qızı 29 iyul 1994-cü il tarixdə azad edilmişdir.

Babayev Eldar İmamverdi oğlu – 1963-cü ildə Füzuli rayonu, Aşağı Veysəlli kəndində doğulmuşdur. 4 yanvar 1993-cü il tarixdə girov götürülmüş, 26 aprel 1993-cü il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Yaşadığı Füzuli rayonunun Aşağı Veysəlli kəndi Ermənistan Silahlı Birləşmələri tərəfindən işğal olunan zaman girov götürülmüşdür. Xankəndi şəhər həbsxanasında saxlanılarkən onun yanına Göyçay rayonundan olan 23 yaşlı Mayıl Məmmədovu gətirmişlər. Onun qolu və ayağı ermənilər tərəfindən sındırılmış, sinəsinə isə xaç şəkli damğalanmışdır. Xocavənd həbsxanasında və Qırmızı Bazarda saxlanıldığı müddət ərzində hər gün əsirlər döyülmüş, bellərinə qaynar su tökülmüş, armaturla işgəncələr verilmişdir. Eldarın döş qəfəsində iki sol qabırğası sındırılmış, güclü təpiyin zərbəsindən qarnı partlamış və əməliyyat edilmişdir. Bir dəfə dörd nəfər əsirin və Füzuli rayonu, Seyidmahmudlu kənd sakini Qasımov Afiq Əjdər oğlunun belinə qaynar su tökərək onları yandırmışlar. Əsir-girovlara işgəncə verən ermənilərdən daha çox Artur adlı hərbçini xatırlayır. Xankəndində saxlanılarkən işgəncələrə dözməyərək 90 yaşlı Ovşar kişi ölmüş və orada dəfn edilmişdir. Qırmızı Bazarda mal fermasında saxlanılarkən hər gün oraya 3-4 nəfər erməni döyüşçü gəlir və əsir-girovların gözləri qarşısında bir girov qadını *(adı məlumdur – tərt.)* soyundurur və növbə ilə zorlayırmışlar. Ermənilər üzərlərinə silah çəkərək, Eldarı, Rəsulu və Afiqi də qadına qarşı əxlaqsız hərəkətlər etməyə məcbur etmiş, lakin əsirlər buna razılıq verməmişlər. O, 26 aprel 1993-cü il tarixdə girovluqdan azad edilmişdir.

Babayev Emin Şəmsi oğlu – 1968-ci ildə Bakı şəhərində doğulmuşdur. 23 avqust 1993-cü il tarixdə əsir götürülmüş, 13 dekabr 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Füzuli rayonu, Alxanlı kəndində Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Şuşa həbsxanasında saxlanılarkən Lyoxa adlı erməni xüsusi amansızlığı ilə

fərqlənirmiş. O, əsir və girovları armaturla döyürmüş. Döyülməkdən Bakı şəhərindən olan Nadir və Beyləqan rayonundan olan İlqar həlak olmuş, çoxlu sayda əsir-girov şikəst olmuş, dəlilik həddinə çatmışlar. Arzuman adlı azərbaycanlı əsir Mısmına kəndindən qaçdığına görə, orada olan 7 nəfər əsir-girovu geri qaytarmış və elə həmin gecə 20 nəfər seçib Mısmınaya göndərmişlər. Yol boyu erməni nəzarətçilər Armen, Samo, Qor onları dəmir parçaları ilə döyə-döyə hədə-qorxu gəlmişlər ki, cəsarət edib qaçmasınlar. 13 dekabr 1994-cü il tarixdə əsirlikdən azad edilmiş Babayev Emin Şəmsi oğlu 1995-ci ilin oktyabr ayının 28-də Bakı metropolitenində baş vermiş yanğın zamanı həlak olmuşdur.

Babayev Kamil İdris oğlu – 1969-cu ildə Sabirabad rayonu, Qaratoqay kəndində anadan olmuşdur. 15 fevral 1994-cü il tarixdə əsir götürülmüş, 11 dekabr 1995-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonu, Susuzluq kəndi ərazisində Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Onları qazmaya apararaq, bir gün ac-susuz saxlamış, avtomatın qundağı və digər küt alətlərlə vəhşicəsinə döymüşlər. İki gündən sonra Kəlbəcər şəhərində yerləşmiş hərbi hissəyə aparmışlar. Orada əsirlərə dəhşətli işgəncələr vermişlər. Tanımadığı bir nəfərin qızıl dişlərini adi kəlbətinlə çıxarmışlar. Sonra K.Babayevin ağzındakı titan dişləri də qızıl bilərək çıxarmağa cəhd etdikdə, o, huşunu itirmişdir. Xankəndində müvəqqəti saxlama məntəqəsində hündürboylu, arıq, qarabəniz, 30-35 yaşlı Qaqo adlı və ortaboylu, kök, qara, 30-35 yaşlı Karen adlı erməni nəzarətçilər onu döyərək siqaret kötükləri yedirtmiş, əsirləri soyuq havada ayaqyalın gəzməyə məcbur etmişlər. Şuşa həbsxanasında saxlanıldığı az bir müddətdə müntəzəm olaraq vəhşicəsinə döyülmüş və ağır işgəncələrə məruz qalmışdır. Saxlandığı müxtəlif yerlərdə qul kimi işlədilmişdir.

Babayev Kamil İdris oğlu 11 dekabr 1995-ci ildə əsirlikdən azad edilmişdir.

Babayev Qərib Söhrab oğlu – 1970-ci ildə Azərbaycan Respublikası Zəngilan rayonu, Çöpədərə kəndində doğulmuşdur. 16 dekabr 1991-ci il tarixdə girov götürülmüş, 6 yanvar 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1991-ci ilin dekabr ayının 16-da Zəngilan rayonundan "Bakı-Şərur" sərnişin qatarı ilə Naxçıvan şəhərinə gedərkən Ermənistanın Mehri rayonu ərazisində silahlı ermənilər tərəfindən girov götürülmüşdür. Hadisə zamanı qatarda olan 200 nəfərə yaxın azərbaycanlı sərnişin də təxminən dörd saat stansiyanın gözləmə zalında saxlanılmışdır. Sərnişinlərin sənədləri yoxlandıqdan sonra onların əksəriyyəti buraxılmışdır. Sənədi olmadığı üçün Q.Babayevi, eyni zamanda Zəngilan rayon sakini Abbasov Sərvər İdris oğlunu, Şamaxı rayon sakini, milis serjantı Əsədov Xanbala Ağabala oğlunu və adlarını bilmədiyi Naxçıvan Muxtar Respublikası sakinləri olan ata-oğulu girov götürərək Mehri Rayon Milis şöbəsinə aparmışlar. İki gündən sonra ata və oğlunu azad etmiş, digər 3 nəfəri isə Milis şöbəsinin təcridxanasında saxlamışlar. Təcridxanada saxlandıqları müddətdə ermənilər onlara mənəvi-psixoloji və fiziki işgəncələr verir, avtomat qundağı, təpiklə başlarına zərbələr vururmuşlar. Dörd gündən sonra Sərvər Abbasovu onlardan ayırıb, Panos adlı erməninin evinə aparmışlar. İki gündən sonra yenidən onların yanına qaytarılan Sərvərin dediyinə görə, Panos adlı erməni onu evinin zirzəmisində əl-ayağı

bağlı şəkildə saxlamış, tüfəngi başına dirəyib onu öldürəcəyi ilə hədələmişdir. Dekabrın 26-da Sərvəri yenə də onlardan ayırıb aparmışlar və Q.Babayev onu bir daha görməmişdir. 6 yanvar 1992-ci il tarixdə Qərib Babayevi və Xanbala Əsədovu Ordubad rayonunun Kotanlar kəndi ərazisində Naxçıvan MR Daxili İşlər Nazirliyinin əməkdaşlarına təhvil vermişlər.

Bağırov Sahib Qərib oğlu – 1975-ci ildə Azərbaycan Respublikası Ağstafa rayonu, Zəlimxan kəndində doğulmuşdur. 5 sentyabr 1995-ci il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1995-ci il sentyabrın 5-də səhər tezdən xidmət etdiyi hərbi hissənin istifadəsi üçün çayın kənarından odun yığarkən Ermənistan kəşfiyyatçıları tərəfindən əsir götürülmüşdür. Hadisə zamanı əsgər yoldaşları düşməni atəşə tutaraq onu xilas etməyə çalışsalar da, məsafə uzaq olduğu üçün bu, mümkün olmamışdır. Ermənistan hərbçiləri Sahib Bağırovu 100-150 metr aralıda yerləşən blindaja aparıb, avtomat qundağı və odun parçaları ilə möhkəm döymüşlər. Sonra isə 8 əsgər onu yerə yıxıb, haradan gəldi təpikləmişlər. Həmin axşam onu Xankəndində yerləşən təcridxanaya aparmışlar. Orada onu sorğu-sual etmiş, hərbi hissədə əfqan, rus və türk muzdluların, snayper qızların olub-olmadığını, hansı dövlətlərdən silah-sursat və texnika gətirildiyini soruşmuşlar. Bu sualların cavabını bilmədiyini söylədiyi üçün, "Alazan" ləqəbli kapitan rütbəli Artur, serjant rütbəli Vartan və adını bilmədiyi idman geyimli, eynəkli erməni onun ağzını zorla açaraq, 5 dişini adi mismar kəlbətini ilə çıxarmışlar. Həmin gün axşam isə Ermənistan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Artur adlı əməkdaşı və adını bilmədiyi digər bir şəxs ondan Gəncə şəhərində Rusiyaya aid taborun olub-olmadığını soruşmuşlar. S.Bağırov Gəncə şəhərində heç vaxt olmadığını, hərbi xidmətə gedənədək kəndlərində qoyun otardığını və kənara çıxmadığını bildirmişdir. Bu cavabı alan Artur onun barmaqlarını qapının arasına qoyub sıxmış, digər erməni isə iri maqqaşla onun iki barmağının dırnağını çıxarmışdır. Sonra isə çıxarılmış dırnaqlarının yerinə duz töküb sarımışlar. Əvvəllər Mingəçevirdə yaşadığını və orada işlədiyini deyən Artur rezin dəyənəklə vurub çənəsini sındırmışdır. S.Bağırova gündə bir dəfə bir tikə quru çörək və bir stəkan su vermişlər. Onu beton döşəməli, içərisində yatmaq və oturmaq üçün heç bir əşya olmayan kamerada saxlayırmışlar. Soyuq betonun üstündə oturur və yatırmış. Axşamlar isə Ermənistan Ordusunun əsgərləri rezin dəyənəklə, təpiklə onu müntəzəm olaraq döyürmüşlər. Təxminən bir aydan sonra onu Şuşa türməsinə apararaq orada tək saxlamışlar. Vartan və Armen adlı serjantlar, Serjik adlı leytenant və adlarını bilmədiyi ermənilər armatur, dəyənək və odunla onu davamlı olaraq döymüşlər. Bir aydan sonra Xaçmaz rayon sakini, əsir götürülmüş Rüstəmov Adil Baxşı oğlunu da onun saxlandığı kameraya gətirmişlər. Adlarını bilmədiyi dörd erməni onları təpik, yumruq və dəyənəklə döymüşdür. Bir dəfə isə Vartan adlı erməni təpiklə onun qaşını partlatmış və yerinə duz basaraq ona əzab vermişdir. Bir həftədən sonra BQXK-nın nümayəndəsi Pyer hər ikisini qeydiyyata almış və başqa kameradakı azərbaycanlı əsirlərin yanına köçürmüşdür. Orada Cəbrayıl rayon sakini Verdiyev Camal Soltan oğlu, Ağdam rayonu, Güllücə kənd sakini Muradov İsrail Mürşüd oğlu, Bakı şəhər sakini İsmayılov İsrail Sarif oğlu, Kəlbəcərdən Ələkbərov Elxan Eyyub oğlu və adlarını xatırlamadığı digər əsirlər saxlanılırmış. 10 gündən sonra onu, Muradov İsrail Mürşüd oğlunu və İsmayılov İsrail Sarif oğlunu

Xankəndindəki 4-cü tabora aparmışlar. Orada Novruzu və Bakı şəhər sakini Məhərrəmov Pənah Şahmar oğlunu görmüşdür. Tabor komandiri Karo adlı erməni onları Ağdama aparıb sökülmüş mişar daşlarını maşına yığdırır, Şuşaya daşıtdırırmış. Həmin daşlardan Şuşa türməsinin rəisi üçün Xankəndindən Ağdama gedən yolun kənarındakı bazarın yanında və Şuşa məscidindən yuxarıda dördmərtəbəli evlər tikilirdi.

Təxminən iki aydan sonra əsirləri yenidən Şuşa türməsinə aparmışlar. Şuşa türməsində saxlanılan zaman S.Bağırovu və bakılı İsraili şəhərdəki qəbiristanlığa aparıb, azərbaycanlıların məzarlarındakı mərmərdən olan baş daşlarını və alüminiumdan olan şəbəkələri sökdürmüşlər. Həmin daşları və şəbəkələri İrandan gətirilən kartofla dəyişirdilər. Şuşa türməsində Göyçay sakini Fikrətin qolunda Azərbaycan Respublikasının Dövlət gerbinin döyüldüyünü *(tatuirovkasını – tərt.)* görən ermənilər onun qolunu yandırmışlar. Xankəndində təcridxanada saxlanıldıqları zaman adını bilmədiyi ermənilər kameraya xlorlu su tökmüşlər. Su topuqlarından yuxarı qalxırdı. Sonra isə suyu parça qırığı ilə əsirlərə yığdırırmışlar. Budaqov Məhərrəmin bədəninə qızmar şişlə xaç şəklində damğa vurmuşlar. Şuşa türməsində saxlanarkən Əyyubov Rəbi əsirlərə Karo adlı ermənin onun başına şüşə qoyub nişan aldığını, güllənin başının dərisini sıyırıb apardığını bildirmişdir. Artur adlı erməni əsirləri bir-birinə döydürür, onları bir-birini zorlamağa məcbur edir, su şüşəsi üstündə oturdurmuş *(adları məlumdur – tərt.)*. Təhlükəsizlik idarəsinin binasında saxlanılarkən Albert Voskanyan adlı erməni onu və Elmxanı nəzarətçilərə döydürmüşdü. O, əsirlərin döyülməsinə baxıb ləzzət alırmış. Əsirləri qaranlıq zirzəmiyə salaraq, xlorlu suyun içində səhərədək saxlayırmışlar. Bütün bunlar Albert Voskanyanın nəzarəti altında edilirmiş.

Bağırov Sahib Qərib oğlu 10 may 1996-cı il tarixdə Rusiyanın vasitəçiliyi ilə əldə edilmiş razılığa əsasən azad edilmişdir.

Baxşəliyev Elmxan Ataxan oğlu – 1973-cü ildə Azərbaycan Respublikası Hacıqabul rayonu, Udulu kəndində doğulmuşdur. 10 dekabr 1992-ci il tarixdə əsir götürülmüş, 10 may 1996-cı il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci il dekabr ayının 10-da, səhər saat 6:00-da Ermənistan Silahlı Qüvvələri Azərbaycan Respublikasının Zəngilan rayonu, Qazançı kəndindəki mövqelərinə hücum etmişlər. Hücum zamanı E.Baxşəliyevin iki döyüş yoldaşı həlak olmuşdur. Ayağından yaralanmış Zaqatala rayon sakini Tağıyev Bəxtiyar, Qax sakini Məhərrəmov Məhərrəm və Elmxan Baxşəliyev Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Ermənilər avtomatın qundağı, təpik və dəyənəklə onları möhkəm döymüş, qollarını və gözlərini bağlayıb maşına mindirərək, Ermənistanın Qafan rayonuna aparıb, həbsxanaya bənzər yerə salmışlar. Orada əsirləri döyə-döyə sorğu-sual etmişlər. Əsirləri "Bizdən nə istəyirsiniz, niyə döyüşürsünüz?" – deyə döyür, torpaq yedirirmişlər. E.Baxşəliyevin altı dişini avtomat qundağı ilə vurub sındırmışdılar. Sorğu-sual zamanı onun başından, bədəninin müxtəlif yerlərindən elə zərbələr vururdular ki, tamam al qana bulaşırdı və tez-tez huşunu itirirdi. Ancaq su tökərək ayıldır, sonra yenidən döyürdülər. Hər gün təkrar olunan işgəncələr altında 18 gün orada saxlamışlar. Hərbi geyimli ermənilər əsirləri Azərbaycan dilində sorğu-sual edir, əllərinə keçən küt alətlərlə döyürdülər. 18 gündən sonra Nanaqulyan Anjela adlı 30-35 yaşlarında sarışın, ortaboylu bir erməni qadın və Stepanyan Zaxar adlı 40 yaşlarında hündürboylu erməni hərbçi E.Baxşəliyevi

saxlanıldığı yerdən çıxarıb, Ermənistanın Vayk rayonunun Zaritap kəndinə – Stepanyan Zaxarın evinə aparmışlar. Anjelanın atası, anası, oğlu və bacısı da orada yaşayırdı. O, Zaritapda səkkiz ay saxlanılmışdır. Bu müddətdə ona evdə, həyətdə ağır işlər gördürür və döyürmüşlər. 1993-cü ilin avqust-sentyabr aylarında Anjelanın ailəsi Xankəndinə köçməyi qərara alır. Onlar əslən qarabağlı idilər. Ailənin əşyalarını "KAMAZ" markalı yük maşınına yığıb yola düşmüşlər. Nanaqulyan Anjelanın dediyinə görə, E.Baxşəliyevi saxlamaqda məqsədi Azərbaycan tərəfə əsir düşmüş qardaşı Nanaqulyan Armen Andranikoviçlə dəyişdirmək imiş. Lakin Armenin döyüş zamanı ölməsi barədə xəbər aldıqdan sonra Anjelanın ona münasibəti daha da pisləşmişdi. Stepanyan Zaxar E.Baxşəliyevə Anjelanın əslində onu öldürməyə apardığını demiş, bacarsa, qaçmasını tövsiyə etmişdi. Zaxarın bu tövsiyəni nə üçün etdiyini hələ də anlamır, çünki o da E.Baxşəliyevi müntəzəm olaraq döyürdü. Həmin gün Xankəndinə köçərkən Anjela, onun anası, Armenin oğlu Aşot və E.Baxşəliyev maşının yük yerində gedirmişlər. Təxminən 5-6 km getdikən sonra E.Baxşəliyev özünü maşından atıb qaçmışdır. Bir gün dağda gizlənmiş və gecəni orada qalmışdır. Səhər tezdən yoluna davam etmək istəyərkən, erməni hərbçiləri onu mühasirəyə alıb yenidən tutmuş və Vəng rayonunun Milis idarəsinə aparmışlar. Orada Anjela E.Baxşəliyevi döymək istəmiş, lakin milislər onu Sisian rayon Daxili işlər idarəsinə göndərmişlər. Orada iki azərbaycanlı əsir – Bakı şəhər sakini Salahov Bəxtiyar və Göyçay rayon sakini Ömərov Araz saxlanılırmış. Sisian Milis idarəsində də əsirləri müntəzəm döyüb işgəncə vermişlər. Onlara ən çox işgəncə verənlərdən biri Ağali adlı ortaboylu, normal bədənli, sarıyanız, 35 yaşlı leytenant rütbəli erməni zabiti imiş. O, E.Baxşəliyevi döyür, Azərbaycan dilində mahnı oxumasını tələb edirdi. Oxumaqdan imtina etdiyi üçün, daha şiddətlə döyürdü. Döyərkən daha çox rezin dəyənəkdən istifadə edirdi. Ağali Azərbaycan dilində təmiz danışır, hətta "Mən də sizdənəm, məni ermənilər tutub", – deyirmiş. Amma o, sifət quruluşundan ermənivə oxşayırdı. Sisian Milis idarəsinin rəisi Azoyan adlı erməni idi. Ermənilər əsir və girovları istixanada, həmçinin fermalarda işlədirdilər. Ağali və digər erməni hərbçilər tez-tez sərxoş vəziyyətdə kameraya daxil olaraq silahı əsirlərin başına dirəyir, onları öldürəcəkləri ilə hədələyir, iş az olanda boş qalmasınlar deyə şəxsi maşınlarını gündə 4-5 dəfə yudurdurmuşlar. Acından ölməsinlər deyə qabaqlarından qalan artıq yeməyi əsirlərə verirmişlər. Sisianda saxlanıldığı vaxt müxtəlif vaxtlarda soyadlarını bilmədiyi mülki geyimli Kəlbəcər sakini, 50-55 yaşlı Əlini, Qubadlı sakini Ələkbəri, 30-35 yaşlı İdrisi, 30-35 yaşlı Abdullanı, Laçın sakini Əliyev Əlifi, Cəlalı və Fərhadı da oraya gətirmişlər. Sisian Milis idarəsində altı ay saxlandıqdan sonra "Niva" markalı maşına mindirilərək Yerevan həbsxanasına aparılmışdır. Orada isə adlarını unutduğu dörd əsir və bir girov azərbaycanlını görmüşdür. Onların sonrakı taleyindən xəbərsizdir. Təxminən üç aydan sonra əsir və girovların dəyişdirilməsi ilə məşğul olan, mayor rütbəli Albert adlı erməni E.Baxşəliyevi Yerevan hava limanında helikopterə mindirərək, Xankəndindəki təcridxanaya aparmışdır. Orada Füzuli rayon sakini Quliyev Marks Eyniş oğlunun, Kəlbəcər sakini Qarayev Bəşir Qəzənfər oğlunun, Ağdam sakini Əliyev Xəqani Vəliyəddin oğlunun saxlanıldığını görmüşdür. Xankəndi müvəqqəti saxlama təcridxanasında saxlanıldığı iki ay ərzində hər gün dəhşətli dərəcədə döyülmüşdür. Nəzarətçilərlə yanaşı, onu həbsxanada dustaq olan ermənilər də döyürmüş. Onlardan ikisinin kamerası həmişə açıq saxlanılır, istədikləri vaxt E.Baxşəliyevi çıxarıb kame-

ralarına aparır, kətil, idman hantelləri və s. ilə döyürmüşlər. E.Baxşəliyevi onların yanına nəzarətçilər aparırmış. 1994-cü ilin təxminən iyul-avqust aylarında E.Baxşəliyevi Xankəndində yerləşən 4-cü tabora aparmışlar. Tabor komandiri balacaboylu, möhkəm bədənli, 35-40 yaşlarında Karo adlı erməni idi. Dördüncü taborun kameralarında azərbaycanlı əsir-girovlar – Füzulu rayon sakini Qarayev Həsən, Bakı şəhər sakini Pənah, Beyləqan rayon sakini Fədail, Bərdə rayonu, Gülgəzli kənd sakini Zabil, Kəlbəcər rayon sakini Zamin *(16 yaşlı – tərt.),* Beyləqan rayon sakini Fədai, 25 yaşlı hərbçi Aleksey, Kəlbəcər rayon sakini Novruz və adını unutduğu, 50-65 yaşlarında olan digər Kəlbəcər sakini saxlanılırmış. Orada E.Baxşəliyevi daha çox Qarabağdan olan, 29 yaşlı Sergey adlı gizir rütbəli erməni döyürmüş. O, bellə, lomla və dəyənəklərlə döyür, aramsız işgəncələr verirdi. Qışın şaxtasında buz bağlamış ağaclara çıxarıb, budaqlardakı qarı yalın əllə təmizlətdirirdi. E.Baxşəliyevin əlləri-ayaqları donur, qar bədəninə dolurmuş. Sergey digər əsirlərlə də bu cür davranırmış. Əsir-girovları müntəzəm olaraq zabitlərin və mülki şəxslərin həyətlərində ağır işlərdə qul kimi işlədirmişlər. İşləyən zaman mülki şəxslər tərəfindən də vəhşicəsinə döyülürmüşlər. Üstlərinə təlim görmüş itləri buraxır, itlər əsirləri dişləri ilə didərək qana boyayırmışlar. Bu səhnəyə tamaşa edən ermənilər isə gülüşürdülər. Bir müddətdən sonra erməni əsgərlərindən Xəqani ilə Marks adlı əsirlərin qaçdığını eşitmişlər. Bundan sonra ermənilər qaçmaq istəyənlərin tanınması üçün əsirlərin bir qaşını qırxmışlar. Ermənilər mütəmadi olaraq əsirləri dəyənək sınanadək döyür, sonra isə onu bel və armaturla əvəz edirdilər. Bir gün soyuq hava şəraitində erməni əsgər E.Baxşəliyevə maşın yudurtmaq istəmiş, ancaq o, imtina etdiyi üçün avtomatın qundağı ilə döyərək qolunu sındırmışdır. Bir həftə ərzində onun sınmış qoluna heç bir tibbi yardım göstərilməmişdir. Yalnız BQXK-nın Pyer adlı nümayəndəsi onu gördükdən sonra Şuşa həbsxanasına aparmış, orada bu təşkilatın Rud adlı tibb bacısı tərəfindən müalicə olunmuşdur. Şuşa həbsxanasında 25-30 əsir və girov görmüşdür. Orada əsirlər ermənilər tərəfindən lom, bel və rezin dəyənəklə döyülürmüş. Müalicə olunduqdan sonra onu yenidən Xankəndindəki 4-cü tabora qaytarmışlar. Orada əsirləri gündüzlər tabor komandiri Karonun Xankəndində tikdirdiyi evdə işlədirdilər. Tikinti materialları Ağdamdan gətirilirdi. Ağdamda işlədilən Xəqani, Marks və Bəşir, ermənilərin məsciddən başqa bütün yerləri dağıtdıqlarını və onlara qəbiristanlıqdan mərmər daşları və alüminium materialları sökdürüb daşıtdırdıqlarını deyirdilər. Taborun qərargah rəisi Sasun adlı zabit bir dəfə beyləqanlı Fədaini huşunu itirənə qədər döymüşdür. Əsirləri özlərinin və digər ermənilərin həyətlərinə apararaq müxtəlif işlərdə istifadə edirdilər. Hər gün gecə yarısı bayıra çıxararaq, küt alətlərlə döyürdülər. Tabor komandirinin siyasi işlər üzrə müavininin köməkçisi Sergey isə əsirləri xüsusi qəddarlıqla döyürmüş. 1996-cı il may ayının 5-də bütün əsir-girovlar BQXK nümayəndəsi Pyer tərəfindən Şuşa həbsxanasına aparılmışdır. Bir neçə gündən sonra səhər saat 10:00 radələrində onlarla əsir-girovu Yerevana apararaq qaraja bənzər yerə salmışdılar. Orada gecə səhərədək Ermənistan hərbçiləri onları küt alətlərlə döymüş, ağır işgəncələr vermişlər. Səhər əsirləri döyülmüş vəziyyətdə görən BQXK-nın əməkdaşı Pyer göz yaşlarını saxlaya bilməmiş və ağlamışdır. 1996-cı il may ayının 10-da 67 nəfər əsir-girovu Yerevan hava limanına aparmış və beynəlxalq vasitəçilərin iştirakı ilə Azərbaycana göndərərək azad etmişlər.

Bayramov Ağagül Əliəhməd oğlu – 1970-ci ildə Azərbaycan Respublikası Ağsu rayonu, Göydəlləkli kəndində doğulmuşdur. 12 yanvar 1994-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Füzuli rayonunun Əbdürrəhmanlı kəndinin müdafiəsi zamanı – 12 yanvar 1994-cü il tarixdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Həmin ilin oktyabr ayınadək Xankəndində yerləşən 366-cı alayın ərazisində saxlanılmışdır. Orada əsirləri kənd təsərrüfatı işlərində, tikintilərdə, Ağdam rayonu ərazisində mişar daşından tikilmiş evlərin sökülməsində və Xankəndinə daşınmasında istifadə edirmişlər. Erməni hərbçilər və mülki ermənilər müntəzəm olaraq əsir-girovları döyür, təhqir edir və işgəncə verirmişlər. Hərbçilər onları, əsasən, alayın ərazisində döyürmüş. Onlar küt alətlərlə əsir-girovların bədəninin bütün hissələrinə vururdular. Silahla başlarının üstündən atəş açaraq yerə uzanmağa məcbur edir, silah qundağı və digər küt alətlərlə ayaqlarına, kürəklərinə, boyun və bel nahiyələrinə ağır zərbələr endirirdilər. Mülki şəxslər isə onları işlədikləri zaman döyürmüşlər. Ermənilər bütün türklərə nifrət etdiklərini gizlətmirdilər. Əsir-girovları döyərkən Qarabağ torpaqlarının, hətta Azərbaycanın Kürə qədər böyük bir hissəsinin Ermənistana məxsus olduğunu bildirirdilər. Mülki şəxslər tərəfindən döyülərkən əsirlərdən kimsə onları bu işdən vaz keçməyə səsləyirdisə, nəzarətçilər ayaqlarının altından və başlarının üstündən atəş açaraq, onları daha şiddətlə döyürmüşlər. Xankəndində saxlandıqları müddətdə Füzuli rayon sakini Zakir və Horadiz qəsəbə sakini Rafiq adlı hərbi əsirlər işgəncələr nəticəsində aldıqları xəsarətlərdən ölmüşlər. Onlar A.Bayramovdan təxminən 8-9 ay əvvəl əsir götürülmüşdülər. Zakir ölməmişdən qabaq Artur və Armen adlı erməni hərbçilərin onun kürək nahiyəsinə vurduqları zərbələrdən sonra daxili orqanlarında güclü ağrıların başlandığını demişdi. Rafiq isə erməni hərbçiləri Maksim, Armen və Slavik tərəfindən döyüldükdən sonra tez-tez qan qusurmuş. Onların hər ikisi qətl edildikdən sonra digər əsirlər tərəfindən Malıbəyli qəbiristanlığında üzərində heç bir işarə qoyulmadan, adyallara bükülərək dəfn olunmuşlar.

Bayramov Ağagül Əliəhməd oğlu 10 may 1996-cı il tarixdə əsirlikdən azad edilmişdir.

Bayramov Məhəmməd Qədim oğlu – 1962-ci ildə Azərbaycan Respublikası Ağstafa rayonunun Tatlı kəndində doğulmuşdur. 26 mart 1992-ci il tarixdə girov götürülmüş, 30 mart 1992-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ağstafa rayonu, Köhnə Qışlaq kənd sakinləri – Həsənov Tağı Rəfi oğlu, onun oğlanları – Həsənov Həsən Tağı oğlu, Həsənov Füzuli Tağı oğlu, Həsənov Zülfüqar Tağı oğlu və Tatlı kənd sakini Kərimov Bəkir Kərim oğlu ilə birlikdə 26 mart 1992-ci il tarixdə, saat 12:00 radələrində Ermənistanla sərhədə yaxın yerdə yerləşən "Qələmçə" adlanan ərazidə yaztarla işləri ilə məşğul olarkən, 9 nəfər hərbi geyimli silahlı erməni tərəfindən girov götürülmüşlər. Silahlı ermənilər girovları Ermənistan Respublikasının Berd rayonuna aparmış və Milis şöbəsinin təcridxanasına salmışlar. Bir gecə orada qaldıqdan sonra Məhəmməd Bayramovu və Həsənov Füzuli Tağı oğlunu Milis şöbəsinə, digər dörd nəfəri isə Yerevan şəhərinə aparmışlar. 29 mart 1992-ci il tarixdə, saat 10:00 radələrində iki nəfər hərbi geyimli şəxs onların saxlandığı kameraya gəlmişdir. Onlardan biri masanın üstünə bir bıçaq qoymuş və demişdir: "Mən yarım saata qayıdacağam, bu müddət

ərzində siz bir-birinizin qulağını kəsməlisiniz". Yarım saatdan sonra həmin şəxs qayıtmış və istədiyini etmədikləri üçün hər ikisini qəddarcasına döymüşdür. O, təpik və yumruqla əlləri bağlı olan girovların bədənlərinin hər tərəfinə vururdu. Sonra o, bıçağı götürüb Məhəmməd Bayramovun sol qulağını kəsməyə başlamışdı. Ancaq nədənsə, bir az kəsəndən sonra bıçaq sınmışdı. Lakin o, başqa bir bıçaq götürərək, tiyəsini dəmirə sürtərək kütləşdirmiş və Məhəmməd Bayramovun qulağının yarısını kəsərək özü ilə aparmışdı. Yaradan qan axmasına baxmayaraq, heç kim ona kömək etməmişdir. Yalnız 5-6 saat keçdikdən sonra mülki geyimli şəxslərlə bərabər gəlmiş həkim gətirdikləri kəsilmiş qulaq hissəsini yerinə tikmiş və sarımışdı. Ancaq artıq çox gec olduğu üçün və tibbi qaydalara əsasən tikilmədiyinə görə, qulaq bitişməmiş və çürüyüb tökülmüşdü. 30 mart 1992-ci il tarixdə, gecə saat 05:00 radələrində bir nəfər hərbçi Məhəmməd Bayramovu və Həsənov Füzuli Tağı oğlunu avtomobillə Köhnə Qışlaq kəndinin yaxınlığına gətirmiş və azad olunduqlarını söyləyərək, onları buraxmışdır.

Bayramova Sürəyya Qəmbər qızı – 1930-cu ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 27 fevral 1992-ci il tarixdə girov götürülmüş, bir neçə gündən sonra azad edilmişdir. İfadəsində bildirmişdir:

26 fevral 1992-ci il tarixdə yaşadıqları Xocalı şəhəri Ermənistan Silahlı Qüvvələri və Rusiyaya aid 366-cı alay tərəfindən işğal edilərkən əhali ilə birlikdə meşəyə qaçmışlar. Gecəni meşədə qalmışlar. Meşədə olarkən şəhər sakinləri Səfaralı, Əsgər, Allahverdi və tanımadığı bir çox adam soyuqdan və aclıqdan ölmüşdür. Ermənilərin yaşadığı Dəhraz kəndi istiqamətində mühasirəyə düşmüşlər və qeyri-bərabər döyüşdə 16 nəfər qətlə yetirilmişdir. Digərlərini isə girov götürmüş və ağır işgəncələrə məruz qoymuşlar. Orada 40 nəfər kişini seçib naməlum istiqamətdə aparmış, 13 nəfər cavan oğlanı isə bayıra çıxarıb güllələmişlər. Cavan qız-gəlinləri zorlamışlar. Soyqırımı zamanı Sürəyya Bayramovanın dörd nəfər yaxını qətlə yetirilmişdir.

Bayramov Şirin Əliəhməd oğlu – 1972-ci ildə Azərbaycan Respublikası Ağsu rayonu, Göydəlləkli kəndində doğulmuşdur. 12 yanvar 1994-cü il tarixdə əsir götürülmüş, 20 sentyabr 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1994-cü ilin yanvar ayının 12-də Füzuli rayonunun Əbdürrəhmanlı kəndinin müdafiəsi zamanı əsir götürülmüşdür. Əsir götürüldükdən sonra Xankəndi şəhərinə aparılmış və orada Rusiyaya aid 366-cı alayın ərazisində saxlanılmışdır. Alayın hərbçiləri əsirləri işğal olunmuş ərazilərdəki evlərin və digər tikililərin sökülməsində, daşınmasında işlədirmiş. Günün 15-20 saatını işləmələrinə baxmayaraq, əsirlər erməni hərbçiləri və mülki şəxslər tərəfindən davamlı şəkildə döyülür, təhqir edilir, işgəncələrə məruz qalırmış. İşə aparıldıqları vaxt isə yol boyu mülki şəxslər tərəfindən daş-qalaq edilirmişlər. Əgər mülki şəxslər tərəfindən döyülüb-söyülərkən onlara cavab verərdilərsə, hərbçilər başları üzərindən atəş açır, onları yerə yıxıb kürəklərinə, başlarına və qarın nahiyələrinə təpiklə zərbələr endirirdilər. Əsirləri sıraya düzür, bel, lom, buraz, rezin dəyənək, təpik, yumruq, avtomat qundağı ilə döyürmüşlər. Müntəzəm döyülməkdən əsir-girovların hamısı qan içində idi. Qor, Lyoxa, Emil, Slavik, Raçik, Arsen, Valera, Armen və Artur adlı erməni hərbçiləri küt alətlərlə onların bədənlərinin bütün nahiyələrinə, əsasən də kürək və qarın boşluğuna güclü təsir edən, şiddətli ağrılar verən

zərbələr endirirdilər. Hərbçilər, həmçinin əsirlərin qolunda, sinəsində, əllərində və digər bədən üzvlərində yanan siqaretləri söndürürmüş. Dözülməz işgəncələrin nəticəsində Zakir və Rafiq adlı əsirlər müxtəlif vaxtlarda ölmüşlər. Zakir işgəncələr nəticəsində tez-tez daxili orqanlarının dözülməz ağrılar verdiyini, Artur və Armenin ona verdiyi işgəncələrə artıq dözə bilmədiyini deyirmiş. Danışmağa halı qalmamış Rafiq erməni hərbçiləri tərəfindən döyüldükdən sonra qan qusurmuş. Bütün bunlardan xüsusi zövq alan hərbçilər isə yaxın vaxtlarda türkləri məhv edərək, "Böyük Ermənistan" yaradacaqlarını deyirmiş.

Bayramov Şirin Əliəhməd oğlu 20 sentyabr 1994-cü ildə əsirlikdən azad edilmişdir.

Bəndəliyev Maşallah Kazım oğlu – 1930-cu ildə Azərbaycan Respublikası Laçın rayonu, Ərdəşəvi kəndində doğulmuşdur. 18 may 1992-ci il tarixdə girov götürülmüş, 16 noyabr 1993-cü ildə azad olmuşdur. İfadəsində bildirmişdir:

1992-ci il may ayının 18-də yaşadığı Ərdəşəvi kəndinin sakinlərinə aid qoyun sürüsünü otarmaqdan qayıdarkən kəndlərinin artıq boş olduğunu görmüşdür. Kənddə o, 1925-ci il təvəllüdlü Paşayev Yusifəli Hətəm oğlu *(itkin düşmüş şəxs kimi qeydiyyatdadır, taleyi barədə heç bir məlumat yoxdur – tərt.)* ilə qarşılaşmışdır. Y.Paşayev ona Ermənistan ordusunun hücumu nəticəsində əhalinin kənddən çıxdığını bildirmişdir. Buna baxmayaraq, yaşlı sakinlər daha iki gün kənddə qalmışlar. Üçüncü gün Maşallah Bəndəliyev öz heyvanlarını və Y.Paşayevin 135 baş qoyununu, 29 baş iribuynuzlu qaramalını və 3 atını götürərək kənddən çıxmışdır. Bir gün yol getdikdən sonra Laçın rayonunun Qayğı qəsəbəsində 50 nəfərdən ibarət silahlı Ermənistan hərbçiləri ilə qarşılaşmışdır. Ermənilər mal-qaranı onun əlindən almış, özünü isə döymüşlər. Bu vaxt bir erməni yaxınlaşaraq "Xəbər vermişəm, öldürməyin, diri gətirin deyiblər", – söyləmişdir. Bir neçə silahlı hərbçi onu işğal edilmiş Qaladərəsi kəndinə aparmışlar. Orada işğalçı Ermənistan Ordusunun qərargahı yerləşmişdi və çoxlu hərbi texnika varmış. Qollarını bağlayıb bir müddət həyətdə saxlamışlar. Bu vaxt yağan yağışın təsirindən halı bir az yaxşılaşmışdı. Axşam iki nəfər hərbçi onu "KAMAZ" maşınına mindirib Xankəndinə aparmışlar. Yolda təpik, yumruq və silahın qundağı ilə döyür "Qoy indi Şuşanın rəisi Vahid gəlib sənə qahmar çıxsın" – deyərək, ələ salır, söyür və alçaldırmışlar. Bu sözləri deyən erməni yolboyu işğal olunmuş kəndləri qarət edib aparan maşınların sürücülərinə "Sabah da Laçının malını belə daşıyarsınız, yeyib türklərin atasını yandırarsınız", – deyirdi. Xankəndində Maşallah Bəndəliyevi və hərbi geyimli cavan, ancaq lal olan bir oğlanı Mero adlı ermənіyə təhvil vermişlər. Mero onları maşın qarajında saxlayır, müntəzəm işlədirmiş. Yeddi gündən sonra saxlandıqları evə gəlmiş Vazgen adlı bir hərbçi ev sahibi olan qadınla yeyib-içib kefləndikdən sonra lal oğlana qırmızı maye içirtmiş və işarə ilə özünü necə hiss etdiyini soruşmuşdu. Bundan sonra isə oğlanın sümüklərini sındıra-sındıra əzab vermiş, sonda isə diri-diri başını kəsmişdir. Həmin Vazgen qarajın sement döşəməsinə su tökərək, yaşlı olmasına baxmayaraq, M.Bəndəliyevi orada yatıb durmağa məcbur edirmiş. Sonradan öyrənmişdir ki, onu azərbaycanlıların əlində girov saxlanılan Vazgen Sarkisyanın anası Lena Sarkisyanla dəyişmək üçün saxlayırmışlar. Vazgen Sarkisyan onu daim incidir, sorğu-suala çəkir, Azərbaycan ordusunda rus muzdluların olub-olmaması haqqında məlumat almaq istəyirdi. Bir dəfə ona başı kəsilmiş rus qadınlarının meyitlərini göstərmiş, "Sizin ruslarla

belə rəftar edirik!" – demişdir. Sonra onu dəyişmək adı ilə Hadrut rayonu, Tuğ kəndinə aparmışlar. Dəyişilməyə aparılarkən o, 15-18 yaşlarında iki azərbaycanlı qız görmüşdür. Ermənilər tərəfindən dəfələrlə zorlandıqlarından əzab çəkərək utanan qızlar geri qayıtmaq istəmirmiş. Həmin gün dəyişmə baş tutmadığı üçün, onları Xankəndinə qaytarmışlar. Bu dəfə isə Olik adlı kapitan rütbəli ermənin evinə aparmışlar. Artıq ayaqları tutulmuş, aclıqdan və işgəncələrdən zəifləmişdi. Olikin anası Aida hərdən ona yemək verirmiş. Evdə saxlandığı müddətdə Amerikadan gəlmiş jurnalistlər ondan müsahibə almışdır. Hətta xarici jurnalistlərin gözləri önündə də Vazgen M.Bəndəliyevi vurmuş və söyüb təhqir etmişdi. Maşallah Bəndəliyev 1993-cü il noyabrın 16-da pəncərədən düşüb qaçmağa nail olmuşdur.

Budaqov Rauf Aftandil oğlu – 1972-ci ildə Azərbaycan Respublikası Bakı şəhərində doğulmuşdur. 13 fevral 1993-cü il tarixdə əsir götürülmüş, 9 dekabr 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonunun Yanşaq kəndinin Ermənistan Hərbi Qüvvələri tərəfindən işğalı zamanı döyüş yoldaşı, Xaçmaz rayon sakini Salahov Rövşən Əziz oğlu və Bakı şəhər sakini Ələkbərlə Murovdağın ətəyində əsir götürülmüşlər. Ələkbər yaralı vəziyyətdə imiş. Onları əsir götürən kimi ayaqqabılarını və isti üst paltarlarını soyunduraraq, amansızcasına döymüş, dişlərini sındırmış və qərargaha aparmışlar. Orada olan Ermənistan zabiti Arşavir Qaramyan onlara "Mən də sizdə əsir olmuşam, mənə yaxşı baxıblar. Sizi dəyişdirəcəyik", – demişdi. Sonra onları bir daxmaya salmışlar. Daxmada 18 yaşlı Əkbər, 30-35 yaşlarında olan Ələkbərov Elxan Eyyub oğlu, 27-28 yaşlarında Qasımov Əbülfəz Balaqasım oğlu adlı əsirlər də varmış. Növbəti günün səhəri onları vəhşicəsinə döymüş və şil-küt vəziyyətə salmışlar. Sonra isə bu vəziyyətdə odun yardırmışlar. Yura adlı hərbçi taqətsizlikdən işləyə bilməyən Ələkbəri Kəlbəcər kilsəsinin yanına apararaq, avtomatın süngü bıçağı ilə başını kəsmişdir. Avtomatla atəş açaraq başı kəsilmiş meyiti deşik-deşik etmiş, sonra isə əsirlərə qəbir qazdıraraq dəfn etdirmişdir. Bununla hirsi soyumayan hərbçilər əsirləri huşlarını itirənədək döymüşlər. Əsirlər döyülməkdən daha çox Ələkbərin başına gətirilən faciədən sarsılmış, şok vəziyyətinə düşmüşdülər. Bir müddət orada saxlandıqdan sonra Rauf Budaqovu Ağdamda yerləşən Arşavir Qaramyan adlı ermənin komandir olduğu alaya apararaq, təkadamlıq kameraya salmışlar. Saxlanıldığı müddətdə ermənilər tərəfindən dəfələrlə vəhşicəsinə döyülmüşdür. Növbəti işgəncələrdən birində isə o huşunu itirmiş, üç gün ayılmamışdır. Ağdam Milis idarəsinin binasında saxlanıldığı zaman 12 nəfər azərbaycanlı hərbçini əsir alıb oraya gətirmişlər. Onlardan birini – Alışanov Elməddini bir erməni hərbçi tanıdığı üçün sağ saxlamış qalan 11 nəfəri isə elə kamerada güllələyib qətlə yetirmişlər. Bir dəfə isə ermənilər Mürvət adlı girova "qələbələri" şərəfinə araq içməyi təklif etmişlər, ancaq o, boyun qaçırdığına görə, Armen adlı erməni onu qohumu Ramazan İsmayılovun gözləri qarşısında güllələyib qətlə yetirmişdir. Altı aydan sonra Rauf Budaqov Xankəndi komendantlığına aparılmış, bir aydan sonra isə Şuşa həbsxanasına köçürülmüşdür. İyul ayının axırlarında 7 nəfərlə birlikdə onu da Mısmına kəndində mişar daşı yığmağa aparmışlar. Orada Allahverdiyev Arzuman əsirlikdən qaçdığına, guya bu məsələdən əvvəlcədən xəbəri olduğuna və məlumat vermədiyinə görə, Rauf Budaqovu möhkəm döymüşlər. Elə bir vəziyyətə salmışlar ki, üç gün yerindən qalxa bilməmişdir. Halbuki

onun bu məsələdən xəbəri olmamışdır. Orada o, Qaradağ rayon Sahil qəsəbəsindən olan Vaqifin və Qax rayonundan olan Camalın döyülə-döyülə öldürülməsinin şahidi olmuşdur. 1994-cü il dekabr ayının 7-də nəzarətçi Slavik və türmə rəisinin arıq, göygöz, sarışın müavini onun azad ediləcəyini eşitdikləri üçün müntəzəm olaraq döymüş və bilərəkdən böyür nahiyəsinə təpiklə zərbələr vuraraq , böyrəklərini partlatmaq istəyirmişlər.

Budaqov Rauf Aftandil oğlu 9 dekabr 1993-cü il tarixdə əsirlikdən azad edilmişdir.

Cavadov Fazil Ağa oğlu – 1938-ci ildə Qazaxıstan Respublikasının Kirov rayonunda doğulmuşdur. Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikasına köçmüş, Ordubad rayonu, Dəstə kəndində yaşamışdır. 6 dekabr 1991-ci il tarixdə girov götürülmüş, 13 dekabr 1991-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1991-ci il dekabr ayının 6-da, hələ SSRİ dağılmamış, növbədə olarkən, dəmiryolu relslərini yoxlaya-yoxlaya Mehri rayonu istiqamətində hərəkət etmişlər. Dörd nəfərdən ibarət növbətçi qrupa Fazil Cavadov rəhbərlik edirmiş. Ermənistan Respublikasının ərazisində olan Mehri dəmiryolu stansiyasına təxminən 1 km qalmış dəmiryolunun təmir briqadasının 8 nəfər işçisi ilə rastlaşmış, birlikdə nahar etməyə başlamışlar. Təzəcə yeməyə başlamışdılar ki, Ermənistanın Qarçıvan rayonu istiqamətindən 8 nəfər avtomat silahlı ermənin onlara tərəf gəldiyini görmüşlər. Silahlı quldur dəstə dəmiryolu işçilərinə yaxınlaşan kimi söyərək silahları onlara tuşlamış, ayağa qalxmağı əmr etmişlər. Sonra onları "UAZ" markalı maşına mindirərək, Qarçıvan şəhəri istiqamətində hərəkət etmişlər. Bir az getdikdən sonra isə maşını dəyişərək, onları avtobusa mindirmişlər. Qarçıvan rayonunda bir binanın qarşısında avtobusu saxlamışlar. Oraya çoxlu erməni toplaşmışdı. Girovlara hücum çəkən kütlə, onları söyərək öldürmək istəmişdir. Girovlar gözlənilmədən başlarına gələn bu hadisədən çaşıb qalmış və güclü stress keçirmişlər. Girovları qana susamış kütlədən qoruya-qoruya bir binaya salmışlar. Yarım saatdan sonra isə onları yenə avtobusa mindirib meşədə yerləşən, ətrafında başqa tikili olmayan, şəhərdən xeyli aralıdakı qərargaha aparmışlar. Hava çox soyuq idi, güclü qar yağırdı. Orada girovları betondan olan tikiliyə salmışlar. Təxminən yarım saatdan sonra onları tək-tək çağıraraq sorğu-suala tutmuş, ciblərindəki pulları, qol saatlarını, digər əşyalarını və sənədlərini almışlar. Sorğu-sual zamanı Fazil Cavadovun arxadan saçından yapışaraq başını masaya çırpmışlar. O, huşunu itirərək yerə yıxılmışdır. Ayılanda üstünə çoxlu su töküldüyünü görmüşdür. Ermənilər isə ona tamaşa edərək istehza ilə gülüşürmüş. Eyni işgəncə digər yoldaşlarına da verilmişdir. Ertəsi gün girovları odun doğramaqda, daşımaqda, təmizlik işlərində işlətmişlər. Ermənilər onları döyür, işgəncə verir, qabaqlarından qalan yeməyin artığını yeməyə məcbur edirdilər. Bir dəfə isə girovları həyətə düzmüş, mənəvi-psixoloji işgəncə verərək güllələyəcəklərini bildirmiş, könüllü olaraq birinci kimin güllələnmək istədiyini soruşmuşlar. Ordubad rayonunun Disər kənd sakini Etibar adlı gənc qabağa çıxmışdı. Ermənilər onu divara söykəmiş, girovlardan isə onun ölüm səhnəsinə baxmağı tələb etmişlər. İki nəfər erməni komandirlərinin əmrindən sonra avtomat silahlardan atəş açmışlar. Bu səhnəni görməmək üçün gözlərini yummuş Fazil Cavadov ermənilərin gülüş səslərinə gözlərini açarkən, Etibarın sağ olduğunu görmüşdür. Ertəsi gün isə xeyli işlətdikdən sonra girovları sıraya düzərək əllərini arxadan çarpaz vəziyyətdə bağlamışlar. Sonra onlara qarın üzərində uzanmaq əmrini vermiş və uzun müddət bu cür saxlandıqları üçün çox çətinliklə ayağa qalxmışlar.

Cavadov Fazil Ağa oğlu və onunla saxlanılanlar 13 dekabr 1991-ci il tarixdə girovluqdan azad edilmişlər.

Cəfərov Aydın Əlibala oğlu – 1958-ci ildə Azərbaycan Respublikası Samux rayonu, Qarayev qəsəbəsində doğulmuşdur. 16 fevral 1994-cü il tarixdə əsir götürülmüş, 7 may 1995-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1994-cü ildə Qarabağın müdafiəsi üçün könüllü olaraq döyüşə yollanmışdır. 16 fevral 1994-cü ildə Kəlbəcər rayonu ərazisində Murovdağ uğrunda gedən döyüşlər zamanı əsir götürülmüşdür. Orada onu avtomatın qundağı, təpik, yumruq və dəyənəklə döydükdən sonra işğal altında olan Ağdam rayonunda yerləşən tank taborunun qərargahına aparmışlar. Qərargahda sorğu-suala tutaraq onu yenidən döymüşlər. İki gündən sonra isə gözlərini bağlayaraq, Xankəndindəki hərbi hissəyə aparmış və zirzəmiyə salmışlar. Orada saxlandığı müddətdə hər gün ermənilər tərəfindən döyülmüş və təhqirə məruz qalmışdır. Mart ayında BQXK əməkdaşları onu aşkar edib qeydiyyata almışlar. Aprel ayında Şuşa həbsxanasına aparılmışdır. Orada saxlandığı bir ay ərzində isə ona daha dəhşətli işgəncələr verilmişdir. Bu müddətdə onu hər gün döymüş, gündə bir dəfə yavan çörək və su vermişlər. May ayında isə onu işğal olunmuş Xocalı şəhərinə aparmış, orada avtoqarajın zirzəmisində saxlamışlar. Əsir-girovları hər gün tikinti işlərində işlədir, sonra da döyürdülər. Artıq bu əzablara dözmədikləri üçün Aydın Cəfərov, Abutalıbov Mikayıl Musa oğlu və Abbasov Natiq Əliş oğlu ilə birlikdə əsirlikdən qaçmaq qərarına gəlmişlər. 5 iyun 1994-cü ildə erməni nəzarətçi Noriki tərksilah edərək onun avtomatını götürüb, Kəlbəcər tərəfə qaçmağa başlamışlar. 7 gün yol getdikdən sonra axşam Aydın Cəfərov qayadan yıxılmış, ayağı topuqdan sınmışdır. O, daha gedə bilməyəcəyini hiss edərək, Mikayılla Natiqə yollarına davam etməyi məsləhət görmüşdür. Beş gün həmin yerdə ac-susuz və yaralı halda qalmışdır. Nəhayət, iyun ayının 17-də axşam onu tapan Ermənistan hərbçiləri huşunu itirənə qədər vəhşicəsinə döymüşlər. Sonra Ermənistanın Basarkeçər rayonunun Milis idarəsinə, oradan isə Yerevan Hərbi Polis idarəsinə aparmışlar. Orada erməni nəzarətçilər Aydın Cəfərovu döyür, ac-susuz saxlayırmışlar. İyunun 21-də onu Yerevan Təhlükəsizlik İdarəsinin təcridxanasına aparmışlar. Ayağının sınmış hissəsi baxımsızlıq üzündən artıq irinləmiş və qurd basmışdı. Ancaq BQXK-nın təkidi ilə onu Xankəndi uşaq xəstəxanasına aparmışlar. Xəstəxana olmasına baxmayaraq, orada da yaralıları döyürdülər. BQXK-nın gətirdiyi ərzaq və geyimlərin hamısını əllərindən alırmışlar. Ayağındakı çürümə prosesi kəskinləşdiyi üçün 29 sentyabr 1994-cü ildə dizindən yuxarı amputasiya olunmuşdur. O, 7 may 1995-ci ildə 15 nəfərlə birlikdə əsirlikdən azad edilmişdir.

Cəfərov Cəfər Məhəmməd oğlu – 1939-cu ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 14 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilər tərəfindən yaşadıqları Xocalı şəhəri 1988-ci ildən etibarən davamlı olaraq atəşə tutulurmuş. Buna görə də şəhərdə yaşayan əhali Könüllü özünümüdafiə dəstələri təşkil etmək məcburiyyətində qalmışdı. Silahının olmamasına baxmayaraq, Cəfər Cəfərov da növbədə durурmuş. 26 fevral 1992-ci il tarixdə gecə şəhərə hücum şiddətləndi, evlər və

digər ictimai binalar yanmağa başladı. Pərən-pərən düşmüş insanlar hara gəldi qaçırdı. C.Cəfərovun yataq xəstəsi olan atası Cəfərov Məhəmməd və anası Cəfərova Bağdad hərəkət edə bilmirdilər. Evə çatar-çatmaz anası həyəcanla qışqıraraq bacı-qardaşları və digər qohum-əqrabanın taleyi ilə maraqlanmağı ona tapşırdığından, C.Cəfərov evdən çıxıb bacı-qardaşlarının və digər qohumlarının evlərini gəzsə də, heç kimi tapa bilməmişdi. Şəhərdə müdhiş bir qətliam başlanmışdı. Evdən xeyli aralandığı üçün geri qayıda bilməmişdi. Ermənistan ordusu artıq evlərinin yerləşdiyi ərazini tutmuşdu. Gizlənə-gizlənə camaatın daha çox toplaşdığı yerə – Qar-qar çayı üzərindəki körpünün yanına gəlmişdi. Əhalinin bir hissəsi meşəyə, bir hissəsi isə çayın yatağı ilə Əsgəran istiqamətində hərəkət etmişdi. O, böyük bacısı Cəfərova Qumru, onun qızı – Cəlalət, Cəlalətin həyat yoldaşı – Elxan və 10 yaşlı qızı və yüzlərlə digər Xocalı əhalisi ilə birlikdə meşəyə üz tutmuşdu. Bir az hərəkət etdikdən sonra "Gen dərə" adlanan ərazidə bacısı Qumrunu itirmişlər. Dəstə həmin gecəni, növbəti günü və gecəni yol tapmaq ümidi ilə meşəni dolaşmışdı. Dəstədə təxminən 300-dən çox qadın, uşaq və qoca varmış. Onlar fevralın 27-də səhər tezdən, alatoranda bir kəndə gəlib çıxmışlar. Neft çıraqlarının yanmasından, buranın ermənilər yaşayan Pircamal kəndi olduğunu müəyyənləşdirmişdi. Xasay adlı cavan oğlan qabağa, kəndin içərisinə gedəcəyini və əgər keçməyə imkan olarsa, kibrit yandırıb işarə verəcəyini bildirmişdi. Xasay irəli getdikdən sonra dəstə sıx kolluğa sığınıb gözləmişdi. Bir azdan Xasay işarə vermiş və dəstə hərəkətə başlamışdı. Az getmişdilər ki, silahlı ermənilər heç bir xəbərdarlıq etmədən əhalini hər tərəfdən atəşə tutmuşlar. Bu zaman bacısı qızı ilə o, uçuruma yıxılmışlar. Ancaq xoşbəxtlikdən uçurumun aşağısına yığılmış qar topasına düşmüşlər. Heç birinə zərər dəyməsə də, qızın qorxudan ürəyi getmişdi. Başını qaldırıb baxanda ətrafda yıxılıb qalmış qaraltılar görmüşdü. Adamlar qarın üstünə sərilib qalmışdı. Qorxudan hamının səsi kəsilmişdi. Birdən uşaq qışqırığı eşidilmişdi. Uşaq "Baba!" – deyib bağırır və ağlayırdı. Ətrafa atəş açа-açа uşağı götürən erməni əsgərlər uzaqlaşmışlar. Uşağın adı Mehdi, atasının adı İsa idi. Ermənilər gedəndən sonra onlar qalxıb ehtiyatla, cığırla üzüyuxarı, qayalığa doğru hərəkət etmişlər. Çətinliklə yuxarı qalxmış, orada Nağıyev İsmayılı, Mehdinin atası İsanı və əlavə 5-6 adamı görmüşlər. Oturub dincəlmək istərkən 5-6 nəfər silahlı erməni qəflətən başlarının üstünü almışdır. Bu vaxt Nağıyev İsmayıl və Mehdinin atası İsa özlərini dərəyə tullayıb qaçmış və ermənilər onların arxasınca xeyli atəş açmışlar. Ermənistan hərbçiləri Cəfər Cəfərovu, bacısı qızı Cəlaləti, Elxanı, onların iki azyaşlı uşağını, Qarayeva Narxanımı, Məmmədov Cəmili, Məmmədov Məmmədi və digər Xocalı sakinlərini bir yerə toplayıb kəndin fermasına salmışlar. Bir gün əvvəl tutulanlar da fermada imiş. Onlar döyülməkdən və təhqir olunmaqdan huşsuz vəziyyətdə idilər. Üz-gözləri parça-parça olmuşdu. Abbasov Talehin üzündəki yara isə artıq irin vermişdi. Fermaya girov götürülmüş 300-dən çox adam salınmışdı. Uşaqlar qışqırır, döyülmüş qadınlar, kişilər zarıyırdılar. Tövləyə salan kimi Cəfər Cəfərov və oradakı digər kişiləri üzü üstə yerə uzadıb avtomatın qundağı, təpik və digər əşyalarla dəhşətli şəkildə döymüşlər. İki saatdan sonra ayağa qaldırıb hamını sıraya düzmüş və siyahıya almışlar. Məmmədov Kamil Cəmil oğluna, Əliməmmədov Namiq Şahmalı oğluna, Əliməmmədov Yaşar Şahmalı oğluna, Əliməmmədov Faiq Şahmalı oğluna *(əsirlikdə qətlə yetirilmişdir – tərt.)* ağlagəlməz zülm vermişlər. Namiq Əliməmmədov Dağlıq Qarabağda xüsusi səlahiyyətli nümayəndə Viktor Polyaniçkonun sürücüsü işləmişdi, Yaşarı isə Qarabağda hamı

tanıyırmış. Ermənilər Yaşarın başını yarmış, burnunu sındırmışdılar. O, büsbütün qan içində imiş. Ermənilər əl atıb qadınların sırğalarını çıxarmaq istəyərkən Kamil onların üstünə yeriyərək "Mənimlə danışın, kişi qadına əl atmaz", – dediyi üçün onu huşunu itirənə qədər döymüşlər. Girovlardan bütün gecəni ayaq üstə dayanmağı tələb edir, əgər dizi bükülən olsa, güllələyəcəklərini deyirdilər. Bu təzyiqlərə dözməyən Məmmədov Kamil Cəmil oğlu, Əliməmmədov Yaşar, Namiq və Faiq qardaşları ermənilərə müqavimət göstərəndə onları daha amansızcasına döymüşlər. Faiqin başından qan axıb üz-gözünü örtmüşdü, amma o, yenə də "Qarabağ niyə sizin olur? Qarabağ bizimdir", – deyərək ermənilərə cavab qaytarırdı. 5 yaşlı Sirac atası Yaşarın üst-başını qanlı görüb qorxudan qışqırırmış. Ancaq qəddar Ermənistan hərbçiləri, uşaq olmasına baxmayaraq, Siracı da şilləyərək, atasından ayırmışlar. Bir dəfə 5-6 erməni içəri girib heç bir səbəb olmadan Cəfər Cəfərovu döyməyə başlamışdı. Onun səsinə başqa ermənilər də gəlmişlər. Ancaq xoşbəxtlikdən, gələn ermənilərdən biri Xocalıda elektrik xətlərinin təmiri və enerji sərfiyyatının qeydiyyatını aparan Andranik Qriqoryan, digəri isə Naxçıvanlı kənd orta məktəbinin müəllimi Xaçaturyan imiş. Onlar bu dəfə Cəfər Cəfərovu quldurların işgəncəsindən xilas etmişlər. Xaçaturyan söhbət zamanı bu müharibənin səbəbkarına lənət yağdırdığına and içirmiş. O, deyirmiş ki, Məhəmməd peyğəmbərin dininə – İslama itaət etdiyi üçün onun evinə "Qrad" düşmür. Andranik də onun kimi müharibə törədənlərə lənət yağdırır, arabir Cəfər Cəfərovu azad etməyi Hamletdən xahiş edirmiş. Ancaq Hamlet, Cəfər Cəfərovu azad etmək əvəzinə, Əsgərana – Milis idarəsinə göndərmişdi. Orada 10-dan artıq kameranın hər birində orta hesabla 20 adam saxlanırmış. Onların ümumi sayı təxminən 200-250 nəfərdən artıq olardı və demək olar ki, hamısı kişilər idi. Onların içərisində yalnız bir qadın - Dürdanə adlı məktəbli qızı görmüşdü. Ağayeva Dürdanə Allahverdi qızı məktəbli qardaşı Elşadla birlikdə girov götürülmüşdü. Bir gün Cəfər Cəfərovu komendantın yanına aparmışlar. Həmin uşaqlar da orada imiş. Komendant onları tanıyıb-tanımadığını soruşmuşdur. Cəfər Cəfərov onların kimsəsiz uşaqlar olduğunu söyləmiş və buraxılmalarını xahiş etmişdi. Komendant isə Elşadın döyüşçü olduğunu bildirmişdi. Cəfər müəllimin şagirdi olmuş və onuncu sinifdə oğlu ilə birlikdə oxuyan Elşad iri cüssəli olduğu üçün, sinif yoldaşları ona zarafatla "Cöngə" deyirmişlər. Bu faktı komendanta söyləmiş Cəfər müəllim çox çətinliklə də olsa onu inandıra bilmiş və bacı-qardaş olan şagirdlərinin azad edilməsinə nail olmuşdur. Bir gün oraya bir dəstə silahlı erməni gəlmiş və kameraların qapısının balaca gözlüklərindən silahın lüləsini içəriyə tuşlayıb bağırmağa başlamışlar ki, guya burada saxlananlar kef edirlər. Əslində nəzarətçilər onları bilərəkdən içəri buraxmışlar ki, əsir və girovlara işgəncələr versinlər. Onlar çox iyrənc işgəncə növlərinə əl atmış, adamların şəxsiyyətinə və mənliyinə toxunmuşlar. Əsgəranda saxlananda Əliməmmədov Faiq Şahmalı oğlunu təcridxananın yuxarı tərəfində, hündür hasarın yanında güllələmişlər. Əsir-girovlara işgəncə vermək məqsədi ilə su şüşəsindən də istifadə edir, ağızlarına tüpürürdülər.

Martın 7-də Ermənistan hərbçiləri əllərinə keçən küt alətlərlə – armatur, rezin dəyənək, avtomat qundağı və təpiklə əsirləri döymüşlər. Əvvəlcə hamını döyüb sıraya düzür, sonra isə soyunmağa və biri-birini zorlamağa məcbur edirmişlər. Etiraz etdikləri üçün onları yenidən vəhşicəsinə döyürmüşlər. Həmin gün əsir və girovları şöbədən çıxarıb, sıra ilə düzərək, Əsgəran qalasına aparmışlar. Orada olan 200-300 saqqallı

üzərlərinə tökülmüş, əllərinə keçənlə haradan gəldi və heç bir fərq qoymadan huşlarını itirənədək döymüşlər. O qədər döymüşlər ki, Cəfər Cəfərov yıxılıb adamların altında qalmışdı. Bir neçə saat davam edən döyülmə başa çatdıqdan sonra onları qaldırıb "KAMAZ" markalı maşınlara mindirmiş və Xankəndi istiqamətində aparmışlar. Girovlara elə gəlirmiş ki, artıq onları güllələməyə aparırlar. Xocalı şəhərinə çatmamış, maşınlar sağa dönmüş və onları ermənilərin Noraguh adlandırdığı Təzəkənd kəndinə gətirmişlər. Noraguha çatan kimi əsir və girovları o qədər döymüşlər ki, əksəriyyəti huşunu itirmişdir. İşgəncə verməkdən yorulduqdan sonra əsir-girovları toxumçuluq anbarına salmışlar. Anbar çox qaranlıq idi. Döyülməkdən zarıyan əsirlər tərpəndikcə başları və digər bədən üzvləri sərt dəmirlərə dəyir, nə baş verdiyini xeyli vaxt anlaya bilmirdilər. İçəridə bir müddət qalıb şəraitə uyğunlaşdıqdan, həm də döyülmənin təsirindən bir az özlərinə gəldikdən sonra burada iki-üç mərtəbəli dəmir çarpayılar quraşdırıldığını görmüşlər. Nəhayət, bir neçə saatdan sonra qapını açmış və girovları bayıra çıxarmışlar. Bayırda bir dəstə silahlı erməni dayanmışdı. Onların komandiri girovları Ağdamda saxlanılan erməni əsirlərlə dəyişəcəklərini bildirmişdir. Bundan sonra onlara əl-üzlərini yumağa icazə vermişlər. Girovları bir həftə orada saxlamışlar. Bu müddət ərzində hər gün bir neçə dəfə keflənmiş ermənilər gəlib girovları bayıra çıxarıb istədikləri qədər döymüşlər. Orada dişlərinin qızıl olmadığını deyib yalvarsa da, Eyvazov Əli Nəcəfəli oğlunun titan dişlərini kəlbətinlə çıxarmışlar. Dişlərini çıxaran zaman Əlinin ağzını qan aparmış və huşunu itirmişdi. Qarayev Sureni o qədər döymüşlər ki, qan qusur və üzünün qopmuş dərisi sallanırmış. Orada yaşayan Krikor adlı ermənin uşaqları – Jora, Qara və Bahadur vaxtilə Surenlə bir qarajda işləmişdilər. Guya nə vaxtsa Suren Joranın maşınına daş atıbmış. Bunu bəhanə edən Jora Surenə dəhşətli işgəncələr verirdi. Jora və qardaşları yalnız Sureni deyil, hamını döymüşlər. 14 mart 1992-ci il tarixdə Cəfər Cəfərovu və Noraguhda saxlanılan digər girovları – 200-250 nəfəri Ağdamın Qarağacı qəbiristanına gətirib, orada erməni əsirlərlə dəyişərək azad etmişlər. Noraguhda Məmmədov soyadlı bir nəfər ləzgi millətindən olan şəxs və əsir götürülmüş üç nəfər rus əsgəri qalmışlar. Ləzgi israrla erməni olduğunu desə də, ermənilər ona inanmır "Yəqin anan ermənidir", – deyirmişlər. Əsir götürülmüş rus əsgərlərini də dəhşətli şəkildə döymüş, işgəncələr vermişlər ki, guya onlar Xocalı hava limanında əhaliyə kömək etmişlər. Halbuki, onlar 366-cı rus alayından qaçıb Xocalıya pənah gətirmişdilər. Çünki orada azərbaycanlılara atəş açmadıqları üçün, onları müntəzəm olaraq döyürmüşlər.

Cəfərov Elçin Ənvər oğlu – 1973-cü ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. 6 iyul 1995-ci il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1995-ci ilin iyul ayında xidmət etdiyi Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda yerləşən hərbi hissənin yaxınlığında anbar kimi istifadə edilən çadıra girərkən, 4-5 nəfər erməni hərbçi tərəfindən əsir götürülmüşdür. Avtomatın qundağı ilə başına zərbə endirdiklərindən o, huşunu itirmişdi. Ayılarkən qaranlıq zirzəmidə olduğunu görmüşdü. Zirzəmiyə 5-6 nəfər erməni hərbçi gəlib, onu avtomat qundağı, təpik, yumruq və dəmirlə döyüb yaralı vəziyyətdə Ermənistan ərazisinə aparmış və qauptvaxtaya bənzər yerə salmışlar. Sonradan oranın Sisian rayon Milis şöbəsi olduğunu demişlər. Orada E.Cəfərovu döymüş, lazım oldu-olmadı ağır işlərdə işlətmişlər. Məsələn,

"KAMAZ" markalı yük maşınında olan mişar daşlarını bir neçə dəfə yerə boşaltdırıb, təzədən maşına yüklədirmişlər. Dincəlmək istəyəndə yenə də döymüş, vurub dişlərini tökmüşlər. 23 gün, demək olar ki, ac-susuz, qaranlıq şəraitdə saxlandıqdan sonra onu Yerevana – Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasına gətirmişlər. Yerevan Hərbi Polisinin rəisi, polkovnik Vladimir Qasparyan və polkovnik Qanqamyan Hamlet Aleksandroviç adlı zabitlər Elçin Cəfərovu sorğu-sual etmiş, döyərək ölümlə hədələmişlər. Onlar Elçin Cəfərovu bir erməni ailəsinin ölümündə "təqsirləndirərək", mühakimə etmişlər. Məhkəmə E.Cəfərova ölüm hökmü kəsmişdir. Orada onu döyüb işgəncə verən bütün ermənilərin adlarını xatırlamır. Təcridxanada saxlanılarkən Albert Voskanyan adlı erməni yuxarıda adları çəkilən erməni zabitlərlə yanına gələrək, azad ediləcəyini bildirmiş, onlarla əməkdaşlıq etməyi tələb etmişdir. Ermənistan MTN-in əməkdaşları Elçin Cəfərovdan ermənilərlə əlbir olub Azərbaycana qarşı hazırlanmış terror əməliyyatlarının həyata keçirilməsində kömək etməsini tələb etmiş, razı olmadığı üçün döymüşlər. Ona Bakı metrostansiyasında törədilmiş partlayışların və digər terror aktlarının hamısının Ermənistan xüsusi xidmət orqanlarının hazırlayıb həyata keçirdiyini söyləmişlər. Elçin Cəfərov Rusiyanın vasitəçiliyi ilə əldə edilmiş razılığa uyğun olaraq 10 may 1996-cı il tarixdə azad edilmişdir.

Cəfərov Elçin Fərzalı oğlu – 1977-ci ildə Azərbaycan Respublikası Sabirabad rayonunun Çöldəllək kəndində doğulmuşdur. 10 may 1996-cı il tarixdə əsir götürülmüş, 2 may 1997-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Əsir götürüldükdən sonra Xankəndi şəhərinə aparmışlar. Əsirlik dövründə Xankəndi və Şuşa şəhərlərində saxlanılmış, ermənilər tərəfindən müxtəlif işgəncələrə məruz qalmışdır. Xankəndinin Təhlükəsizlik İdarəsində saxlanıldığı zaman idarənin əməkdaşları tərəfindən bir neçə dəfə boynunun arxasına naməlum iynələr vurulmuşdur. Nəticədə o, hər dəfə huşunu itirmişdir. Bundan əlavə, onu müxtəlif əşyalarla, o cümlədən rezin dəyənək, stul, avtomat qundağı, taxta, dəmir parçaları və dəyənəklə döymüş, bel, böyrək və baş nahiyələrinə bilərəkdən güclü zərbələr endirmişlər. Dəfələrlə yanar siqareti bədəninin müxtəlif yerlərində söndürmüşlər. Cəfərov Elçin Fərzalı oğlu Rusiyanın vasitəçiliyi ilə əldə edilmiş razılığa uyğun olaraq 2 may 1997-cı il tarixdə azad edilmişdir.

Cəfərov Habil (Abil) Şahmar oğlu – 1973-cü ildə Azərbaycan Respublikası Ağdam rayonu, Sırxavənd kəndində doğulmuşdur. 25 yanvar 1992-ci il tarixdə əsir götürülmüş, 28 yanvar 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Dağlıq Qarabağla bağlı münaqişə başlayan zaman Ermənistan hərbi birləşmələri tərəfindən atəşə tutulan şəhər və kəndləri müdafiə etmək üçün Ağdamda könüllü özünümüdafiə taboru yaradılmışdı. Habil Cəfərov da həmin taborun tərkibində torpaqları müdafiə edirmiş. 1992-ci il yanvar ayının 25-də "Ballı qaya" dağına çıxarkən erməni silahlıları ilə qarşılaşmışdır. Onlarla bir müddət təkbaşına atışsa da, gülləsi qurtardığı üçün əlbəyaxa döyüşə girmişdir. Lakin düşmən sayca çox olduğu üçün onu əsir götürmüşlər. Sonra Habil Cəfərovu avtomatın qundağı ilə döyə-döyə 3-4 yaşayış evi olan Axmaxlı kəndinə aparmışlar. Orada olan ermənilərin hamısı əllərinə keçən əşyalarla onu döymüş, avtomatın qundağı ilə vuraraq sağ ayağını topuqdan sındırmışlar. Nəticədə

o, huşunu itirmişdir. Özünə gələndə alçaq, qaranlıq bir zirzəmidə olduğunu görmüşdür. Qapının ağzında bir gözətçi, yanında isə it varmış. Bütün bədəni bərk ağrıyırmış. Ayağı və gözünün altı hədsiz şişmiş, kürəyində və qolunda dəhşətli sızıltılar varmış. Həmin gün səhər tezdən onu Dovşanlı kəndinə aparmışlar. Orada saxlanıldığı iki gün ərzində ona yenə də işgəncələr vermişlər. Huşunu itirəndə üzünə soyuq su çırpır, yenidən döyürmüşlər. Bu üç gün ərzində ona bir tikə də çörək verməmişlər. 28 yanvar 1992-ci il tarixdə ermənilər onu "UAZ" markalı maşına mindirərək, Kuçan kəndinin kənarına gətirmişlər. Ona elə gəlirmiş ki, güllələməyə aparırlar. Kəndin kənarında maşını saxlayan ermənilər təpiklə vuraraq onu yerə atmış və geri qayıtmışlar. Taqətsiz halda yıxılıb qalmışdı. Birdən qulağına Azərbaycan dilində sözlər gəlmişdi. Özünü toplayaraq səs gələn tərəfə sürünmüşdür. Orada qardaşı Xeyrullanı, əmisi Yelmarı və Sırxavənd kəndinin digər sakinlərini görmüşdür. Azərbaycanda və Qazaxıstanda uzun müddət müalicə almasına, ayağından əməliyyat olunmasına baxmayaraq, səhhətində hələ də problemlər var.

Cəfərov Mübariz Qara oğlu – 1964-cü ildə Azərbaycan Respublikası Füzuli rayonu, Əbdürrəhmanlı kəndində doğulmuşdur. 7 iyul 1994-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Azərbaycan torpaqlarının Ermənistanın silahlı təcavüzündən müdafiəsi üçün 1993-cü ildə könüllü olaraq ordu sıralarına yazılmışdı. 1994-cü ilin iyul ayında döyüş yoldaşları – Füzuli rayon sakini Qafarov Rauf Şəmsəddin oğlu, Qazax rayon sakini Ömərov Rafiq Əhməd oğlu və Yevlax sakini Məhərrəmov Orucəli Əhməd oğlu ilə birlikdə yolu azaraq Ermənistan hərbçilərinin nəzarətində olan əraziyə keçmiş və əsir götürülmüşlər. Onları əvvəlcə Füzuli rayonunun işğal edilmiş Qaraxanbəyli kəndinə, oradan isə Füzuli şəhərinə aparıb bir evə salmışlar. Orada əsirləri avtomatın qundağı, rezin dəyənək, təpik və yumruqla vəhşicəsinə döydükdən sonra Xankəndində yerləşən qərargaha aparmışlar. Xankəndində onlardan başqa təxminən 10 nəfər əsir də varmış. Hamısını vəhşicəsinə döymüşlər. Mübariz Cəfərovun qızıl dişlərini adi kəlbətinlə onun özünə çıxartdırmışlar. Təxminən 3-4 saat huşsuz vəziyyətdə qalmışlar. Bundan sonra Xankəndində yerləşən müvəqqəti saxlama təcridxanasına aparmışlar. Orada 15 əsir-girov varmış. Ancaq yeni gətirilənləri ayrıca kameraya salmışlar. Əsir-girovları yaxınlıqdakı qərargahın ərazisində işlədir və işlədikləri vaxt təpik, yumruq, avtomat qundağı və dəyənəklərlə yıxılana qədər döyürmüşlər. Təxminən 10 gün sonra əsir-girovları Şuşa həbsxanasına aparmışlar. Orada əsirlərin hamısını sıraya düzərək zopa, rezin dəyənək, lom, qalın məftil, avtomat qundağı, təpik və yumruqla vəhşicəsinə döymüşlər. Hamı al qan içində imiş. Əsir-girovları döyənlər Qor, Lyoxa, Emil, Slavik, Raçik və Valera adlı erməni nəzarətçilər idi. Şuşa türməsində saxlandıqları 15-20 gün müddətində Ermənistan hərbçiləri əsir-girovları döyə-döyə həbsxananın həyətində və küçələrdə işlətmişlər. Şəhərdə işləyərkən Şuşadakı qəbiristanlığın baş daşlarının, evlərin və istirahət mərkəzinin ermənilər tərəfindən dağıdıldığını görmüşdür. Təxminən 20 gündən sonra Mübariz Cəfərovu bir neçə əsirlə birlikdə Xankəndi təcridxanasına aparmışlar. Orada başqa kamerada Füzuli rayon sakini olan iki əsir də saxlanılmışdır. Onlarla danışa bilməsə də, işlədilərkən həyətdə görmüşdü. Mübariz Cəfərovu və digərlərini isə taxta sexində işlətmişlər. Bir aydan sonra onları yenidən Şuşa həbsxanasına qaytarmış, Füzulidən olan iki nəfər və onlardan başqa 9 nəfər

əsir isə Xankəndində qalmışdır. Digərlərini isə Mısmına kəndində işləməyə aparmışlar. İki gündən sonra onu, Rafiqi və Natiqi də Mısmına kəndinə aparmışlar. Əsirləri döyə-döyə ev tikdirir və Füzuli rayonuna aparıb işğal olunmuş kəndlərdəki evlərin damını, daşını sökdürür, Mısmınaya daşıtdırırdılar. Əsir və girovları soyuq və balaca bir yerdə saxlayırdılar. 20 gündən sonra Şuşa həbsxanasına qayıdarkən orada ermənilərin Sədrəddin adlı əsiri vəhşicəsinə döyərək ölümcül hala saldıqlarının şahidi olmuşdur. Şuşada o qədər ağır işlərdə və soyuqda işlətmişlər ki, Mübariz Cəfərovun barmaqları tam donmuşdu. Buna görə BQXK-nın tələbi ilə onu Xankəndində yerləşən uşaq xəstəxanasına aparmışlar. Orada 25-30 nəfər əsir və girov saxlanılırdı. Saxlandığı yerdə ac-susuz qalmaqdan və döyülməkdən ölümcül vəziyyətə düşmüş Yardımlı rayon sakini, 19-20 yaşlı hərbi əsir Heydər Heydərovu da onların yanına gətirmişdilər. Ancaq o, elə xəstəxanaya gətirilən gün ölmüş, meyitini isə əsirlərə dəfn etdirmişlər. Sonra Mısmına kəndində işlədilmiş Qaraxanı da qolu sınmış vəziyyətdə xəstəxanaya gətirmişlər. Qaraxanın onlara dediyinə görə, qolunu Mısmınada döyərək sındırmışlar. Xəstəxanada isə əsir-girovları Jirik adlı erməni nəzarətçi vəhşicəsinə döyür, sonra soyuq havada maşın yudurdur, nalayiq söyüşlər söyərək təhqir edirdi. Bir müddətdən sonra yenidən Şuşa həbsxanasına aparılmış Mübariz Cəfərov Bəxtiyar adlı əsirin qulağı kəsilmiş vəziyyətdə yanlarına gətirildiyinin şahidi olmuşdur. Orada isə Con adlı erməni nəzarətçi əsir-girovları yenə də döyürmüş. 1996-cı il may ayının 9-da Şuşa həbsxanasında saxlanılan 57 nəfər əsir-girovu Yerevana aparmışlar. Ora əlavə olaraq 10 nəfər əsir-girov da gətirmişlər. Hamısını bir gecə bir yerdə saxlamış və vəhşicəsinə döydükdən sonra, ertəsi gün – may ayının 10-da Rusiyanın vasitəçiliyi ilə əldə edilmiş razılığa uyğun olaraq azad etmişlər.

Cəfərov Siyafər Həsən oğlu – 1974-cü ildə Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası, Şərur rayonu, Düdəngə kəndində doğulmuşdur. 19 fevral 1996-cı il tarixdə əsir götürülmüş, 10 may 1996-cı il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1996-cı il fevral ayının 19-dan 20-nə keçən gecə üç əsgər yoldaşı ilə birlikdə Naxçıvan Muxtar Respublikasının Sədərək bölgəsində Ermənistanla sərhəddə yerləşən postda dayanmışlar. Bu post Ermənistan tərəfi ilə əvvəlcədən əldə edilmiş qarşılıqlı razılaşmaya əsasən birbaşa danışıqların aparılması üçün qurulmuşdu. Onların postu ilə düz qarşı-qarşıya isə eyni məqsədlə Ermənistan hərbçilərinin postu qurulmuşdu. Zərurət yarandıqda hər iki tərəf postda danışıq aparır, hətta komandirlər telefon əlaqəsi saxlaya bilirdilər. Ətrafdakı postlarda həmin gün atışma olmuşdu. Gecə saat 23 radə-lərində ermənilər onlarla əlaqə yaradaraq, atışmanın dayandırılmasını tələb etmişlər. Əsgərlər bu barədə komandirə məruzə etmişlər. Komandir atışmanın ermənilər tərəfindən başlandığını bildirmiş və atəşin dayandırılması barədə tələbinin qarşı tərəfə çatdırılmasını əmr etmiş, əsgərlər əmri yerinə yetirmişlər. Bir az keçməmiş Ermənistan hərbçilərinin nümayəndələri Azərbaycan əsgərlərinin postuna gəlmiş və komandanlıqla birbaşa əlaqə saxlamışlar. Bundan sonra ermənilərdən təklif gəlmişdir ki, onların tabor komandiri Azərbaycan postunda olan əsgərləri danışığa dəvət edir. Danışıq aparmaq üçün komandirin tapşırığı ilə əsgərlər – Faiq Ələkbərov və Paşayev Zahid Bəylər oğlu qarşı tərəfin komandiri ilə əlaqə yaratmaq üçün erməni postuna getmişlər. Ancaq bir

müddətdən sonra onlar geri qayıtmadığı üçün, komandirin əmri ilə Siyafər Cəfərov erməni postuna getmişdi. Lakin ermənilərin danışıq məntəqəsinin yerləşdiyi köşkə daxil olan kimi boynunun arxasından ağır zərbə almış və huşunu itirmişdir. Ayılanda isə ondan əvvəl gəlmiş döyüş yoldaşlarının əlləri bağlı halda yerdə oturduqlarını görmüşdü. Onlardan nə baş verdiyini soruşanda, Faiq Ələkbərov atışma zamanı Azərbaycan əsgərlərinin 4-cü posta hücum etmiş iki erməni əsgərini güllələdiyini, buna görə də ermənilərin razılığı pozduğunu və onları tələyə salaraq əsir götürdüklərini bildirmişdi. Maraqlı hallardan biri də ondan ibarətdir ki, onları əsir alan vaxt erməni postunda olan hərbçilərin sayı razılaşmada nəzərdə tutulduğundan xeyli çox imiş. Bir azdan Ermənistan hərbçiləri öz aralarında nə isə müzakirə etdikdən sonra, onlardan təxminən 10 nəfəri arxa qapıdan bayıra çıxmışlar. Güman ki, onların məqsədi postda qalan iki Azərbaycan əsgərini də əsir götürmək idi. Bu vaxt əsirlərin hər birini 4 erməni əsgər sürüyüb bayıra çıxarmışdı. Bayıra çıxanda onlar erməni postunun üzərindəki projektorla öz postlarının işıqlandırıldığını və orada qalmış iki əsgərin isə çaşqın halda qaldıqlarını görmüşlər. Lakin ermənilər onları əsir götürə bilməmişlər. Sonrakı vəziyyətdən isə Siyafər Cəfərovun xəbəri olmamışdı. Əsirləri əvvəlcə yaxınlıqdakı çaxır zavoduna, oradan isə hərbi hissəyə aparmışlar. Orada podpolkovnik və polkovnik rütbəli iki hərbçi onları sorğu-sual etmişdir. Sorğu-sual rus dilində aparıldığından onları Faiq Ələkbərov cavablandırmışdır. Sonra əsirləri nəzarət altında saxlamış, bir-biri ilə danışmağa icazə verməmişlər. Bir azdan Faiqi ayırıb kənara aparmışlar. Ancaq o, geri dönərkən başı ilə "Yox" işarəsini vermişdi. Sonra Zahid Paşayevi, sonda isə Siyafər Cəfərovu ayıraraq aparmışlar. Onu üç videokamera quraşdırılmış bir otağa gətirmiş, bildirmişlər ki, o, indi Ermənistan televiziyasının 1-ci kanalı ilə canlı yayımla çıxış edərək deməlidir: "Mən, Cəfərov Siyafər Həsən oğlu, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin əsgəri, öz istəyimlə, könüllü olaraq Ermənistan vətəndaşlığını qəbul edirəm və yoldaşlarımı da buna çağırıram" və s. Ancaq müsahibə vermək təklifini qəbul etmiş Siyafər Cəfərov "Mən, Cəfərov Siyafər Həsən oğlu, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin əsgəri, atəşkəs dövründə erməni müzdluları tərəfindən əsir götürülmüşəm", – demişdir. Bu sözləri deyən kimi kameranı söndürmüş və ondan nə üçün belə danışdığını soruşmuşlar. Siyafər Cəfərov həqiqəti söylədiyini bildirmiş və atəşkəs dövründə əldə edilmiş razılığın pozularaq əsir götürüldüyünü demişdir. Müsahibə almaq istəyənlər həm mülki, həm də hərbi geyimli imiş. Bu söhbətdən sonra onu otaqdan çıxarmışlar. Onları dindirənlərin kim olduğunu bilməsə də, tez-tez "Haykaz" adını işlətdiklərini və Haykazın kəşfiyyat komandiri olduğunu eşitmişdi. Sonra onu polkovnik rütbəli başqa bir erməni zabit dindirmiş və təpiklə ağzını partlatmış, erməni dilində söymüşdür. Siyafər Cəfərov isə öz növbəsində onu Azərbaycan dilində söymüşdür. Bundan qəzəblənən polkovnik "Bəxtin gətirib ki, sizi Yerevana aparırlar, yoxsa burada səni nələrin gözlədiyini bilərdin", – demişdir. Bundan sonra o, Siyafər Cəfərovun haqqında Yerevana məlumat çatdıracağını və onunla daha ciddi məşğul olacaqlarını bildirmişdir. Polkovniki daha çox hərbi sirlər maraqlandırırmış. Ancaq Siyafər Cəfərov oxuyub-yazmaq bilmədiyini, iki il eyni postda saxlandığından heç nədən xəbəri olmadığını demişdir. Heç bir cavab ala bilməyən polkovnik onu təpik, yumruq və dəyənəklə dəhşətli dərəcədə döymüşdür. Həmin polkovnikin Haykaz olduğunu o, sonradan öyrənmişdir. O, daha çox Siyafər Cəfərovu sorğu-sual edir və döyürmüş. Əsirlər isə fürsət tapıb əvvəlcədən öz aralarında bütün suallara "yox",

“bilmirəm” kimi cavab verəcəkləri barədə razılaşmışlar. Ertəsi gün əsirləri maşına mindirib, Yerevan şəhərindəki hərbi hissəyə aparmışlar. Əsl əzablar isə bundan sonra başlamışdı. Orada üçünü də bir kameraya salmışlar. Elə ilk gün axşam 10 nəfər hərbçi kameraya girərək onları döymüş və işgəncə vermişlər. Siyafər Cəfərov düşünürmüş ki, bu gecəni də salamat çıxsa, daha ona ölüm yoxdur. Ümumiyyətlə, həmin günlər o, ölümdən qorxmurmuş. Səhərədək əsirləri növbə ilə döymüşlər. Daha çox onun diz qapaqlarına və böyrəklərinə vururmuşlar. Müxtəlif işgəncə növlərindən istifadə edirdilər. Kameranın ortasında yerə bərkidilmiş dəmir stul varmış. Erməni hərbçilərdən bir neçəsi stulun bir tərəfində, digərləri isə qarşı tərəfdə dururmuş. Əvvəl əsiri stulun üstünə çıxarır, sonra təpiklə vurub qarşı tərəfə salırmışlar və onlar da eyni tərzdə vurub qarşı tərəfə atırmışlar. Bu hal dəfələrlə təkrar olunurmuş. Sonra isə əsirləri yerə uzadıb, ayaqlarının üstünə çıxıb tapdalayırmışlar. Bu işgəncələr BQXK-nın nümayəndəsi isveçli Serjio onları qeydiyyata alanadək davam etmişdir. Mart ayının 1-də Serjio saxlanma yerinə gəlmişdir. O, hadisə barədə Türkiyənin TRT-1 kanalında verilmiş məlumatı eşitdikdən sonra onların axtarışına başladıqlarını söyləmiş və rəsmi qeydiyyata almışdır. Əsirlər ağır işgəncələrə məruz qalmaları və saxlanıldıqları dözülməz vəziyyət barədə BQXK-nın əməkdaşına ətraflı məlumat vermişlər. Martın 8-də əsirləri maşına mindirib, böyük bir binaya gətirmişlər. Oradakı kamerada saç-saqqalı uzanmış bir nəfər də saxlanılırdı. Əvvəlcə onu erməni zənn etmiş, sonra Şahbuz rayonu, Kükü kənd sakini Məhərrəmov Afiq Məhərrəm oğlu olduğunu öyrənmişdir. Afiq 1995-ci ilin noyabr ayında qoyun otararkən Ermənistan kəşfiyyatçıları tərəfindən girov götürüldüyünü demişdir. Siyafər Cəfərov Afiq barədə əsir düşməzdən əvvəl onu axtarmaq üçün Sədərək bölgəsinə gəlmiş gizir rütbəli qardaşı Qalibdən eşitdiyini xatırlamışdı. Afiq Məhərrəmov tamam zəifləmişdi, dəhşətli işgəncələrə məruz qaldığı aydın görünürdü. Orada da işgəncələr ara vermir, daha şiddətli olurdu. Afiq zəif olduğu üçün işgəncələrə dözmür, hönkürüb ağlayırmış. O, həm də əlil idi, girov götürülməzdən əvvəl qolları sınmış, sonra əyri bitmişdi. Buna baxmayaraq, onunla çox qəddarcasına davranırdılar. Saxlandıqları yer isə Ermənistan Milli Təhlükəsizlik Nazirliyinin təcridxanası imiş. Əsirləri daha çox mülki geyimli şəxslər döyürdülər. Bir neçə gündən sonra Siyafər Cəfərovu təkadamlıq kameraya salmış, sol ayağından kameranın divarına quraşdırılmış, yığılıb açılan çarpayıya zəncirləmişlər. Gün ərzində 3-4 nəfər daxil olur, rezin dəyənək və telefon naqillərindən kustar üsulla toxunmuş xüsusi dəyənəklə saatlarla döyür və sorğu-sual edirmişlər. Verdiyi cavablarda Azərbaycan ordusunda təlimin və əhvali-ruhiyyənin yaxşı olduğunu, ölkədə milli düşüncənin yüksəldiyini, əhalinin müharibə şəraitinə hazır olduğunu bildirirmiş. Bu cavablara görə də hirslənir, onu daha şiddətlə döyürmüşlər. Ölümü hər an gözləyir, bundan daha ağır vəziyyəti təsəvvür etmirmiş. Bəzən o qədər döyürmüşlər ki, artıq öldüyünü zənn edirmiş. Orada onu 14 gün saxlamış və işgəncələr barədə BQXK əməkdaşlarına məlumat verəcəyi təqdirdə daha pis vəziyyətə salacaqlarını demişlər. İşgəncələr isə o qədər dəhşətli idi ki, gələnlərin əlində yalnız rezin dəyənək olduğunu görəndə sevinirmiş. Xüsusilə, telefon naqilindən toxunmuş dəyənəklə döyülmək çox ağrıdırmış. Bir gün, xoşbəxtlikdən, kameraya gəlmiş BQXK nümayəndəsi Siyafər Cəfərovu divara zəncirlənmiş şəkildə görmüşdü. Təskinlik verərək hər şeyin yaxşı olacağını, yaxın vaxtlarda Vətənə qaytarılacağını demişdi. BQXK əməkdaşlarından biri təskinlik vermək məqsədi ilə əlini kürəyinə çəkərkən Siyafər özündən ixtiyarsız olaraq ufuldamışdı.

Vəziyyəti başa düşən nümayəndə onun köynəyini yuxarı qaldırmış və işgəncə izlərini görmüşdür. BQXK əməkdaşları təəssüflə Ermənistan hərbçilərinin əsirlərlə davranış qaydalarını kobud şəkildə pozduqlarını bildirmişlər. Siyafər Cəfərov BQXK əməkdaşlarından yoldaşlarının yanına qaytarılmasını tələb etmələrini xahiş etmişdir. Həmin gün onu yoldaşlarının yanına qaytarmışlar. O, işgəncə verənlərin adlarını bilmirdi. Nəzarətçilərdən yalnız birini – əslən rus olan Pavliki xatırlayır. Pavlik əsirləri döymür, bu müharibənin ona aid olmadığını bildirirdi.

Sonra ora bir neçə əsir də gətirilmiş və yeni gətirilənlərlə birlikdə 8 nəfər olmuşlar. Onlardan Zaqataladan olan Talıbov Əli Əkbər oğlunu, Naxçıvan MR istiqamətində dumana düşüb yolu azmış xəstəhal bir oğlanı, Şərur rayonundan Allahverdiyev Tahir Afət oğlunu, Tovuz rayon sakini Aslanov İdris Mirzə oğlunu xatırlayır. İdris Aslanov ruhi xəstə imiş. Hamıya işgəncə verir, ruhi xəstə olmasına baxmayaraq, İdrisin başına qıfılla vururmuşlar.

Bir neçə gündən sonra əsirlərə təkrar baş çəkməyə gəlmiş BQXK əməkdaşları Siyafər Cəfərova tezliklə evə gedəcəyini bildirmiş, ancaq bu barədə yoldaşlarına məlumat verməməyi tapşırmışlar. Sonra ona doldurmaq üçün anket vermiş, xarici ölkəyə getmək arzusunda olub-olmadığını soruşmuş, belə arzusu olarsa, təmin edəcəklərini bildirmişlər. 10 may 1996-cı il tarixdə onları Yerevan hava limanına gətirmişlər. Siyafər Cəfərov hava limanında Dağlıq Qarabağdan gətirilmiş digər 67 nəfər azərbaycanlı əsirləri də görmüşdür. Onlar dəhşətli işgəncələrə məruz qaldıqlarını, işğal olunmuş ərazilərdə evlərin sökülməsində, talan olunmasında məcburən işlədildiklərini deyirmişlər.

Cəfərov Xasay Ağamalı oğlu – 1943-cü ildə Kəlbəcər şəhərində anadan olmuşdur. 2 aprel 1993-cü il tarixdə girov götürülmüş, 8 may 1995-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Yaşadığı Kəlbəcər şəhəri Ermənistan Silahlı Birləşmələri tərəfindən işğal edilərkən xəstə vəziyyətdə olan ailə üzvlərini ərazidən çıxarmağa çalışmışdır. Onları 15 km gətirdikdən sonra xəstə həyat yoldaşı, anası, baldızı və qayınanası ilə birlikdə Ermənistan hərbçiləri tərəfindən girov götürülmüşdür. Girovları Xankəndi şəhərinə aparmışlar. Orada Xasay Cəfərovu ailəsindən ayıraraq həbsxanaya salmış, digərlərini isə harasa aparmışlar. Bir həftədən sonra isə onu Şuşa həbsxanasına aparmışlar. İstər həbsxanada, istərsə də ilk dəfə tutulanda onlara qarşı amansız rəftar etmiş, döymüş, söymüş, öldürəcəkləri ilə hədələmişlər. Amma elə işgəncələr verilirmiş ki, adam elə özü ölmək istəyirmiş. Şuşa həbsxanasında saxlanılarkən onları işlədən erməni nəzarətçilər, xüsusilə də Robi, Samvel və adını bilmədiyi digər bir erməni tərəfindən daim təzyiqlə üzləşir, söyülərək döyülür, ayaqyoluna salınırmış. Lyova isə onları öldürəcəyini deyərək üstlərinə ikinci mərtəbədən vedrələrlə soyuq su tökür, hətta su ilə dolu vedrəni yuxarıdan başlarına çırpırmış. Dolu vedrənin başına düşməsi nəticəsində onun başında dərin yarıq açılmışdı. Sonra isə Lyova böyük bir daşı Xasay Cəfərovun ayağına çırpmış, yaralanmış ayağı baxımsızlıqdan çürüməyə başlamışdı. Ancaq ayağındakı yaranı görmüş BQXK əməkdaşları onu xəstəxanaya aparmışlar. Xəstəxanada ayağının ətinin çürüyən hissəsini kəsib götürmüş, ancaq bir il müddətində yara sağalmamışdı. Buna baxmayaraq, zorla işə cəlb edilirdi və bu da yarasının sağalmasına imkan vermirdi. Aprelin 24-də "erməni soyqırımı" günü münasibətilə həmyerlisi – yaşlı Həmid kişini gözlərinin qarşısında

güllələmişlər. Orada hərbçilərin və girovların ləyaqətini alçaldan işgəncələr verir, bir əsiri başqa əsiri döyməyə, ona qarşı əxlaqsız hərəkət etməyə məcbur edirdilər. Xəstəxanada Zərdab rayon sakini Pənah adlı bir əsirə olmazın işgəncələr verir "Səni öldürəcəyik", – deyirmişlər. Yaxından tanıdığı Mehdi Babayevi işlədiyi yerdə o qədər döymüşdülər ki, iki gündən sonra Şuşa həbsxanasında ölmüşdür. Bir dəfə nəzarətçi onun cavan əsirlərə verilən işgəncələrə dözməyərək qəzəbdən əsdiyini gördüyü üçün tapançanın dəstəyi ilə ağzından, lüləyi ilə başından vuraraq üç yerdən deşmişdir. Ağzından aldığı zərbədən uzun müddət yemək yeyə bilmirdi. Orada azyaşlı girov uşağa narkotik maddələr verilməsinin, bir neçə əsirin döyülmələr nəticəsində öldürülməsinin və ya intihar etmək istəməsinin şahidi olmuşdur. Azyaşlı girov uşağı narkotik maddəli siqaret çəkməyə həvəsləndirir, avtomatdan atəş açaraq qadın və qocaları yaralayırmışlar. Bir erməni nəzarətçi isə avtomat silahını erməni uşağa vermiş, o isə atəş açaraq gənc girov qız – Ofeliya Quliyevanı qarnından və qolundan yaralamışdı. Həmin qız xəstəxanaya aparılıb əməliyyat edilsə də, hazırda əlildir. Girov götürülmüş xalası və qayınanası verilən yeməyi yeyə bilmədikləri üçün ac qalaraq dünyalarını dəyişmişlər. Sərvinaz adlı həmyerlisi isə girov götürüləndən sonra işgəncələrə dözməyib venasını kəsmiş, ancaq ölmədiyi üçün özünü dağ çayına atmışdı. Ancaq onu çaydan çıxarıb yenidən girovluğa aparmışlar. Hər cür işgəncələrə məruz qaldıqlarına görə anası və baldızı girovluqdan sonra yaşaya bilməmiş, tezliklə ölmüşlər. Xasay Cəfərov özü əsəb xəstəliyinə tutulmuş, həyat yoldaşı isə birinci qrup ruhi xəstə olmuşdur.

Cəfərov Xasay Ağamalı oğlu 8 may 1995-ci ildə azad edilmişdir.

Cəfərova Məryəm Zinatovna – 1930-cu ildə Rusiya Federasiyasının Həştərxan şəhərində doğulmuş, Zəngilan şəhərində yaşamışdır. 3 noyabr 1993-cü il tarixdə girov götürülmüş, 26 mart 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistanın işğalçı ordusu sürətlə irəlilədiyi üçün Zəngilan rayonunun dinc əhalisi öz ata-baba yurdunu tərk etməyə başlamışdı. Ancaq Məryəm Cəfərova milliyyətcə tatar olduğu üçün Ermənistan hərbçilərinin ona toxunmayacağını fikirləşərək, evini tərk etməmişdi. Həm də yaşı çox olduğu üçün yolu gedə bilməyəcəyini düşünmüşdür. Beləliklə, dörd gün öz evində tək qalmışdır. Pəncərədən ermənilərin mənzilləri qarət etdiklərini, yandırdıqlarını, qapı-bacaları sındırdıqlarını görmüşdür. Başa düşmüşdür ki, orada qalmaq artıq təhlükəlidir. Noyabr ayının 3-də ən yüngül və dəyərli əşyalarını gücü çatan qədər iki zənbilə yığaraq evdən çıxmışdır. Məktəbin yanına çatanda evləri talan edən 14-15 yaşlarında 20-yə qədər erməni uşaqla qarşılaşmışdır. Onlar Məryəm Cəfərovadan hara getdiyini soruşmuş və o, Hadruta getdiyini bildirmişdir. Erməni olmadığını anlayıb ona hücum etmiş, zənbillərini əlindən almış, saçlarını yolmuş, paltarını cırmışlar. Sonra döyə-döyə, sürüyə-sürüyə qarşıdakı binalara tərəf dartmağa başlamışlar. Bu vaxt oraya yaxınlaşmış "KAMAZ" markalı maşından 35-40 yaşlarında bir hərbçi düşmüşdür. Hərbçi uşaqlarla xeyli mübahisə etdikdən sonra Məryəm Cəfərovanı onların əlindən almış və yük yerinə mindirərək avtovağzala tərəf aparmışdır. Maşın bütün gün kəndləri dolaşıb həyətlərdən, maşın-traktor parklarından dizel yanacağı yığmış, axşam Xankəndində yerləşən hərbi hissəyə gəlmişdir. Orada onu binanın ikinci mərtəbəsində bir otağa salmış, üç gün saxlamışlar. O, 26 mart 1994-cü il tarixində dəyişilərək azad edilmişdir.

Dadaşova Zəminə Göyüş qızı – 1977-ci ildə Azərbaycan Respublikası Kəlbəcər rayonu, Çıraq kəndində doğulmuşdur. 4 aprel 1993-cü il tarixdə girov götürülmüş, 14 iyun 1993-cü il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü il aprel ayının 3-də yaşadıqları Kəlbəcər rayonu işğal olunan zaman atası Dadaşov Göyüş Şamil oğlu, nənəsi İbadova Qönçə Səlim qızı, yaxın qohumları – Səfərov Zabil Kamran oğlu və onun Səadət adlı nənəsi ilə birlikdə evdə olmuşlar. Zəminə Dadaşova və ailə üzvləri belə qərara gəlmişlər ki, ermənilər kəndə girsələr, girov düşməmək üçün özlərini öldürsünlər. Anası Dadaşova Telli Müseyib qızı isə bacısı Qərənfilin evinə getməyi qərara almışdır. Anası evdən çıxandan 5-10 dəqiqə sonra işğalçı Ermənistan əsgərləri zirehli texnika ilə kəndə daxil olmuş və bir-bir evləri gəzərək atəşə tutmağa başlamışlar. Onların evi də atəşə tutulmuşdur. Amma içəri girmədən çıxıb getmişlər. Ancaq onlar Ermənistan hərbçilərinin evi mühasirəyə aldıqlarını güman etmişlər. 1993-cü il aprel ayının 3-dən 4-nə keçən gecə atası ov tüfəngini götürüb, əsir düşməmək üçün özünü vurmuş, amma ölməmiş, ağır yara almışdır. Bundan sonra Zəminə Dadaşova razılaşdıqları kimi, əvvəlcə atasını, sonra isə nənəsini ov tüfəngi ilə atəş açaraq öldürmüşdür. Sonra isə üç dəfə özünə atəş açmış və huşunu itirmişdir. Bir müddətdən sonra özünə gəlib ağır yaralı olduğunu görmüşdür. Zabil Səfərovdan onu bayıra çıxmağa kömək etməsini xahiş etmişdir. Zabil və Zəminə bayıra çıxarkən heç kimi görməmiş və evə qayıtmışlar. Sonra Zabil öz nənəsini də çölə çıxarmışdır. Bir neçə saatdan sonra ermənilər evə girmiş və Zəminə Dadaşovanı girov götürmüşlər. Bu zaman anası da evə qayıtmış və o da girov götürülmüşdür. Onları rayon mərkəzinə aparmışlar. Zabil və nənəsi kənddə qalmışdır. İki gündən sonra anası ilə Zəminəni Ermənistanın Göyçə rayonuna aparmışlar. Orada BQXK nümayəndələrinin nəzarəti altında 20 gün müalicə etdikdən sonra Yerevana aparmışlar. Yerevanda 20 gün müddətində müalicə olunsa da sol qolu şikəst qalmışdır. Zəminə Dadaşova 14 iyun 1993-cü il tarixdə azad edilmişdir.

Tibbi ekspert rəyindən: *Dadaşova Zəminə Göyüş qızı sol döşündən güllə yarası almış, girovluqda olduğu müddətdə sol döş vəzi götürülmüşdür. Düzgün və vaxtında müalicə aparılmadığından sol yuxarı ətrafı da hərəkətdən qalmışdır.*

Daşdəmirov Novruz Məmməd oğlu – 1975-ci ildə Azərbaycan Respublikası Tovuz rayonu, Yuxarı Öysüzlü kəndində doğulmuşdur. 28 avqust 1993-cü il tarixdə əsir götürülmüş, həmin il dekabr ayının sonlarında azad olmuşdur. İfadəsində bildirmişdir:

Əsirlikdə olarkən o, işğal altında olan Dağlıq Qarabağda və Ermənistanda saxlanılmış, ağır işgəncələrə məruz qalmışdır. Müntəzəm olaraq ermənilər tərəfindən demək olar ki, hər gün döyülmüş, bədəninə qızdırılmış əşyalarla damğalar basılmışdır. 1993-cü ilin dekabrında Ermənistanda saxlanılarkən, yaranmış əlverişli vəziyyətdən istifadə edərək əsirlikdən qaçmışdır. Əsirlikdən qaçandan sonra dərin stress içində olmuş, özünə gələ bilməmiş, ağır ruhi xəstəliyə tutulmuşdur.

Dəmirov Adil Nəbi oğlu – 1978-ci ildə Azərbaycan Respublikası İsmayıllı rayonu, Qaraqaya kəndində doğulmuşdur. 1998-ci ilin avqust ayında əsir götürülmüş, 17 fevral 1999-cu il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Əsir götürüldükdən sonra ermənilər tərəfindən 7 aya qədər müxtəlif yerlərdə, şəxsi evlərdə və Yerevan şəhərində – Ermənistan Respublikası Təhlükəsizlik Nazirliyinin

təcridxanasında saxlanılmışdır. İlk iki gün Ermənistan Respublikasının Azərbaycanın Gədəbəy rayonu ilə sərhəd olan kəndlərindən birində saxlanıldığı zaman Ermənistan hərbçiləri tərəfindən işgəncələrə məruz qalmışdır. Belə ki, sol ayağının pəncəsinə iki ədəd mismar vuraraq onu yerə mıxlamışlar. Bir dəfə isə onu kəndirlə asmışlar. Lakin kəndir köhnə olduğu üçün, onu qıraraq ölümdən qurtara bilmişdi. Kürək nahiyəsinə elektrik cərəyanı buraxaraq işgəncə vermişlər. Yerevanda təcridxanada əvvəlcə tək saxlanılmış, sonradan isə girov götürülmüş Qayıbov Bəxtiyar Əjdər oğlunu onun yanına gətirmişlər. O, ruhi xəstə idi. Xəstə olmasına baxmayaraq, ermənilər onu da döyür, həqarət edir, alçaldırdılar. Sonra onu başqa kameraya aparmışlar. Adil Dəmirov isə əzab-əziyyətli günlərdən sonra 17 fevral 1999-cu il tarixdə azad edilmişdir.

Doluxanov Məhkəmə Müseyib oğlu – 1933-cü ildə Azərbaycan Respublikasının Xocavənd rayonunda doğulmuşdur. 17 fevral 1992-ci il tarixdə girov götürülmüş, 29 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci il fevral ayının 17-də yaşadığı Xocavənd rayonunun Qaradağlı kəndi Ermənistan ordusu və terrorçu-quldur birləşmələri tərəfindən işğal edilmişdir. Kənddə qalmış 117 nəfər kişi, arvad-uşaqla birlikdə girov götürülmüşdür. Girov götürülmüş cavanları ayıraraq ata-analarının gözü qarşısında vəhşicəsinə güllələyib quyuya atmış, ekskavatorla üstünü torpaqlamışlar. Güllələnənlər arasında Məhkəmə Doluxanovun oğlu Rəhim də olmuşdur. Qalanlarını Xankəndinə aparmışlar.

Xankəndində saxlanıldıqları müddətdə Hüseynov Həbib Həmzə oğlu, Xəlilov Zahir Əyyub oğlu, Hüseynov Şahmurad Hüseynəli oğlu, Vəliyev Fazil Cavad oğlu, Hüseynov Şura, Nəzərov Şura İbad oğlu, Əsədov İmran Əhməd oğlu, Quliyev Əlastan Nəriman oğlu və adlarını xatırlamadığı digər kənd sakinləri vəhşicəsinə döyülərək qətlə yetirilmişlər. Ermənistan hərbçiləri, xüsusən də gecələr içkili və nəşəli vəziyyətdə onları amansızcasına döyürdülər. Orada Kazımov Kazım Əbdülhəsən oğlunun və Şirinov Böyükkişi Lələ oğlunun qızıl dişlərini mismar kəlbətini ilə dartıb çıxarmışlar. Onu da hamı kimi təpikləyir, dəyənək, lom, armaturla bədəninin hər yerinə vururmuşlar. Ermənilər, filmlərdəki qorxunc vampirlər kimi, girovların qanlarının axmasından ləzzət alır, hətta barmaqlarını qanlarına sürtüb yalayırdılar. Sanki hamısı cinayətkarlar dəstəsi idi, cinayət qanunları ilə yaşayırdılar. Onlar üçün azərbaycanlını öldürmək adi bir şey idi. Girovları döyür, "Hamınızı qıracağıq, onsuz da heç kim sizinlə maraqlanmır, bütün dünya bizim tərəfimizdədir", – deyə bağırır, heysiyyətlərinə toxunur, həqarət edirdilər. O, 29 mart 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Eyvazov Əli Nəcəfalı oğlu – 1942-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda doğulmuş, Xocalı şəhərində yaşamışdır. 1992-ci ilin fevral ayının 26-da girov götürülmüş, həmin il mart ayının 28-də girovluqdan azad olunmuşdur. İfadəsində bildirmişdir:

Xocalı şəhəri işğal olunan zaman Ermənistan hərbçiləri zirehli döyüş maşını və piyadaların döyüş maşını ilə meşəyə doğru qaçan dinc əhalinin qarşısını kəsmişlər. Xilas olmağa çalışan sakinlər aralı düşmüş dəstələrlə hərəkət etdiyindən bir-birindən xəbəri olmamışdır. Əlinin qoşulduğu 100-110 nəfərlik dəstəni isə ermənilər girov götürmüşlər. Girovların arasında qadınlar, qocalar, azyaşlı uşaqlar və gənclər olmuşdur. Ermənilər

girovları Əsgəran rayon Milis şöbəsinə aparmış, gecə vaxtı qadınları otaqdan çıxarıb aparmış, başlarına min bir müsibət açdıqdan sonra bir neçəsini saxlayıb digərlərini geri qaytarmışlar. Kişilərdən nisbətən gənclərini isə girovların gözü qarşısında öldürmüş, bəzilərinin hətta başlarını kəsmişlər. Onunla eyni yaşda olan 23 girovu səkkiz gün Əsgəran rayon Milis şöbəsinin kamerasında saxlamışlar. Sonra onları Noraguh (Təzəkənd) kəndinə aparıb zirzəmiyə salmışlar. Orada ermənilər onun və digər üç girovun dişlərini kəlbətinlə çıxarmış, onları işgəncələrə məruz qoymuşlar. Xocalı soyqırımı zamanı Əlinin digər dəstədə olan 27 yaşlı oğlu ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir.

Eyvazov Əli Nəcəfalı oğlu 28 mart 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Eyyubov Rəbi Sabir oğlu – 1971-ci ildə Azərbaycan Respublikası Göyçay rayonunun Qızılağac kəndində doğulmuşdur. 13 fevral 1994-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonu ərazisində Murovdağ uğrunda gedən döyüşlər zamanı Göyçay rayonunun Şəkər kənd sakini Firudin, həmin rayonun Qızılağac kəndindən olan Rəsulov Namizəd və Bakı şəhərindən Elxan adlı əsgər yoldaşları ilə birlikdə Ermənistan hərbçilərinin mühasirəsinə düşmüşlər. Atışmada Elxan həlak olmuş və meyiti hadisə yerində qalmışdır. Digərlərini isə ermənilər əsir götürərək, işğal edilmiş Kəlbəcər rayonu ərazisinə aparmış və təcridxanaya salmışlar. Ermənistan hərbçiləri onları ağacla, rezin dəyənəklə, armaturla amansızcasına döymüşlər. İşgəncələr nəticəsində azərbaycanlı əsirlərin başları yarılmış, üz-gözləri şişmiş, bədənlərində yaralar əmələ gəlmişdir. Üç gündən sonra onları Ağdam rayon Milis şöbəsinə aparmışlar. Orada erməni həkimlər 30 yaşlı Həsən adlı əsirin hər iki ayağını heç bir əsas olmadan topuqdan aşağı kəsmişlər. Əsirlərə odun doğratdırmış, gün ərzində bir parça quru çörək və su vermişlər. Milis işçiləri də əsirləri hər gün döymüş, tez-tez öldürməklə hədələmişlər. Üç gündən sonra şöbədə saxlanılan əsir-girovların hamısını Xankəndi şəhərindəki müvəqqəti saxlama təcridxanasına aparmışlar. Təcridxanada da əsirləri huşlarını itirənədək döymüş və ağır işlər görməyə cəlb etmişlər. Rəbinin gözləri önündə təxminən 50 yaşlı, adını xatırlamadığı girov aclıqdan və döyülməkdən ölmüşdür. 1994-cü ilin iyul ayının 19-da əsir-girovları Şuşa həbsxanasına aparmışlar. Rəbi orada Heydər adlı əsirin ermənilər tərəfindən döyülərək öldürüldüyünü eşitmişdir. Azərbaycanlı əsirlər və girovlar Mısmına kəndində işlədikləri zaman vəhşicəsinə döyülmüş, mənəvi-psixoloji işgəncələrə məruz qalmışlar. Artur adlı sarıyanız, arıq, 26-27 yaşlarında, "Koşka" ləqəbli erməni R.Eyyubovun əlinə araq şüşəsi vermiş, avtomatla nişan alıb atmışdır. Sonra şüşəni onun başına qoyub avtomatla vurmuşdur. 1995-ci il mart ayının 14-də Füzuli rayonunda işlədikləri zaman Artur yenə şüşəni onun başına qoyub atəş açan zaman güllə Rəbinin başına dəymiş və o, çoxlu qan itirmişdir. Ancaq Artur bu barədə BQXK-nın Pyer adlı nümayəndəsinə məlumat verəcəyi təqdirdə onu öldürəcəyi ilə hədələmişdir. Artur Füzuli rayonunda əsir-girovlara qəbirlərin mərmər daşlarını, evləri və digər tikililəri sökdürür, sonra isə yük maşınlarına yüklətdirərək, separatçı Dağlıq Qarabağ rejiminin "müdafiə naziri" Samvel Babayan üçün bir toyuq ferması, iki donuz ferması, digər erməni komandirləri üçün evlərin tikintisində istifadə edilməsi məqsədi ilə Mısmına kəndinə aparırmış. İş zamanı erməni nəzarətçilər əsir-girovları sürətlə işləməyə məcbur edir və ləng tərpənənləri

döyürmüşlər. Armen adlı 25-30 yaşlarında nəzarətçi erməni əsirləri bel sapı ilə, avtomatın qundağı və dəyənəklə döyürmüş. Nəzarətçilər əsir-girovlarla heyvan kimi rəftar etmiş, onları alçaltmış, təhqir etmişlər. Eyyubov Rəbi Sabir oğlu 1996-cı ilin may ayının 10-da Rusiyanın vasitəçiliyi ilə əldə edilmiş razılığa əsasən azad edilmişdir.

Əhmədov Amil Əhməd oğlu – 1973-cü ildə Beyləqan rayonu, İkinci Aşıqlı kəndində doğulmuşdur. 23 sentyabr 1993-cü il tarixdə əsir götürülmüş, 23 oktyabr 1994-cü il tarixdə azad olmuşdur. İfadəsində bildirmişdir:

Əsir götürüldükdən sonra Xankəndi şəhərinin Həsənabad qəsəbəsində saxlanılarkən, ermənilər onları səhərə kimi ayaqyalın qarın üstündə işlətmiş, təpik, yumruq, taxta, lom və dəmir parçası ilə möhkəm döymüşlər. Vaqif adlı əsiri döyə-döyə öldürmüşlər. Ağdam rayonundan olan Cahangiri isə xəstəxanaya yerləşdirmək adı ilə əsir və girovların yanından aparıb öldürmüşlər. Onların meyitlərini Amil Əhmədov və digər əsirlərə yaxınlıqdakı meşədə dəfn etdirmişlər. Ermənistan hərbçiləri yaşlı girovları istixanada, cavan əsirləri isə ağır işlərdə işlətmişlər. Ağdam rayonunun işğal olunmuş kəndlərindəki evlərin söküntüsündə işlətmiş, mişar daşı, mazut, odun, əhəng yığılmasında və s. istifadə etmişlər. Həsənabad qəsəbəsində əvvəldən saxlanılan əsir-girovlardan eşitmişdir ki, Arkadi adlı istixana rəisi Vaqif və Cahangirlə yanaşı, Karlen, Binnət, Əhliman və Valeh adlı əsir-girovları o qədər döyüb-incitmişdir ki, Karlen ağır bədən xəsarətləri ilə aparıldığı Xankəndi uşaq xəstəxanasında keçinmişdir. Valeh Əliyev isə işgəncələrə dözməyərək, tapdığı əl qumbarası ilə özünü öldürmüşdür. Binnət və Əhliman isə uzun müddət özlərinə gələ bilməmişlər.

Amil Əhmədov 23 oktyabr 1994-cü il tarixdə əsirlikdən azad olmuşdur.

Əhmədov Binnət Abduləli oğlu – 1937-ci ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun Başlıbel kəndində doğulmuşdur. 1993-cü ilin aprel ayının 18-də girov götürülmüş, 1994-cü ilin avqust ayının 19-da azad olunmuşdur. İfadəsində bildirmişdir:

1993-cü il aprelin ayının 18-də Ermənistan ordusu yaşadıqları Başlıbel kəndinə hücum edərkən, qardaşı ağır xəstə olduğu üçün onun yanında olmuşdur. Kənd sakinləri bir yerə toplaşaraq kahada gizlənmiş, mal-qaralarını da orada gizlətmişlər. Aprel ayının 18-də ermənilər onları görmüş və əhalini kahadan çıxararaq girov götürmüşlər. Girovlardan 19 nəfərini – 50-55 yaşlı Həsənova Çiçək Mikayıl qızını, 55 yaşlı Salahov Yaqub İsa oğlunu, 45 yaşlı Əmralıyev Məhəmməd Abış oğlunu, 20-25 yaşlı Əmralıyev Çingiz Məhəmməd oğlunu, 20-22 yaşlı Əmralıyev Surxay Məhəmməd oğlunu, 18 yaşlı Əmralıyeva Gülüstan Məhəmməd qızını, 48 yaşlı Əhmədova Büsat Əliş qızını, 13 yaşlı Əhmədova Zövqiyyə Binnət qızını, 59 yaşlı Əhmədov Hümbət Əbdüləli oğlunu, soyadını bilmədiyi 65-70 yaşlı Gülgəz arvadı və adlarını bilmədiyi daha 10 nəfəri elə kahanın ağzındaca güllələyib öldürmüşlər. Həmkəndliləri – 1900-cü il təvəllüdlü Qasımova Tutu Alı qızını, 1918-ci il təvəllüdlü Həsənova Şamama Hüseyn qızını, 1913-cü il təvəllüdlü Həsənova Mərmər Cavad qızını, 1918-ci il təvəllüdlü Həsənova Leyli Əli qızını, 1903-cü il təvəllüdlü Cəfərova Kubra Qədim qızını, Həsənova Zeynəb Mahmud qızını, Mənsimov Hüseyn İmran oğlunu, Şərqiyyəni, Arzu Binnət qızını, Məmmədov Hökmdar Surxay oğlunu, onun öz qızını, cəmi 14 nəfəri Xankəndi şəhərində yerləşən uşaq bağçasına aparmışlar. Uşaq bağçasında onlardan əlavə Məhəmməd, Fərman, Bəxtiyar, Tahir, onun

həyat yoldaşı Səmayə, Lətif, Xəzəngül və başqaları da saxlanılırmış. Bir neçə vaxtdan sonra onu Şuşa həbsxanasına aparmışlar. Həbsxanada onunla birlikdə 18 nəfər əsir-girov saxlanılırmış. 1993-cü ilin oktyabr ayının 10-da onları Həsənabad kəndinə aparmışlar. Orada onun gözü önündə Füzulidən Vaqifi, İmişlidən Valehi işgəncə verə-verə öldürmüşlər. Girovluqda olduğu iki ilə yaxın müddətdə gözləri önündə 19 nəfər əsir-girov amansızcasına qətlə yetirilmişdir. O, 1994-cü ilin avqust ayının 19-da girovluqdan azad olunmuşdur.

Əhmədov Fidai Vilayət oğlu – 1986-cı ildə Azərbaycan Respublikası Füzuli rayonunun Əbdürrəhmanlı kəndində doğulmuşdur. 1993-cü ilin avqust ayının 17-də 7 yaşında girov götürülmüş, 1994-cü ilin sentyabr ayının 15-də azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ermənistan hərbçiləri onun yaşadığı kəndi atəşə tutarkən özü və bacısı qəlpə yarası almışdır. Digər bacıları Zülfiyyə ilə Həqiqət isə atası Vilayətin idarə etdiyi traktorla kəndi tərk edərkən ermənilər tərəfindən atəşə tutulmuşlar. Bu vaxt atası özünü uşaqların üstünə ataraq onları qorumuş, özü isə yaralanmışdır. Həmin vaxt anası Zərəfşan və qardaşı Elçin mal-qaralarını üzüm bağı ilə kənddən çıxarmağa çalışarkən kəndin kənarında Ermənistan hərbçiləri ilə qarşılaşmış və girov götürülmüşlər. Girov götürən kimi ermənilər Vilayəti öldürmək istəmiş, lakin bu vaxt anası Zərəfşan ermənilərə yalvararaq, Vilayəti öldürməyə imkan verməmiş, yaralı vəziyyətdə olan həyat yoldaşını belinə alaraq zirehli döyüş maşınına qədər kürəyində aparmışdır. Ermənilər traktor sürən yaşlı bir kişini qaçmaq istərkən atəşə tutmuş, sonra alnından güllələyərək qətlə yetirmişlər. Girov saxlanılan zaman Nabat və Firəngiz adlı azərbaycanlı girov qadınlar baxımsızlıqdan və xəstəlikdən vəfat etmişlər. Firəngizə bit-birə daraşmış, stresdən dəli kimi olmuşdur. Girovluqda olarkən Fidainin 7 yaşı olmasına baxmayaraq, ermənilər hər dəfə yanından keçəndə onu da vurmuş, qulağından tutub dartmış, təpiklə döymüşlər. Əsir-girovlara əziyyətlər verən Ermənistan hərbçiləri onları incitməkdən, işgəncə verməkdən zövq alırmışlar. Yaralı olduğu üçün, əvvəl atası, sonra bacıları Həqiqət və Zülfiyyə, qardaşı Elçin və anası Zərəfşanla birgə o, girovluqdan azad edilmişdir. Girovluqda saxlanılarkən erməni nəzarətçilər tez-tez gecələr qəfildən içəri daxil olub, qışqır-bağır salaraq, əsir-girovları ayağa qaldırır və döyürmüşlər. Bu səbəbdən Fidai daim qorxu içində olmuş, 1994-cü ilin sentyabr ayının 15-də girovluqdan azad edildikdən sonra belə qorxu hisləri uzun müddət onu tərk etməmiş, hər gecə qışqırıb yuxudan ayılmış və ağlamışdır. Xeyli müddət hissə qapılaraq, heç kimlə danışmamış, uşaqlarla oynamamış, normal yemək yeyə bilməmişdir.

Əhmədov Firudin Mahmudəli oğlu – 1970-ci ildə Azərbaycan Respublikası Göyçay rayonunun Şəkər kəndində doğulmuşdur. 1994-cü ilin fevral ayının 13-də əsir götürülmüş, 1995-ci ilin iyul ayının 25-də azad olunmuşdur. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonunun müdafiəsi zamanı gedən döyüşlərdə yaralı və huşsuz vəziyyətdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Ermənilər əvvəlcə onu və əsir götürdükləri digər şəxsləri möhkəm döymüş, oradan işğal edilmiş Kəlbəcər rayonunun Şorbulaq kəndinə apararaq, 2-3 saat fasiləsiz olaraq ağacla, avtomatın qundağı, bellə vəhşicəsinə döymüşlər. Sonra onları erməni işğalı altında olan Ağdamın

Şahbulaq kəndində yerləşən həbsxanaya salaraq yenə işgəncələr vermiş, əyinlərindəki paltarları əllərindən alaraq əvəzinə köhnəsini vermişlər. Oradan isə əsirləri Ağdam rayonunun keçmiş Milis şöbəsinin binasına aparmışlar. Firudin orada ermənilərin Sabunçu rayonundan olan Həsən adlı əsirin sağlam ayaqlarını kəsdiyini eşitmişdir. Daha sonra əsir-girovları Xankəndi şəhərində yerləşən müvəqqəti saxlama məntəqəsinə aparmışlar. Komendantlığın əsgərləri əsir-girovları hər gün səhərə qədər döyüb işgəncələr vermiş, bədənlərində siqaret söndürmüş, gündüzlər isə qul kimi işlətmişlər. Bir erməni qadın hərbçi isə əsirlərin başında su şüşəsi sındırmaqdan həzz alırmış. Bir müddət sonra Şuşa həbsxanasına aparılan əsir və girovları erməni nəzarətçilər müntəzəm olaraq gecə saat 2-yə kimi armatur, ağac və bellə döymüş, müxtəlif ağır işlərə cəlb etmişlər. Mısmına kəndində saxlanılarkən sutkada 16-18 saat işlədilən azərbaycanlı əsir və girovlar axşamdan səhərə kimi narkotik maddə qəbul etmiş erməni nəzarətçilər tərəfindən əzab-işgəncələrə məruz qalırmış. Həmin dövrdə 5 nəfər azərbaycanlı əsirlikdən qaçdığına görə, digər əsir-girovlara 5 gün işgəncələr verilmiş, 10 gün ac saxlanılmışlar. Nəticədə Heydər adlı əsirin vəziyyəti ağırlaşmış, vaxtında tibbi yardım göstərilmədiyindən, bir müddətdən sonra keçinmişdir. Firudinin başında isə erməni nəzarətçilər limonad və çaxır şüşələri sındırmışlar. Erməni nəzarətçilər əsirləri bir-birini zorlamağa təhrik edirdilər. Azərbaycanın şimal rayonundan olan əsirləri *(şəxsiyyətləri məlumdur – tərt.)* ermənilər zorlamışlar. Başqa bir əsiri zorlamaqdan imtina etdiyinə görə, F.Əhmədovu ağır işgəncələrə məruz qoymuş, başında 3-4 ədəd su şüşəsi sındırmışlar. Erməni hərbçilərinin tapançanın dəstəyi ilə Firudinin ayaq sümüyünə çoxsaylı zərbələr endirmələri nəticəsində, hər iki tərəfdən irihəcmli yaralar əmələ gəlmişdir. Sonda 750 qramlıq su şüşəsi ilə başına vurulan zərbədən huşunu itirən F.Əhmədov yerə yıxılmışdır. Yerevanlı Qor, Armen, Aro adlı ermənilər başqa nəzarətçilərdən daha qəddar olmaları ilə fərqlənirmiş. Artur ilə Aro öz aralarında söhbət edərək belə qərara gəlmişdilər ki, Firudinin başına vura-vura onu kor etsinlər. Bu fikirlə onun başına daşla ağır zərbə endirmişlər. Şuşa həbsxanası rəisinin qardaşı "Oban" ləqəbli şəxs də erməni nəzarətçilərlə birlikdə əsirlərə ağır işgəncələr vermişdir. Nəzarətçi zabit Qor Spartakoviç əsir və girovlara qarşı ən qəddar və ən çox işgəncə verənlərdən olmuşdur. Hər gün rezin dəyənək, armatur, lom, ağac və avtomatın qundağı ilə vəhşicəsinə döyülən azərbaycanlı əsir-girovlar işğal edilmiş ərazilərdəki tikililərin sökülməsində və tikinti materiallarından separatçı Dağlıq Qarabağ rejiminin "müdafiə naziri" Samvel Babayan üçün 2 donuz ferması və 1 quşçuluq ferması, həmçinin 17 ədəd ikimərtəbəli yaşayış binalarının tikilməsində qul kimi işlədilmişlər. Əhmədov Firudin Mahmudəli oğlu 1995-ci ilin iyul ayının 25-də əsirlikdən azad olunmuşdur.

Əhmədov Natiq Mövsüm oğlu – 1972-ci ildə Azərbaycan Respublikası Sumqayıt şəhərində anadan olmuşdur. 1994-cü ilin fevral ayında əsir götürülmüş, həmin ilin noyabr ayında əsirlikdən azad olunmuşdur. İfadəsində bildirmişdir:

Murovdağ istiqamətində gedən döyüşlərdə Ermənistan hərbçiləri tərəfindən əsir götürüldükdən sonra Şuşa həbsxanasına aparılmışdır. Orada saxlanıldığı müddətdə hər gün 2-3 erməni nəzarətçi onu amansızcasına döymüş, sutka ərzində bir parça quru çörək vermişlər. Döyülmə və işgəncələr zamanı bütün kameralardan qışqırıq və fəryad səsləri eşidilirmiş. Natiq Şuşa həbsxanasında saxlanılan, adını bilmədiyi bir əsirin döyülərək

öldürülməsinin şəxsən şahidi olmuşdur. Bir müddət sonra Manvel adlı erməni onu Yerevan şəhərində yerləşən hərbi hissələrdən birinin qərargahına aparmış, 7-8 ay orada saxlanılmışdır. Mütəmadi olaraq döyülən və müxtəlif işgəncələrə məruz qalan Natiqin əsirlikdən azad edilməsi müqabilində Manvel onun ailəsindən böyük məbləğdə pul tələb etmişdir. Erməni nəzarətçilər N.Əhmədovla söhbətlərində orada saxlanılmış bir neçə əsir-girovu döyərək öldürdüklərini, digərlərinin isə başlarını erməni qəbirlərinin üstündə kəsdiklərini bildirmişlər. Əhmədov Natiq Mövsüm oğlu 1994-cü ilin payızında ailə üzvləri tərəfindən Manvelə 15 min ABŞ dolları pul vəsaiti ödənildikdən sonra əsirlikdən azad edilmişdir.

Əhmədov Rasət Əhəd oğlu – 1971-ci ildə Azərbaycan Respublikası İmişli rayonunun Sərxanlı kəndində doğulmuşdur. 1994-cü ilin mart ayının 4-də əsir götürülmüş, həmin ilin oktyabr ayının 14-də azad olunmuşdur. İfadəsində bildirmişdir:

Füzuli rayonu ərazisində gedən döyüşlərdə yaralı vəziyyətdə əsir götürülmüşdür. Xankəndi uşaq xəstəxanasında saxlanılarkən ermənilər tərəfindən ona və digər əsir-girovlara tərkibi məlum olmayan iynələr vurulmuşdur. Sınmış sol ayağını ermənilər yenidən üç dəfə qırmış, alnında siqaret söndürmüşlər. Həmin işgəncələrin izi indiyədək bədənində qalmışdır. Əsir-girovları ölümcül hala düşənədək döyən və işgəncə verən nəzarətçilər arasında Edik və Jirik adlı ermənilər daha qəddar olmaları ilə fərqlənirmiş. Ermənilər yaşından və cinsindən asılı olmayaraq, bütün azərbaycanlılara işgəncələr vermiş, bir-birinə işgəncə verməyə, təcavüz etməyə məcbur etmişlər. İyrənc əməlləri barədə BQXK nümayəndələrinə məlumat veriləcəyi təqdirdə isə əsir-girovları öldürəcəkləri ilə hədələmişlər. Rasət Əhmədov 1994-cü il oktyabr ayının 14-də əsirlikdən azad olunmuşdur.

Əhmədov Telman Şövkət oğlu – 1972-ci ildə Azərbaycan Respublikası Qax rayonunun Əmbərçay kəndində doğulmuşdur. 11 noyabr 1992-ci il tarixdə əsir götürülmüş, 12 dekabr 1993-cü ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Huşsuz vəziyyətdə əsir götürülmüş, əsirlikdə saxlanıldığı müddətdə daim döyülmüş və işgəncələrə məruz qalmışdır. 1993-cü il mart ayının 25-də Yerevandan Hərbi Polisə aparılarkən Laçın rayonu istiqamətində bütün Azərbaycan kəndlərinin talan edilərək daşındığını görmüşdür. Əsirlikdə olduğu müddətdə Nəsirov İlham Sədulla oğlunun aclıqdan və işgəncələrdən, Fikrət adlı ruhi xəstənin isə bədənində şiş əmələ gəlməsi nəticəsində öldüklərinin şahidi olmuşdur.

Əhmədov Vilayət Fidayəddin oğlu – 1960-cı ildə Füzuli rayonu, Əbdürrəhmanlı kəndində doğulmuşdur. 17 avqust 1993-cü il tarixdə girov götürülmüş, 29 iyul 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan ordusu tərəfindən Füzuli rayonu, Əbdürrəhmanlı kəndi işğal edilərkən o, ailəsi ilə birlikdə girov götürülmüşdür. İşğal zamanı Ermənistan hərbçiləri qaçmağa çalışan silahsız kənd əhalisinə atəş açmış, təxminən 20 nəfəri güllələmişlər. Qətlə yetirilənlərdən Fərhadın adını xatırlayır. Yuxarı Əbdürrəhmanlı kənd sakini 48-50 yaşlı bir kişinin isə başına avtomatın xəzinəsində olan bütün güllələri boşaldaraq qətlə yetirmişlər. Əbdürrəhmanlı kəndində poçt müdiri işləmiş Qəzənfərin girov götürülmüş

həyat yoldaşı ZTR-ə mindirərkən "Mənə kömək edin", – deyərək çığırdığına görə, yerindəcə güllələmişlər. Qadının həyat yoldaşı Qəzənfər kəndi tərk edərkən Ermənistan hərbçiləri ZTR-lə onun idarə etdiyi "Moskviç" markalı avtomobilin üstünə çıxmış, maşını əzərək Qəzənfəri qətlə yetirmişlər. Vilayətin qızı Həqiqət də girov götürülərkən 17 güllə yarası almış və ölmüşdür. Girovları Füzuli rayonunun işğal edilmiş Kürdlər kəndinə aparmış, orada məktəbin binasına yığaraq döymüşlər. Sonra oraya Səfəralı adlı girovu gətirmişlər. Vilayətin eşitdiyinə görə, Səfəralı sonradan Ermənistanda saxlanılarkən ölmüşdür. Hadrut rayonunun Edilli kəndindəki tibb məntəqəsində saxlanılarkən Alyoşa, Famil və Rafiq adlı Ermənistan hərbçiləri Fərman adlı yaşlı kişini və Cavanşir adlı digər girovu avtomatın qundağı ilə döyərək öldürmüşlər. Əsir-girovları ac-susuz saxlayıb, sərxoş vəziyyətdə əllərinə keçən ağac, armatur, kürək sapı ilə vəhşicəsinə döyürmüşlər. Xankəndi müvəqqəti saxlama təcridxanasında Qədir, Valeh və Şəmsi adlı şəxslər girovluqdan qaçmağa cəhd etdiklərinə görə, erməni hərbçilər tərəfindən avtomatın qundağı, kürək sapı və rezin dəyənəklə vəhşicəsinə döyülmüşlər. Xankəndi uşaq xəstəxanasında saxlanılarkən balaca Jirik və böyük Jirik adlı nəzarətçilər BQXK-nın nümayəndələri tərəfindən verilmiş qab və paltarları girovların əlindən almış, döyə-döyə işgəncələr vermişlər. Əsir və girovları dəhlizdə düzərək avtomatın qundağı ilə möhkəm döymüş, qadınların hamısını söyüb təhqir etmişlər. Eyni zamanda Andranik və Surik adlı erməni nəzarətçilər orada saxlanılan əsir və girovlara olmazın işgəncələr vermiş və girov qadınları döyərək təhqir etmişlər. Əsir-girovların işi ilə məşğul olan Albert Voskanyan ev təmizləmək adı ilə Kəlbəcər rayonundan olan 2 qadını dəfələrlə öz evinə aparmışdır. Ən çox işgəncə isə Gülcamal adlı girov qadına verilirmiş. Orada əsir və girovlar çox pis şəraitdə saxlanılmışlar. Buna görə də Vilayətin yaraları sağalmırmış. Qeyri-insani saxlanma şəraitində Firəngiz və Nabat adlı girov qadınlar xəstələnib vəfat etmişlər. Onların meyitlərini Xankəndində dəfn etmişlər. Əhmədov Vilayət Fidayəddin oğlu 29 iyul 1994-cü il tarixdə gorovluqdan azad edilmişdir.

Əhmədova Şərqiyyə Binnət qızı – 1978-ci ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun Başlıbel kəndində doğulmuşdur. 18 aprel 1993-cü il tarixdə girov götürülmüş, 15 sentyabr 1994-cü ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ermənistan hərbçiləri tərəfindən öz evlərində, atası – Əhmədov Binnət Abduləli oğlu, kənd sakini Tutu, qardaşı – Binnət, Əmiralıyeva Arzu ilə birlikdə girov götürülmüşdür. Girov götürərkən ermənilər, əmisi qızı – Əhmədova Bucaq Əliş qızını, bacısı – Əhmədova Zövqiyyə Binnət qızını qətlə yetirmişlər. Meyitləri hadisə yerində qoyan Ermənistan hərbçiləri qalan girovları yük maşını ilə işğal etdikləri Xankəndi şəhərindəki uşaq bağçasına aparmışlar. İki ay orada saxlanıldıqdan sonra Şərqiyyəni uşaq xəstəxanasına keçirmişlər. Orada saxlanılan çoxsaylı əsir-girovlar da ermənilər tərəfindən mütəmadi olaraq işgəncələrə məruz qalmışlar. Yeniyetmə uşaq olmasına baxmayaraq, erməni nəzarətçilər digər girovlar kimi onu da döymüş, gecələr yatmağa qoymamış, fasiləsiz işlətmiş, saçlarından tutaraq yerlə sürümüşlər. Aldığı xəsarətlər nəticəsində Şərqiyyə Əhmədovanın yaddaşı getdikcə zəifləmişdir. Şahidi olduğu hadisələri və adamları xatırlamayan Şərqiyyə xroniki yaddaşsızlıqdan əziyyət çəkir. O, 15 sentyabr 1994-cü il tarixdə girovluqdan azad edilmişdir.

Əkbərov Ələddin Əsəd oğlu – 1952-ci ildə Ermənistanın Vardanis (Basarkeçər) rayonunda doğulmuşdur. Ermənistan rəhbərliyinin təzyiqi ilə yurdundan qovulmuş, Azərbaycana köçmüşdür. 1990-cı ilin yanvar-fevral aylarında erməni girovluğunda olmuşdur. İfadəsində bildirmişdir:

Girov götürüldükdən sonra Ermənistan hərbçiləri onun barmağındakı üzüyü çıxarmış, sənədlərini əlindən almışlar. İki gün ağır işgəncələrə məruz qoymuş, qızıl dişlərini küt alətlə sındırıb çıxarmışlar. İşgəncələr nəticəsində huşunu itirmiş, ayılanda kamerada bir meyitin yanına atıldığını görmüşdür. Onunla birlikdə girov götürülmüş Əliyev Astan, Məmmədov Dünyamalı Baba oğlu, Süleymanov Nurəddin Əbülfəz oğlu Şaumyan rayon Milis şöbəsində saxlanılmışlar. Girovların, xüsusilə də Astan Əliyevin vəhşicəsinə döyüldüyünün, ağır işgəncələrə məruz qaldığının şahidi olmuşdur. Ertəsi gün kameraya gələn 4 silahlı erməni Ə.Əkbərovu öldürmək istəmiş, gözətçi müdaxilə edərək onun dəyişdiriləcəyini bildirmişdir. Həmin erməni silahlıları onun ayağının altına dəfələrlə armaturla ağır zərbələr endirmiş, nəticədə huşunu itirmişdir. Milis şöbəsində saxlanılan Goranboy rayonu, Todan kəndində yaralı vəziyyətdə əsir götürülmüş Bəxtiyarın, Ruzigarın, Əliqaranın və adını bilmədiyi digər 6 nəfərin erməni silahlıları tərəfindən oradaca qətlə yetirildiyini, üzərində ağır işgəncə izləri olan meyitlərinin dəyişdirildiyini eşitmişdir.

Ələkbərov Elxan Əyyub oğlu – 1965-ci ildə Füzuli rayonunun Horadiz kəndində doğulmuşdur. 13 fevral 1994-cü il tarixdə əsir götürülmüş, 7 dekabr 1995-ci ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Murovdağ uğrunda gedən döyüşlərdə mühasirəyə düşmüş, daldalanmaq üçün yaxınlıqdakı fermaya girmişdir. Bir neçə saat sonra Ermənistan hərbçiləri fermanı da mühasirəyə almış, o, qaçmağa çalışarkən, sol ayağından yaralanmışdır. Yaralı vəziyyətdə əsir götürülərək, Qanşak kəndindəki ikimərtəbəli evə aparılan Elxanı birinci gün 30-40 nəfərə qədər erməni hərbçi tamam soyundurub qara basdırmış, yaralı ayağını tapdalamış, təpikləyərək təhqir etmişlər. Bir neçə saatdan sonra fermada gizlənmiş digər azərbaycanlı əsgəri də tutub Elxanın yanına gətirmiş və ona da işgəncələr vermişlər. 1994-cü il fevralın 15-də onu Çiçəkli dağına aparmış və itkin düşmüş erməni əsgərlərini axtarmağa məcbur etmişlər. Erməni hərbçilər 70-ə yaxın meyitin içərisindən tapdıqları 4 erməni meyitini Elxanın belinə bağlayıb dartmağa məcbur etmişlər. Azərbaycan əsgərlərinin meyitləri isə orada qalmışdır. Meyitləri təxminən 1 km apardıqdan sonra maşına yığmışlar. Əsir düşdüyünün ikinci günü onlara odun doğratdırarkən, əsirlərdən biri döyülməkdən və aclıqdan halsız vəziyyətdə olduğu üçün işləyə bilməmiş, buna görə erməni hərbçi onu güllələyib meyitini dərəyə atdırmışdır. Həmin erməni Elxanın qızıl dişlərini mismar kəlbətini ilə əziyyət verə-verə çıxarmışdır. 1994-cü il fevral ayının 16-da onun və Şəki rayonundan olan Rəsulun qollarını məftillə bağlayıb Şuşa həbsxanasına aparmışlar. Həbsxanaya daxil olan kimi nəzarətçilər "Təzəsi gəldi", – deyə qışqıraraq üstlərinə tökülüşmüş, onları bel sapı, dəmir və taxta parçaları, rezin dəyənək və armaturla xeyli döymüşlər. Kameraya salındıqdan sonra Slavik adlı erməni nəzarətçi onları torpaq yeməyə, it kimi hürməyə məcbur etmiş, rezin dəyənəklə döymüş, təpikləmişdir. Emin adlı erməni "boksyoram", – deyib, onları yumruqlamış və təpiklə-mişdir. Dörd gündən sonra erməni hərbçilər Elxanı qaranlıq kameraya salaraq içməyə

su verməmiş, öz sidiyini içməyə məcbur etmişlər. Şuşa türməsində Elxanla birlikdə olan 83 nəfər azərbaycanlı əsir-girovun saxlanma şəraitləri acınacaqlı olduğundan, onları bit-birə basmışdı. 1994-cü ilin mart ayında BQXK-nın azərbaycanlı əsir-girovları qeydiyyata almasına baxmayaraq, Ermənistan hərbçiləri yenə də onları hər gün döymüş, alçaltmış, təhqir etmiş və ağır işlərə cəlb etmişlər. Heç bir tibbi yardım göstərilmədiyindən, Elxanın ayağının yarasını qurd basmışdır. Elxan Ələkbərov yarasını qurdlardan özü təmizləyərək, sidiyi ilə yumuşdur. 1994-cü ilin yayında Elxan bir neçə azərbaycanlı əsir-girovla birlikdə Xankəndi şəhərinə, oradan isə hər gün Ağdam rayonuna işləməyə aparılmışdır. Həmin müddətdə Manvel adlı erməni hərbçi baltanın arxası ilə qarnına vurmuş, nəticədə yerə yıxılan Elxanın qarın nahiyəsinin sol tərəfində şiş əmələ gəlmişdir. Tərpənə bilmədiyindən, Bəxtiyar və Natiq adlı əsirlər onu sürüyərək kameraya aparmışlar. Vəziyyəti ağır olduğundan, BQXK əməkdaşları onu Xankəndində yerləşən xəstəxanaya aparmış və tibbi əməliyyata götürmüşlər. BQXK-nın nümayəndəsi Pyer erməni tibb bacı-sına keyləşdirici iynə verərək cərraha çatdırmağı xahiş etmişdir. Əməliyyatın sonunda yaranın tikişi zamanı güclü ağrılar baş verdiyindən, E.Ələkbərovun vəziyyəti ağırlaşmışdır. Sonradan ona yaxınlaşan yaşlı erməni tibb bacısı Elxana keyləşdirici iynə əvəzinə su vurduğunu etiraf etmişdir. 1995-ci ilin yanvar ayında Şuşa həbsxanasına qaytarılan Elxan Ələkbərov, BQXK əməkdaşı Pyerin tələbi ilə 6 ay işləməyə aparılmamışdır. 1995-ci ilin yayında həbsxana rəisinin müavini onu otağına çağırıb, yeməkxanada işləyən zaman yerə tökülmüş çörək qırıntılarını gizlincə digər azərbaycanlı əsir-girovlara vermək üstündə cəzalandırmışdır. Orada olan Vaço, Karen, Raçik adlı nəzarətçilər, həmçinin bir qadın və daha bir nəfər erməni onu möhkəm döymüşlər. Karen tapançanın dəstəyi ilə Elxanın başına vuraraq "Bizim çörəyi sən kimə verirsən?" – deyə qışqırmış, digər bir erməni nəzarətçi isə kəlbətinlə barmağını buraraq sındırmışdır. Ümumiyyətlə, Şuşa həbsxanasında əsir-girovlara ən çox işgəncə verən, onları daha çox alçaldan Slavik, Emin, Karen, Vaşo, Raçik adlı nəzarətçilər olmuşlar. Vəziyyəti ağırlaşdığından, Elxan həmin ay yenidən Pyer tərəfindən Xankəndindəki xəstəxanaya aparılmışdır. Orada olarkən birlikdə saxlanıldığı Aydın adlı əsir müalicə edilmədiyindən, bir ayağı qanqrena olmuş və kəsilmişdir. Elxan xəstəxananın yaxınlığında yerləşən bir binada girov qadınların saxlandığının şahidi olmuşdur. 7 dekabr 1995-ci il tarixdə əsirlikdən azad edilən Elxan Ələkbərov verilən işgəncələrdən hazırda da əziyyət çəkir. Onun başında dərin çapıqlar, ayağında güllə yarası, qarnında şiş, dodağında çapıq izləri qalmış, sağ əlinin dördüncü barmağı isə kəsilmişdir.

Ələkbərov İsmayıl Məcid oğlu – 1938-ci ildə Azərbaycan Respublikası Gədəbəy rayonunun Qaravəllər kəndində doğulmuşdur. 26 iyul 1993-cü il tarixdə girov götürülmüş, 22 dekabr 1993-cü ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Kəndin kənarında qoyun otaran zaman əli avtomatlı iki erməni hərbçi İsmayılı tutub aparmaq istədiyi üçün, onlarla əlbəyaxa olmuşdur. Lakin yoldaşlarına köməyə gələn üçüncü erməni əsgərin köməkliyi ilə İsmayılın əl-qolunu arxadan bağlamış, qışqırmaması üçün ağzına torpaq və yarpaq doldurmuşlar. Arxası üstə meşənin içərisinə doğru təxminən 200-300 metr sürüyərək, orada dayanıb onları gözləyən 6 hərbçinin yanına gətirmişlər. Erməni hərbçilər tərəfindən huşunu itirənədək döyülən İsmayıl ayılanda Ermənistan Respublikasının Şəmşəddin rayonunun Korayıl kəndində yerləşən

hərbi hissənin həyətində olduğunu görmüşdür. Orada təxminən 500-600 nəfərədək erməni hərbçi və çoxsaylı hərbi texnika olmuşdur. Hərbi hissədə də təkrar döyüldükdən sonra onu yarımcan halda Tovuzkənd kəndində yerləşən Milis şöbəsinə göndərmişlər. Milis şöbəsində 10-12 gün kamerada tək saxlanılan İsmayıl yalnız döyüləndən-döyülənə bayıra çıxarılmışdır. Erməni əsgərləri mütəmadi olaraq onu təpik, yumruq, avtomatın qundağı və əllərinə keçən əşyalarla taqətini itirənədək döyür, sonra isə yenidən sürüyüb kameraya atırmışlar. Saxlanıldığı Milis şöbəsinin rəisi, əvvəllər Meşə təsərrüfatı idarəsinin direktoru işləmiş, polkovnik rütbəli Levon Mirzəyan hər dəfə İ.Ələkbərovu döyərkən "Biz təkcə Qarabağla kifayətlənməyəcəyik, Azərbaycanın torpaqlarını tamam alacağıq, hələ Türkiyədən də torpaq qoparacağıq", – deyir və onu təpikləyirmiş. Erməni hərbçilər və milis işçiləri azərbaycanlı girova işgəncələrin verilməsində qonşu kameralarda saxlanılan erməni dustaqlardan da istifadə etmiş və bundan ötrü onları əvvəlcədən armatur və digər dəmir əşyalarla təchiz etmişlər. İsmayıl dəhlizi yuyub təmizləyərkən digər kameralardakı erməni dustaqlar nəzarətçilərin onlara verdikləri armaturlarla onu döymüşlər. İ.Ələkbərova hər 4-5 gündən bir 100-150 qram quru, qaxac kimi çörək verilmiş, yeyib qurtarmamış onu döymüşlər. Bir dəfə isə dəmir çaydanla başını yarmış, üz-gözünü partlatmışlar. Bu hadisədən təxminən 15 gün sonra Ermənistan hərbçiləri daha bir azərbaycanlı girovu – Gədəbəy rayonunun Düz Rəsullu kənd sakini Vaqif Rza oğlunu da gətirib onun yanına salmışlar. Ermənilər sol əlinin barmaqlarını kəsdikləri Vaqifi də eyni qayda ilə döyüb işgəncələr vermişlər.

İsmayıl Ələkbərov 22 dekabr 1993-cü il tarixdə girovluqdan azad olunmuşdur.

Ələkbərova Səidə Qurban qızı – 1963-cü ildə Azərbaycan Respublikası Xocalı şəhərində doğulmuşdur. 1992-ci ilin fevral ayının 26-dan 28-dək girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan hərbçiləri Rusiyaya aid 366-cı alayın köməkliyi ilə Xocalı şəhərinə hücum edən zaman həyat yoldaşı – Kərimov Feyruz Samran oğlu və şəhərin əli silah tutan bütün kişiləri postlarda olduğundan və evləri ermənilərin yaşadığı Noraguh kəndinə yaxın yerləşdiyi üçün, qardaşıgilə gedib onların qarajında gizlənmişdir. Axşam saat 23:00-da həyat yoldaşı da oraya gələrək ermənilərin hər tərəfdən Xocalıya hücum etdiyini, şəhəri təcili tərk etməyin lazım olduğunu bildirmişdir. Qayınatası – Kərimov Samran ermənilərin şəhərə hücumu zamanı çiynindən yaralanmış, onlar əhali ilə birlikdə Xocalının çıxışındakı beşmərtəbəli binanın qarşısına yığışmışdılar. Bir qədər gözlədikdən sonra Xocalının icra başçısı Elman Məmmədov orada dayanmağın mənasız olduğunu bildirərək şəhərdən çıxmağı məsləhət görmüş, əhali Qarqarçay çayını keçərək meşəyə doğru hərəkət etmişdir. Ermənilərin şəhəri gülləbaran edərək yandırdığını görən Əliyev Əyyub yolda infarkt keçirərək, ürəyi partlamış və vəfat etmişdir. Heç kimin onu götürmək imkanı olmadığından, Əyyubun meyiti orada qalmışdır. Xocalı şəhərinin sakinlərdən ibarət müdafiəçiləri 200 nəfərə qədər mülki şəxsin yoldan keçməsinə kömək etmiş, onlar yolu keçib düzənliyə çıxmış və arxda gizlənmişlər. Bu zaman Ələkbərova Zeynəb Cümşüd qızının ayağından və başından güllə dəymişdir. İradə adlı gəlin və Çobanov Tapdıq adlı şəxslər də erməni gülləsindən həlak olmuşlar. Həyat yoldaşı Feyruz qızı ilə onu yoldan keçirmiş, sonra ata və anasını xilas etmək məqsədi ilə Xocalıya dönmüş və bir daha geri qayıtmamışdır. Ermənilər onu,

qızını, birinin adı Valeh olan üç nəfər əsgəri, Elzanı, Ələkbərova Zərifənin oğlunu və 2 azyaşlı uşağı Qaraqaya adlanan yerdə girov götürərək, Əsgəran rayon Milis şöbəsinə aparmışlar. Səidə Ələkbərova qonşuları Yusif kişinin meyitini şöbənin həyətində görmüşdür. Erməni hərbçilər Səidənin dayısı oğlu Mehmanı harasa aparmış, sonra ermənilərdən biri girovların saxlandığı yerə qayıdaraq, Mehmanla Hüseynin başlarını erməni qəbirlərinin üstündə kəsdiklərini söyləmişdir. Şöbədə kameraya daxil olan bir erməni meşədə ayağından yaralanmış Şöhlət adlı azərbaycanlını bir güllə ilə vurub öldürməsi ilə öyünürmüş. Əsgəran Milis şöbəsində ermənilər kişilərin qızıl dişlərini adi kəlbətinlə çəkib çıxarmışlar. S.Ələkbərovanın qonşusu Nazilə adlı qadının dırnağını çıxarmış, başından vurub beynini dağıtmışlar. Onun başı elə hala düşmüşdür ki, ermənilər meyiti qaytararkən qardaşı belə Naziləni tanıya bilməmişdir. Müşfiq adlı Xocalı sakinini başqa otağa aparan ermənilər onu döymüş və işgəncələr verərək qətlə yetirmişlər. Onun ayaqlarını elə əzmişdilər ki, ortalıqda qalan meyitə baxdıqda bunların ayaq olduğunu təsəvvür etmək mümkün deyilmiş. Erməni hərbçilər və milis işçiləri Əsgəran Milis şöbəsində saxlanılan qadın girovları zorlamışlar. 366-cı alayın rus hərbçiləri isə iki qadını harasa aparıb, 1-2 saatdan sonra geri qaytarmışlar. Hadisədən sonra qadınlar öz-özlərinə gülmüş və qeyri-adi hərəkətlərə yol vermişlər. Sonradan onlara məcburən narkotik maddə qəbul etdirildiyi məlum olmuşdur. Həmin günün axşamı rus zabitləri yenidən içəri daxil olmuş, alışqan yandıraraq, həmin 2 qadını özləri ilə aparmış və geri qaytarmamışlar. Səidə yalnız girovluqdan azad edildikdən sonra həmin 2 qadının da girovluqdan azad olunduğunu eşitmişdir. Əsgəran rayon Milis şöbəsində Səidə Ayxanın həyat yoldaşı olan Fatma adlı Xocalı sakinini də görmüşdür. Girovlar azad edilərkən ermənilər Ayxanın başı kəsilmiş meyitini qaytarsalar da, Fatmanı qaytarmamış və orada saxlamışlar. Ondan indiyədək xəbər tutmaq mümkün olmamışdır. S.Ələkbərova girovluqdan azad olunduqdan sonra qayınatası Samran, qayınanası Firəngül, həyat yoldaşı Feyruzun meyitlərini meşədən tapıb gətirmişlər. Qayınatası Samranın gözləri və başı, qayınanası Firəngülün qolu deşik-deşik edilmişdi. Xocalı soyqırımı zamanı Səidə Ələkbərovanın qohumları – Hüseynov Bakir, xalası Hüseynova Mina, onun həyat yoldaşı Hüseynov Mirsiyab, Ələkbərova Zərifə, Ələkbərov Təvəkkül, Əsgər Ələkbərov itkin düşmüşlər.

Ələsgərov Araz Zülfüqar oğlu – 1982-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 27 fevral 1992-ci il tarixdə girov götürülmüş, 1 aprel 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan hərbçiləri Rusiyaya aid 366-cı alayın köməkliyi ilə Xocalı şəhərinə hücum edərkən, 1952-ci il təvəllüdlü anası Qərənfil, 1977-ci il təvəllüdlü bacısı Nəzakətlə birlikdə evlərində olmuşlar. Qardaşı Eyvaz isə şəhəri müdafiə etmək üçün yaradılmış postda növbədə olmuşdur. Arazın ailəsi qonşunun zirzəmisində daldalanaraq, həmişəki kimi atışmanın sona yetməsini gözləmişdir. Zirzəmidə olan 15 nəfər Xocalı sakinindən 2 nəfəri kişi, qalanları qadın-uşaq olmuşdur. 3-4 saat zirzəmidə qaldıqdan sonra ermənilər zirzəmiyə əl qumbarası atmış və içəridə partlayış baş vermişdir. Anası onu döşəyin altında gizlətdiyindən qumbaranın qəlpələri ondan başqa hamını, hətta bələkdəki körpəni də yaralamışdır. Anası sağ gözündən yaralanmış, qapı yanında keşik çəkən kişilər isə ölmüşlər.

Zirzəmidən çıxan Araz bütün şəhərin yandığını görmüş, bu zaman 7-8 rus hərbçi onları mühasirəyə alaraq girov götürmüş və yaxınlıqdakı bir evə yığmışlar. Səhər açılanda ruslar həyətə çıxmış və geri qayıtmamışlar. Sonra 15 nəfərə yaxın saqqallı, hərbi paltarlı silahlı erməni içəri daxil olaraq, girovları uzun müddət təpiklə, yumruqla, avtomatın qundağı ilə döymüş, qızlardan birini o biri otağa keçirib zorlamış, sonra halsız vəziyyətdə qaytarıb girovların yanına atmışlar. Girovların qızıllarını, pullarını əllərindən alan erməni hərbçilər onların sənədlərinə baxış keçirmişlər. Girovların hamısının Ahıska türkləri olduqlarını zənn edən ermənilər dəqiqləşdirmək üçün aralarında Xocalı sakinlərinin, yəni azərbaycanlıların olub-olmadığını soruşmuşlar. Heç kim dillənmədikdə, "Fərq etməz, siz də türksünüz. Sizin də damarlarınızda türk qanı axır", – deyərək, yenidən girovları döymüşlər. Sonra özləri maşına minmiş, girovları isə piyada Xankəndinə tərəf aparmışlar. Yolda onları bir gecə meşədə qarın üstündə saxlamış, səhər açılanda yenə piyada Xankəndinə aparmışlar. Bu dəfə erməni hərbçiləri də piyada, şampan içə-içə, gülə-gülə onların arxasınca getmişlər. Girovları pəncərələrinin şüşəsi olmayan Xankəndi avtovağzalının içi qar, su və buz ilə dolu zirzəmisinə salan ermənilər oranı xocalılılar üçün hazırladıqlarını bildirmişlər. Saxlanıldıqları müddətdə erməni hərbçilər tez-tez gəlib girovları döymüş, söymüş və üzlərinə tüpürürmüşlər. Janna adlı bir erməni qadın isə içəri girərək polkovnik olduğunu və bütün türkləri, o cümlədən azərbaycanlıları qıracağını söyləmişdir. A.Ələsgərov, onun ailəsi və oradakı digər girovlar bir neçə gündən sonra dəyişdirilmə yolu ilə girovluqdan azad edilmişlər.

Ələsgərova Dünya Şəfa qızı – 1959-cu ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 28 fevral 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Xocalı şəhərinə hücum başlayan zaman digər sakinlərlə birlikdə evlərindən çıxıb meşəyə tərəf qaçmışlar. Yolda İmani Malik adlı şəxs ermənilər tərəfindən qətlə yetirilmişdir. Atası Mehtiyev Şəfa və qardaşı Mehtiyev Murad da meşədə öldürülmüşlər. Meşədə qalmış xeyli insan meyitinin şahidi olan Dünya Ələsgərovanın gözü qarşısında hər ikisinin adı Zəhra olan iki qadın, Hüseynova Şərqiyyə və Həvva adlı digər qadınlar donub ölmüşlər. Özünümüdafiə dəstəsinin üzvləri Həsənov Mehti Ramil oğlu və Telman Aslan oğlu atışma zamanı həlak olduqdan sonra Ermənistan hərbçiləri müdafiəsiz qalmış azərbaycanlıları girov götürərək, Dəhraz kəndinə aparmış və orada işgəncələrə məruz qoymuşlar. Girovların arasından 13 nəfər gənci seçib aparan Ermənistan hərbçiləri, sonradan onların öldürüldüyünü demişlər.

Ələsgərova İradə Rəşid qızı – 1964-cü ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 1992-ci ilin fevral ayının 27-dən mart ayının 1-dək girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

Ermənistan ordusunun Xocalıya hücumu zamanı anası Sürəyya, bacısı Alimə, onun uşaqları: Elgiz, Gündüz, Nəcəf və Aytac ilə birlikdə zirzəmidə gizlənmiş, əhalinin kəndi tərk etməsindən xəbərləri olmamışdır. Qaçanlara çata bilmədiklərindən, qonşu Cəfər müəllimin evinə getmiş, evə girəndə Cəfər müəllimin atası Məhəmmədin və anası Bağdadın evdə olduqlarını görmüşlər. Qapını bağlayaraq çarpayının altına girmişlər. Təxminən bir saatdan sonra ermənilər qapını döymüş, sonra qapıya atəş açıb içəri daxil

olmuşlar. Ermənilər Cəfərin harada olduğunu soruşmuşlar. Bağdad arvad oğlunun yerini bilmədiyini demişdir. Həmin vaxt kənddə işıq yanmadığı üçün, ermənilər kibrit çəkib çarpayının altına baxmış və avtomatı dirəyərək onları oradan çıxararaq, qızıl və pullarını əllərindən almış və şəhərin mərkəzindəki mağazaya aparmışlar. Bağdad ilə Məhəmməd isə evlərində qalmışlar. Mağazada saxlanıldıqları vaxt ermənilər oraya daha 20 girov gətirmişlər. Girovların yaralarını sarıdığına görə, ermənilər İradəni möhkəm döymüşlər. Sonra onları Xankəndindəki ruhi xəstələr üçün məktəbin binasına aparmış, yaralı döyüşçüləri isə Xocalıda saxlamışlar. Xankəndində qadınları kişilərdən ayıraraq məktəbdə saxlamış, onları dəfələrlə vəhşicəsinə təpik, yumruq, avtomatın qundağı ilə döymüş və təhqir etmişlər.

Ələsgərova Qərənfil Misir qızı – 1952-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 1992-ci ilin fevral ayının 27-dən mart ayının 1-dək girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

Xocalı şəhərinin işğalı zamanı 4 uşağı – 1977-ci il təvəllüdlü Ələsgərova Nəzakət Zülfüqar qızı, 1982-ci il təvəllüdlü Araz, 1975-ci il təvəllüdlü Zeynəb, 1972-ci il təvəllüdlü Eyvazla birlikdə evdən çıxaraq, güllə yağışı altında hərəsi bir tərəfə qaçmışdır. Qərənfillə birlikdə övladları Araz və Nəzakət yaxınlıqdakı zirzəmidə gizlənmişlər. Zirzəmidə onlardan əlavə 8 nəfər Ahıska türkü və 3 nəfər qonşuları da olmuşlar. Ermənilər zirzəmiyə əl qumbarası atmış, nəticədə Ahıska türkü, yaşlı Zeynal kişi və Laçın rayonundan olan 70 yaşlı bir kişi ölmüş, digərləri isə yaralanmışdır. Özü sağ gözündən, qızı Nəzakət isə qolundan qəlpə yarası almışlar. Onları zirzəmidən çıxaran erməni hərbçiləri, yaralı olmalarına baxmayaraq, avtomatın qundağı ilə döyə-döyə qızıl-zinət əşyalarını əllərindən almışlar. Girovları piyada Xankəndi şəhərinə apararaq, pəncərələrinin şüşələri qırılmış avtovağzalın içi qar və buzla dolu olan zirzəmisinə salmışlar. Orada saxlanıldıqları müddətdə ermənilər onların yanına xarici jurnalistləri gətirərək, gün ərzində 4-5 dəfə avtomatın qundağı, rezin dəyənək və təpiklə döyülən azərbaycanlı girovların şəkillərini çəkdirmişlər. Rus dilini başa düşən girovlara məlum olmuşdur ki, ermənilər əvvəlcədən ələ aldıqları jurnalistlərə həmin şəkilləri qəzetlərdə erməni girovların şəkilləri kimi təqdim etməklə yaymağı, azərbaycanlıların ermənilərə bu vəziyyətə saldıqlarını beynəlxalq aləmə çatdırmalarını tapşırmışlar. Bundan başqa, girovların hamısının Ahıska türkləri olduqlarını zənn edən erməni hərbçiləri "Bu yeri xocalılar üçün hazırlamışdıq, sizə qismət oldu", – deyərək, onların xəstəliklərə düçar olmaları məqsədi ilə beton döşəməli, qaranlıq və soyuq zirzəminin döşəməsinə əlavə olaraq qəsdən su buraxmışlar. Ələsgərova Qərənfil Misir qızı yaşadığı əzablara və aldığı xəsarətlərə görə azad olunduqdan sonra uzun müddət müalicə olunmuş, ermənilər tərəfindən vurulmuş zərbələr nəticəsində sağ gözünü itirmişdir.

Ələsgərova Şərqiyyə Hüseyn qızı – 1939-cu ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 29 fevral 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Xocalı şəhəri işğal edilərkən o, atəş başlananda həyətə çıxaraq, şəhərin od-alov içərisində olduğunu görmüşdür. Əhalinin çıxmasından xəbərləri olmadığından, şəhərdə qaldıqları üçün silahlı ermənilər onları girov götürərək Xankəndinə aparmışlar. Girovları

bir binaya salaraq, üstlərində olan qızıl əşyalarını və isti paltarlarını əllərindən almış, özlərini isə təpik, yumruq, taxta, dəmir parçası ilə möhkəm, ölümcül hala salanadək döymüşlər. İki gün ac-susuz saxladıqdan sonra maşına mindirib dəyişilmə yolu ilə girovluqdan azad edilmişlər. Azad olunandan sonra Ş.Ələsgərova ilə birlikdə girov götürülmüş Həsən və Hüseyn adlı kişilər aldıqları işgəncələr nəticəsində ölmüşlər.

Əliməmmədov Yaşar Şahmalı oğlu – 1956-cı ildə Azərbaycan Respublikası Xocalı şəhərində doğulmuşdur. 27 fevral 1992-ci il tarixdə girov götürülmüş, 5 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Xocalı şəhərinin işğalı zamanı şəhər əhalisi dəstələrlə meşəyə tərəf qaçmışdır. Yaşar da ailə üzvləri – atası Əliməmmədov Şahmalı Əliş oğlu, qardaşları Namiq və Faiq, həyat yoldaşı Məmmədova Səidə Cəmil qızı, oğlu Sirac, dayıları Məmmədov Cəmil və Məmmədov Famil, dayısının həyat yoldaşı Məmmədova Ofeliya Şükür qızı, onun uşaqları Nicat və Araz Famil oğlu Məmmədovlar və bir neçə başqa şəhər sakinləri ilə birlikdə meşəyə qaçmışlar. Meşədə, Gendərə deyilən ərazidə ermənilər onları atəşə tutmuş, dəstədə olanlar pərən-pərən düşmüşlər. Ailə üzvlərindən ayrı düşən Yaşar meşədə onları axtararkən digər Xocalı sakinlərini – qucağında uşaqla Nadirlə, Vəliyəddin Umudvar oğlu və Zahid Səttar oğlu ilə rastlaşmışdır. Zahidi don vurduğu üçün hərəkət edə bilmədiyindən, yanındakılar ona kömək edərək bir neçə saat darta-darta aparmışlar. Sonra onu kolların arasında gizlədib, yol axtarmağa getmişlər. Bu vaxt yolda yıxılıb qalmış Məmmədov Kamil Əmir oğluna rast gəlmişlər. Vəliyəddin Nadir və onun qardaşı oğlu ilə birgə qayıdıb Zahidi götürmək istəsələr də, artıq orada atışma getdiyindən əraziyə yaxınlaşa bilməmiş və Zahidin sonrakı taleyindən xəbərləri olmamışdır. Sonra onlar Kətik kəndinin aşağısındakı qayanın altında gecələmiş, 27 fevralda yenidən yollarına davam etmişlər. Meşədən çıxdıqdan az sonra silahlı ermənilər dinc əhalini mühasirəyə alıb girov götürmüşlər. Ermənilər girovların pullarını, qızıllarını və sənədlərini əllərindən almış, özlərini isə avtomatın qundağı, yumruq və təpiklə döymüş və böyük bir ferma binasına yığmışlar. Pircamal kəndində yerləşən fermada Yaşar, oğlu Sirac, qardaşı Faiq, dayısı Cəmillə rastlaşmışdır. Bir müddət sonra qardaşı Namiqi, dayısı Məmmədov Məmməd Cümşüd oğlunu və adlarını bilmədiyi başqa bir neçə nəfəri də erməni hərbçiləri tutaraq oraya gətirmişlər. Girovlara gün ərzində 3-4 dəfə işgəncələr verilmiş, ağac dəyənəklə, armaturla, daşla, avtomatın qundağı ilə döymüş, saatlarla tək ayaq üstə saxlamışlar. Erməni hərbçilər girovların gözü qarşısında azyaşlı qızları zorlamışlar.

Yaşara verilən işgəncələr daha dəhşətli olmuşdur. Ermənistan hərbçiləri avtomatın qundağı ilə onun burnunu və barmağını sındırmış, orada olan 20-22 yaşlarında iki Ahıska türkünü güllələmişlər. Sonra 25-30 yaşlarında İsmayıl adlı girovu da güllələmişlər. Girovluğun ikinci günündə əvvəllər tanıdığı Samvel və şuşalı, Azərbaycan dilini bilən, qarmonçalan, bir gözü kor Sergey adlı erməni ona yaxınlaşaraq, Yaşarın Xocalıda qalan "Jiquli" markalı maşınını Samvel özünə götürdüyünü bildirmiş və maşının sənədlərini istəmişlər. Sənədlərin evdə qaldığını bildirdikdə, onlar Yaşarı təpik, yumruqla döymüşlər. Samvel onun sağ böyrəyinə təpiklə vurduğundan hazırda da sağ böyrəyi yaxşı işləmir. Pircamal kəndindəki fermada saxlanılan azərbaycanlı girovlara işgəncə verənlərin içərisində qulağı sırğalı muzdlular, yezidi kürdlər də olmuşlar. Girovluğun üçüncü günü

qardaşı Namiqi, Məmmədov Kamil Əmir oğlunu və adını bilmədiyi 20-22 yaşında idmançı bədənli, yaraşıqlı Ahıska türkü olan gənci ermənilər təpik, armaturla döyüb fermadan çıxarmışlar. Sonra Yaşar, oğlu və digər 17 nəfər girov Xankəndi şəhərinə, Ərmavan adlanan yerdə olan uşaq bağçasına aparılmışlar. Fermadan çıxarılan zaman onlar İsmayılın və iki Ahıska türkünün qapının ağzında yerə atılmış meyitlərini görmüşlər. Bir gecə uşaq bağçasında qaldıqdan sonra 19 nəfərin hamısını Əsgəran Milis şöbəsinə aparmışlar. Maşından düşən kimi Karo adlı erməni qabağa çıxıb Yaşara yaxınlaşaraq "Yaşar, axırın çatdı", – demişdir. O, digər girovları kameralara yerləşdirmiş, 3 nəfəri – Yaşarı, Əliyev İsanı və Elxanı saxlamışdır. Oğlu Sirac yanında qalmaq istəsə də, Karo onu şillə ilə vuraraq kameraya salmışdır. Karo, İsa kişi və nəvəsi Mehdini də kameraya saldıqdan sonra otaqda onunla birlikdə Elxan və 8-10 nəfər erməni silahlıları qalmışlar. Karo Yaşar Əliməmmədovu otağın ortasına çəkib, "Makarov" tipli tapançanı alnına dirəmiş, digər erməni isə avtomatın qundağı ilə vurub onu çarpayının üstünə yıxmışdır. Karo onun saçlarından tutub kürəyinə ağır zərbələr endirmiş, sonra rezin dəyənəklə döymüşdür. Sonra döyülməsi və işgəncə verilməsi üçün növbəsini gözləyən Elxana baxaraq, onu döyə-döyə öldürəcəyini bildirmişdir.

05.03.1992-ci il tarixdə oğlu Sirac və bir neçə digər azərbaycanlılarla birlikdə girovluqdan azad edildikdən sonra, Xocalı sakinlərindən qardaşı Faiqin Karo tərəfindən Əsgəran rayon Milis şöbəsinin təcridxanasında "Makarov" tipli tapança ilə boğazından və sinəsindən güllələnərək qətlə yetirildiyini eşitmişdir.

Əlimərdanov Heydər Qüdrət oğlu – 1955-ci ildə Azərbaycan Respublikasının Bərdə şəhərində doğulmuşdur. 1 aprel 1993-cü il tarixdə əsir götürülmüş, 12 may 1995-ci ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonu, Çaykənd kəndinin müdafiəsi zamanı mühasirəyə düşərək əsir götürülmüşdür. Onu Yerevan şəhərinə aparmış və oradakı Hərbi Polis İdarəsinin təcridxanasında saxlamışlar. Təcridxananın rəhbəri podpolkovnik rütbəli Vazgen adlı erməni zabit olmuşdur. Ermənistan hərbçiləri orada mütəmadi olaraq onu avtomatın qundağı, təpiklə, zopa ilə döymüş, alçaldıcı hərəkətlərə yol vermiş və müxtəlif söyüşlərlə təhqir etmişlər. Əsirlikdə onunla birlikdə Yevlax rayonundan 24-25 yaşlı Elman, Kəlbəcərdən 19-20 yaşlı Gürşad, Bakıdan 25-26 yaşlı Eldar adlı şəxslər də saxlanılmışdır. Onlar işgəncələrə dözməyərək kamerada özlərini öldürmüşlər. Baş vermiş hadisədən BQXK nümayəndələri gec xəbər tutmuşdur. Çox çətin şəraitdə, ac-susuz saxlanıldıqlarından və işgəncələrdən qonşu kameralarda da ölənlər olmuşdur. Erməni hərbçilər ölən azərbaycanlı əsir-girovları dəyişdirmək məqsədilə dəmir qutularda dəfn etmişlər. Dəyişmək lazım olanda tanına bilməsi üçün tabutun üstünə ölənin ad-soyadı yazılırmış.

Əlimərdanov Heydər əsirlikdə verilmiş işgəncələrdən və baxımsızlıqdan vərəm xəstəliyinə tutulmuşdur. O, 12 may 1995-ci ildə azad olunmuşdur.

Əliyev Astan Əmir oğlu – 1931-ci ildə Azərbaycan Respublikası Goranboy rayonunun Todan kəndində doğulmuşdur. 1990-cı ilin yanvar ayının 12-dən fevral ayının 3-dək girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

Erməni terrorçu-quldur dəstələri tərəfindən tez-tez yaşadığı kəndə və ərazidəki digər azərbaycanlı kəndlərinə basqınlar törədildiyindən, əhali kəndin ətrafında bir neçə

müdafiə postları qurmuşdu. Astan postda olan zaman keçmiş Sovet ordusuna məxsus hərbi helikopter həmin əraziyə desant qüvvələri atmışdır. Rus əsgərləri onları mühasirəyə alaraq tərksilah etmiş, onu, Gəncə şəhərindən olan Süleymanov Nurəddin Əbülfəz oğlunu, Əkbərov Ələddin Əsəd oğlunu, Məmmədzadə Dünyamalı Baba oğlunu və çiynindən güllə yarası almış Əmrahov Əfəndi Nəzər oğlunu ermənilərə təslim etmişlər. Şaumyan rayon Milis şöbəsinin təcridxanasında 40 günə yaxın saxlanıldıqları müddətdə erməni milis işçiləri və mülki geyimli ermənilər hər gün kameraya girib onları təpiklə, rezin və ağac dəyənəklərlə döymüş və təhqir etmişlər. Qeyd olunan dövrdə SSRİ hələ süqut etmədiyindən, mərkəzi hakimiyyət vasitəsi ilə aparılmış danışıqlar nəticəsində A.Əliyev və onun soydaşları erməni girovluğundan azad edilmişlər. Girovluqda olduğu müddətdə erməni silahlıları və milis işçilərinin onu döyməsi və verdikləri işgəncələr nəticəsində Astan Əliyevin qabaq dişləri sındırılmış, ağır bədən xəsarətləri almış, görmə və eşitmə qabiliyyətini itirmişdir.

Əliyev Bayram Rəhim oğlu – 1973-cü ildə Azərbaycan Respublikasının Yevlax şəhərində doğulmuşdur. 10 dekabr 1992-ci il tarixdə əsir götürülmüş, 15 oktyabr 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Zəngilan rayonunun müdafiəsi zamanı erməni əsgərləri tərəfindən əsir götürülmüş və yük maşının arxasında Ermənistanın Qafan şəhərinə aparılmışdır. Erməni hərbçilər elə yolda ikən avtomatın qundağı, yumruq və təpiklə döyərək Bayramın çənəsini və dişlərini sındırmışlar. Qafan rayon Milis şöbəsində saxlanılan B.Əliyevə heç bir tibbi yardım göstərilmədiyindən, çənəsi əyri bitmiş, Sergey adlı erməni milis starşinası ona ağır işgəncələr vermiş, mismarla ağzından iki qızıl dişini çıxarmışdır. Artur adlı serjantın armaturla onun başını yarması nəticəsində yaranan böyük çapıq izi hələ də qalmaqdadır. Başından aldığı zərbələrdən beyin funksiyası pozulmuş, epilepsiya xəstəliyinə düçar olmuşdur. Polkovnik rütbəli, hündürboylu erməni onu və Məhərrəm adlı digər azərbaycanlı əsiri rezin dəyənəklə döyərək, ağır zərbələr endirmiş, vəhşicəsinə işgəncələr vermiş, nəticədə Bayramın kürəyində şişlər əmələ gəlmişdir. Həmin polkovnikin verdiyi işgəncələr nəticəsində Məhərrəmin böyrəyi ağır zədələnmiş, bir müddət sonra isə o, ölmüşdür.

Əsirlikdən azad edildikdən sonra uzun müddət müalicə olunsa da, hələ də başında şiddətli ağrılar olur, üz-gözündə, başında şişlər əmələ gəlir, sifəti, başı qızararaq eybəcər hala düşür. Sifətində insan siması itir, qorxunc formaya düşür və huşunu itirərək şok halı keçirir. Belə hallar, demək olar ki, hər ay baş verir və hər dəfə tibbi yardıma ehtiyac yaranır. Əmək qabiliyyətini itirmiş Bayram Əliyev bu səbəbdən tək qala bilmir.

Əliyev Əhəd Qasım oğlu – 1959-cu ildə Hadrut rayonunda doğulmuşdur. 3 yanvar 1990-cı il tarixdə girov götürülmüş, 7 yanvar 1990-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Yaşadıqları Hadrut rayonu, Haxullu kəndinin erməni terrorçu-quldur dəstələrinin basqınlarından müdafiəsi məqsədi ilə əhali kəndin ətrafında bir neçə yerdə postlar qurmuşdur. Əhəd Əliyev bir axşam posta növbəyə gedərkən rus və erməni hərbçilər tərəfindən 5 nəfər həmkəndlisi ilə birlikdə əsir götürülərək, ermənilərin yaşadığı Edilli kəndinə aparılmışlar. Orada onların əllərini arxadan bağlayıb yerə yıxmış, döymüş və

işgəncələr vermişlər. Azərbaycanlıları vəhşicəsinə döyən erməni silahlıları, onları erməni qadınlarının ayaqlarının altını öpməyə məcbur etmişlər. Azərbaycanlılar əleyhinə illərlə aparılmış təbliğat və Yerevandan gəlmiş ermənilərin təxribatı nəticəsində qəzəblənmiş yerli erməni əhali əsirləri təpikləmiş, üzlərinə tüpürmüş və silahlı ermənilərdən onları öldürməyi tələb etmişlər. Silahlı ermənilər isə əsirləri öldürməsələr də, əhalini razı salmaq üçün onları daha amansızcasına döymüş və işgəncələr vermişlər. Onların arasında Vaqif, Aleksanyan Edik və digər bir hərbçi amansızlıqları ilə seçilmişlər.

Əhəd Əliyev 7 yanvar 1990-cı ildə girovluqdan azad edilmişdir.

Əliyev Famil Heydərəli oğlu – 1974-cü ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. 2 yanvar 1994-cü il tarixdə əsir götürülmüş, 13 dekabr 1994-cü ildə əsirlikdən qaçaraq azad olmuşdur. İfadəsində bildirmişdir:

Ağdam rayonunun Cavahirli kəndinin Ermənistan Silahlı Qüvvələrinin hücumlarından müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak edərkən Natiq, İqor və Vaqif adlı əsgərlərlə birlikdə əsir götürülmüşdür. Əsir götürüldüyü gün və Xankəndinə aparılarkən yolboyu ermənilər tərəfindən işgəncələrə məruz qalmışlar. Xankəndində təcridxanada saxlanılarkən kamerada xüsusi təyinatlı dəstənin əsgərləri əsirləri 1 saat ərzində fasiləsiz olaraq vəhşicəsinə döymüş, yerə yıxaraq başlarını təpikləmişlər. Bir müddət sonra Şuşa həbsxanasına köçürülən Famil Əliyev daha ağır işgəncələrə məruz qalmışdır. Şuşa həbsxanasında hökm sürən əsas "qayda"ya görə, ora aparılan hər bir əsir-girov: "Bu torpağa xoş gəlmişəm", – deyərək əyilib torpağı öpməli, sonra isə torpağı yeyə-yeyə həmin sözləri təkrarlamalı idi. Orada ilk günlər Emin, Rubo və Vrej adlı erməni nəzarətçilər tez-tez onu döymüş, nəzarətçi Lyoxa isə boks əlcəkləri geyinərək, ağız-burnunun qanı axanadək baş nahiyəsinə zərbələr endirmişdir. F.Əliyevin ifadəsindən: "Səhər tezdən məni bayıra çıxarıb həbsxananın həyətində təmizlik işləri gördürür, odun doğratdırırdılar. Həyətdə 30 nəfərə qədər əsir-girov gördüm. Şuşa həbsxanasında "QAZ-66" markalı maşının sürücüsü işləyən "Bico" ləqəbli bir nəfər mənə guya həbsxana qaydalarını başa salırdı. Mən səhər tezdən duran kimi qaça-qaça Biconun yanına gedib salam verməli, əmr aldıqdan sonra qaça-qaça gedib rezin dəyənək gətirməliydim. Onun dediyi kimi, qaçaraq rezin dəyənəyi gətirib verəndə, Bico dəyənəyi bir dəfə başıma vurub geri qaytardı. Sonra dəyənəyi yerinə qoydurub, "Qaz-66" maşınından "montirovka"nı gətirməyi əmr etdi. "Montirovka"nı alıb mənə əyilməyi əmr etdi və əyilən kimi "montirovka" ilə belimdən vurdu. Üçüncü dəfə iri "montirovka" gətirib yenə də baş əydirdi və baldırlarımdan zərbələr endirdi. Sonra "montirovka"nı alıb rusca "sağ ol" deyərək getməyimi əmr etdi. Bico istədiyi vaxt mənə belə işgəncələr verirdi". Nəzarətçilərin rəhbəri olan Emin adlı erməni isə onu yanına çağıraraq Lyoxa, Slavik, Halo, David və Armen adlı nəzarətçilərin müşayiəti ilə digər əsir və ya girovla qladiator kimi bir-birlərini döyməyə məcbur etmiş, qalib "qladiator"dan yumruqla məğlubun ağzını partlatmağı və ayağının altına salaraq təpikləməyi tələb etmişdir. Şuşa həbsxanasının həyətində Sumqayıt şəhərindən olan Həbiblə birlikdə işlədilən zaman Yerevandan gəlmiş Qor adlı leytenant rütbəli nəzarətçi onu çağırmış, Famil isə, öz növbəsində, həbsxana "qaydaları"na uyğun olaraq qaça-qaça onun qarşısına gəlib, rus dilində: "Salam, naçalnik", – demişdir. Yerevanlı Qor təpiklə Familin ağzından vurub yerə yıxmış, cəld ayağa qalxdığına görə "bacarıqlısan", – deyərək huşunu itirənədək rezin dəyənəklə döymüşdür.

Nəticədə Famil bir gün tərpənə bilməmişdir. Erməni nəzarətçilərin əksəriyyəti siqareti çəkib qurtardıqdan sonra əsir-girovların alnına, qoluna, sinəsinə basmaqla söndürür, onları siqaret kötüyü yeməyə, ağızları ilə ot yolmağa məcbur etmişlər. F.Əliyev Şuşada saxlanıldığı dövrdə Vaqif, Camal və adlarını bilmədiyi daha 2 nəfər azərbaycanlı əsirlikdən qaçmağa cəhd göstərərkən, onlardan ikisi minaya düşərək həlak olmuş, Vaqiflə Camal isə tutulmuşlar. Erməni hərbçilər Vaqifi Xankəndi komendantlığına apararaq döyə-döyə öldürmüş, Camalı isə Xankəndi təcridxanasına apararaq, orada əsir-girovların gözü qarşısında, onlara dərs olsun deyə nümayişkaranə şəkildə qətlə yetirmişlər. Əliyev Famil Heydərəli oğlu 1994-cü ilin dekabr ayının ortalarında nəzarətçilərin sayıqsızlığından istifadə edərək, 3 nəfərlə birlikdə qaçaraq, əsirlikdən azad olmağa müvəffəq olmuşdur.

Əliyev Famil Qənimət oğlu – 1955-ci ildə Azərbaycan Respublikası Ağdərə rayonunun Narınclar kəndində doğulmuşdur. 3 avqust 1991-ci il tarixdə girov götürülmüş, 23 avqust 1991-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ağdərə rayonu ərazisində kolxoza məxsus və şəxsi təsərrüfatında olan heyvanları otararkən, 19 nəfər silahlı erməni tərəfindən girov götürülmüşdür. Ermənilər onun əl-qolunu və gözlərini bağlayaraq, 2 gün piyada aparmış və Əsgəran rayonunun Kolatağ kəndinə gətirərək fermaya salmışlar. Qənimət kimi götürdükləri qoyunların 200 başını fermada saxlayıb, qalanlarını isə "KAMAZ" markalı maşınlara yığıb naməlum istiqamətdə aparmışlar. Orada girov saxlanıldığı müddətdə adlarını bilmədiyi erməni hərbçilər Familə işgəncələr vermiş, avtomatın qundağı və təpiklə döyərək iki qabırğasını və ayağını sındırmışlar. Yanar siqaretlə bədənini dağlamış, şiş uclu çubuqları gözünə batırmışlar. Ermənilər məftili alovda qızdıraraq Familin bədəninə daxil etmiş, bıçaqla əl barmaqlarının üstünü kəsik-kəsik etmiş, sol qolunu bıçaqla kəsib yaralamışlar. Lakin Famili döyən təkcə silahlı ermənilər olmamışlar. Onların həyat yoldaşları və uşaqları da fermaya gəlib, Famili döymüş və alçaltmışlar. Girovluq müddətində F.Əliyev ac-susuz saxlanılmış, 3-4 gündən bir kiçik quru çörək parçasına tüpürüb ona vermişlər. Avqust ayının 23-də yeyib-içən ermənilər: "Bu gecə səni doğrayacağıq", – deyərək, ona psixoloji işgəncə vermişlər. Ancaq çox içdikləri üçün, ermənilər sərxoş halda yatmış, bundan istifadə edən Famil Əliyev dişləri ilə əl-ayağındakı ipi açıb qaçaraq azad olmağı bacarmışdır.

Əliyev Həbib Əlibala oğlu – 1974-cü ildə Azərbaycan Respublikası Biləsuvar rayonunda doğulmuşdur. 1992-ci ilin noyabr ayında əsir götürülmüş, 1995-ci ilin may ayının 8-də əsirlikdən azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci ilin noyabr ayında Laçın rayonunun müdafiəsi zamanı Qoçaz dağının yaxınlığında ayağından yaralanaraq, Rizvan adlı döyüş yoldaşı ilə birlikdə Ermənistan hərbi birləşmələri tərəfindən əsir götürülmüşdür. Erməni hərbçilər gecə onları meşədə əlləri yuxarı vəziyyətdə ağaca sarımış, ertəsi gün piyada 10-12 km aralıda yerləşən Kolatağ kəndinə aparmışlar. Yolboyu erməni əsgərləri avtomatın qundağı ilə əsirlərə zərbələr endirmiş, tez-tez boğazlarına bıçaq dirəyib: "Sizi aparıb öz qəbiristanlığımızda qurban kəsəcəyik", – deyərək, psixoloji təzyiqlər etmişlər. Oradan gözü bağlı vəziyyətdə Xankəndi şəhərindəki təcridxanaya gətirdikləri əsirləri təxminən 10 gün ayrı-ayrı

kameralarda saxlamışlar. Qonşu kameradan işgəncələrə məruz qalan Rizvanın dəhşətli qışqırtılarını eşitmiş, çox keçmədən özü də ermənilər tərəfindən dəmir dəyənəklə döyülmüşdür. On gündən sonra onları gözləri bağlı vəziyyətdə başqa bir binanın qaranlıq və üfunətli zirzəmisinə salmışlar. Ermənistan hərbçiləri Həbibin dindar olduğunu bildikdə, nəzarətçilərdən biri qardaşının ad günü olduğunu deyib, ona zorla şərab içirtməyə cəhd etmiş, şərab yerə dağıldıqda, başqa bir erməni yerdən şərablı torpaq götürüb "Bu torpaq üçün gəlmisən, al ye", – deyərək torpağı zorla ona yedirtmişdir. Bir müddət sonra Rizvanı güllələyərək qətlə yetirən ermənilər onun meyitini adyala büküb "KAMAZ" maşının yük yerinə atmış, Həbibi də ora mindirmişlər. Təxminən 5 saat yol getdikdən sonra Rizvanın meyitini yolun kənarındakı çalaya atmış, üstünə quru odun yığıb benzin tökmüş, od vuraraq yandırmışlar. Həbibin bu mənzərədən yüksək ruhi həyəcan keçirdiyini görən erməni hərbçilər onu avtomatın qundağı ilə vuraraq yenə də torpaq yeməyə məcbur etmişlər. Nahar etmək üçün yolüstü şəhər tipli yaşayış məntəqəsində dayandıqları zaman bir nəfəri H.Əliyevə keşikçi qoyaraq, özləri beşmərtəbəli binaya daxil olmuşlar. Bu zaman ətrafdakı mülki ermənilər Həbibə yaxınlaşaraq onu təpikləmiş, söymüş, üzünə tüpürmüşlər. Nahardan sonra erməni hərbçilər azərbaycanlı əsiri şəhərin kənarına gətirmiş və maşından düşürmüşlər. Yaxınlaşan lafetli traktordan düşən qadınlar və uşaqlar H.Əliyevi saçından və paltarından dartaraq vurmuş və təhqir etmişlər. Yenidən Kolatağ kəndinə gətirilən Həbibi 10 gün müddətində erməni hərbçiləri döyərək, işgəncələrə məruz qoymuşlar. Başına vurulan təpiklərdən üzü, sağ gözünün üstü partlamış, gözünə qan dolduğundan bir müddət heç nə görməmişdir. Sonra onu qohumu ilə dəyişdirilməsi məqsədilə, Köhnə Bazar kəndində yaşayan mülki şəxs Arutunyan Romaya vermişlər. Arutunyan Romanın evinin zirzəmisində saxlanıldığı bir il səkkiz ay ərzində heç vaxt hamamda yuyunmamış, saçını və üzünü qırxmaq imkanı olmamışdır. Həbibin bədənini bit və yara basmış, ona gün ərzində iki dəfə – səhər və axşamlar qaynadılmış su, 100-150 qram çörək, nadir hallarda çox az miqdarda qaynadılmış düyü, lobya, kartof, yaxud kəpək vermiş, onların da içinə torpaq qatmışlar. Qızardılmış kartofu isə gözünün qarşısında toyuqlara tökmüşlər. Zirzəmidə iki qışı sobasız, qızdırıcısız keçirən Həbib əlinə keçən parça və ip qırıntılarından oyuncaqlar toxumuş, təklikdən təngə gəlib, onlarla danışmış, verilən "yemək"dən oyuncaqlara da təklif etməklə vaxtını keçirmişdir. O, 1994-cü ilin avqust ayında Xankəndində yerləşən komendantlığa gətirilmişdir. H.Əliyev orada ermənilərin bir azərbaycanlı əsirin əlinə kəlbətin verərək, öz qızıl dişlərini çıxarmağa məcbur etdiklərinin, əsir götürdükləri digər 4 nəfəri isə həyətdə qaçırdaraq, "ovçarka" cinsli itləri onların arxalarınca buraxdıqlarının, itlər əsirləri tutub didişdirəndə, sevinərək əl çaldıqlarının, şənləndiklərinin şahidi olmuşdur. İki ay komendantlıqda saxlanıldıqdan sonra Həbib Şuşa həbsxanasına aparılmış, orada daha ağır və iyrənc işgəncələrə, alçaldılmalara məruz qalmışdır. O, həbsxanada saxlanılan azərbaycanlı əsir-girovların həddindən artıq incidildiyinin, lom, dəmir çəkic, dəyənək, bel, xüsusi düzəldilmiş qamçı ilə döyüldüklərinin və ən iyrənc formada alçaldıldıqlarının şahidi olmuşdur. Erməni nəzarətçilər tez-tez əsir-girovları yerə uzanıb sürünməyə, torpağı öpməyə məcbur edir, başlarından dəyənəklə vururmuşlar. Bir müddət sonra 20 nəfərlə birlikdə Mısmına kəndinə aparılan Həbib yoldaşları ilə birlikdə ən ağır işlərə cəlb edilmişdir. Əsir-girovlar erməni nəzarətçilər tərəfindən gün ərzində 6 nəfərə 7-8 maşına mişar daşı, qum və digər tikinti materiallarının, o

cümlədən Füzuli rayonunun işğal olunmuş kəndlərindən sökülmüş materialların yüklənməsinə məcbur edilmiş, bir maşını yükləməyə isə onlara cəmi 6 dəqiqə vaxt vermişlər. Zəif işləyənləri erməni nəzarətçilər qanına bulaşıncaya qədər döymüş və işgəncələr vermişlər. Daim döyülməkdən və işgəncələrdən başı zədələnmiş və özünü idarə edə bilməyən H.Əliyev BQXK nümayəndələrinin diqqətini cəlb etmiş və onların tələbi ilə Xankəndindəki uşaq xəstəxanasına yerləşdirilmişdir. Həmin vaxt 40-a yaxın azərbaycanlı əsir-girovun olduğu xəstəxanada saxlanılan Həbibi oradakı nəzarətçilər də imkan düşən kimi döymüş və işgəncələr vermişlər. Günün çox hissəsini isə qandalla qızdırıcı batareyalara bağlı vəziyyətdə saxlamışlar. Ermənilər BQXK tərəfindən gətirilən ərzaq və geyimlərin hamısını mənimsəyirmişlər. Həbib orada saxlanıldığı vaxt əslən Yardımlı rayonundan olan Heydər adlı əsir döyülmə və işgəncələr nəticəsində ölmüşdür.

Əliyev Həbib Əlibala oğlu 1995-ci ilin may ayının 8-də əsirlikdən azad edilmişdir.

Əliyev Mənsur Bayram oğlu – 1970-ci ildə Azərbaycan Respublikası Göyçay rayonunda anadan olmuşdur. 23 iyul 1993-cü il tarixdə əsir götürülmüş, 19 iyun 1994-cü ildə azad olmuşdur. İfadəsində bildirmişdir:

Ağdam rayonunun Sarıcalı kəndinin müdafiəsi zamanı Möhlət və Ramiz adlı əsgər yoldaşları ilə birlikdə əsir götürülmüşdür. Əsir götürülən kimi ermənilər onları döymüş, sonra avtomatın süngü bıçağını qızdıraraq kürək nahiyələrini, bədənlərinin müxtəlif üzvlərini yandırmış, bıçaqla onun sol çiynini yaralamışlar. Onları döyənlər arasında xarici ölkələrdən gələn muzdlular və rus əsgərləri də olmuşdur. Ağdamdan çıxmaq istəyən ağ rəngli "QAZ-24" markalı maşını saxlaya bilmədikləri üçün, avtomat atəşinə tutmuş, maşındakı 6-7 nəfərin hamısı həlak olmuşdur. Xankəndi uşaq bağçasında saxlanılarkən işləməyə aparılan zaman Salyan rayonundan olan Ramizi öldürmüşlər. Sonra onu və Mahmudov Möhlət Nəriman oğlunu Xankəndi şəhərində yerləşən 366-cı alayın ərazisinə aparmışlar. Orada əsirlərə müntəzəm işgəncələr vermişlər. İşgəncə verən ermənilərdən Armen, Aşot, Armais və Arturu xatırlayır. Sveta adlı erməni hərbçi Mənsur Əliyevin əlini qapının arasına qoyub sıxmış və "Siz türklərin hamısını dənizə tökəcəyik", – demişdir. Ermənilər gecələr yanlarında uşaqlarını da gətirir və əsir-girovları onlara döydürürmüşlər. Bir erməni hərbçi yanındakı azyaşlı uşağa deyirdi: "Bax, sənin dayını bu türk öldürüb". Uşaq da təpiklə onu vururmuş. Onu millətpərəst hesab etdikləri üçün başqalarından daha çox incitmiş, "Türklərin boyeviki" adlandırmışlar. Aşot adlı erməni qarmonda muğam çalır və "Muğam ermənilərindir", – deyirmiş. Ermənilər ayaqlarını öpdürmək istəyəndə, o, imtina etdiyinə görə, çarpayının üstünə çıxıb oradan belinə tullanmış, nəticədə xəsarət aldığından bir həftə yerindən tərpənə bilməmişdir. Şükür adlı əsirin çənəsini sındırmış, arağa donuz tükü salıb, Ağdam rayonundan olan bir əsirə içirtmişlər. 3-4 gündən sonra o, ölmüşdür. Ölənləri digər əsirlərə dəfn etdirirmişlər. Arif adlı bir əsirin də aldığı zərbələrdən beyni tərpənmiş, sayıqlaya-sayıqlaya ölmüşdür. İki nəfər Azərbaycan əsgərini isə Ağdamın Güllücə kəndində yandırmışlar. Bir dəfə Aşot gecə saat 12-də Beyləqan sakini olan Ramiz Quliyevə demişdir: "Sizə bayram hədiyyəsi gətirmişik, əlini torbaya sal, gör nədir". Ramiz əlini torbaya salmış və oradan təxminən 18 yaşlı bir azərbaycanlı oğlanın kəsilmiş başını çıxarmışdır. Sonra Ramizə həmin kəsilmiş başı yumağı tapşırmışlar. Ramiz kəsilmiş başı yuyarkən qorxduğu üçün tez-tez sayıqlayır, diksinirmiş. Benik adlı hərbçi Əliyev Mənsur Bayram oğlunu azad etmək üçün

evləri ilə telefon əlaqəsi saxlamış və 18 milyon rus pulu istəmişdir. Sonra dəyişmək üçün Qurgen və Mişa adlı ermənilər onu Gürcüstana aparıb, Hamo adlı yaşlı kişinin evində saxlamışlar. Lakin Hamo ot biçməyə gedərkən Mənsur Əliyev fürsət tapıb qaçmış və azərbaycanlıların yaşadığı kəndə keçərək azad olmuşdur.

Əliyev Mübariz Fikrət oğlu – 1978-ci ildə Naxçıvan Muxtar Respublikası Babək rayonunun Bulqan kəndində doğulmuşdur. 1998-ci ilin mart ayının 7-də əsir götürülmüş, 2000-ci ilin iyul ayının 18-də azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ağdam rayonunun müdafiəsi zamanı Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüş, hərbi hissəyə aparılaraq, Arsen və Vartan adlı erməni zabitləri tərəfindən kəşfiyyat xarakterli sorğu-suallara cəlb edilmiş, rezin dəyənək, təpik-yumruqla vəhşicəsinə döyülmüş, əl-qolu bağlı saxlanılmışdır. İki gündən sonra Xankəndi şəhərindəki Təhlükəsizlik İdarəsinə aparıb, yenə möhkəm döymüş, təkrar sorğu-suallara cəlb etmişlər. Orada daha 5 nəfər azərbaycanlı əsir saxlanılırmış. Təhlükəsizlik İdarəsində 1 il 2 ay tək saxlanılmış, bu müddət ərzində BQXK nümayəndələrindən gizlədilmişdir. Təcridxananın rəisi Sergey, nəzarətçilər Aram, Artur, Nuri və Vahram tərəfindən hər gün təpik, yumruq və küt alətlərlə müntəzəm döyülmüş, sonra BQXK nümayəndələri onu taparaq qeydiyyata almışdır. 1999-cu il oktyabrın 19-da onları Şuşa həbsxanasına aparmışlar. Orada da əsirlərə ən çox həbsxana rəisi Vahram əzab vermiş, BQXK tərəfindən gətirilmiş paltarları və əşyaları əllərindən almışdır. Bundan BQXK nümayəndələri xəbər tutanda, Vahram daha amansız olur, əsirləri otağına çağırıb huşlarını itirənədək döyürmüş. Bir həftədən sonra Səfərəliyev Əfqan Xanlar oğlu və adını xatırlamadığı Şəmkir rayon sakinini dəyişdirmək üçün aparmışdılar. Həbsxanada o, Muradəliyev Ağamir Əzizullah oğlu və Rəcəbov Nail Namik oğlu qalmışdır. Əsirlikdə olarkən, onları BQXK-nın Yan Şharer adlı ermənipərəst nümayəndəsi yoxlayırmış. Yan Şharer əsirləri missiyasına uyğun olmayan tərzdə sorğu-sual edir, hərbi mövqelərin yerləşmə vəziyyəti, postlar arasındakı məsafələr, silahların növləri, əsgərlərin sayı, əhval-ruhiyyə, hərbi texnikanın sayı kimi hərbi sirləri öyrənməyə çalışırmış. Bu istiqamətdə sorğu-suallar onun tərəfindən 5-6 dəfə aparılmış və hər sorğu-sualdan sonra ermənilər əsirləri möhkəm döymüşlər. Onlar əsirlikdə uzun müddət qalmalarına məhz Yan Şharerin səbəb olduğunu görürlər. Nəhayət, Yan Şharerin xidmət müddəti başa çatıb Qarabağı tərk etdikdən 3 ay sonra onları Şuşadan Yerevana aparmış və 1 gündən sonra o, əsirlikdən azad olunmuşdur.

Əliyev Müşfiq Aslan oğlu – 1974-cü ildə Azərbaycan Respublikası Sabirabad rayonunun Muradbəyli kəndində doğulmuşdur. 23 avqust 1993-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Füzuli rayonunun Alxanlı kəndinin müdafiəsi zamanı kiçik leytenant Məmmədov Şamil Süleyman oğlu və Salyan rayon sakini olmuş Emin adlı əsgərlə birlikdə mühasirəyə düşərək, əsir götürülmüşdür. Onu və Emini Xocavənd rayonunun Mısmına kəndindəki hərbi qərargaha, Şamili isə yaralı olduğu üçün yaxınlıqdakı xəstəxanaya aparmışlar. Mısmınaya gətirilməndən 1 il 4 ay sonra 5 nəfər əsir qaçdığı üçün, qalan 35 əsiri Şuşa həbsxanasına aparmışlar. Şuşa həbsxanasında Nadir adlı əsir verilən şiddətli işgəncələrə dözməyərək elektrik naqillərini tutaraq intihar etmişdir. Beyləqan rayonundan olan

digər bir əsir isə döyülərək öldürülmüşdür. Xocavənddə saxlanıldığı zaman döyüşdə yaralanmış erməni əsgərləri üçün əsirlərdən bir və ya bir litr yarım qan alırmışlar. Bəzən çox qan aldıqlarından əsirlərin vəziyyəti çox pisləşirmiş. Hospitalın ərazisində Ağdamda ayağından yaralı halda əsir götürülmüş bir əsirin üstündən yük maşını ilə keçərək qətlə yetirmişlər. Şuşa həbsxanasında saxlanıldığı zaman Füzuli rayonundan olan İlham adlı əsirin döyülərək öldürüldüyünün şahidi olmuşdur. Əsirlərə su şüşəsini başına qoyub saxlamağı əmr edir, sonra avtomatla nişangaha çevirirmişlər. Rəbi adlı əsirin başını belə nişangaha çevirərkən, beyin qapağını güllə ilə ağır zədələmişlər. Əsirləri döyən Slavik, Merujan, Artur, Andrey və Emil adlı ermənilər xatırlayır. Mısmına kəndində, separatçı Dağlıq Qarabağın "müdafiə naziri" olmuş Samvel Babayanın beşmərtəbəli evinin tikintisində, kartof sahəsində, Şuşada isə odun doğramaq, küçə süpürmək və digər işlərdə işləmişdir.

Müşfiq Əliyev 10 may 1996-cı il tarixdə əsirlikdən azad olunmuşdur.

Əliyev Qəhrəman Həsən oğlu – 1934-cü ildə Füzuli rayonunun Qaraxanbəyli kəndində doğulmuşdur. 23 avqust 1993-cü il tarixdə girov götürülmüş, 19 avqust 1994-cü il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Füzuli rayonunun Qaraxanbəyli kəndi Ermənistan ordusu tərəfindən işğal olunan gün avtomatla silahlanmış 12 nəfər hərbi geyimli erməni evlərinə girərək onu girov götürmüşlər. Təpiklə, avtomatın qundağı ilə döyə-döyə yük maşınına mindirmiş, evini isə talan etmişlər. 13 yaşlı oğlu Rövşəni, qardaşı Əhlimanı, qayınatası Usubu da girov götürmüşlər. Qardaşı Rəhman ermənilərə müqavimət göstərdiyinə görə, yerindəcə güllələnmiş, onun oğlu Fikrəti isə girov götürmüşlər. Girovları əvvəlcə Xocavənd rayonuna aparmışlar. Füzuli rayonu, Kürdmahmudlu kəndinin ərazisindən keçərkən, yolun kənarında bir qadının qucağında uşaqla getdiyini görən Ermənistan hərbçiləri avtomat silahdan atəş açaraq hər ikisini öldürmüşlər. Sonradan Şuşa həbsxanasına aparılmış əsir-girovları, əsasən, gecə vaxtı həbsxananın həyətində sıraya düzüb səhərə qədər it kimi hürdürür, əmri yerinə yetirməyənləri döyürdülər. Bunları edən Yura və Gena adlı ermənilər idi. Emin adlı erməni əsir-girovların acından taxıl yediklərini görüb onları bir vedrə taxılı yeməyə məcbur etmişdir. Həbsxanada ermənilər, əsasən, gənc əsir-girovların damarına neft doldurulmuş iynələr vurur, qəzeti yandırıb saçlarını ütür, siqaretlə damğalayırmışlar. Şuşa türməsinin rəisi Artur başqa iki erməni ilə birlikdə Mikayıl adlı əsirin üstünə it buraxmış, Bakıdan Tofiqi, Ağdamdan Cahangiri, Məhəmmədi, Karliki və adını xatırlamadığı bir nəfər əsiri döyüb öldürmüşlər. Onları Xankəndi uşaq xəstəxanasına təhvil verəndə Edik, Gena, Şurik girovları təpiklə, avtomat qundağı ilə döymüşlər. Erməni nəzarətçi Yurik, böyük odun parçası ilə onun çənəsini vurub sındırmışdır. Xəstəxanada 70-dən çox əsir-girov saxlanılırmış, onların içərisində qadın və uşaqlar da olmuşdur. Ermənilər oradakı qadın və qızları zorlamış, alçaltmışlar. Bunları edən "Abo" ləqəbli Albert Voskanyan idi. Füzuli rayonunun Horadiz kəndindən olan 30-35 yaşlı Səadət adlı bir qadını ermənilər döyüb öldürmüşlər. Səadət basdırılan zaman Abo onun qızıl dişlərini sökdürüb götürmüşdür. Firəngiz adlı cavan qız da işgəncələr nəticəsində ölmüşdür. Onun meyitinin basdırılmasında Qəhrəman Əliyev də iştirak etmişdir. Bir erməni 26-27 yaşında girov qadını zorlamış, nəticədə onun uşağı olmuşdur. Ermənilər zorladığı girov qadınlardan olan qız uşaqlarını öldürür, oğlan uşaqlarını isə

saxlayır, onlara döyüşdə həlak olan ermənilərin adlarını qoyurmuşlar. Xankəndi uşaq bağçasında Edo və Qarik onu və digər əsirləri heç bir səbəb olmadan təpik, yumruq, avtomat süngüsü ilə döyürmüş. O, uşaq bağçasında Sitarə adlı girovun öldüyünü görmüşdür. Onun meyitini "Abo"nun tapşırığı ilə basdırmışdır. Dəfn zamanı "Abo" ondan qadının ağzında qızıl dişinin olub-olmadığını soruşmuşdur. O, Sitarənin qızıl dişlərinin olmadığını bildirmiş, bu zaman "Abo" girov qadınların yanına gəlib onları qorxutmuş, hədə-qorxu ilə Sitarənin protez qızıl dişlərini İmarət adlı girovdan almışdır.

Əliyev Valeh Həsən oğlu – 1943-cü ildə Füzuli rayonu, Zərgər kəndində doğulmuşdur. 15 avqust 1993-cü il tarixdə girov götürülmüş, 27 mart 1995-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Hadrut rayonunun Edilli kəndində saxlanılarkən əsir və girovları mütəmadi olaraq vəhşicəsinə döymüşlər. Valeh Əliyevin iki qabırğasını sındırmış, Mətləbin sinəsinə xaç şəklində damğa vurmuşlar. Füzuli rayonundan olan Ənvər adlı yaşlı kişini bir erməni hərbçi döyə-döyə öldürmüşdür. Sonradan o, Yerevan şəhərindəki 74361 nömrəli hərbi hissədə saxlanılmışdır. Bu hərbi hissənin komandiri Manvel Qriqoryan olmuşdur. Əvvəllər sürücü işləmiş və həbsdə olmuş Manvel Qriqoryan 15-15 №-li maşında gəzmiş, "alyonka" rabitə aparatı ilə çağırış kodu 45-45 olmuşdur. Onun iki arvadı var imiş. "Dudukçu qızı" olan arvadı Eçmiədzində, Nazik adlı mayor arvadı isə Xocavənddə yaşayırmış. Nazik onun rəhbərliyi altında Qarabağda döyüşlərdə iştirak etmişdir. Hücumlar zamanı qənimət götürülən hər şey əsgərlər arasında bölünmüşdür. Manvel əsirləri də özü ilə Yerevan şəhərinə gətirmişdir. Manvel evində qul kimi işlətdiyi iki azərbaycanlı əsirin adlarını dəyişdirib, Samvel və Vartan qoymuşdur. Yerevan şəhərində yerləşən hərbi hissədə əsir və girovları ac-susuz saxlamış, qul kimi işlətmiş, hər gün ağac, təpik, yumruqla döymüşlər. Füzuli rayonunun Kürdlər kəndindən olan Səfəralı adlı yaşlı kişi aclığa və işgəncələrə dözməyib ölmüşdür. Orada Karen adlı erməni odun parçası ilə Valehin qabırğasını sındırmışdır. Vaqif, Levon, Suren, Armek, Armen və Jora adlı ermənilər orada saxlanılan əsir və girovlara işgəncələr vermişdir. Valeh Əliyev 27 mart 1995-ci il tarixdə girovluqdan azad edilmişdir.

Əliyev Vaqif Hüseyn oğlu – 1967-ci ildə Azərbaycan Respublikası Bakı şəhəri, Sabunçu rayonunda doğulmuşdur. 22 iyul 1993-cü il tarixdə əsir götürülmüş, 24 avqust 1993-cü ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ağdam rayonu işğal olunarkən əsir götürülmüş və 3 gün rayon Milis şöbəsinin pasport bölməsinin binasında saxlanmışdır. Ermənilər tərəfindən avtomatın qundağı, dəyənək və uzunboğaz çəkmə ilə döyülmüşdür. Üç gün Ağdamda qaldıqdan sonra Xankəndinə aparmışlar. Orada 15 əsir-girov saxlanılırmış. Ermənilər əsirlərə işgəncə verməkdən həzz alır, kameraya daxil olaraq "Bu gün bizim bir əsgərimiz həlak olub", – deyərək, əsirləri avtomatın qundağı və qamçı ilə döyürmüşlər. Təxminən iki saat keçdikdən sonra başqa ermənilər gəlib, eyni qayda ilə onları döyürmüş. Əsir-girovları Xankəndində saxladıqları kameradan çıxarıb kənarda yerləşən hərbi hissə qərargahına aparır, yer bellətdirir, ağır seyfləri daşıtdırırdılar. Yaşlı girovlar yorulduqda, ermənilər: "Sizə havayı çörək verə bilmərik, ya işləyin, ya da öldürəcəyik", – deyib, onları döyürmüşlər. 10 gündən sonra onları Xankəndindən Şuşa həbsxanasına aparmışlar.

Orada hamını sıraya düzüb, adlarını çəkir, rezin dəyənək və qamçı ilə döyür, ovçarka itlərini üstlərinə buraxırdılar. Bərdə rayonundan olan Zaurun ayağını it parçalamış, yarası çirk etmişdi. Bir girovun isə qulağını kəsmişdilər. Erməni bayramlarının birində Göyçay rayonundan olan Mayılın sinəsinə xaç işarəli damğa basmışlar. Şuşada bir neçə əsir-girovun ermənilər tərəfindən öldürüldüyünü eşitmişdir. Ermənilər 3 gündən sonra onu, ağdamlı Yusifi, həmçinin 15-20 nəfərə yaxın digər əsir və girovu Ağdama aparmış və bir həftə orada saxlamışlar. 30-35 yaşlı erməni qadın Sumqayıtdan olan bir əsiri öldürmək istəmiş, lakin nədənsə erməni əsgərləri buna imkan verməmişlər. Sonra qadın "Onda qoyun qulağını kəsim, ürəyim soyusun, sən Sumqayıtdansan, bizə elə sən lazımsan", – deyib əsirin qulağını avtomatın süngü bıçağı ilə kəsmişdir. Həmin erməni qadın girov qadınlara "Onsuz da evə gedirsiniz, sizi gərək döyüm ki, ürəyim soyusun", – deyərək, onları döymüşdür. O, 24 avqust 1993-cü il tarixdə əsirlikdən azad olunmuşdur.

Əliyev Xəqani Vəliyəddin oğlu – 1961-ci ildə Azərbaycan Respublikasının Ağdam rayonunda doğulmuşdur. 24 iyul 1993-cü il tarixdə girov götürülmüş, 26 noyabr 1994-cü ildə azad olmuşdur. İfadəsində bildirmişdir:

Ailə üzvləri ilə birlikdə şəxsi avtomobilində kəndə, evlərinə qayıdarkən, Ağdam rayonunun Sarıcalı kəndi yaxınlığında Ermənistan hərbçiləri tərəfindən güllələbaran edilmişlər. Nəticədə oğlu, 7 yaşlı Nicat və qayınatası Oqtay Əliyev həlak olmuş, həyat yoldaşı Könül və digər oğlu Şövqi isə güllə yarası almışlar. Xəqanini, yaralı həyat yoldaşını və oğlunu, həmçinin qayınanası Zənifəni girov götürən ermənilər yaralıları tibbi yardım göstərmək adı ilə harasa aparmışlar. Uzun yalvarışlardan sonra erməni hərbçiləri səhər saat 5 radələrində Xəqaniyə oğlunu və qayınatasını dəfn etməyə icazə vermişlər. Ertəsi gün Ermənistan hərbçiləri oraya şəxsi avtomobili ilə gələn Xocavənd rayonu Qaradağlı kəndinin sakini olan qoca bir kişini də girov götürərək, Xəqani və Zənifəylə bərabər işğal etdikləri Ağdam şəhərinə aparmışlar. Ermənilərin bir neçə saatlıq yeməkxanaya çevirdikləri böyük bir evdə saxlanıldıqları müddətdə 50-53 yaşlarında hərbi geyimli tibb işçisi olan qadın cibindən insan qulağı çıxararaq "Türk qulağıdır", – demişdir. Sonra isə Qaradağlıdan olan qoca kişiyə "Gətir qulağını kəsim", – demiş və təpiklə vura-vura onu qonşu həyətə keçirmişdir. Bu zaman iki güllə səsi eşidilmişdir. Sonradan orada aşpaz işləyən digər erməni qadın hərbi geyimli həmin qadının qoca kişinin başını kəsdiyini söyləmişdir. Az sonra hərbi geyimli qadın qayıdıb əlinin qanını yuyarkən, türk başı kəsdiyinə görə ermənilər onun ayaqları altında erkək tovuz quşu kəsmişlər. Baş vermiş hadisədən həvəslənən daha bir erməni Xəqaninin başını kəsmək məqsədilə dartıb aparmaq istəmiş, bu zaman qayınanası Zənifə səs-küy salaraq buna imkan verməmişdir. Lakin o, güllə ilə Xəqanini ayağından yaralamış və kimsəyə bu barədə danışmamağı tapşırmışdır. Az sonra ora gələn Janna adlı erməni komandir qadın Xəqanini və qayınanası Zənifəni Xankəndi uşaq xəstəxanasına göndərmişdir. Orada saxlanılan zaman daim erməni nəzarətçilər və hərbçilər tərəfindən döyülmələrə və işgəncələrə məruz qalan Xəqani BQXK nümayəndəsindən arvadı və oğlu barədə məlumat istəmişdir. BQXK nümayəndəsi və onun milliyyətcə erməni olan tərcüməçisi Xəqaniyə arvadı Könülün 7 güllə yarası aldığından vəziyyətinin ağır olduğunu, 3 yaşlı oğlu Şövqinin isə yaralı qolunun erməni həkimlər tərəfindən "müalicə məqsədi ilə" kəsildiyini bildirmişlər. Uzun-uzadı xahişlərindən sonra BQXK nümayəndəsi təmsil etdiyi qurumun çağırışlarına cavab

olaraq, erməni hərbi rəhbərliyinin Xəqaninin ailə üzvlərinin – qayınanası, arvadı və oğlunun azad edilməsini qərara aldığını bildirmişdir. Ailə üzvləri azad edildikdən sonra 17.09.1993-cü il tarixədək Xankəndi uşaq xəstəxanasında saxlanılan Xəqani, guya dəyişdiriləcəyi üçün işğal edilmiş Şuşa şəhərindəki həbsxanaya aparılmışdır. Həbsxanaya daxil olan kimi erməni nəzarətçilər BQXK-nın verdiyi əşyaları və paltarları Xəqaninin əlindən almış, köynəyini soyunduraraq lüt bədəninə huşunu itirənə qədər rezin dəyənəklə vurmuşlar. Ertəsi gün işlədilməyə aparılan Xəqanidən dişlərinin qızıl olub-olmamasını soruşarkən o, dişlərinin sarı dəyərsiz metal olduğunu, elə buna görə də indiyədək dişlərini çıxarmadıqlarını bildirmişdir. Lakin Xəqaniyə inanmayan erməni nəzarətçilər onu yerə yıxıb kimyəvi turşu ilə 6 dişinin qızıl olduğunu müəyyən etmiş və adi kəlbətinlə dartıb çıxarmışlar. Sonra isə özünü möhkəm döymüşlər. Kimyəvi turşu ağzını yandırdığından, həmçinin dişləri çəkildiyindən və möhkəm döyüldüyündən Xəqani bir neçə gün özünə gələ bilməmişdir. Həmin ilin noyabr ayının əvvəllərində Xankəndi şəhərindəki müvəqqəti saxlama təcridxanasına gətirilən X.Əliyev 26 noyabr 1994-cü il tarixdə nəzarətin zəifliyindən istifadə edərək, qaçaraq erməni girovluğundan azad olmuşdur. Onun həyat yoldaşı Könül və oğlu Şövqi isə ömürlük şikəst olmuşlar.

Əliyev Yavər Ənvər oğlu – 1983-cü ildə Ermənistan Respublikasında anadan olmuşdur. Ermənilər tərəfindən 1988-ci ildən başlayan təzyiqlərə məruz qalaraq, ailəsi ilə Azərbaycan Respublikasının Xocalı şəhərinə köçmüşdür. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 28 fevral 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan ordusu rus hərbçiləri ilə birlikdə Xocalıya hücum edərkən, iki güllə yarası almış və erməni hərbçiləri tərəfindən girov götürülmüşdür. Onu 230 nəfərə yaxın digər girovlarla birlikdə Xankəndindəki erməni qəbiristanlığına gətirmiş, gözləri önündə yaralı vəziyyətdə olan Əlif Hacıyevin qardaşı – Süleyman Hacıyevi alnından güllələyib öldürmüşlər. Əhməd adlı Ahıska türkünün isə başını kəsdikdən sonra girovları şaxtalı havada 4 gün avtobusda saxlamış, mütəmadi olaraq döyərək işgəncələr vermişlər. Azərbaycan tərəfinin apardığı xeyli danışıqlardan sonra erməni hərbçilər 20-30 qutu siqaret və 200 litr benzin müqabilində girovları azad etməyə razılıq vermişlər.

Əmirova Xəzəngül Təvəkkül qızı – 1983-cü ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 28 fevral 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan hərbi birləşmələri Xocalıya hücum edərkən, ailə üzvləri ilə birlikdə meşəyə qaçmışlar. Onları təqib edən erməni hərbçiləri dinc sakinləri mühasirəyə almışlar. Erməni hərbçilər atəş açaraq bir çox Xocalı sakinini, o cümlədən Xəzəngülün anası Rayanı, 7 yaşlı bacısı Yeganəni və xalası Göyçəyi qətlə yetirmişlər. Atası Təvəkkül çiynindən və ayağından, 4 yaşlı bacısı Nigar isə sağ ayağının topuğundan güllə yaraları almışlar. Dinc sakinləri girov götürən ermənilər atası Təvəkkülü, nənəsi Əntiqəni, 8 aylıq qardaşı Vüqarı və bir neçə nəfəri Əsgərana aparıb uçuq bir evə salmışlar. Səhər açılanda Ermənistan hərbçiləri, Xəzəngülün atası Təvəkkülü ağaca bağlamış və ondan bu torpaqların ermənilərə məxsus olduğunu söyləməsini tələb etmişlər. Lakin işgəncələrə baxmayaraq, atası torpaqların Azərbaycanın olduğunu demişdir. Bundan sonra erm-

nilər onun ayaqlarının altına çör-çöp toplayaraq, benzin töküb yandırmışlar. Sonra yenə də atasına "Qarabağ ermənilərindir", – deməyi əmr etmişlər. Lakin atası yenə də Qarabağın Azərbaycan torpağı olduğunu bildirmişdir. Buna görə ermənilər onun ayaqlarını dizlərinə qədər yandırmışlar. Sonra: "Torpaqların ermənilərin olduğunu de, get, uşaqlarını böyüt. Deməsən, səni də, uşaqlarını da öldürəcəyik", – desələr də atası: "Mən uşaqlarıma görə torpaqlarımı satmaram. Öldürürsünüz, öldürün! Bu torpaqlar bizimdir!" – demişdir. Ermənistan hərbçiləri uşaqlarının gözləri qarşısında atasını tamamilə yandıraraq qətlə yetirmişlər.

Xəzəngül Əmirova 28 fevral 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Əmralıyeva Arzu Binnət qızı – 1972-ci ildə Kəlbəcər rayonunun Başlıbel kəndində doğulmuşdur. 1993-cü ilin aprel ayının 18-dən 1994-cü ilin mart ayının 26-dək girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonu işğal olunan vaxt azyaşlı uşağı və 30 nəfər qohum-əqrəbası ilə birlikdə qaçarkən, erməni yaraqlıları tərəfindən yaxalanmış və girov götürülmüşlər. Hamısını aparmağa maşında yer olmadığı üçün, ermənilər son dərəcə soyuqqanlılıqla girovların 19 nəfərini, o cümlədən onun həyat yoldaşını, qaynını, baldızını, qayınatasını, anasını, bacısını, əmisi arvadını və qonşularını güllələmiş, qalanlarını isə girov aparmışlar.

Əsədov Rizvan İsfəndiyar oğlu – 1974-cü ildə Azərbaycan Respublikası Şəki rayonunun Orta Zəyzid kəndində doğulmuşdur. 16 iyun 1993-cü il tarixdə əsir götürülmüş, 10 iyul 1993-cü ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ağdam rayonunun müdafiəsi zamanı əsir götürülmüş, Şuşa sanatoriyasının zirzəmisində saxlanılmışdır. Onunla birlikdə Şəki rayonundan Musayev İdris Göyərçin oğlu, Salyan rayonundan Məmmədov Vəliəhd Aydın oğlu, Oğuz rayonundan Kazımov Kərim Əvəz oğlu, Bərdə rayonundan Məmmədov Aydın Əziz oğlu, Şəmkir rayonundan İsmayılov Yunis Suca oğlu, Gəncə şəhərindən Süleymanov Yalçın Vaqif oğlu və adlarını xatırlamadığı daha bir neçə şəxs də olmuşdur. Orada onları müntəzəm olaraq döymüş, işgəncələr vermiş, tapançanın dəstəyi ilə əksəriyyətinin başını yarmışlar. Barmaqlarını qapı arasına qoyub sıxmış, dillərini, qulaqlarını, bədənlərini yanan siqaretlə dağlamışlar. Siqareti əsir-girovların üz-gözündə, bədənində söndürmək ermənilər üçün adi bir hal imiş. Əsir-girovları əllərinə keçən hər şeylə – armatur, bel sapı, parket, dəmir qırığı və digər küt alətlərlə döyürmüşlər. Əsirləri döyənlərdən Vaço adlı yüksək vəzifəli şəxsi xatırlayır. Onun qardaşı və Özbəkistandan gəlmiş bacısı oğlu da əsir-girovlara işgəncələr verirmiş. Vaçonun bacısı oğlu "Mən boksçuyam", – deyərək, onları yumruqla döymüşdür. Əksəriyyətinin üz-gözü zərbələrdən yaralanmış və irinləmişdi. Vaçonun bacısı oğlu bir dəfə onu və Vəliəhd adlı digər əsiri bir otağa salaraq üstlərinə 3 it buraxmış, itlərdən biri Vəliəhdi dişləyərək ağır yaralamışdır. İtlərin hücumundan özlərini müdafiə edərkən, ermənilər tərəfindən döyülürmüşlər. Həmin ilin mart ayında onları Xankəndi türməsinə aparmışlar. Orada BQXK nümayəndələrindən ehtiyat edərək, üz nahiyələrinə deyil, bədənlərinin digər yerinə vururmuşlar. Bəzən BQXK nümayəndələri onlara baş çəkərkən, üzlərindəki işgəncə izlərini görür, lakin heç bir reaksiya vermirdilər. O, digər əsirlərdən eşitmişdir ki, meşədə odun yığarkən bir əsir yıxıldığı üçün onun qolunu mühərrikli

mişarla kəsmişlər. Digər bir əsiri isə güllələmişlər. Ermənilər özləri etiraf edirmişlər ki, onların milli bayramlarında və matəmlərində azərbaycanlı əsirləri qurban kəsir, hətta bu tədbirlər üçün Yerevandan gəlib Dağlıq Qarabağdan əsir-girov da aparırmışlar. Şuşada saxlanıldığı zaman bir əsirin qulaqlarının kəsilib yerinə duz basıldığının şahidi olmuşdur.

Rizvan Əsədov 10 iyul 1993-cü il tarixdə əsirlikdən azad edilmişdir.

Əsgərov Əsgər Bağır oğlu – 1973-cü ildə Azərbaycan Respublikası Quba rayonunun Xınalıq kəndində doğulmuşdur. 2 aprel 1993-cü il tarixdə əsir götürülmüş, 14 yanvar 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonunun müdafiəsi zamanı əsir götürülmüş, 17 gün davamlı olaraq onları araya alıb təpikləmiş, yerlə sürümüş, elə dözülməz işgəncələr vermişlər ki, huşlarını itirib saatlarla ayılmamışlar. Onlara içməyə yalnız çirkli su verirmişlər. Erməni əsgər və zabitlər çəkdikləri siqareti üzlərində, ağızlarında və bədənlərində söndürürmüşlər. Kəndirlə tankın arxasına bağlayaraq, Kəlbəcərin küçələrində sürümüş, qoca kişi və qarılara da amansızcasına divan tutmuşlar. Qadınlar döyülərkən zarıyaraq, ahnalə çəkir, ermənilər isə qol açıb rəqs edirmiş. 1993-cü il aprel ayının 19-da onu, Səlimov Əkbəri, Məmmədov Gürşadı, Əhmədov Allahverdini, Şahverdiyev Təhməzi və soyadlarını xatırlamadığı İmdad, Osman, Eyvaz adlı əsirləri Ermənistanın Vardenis rayonunun Milis şöbəsinə aparmışlar. Orada qaldıqları 2 gün müddətində milis əməkdaşları onları dəyənəklə döyərək işgəncələr vermiş, nalayiq sözlərlə təhqir etmişlər. İki gün soyuq kamerada ac-susuz saxlandıqdan sonra Yerevan şəhərindəki milis təcridxanasına aparılmışlar. Oradakı qarajda saxlanıldığı zaman Kəlbəcərdən tutulmuş 30-40 nəfərin, xüsusilə yaralılar və qadınların acından və işgəncələrdən öldüyünü, bir qisminin də ermənilər tərəfindən güllələndiyini eşitmişdir. Adını xatırlamadığı nəzarətçilər onları vaxtaşırı kameradan çıxarıb döyürmüşlər. Yerevanda saxlanıldığı zaman Fikrət adlı şəxsin döyülmələrə, işgəncələrə dözməyib dəli olduğunun və sonradan öldüyünün şahidi olmuşdur. Əsirlər arasında Ağcabədi rayonundan olan və "Vladik" adı ilə çağırılan əsirin də işgəncələr nəticəsində ruhi xəstəliyə tutulmasının şahidi olmuşdur. Əsgər Əsgərov 14 yanvar 1994-cü il tarixdə əsirlikdən azad edilmişdir.

Əsgərov Nadir İbiş oğlu – 1964-cü ildə Azərbaycan Respublikası Laçın rayonunun Qarıqışlaq kəndində doğulmuşdur. 1992-ci ilin may ayının 18-də girov götürülmüş, avqust ayının 13-də girovluqdan azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ermənistan Silahlı Qüvvələri tərəfindən Laçın rayonunun işğalı zamanı atası İbişlə birlikdə Laçının yuxarı kəndlərindən əhalinin köçlərini daşıyan 5 maşından birinə minmiş, maşınla hərəkət edərkən Laçın rayonunun Zabıx kəndinə yaxınlaşdıqda kəndin ermənilər tərəfindən qarət olunduğunu və yandırıldığını görmüşlər. Ermənilər maşın karvanına atəş açmış, o, Laçının Minkənd kəndindən Hidayət və tanımadığı daha bir nəfərlə birlikdə onlara cavab atəşi açmış və geriyə, Laçın istiqamətinə qayıtmışlar. Ağsaqqallar maşınları Laçının Qarıqışlaq kəndinə sürdürüb yanacaq doldurmaq, sonra isə Xocalı istiqamətindən başqa yola çıxıb Kəlbəcərə tərəf getmək qərarına gəlmişlər. Ermənilər Kosalar kəndinin mərkəzində 3 istiqamətdən yenidən maşınları atəşə tutduğundan hərə bir tərəfə qaçmış, maşınlardan birini qranatatanla vurmuş, bu zaman tanımadığı sarışın bir nəfərə isə güllə dəyərək yaralanmışdır. Qaçıb yaxınlıqdakı konserv

zavodunda gizlənərkən, ermənilər oraya qranatatanla atəş açmış, nəticədə zavodun bir hissəsi dağılmış, o isə başından və ayağından qəlpə yarası almışdır. 3-4 saatdan sonra ermənilər onu girov götürüb, traktora mindirmişlər. Həkəri çayını keçirib apararkən yolda həmkəndlisi Hüseyni də girov götürərək traktorun yedəyinə mindirmişlər. Sonra hər ikisini Xəzənək kənd məktəbinə aparmış, orada erməni qadınlar onları bel, daş və odun parçası ilə döymüşlər. Məktəbdə Gorus rayonunun Xoznovar kəndində yaşayan, əvvəllər Laçın rayonunda Qaragöl deyilən yerdə gözətçi işləmiş Sedrak adlı erməni kənd sakinlərini gətirərək girovları döydürür, Hüseynə isə "Səni döyə-döyə öldürəcəyəm", – deyərək amansızcasına daha çox işgəncə vermişdir. 3 gündən sonra ermənilər ona atasının pasport və əmanət kitabçasını göstərərək "Bu sənin atandır?" – deyə sual vermişlər. Atasının harada olduğu ilə maraqlanarkən, erməni komandir əvvəlcə onu öldürdüklərini, sonradan isə başqa yerdə saxlandığını bildirmişdir. Əvvəllər Bakının Günəşli qəsəbəsində yaşamış Qarik adlı erməni onu mahnı oxumağa məcbur etmiş, lakin təklifini rədd etdiyi üçün təpiklə ağzına vuraraq dişlərini qırmışdır. Sonra ermənilər "Bizim kənddən iki gənci sizinkilər girov götürüb, sizi onlarla dəyişəcəyik", – demişlər. 4-5 gün məktəbdə saxladıqdan sonra, mayın 23-də bir dəstə milis işçisi tərəfindən Hüseynlə birlikdə Ermənistanın Gorus rayon Milis idarəsinə aparılmış, orada saqqallı erməni hərbçilər milis işçilərini kənara itələyərək onları təpik, yumruq və avtomatın qundağı ilə döymüşlər. İdarədə onunla birlikdə 19 girov saxlanılırmış. Onlardan yalnız Laçın rayonu, Minkənd kənd sakinləri – Qara İslam oğlu Qarayevi, Məmmədov Nəriman Qaraxan oğlunu, Əhmədli kənd sakinləri – 50-55 yaşlı Rəhbər Firudin oğlu Mirzəyevi, Qabil Abbasqulu oğlu Nəcəfovu və Tahiri xatırlayır. Gorus Milis idarəsinin rəisi mayor rütbəli Mişa adlı erməni idi. Milis mayoru Xoylunts və Mişanın kapitan rütbəli müavini Arakelyan İqnat, Nadir Əsgərovun həmkəndlisi 91 yaşlı Hüseyni həmişə döyürmüş. Sonradan onların yanına Xocalı sakini Kərimov Yusifi və soyadını bilmədiyi Kamil adlı girovları da gətirmişlər. Gorus rayon Milis idarəsində saxlanıldığı zaman, Xəzənək kəndində yaşamış, orada ustalıq edib ev tikmiş, 50-60 yaşlarında Razmik adlı ermənini görmüşdür. Razmik ona demişdir ki, o, Kosalar kəndində əhalinin gülləbarana tutulduğu yerdə üst-üstə yığılaraq çoxlu meyit yandırıldığını görmüşdür. Razmik həmin meyitləri basdırdıqlarını və özünün də bu işdə iştirak etdiyini bildirmişdir. Kosalar kəndində ermənilər tərəfindən güllələbaran edilən əhalidən yalnız Hüseyn qayıtmış, atası Əsgərov İbiş Eyvaz oğlu və digərlərindən isə məlumat yoxdur. Əsgərov Nadir İbiş oğlu 1992-ci il avqust ayının 13-də girovluqdan azad olunmuşdur.

Əyyubov Fikrət Qurban oğlu – 1972-ci ildə Azərbaycan Respublikası Şəki rayonunun Zunud kəndində anadan olmuşdur. 19 aprel 1994-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ağdam rayonunun müdafiəsi zamanı döyüş yoldaşı Qocayev Elsevər Sabir oğlu ilə birlikdə əsir götürülmüşdür. Onları sement daşıyan maşının çəninə salaraq, Xankəndində yerləşən "Çor" adlanan hərbi hissəyə aparmışlar. Hərbi hissənin komandiri əslən Gəncə şəhərindən olduğu bildirilən polkovnik rütbəli bir qadın imiş. Hərbi hissənin təcridxanasında onlarla birlikdə Bakı şəhərindən İsmayılov Asif, Ağdam rayonundan Əli, Boyəhmədli kəndindən Əhməd, Cəbrayıl rayonundan Şükür və adını xatırlamadığı daha 5-6 nəfər saxlanılırmış. Hər gün onları hərbi hissənin həyətinə çıxararaq, üzü üstə yerə

yıxıb təpikləyir və hündür məsafədən üzərlərinə tullanırmışlar. Təmizlik işləri görmək üçün onları hərbi hissənin yanacaqdoldurma məntəqəsinə aparmış və məntəqənin rəisi məcburən hər birinə 100 qram benzin içirtmişdir. Qauptvaxtanın rəisi Artur adlı şəxs burulmuş dəmirlə onların saçlarını dartıb çıxarırmış. Ermənilər Elsevəri yandıraraq, yaşlı bir kişini isə toka verərək öldürdüklərini deyirmiş. Təxminən bir ildən sonra onları Şuşa həbsxanasına aparmışlar. Orada 50-yə yaxın əsir-girov saxlanılırmış. Şuşa həbsxanasında məcburən bütün günü tikinti işlərinə cəlb etmiş, odun daşıtdırmış, müxtəlif ağır işlər gördürmüş və hər gün döymüşlər. Onu da bütün əsirlər kimi elektrik şəbəkəsinə qoşur, itlə güləşdirir, donuzu öpdürür, başına, bel nahiyəsinə küt alət, armatur, bel sapı, şüşə və s. ilə vururmuşlar. Göyçay rayonundan olan Rəbi adlı bir əsirin başına su şüşəsi qoyub nişangaha çevirərkən, güllə onun başına dəymişdi. Mısmına kəndində tikinti işlərində işlədilən zaman daş daşıyarkən, taqətdən düşdüyünə görə erməni əsgəri onu işləməyə məcbur etmək məqsədi ilə tapança ilə atəş açaraq ayağını yaralamışdır. Bir neçə gündən sonra səhhəti ağırlaşdığı üçün onu hospitala aparmış, orada bir erməni əsgəri onu və Balakəndən olan digər yaralı əsir Məhəmmədi avtomatın qundağı ilə vəhşicəsinə döymüşdür. Fikrət Əyyubov 10 may 1996-cı ildə Rusiya Federasiyasının Xarici İşlər naziri Yevgeni Primakovun vasitəçiliyi ilə həyata keçirilmiş proses zamanı azad edilmişdir.

Əzizov Ramin İbrahim oğlu – 1978-ci ildə Ermənistan Respublikasında doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 1 may 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Erməni hərbi birləşmələri rus hərbçilərinin və ağır hərbi texnikanın köməkliyi ilə Xocalı şəhərinə hücum edərkən o, anası, qardaşı və bacısı ilə birlikdə evlərini tərk edərək, Kətik meşəsi istiqamətində hərəkət edən Xocalı sakinlərinə qoşulmuşdur. Atası və böyük qardaşı həmin vaxt postda olmuşlar. O, 10 yaşlı bacısını Ağdamın Şelli kəndinə qoyub, meşədə qalmış anasıgili gətirmək üçün geri qayıtmışdır. Meşədə onları tapıb Naxçıvanlı kəndi istiqamətində hərəkət edərkən, ermənilər tərəfindən atəşə tutulmuşlar. Dəstədə olanlar pərən-pərən olmuş, o da hamıdan ayrı düşmüşdür. Atışma zamanı 35 yaşlı Tahir, Tapdıq, Həsənbala və adlarını bilmədiyi bir neçə azyaşlı uşaq yanında ölmüşdür. Bu qarışıqlıqda anasıgili tapa bilməyən Ramin 13 nəfərdən ibarət digər dəstəyə qoşulmuşdur. Dəstədə Hüseynov Valeh, Elxan, Səidə, Nəsib, Səlim və başqaları olmuşdur. Qaraqaya deyilən ərazidə ermənilər yenidən onları mühasirəyə alıb atəşə tutmuşlar. Atışma zamanı Valehin həyat yoldaşı Səadət həlak olmuşdur. Sonra erməni hərbçilər onları girov götürərək, Əsgəran rayonunun Milis şöbəsinə apararaq, qadınlarla kişiləri ayrı-ayrı kameralara salmışlar. 14 yaşında olduğu üçün onu da qadın və uşaqlar olan kameraya salmışlar. Orada Xocalı sakini olan 35-40 nəfər qadın da saxlanılırdı. Saxlanıldıqları otaq çox soyuq, pəncərələri şüşəsiz olmuşdur. Orada qaldıqları 3 gün ərzində yalnız uşaqlara gündə bir dəfə quru çörək və vedrədə qaynadılmış su verirmişlər. Ermənilər içəri daxil olaraq, gənc və yaraşıqlı qızları seçib aparır, pis görkəmdə qaytarırmışlar. Bir qızı aparmaq istəyərkən, anası mane olmağa çalışmış, onların hər ikisini avtomatın qundağı və rezin dəyənəklə döymüş, qızı zorla aparmışlar. Növbətçi erməni onu su gətirməyə göndərərkən, Səlim və Vasifin meyitinin həyətdəki zibilliyə atıldığını görmüşdür. Dəhlizdən keçərkən, Səlimov Arazın ermənilər tərəfindən armatur

və rezin dəyənəklə vəhşicəsinə döyüldüyünün şahidi olmuşdur. Əsir-girovlara işgəncə verən ermənilərdən Edik adlı hərbçi yadında qalmışdır.

Ramin Əzizov 1 may 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Fərəcov Rahil Nəcəf oğlu – 1980-ci ildə Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Vənənd kəndində doğulmuşdur. 13 sentyabr 1998-ci il tarixdə əsir götürülmüş, 15 dekabr 1999-cu ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1998-ci il sentyabrın 13-də, təxminən saat 15:00 radələrində Ordubad rayonunun Ermənistanla sərhəd ərazisindəki postu təhvil verib aşağıda yerləşən bulağa su gətirməyə gedərkən, Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Onu ağ rəngli, "Niva" markalı maşınla hərbi hissəyə aparmışlar. Erməni zabit onu elektrik xəttinə qoşaraq işgəncə vermiş, dəmir çubuq, dəyənəklə döymüş, sonra karserə salmışlar. Ondan hərbi sirləri öyrənməyə çalışmış, 4 gündən sonra başqa hərbi hissəyə aparmışlar. Orada "Farsam" deyə çağırılan, bir qolu, bir ayağı olmayan erməni zabit ona işgəncə vermişdir. O qədər qəddar idilər ki, keçini diri-diri soyur "Sənin də dərini belə soyacağıq", – deyirmişlər. Rahilin başına papaq qoyub, avtomatla nişan alıb atırmışlar. Dörd gündən sonra onu Yerevan şəhərinə yaxın yerdə yerləşən bir hərbi hissədə karserə salmışlar. Orada İsmayıllı rayonundan olan Dəmirov Adil Nəbi oğlu ilə birlikdə saxlanılırmış. Üç gündən sonra isə onları Yerevandakı Təhlükəsizlik Nazirliyinin təcridxanasına, digər 6 azərbaycanlı əsirin yanına aparmışlar. Həmin təcridxanada onları işlətmiş, gecələr yatmağa qoymayaraq psixoloji işgəncələrə məruz qoymuşlar. Rahil Fərəcov 15 dekabr 1999-cu il tarixdə əsirlikdən azad edilmişdir.

Fərhadov Fərhad Mirnaib oğlu – 1960-cı ildə Azərbaycan Respublikası Cəlilabad rayonunun Şəhriyar kəndində anadan olmuşdur. 1991-ci ilin dekabr ayının 28-də əsir götürülmüş, 1993-cü ilin sentyabr ayının 4-də azad olmuşdur. İfadəsində bildirmişdir:

Xankəndi şəhərinin Kərkicahan qəsəbəsi Ermənistan hərbçiləri və terrorçu-quldur dəstələri tərəfindən mühasirəyə alınmış, əhalinin kənddən çıxarılması üçün yalnız bir yol qalmışdı. Əsgərlərin müşayiəti altında həmin yolla əhali kənddən çıxa bilmişdi. Kərkicahan sakinlərindən Fərhad isə əsgərlərlə birlikdə kənddə qalmışdı. Dekabr ayının 27-də ermənilər Kərkicahan kəndinə zirehli texnika və çoxlu qüvvə ilə hücuma keçmişlər. Onlar düşmənlə 7-8 saat çox yaxın məsafədə vuruşmuş, mövqeləri dörd tərəfdən mühasirəyə alınaraq daralmağa başlamışdır. Güclü atışma nəticəsində sağ qalan 9 nəfər də yaralanmış və ermənilər tərəfindən əsir götürülmüşdür. Əsgər İsrail Məmmədov əsir düşməmək üçün özünü güllə ilə vurmuş, lakin sağ qalmışdır. Onları Xankəndində təcridxanaya yerləşdirərkən, İsrail Məmmədov hələ sağ imiş. Hər gün 10-15 dəfə ağac, kabel, rezin dəyənək, təpiklə döyür, vəhşicəsinə rəftar edirmişlər. Ermənilər "Rəhimin boğazına corab tıxayaraq öldürdük", – demiş, Mehmanı da döyə-döyə öldürmüşdülər. Rəhimlə Mehmanın ölümünü ona nəzarətçi Artur da demişdir. Kərkicahan kəndinin sakini Atakişiyev Fərhad Rəhman oğlunun döyülə-döyülə amansız işgəncələrlə öldürüldüyünün isə şəxsən şahidi olmuşdur. Ermənistan hərbçiləri Fərhaddan: "Qarabağ ermənilərindir", – deməyi dəfələrlə tələb edərək, işgəncələr vermiş, amma Fərhad bunu deməkdən imtina etmişdir. Buna görə də onu döyə-döyə öldürmüşlər. Əsirlərin hamısını ölümcül hala düşənədək döyərək, huşsuz halda kameraya atmışlar. Özlərinə gələn kimi

yenə döyməyə başlamışlar. Eyni işgəncələri Hüseynov Mehman Bəhram oğluna, Məmmədov Əbdüləzim Məcnun oğluna, İsmayılov Arif Əziz oğluna, Əhmədov Aydın İbrahim oğluna, Məmmədov İsrail Teymur oğluna, Məhərrəmov Pənah Şahmar oğluna da vermişlər. Orada saxlandığı 32 gün ərzində hər iki-üç saatdan bir onlara erməni millətindən olan mülki şəxslər işgəncə verirmiş. İşgəncə verənlər, əsasən, həbsxanada işləməyən, kənar şəxslər olmuşlar. Daha çox arıq, qısaboy nəzarətçi Arturun növbəsində ən qəddar ermənilər gəlib onları döyür, işgəncə verirmişlər. Onun növbəsində boyu iki metr olan yekəpər bir erməni milis işçisi elə qəddarlıqlar edirmiş ki, sağ qala biləcəklərinə inanmırmışlar. O, əsirlərin dırnaqlarını vəhşicəsinə çıxarır, çox güclü zərbələr vurur, nəticədə əsirlər huşunu itirirmiş. Arturla Samvel də onun ayaq barmaqlarını nallı çəkmələri ilə əzərək dırnaqlarını çıxarmış, iki dişini qırmışlar. Onları Arturdan başqa həm də Edik adlı erməni kabel parçası, rezin dəyənək və başqa alətlərlə hər gün döyürmüş. Bir dəfə rusiyalı deputat Qalina Starovoytova kameraya gəlmiş, onu nalayiq sözlərlə təhqir edərək "Qarabağ ermənilərindir, siz nə istəyirsiniz ermənilərdən? Sənə ayıb deyil? Sənin uşağın yoxdur? Sənin üçün bu da azdır!" – deyə bağırmış və zərblə başına vurmuşdur. Bu vaxt o, ağzı-burnu qan içində, gözü partlamış, döyülərək əzilmiş və əlləri bağlı vəziyyətdə imiş. Bir müddətdən sonra Arustamyan Qarnik adlı ermənin adamları Fərhad Fərhadovu evlərinə aparmış və onu Azərbaycanda cinayət törətdiyinə görə həbs edilmiş Qarnik adlı erməni ilə dəyişdirəcəklərini bildirmişlər. O, Qarnikin bacısı Aidanın evində saxlanılmış və azərbaycanlı əsir-girovların başlarının erməni qəbirləri üzərində kəsildiyini eşitmişdir. Orada saxlanılarkən, Laçın rayon sakinləri – girov götürülmüş Məmmədov Əlif Fərhad oğlunu, İbişov Taleh Mədət oğlunu və Musayev Ramiz Qamboy oğlunu da onun yanına gətirmişlər. Talehin dediyinə görə, erməni hərbçiləri onları girov götürərkən bacısı və atasını güllələmişlər. Onlar 1 il 6 ay bir yerdə – əvvəl Qarnikin bacılarının – Lyuda və Xalidənin, sonra isə yenidən Aidanın evində saxlanılmışlar. Aida özü də onu bir gün ağac dəyənəklə möhkəm döyərək işgəncə vermişdir. Avqust ayının 22-də, axşam saat 20-00-da onlar fürsət tapıb evdən qaçmışlar. Kəlbəcərə az qalmış ermənilər onları görmüş və qovmağa başlamışlar. Onlar gizlənərək izi itirə bilmişlər. Laçın rayonundan Güləbird kəndi istiqamətində Girs dağının döşü ilə Qubadlı rayonuna çıxmağı qərara almış, ancaq Malxələf kəndi ilə Güləbird kəndi arasında yenidən ermənilərlə üz-üzə gəlmişlər. Gizlənsələr də, 100-ə yaxın erməni əsgəri onları axtarmağa başlamışdır. Ermənilər Əliflə Talehi tapa bilsələr də, Ramizlə Fərhad bir yuvaya girdikləri üçün, gecə olduğuna görə onları tapa bilməmişlər. Ara sakitləşəndən sonra onlar yavaş-yavaş oradan uzaqlaşmışlar. Səhərə yaxın Güləbird kəndinə yaxınlaşmış, axşamı gözləyib yenidən Qubadlı rayonunun işğal altında olmayan Aşıqlı kəndinə keçərək, əsirlikdən azad olunmuşlar.

Fərzəliyev Nazim Ərşad oğlu – 1957-ci ildə Azərbaycan Respublikası Ağdərə rayonunun Sırxavənd kəndində doğulmuşdur. 1989-cu ilin avqust ayının 15-də girov götürülmüş, dekabr ayının 5-də azad olunmuşdur. İfadəsində bildirmişdir:

1989-cu il avqust ayının 15-də, səhərə yaxın həyətlərindəki səs-küyə yuxudan ayılmış, həyətə çıxanda 50-60 nəfər naməlum şəxsin toplaşdığını görmüş və sonradan məlum olmuşdur ki, onlar rus və erməni hərbçiləridir. Həmin silahlı şəxslər kənddə yaranmış münaqişənin səbəbkarı kimi onu və qardaşı Səmədi, eləcə də kənd sakinləri

– İmanov Novruz Göyüş oğlunu və Qəhrəmanov Ərzuman Oruc oğlunu günahlandıraraq girov götürmüşlər. Hərbçilər onları ermənilər yaşayan Kiçan kəndinə gətirərək, orada yerləşən qərargaha təhvil vermişlər. Qərargahda onun və qardaşının ermənilərə lazım olduğunu bildirmiş, onları Xankəndi Daxili İşlər İdarəsinin zirzəmisinə salmışlar. Digər 2 nəfəri isə azad etmişlər. Onu 9 saylı, qardaşını isə 11 saylı kamerada saxlamışlar. Demək olar ki, hər gün ermənilər tərəfindən döyülmüş və təhqir olunmuşlar. Verilən işgəncələr nəticəsində görmə qabiliyyətini itirmiş, daxili orqanları zədələnmiş, qorxudan diabet xəstəliyinə tutulmuşdur. Qonşu kamerada saxlanılan qardaşını görə bilməsə də, ona verilən işgəncələr nəticəsində qışqırıqlarını eşidir, fəryadına dözə bilmirmiş. Avqust ayının sonlarında qardaşını Ağdərə Milis şöbəsinə apararaq, noyabr ayınadək orada saxlamış, sonra hansısa bir erməni ilə dəyişdirilməklə azad etmişlər. Qardaşı sonradan – 1992-ci ilin fevral ayının 7-də kəndlərinin müdafiəsi zamanı döyüşdə qəhrəmancasına həlak olmuşdur. Onu isə dekabrın əvvəllərində ölümcül vəziyyətdə olduğuna görə bir neçə azərbaycanlının meyiti ilə birlikdə Şuşa yolunun kənarındakı "Ağa körpüsü" yaxınlığına atmışlar. Təsadüfən ora yaxınlaşmış bir avtobus sürücüsü onun nəfəsinin hələ də gəldiyini görərək, götürüb Şuşa şəhərindəki xəstəxanaya aparmışdır.

Hacıyev Elfaq Kamil oğlu – 1974-cü ildə Azərbaycan Respublikası Tovuz rayonunun Qovlar qəsəbəsində doğulmuşdur. 1993-cü ilin iyun ayının 12-də əsir götürülmüş, 1994-cü ilin mart ayının 29-da azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ağdam rayonu, Yusifcanlı kəndinin müdafiəsi zamanı, 1993-cü ilin iyun ayının əvvəllərində Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüş, əvvəlcə möhkəm döyülmüş, sonra huşsuz vəziyyətdə tankın üstünə atılaraq, Xocavənd rayonuna aparılmışdır. İki ay yarım hərbi hissənin təcridxanasında saxlanılmışdır. Orada bədəninə mismar batırır, siqaretlə əllərini, ayaqlarını, bədənini dağlayırmışlar. Soyundurub soyuq suya salaraq şlanqla döyür, kameranın döşəməsinə su axıdaraq, üstündə yatmağa məcbur edirmişlər. Burada siqaret kötüyü ilə sinəsinə xaç işarəsi basmış, iki dişini adi kəlbətinlə çıxarmışlar. Ən çox döyən təhlükəsizlik idarəsində işləyən Artur, milislərdən Raçik və Tolik olmuşdur. Şuşada onu bir gün ayağından asılı vəziyyətdə saxlamışlar. Orada onları döyən nəzarətçilərdən – Artur, Valera və Aşotu xatırlayır. Beyləqan rayonundan olan İlqarı ac olduğu üçün bir ovuc buğdanı icazəsiz götürüb yediyinə görə qəddarcasına döyərək öldürmüşlər. Elə olurdu ki, həftə ərzində yeməyə heç nə verilmirdi. Xocavənddə saxlanılarkən, Şəmil adlı yaralı bir zabiti də oraya gətirmişdilər. O, Şəmilin yanında olarkən kameraya gəlmiş ağ xalatlı həkim: "Şəmili iynə vurmaq üçün aparırıq", – demiş və onu çıxarıb harasa aparmışlar. Sonra Xocavənd komendantlığının sürücüsü Valera onu və Qubadlıdan olan Allahverdiyev Əlqəmə Xanlar oğlunu Şəmilin saxlandığı kameraya salmışdır. Onlar Şəmilin vəziyyətinin ağır olduğunu görmüşlər. Şəmili ermənilərin göstərişi ilə maşına qoymuşlar. Ağdam yolunda ermənilər maşını saxlamış və bu zaman Valera hələ sağ olan Şəmilin bədəninə xeyli güllə vuraraq onu qətlə yetirmişdir. Sonra Valeranın əmri ilə onlar meyiti yol kənarındakı çuxura atıb, üstünü torpaqlamışlar. Xocavənddə saxlanılarkən Şəmilə iynə vuran həkim onun da döyülərkən qırılmış qolunu kəsmək istəmiş, lakin beynəlxalq təşkilatlardan ehtiyat edən komendant bunun qarşısını almışdır. Qohumları ilə gizli

əlaqəyə girmiş ermənilər onlardan 10 milyon rus rublu və 600 ABŞ dolları alaraq, Hacıyev Elfaq Kamil oğlunu 29 mart 1994-cü il tarixdə əsirlikdən azad etmişlər.

Hacıyev Elman Qəhrəman oğlu – 1971-ci ildə Bakı şəhəri, Suraxanı rayonunun Əmircan qəsəbəsində doğulmuşdur. 22 sentyabr 1992-ci il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonunun müdafiəsi zamanı əsir götürülmüş, əllərini məftillə bağlayaraq huşunu itirənədək avtomatın qundağı və təpiklə döymüşlər. Ayılarkən yük maşınında aparıldığını görmüşdür. Bir neçə saat yol getdikdən sonra tanımadığı bir yerdə maşını saxlamış və əlləri bağlı vəziyyətdə onu maşından aşağı atmış, sonra sürüyə-sürüyə bir evin zirzəmisinə salmışlar. Zirzəmidə əllərini açsalar da, boynundan zəncirlə divara bağlamışlar. Bir müddət keçdikdən sonra zirzəmiyə girən sərxoş ermənilər onu huşunu itirənədək döymüşlər. Yalnız gecə özünə gəlmiş və hiss etmişdir ki, üz-gözü tamam şişmiş, burnu sındırılmışdır. Ertəsi gün iki erməni zənciri onun boynundan açaraq, onu Ağdərə rayonundakı qərargaha aparmış, qaranlıq zirzəmiyə salaraq vəhşicəsinə döymüşlər. İşgəncələr nəticəsində aldığı xəsarətlərdən indiyədək böyrəkləri sağalmamışdır. Gündüzlər onlara odun doğratdırır, cürbəcür ağır işlərə cəlb edir, axşamlar isə döyürmüşlər. Təxminən 3 aydan sonra Şuşa həbsxanasına aparılaraq, birnəfərlik karserə salınmışdır. Gecə vaxtı kameraya gəlmiş erməni nəzarətçilər "Təzə gəlmisən?" – deyərək üstünə tökülüşmüş və onu möhkəm döymüşlər. Orada saxlanıldığı bir neçə ayda, hər gün erməni nəzarətçilər tərəfindən döyülmüş, yeməyi də döyə-döyə vermişlər. Nəzarətçilər hər gün özləri döyməklə yanaşı, əsirləri də bir-birini döyməyə, zorlamağa təhrik edirmişlər. Təlim görmüş itləri üstlərinə buraxaraq əylənirmişlər. Nəzarətçilər siqaretlərini çəkib qurtarandan sonra əsirlərin bədənlərində, alnında söndürür, əsirləri siqaret kötüklərini yeməyə məcbur edir, dəmir şişləri köz üzərində qızdıraraq, bədənlərinə dağ basırmışlar. Nəsibov Ömərə və İbrahimov Eldənizə "Ömrünüzün sonuna qədər silinməyəcək", – deyərək, bədənlərinə xaç şəklində damğa vurmuşlar. Eşitdiyinə görə, aprelin 24-də mütləq əsir başı kəsilməli idi. Horadiz qəsəbəsindən olan 22 yaşlı Mehman verilən işgəncələrə dözməyərək ölmüşdü. Yardımlı rayonundan 20-22 yaşlı Heydər adlı bir əsiri də döyə-döyə öldürmüşdülər. Qış aylarında əsirləri buzlu suda çimməyə məcbur etdiklərindən, əsirlərin bəziləri xəstələnmiş, digərləri isə soyuqdan xəstələnərək ölmüşlər. Ən çox qəddarlıq edən nəzarətçilər əslən Yerevandan olan Qor, Con, qarabağlı Zayçik, Ququş və adlarını bilmədiyi daha bir neçə erməni olmuşdur. Bir müddətdən sonra 20 nəfər əsirlə Xocavəndin Mısmına kəndinə aparılmışdır. Mısmınada onlar donuz fermasının tikintisində işlədilmişlər. Bir neçə dəfə erməni nəzarətçilər onu və Yevlax rayon sakini Neməti yanlarına çağıraraq, Neməti lom, onu isə bel ilə huşlarını itirənədək döymüşlər. 10 may 1996-cı ildə Rusiyanın vasitəçiliyi ilə əldə edilmiş razılaşmaya əsasən azad edilmişdir.

Hacıyev Qənahət Məhəmmədəli oğlu – 1940-cı ildə Azərbaycan Respublikası Laçın rayonunun Böyüklü kəndində doğulmuşdur. 1992-ci ilin fevral ayının 28-dən aprel ayının 12-dək girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

Ermənistan Hərbi Qüvvələrinin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinə hücumu zamanı atəş səslərinə evdən çıxmış və şəhərdə evlərin yandığını görmüşdür. Qardaşı oğlu Hacıyev Tahir Hacı oğlunu da götürüb posta tərəf yollanmış, postun da yandığını görmüş və sürünə-sürünə dəmiryoluna tərəf irəliləmişlər. Dəmiryolunun kənarında toplaşmış 3 minə yaxın Xocalı sakininə qoşulmuşlar. Oradan 50 nəfərlə birlikdə Xocavənd rayonu istiqamətində qaçmağa başlamış, meşədə azaraq, 2 gün qarlı havada yolu tapa bilməmişlər. Meşədə 12 nəfərin bir yerdə donub qaldıqlarının şahidi olmuş, lakin onları tanıya bilməmişlər. Onların dəstəsində 30-40 nəfər qalmış, meşədə iki gün ocaq yandırıb qızınmışlar. Ertəsi gün saat 5:00 radələrində ocağın kənarında yatan əhalini yuxudan oyadaraq yola düşmüşlər. Qarşıda görünən kəndin ermənilərin olduğunu desə də, camaat ona əhəmiyyət verməyib, həmin kəndə tərəf getmişdir. Kəndə çatanda isə ermənilər onları atəşə tutmuşdur. Orada Salahova Zəhra adlı yaşlı qadını, Zeynalov Telman adlı oğlanı və adını bilmədiyi daha bir cavan oğlanı öldürmüşlər. Sonra onları mühasirəyə alıb girov götürmüş, Dəhraz kəndinə aparıb fermaya salmışlar. Bir gündən sonra aralarından 13 nəfər cavan oğlanı seçib aparmış, bayırdan güllə səslərini eşitdiklərinə görə onların güllələndiyini düşünmüşlər. Bu hadisədən sonra o, ayaqyoluna getmək bəhanəsi ilə bayıra çıxmış və ətrafa göz gəzdirsə də, qan izi görməmişdir. Sonra başa düşmüşdür ki, həmin cavanları öldürməmiş və harasa aparmışlar. Həmin gənclər – Usubov Əliyar Kamran oğlu, Usubov Elşad Kamran oğlu, Usubov Zakir Kamran oğlu, Həsənov Rövşən Qaçay oğlu, Qarayev Yusifəli Süleyman oğlu, Paşayev Ələddin Bəhlul oğlu, Usubov Səyavuş Ramiz oğlu, Bağırov Elşən Həsən oğlu, Məmmədov Şahin Talış oğlu, Əliyev Ülfət İman oğlu, Cabbarov Azad Pirqulu oğlu, Hüseynov Vüqar Hilal oğlu və Zeynalov Tofiq Aslan oğludur. Onların taleyindən indiyə qədər xəbər yoxdur. Orada əhalinin üstündəki qızıl-zinət əşyalarını əllərindən almış, 13 yaşlı bir qızın namusuna toxunmuş, ümumiyyətlə, çoxlu qadın və qızı zorlamışlar. Sonra Xankəndinə aparmaq üçün onunla birlikdə 18 nəfər kişini seçib ayırmışlar. Onları Xankəndinə gətirib, Milis idarəsinin kameralarına salmışlar. Onu Xocalının işğalından təxminən 8-10 gün sonra dəyişmək adı ilə Xankəndindəki avtoparka aparmışlar. Oradan keçərkən, ermənilərin daha bir vəhşiliyinin şahidi olmuşdur. Burada bir girov qadının qarnını kəsmiş və pişiyi diri-diri ora salmışdılar. Onun yanında isə ermənilərin əlindən tutduğu balaca bir qız "Ana, ana", – deyə qışqırırmış.

Sonra Qənahət Hacıyevi Xankəndindəki beşmərtəbəli binanın zirzəmisinə salmış, yanına Xocavənd rayonundan adını bilmədiyi 17 yaşlı bir oğlanı gətirmişlər. Gecə vaxtı 4 nəfər mülki formada olan saqqallı erməni həmin oğlana işgəncələr vermişlər. Əvvəl onun qolunu kəsmiş, sonra isə bıçaq və balta ilə doğrayaraq öldürmüşlər. Ertəsi gün yenidən Xankəndi Milis idarəsinin zirzəmisinə aparılmışdır. Orada qaldığı müddətdə Xocalıdan olan bir yaralını da gətirmişlər. Onun vəziyyəti həddindən artıq ağır idi. Pis vəziyyətdə olduğundan əvvəlcə onu tanımamış, sonradan Ələsgər müəllim olduğunu anlamışdır. Yaralı halda soyuq yerdə saxlandığından, Ələsgər müəllimin vəziyyəti getdikcə daha da ağırlaşmışdır. Qənahət Hacıyev bildirir: "Ağır vəziyyətdə olan Ələsgər məndən su istədi. Mən su olmadığını bildirərkən, dedi ki, ağla, gözünün suyunu içim. Mən isə çox döyüldüyümdən gözümdə su qalmadığını bildirərkən, o dedi ki, dilini ver, yalayım, bəlkə bir damla su olsun. Həmin gün o, 7-8 saat sayıqladı, sonra səsi kəsildi. Yaxınlaşan zaman artıq onun öldüyünü gördüm". Ertəsi gün ermənilər Ələsgərin me-

yitini hara isə apardılar. Quliyev Əliş Mürsəl oğlunu və Nəbiyev Əli İbad oğlunu döyərək qabırğalarını qırmış, dişlərini çıxarmışdılar. Təxminən 55 yaşı olan Salahov Məhəmmədi Əsgərana aparıb öldürmüşdülər.

Hacıyeva Fazilə Hüseyn qızı – 1954-cü ildə Ermənistan Respublikasının Göyçə mahalında (indiki Krasnoselsk) doğulmuşdur, Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində tarixi-etnik torpaqlarından qovulmuş və Azərbaycan Respublikasına köçmüşdür. 1991-ci ilin noyabr ayının 15-dən 18-dək girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

1991-ci ilin may ayında həyat yoldaşı – Babayev Akif Mobil oğlu ilə Azərbaycana köçərək Hadrut rayonunun Zamzur kəndində məskunlaşmışlar. O zaman Zamzur kəndində 50-60 ailə yaşayırmış. Ermənilər kəndə tez-tez hücum edir, yolları minalayırmış. Artıq orada yaşayış mümkün olmadığından kənd sakinləri hərə bir tərəfə köçüb getmişdi. Həmin vaxtlar Cəbrayıl rayonunda könüllülərdən ibarət tabor yaradılmışdı. O, həyat yoldaşı Akiflə birlikdə həmin tabora yazılmışdır. Taborun bütöv şəkildə yaradılması üçün müəyyən qədər vaxt lazım olduğundan, həyat yoldaşı və milislərlə birlikdə o da Hadrut rayonunun Zamzur kəndindəki mövqedə dayanmalı olurmuş. 1991-ci il noyabrın 14-dən 15-nə keçən gecə ermənilərin 200-250 nəfərlik canlı qüvvəsi hücum edərək, Hadrut rayonunun Zamzur kəndini və Şayax yüksəkliyini mühasirəyə almışlar. 20-22 nəfər milis ermənilərlə döyüşmüş, patronları qurtardığından, milis rəisi "ratsiya" ilə göstəriş vermişdir ki, onlar ruslarla danışıq aparıb silahlarını təhvil versinlər və özlərinin azad olunmalarını xahiş etsinlər. Milislər azad olunmuşlar. Onun da olduğu 8 nəfərlik dəstə isə milislərdən bir kilometrlik məsafədə imiş. Dəstədən 7 nəfər – Abdullayev Şükür, Məmmədov Kazım Ərşad oğlu, Əliyev Yolçu, soyadını bilmədiyi Elçin, Muxtar, Bəhram və Fazilə Hacıyevanın həyat yoldaşı Babayev Akif həlak olmuşlar. Fazilə Hacıyeva ilə həmin vaxt onlarla birlikdə olan Hacıyeva Müşkünaz Ziyəddin qızı ermənilər tərəfindən girov götürülmüşdür. Müşkünazla onu erməni meyitləri və yaralılarının qoyulduğu maşına mindirib, Hadrut rayonundakı qərargaha aparmışlar. Yol dərə-təpə olduğundan, maşında uzadılmış yaralı ermənin üstünə yıxıldığına görə erməni nəzarətçi ona "Sən türksən, bizim yaralını murdarladın", – deyə qışqırmış, avtomatın qundağı ilə çiynindən vurub yıxmış, sonra isə ayaqları ilə əllərini tapdalamışdır. Nəticədə onun əllərinin dərisi tamamilə soyulmuşdur. Hadrutdakı qərargahda erməni hərbçiləri onları möhkəm döymüş, sonra ona siqaret verib çəkməyi əmr etmişlər. "Mən siqaret çəkmirəm", – dediyi üçün kürəyindən vurub masanın üstünə yıxmış, burnu masaya dəyərək sınmışdır. Sonra ermənilər "Hazırlaş, qüvvətlən, yarım saatdan sonra gələcəyik, seks səhnəsi başlanacaq", – demişlər. Elə bu zaman həyəcan siqnalı verilmiş və onlar çıxıb getmişlər. Ancaq içəri daxil olmuş başqa bir erməni əvvəlki döyüşlərdə əmisi oğlunun öldürüldüyünü bildirərək onu təpikləmişdir. Bir az sonra isə əvvəllər Hadrut rayonunun Zamzur kəndində yerli sovetin sədri işlədiyi üçün onu və yoldaşı Akifi tanıyan bir erməni həlak olmuş ermənilərdən birinin həyat yoldaşını gətirərək, Faziləni ona göstərmiş və "Sənin ərini bunun həyat yoldaşı öldürüb. Sən ona nə etmək istəyirsən?" – deyə soruşmuşdur. Erməni qadın isə "Səməndərin ruhu o zaman şad olar ki, bunun başı onun qəbri üstündə kəsilsin", – demişdir. *(Qarabağda yaşayan ermənilərin əksəriyyəti azərbaycanlı adı daşıyırdı – tərt.)* Bu hadisədən sonra onları Ağdərəyə, tanımadığı binaya aparmış, orada

ermənilər sifətlərinə tüpürmüş və döymüşlər. Bir gün orada saxladıqdan sonra isə maşına mindirib tanımadıqları bir kəndə aparmışlar. Kənddə ermənilər 3-4 yaşı olan uşağa "Bunların üzünə tüpür, anasını söy, təpiklə vur, bunlar murdar türklərdir", – demiş, uşaq da onların üzünə tüpürmüşdür. Sonra onları "Niva" markalı maşının yük yerinə salıb qəbiristanlığa sürmüş və onu yerə düşürtmüşlər. Ermənilər "Səni azad etməyə aparırıq, amma gedəndə qoyunlarınızı başa sal ki, belə bir gözəl yeri onlar saxlaya bilməzlər, burada ancaq biz yaşaya bilərik", – deyərək onu yumruqlamışlar.

Onu Müşkünazla birgə Sovet ordusu hərbi hissəsinin Xankəndindəki qərargahına, sonra isə "UAZ" markalı maşına mindirib, Ağdama aparmış və Azərbaycan tərəfə təhvil vermişlər.

Hadıyev Ağarəzi Ağakərim oğlu – 1955-ci ildə Azərbaycan Respublikası İmişli şəhərində doğulmuşdur. 6 noyabr 1993-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan Respublikasına təcavüzü ilə bağlı Vətənin müdafiəsi üçün, 1993-cü ilin aprel ayında könüllü olaraq İmişli rayon Hərbi Komissarlığına müraciət etmiş və orduya yazılmışdır. Ərizəsini qəbul edib, həmin gün Füzuli rayonuna göndərmişlər. 1993-cü il noyabr ayının 6-da qardaşı Ağarəhim onun arxasınca gələrək, bir günlük icazə almışdır. Silahını götürmək məqsədilə posta geri qayıdarkən, qardaşı Ağarəhim də onunla getmişdir. Mövqeyə yaxınlaşanda Böyük Bəhmənli kəndindəki üzümlükdən çıxan 10-15 nəfər silahlı erməni hərbçi onları mühasirəyə alaraq tutmuş və möhkəm döymüşlər. Avtomatın qundağı ilə başını yarmış, sonra əllərini məftillə bağlayaraq Hadruta aparmışlar. Əllərini bərk sıxıb bağladıqlarından, uzun müddət keçməsinə baxmayaraq, indi də sağ əlində hissiyyat və hərəkət zəifdir. Məftili açdıqdan sonra taqətdən düşmüş barmaqlarını 3 gün tərpədə bilməmişdir. Onları Hadrutun girəcəyindəki restoranın zirzəmisinə salmışlar. Orada Cəbrayıl rayon sakini olan 15 nəfər girov da saxlanılırmış. Onlardan – Şükür, Üzeyir, Mürvət, Ramazan, Müseyib, İlqar, Ramiz, Camalı xatırlayır. 28-30 yaşlı Ramiz adlı əsir ermənilərin onun bədəninə şprislə solyarka yeritdiklərini deyib ağlayırmış. Onun ağlı çaşmış və havalanmışdı, iynənin yeri isə qızarmışdı. Ramiz artıq dəlisov hərəkətlər edirdi. Mütəmadi döyülməkdən Ramizin səhhəti tamamilə pisləşmişdi. 1993-cü il dekabrın axırlarında BQXK nümayəndələri onu Xankəndindəki uşaq xəstəxanasına aparmışlar. Baxımsız qalmış Ramiz xəstəxanada bədəninə yeridilən solyarkanın təsirindən əzab çəkə-çəkə ölmüşdü. Onun meyiti BQXK nümayəndəsi Markın iştirakı ilə Xankəndi yaxınlığında dəfn edilmişdir. Hadrutda nəzarətçilər – Vova, əvvəllər idman müəllimi işləmiş Asif adlı erməni və başqaları əsir-girovları xüsusi amansızlıqla döyürmüşlər. 1994-cü ilin əvvəllərində Füzuli rayon sakini 23-24 yaşlı İlham acından və verilən işgəncələrdən ölmüşdür. Son nəfəsdə olan İlhamı BQXK nümayəndəsi Mark Xankəndi xəstəxanasına aparsa da, öldüyünü bildirmişlər. BQXK nümayəndəsi Mark ermənipərəst idi. Qarabağda olduğu müddətdə o, əsir-girovların heç bir ehtiyacını ödəməyə kömək etmirdi. Dəfələrlə tərcüməçi qadın Yelizavetanın vasitəsilə ermənilərin özbaşınalığı barədə Marka məlumat versələr də, bunun əhəmiyyəti olmamışdır. Ona görə də cavan-cavan Azərbaycan övladları əsirlikdə baxımsızlıqdan, işgəncələrdən həlak olmuşlar. 1994-cü il aprel ayının 24-də ermənilərin "soyqırımı" günü Qarabağ qarnizonunun komendantı Aşotun sürü-

cüsü Armen, Ağarəzinin, Ramazanın və İlqarın gözləri qarşısında Cəbrayıldan olan 40-45 yaşlı Mürvətə "Sənin sifətin xoşuma gəlmir", – deyərək "Makarov" tipli tapançadan açdığı atəşlə onu öldürmüş, meyitini əsirlərə sürüdərək, komendantlığın yaxınlığına atdırmışdır. Bir müddətdən sonra erməni əsgərləri meyiti oradan aparmışlar. Noyabrın 29-da Qarabağ qarnizonunun komendantı Aşotun göstərişi ilə əsirlərin hamısını Xankəndindəki üçmərtəbəli təcridxanaya aparmış və onlara 3-4 gündən bir, az miqdarda quru çörək vermişlər. Vəhşiləşmiş erməni nəzarətçilər Cəbrayıl rayon sakini, ixtisasca həkim-terapevt olan Təbriz İsgəndərovu kamerada amansızcasına döyərək qətlə yetirmişlər. Meyit bir neçə gün kamerada qaldıqdan sonra ermənilər ona, Camal və Şükürə meyiti aparıb Xankəndi şəhərindəki zibilliyə tullamağı tapşırmışlar. Çox yalvar-yaxardan sonra meyiti dirək basdırmaq üçün qazılmış çalada basdırmağa icazə almışlar. Təcridxanaya sinəsindən güllə yarası almış Tərlan adlı əsir gətirilmiş və sonradan o, Xankəndi uşaq xəstəxanasına aparılmışdır. Təcridxanada saxlandıqları zaman həddsiz dərəcədə aclığa məruz qaldıqları və qəddarcasına döyüldükləri üçün taqətdən düşmüş əsirlər küçələri süpürmək iqtidarında belə deyilmişlər. 1994-cü il dekabrın təqribən 20-də onu, Şükürü, Ramazanı və bir neçə nəfəri Xankəndi hərbi alayına aparmış və həmin ayın 31-də oradan Şuşa həbsxanasına göndərmişlər. Əsir və girovların arıq bədənlərini bit basdığı və sifətləri tüklü olduğu üçün onları paltar geyinmiş meymuna bənzədirdilər. Orada saxlandıqları vaxt Şuşa həbsxanasının rəisi Vahan döyüşdə öldüyü üçün, ermənilər daha da azğınlaşmışdılar. Nəzarətçilərdən Slavik, Armen və Vahanın əmisi oğlu ilə qardaşı əsirləri rezin dəyənək, lom, armaturla döyür, təlim görmüş ovçarka cinsli itləri onların üstünə buraxırmış. Şuşa həbsxanasında döyülməkdən taqətdən düşmüş Suslov Tolik adlı hərbi əsir kameraya gələ bilmədiyindən, həbsxananın həyətində yıxılmış və heç kəsi maraqlandırmadığından səhərədək orada qalmışdı. Gecə şaxtalı olduğundan soyuq iliyinə işləmiş və Tolik, demək olar ki, donmuşdu. Yalnız bundan sonra Toliki Xankəndindəki uşaq xəstəxanasına aparmışlar. Nəzarətçi Robert Nadir adlı əsiri həbsxananın həyətindəki donuz damının yanında 380 voltluq elektrik məftilinin üstünə itələmiş, həmin dəqiqə Nadirin bədəni tüstülənmişdir. Nadirin bir dəri, bir sümük olan meyitini əsir-girovlar dəfn etmişlər. Şuşa qəbiristanlığının yaxınlığında Nadiri dəfn etmək üçün qəbiri 30-40 sm-dən dərin qazmağa imkan verməmişlər. Bir neçə gündən sonra işləməyə apararkən, vəhşi heyvanların Nadirin qəbrini dağıtdığını, üzərində bir az tük və azacıq dəri qalmış kəlləsinin qəbirdən kənara düşüb qaldığını görmüşlər. 70-75 yaşı olmasına baxmayaraq, Əhməd adlı girovu da digərləri qədər döyürmüşlər. 19-20 yaşlı İlqarı isə döyə-döyə öldürmüşlər. Füzuli rayonunun Horadiz, yaxud ona yaxın kəndlərindən olan 23-24 yaşlı İlhamı da hamının gözü qarşısında nəzarətçilər armaturla ölənədək döymüşlər. Əsirlər İlqarın meyitini Nadirin qəbrinə yaxın yerdə basdırmış, İlhamı isə BQXK-nın yeni nümayəndəsi Pyer harasa aparıb dəfn etmişdir. 1995-ci il aprelin əvvəllərində onu, Sarıyev Əlini, Camalı, Əvəz müəllimi, adını xatırlamadığı digər 5 nəfəri Xankəndinə, işləmək üçün Edo adlı bir ermənin yanacaqdoldurma məntəqəsinə aparmış, xeyli işlətdikdən sonra boş benzin çəlləklərinə salıb gecədən səhərə qədər saxlamışlar. Ertəsi gün isə benzin tökərək onları çəlləyin içində yandırmaq istəmişlər. Lakin BQXK nümayəndəsi Pyer özünü yetirib onları xilas etmişdir. Xocalıda kartof sahəsində işlədilərkən 25-26 yaşlı Gena adlı milis işçisi bellə Ağarəzinin qabırğasını qırmışdır. İki gün kamerada qaldıqdan sonra Pyer onu Xankəndindəki uşaq xəstəxa-

nasına aparmışdır. Xəstəxanada böyük Jirik və balaca Jirik adlı ermənilərin əsirləri mütəmadi döydüklərinin şahidi olmuşdur. Orada Ağdamda girov götürülən hamilə qadına yardım edilmədiyindən bətnindəki uşaqla bərabər öldüyünü eşitmişdir. Girov götürülmüş Aydın adlı digər Ağdam rayon sakininin sınmış ayağı müalicə edilmədiyindən, qanqrena başlamış, Aşot adlı erməni həkim heç bir ağrıkəsici iynə vurmadan onun ayağını amputasiya etmişdir. Onun qışqırığından xəstəxanada olanlar lərzəyə gəlmişlər. Sonradan adını bilmədiyi erməni tibb bacısı Aydına ağrıkəsici əvəzinə su vurduğunu demişdi. Balaca Jirik adlı erməni nəzarətçi bir əsir gənci zorlamışdı. Xəstəxanada 5-6 nəfər girov qadın saxlanılırdı. Əsir və girovların dəyişdirilməsi ilə məşğul olan Albert Voskanyan 3 qadını zorlamışdı. Ağarəzi Hadıyev 1996-cı il mayın 10-da Rusiyanın vasitəçiliyi ilə əldə edilmiş razılaşmaya əsasən əsirlikdən azad edilmişdir.

Haqverdiyev Natiq Nadir oğlu – 1969-cu ildə Azərbaycan Respublikası Göygöl rayonunda doğulmuşdur. 7 fevral 1993-cü il tarixdə girov götürülmüş, 14 yanvar 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ağdərə rayonu ərazisində şəxsi maşını ilə hərəkət edərkən, Ermənistan hərbçiləri tərəfindən girov götürülmüş, 10 günə yaxın ermənilərin Kəpəz dağının arasında yerləşən hərbi düşərgəsində tək saxlanılmışdır. Həmin müddətdə Ermənistan hərbçiləri təpik və dəyənəklə döymüş, fiziki işgəncələr vermişlər. Sonra helikopterlə Yerevana aparıb, Hərbi Polis idarəsinin birinci mərtəbəsindəki ümumi kameraya salmışlar. Orada təxminən 50 nəfərə yaxın azərbaycanlı əsir və girov saxlanılırmış. Əsir-girovları döyür, təhqir edir, fiziki işgəncələr verirmişlər. Lakin BQXK nümayəndələri tez-tez baş çəkdiklərinə görə, ermənilər onların bədənlərində aşkar fiziki işgəncə izləri qoymaqdan çəkinirmişlər. Həbsxananın, demək olar ki, bütün hərbçiləri işgəncələrdə iştirak edirmiş. Kapitan rütbəli bir erməni isə xüsusi amansızlıq göstərir, əsir-girovların daxili orqanlarının yerləşdiyi nahiyələrə rezin dəyənəklə ağır zərbələr endirirmiş. Əsirlikdə iki azərbaycanlının həlak olması barədə eşitmişdir. Onlardan biri Şəmkir sakini, ruhi xəstə Fikrət adlı girov fiziki işgəncələrdən vəfat etmişdir. Adını bilmədiyi, Bakı şəhəri Maştağa qəsəbəsinin sakini olan bir əsir isə fərdi evdə saxlanılmış və sonradan BQXK tərəfindən qeydiyyata alınaraq onların saxlandığı kameraya gətirilmişdi. Vəziyyəti olduqca acınacaqlı idi. Gözləri tutulmuş, tamamilə haldan düşmüşdü. Sərbəst hərəkət edə bilmir, hətta yemək yeməyi də bacarmırdı. Aclıqdan və baxımsızlıq ucbatından həmin şəxs bir həftədən sonra vəfat etmişdir. Şəmkirli Fikrəti və Maştağa sakinini Hərbi Polis idarəsinin həyətində, hasarın dibində dəfn etdirmişlər. Natiq Haqverdiyevi, Zaqatala rayonundan Tağıyev Bəxtiyar İbrahim oğlunu və Quba rayonundan Əsgərov Əsgər Bağır oğlunu 14 yanvar 1994-cü ildə Qazax rayonu Kəmərli kəndi istiqamətində bir erməni əsir ilə dəyişərək azad etmişlər. Girovluqdan azad olunduqdan sonra eşitdiyinə görə, onunla bir həbsxanada saxlanılmış kəlbəcərli Gürşad və Yevlaxdan Elman adlı hərbi əsirlər digər 6 nəfərlə birlikdə ermənilər tərəfindən güllələnərək qətlə yetirilmişlər.

Heydərov Əli Məmməd oğlu – 1973-cü ildə Ermənistan Respublikasının Masis rayonunda doğulmuşdur. 8 oktyabr 1992-ci il tarixdə əsir götürülmüş, 26 dekabr 1992-ci ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

1988-ci ildə Ermənistanın dövlət səviyyəsində apardığı etnik təmizləmə siyasəti nəticəsində doğma yurdlarını tərk edərək, Azərbaycana köçməyə məcbur olmuş, hər

şeyləri əllərindən alınmış, şaxtalı-qarlı qış günlərində ayaqyalın, başıaçıq yola çıxmışlar. İllərlə çalışıb, zəhmətlə qazandıqları mal-mülkləri ermənilərə qalmışdır. Yollarda xeyli donub ölənlər olmuşdur. 1992-ci il oktyabr ayının 8-də xidmət etdiyi hərbi hissənin tərkibində Laçın rayonunun Güləbird kəndi yaxınlığında postda dururkən, əraziyə basqın etmiş Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Onu Ermənistanın Gorus rayonunun Milis şöbəsinə aparmışlar. 44 gün orada, 1 gün isə Qafan rayon Milis şöbəsində saxlamışlar. Hərbçilər və milis işçiləri ona ağır işgəncələr verir, müntəzəm şəkildə döyürmüşlər. Qanı axdıqca gülür, ləzzət alırmışlar. Hər gün ən azı 2 saat avtomat qundağı, zəncir və digər müxtəlif əşyalarla elə amansızcasına döyülürmüş ki, saatlarla huşunu itirib-ayılmırmış. Üzünü tük basanda onu təmizləmək adı ilə alışqanla yandırırdılar. Ermənilər çox qəddar idi. Gorus Milis şöbəsində Məmmədov Vəfadar adlı əsir verilən işgəncələrdən xeyli qan itirmiş və ölmüşdür. Vəfadarın meyiti bir neçə gün kamerada qaldığından qurd basmışdı. Yalnız iyləndikdən sonra onun meyitini aparmışlar.

Heydərov Zöhrab Nadir oğlu – 1974-cü ildə Azərbaycan Respublikası Xaçmaz rayonunun Xaçmaz kəndində doğulmuşdur. 25 mart 1993-cü il tarixdə əsir götürülmüş, 22 sentyabr 1993-cü ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

1993-cü il fevral ayının 5-də Ermənistan hərbi qüvvələrinin Ağdərə rayonuna genişmiqyaslı hücumu başlamış, rayonun müdafiəsi zamanı mühasirəyə düşərək, 1 ay 10 gün meşədə qalmışdır. Qış fəsli olduğundan ayaqlarını don vurmuş və hərəkət edə bilməmişdir. Mart ayının 25-də Ermənistan hərbçiləri tərəfindən aşkar edilərək əsir götürülmüşdür. Ermənistan hərbçiləri ona huşunu itirənədək işgəncələr vermişlər. Özünə gələndə traktorun qoşqusunda harasa aparıldığını görmüşdür. Onu Xankəndi həbsxanasına gətirmiş və 5 gün saxlayaraq mütəmadi işgəncələrə məruz qoymuşlar. Sonra Şuşa həbsxanasına aparılmışdır. Orada çoxlu azərbaycanlı əsir və girovlar saxlanılırmış. Əsirlərə zülm verə-verə işlədir, dəyənək, zopa, dəmir parçası və digər küt əşyalarla döyürmüşlər. Həbsxanaya gətirilən gün onları sıraya düzüb, kütləvi şəkildə döymüşlər. Döyənlərdən Albert və Xankəndində həkim işləyən Armenin adları yadında qalmışdır. Bu işgəncələr gündə 4-5 dəfə təkrar olunurmuş. Cavan əsir-girovları ağsaqqal kişiləri döyməyə məcbur edirmişlər. Onun yanında Zahid adlı əsiri 1994-cü il aprelin 24-də, "erməni soyqırımı" günü işgəncə verə-verə boğub öldürdülər. Sonra üzlərini digər əsir-girovlara tutaraq "1915-ci ildə türklər bizi öldürüb, indi biz də Zahidi öldürdük", – demişlər.

Həsənov Ehtiram Zülfü oğlu – 1974-cü ildə Azərbaycan Respublikası Ağcabədi şəhərində doğulmuşdur. 14 noyabr 1992-ci il tarixdə əsir götürülmüş, 20 oktyabr 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci il noyabr ayında Ağdərə rayonu, Çıldıran kəndi ərazisində gedən döyüş zamanı yaralanmış və huşsuz halda əsir götürülmüşdür. Yaralı olmağına baxmayaraq Ermənistan hərbçiləri onun əllərini bağlayıb təpiklə, yumruqla, avtomatın qundağı ilə döymüşlər. Əvvəl Xankəndi şəhərinə, sonra Şuşa qalasına, bir müddət sonra isə Gorus rayonuna aparmışlar. Aparıldığı hər yerdə digər əsirlər kimi onu da vəhşicəsinə döymüşlər. Sonra Yerevan şəhərinə aparılaraq, hərbi hissədə saxlanılmışdır. Orada əsirləri saatlarla yerlə sürünməyə məcbur edir, geri qalanları rezin dəyənəklə amansızcasına

döyürdülər. Ermənistan hərbçiləri və nəzarətçilər insanları döyməkdən, onlara əzab verməkdən həzz alır, əsirlər ağrıdan, zərbələrdən qışqırarkən gülüşürdülər. 1993-cü il oktyabrın 20-də əsirlikdən azad edilmişdir. İllər keçməsinə baxmayaraq, yaşadığı dəhşətlərin acısını hələ də unuda bilmir. Bəzən gecələr qışqırıb yuxudan ayılır, bir anlıq hələ də əsirlikdə olduğunu zənn edir, xeyli müddət özünə gələ bilmir.

Həsənov Əliağa Kərim oğlu – 1939-cu ildə Ağdam rayonu, Yusifcanlı kəndində doğulmuşdur. 12 iyun 1993-cü il tarixdə girov götürülmüş, 8 iyun 1995-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Yaşadıqları Ağdam rayonu, Yusifcanlı kəndi Ermənistan Silahlı Birləşmələri tərəfindən işğal edilərkən, həyat yoldaşı Həsənova Kəklik Mənsim qızı ilə birlikdə girov götürülmüşdür. Girov götürdükdən sonra ermənilər onları döyüş maşınına mindirib Xocavənd rayon Milis idarəsinə aparmışlar. Maşından düşürən kimi Ermənistan hərbçiləri onları yumruq və təpiklə möhkəm döymüşlər.

Xocavənd Milis şöbəsində saxlanılarkən, rütbəsi olmayan, dodağı çapıq bir milis nəfəri digər ermənilərlə birlikdə qadınlara *(adları məlumdur – tərt.)* qarşı əxlaqsız hərəkətlər etmişlər. Arıq, hündürboylu milis işçisi Əliağanın 6, həyat yoldaşı Kəkliyin isə 16 ədəd qızıl dişini kəlbətinlə çıxarmışdır. Onların hər ikisini döyüb yarımcan hala salmışlar. Həyat yoldaşının əzablarına dözməyən Əliağa, məftil tapıb özü ilə kameraya götürmüşdür ki, gecə elektrikə birləşdirib özünü və həyat yoldaşını öldürsün. Onunla birlikdə girovluqda olan Mirzə onu bu əməldən çəkindirmiş, dözümlü olmağa çağırmışdır. Cəfər və Rafiq adlı azərbaycanlılar əsirlikdən qaçdıqdan sonra ermənilər digər əsir-girovları Xankəndi komendantlığına aparmışlar. Burada cavanları mütəmadi olaraq döymüşlər. Əliağa Xankəndi uşaq xəstəxanasında saxlanılan zaman Qubadlı rayonundan olan bir girov qadın da *(adı məlumdur – tərt.)* ermənilər tərəfindən zorlanmış, Şuşa həbsxanasından ölümcül vəziyyətdə uşaq xəstəxanasına gətirilən əsir Heydər Heydərov orada vəfat etmişdir. Digər əsir və girovlardan eşitdiyinə görə, Cahangir adlı əsir də orada vəfat etmişdir.

Həsənov Füzuli Tağı oğlu – 1969-cu ildə Azərbaycan Respublikası Ağstafa rayonunun Köhnə Qışlaq kəndində doğulmuşdur. 1992-ci ilin mart ayının 26-dan 30-dək girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

Atası Həsənov Tağı Rəfi oğlu, qardaşları – Həsən, Zülfüqar və Tatlı kənd sakinləri Bayramov Məmməd Qədim oğlu və Kərimov Bəkir Kərim oğlu ilə birlikdə Ermənistanla sərhədin yaxınlığında tarla işləri ilə məşğul olarkən, 9 nəfər silahlı və hərbi geyimli erməni tərəfindən girov götürülmüşlər. Onları Ermənistan Respublikası Berd rayonunun Milis şöbəsinə aparmış və bir gecə təcridxanada saxlamışlar. Onu və M.Bayramovu Milis şöbəsində saxlamış, qalan dörd nəfəri isə helikopterlə Yerevana aparmışlar. Onları beş gün Berd rayonunun Milis şöbəsində saxlamışlar. Martın 29-da 4 nəfər hərbi geyimli şəxs kameraya girərək, stolun üstünə bir bıçaq qoymuş və onlara bir-birinin qulaqlarını kəsməyi əmr etmişlər. Bunu etməyəcəklərini söylədikdə onlardan biri bıçağı alaraq, gülə-gülə M.Bayramovun qulağının yarısını kəsib götürmüşdür. Sonra isə hər ikisini möhkəm döymüşlər. Yumruq və təpiklə vurmuş, söyərək təhqir etmişlər. M.Bayramovun qulağı kəsildikdən 2 saat sonra milis işçiləri ilə bir həkim gəlmiş və qulağın kəsilmiş

hissəsini yerinə tikmişdir. Həmin qulaq bitişməyərək, quruyub düşmüşdür. Onları 30 mart 1992-ci il tarixdə girovluqdan azad etmişlər.

Həsənov Həsən Seyidağa oğlu – 1932-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 1992-ci ilin fevral ayının 26-dan aprel ayının 12-dək girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

Ermənilər Xocalı şəhərinə hücum edərkən evdə olmuş, atəş səsinə küçəyə çıxmışdır. Silahsız, başıaçıq adamların qışqıraraq ora-bura qaçdığını, güllədən xilas olmağa çalışdıqlarını görmüşdür. Səhərə yaxın bir dəstə erməni ilə qarşılaşmışdır. Onlar "Harsako" deyə qışqıraraq atəş açmış, nəticədə o, sağ qolundan iki güllə yarası almışdır. Geri qaçıb həyətlərinə daxil olarkən, orada qonşusu Əliyev Hüseyn Sarı oğlu ilə rastlaşmış və ona ermənilərin şəhərə daxil olduğunu bildirmişdir. Birlikdə şəhərdən çıxmaq üçün yollar axtarmışlar. Yaxınlıqdakı məktəbin həyətinə keçmiş, hasarı aşıb meşəyə girmək istərkən, erməni quldurları onları mühasirəyə alıb tutmuşlar. Girov götürüldükdən sonra pullarını və üst geyimlərini əllərindən almış, səkkiz ədəd qızıl dişini çıxarmışlar. Onları talayan ermənin adı Vova idi. Saxlanıldıqları mağaza binasında onlardan başqa şəhər sakinləri – Şərqiyyə və onun iki qızı, üç nəvəsi də olmuşdur. Bir müddət sonra isə şəhər sakini Yusifi, həyat yoldaşını və beş körpə uşağını da oraya gətirmişlər. Daha sonra Azərbaycan Milli ordusunun iki əsgərini və Ələsgər müəllimi də gətirmişlər. Hər üçü bud nahiyəsindən yaralı idi. Saat 9:00 radələrində içərisində praporşik rütbəli iki ermənin və üç rus əsgərinin olduğu "Ural" markalı hərbi maşın onların saxlanıldığı binaya yaxınlaşmışdır. Erməni hərbçilərinin əmri ilə rus əsgərləri mağazada olan ərzaq və digər əşyaları maşına yükləmişlər. Sonra "Ural" markalı avtobus gəlmiş, Ələsgər müəllimi və əsgərləri onlardan ayırmış, onları isə avtobusla Xankəndinə aparmışlar. Qadınları ikinci mərtəbədəki otaqlara, kişiləri isə zirzəmiyə salmışlar. Orada Xocavənd rayonu, Qaradağlı kəndindən girov götürülmüş dörd nəfər də saxlanılırmış. Onlardan yalnız Vaqifin adını xatırlayır. Gecə Yusifi aparıb, möhkəm döyərək geri qaytarmışlar. Sonra sərxoş ermənilər dörd dəfə otağa daxil olmuş, onlara işgəncələr vermiş, möhkəm döymüşlər. Çoxdan tanıdığı Vaqif adlı erməni və qardaşı ora gələrkən, o, Vaqifdən evlərindən ona ayaqqabı gətirməyi xahiş etmiş, ancaq Vaqif "O vaxtlar keçib, biz sənə ayaqqabı daşıyan deyilik", – demişdi. İki yerdən qırılmış qolunun qanı axırmış. Bu barədə bir neçə dəfə ermənilərin başçılarına desə də, məhəl qoyan olmamışdı. Girovluqdan azad ediləndən sonra Mingəçevirdəki xəstəxanada öyrənmişdir ki, Naxçıvanlı yolunda oğlu Nazimin iki uşağı – Aygün və Elgün, həyat yoldaşı – Həsənova Gülçöhrə Yaqub qızı ermənilər tərəfindən öldürülmüşdür.

Həsənov Şahin Arif oğlu – 1978-ci ildə Cəbrayıl rayonu, Xubyarlı kəndində doğulmuşdur. 27 yanvar 1990-cı il tarixdə girov götürülmüş, 5 may 1990-cı il tarixdə azad olmuşdur. İfadəsində bildirmişdir:

Yaşadığı Cəbrayıl rayonu Xubyarlı kəndində erməni terrorçu quldur dəstəsi tərəfindən 12 yaşında girov götürülmüş və Hadrut rayonunda yerləşən qeyri-qanuni hərbi hissəyə aparılmışdır. Orada saxlanılarkən Lyova, Jora və Borya adlı ermənilər əsir və girovlara işgəncələr vermiş, Şahinin sol əlinin 4 barmağını taxılsəpən maşının çarxlarının arasına qoyaraq, tamamilə sıradan çıxarmışlar. O, ağrıdan huşunu itirmiş,

ayılanda əlinin sarıqlı olduğunu görmüşdür. Lyova Şahindən Cəbrayıl rayon Milis şöbəsinin rəisi Rəşid Məmmədovun evinin və internatın yerini, hərbi texnikanın yerləşdiyi mövqeləri soruşmuş, Şahin cavab verə bilmədiyi üçün, avtomatın qundağı ilə onun başına möhkəm zərbə endirmişdir. 1990-cı ilin mart ayında Lyova və Jora onu Yerevan Hərbi Polisinə aparmışlar. Orada ona pul təklif edərək, eyni sualları vermişlər. Şahin suallara cavab vermədiyi üçün, Lyova onun kürəyindən avtomatın süngüsü ilə vurmuşdur. Sonra yenidən Hadrutdakı hərbi hissənin zirzəmisinə gətirmiş və burada ona əzab vermişlər. Jora əsir və girovlara işgəncələr vermiş, əsgər toqqasının dəmiri ilə gözlərinə, qabırğalarının altına ağır zərbələr endirmişdir. Hərbi və milis geyimində olan ermənilər orada girovları ac, susuz saxlamış, fiziki və mənəvi cəhətdən ağır işgəncələr vermiş, 10 nəfərə yaxın girovu güllələmişlər. Bir girov qızı *(adı məlumdur – tərt.)* lüt soyunduraraq rəqs etməyə məcbur etmiş, sonra isə zorlamışlar. Ertəsi gün qız tövlədə yabanı qarnına soxaraq intihar etmişdir. Adını xatırlamadığı bir nəfər Cəbrayıl rayon sakininin bədəninə iynə ilə kimyəvi turşu məhlulu vurmuşlar. 5 may 1990-cı ildə Şahin Həsənov girovluqdan qaçmağa nail olmuşdur. Ona verilən işgəncələrdən dili tutulmuş, qaçdıqdan sonra bir il müddətində nitq qabiliyyətini itirmişdir.

Həsənov Zahid Qoçəli oğlu – 1960-cı ildə Azərbaycan Respublikası Bakı şəhərində doğulmuşdur. 7 mart 1994-cü il tarixdə əsir götürülmüş, 17 may 1994-cü ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Füzuli rayonunun Seyidəhmədli kəndi uğrunda gedən döyüşlər zamanı əsir götürülmüşdür. Əsir götürülərkən yaralı olmasına baxmayaraq, Ermənistan hərbçiləri tərəfindən avtomatın qundağı, təpik və yumruqla vəhşicəsinə döyülmüşdür. Aprel ayına kimi Xankəndi uşaq xəstəxanasında saxlanılmışdır. Orada ermənilər əsir-girovları təpik, yumruq, rezin dəyənək və taxta parçaları ilə möhkəm döyürmüş. Onları döyən ermənilərdən Armen və nəzarətçilərin rəisi olmuş Samvelin adlarını xatırlayır. Şuşa həbsxanasında isə ermənilər əsir və girovları ac-susuz və nəm şəraitdə saxlamış, qul kimi işlətmiş. Əsir və girovlara ağır işgəncələr vermiş, üstlərinə it buraxmışlar. Ağdam rayonundan olan, adını xatırlamadığı yaşlı kişinin qulağını erməni hərbçilər kəsmişlər. Zahid Şuşa həbsxanasının yaxınlığında olan azərbaycanlı qəbiristanlığının ermənilər tərəfindən dağıdılaraq, qəbir daşlarının uçurulduğunun şahidi olmuşdur. Emil, Vrej və Armen Şuşa həbsxanasında saxlanılan əsirlərə ağır işgəncələr vermişlər. Karen Babayan adlı erməni əlində olan bilyard kiyi ilə, Armen isə ayağındakı ağır çəkmə ilə onu möhkəm döymüşlər. Onu işlətmək üçün Xankəndində yerləşən 4-cü tabora aparmışlar. Orada da Ermənistan hərbçiləri əsirləri tez-tez avtomatın qundağı, taxta və rezin dəyənəklə huşlarını itirənədək döymüşlər. Taborda onları döyən erməni hərbçilərdən Serjikin adını xatırlayır. Mülki əhali də azərbaycanlı əsir-girovları döyür, təhqir edirmiş. O, əsirlikdən azad olunandan sonra eşitmişdir ki, Zaqatala rayonundan olan Mahmud Zeynalovu və Sergey Şatuxini ermənilər döyərək öldürmüşlər. İfadəsinə əsasən, Edik adlı erməni onu 1994-cü ilin may ayının 17-də Füzuli rayonu, Aşağı Seyidəhmədli kəndinə aparmış, Seyid Əhəd adlı azərbaycanlı ilə danışaraq, Vartan adlı erməni əsirlə dəyişmişdir. Əsirlikdən azad olunması üçün ailəsi tərəfindən Albert Voskanyana 30 milyon manat pul verilmişdir.

Həsənova Kəklik Mənsim qızı – 1941-ci ildə Ağdam rayonu, Yusifcanlı kəndində doğulmuşdur. 12 iyun 1993-cü il tarixdə girov götürülmüş, 29 iyun 1993-cü il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Yaşadıqları Ağdam rayonu, Yusifcanlı kəndi Ermənistan Silahlı Birləşmələri tərəfindən işğal edilərkən, həyat yoldaşı Həsənov Əliağa Kərim oğlu ilə birlikdə girov götürülmüşdür. Girov götürdükdən sonra ermənilər onları döyüş maşınına mindirib, Xocavənd rayon Milis idarəsinə aparmışlar. Maşından düşürən kimi, Ermənistan hərbçiləri onları yumruq və təpiklə möhkəm döymüş, avtomatın qundağı ilə Kəkliyin burnuna güclü zərbə endirmişlər. Ermənilər əsir və girovlara döyə-döyə işgəncələr vermiş, yalvarmalarına və göz yaşlarına məhəl qoymadan orada saxlanılan digər qadınları *(adları məlumdur – tərt.)* həyat yoldaşlarının gözləri qarşısında zorlamış, ləyaqətlərini alçaltmışlar. Orada Kəklik Həsənovanın qızıl dişlərini kəlbətinlə əziyyət verərək çıxarmışlar.

Həsənova Kəklik Mənsim qızı 29 iyun 1993-cü il tarixdə girovluqdan azad edilmişdir.

Həsənova Qəmər Binnət qızı – 1938-ci ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun Dəmirçidam kəndində doğulmuşdur. 1993-cü ilin aprel ayının 8-dən sentyabr ayının 29-dək girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

Ermənistan hərbi birləşmələri yaşadığı Dəmirçidam kəndini işğal edərkən, əhali kəndi tərk etmiş, o isə, 1900-cü il təvəllüdlü anası Verdiyeva Tamam İbrahim qızı ağır yataq xəstəsi olduğu üçün, onu evdə tək qoymamış və yanında qalmışdır. 8 aprel 1993-cü il tarixdə Dəmirçidam kəndini talan etməklə məşğul olan Ermənistan hərbçiləri onların qaldığı evə daxil olmuş, çarpayıda ağır xəstə yatan anasını sürüyərək, həyətə çıxarmışlar. Bu zaman o, Ermənistan hərbçilərinin vəhşiliyini qonşu otaqda gizləndiyi qaranlıq yerdən müşahidə edirmiş. Ermənilər xəstə, həyətdə yıxılıb qalmış anasının üstünə neft tökən zaman, otaqdan çıxıb qışqırmış və mane olmağa çalışmışdır. Ancaq hərbçilər onu vəhşicəsinə döymüş, o, ağır zərbələrdən huşunu itirmişdir. Üstünə su töküb ayıldarkən, artıq anasının diri-diri yandırıldığını görmüşdür. Sonra ermənilər onu girov götürərək, Kəlbəcər rayonunun İlyaslar kəndinə gətirmişlər. Ermənilərin rayonu bütünlüklə talan etdiklərini, əksər qəniməti həmin kəndə topladıqlarını, oradan isə Ermənistana daşıdıqlarını görmüşdür. Bir həftə bu kənddə saxlanılmışdır. Orada tanımadığı 4 nəfər azərbaycanlı girov da olmuşdur. Saxlanıldığı 7-8 gün ərzində erməni hərbçilərinin daha bir vəhşiliyinin şahidi olmuşdur. Onlar Kəlbəcər rayonunun Bağırlı kənd sakini, yaşlı Əkbərova Tamam Abbasəli qızını da dağıdılmış kiçik bir evdə diri-diri yandırmışlar. 16 aprel 1993-cü il tarixdə onları Ermənistan Respublikası Basarkeçər rayonunun Zod kəndinə, oradan da Yerevan şəhərinə aparmışlar. Yerevan şəhər Hərbi Polis idarəsinin təcridxanasında onu Bakı şəhər sakini Nəcəfəliyeva Adilə ilə bir kameraya salmışlar. Eşitdiyinə görə, digər kameralarda 60 nəfərdən artıq əsir-girov saxlanılırmış. Onlara kameralarda işgəncələr verilirdi. Hüseynov Fikrət Həsən oğlu adlı girovu ermənilər daha çox döyürmüş. Buna görə də aldığı zərbələrdən, Fikrət kamerada keçinmişdir. Ermənilər əsir-girovları, o cümlədən Qəmər Həsənovanı da davamlı olaraq döyür, amansız işgəncələr verirdilər. Burda onu və 10 nəfərə yaxın əsir-girovu, xüsusilə də hərbi əsirləri uzun müddət BQXK-nın nümayəndələrindən gizli saxlamışlar. Nəhayət, BQXK onları müəyyən edərək, qeydiyyata götürmüş və 1993-cü il sentyabr ayında onu

və tanımadığı 3 nəfər kişini girovluqdan azad etmişlər. Girovluqda aldığı işgəncələrdən ruhi xəstə halına düşmüş, daxili orqanlarının funksiyası pozulmuşdur. Ağır iflic xəstəliyinə tutulduğundan, müntəzəm olaraq müalicə almışdır.

Hudulov Məhəmməd Əhməd oğlu – 1975-ci ildə Azərbaycan Respublikası Balakən rayonunun Xalatala kəndində doğulmuşdur. 12 iyul 1994-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

1994-cü ildə Tərtər rayonunun müdafiəsi zamanı Ermənistan hərbçiləri tərəfindən əsir götürülərək, təpik və yumruqla döyülmüş, sonra Xankəndi şəhərində yerləşən həbsxanaya aparılmışdır. Orada təxminən 15 nəfərə yaxın əsir saxlanılırmış. Onları gündüzlər çarpayı zavodunda işlədir, gecələr isə həbsxanaya qaytarırmışlar. Bir aydan sonra onu və daha 3 əsiri Şuşa həbsxanasına aparmışlar. Orada əsir-girovları hər gün döyür, baş və bel nahiyələrinə dəmir və ağac dəyənəklərlə, avtomatın qundağı, burulmuş məftillə zərbələr endirirdilər. Huşlarını itirəndə isə üstlərinə su töküb ayıldır və yenidən döyürdülər. Orada 35-40 yaşlarında olan Qor adlı erməni zabit onun başına rezin dəyənəklə zərbələr endirir, hər vurandan sonra rus dilində "Sağ ol, naçalnik" deməyə məcbur edirmiş. Əsirləri ağır tikinti işləri görmək üçün Mısmına kəndinə aparır və axşamlar geri qaytarırmışlar. İşlədiyi müddətdə də küt alətlərlə döyür, bədənlərində yanan siqaretin kötüyünü söndürərək əylənirmişlər. Təxminən 20 günə yaxın Ömər adlı əsirlə birlikdə onu narkotik tərkibli bitkilər becərmək məqsədi ilə Xəlfəli kəndinə aparmışlar. Şuşa şəhərində tikiləcək abidənin önündəki buzu təyin olunmuş vaxtda təmizləyə bilmədiyi üçün Heydər adlı bir əsiri armaturlarla vəhşicəsinə döymüş, işgəncəyə dözməyən Heydər bir neçə saatdan sonra vəfat etmişdir.

Hümbətov Əmir Səlim oğlu – 1923-cü ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 1992-ci ilin fevral ayının 26-dan mart ayının 5-dək girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

Fevralın 25-dən 26-na keçən gecə, saat 4:00 radələrində erməni quldurları tərəfindən öz evinin qarşısında girov götürülmüşdür. Onu girov götürən 15 nəfərə qədər erməni qulduru tərəfindən möhkəm döyülərək, huşunu itirmişdir. Ayılanda qollarının bağlı olduğunu görmüşdür. Erməni quldurlarının başçısı Amo onu "UAZ" markalı maşınla Xankəndinə aparmış, orada üst-başını axtarmış, üstündə olan 50000 manat pulunu, qolundakı saatını almışdır. Əlacsızlıqdan 12 ədəd protez qızıl dişini də çıxarıb onlara vermişdir. Sonra erməni quldurları ikinci dünya müharibəsinin iştirakçısı olduğu üçün yaxasında orden-medallar olan kostyumu da əynindən çıxararaq, qarət etmişlər. Girovluqda qaldığı müddətdə ermənilər tərəfindən böyrəklərindən və sağ ayağından aldığı zərbələrdən həyatının sonunadək əziyyət çəkmişdir. Erməni millətçiləri dəmirlə sağ ayaq oynaqlarına vuraraq, sinirlərini iflic etdiyindən gəzmək qabiliyyətini itirmişdir.

Hümbətov Cəlil Hümbətəli oğlu – 1934-cü ildə Azərbaycan Respublikası Şuşa şəhəri, Kosalar kəndində doğulmuş, Xocalı şəhərində yaşamışdır. 1992-ci ilin fevral ayının 26-dan aprel ayının 12-dək girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan ordusunun Xocalıya hücumu zamanı ailə üzvləri ilə birlikdə şəhərdəki beşmərtəbəli binanın zirzəmisində daldalanmışlar. Orada təxminən 100 nəfərə yaxın Xocalı sakini var idi. Əhalidə cəmi

3 ədəd avtomat silah olmuşdur. Ermənilərin şəhərə hücumu zamanı atışma başlamış və oğlu Muğan ağır yaralanmışdır. Gülləsi qurtarandan sonra ermənilər onu girov götürmüşlər. Elə həmin anda ermənilər onun həyat yoldaşı Firuzəni, 8 aylıq hamilə qızı Simuzəri gözünün qabağında qətlə yetirmişlər. Həmin gün ermənilər Mumuş kişini, oğlu Bəhramı, Aqil kişini və onun oğlunu, Möhlüd adlı şəxsi də vəhşicəsinə qətlə yetirmişlər. Ümumiyyətlə, işğal və soyqırımı vaxtı 200 nəfərədək Xocalı sakininin öldürülməsinin şahidi olmuşdur. Ermənilər onu və 10 nəfərə yaxın digər Xocalı sakinini yük maşınına mindirərək, üstlərini qarla örtmüş və qarın üstünə soyuq su tökmüşlər. Nəticədə girovlardan bir neçəsi donaraq vəfat etmişdir. Qalanları təhlükəsizlik idarəsinin təcridxanasında 38 saylı kameraya yerləşdirmişlər. Orada ermənilər qollarını mismarla deşmiş, başına armatur və avtomatın qundağı ilə zərbələr vurmuşlar. Kamerada saxlanılan Xocavənd rayonunun Qaradağlı kənd sakini olan dörd nəfərdən biri soyuğa və işgəncələrə dözməyərək vəfat etmişdir.

Hüseynov Ayaz Fikrət oğlu – 1973-cü ildə Azərbaycan Respublikası Bakı şəhərində doğulmuşdur. 1993-cü ilin mart ayının 31-dən sentyabr ayının 5-dək əsirlikdə olmuşdur. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonu ərazisində hərbi xidmətdə olarkən, Ermənistan ordusu ilə döyüşə-döyüşə Laçın rayonu istiqamətində geri çəkilmiş, meşədə ayağını don vurmuş halda 20 gün tək qalmışdır. Sonra Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Ermənilər ona döyüş mövqeyində yandırılmış və başı kəsilmiş 15 meyiti göstərərək, Azərbaycan əsgərləri olduğunu bildirmişlər. Onu Kəlbəcər rayonundakı Murovdağ ərazisində yerləşən bir binaya aparmışlar. Binada məskunlaşmış Ermənistan hərbçiləri onu vəhşicəsinə döymüş və o, aldığı zərbələrdən huşunu itirmişdir. Üstünə soyuq su töküldüyü üçün ayılanda paltarlarının cırıldığını, bədəninin qan içində olduğunu görmüşdür. Ancaq ermənilərdən biri pulemyot zənciri ilə onu yenidən döymüş, digər sərxoş əsgər isə əlindəki su şüşəsini divara çırpıb qırandan sonra onu soyundurub bədəninin müxtəlif hissələrini kəsməyə, deşməyə başlamışdır. Ağrılara dözməyib yenə huşunu itirmişdir. 21 gün orada saxlanılmış, hər gün bir neçə dəfə bu cür döyülərək, işgəncələrə məruz qalmışdır. Hətta onu zəncirlə döymüş, sonra da bədəninin yaralarına, parçalanmış hissələrinə duz tökmüşlər. 21 gündən sonra leytenant rütbəli Kamo adlı komandir onu Ermənistanın Kirovakan rayonunda yerləşən xüsusi düşərgəyə aparmışdır. Orada da tək saxlayaraq, avtomatın qundağı, dəyənək, təpik və yumruqla möhkəm döymüş, şüşə qırığı ilə qarnını üç yerdən kəsmişlər. 5 ay kamerada tək saxlanılmış, yüksək rütbəli hərbçilər oraya gələrkən onu gizlətmişlər. Kirovakandakı düşərgədə saxlandığı zaman onu Alik, Samvel, Tiqran və Jirik adlı erməni hərbçilər döymüşlər. Ona ən çox işgəncə verən, qulağını kəsmək istəyən isə Jirik olmuşdur. Bir gün tabor komandirinin yanına aparılmış, ünvanını və telefon nömrəsini soruşmuşlar. Sonra Bakıda yaşayan əmisinə zəng edərək, əsirlikdə olduğunu bildirmiş və demişlər: "Oğlunuzu görmək istəyirsinizsə, Kirovakana gəlin". Gürcüstanın Sadaxlı kəndində görüşməyə razılaşmışlar. Ermənistan hərbçiləri 1993-cü il sentyabrın 5-də Gürcüstanın Sadaxlı kəndində atası Hüseynov Fikrət Hüseynbala oğlundan 5500 ABŞ dolları alaraq, onu əsirlikdən azad etmişlər.

Hüseynov Baxşeyiş Əkbər oğlu – 1966-cı ildə Azərbaycan Respublikası Xocavənd rayonunun Qaradağlı kəndində doğulmuşdur. 1992-ci ilin fevral ayının 17-dən aprel ayının 10-dək girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

Yaşadıqları Xocavənd rayonunun Qaradağlı kəndi uzun illərdən bəri ermənilər tərəfindən sıxışdırılırdı. Kəndi azərbaycanlılardan təmizləmək üçün, Dağlıq Qarabağ Muxtar Vilayətinin erməni milliyyətli vəzifəli şəxsləri hər cür vasitələrə əl atmışlar. Kəndin su quyularını ermənilər yaşayan tərəfdə qazmış, bütün mədəniyyət və inzibati binaları da orada tikmişlər. Kəndin tək ümidi olan tut, üzüm bağları da ermənilərə verilmişdi. Lakin Qaradağlı camaatı öz ata-baba yurdunu tərk etmir, yaşamaq üçün mübarizə aparırdılar. Qarabağ münaqişəsi başlayandan bəri ermənilər daim kəndi atəşə tutur, günahsız insanları öldürürdülər. 1992-ci il fevral ayının 17-də Qaradağlı kəndi tamamilə Ermənistan hərbi birləşmələri tərəfindən işğal olunmuşdur. Erməni hərbçilər silahsız əhaliyə amansız divan tutmuş, quldurlar xalqın malını, əmlakını talan etmiş, kənd sakinlərinin əksəriyyətini girov götürmüşlər. Onlar qadınlara, uşaqlara, qocalara qəddarcasına işgəncələr vermiş, onu və girov götürülmüş digər kənd sakinlərini maşınlara mindirərək, Xankəndi şəhəri istiqamətində aparmışlar. Bu zaman qohumu Dadaşov Eldar İsa oğlunu və Hüseynov Şahmurad Hüseynalı oğlunu maşından düşürərək, döymüş və başlarına odlu silahdan atəş açaraq qətlə yetirmişlər. Bütün bunlar kənd əhalisinin gözləri qarşısında baş vermişdir. Sonra yenidən maşınlar hərəkət etmiş və kəndin yaxınlığındakı "Bəylik bağı" adlı meşəlik ərazidə maşınları saxlayıb, əhalinin bir hissəsinin aşağı düşməsini əmr etmişlər. Girovlar aşağı düşdükdən sonra avtomat silahlardan atəş açmağa başlamış, maşınlarda olan qadın, uşaq və qocaları bu gülləbaran səhnəsini seyr etməyə məcbur etmişlər. Burada ermənilər tərəfindən 33 nəfər kənd sakini qətlə yetirilmişdir. Meyitləri ortada qoyaraq, göz yaşları içində olan əhalini maşınlara doldurmuş və yollarına davam etmişlər. Malıbəyli kəndinə çatanda onları maşından düşürərək, piyada getməyə məcbur etmişlər. Girovları döyə-döyə Xankəndində yerləşən məktəbə gətirmişlər. Girovları sürü şəklində aparır, onlarla insan kimi rəftar etmirdilər. Qocalara, qadınlara, uşaqlara heç bir aman vermirdilər. İşgəncələr nəticəsində 55 yaşlı kənd sakini Əsədov İmran Hüseyn oğlu ölmüşdür. Məktəbdə saxladıqları bir gün ərzində onlara çox əzablar vermişlər. Ertəsi gün əhalinin əksəriyyətini Xankəndindəki bir hərbi hissəyə aparmış, onu isə təxminən 10-12 nəfərlə 7 gün məktəbdə saxlamışlar. Sonra onları Xankəndi həbsxanasına aparmışlar. Girovluqda olduğu müddətdə ağlasığmaz dəhşətlər görmüşdür. O dəhşətli mənzərələr hələ də gözləri önündədir.

Hüseynov Camal Əzim oğlu – 1934-cü ildə Azərbaycan Respublikası Füzuli rayonunun Qaraxanbəyli kəndində doğulmuşdur. 1992-ci ilin avqust ayının 23-dən 1995-ci ilin iyun ayının 8-dək girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

Füzuli rayonu işğal olunarkən, Ermənistan hərbçiləri tərəfindən girov götürülmüş, Xankəndi uşaq bağçasında və Şuşa həbsxanasında saxlanılmışdır. Saxlanıldığı müddət ərzində ermənilər tərəfindən müxtəlif işgəncələrə məruz qalmışdır. Belə ki, yaşlı olduğuna baxmayaraq, onu müxtəlif əşyalarla döymüş, Şuşa həbsxanasında isə işgəncələr nəticəsində hər iki qolu qırılmış, avtomatın qundağı ilə vurub bütün dişlərini tökmüş, qabırğasını sındırmışlar. Erməni girovluğundan azad ediləndən sonra uzun müddət müalicə olunmasına baxmayaraq, tam sağalmamışdır.

Hüseynov Cavid Ağa oğlu – 1975-ci ildə Azərbaycan Respublikası Beyləqan rayonunun Mil kəndində doğulmuşdur. 5 yanvar 1994-cü il tarixdə əsir götürülmüş, 10 may 1995-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ağdam rayonunun Güllücə-Suma kəndləri uğrunda döyüşlərdə yaralanaraq, Beyləqan rayonundan olan döyüş yoldaşı Ramizlə birgə Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Onları müxtəlif alətlərlə möhkəm döymüş, Cavidin üz-gözünü vurub partlatmış, təpiklə çənəsini sındırmışlar. Ağır zərbələrdən huşunu itirmiş, ayılanda onu tankın arxasına bağlayıb, sürüdüklərini görmüşdür. Elə sürüyə-sürüyə də Ağdamın Xıdırlı kəndi istiqamətindəki həyət evinə aparmışlar. Əvvəlcə öldürmək istəmiş, sonra "ÇOR" (Mərkəzi Müdafiə Şəhərciyi) deyilən alayın komandiri Elmira Ağayanla rabitə əlaqəsi yaratmışlar. E.Ağayan onun öldürülməsinə icazə verməmişdir. Ora gələn yerli ermənilər tərəfindən səhərədək vəhşicəsinə döyülmüş, səhər tezdən isə onları "KAMAZ" markalı maşına mindirib, "ÇOR" adlanan Xankəndi alayına aparmışlar. Orada 30 nəfərədək azərbaycanlı əsir-girov saxlanılırmış. Onlardan Qubadlı sakinləri Yelmar, Yusifov Kərəm Hüseyn oğlu, Rüstəmov Bayram Hüseyn oğlu, Qaraşov Əlizamin Telman oğlu, Ağdam sakinləri Abdullayev Ərşad Əvəz oğlu, Abbasov Əli Rəsul oğlu və Füzuli rayonunun Horadiz sakini Məmmədov Rafiq Sevindik oğlunun adlarını xatırlayır. Onları alayın təcridxanasına salmış və keşik çəkən erməni əsgərləri hamını bir-bir döymüşlər. Sonra Elmira Ağayan əsirləri sorğu-sual etmiş, əsir düşmüş Ermənistan hərbçiləri ilə dəyişdiriləcəklərini bildirmişdir. Müntəzəm döyülməkdən qolu və qabırğaları sınmış halda müxtəlif işlərdə işlədilmişdir. Əsir-girovları Ağdama aparır, evləri qarət etdirir, darvazaları sökdürür, mişar daşlarını maşınlara yığdırır, meşədə odun doğradır və mazut daşıtdırırmışlar. Şahbulaq kəndində isə sakinlərin ev tikdirmək üçün həyətlərinə boşaltdıqları daşı və bütün darvazaları çıxartdıraraq, maşınlara yüklədirdilər. Ağdama aparılan və bir gün ərzində 30-35 maşın daş yükləyən 7 nəfərdən: iki qardaş Bayramov Ağagül Əhməd oğlu və Bayramov Şirin Əhməd oğlunu, Ağsu rayonundan Qasımov Əbülfəz Balaqasım oğlunu, Bayramı və Qubadlıdan Kərəmi xatırlayır. Bir neçə əsir qaçmağa cəhd etdiyi üçün, nəzarətçilər Armen və Feliks bütün əsirləri Xankəndi alayının həyətinə toplayıb, əllərinə düşən küt alətlərlə vəhşicəsinə döymüşlər. Dəyən armatur zərbələrindən qolu və ayağı sınmışdır. BQXK nümayəndəsi Mark tərəfindən qeydiyyata alınsalar da, daim işgəncələrə məruz qalırmışlar. Bir dəfə həyətdə işlədiyi zaman Yerevandan gələn silahlı erməni qadın ona yaxınlaşmış, azərbaycanlı olduğunu bilən kimi avtomatın qundağı ilə üz-gözünə, başına vuraraq təhqir etmişdir. Əyilib su içmək istədikdə, həmin qadın boynunun arxasından necə vurmuşdusa, gözlərinə qaranlıq çökmüş, görmə qabiliyyətini itirmişdir. Yalnız bir müddət müalicə edildikdən sonra azacıq görməyə başlamışdır. Yaralı vəziyyətdə də avtomatla, təpiklə döyür, onları yandırmaqla hədələyirdilər. Bir dəfə "KAMAZ" markalı maşının sürücüsü Vladik adlı erməni onu Xankəndi alayının qarajına təkər dəyişməyə aparmışdı. Yaralı olduğu üçün işləyə bilmədiyindən, Vladik əsəbiləşib ağır çəkiclə onun belindən vurmuşdur. Bununla hirsi soyumayan Vladik daha ağır işgəncə verməkdən ötrü onu akkumulyator sexinə aparmış və qarajın çilingəri Slaviklə birlikdə Cavidin qolunu qızdırılmış dəmir çəkiclə damğalamış, sonra yaralarına turşu məhlulu tökmüşdür. Yalnız BQXK-nın tibbi yardımından sonra qolu sağalmışdır. Əsirləri dayanmadan işlədir, iş zamanı döyür, qəsdən şikəst edirdilər. Bir dəfə əsirlərə maşınları yüklətdirən zaman Artur adlı erməni

hərbçi Pənah adlı əsirə mişar daşını Cavidin belinə atmasını əmr etmişdir. Pənah bundan imtina etdiyi üçün, Artur özü mişar daşını maşının üstündən düz Cavid Hüseynovun belinə atmışdır. Huşunu itirən Cavid kamerada özünə gəlsə də, bir neçə gün tərpənə bilməmişdir. Aldığı zərbədən onurğa sümüyünün üç fəqərəsi sınmış, xeyli qan itirmişdir. Müalicə etmədikləri üçün, sınıq sonradan əyri bitmişdir. Bununla kifayətlənməyən Artur, bir neçə gündən sonra armaturla onun qabırğalarını da sındırmışdır. Maksim və Artur adlı hərbçilər Füzuli rayonunun Əmralılar kəndindən olan girov Arifi, qərargahın digər erməni əsgərləri isə Qubadlıdan olan Zakiri döyüb öldürmüş, Şuşukənd kəndində basdırmışlar. Bir gün işlədikdən sonra Xankəndi alayına qayıdarkən, yeni gətirilmiş əsirləri görmüşdür. Onlar ermənilərin döyüş zamanı ölmüş Ermənistan hərbçilərinin meyitlərinin yerini soruşduğunu bildirmiş, Qəbələ rayonundan olan Elsevər adlı əsir həmin yeri göstərmiş, ancaq ermənilər onu orada diri-diri yandıraraq qətlə yetirmişlər. Ermənilər hər gün əsir-girovları avtomatın qundağı ilə yorulana qədər döyür və "Sizi kombinata yollayıb ətinizdən itlərimiz üçün yem hazırladacağıq", – deyirmişlər. Onları Xocavənd meşəsində odun doğramağa aparmış, burada yaralı olduqlarından yavaş işləyənləri ölümcül vəziyyətə düşənə qədər döymüşlər. Çanaxçı meşəsində işləyərkən, bir erməni ona əlini kötüyün üstünə qoymağı əmr etmiş, o, əlini qoyan kimi barmaqlarını qırmışdır. Bir gün Artur və Maksim adlı ermənilər onu sıranın qarşısına çıxarıb, qabırğaları qırılanadək döymüşlər. Əsirləri elə vəhşicəsinə döyürdülər ki, kiminin ürəyi, kiminin böyrəyi, ciyəri partlayıb ölürmüş. Əsirlər danışırdılar ki, Xankəndindəki müvəqqəti saxlama təcridxanasında lazer aparatı var və onun kamerası ilə əsirləri əridirlər. Orada Eyvaz adlı yaşlı girova şüa verdikdən sonra ayaqları tutulmuş, gözlərindən su gəlməyə başlamışdır. İkinci dəfə şüa verməyə aparılandan sonra isə geri qaytarılmamışdır. Demək olar ki, hər gecə nəzarətçilər və onların qohumları kameralara girib əsirləri döyür, yatmağa qoymurdular. Yanvar ayının 1-də, gecə saat 3-də Maksim adlı erməni nəzarətçi bütün əsir-girovları bayıra çıxarmış, yeni il hədiyyəsi gətirdiyini bildirmişdir. Sonra ona "Əlini sal, gör, nədir", – demişdir. Əlini kisəyə salanda barmaqlarına qan dəymiş, əsirlərdən birinin başı olduğunu görmüşdür. Əsirin qulaqlarını, əllərini, ayaqlarını, başını kəsib kisəyə yığmışdılar. Maksim bildirmişdir ki, bu, milliyyətcə avar olan zaqatalalı Fərmanın başıdır. Bu qəddarlıq əsirlərə çox pis təsir etmişdir. Odun yığanda iri, ağır kötükləri bir-birinin üstünə qoyub daşımağa məcbur edirmişlər. Bir dəfə kötük daşıyarkən, gücü çatmadığına görə yerə yıxılmış, Aşot adlı nəzarətçi kötüyü qaldırıb, yuxarıdan ayağının üstünə ataraq ayağını sındırmışdır. Sonra onu yenidən kötüyü qaldırıb aparmağa məcbur etmişlər. Xankəndindəki uşaq xəstəxanasına gətiriləndən sonra da döyür, təhqir edirmişlər. Keçmiş Bakı sakini Armen adlı nəzarətçi də onu öz evinə aparıb işlədirmiş. Armen ona əvvəllər Sumqayıt şəhərində yaşamış Laura adlı qızın toyunda bir əsirin başının kəsildiyini və onun qanından hamıya dadızdırıldığını söyləmişdir. Aprelin 24-də onların da başlarını kəsmək istəmiş, lakin BQXK nümayəndələri buna imkan verməmişlər. 1994-cü il noyabrın 28-də Elmira Ağayan hamını Şuşa həbsxanasına göndərmişdir. Orada saxlanılanlardan – Qurbanov İlham Sabir oğlunu, Bakı şəhər sakini Cavidi, Cəbrayıl sakinləri Nadir və Əlini və Əliyev İqoru xatırlayır. Burada onu həbsxananın keçmiş rəisinin qəbri üstünə aparıb, qurban kəsmək istəmişlər. Sonra fikirlərindən daşınıb, başını yarmış, qanını axıtmaqla kifayətlənmişlər. Novruz bayramı günü əsirləri daha qəddarlıqla döyürmüşlər. Onları buz təmizləməyə

aparanda Həbib adlı oğlanı diri-diri qarın içinə basdırdıqlarını görmüş, əlini uzadıb onu qardan çıxarmış, bu vaxt ermənilər arxadan zərblə dəmir borunu onun başına endirmiş və o, yerə yıxılmışdır. Onu huşunu itirənədək vəhşicəsinə döymüş, Həbibin əvəzinə özünü qara basdırmışlar. Don vurduğundan gəzə bilməmiş, əl-ayağı hərəkətsiz qalmışdır. Güllələməsinlər deyə, digər əsirlər onu sürüyə-sürüyə kameraya aparmışlar. Qarik adlı nəzarətçi onun yaralı olduğuna baxmayaraq, əllərini dəmir barmaqlığa bağlayaraq rezin dəyənəklə döymüş, 76 zərbə vurmuş, axırıncı dəyənəyi sol gözünə endirdiyi üçün görmə qabiliyyətini yenidən itirmişdir. Bir müddət isə onu BQXK-dan gizlədərək, beş gün karserdə suyun içində saxlamışlar. Həbsxana rəisi Vaço onu otağına çağırtdıraraq, BQXK nümayəndəsinə yıxıldığını və gözünə ağac batdığını söyləməyi tapşırmışdır. Bir qədər keçdikdən sonra BQXK nümayəndəsi Pyer onu Xankəndi uşaq xəstəxanasına aparmışdı. Orada isə müalicə etmək əvəzinə, Surik adlı həkim o biri gözünü çıxaracağını söyləmişdi. Surikin sözlərinə əsəbiləşən Pyer özü onun gözünün müalicəsi ilə məşğul olmuşdur. 1995-ci il mayın 10-da əsirlikdən azad olunmuşdur. Əsirlikdə aldığı işgəncələr nəticəsində əlil olmuşdur. Əsirlikdə olduğu müddətdə bir əsiri dirəyə bağlayıb, diri-diri yandırdıqlarının, girovluqda olan azərbaycanlı qadınlardan olan körpə qız uşaqlarını göyə atıb avtomatın süngüsünə keçirdiklərinin şahidi olmuşdur. Oğlan uşaqlarını isə "onlarda türk qanı var, gələcəkdə türklərə qarşı istifadə edə bilərlər" deyə öldürməmişlər. Bir dəfə əlində xaç olan erməni keşişi əsir-girovların saxlanıldığı kameralara gələrək, dini kitablar paylamış, onlara xaç çevirməyi, xristianlığı qəbul etməyi təklif etmişdir. Lakin heç kəs razı olmamışdır.

Hüseynov Cəmaləddin Süleyman oğlu – 1982-ci ildə Ağdam rayonunun Qiyaslı kəndində doğulmuşdur. 22 iyul 1993-cü il tarixdə girov götürülmüş, 24 avqust 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan ordusu Ağdam rayonunu işğal edərkən, atası Hüseynov Süleyman, nənəsi Sərxanova-İsayeva Balaxanım Nasir qızı, qardaşları Ramil, Mais, Təhməzlə birlikdə öz evlərində imiş. Bu vaxt həyətdə güllə səsləri eşidilmişdir. O, Maislə həyətə çıxarkən, qonşuluqda cavan oğlanların yerə uzandıqlarını görmüş, bu vaxt erməni hərbçiləri onları da girov götürərək, avtomatın qundağı ilə vurub yerə yıxmış, əllərini bağlamışlar. Həmin vaxt atası və digər qardaşı evdə yatmışdır. Qardaşı Ramil onların ermənilər tərəfindən döyülərək, yerə yıxıldığını atasına xəbər vermişdir. Atası erməni dilində hərbçilər ilə danışaraq, yalvarmasına baxmayaraq, onları yaxınlıqda dayanmış "Ural" markalı avtomaşına mindirmişlər. Orada yaşlı qadınlar, kişilər, cavan qızlar və oğlanlar da var imiş. Ermənilər əhalini həmin avtomaşınla Ağdam rayonunun Şahbulaq kəndinə aparıb həbsxanaya salmışlar. Orada təxminən 300 nəfərdən artıq əsir və girov saxlanılırmış. Həbsxananın divarları qan içində idi. Bir gün saxladıqdan sonra girov götürülən kənd sakinlərini və digər bir dəstə girovu 2 maşına yığaraq, Ağdam rayonunun Cinli kəndində yerləşən Qaçay adlı kişinin evinə aparmışlar. Gəncləri Ağdam rayonunun işğal edilmiş kəndlərindəki evləri qarət etmək məqsədi ilə ayırıb orada saxlayırdılar. Digər əsir-girovları isə onunla birlikdə Əsgəran rayonundakı həbsxanaya aparmışlar. Orada təxminən 5 gün saxladıqdan sonra Şuşa həbsxanasına köçürmüşlər. Həbsxanada xeyli əsir-girov saxlanılırmış. Onların çoxu Kəlbəcər sakinləri idi. Şuşa həbsxanasında saxlanıldığı 12-13 gün ərzində erməni hərbçiləri əsir və girovlara ağır işgəncələr verərək,

möhkəm döymüşlər. Həmin vaxt ermənilər onu İzzət, Etibar və adlarını xatırlamadığı digər girovlarla birlikdə boğaza kimi yerə basdıraraq, başlarının üzərində ocaq yandırmaq istəmişlər. Bu vaxt BQXK nümayəndələrinin oraya gəldiyini eşidərək, onları yerdən çıxarıb üstlərini təmizlətmişlər. Şuşada saxlanıldığı zaman adını xatırlamadığı, Şirvan şəhər sakini olan gənc bir təyyarəçi oğlanı möhkəm döyərək, dəli vəziyyətinə salmış, o, həmin gecə havalanaraq, başını divara vura-vura özünü öldürmüşdür. Bir müddət sonra orada bir əsiri də ölümcül döyərək kameraya atmış, gecə o, kamerada ölmüşdür. Onun meyitini həbsxananın həyətində dəfn etmişlər. Onu isə 12-13 gündən sonra Xankəndinə aparmışlar.

24 avqust 1994-cü ildə Ağdam rayonunun Göytəpə kəndinə apararaq, 53 nəfər əsir-girovla birlikdə azad etmişlər. Qardaşları və nənəsi də azad edilənlər arasında olmuşdur.

Hüseynov Cümşüd Qara oğlu – 1934-cü ildə Azərbaycan Respublikası Füzuli rayonunun Veysəlli kəndində doğulmuşdur. 1993-cü ilin yanvar ayının 4-dən fevral ayının 4-dək girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

1993-cü il yanvar ayının 4-də həmkəndlisi Süleymanov Əli ilə birlikdə yaşadıqları Füzuli rayonu, Veysəlli kəndinin yaxınlığında mal-qara otararkən, Ermənistan hərbçiləri tərəfindən girov götürülmüşlər. Sonra onların yanına daha iki nəfəri, hərbi əsirlər – Füzuli rayonundan olan Qurbanov İlhamı və həmin rayonun Seyidmahmudlu kəndindən olan, adını xatırlamadığı bir nəfəri gətirmişlər. Onları Xocavənd rayonunun İsvancıq kəndindəki bir tikiliyə aparıb möhkəm döymüş, təpik, məftil, rezin dəyənək və avtomatın qundağı ilə zərbələr endirmişlər. Orada bir gün saxladıqdan sonra Xocavənd rayonundakı həbsxanaya aparmışlar. Bir müddət sonra həmkəndlisi, təxminən 20-25 yaşlı Babayev Eldar İmamverdi oğlunu da onların yanına gətirmişlər. Demək olar ki, 15 gün ac-susuz, soyuq kamerada saxlanılmışlar. Sonra Xocavənd rayonunun Qırmızı bazar kəndinə aparıb, bir ferma binasına salmışlar. Qırmızı bazarda saxlanılarkən, onlarla birlikdə olan əsir hərbçiləri bərk döyərək, başlarına qaynar su tökür, əllərini isti sobaya basırdılar. Orada da bir müddət ac-susuz, soyuq yerdə saxladıqdan sonra onu, Əlini, Mürsəli, Afşarı, Sarıgülü və Eldarı Xankəndində yerləşən həbsxanaya aparmışlar. Xankəndi həbsxanasına aparılan vaxt ermənilər bir azərbaycanlı hərbçinin qolundan yapışıb sürüyə-sürüyə yanlarına gətirmişlər. Ermənilərin dediyinə görə, guya onu qarın altından tapmışlar. Onun danışmağa və hərəkət etməyə taqəti yox idi. Həmin oğlan kamerada 2-3 gün ac-susuz saxlanıldıqdan sonra vəfat etmiş, ermənilər onun meyitini götürüb aparmışlar. Bir müddət sonra onlarla birlikdə saxlanılan Afşar xəstələnmiş, ermənilər onu müayinə etmək adı ilə bir həkim gətirmiş, həkim getdikdən sonra Afşar ölmüşdür. Ermənilər onun meyitini də çıxarıb aparmışlar. Bir müddət belə əzab-əziyyət, işgəncə verə-verə saxladıqdan sonra onu, Mürsəli, Əlini və Sarıgülü Hadrut rayonunun Tuğ kəndi yaxınlığında dörd erməni ilə dəyişərək azad etmişlər.

Hüseynov İlqar Qardaşxan oğlu – 1958-ci ildə Azərbaycan Respublikası Xocavənd rayonunun Qaradağlı kəndində doğulmuşdur. 17 fevral 1992-ci il tarixdə girov götürülmüş, 29 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Hələ Qaradağlı kəndinin işğalından əvvəl, 1990-cı ilin noyabr ayının 9-da Qaradağlı kəndinə mebel gətirmiş iki azərbaycanlı və kənd sakini Xandəmir Hüseynov Ağkənd kolxoz sədri Alyoşa, Martuni rayon Dövlət Avtomobil Müfəttişliyinin rəisi Artur və başqa erməni quldurları tərəfindən avtomat silahlarla qətlə yetirilmişlər. 1991-ci ilin yanvar ayının 9-da bibisi oğlu, Qaradağlı kolxozunun sədri Sultan Bayramov Ağdamdan kəndə qayıdarkən, yolda güllələnmişdir. Terror aktı Müşkabad kəndinin kolxoz sədri, erməni Şahmurad tərəfindən təşkil edilmişdir. 1991-ci ilin iyun ayının 27-də Qaradağlı kəndinin fermasına hücum etmiş ermənilər altı nəfər kənd sakinini bir otağa yığıb yandırmışdılar. 1991-ci ilin sentyabr ayının 8-də Ağdam–Qaradağlı marşrutu ilə hərəkət edən avtobus ermənilər tərəfindən güllələbaran edilmiş, nəticədə 13 nəfər həlak olmuşdur. Bütün bu cinayətlərin əsas təşkilatçısı Keşi kəndində anadan olmuş, Xocavənd rayonunda Daşnaksütyun partiyasına rəhbərlik etmiş, sonradan Ermənistan Respublikasının Prezidenti olmuş Robert Koçaryan olmuşdur.

1992-ci il fevral ayının 15-də Ermənistan hərbçiləri və terrorçu-quldur birləşmələri Qaradağlı kəndinə irimiqyaslı hücum təşkil etmişlər. Sakinlər, orada olan az sayda hərbçilər və kəndin milis işçiləri məhdud imkanlarla və yüngül atıcı silahlarla iki gün güclü müqavimət göstərərək, hücumun qarşısını almışlar. Lakin ermənilərin ağır texnikalardan istifadə etməsi, həmçinin müdafiəçilərin hərbi sürsatının bitməsi, müqaviməti davam etdirməyə imkan verməmişdir. Qeyri-bərabər döyüş zamanı səkkiz nəfər kənd sakini – Zeynalov Mobil, Hüseynov Əsgər, Rüstəmova Zivər, Bayramov Rəşid, Hüseynov Nəbi, Həsənov Altay, Hüseynov Xanalı, Dadaşov Mənaf həlak olmuş, 117 nəfər girov götürülmüşdür. Döyüş zamanı yaralanaraq əsir düşən Eldar və Akif adlı hərbçilər, həmçinin Əliqismət və Məhi adlı kənd sakinləri, Ermənistan hərbçiləri tərəfindən güllələnmişdir. Xocavənd rayonunun Qağarza kəndinin sakinləri – Arbik, Şaşa və Apo adlı silahlı ermənilər isə Dadaşov Eldarı ağacla döyərək, qətlə yetirmişlər. Əsir-girovları Xankəndi istiqamətində apararkən, yolda "Bəylik bağı" deyilən ərazidə dayanaraq, onları maşınlardan düşürmüşlər. Erməni hərbçilər milis orqanlarında çalışdıqları üçün tabel silahına malik olmuş və Qaradağlı kəndinin müdafiəsində iştirak etmiş kənd sakinləri – Abbasov Sərvər, Mustafayev Qərib və Kazımov Nəsimini güllələmiş, başlarını kəsib, sellofan torbalara qoyub götürmüşlər. Daha sonra təxminən 30 nəfər Qaradağlı sakinini güllələyərək qətlə yetirmiş, meyitlərini isə silos quyusuna doldurmuşlar. "Bəylik bağı"ndan təxminən 2 km aralandıqdan sonra yenidən maşınları saxladaraq, Elmidar adlı kənd sakinini maşından düşürüb güllələmişlər. Xocavənd rayonunun ermənilər yaşayan Lingi kəndinə çatdıqda isə Qaradağlı kəndinin digər sakini – Zahidi maşından düşürərək, yerli camaatın gözləri qarşısında güllələmişlər. Azərbaycanlı əsir-girovları Xankəndi şəhərinə gətirən erməni hərbçilər onları amansızcasına döydükdən sonra yarıyadək su ilə doldurulmuş zirzəmiyə salmış, 5 nəfər gənci isə çıxarıb, naməlum istiqamətlərdə aparmışlar. Əsir-girovları burada 7 gün döyüb işgəncələr verən ermənilər sonradan onları Xankəndi həbsxanasına aparmışlar.

Həbsxanada da eyni vəziyyətlə qarşılaşan və ac-susuz saxlanılan azərbaycanlılar ən ağır işgəncələrə məruz qalmışlar. Artur adlı nəzarətçi amansızlığı ilə digərlərindən seçilmişdir. İlqar orada saxlanılan müddətdə bir dəfə Artur Şuşa həbsxanasından buraxılmış keçmiş məhbusu əsir-girovları döymək və işgəncə vermək üçün özü ilə bərabər kameraya gətirmişdir. Onların azərbaycanlı əsir-girovları amansızcasına

döymələri nəticəsində, Fazil adlı girov ölmüşdür. Sutka ərzində ən çoxu 50 qram quru çörək verildiyindən, Şura, Əlastan, Kamal, İmran, Kamil və Böyükkişi adlı girovlar acından ölmüşlər. İlqar Hüseynovun işğal zamanı ölmüş bibisi Zivərin barmağındakı qızıl üzüyü çıxara bilməyən terrorçu meyitin bütöv qolunu kəsərək götürmüşdür. Kəndə hücuma Monte adlı erməni terrorçu rəhbərlik etmişdir. Hüseynov İlqar Qardaşxan oğlu 29 mart 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Qeyd *(tərt.)*: Məşhur terrorçu, Qərbi Avropada "ASALA-nın inqilabi hərəkatı" adlı qruplaşmasının rəhbəri, 28 noyabr 1985-ci ildə 6 il müddətinə həbs olunmuş Monte Melkonyan 1990-cı ildə Fransa həbsxanasından buraxılaraq, Ermənistana gəlmiş və terror fəaliyyətini davam etdirmək üçün buradan Dağlıq Qarabağa göndərilmişdir. M.Melkonyan Azərbaycanın Xocavənd rayonunun işğalı zamanı erməni terror dəstəsinin komandanı olmuşdur. 1992-ci il fevralın 17-də Melkonyanın rəhbərliyi ilə Ermənistanın hərbi birləşmələri, eyni zamanda xarici ölkələrdə xüsusi təlim keçmiş "Arabo" və "Aramo" erməni terror və quldur birləşmələri hər tərəfdən mühasirəyə alınmış Xocavənd rayonunun Qaradağlı kəndinə hücuma keçmişlər.

Monte Melkonyanın qardaşı Markar Melkonyan 2005-ci ildə Nyu-Yorkda nəşr olunan "Mənim qardaşımın yolu" kitabında yazır: *"Doqquz il əvvəl Monte özünün "Xalq döyüşçülərinin hazırlanması barədə təlimat"ında yazırdı ki, "Pusqudan atəş açmaq əmrini düşmənə ilk atəşi özü açmaqla komandir verməlidir. Bu zaman düşmənin böyük itkisinə səbəb ola biləcək B-7 tipli qumbaraatandan (əgər belə silah varsa) və ya istənilən digər silahdan atəşə başlamağa üstünlük verilməlidir". İndi isə o, soyuqqanlılıqla B-7 qumbara-atanı çiyninə alaraq nişan alıb tətiyi çəkdi. Ağ qığılcım və gurultu ilə çıxan ilk mərmi binanın ikinci mərtəbəsində küncdəki pəncərədən daxil olub içəridə hər şeyi külə döndərərək sarı rəngdə alovla pəncərədən geri çıxdı. Bu işarə idi və sonra hücum edənlər kəndi yaylım atəşinə qərq etdilər. Petaşendən olan komandir müavini Nelson bərəlmiş gözləri ilə Montenin B-7-dən atəş açdıqdan sonra qumbaranın dağıdıcı qüvvəsini seyr etmək üçün silahı necə aşağı salmasını, sonra uca səslə kiçik komandirlərə əmrlər verməsini, daha sonra isə onun qumbaraatanı soyuqqanlılıqla yenidən doldurmasını müşahidə edirdi. Dolu kimi yağan güllə atəşi altında azərbaycanlı müdafiəçilər şimal istiqamətində, bir neçə kilometr aralıda Ağdam düzənliyində yerləşən qərargahla ratsiya vasitəsilə əlaqəyə girərək öz rəhbərlərinə kömək göndərilməsi üçün müraciət edir, artıq bu hücumun qarşısını ala bilmədiklərini bildirirdilər. Monte müşahidə məntəqəsindən müdafiəçilərin oturduqları binada açılan atəş səslərini eşidirdi. Ona elə gəlirdi ki, müdafiəçilər artıq nə edəcəkləri barədə razılaşmadıqları üçün bir-birinə atəş açırlar.*

Müdafiəçilər tərəfindən cavab atəşləri dayandıqdan sonra Monte B-7 qumbaraatanını aşağı endirib hücum dəstələrinin hər tərəfinddən Qaradağlıya soxulduqlarını seyr etməyə başladı. Gündüz saat 5-də dəstələr öz vəzifələrini yerinə yetirdilər. Erməni tərəfindən həmin gün yalnız bir döyüşçü öldürüldüyü halda, düşmən tərəfdən 2 döyüşçü öldürülmüş, 48 əsir isə yük avtomaşınına tərəf aparılırdı. Əsirlər Stepanakertə aparıldılar, orada onları azərbaycanlıların əlində əsirlikdə olan ermənilərlə dəyişdirilənədək saxladılar. Qaradağlı uğrunda döyüş Montenin rəsmi komandir vəzifəsində rəhbərlik etdiyi ilk döyüş idi və göründüyü kimi, uğurlu keçmişdi. Lakin tezliklə hər şey dəyişdi. "Arabo" və "Aramo" döyüşçüləri aralarında dinc sakinlər, o cümlədən qadınlar da olmaqla 38 nəfər əsir-girovu

kəndin kənarında məhv edib xəndəyə tökmüşdülər. Girovlardan biri əlindəki sarğının altında gizlətdiyi qumbaranı çıxarıb Patriot dəstəsinin üzvü olan mühafizəçi Levonun ayaqları altına atdı. Partlayış nəticəsində o, ayağının bir hissəsini itirdi. Hələ dünən həlak olmuş döyüşçü dostlarının qisasını almaq arzusunda olan "Arabo" və "Aramo"nun əsgərləri bütün girovları son nəfərədək güllələyərək, üstəlik onları bıçaqla doğramağa başladılar. Aştarakdan olan Patriot dəstəsinin 5 üzvündən biri "Şram" ləqəbli Edo bir neçə yaralı əsgərin üzərinə benzin töküb yanar kibriti atdı. Montenin xəndəyə yaxınlaşdığı anda orada yalnız yanmış cəsəd topası var idi" ***(Markar Melkonyan: "Mənim qardaşımın yolu". Nyu-York, 2005, səh. 213)***.

Hüseynov Mehman Əli oğlu – 1960-cı ildə Azərbaycan Respublikası Füzuli rayonunun Ayrım kəndində doğulmuşdur. 1991-ci il noyabr ayının 2-dən həmin ayın 11-dək əsirlikdə olmuşdur. İfadəsində bildirmişdir:

Könüllü olaraq kəndlərinin müdafiəsində iştirak edən İbrahimov İlqar Aslan oğlu, Qadaşov Mahirlə birlikdə erməni silahlı dəstələrinin qəfil hücumu zamanı əsir götürülmüşdür. Onları Hadrut rayonu, Ərgünəş meşəsindəki qərargahda saxlamış, onu ata bağlayıb sürümüş, lomla döyərək qabırğalarını sındırmışlar. Ağaca bağlayıb başına torba keçirərək, işgəncələr vermiş, təpiklə vurub bağırsaqlarına xəsarət yetirmiş, əlləri bağlı halda üzünə murdar su atmışlar. Döyülmələr və işgəncələr nəticəsində ağ ciyəri və böyrəyinin biri zədələnmiş və həmin orqanlar funksiyasını qismən itirmişdir. Ermənilər arasında bir nəfər yezidi kürdü girovlara qarşı daha amansız olmuş, bıçaqla onun barmağını kəsmiş, bədəninə yanar siqaretlə dağ basmış, başını bıçaqla deşik-deşik etmişdir. Bu işgəncələrin nəticəsində o, ağır əsəb xəstəliyinə tutulmuşdur. Azərbaycan Respublikasının o zamankı Daxili İşlər naziri Məhəmməd Əsədovun səyləri nəticəsində azad edilmişlər.

Hüseynov Rövşən Musaxan oğlu – 1979-cu ildə Azərbaycan Respublikasının Lənkəran rayonunda doğulmuşdur. 1998-ci ilin dekabr ayının 1-də əsir götürülmüş, 2000-ci ilin aprel ayının 17-də əsirlikdən azad olunmuşdur. İfadəsində bildirmişdir:

Gədəbəy rayonu, Saratovka kəndi ərazisində hərbi xidmətdə olarkən, meşəyə odun gətirməyə getdiyi zaman ermənilər tərəfindən əsir götürülmüşdür. Əsirlikdə olduğu müddətdə Yerevan şəhərində Hərbi Polis idarəsi və Ermənistan Təhlükəsizlik Nazirliyinin istintaq təcridxanasında saxlanılmışdır. BQXK nümayəndələri mütəmadi olaraq onunla görüşmüş və saxlanılma şəraiti ilə maraqlanmışlar. Buna baxmayaraq, ermənilər ona və digər əsirlərə işgəncələr vermiş, bu barədə BQXK nümayəndələrinə heç nə deməməyi tapşırmış, əks təqdirdə, öldürəcəkləri ilə hədələmişlər. Yerevanda saxlanıldığı müddətdə ermənilər onları maraqlandıran suallara cavab vermədiyinə görə, onu naməlum yerə aparıb möhkəm döymüş, sonra soyuq havada paltarlarını soyundurub, maşın təmiri üçün istifadə edilən xəndəyə salmış və oraya su buraxmışlar. Sonra yaş bədəninə paltarlarını geyinməyə məcbur etmişlər. Həmçinin kamerada azacıq səs salanda yumruqla, dəyənəklə başlarına vururmuşlar. Eyni qaydada digər əsirləri də döyür, işgəncələr verirmişlər. Əsirlər arasından Məmmədov Ramizi daha çox döymüş, Rəhmanov Əhmədi maşının arxasına bağlayıb sürümüşlər. Ə.Rəhmanovun dizlərində hələ də işgəncə izləri qalmaqdadır. Vahan adlı bir nəzarətçi Ağcabədi rayonundan olan Rüfət Qənbərovu tez-tez döyərək işgəncələr vermişdir.

Hüseynov Şahbaz Yusif oğlu – 1966-cı ildə Azərbaycan Respublikası Ağstafa rayonunun Pirli kəndində doğulmuşdur. 1993-cü ilin avqust ayının 31-də əsir götürülmüş, 1994-cü ilin aprel ayının 28-də azad olunmuşdur. İfadəsində bildirmişdir:

Füzuli rayonunun müdafiəsi zamanı ayağından yaralanmış, hərəkət edə bilmədiyindən Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Əvvəl onu öldürmək istəmiş, lakin bir erməni hərbçi pulla dəyişəcəklərini deyərək, öldürməyə imkan verməmişdir. Sonra onu "Ural" markalı maşına mindirmiş, bu zaman Quba rayon sakini Novruzov Laçının *(sonradan əsirlikdə qətlə yetirilmişdir – tərt.)* da əsir götürüldüyünü görmüş, onu da sürüyə-sürüyə maşına mindirmişlər. Yolda onları təpik, yumruq, avtomatın qundağı ilə döymüş, yanan siqaret kötüklərini gözlərinin üstündə, üzlərində söndürmüşlər. Onları Hadrut rayonunun Edilli kəndinə aparmış və maşın qarajına salaraq, səhərədək döymüşlər. Ertəsi gün onları maşına mindirib rayon mərkəzindəki üçmərtəbəli bir binaya apararaq, erməni silahlılarının müalicəsi üçün nəzərdə tutulan məntəqənin zirzəmisinə salmışlar. 1994-cü ilin yanvar ayınadək orada qalmışlar. Bu müddətdə ayağının yarası onu çox incitmiş, heç bir tibbi yardım göstərilmədiyindən yaraya qurd düşmüşdür. Hər gün erməni hərbçiləri içəri daxil olaraq "Dur!" əmrini verir, şiddətli ağrılardan yerindən tərpənə bilmədiyinə görə döyülürmüş. Yanvar ayında təkrar Edilli kəndinə qaytarılmışdır. Sonradan onu BQXK-nın nümayəndələrindən gizlətdiklərini anlamışdır. Əsirlikdə onlara gün ərzində bir parça çörək, yarım stəkan su verir, əvəzində vəhşicəsinə döyürmüşlər. Əl-ayaqları bağlı halda üstlərinə it buraxır, itlər bədənlərini didib-parçalayır, qana bulayırdılar. Qərargahın rəisi iki gün onu həyətə çıxarıb, avtomatın qundağı və təpiklə döymüşdür. Orada 30-35 yaşlarında iki hərbçi erməni qardaşlar da varmış. Biri tabor komandiri, digəri isə onun müavini idi. Həmin qardaşlar ona müntəzəm işgəncələr vermişlər. Ülgüclə qollarını, sinəsini yarır, ülgücü yaralı ayağının ətinin içindən keçirirmişlər. Biri əlində ülgüc sol tərəfində, digəri də əlində biz sağ tərəfində duraraq, ona yırğalanmağı əmr edirmişlər. Bu zaman biri ülgüclə bədən üzvlərini kəsir, o biri də biz batırırmış. Bədənində hələ də bu işgəncələrin izləri qalmaqdadır. Orada Eldar adlı bir əsir acından ölmüş, Eldarın ölümündən 3 gün sonra daha bir yaşlı kişi də acından və soyuqdan ölmüşdür. Cəbrayıl rayon sakini, 35-40 yaşlı Fərman adlı şəxs yaralı olduğundan işləməkdən imtina etdiyinə görə, Alyoşa adlı erməni avtomatın qundağı ilə vurub çiyin sümüyünü sındırmışdı. Fərman iki-üç gün qışqıra-qışqıra gəzmiş, kömək diləmişdi. Ancaq tibbi yardım göstərilmədiyindən, üç gün sonra ölmüşdür. Edilli hərbi hissəsində əsir-girovlara işgəncə vermək üçün dəhşətli üsullar fikirləşib-tapmışlar. Alyoşa adlı baş nəzarətçi, hətta işgəncə aləti düzəltmişdi. Qəsdən ayağının yarasına vurur, küt alətlərlə döyürmüşlər. Bir dəfə BQXK nümayəndələri onları yoxlamağa gələndə, Novruzov Laçın döyülmələri barədə onlara məlumat vermişdi. Nümayəndələrin milliyyətcə erməni olan tərcüməçisi isə erməni nəzarətçilərini bu barədə xəbərdar etmişdi. Buna görə ermənilər, əsir-girovları tam bir həftə qəddarlıqla gecə-gündüz döymüşlər. BQXK-ya xəbər verdiyi üçün, komandirin siyasi işlər üzrə müavini Laçının qulağını bizlə deşmişdi. Onları döymək üçün növbələrə bölünür, işgəncələrin arasının kəsilməsinə yol vermirdilər. Bir müddət sonra Şahbaz Hüseynov Xankəndinə aparılmış, Laçın isə orada saxlanılmışdır. Xankəndində onu soyuq bir otağa salmışlar. Otaqda beş nəfər saxlanılırdı. Ermənilər hamısını möhkəm döymüş, vurub onun sağ ayağını qırmışdılar. Ertəsi gün BQXK nümayəndələri gəlmiş, ayağını sarıyıb,

onu uşaq xəstəxanasına aparmışlar. Xəstəxanada da əsir-girovları döyürmüşlər. Bir gün Xankəndi Yol İdarəsinin rəisi gəlib özü şəxsən əsir-girovların hamısını möhkəm döydü. 1994-cü il aprel ayının 28-də 10 nəfərlə birlikdə onu da əsirlikdən azad etmişlər. Əsirlikdən azad olunandan sonra BQXK nümayəndələrindən Laçının əsirlikdən qaçmaq istədiyini, buna görə ermənilər tərəfindən güllələnərək öldürüldüyünü eşitmişdir.

Hüseynov Teyyub Əli oğlu – 1981-ci ildə Azərbaycan Respublikası Tovuz rayonunun Böyük Qışlaq kəndində doğulmuşdur. 1998-ci ilin sentyabr ayının 23-dən həmin ilin oktyabr ayının 16-dək girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

Yaşadığı kəndin yaxınlığında mal-qara otararkən, 5 nəfər hərbçi tərəfindən girov götürülmüşdür. Qollarını bağlayaraq, Ermənistan Respublikası Berd rayonunun Tula kəndindəki hərbi hissənin qərargahına apararaq, Şirxan, Rüstəm və Babo adlı hərbçilər sorğu-suala tutmuş, suallara cavab vermədiyinə görə huşunu itirənədək rezin dəyənəklə, təpiklə, küt alətlərlə döymüşlər. Onu Rüstəm adlı ermənin evinin zirzəmisində 15 gün saxlamış, bu müddət ərzində gündə bir dəfə su ilə quru çörək vermişlər. Oktyabr ayının 7-də yaranmış şəraitdən istifadə edərək, gecə vaxtı Azərbaycan sərhədinə tərəf qaçmış, ancaq yenidən Ermənistan hərbçiləri tərəfindən yaxalanaraq, geri qaytarılmışdır. Qaçdığına görə onunla daha qəddarcasına davranmış, ciddi nəzarət altında saxlamağa başlamışlar. Onu közdə qızdırılmış kəsici alətlərlə qorxutmuş, bəzən də yandırmışlar. Bu cür əzab-əziyyətlərdən sonra əsir düşmüş bir erməni ilə dəyişdirilərək, girovluqdan azad edilmişdir.

Hüseynov Vidadi Qardaşxan oğlu – 1956-cı ildə Azərbaycan Respublikası Xocavənd rayonunun Qaradağlı kəndində doğulmuşdur. 1992-ci ilin fevral ayının 17-də girov götürülmüş, həmin gün qaçmağa fürsət taparaq, azad olmuşdur. İfadəsində bildirmişdir:

1992-ci il fevral ayının 17-də yaşadığı Qaradağlı kəndi erməni qəsbkarları tərəfindən işğal edilmişdir. İşğal zamanı ermənilər tarixdə görünməmiş vəhşiliklər törətmişlər. Erməni hərbçilər dinc, silahsız kənd sakinlərini girov götürmüş, əhaliyə divan tutmuşlar. Camaatın evini, əşyalarını qarət etmiş, uşaqlara, qadın və qocalara rəhm etməyərək, onlara işgəncələr vermişlər. Kənd əhalisini yük maşınlarına yığmış, bu zaman əmisi Hüseynov Şahmurad Hüseynalı oğlunu və kənd sakini Dadaşov Eldarı maşından düşürərək ağacla, armaturla və müxtəlif dəmir əşyalarla döyməyə başlamışlar. Hər iki şəxs ölümcül halda yerdə qıvrılıb qalmış, ermənilərin hirsi bununla da soyumamış, gicgahlarına tapançanı dirəyib, atəş açmış onları qətlə yetirmişlər. Bütün bunlar maşına yığılmış əhalinin gözü qarşısında baş vermişdir. Sonra onları maşınlarla Xankəndi istiqamətində aparmışlar. Yolda maşınları yenə saxlayıb, gəncləri və yaşlıları düşürmüş, heç bir sorğu-sual etmədən, avtomat və pulemyotlardan atəş açaraq onları qətlə yetirmişlər. Maşında qalan qadın, uşaq və qocalar, bu dəhşətli mənzərəni seyr etmək məcburiyyətində olmuşlar. Çünki onlara gözlərini yummağa da icazə verməmişlər. Vidadi Hüseynov gülləbaran zamanı qarışıqlıq yaranmasından istifadə edib, yaralı olmasına baxmayaraq, özünü böyürtkən kolunun arxasına atmış və gizlənə bilmişdir. Onun arxasınca avtomat və pulemyotla xeyli atəş açmış, sonra öldüyünü zənn edib, sağ qalanları maşına yığaraq Xankəndi tərəfə aparmışlar. O isə meyitlərlə qalmış, bir müddət dəhşətdən özünə gələ bilməmişdir. Sonra özünü toplayıb, getməyə başlamışdır.

Səhərə yaxın Ağdam rayonunun ermənilər tərəfindən işğal olunmamış ərazisinə gəlib çatmışdır.

Xəlilova Səkinə Həsən qızı – 1946-cı ildə Azərbaycan Respublikasının Ağdam rayonunda doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 28 fevral 1992-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1988-ci ilin may ayının ortalarında əmanət kitabçasını almaq üçün yaşadığı Xanabad *(Xanabad kəndi ermənilərin və azərbaycanlıların birgə yaşadıqları çoxsaylı yaşayış məntəqələrindən biri olmuşdur – tərt.)* kəndinin kolxoz sədrinin yanına gedən Səkinə kolxoz idarəsinin həyətində ermənilərin Xanabada bitişik olan və azərbaycanlıların yaşadığı Qılıncbat kəndindən olan 23, 20 və 15 yaşlarında üç azərbaycanlı qızı lüt soyundurduqlarını görmüş və qorxub evinə qaçmışdır. Evinin erməni həmkəndliləri zootexnik Qurgen Manqasaryan, ferma müdiri Aqas, qonşuları David, Seyran Babayan, Eqo Qaqoyan, qonşu arvad Siranuş Sarkisyan tərəfindən yandırıldığını görən Səkinə içəridə olan qızı 1975-ci il təvəllüdlü Xəlilova Könül Xəlil qızını xilas etsə də, digər övladları – 1977-ci il təvəllüdlü oğlu Xəlilov Araz Xəlil oğlu və 1971-ci il təvəllüdlü qızı Xəlilova Arzu Xəlil qızı yanıb ölmüşlər. Elə həmin gün əzab içində doğma Xanabad kəndini tərk edən Səkinə Xəlilova əvvəlcə Laçının Qovuşuq kəndinə, bir müddətdən sonra – 1990-cı ilin fevral ayında Xocalı şəhərinə köçmüşdür. Orada da rahat yaşaya bilməyən Səkinənin ailəsi 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Birləşmələrinin Xocalı şəhərinə hücumu zamanı başıaçıq, ayaqyalın, şaxtalı havada ev paltarında xilas olmaq üçün şəhəri tərk edən şəhər sakinləri ilə birlikdə girov götürülmüşdür. İki günlük girovluq zamanı ermənilərin, yaşından, cinsindən asılı olmayaraq bütün azərbaycanlı girovları döydüklərinin, işgəncələr verdiklərinin, cavan qadınları zorladıqlarının şahidi olmuşdur. Ac-susuz saxlanılan azərbaycanlılar erməni hərbçilər və silahlılar tərəfindən insan ləyaqətini alçaldan ən rəzil və ağlasığmaz hərəkətlərə, soyğunçuluğa və işgəncələrə məruz qalmışlar.

Xudatov Novruz Qarakişi oğlu – 1967-ci ildə Azərbaycan Respublikasının Kəlbəcər rayonu, Məmmədsəfi kəndində doğulmuşdur. 18 iyul 1992-ci il tarixdə girov götürülmüş, 7 noyabr 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

İdarə etdiyi "KAMAZ" markalı maşınla döyüş bölgəsinə silah apararkən, yolu yaxşı tanımadığı üçün istiqaməti itirərək, ermənilərin nəzarət etdiyi əraziyə keçmiş və erməni hərbçilər tərəfindən mühasirəyə alınmışdır. Əvvəlcə onun üstünü axtarmış, cibindən 80 manat sovet pulunu götürmüş və sonra tanımadığı bir kəndə gətirmişlər. Həmin kənddə 40-50 nəfərdən ibarət hərbçinin olduğu qərargahda onu amansızcasına döymüş, sonra döyə-döyə yüksəklikdə yerləşən posta aparmışlar. Orada onu ağaca sarımış və xeyli işgəncə vermişlər. Avtomat silahla atəş açaraq sol qolundan yaralamış, sonra qızdırılmış şişlə kürəyinə xaç şəkilli damğa vurmuşlar. Bir gün saxladıqdan sonra gözləri bağlı vəziyyətdə "Vilis" markalı maşınla "Vəhdə" adlanan əraziyə aparılan Novruz ermənilər tərəfindən amansız və qəddar rəftarla üzləşmişdir. Erməni hərbçilər onu avtomatın qundağı ilə döymüş, başını partlatdıqdan sonra yaralı vəziyyətdə qaraja salmışlar. Qarajda 3-4 saat saxladıqdan sonra Levon adlı erməni hərbçi onu 26 fevral 1992-ci ildə Ermənistan Silahlı Birləşmələri tərəfindən işğal edilmiş Xocalı şəhərində qeydiyyatda

olan 52-17 dövlət nömrə nişanlı, göy rəngli "VAZ-2101" markalı maşına mindirib evinə aparmışdır. Orada Novruzu evin zirzəmisinə salan Levon və qardaşı Aşot müntəzəm olaraq onu döyüb işgəncələr vermiş, sinəsinə xaç şəkilli damğa vurmuş, alçaltmışlar. Novruz Xudatov 7 noyabr 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

İbadov Natiq Manaf oğlu – 1977-ci ildə Azərbaycan Respublikası Ağdam rayonu, Şelli kəndində doğulmuşdur. 8 fevral 1992-ci ildə girov götürülmüş, həmin ilin 15 fevral tarixində azad olunmuşdur. İfadəsində bildirmişdir:

1992-ci il fevral ayının 8-də qardaşı Niyaməddin və həmkəndliləri Qəzənfərov Xuduşla birlikdə Ağdam rayonunun Şelli kəndi ərazisində qoyun otardığı zaman Ermənistan hərbçiləri atəş açaraq, onları mühasirəyə almış və girov götürmüşlər. Girovları avtomatın qundağı ilə döyə-döyə Naxçıvanlı kəndinə aparmış, oradakı hərbi qərargahda yenidən möhkəm döymüşlər. Oradan isə Əsgərana apararaq, zirzəmiyə salmış və bir daha amansızcasına döymüşlər. Ertəsi gün Xocavənd rayonunun işğal olunmuş Qaradağlı kəndindən girov götürülmüş 10 nəfər azərbaycanlı qadınla 7 nəfər kişini də döyə-döyə onların yanına gətirmişlər. Natiq onlardan Quliyeva Sədaqət İmran qızını, Sultanov Murad Atlıxan oğlunu, Gülxanımı, Gültəkini, Zümrüdü, Zahidi və adları Əntiqə olan iki qadını xatırlayır. Əsgəranda girovları tez-tez avtomat qundağı, rezin və dəmir dəyənəklərlə möhkəm döyən ermənilərdən Qaçay, Elbrus və Edikin adlarını xatırlayan Natiqin sözlərinə görə, onların əksəriyyəti Yerevandan gəlmişdilər. Ermənilər Xocavənd rayonu, Qaradağlı kənd sakini 60-65 yaşlı Mobili öldürüb, çəpərin dibinə atmış, meyit iki gün çəpərin dibində qaldıqdan sonra onu quyuya tullamışlar. O, orada qətl edilmiş çox sayda azərbaycanlının meyitlərini görmüşdür. Ermənilər meyitlərin hamısını sonradan quyuya atmışlar. Ermənilər Qaradağlı kənd sakini olan bir azərbaycanlı gənc qızı *(adı məlumdur – tərt.)* öz otaqlarına aparıb, ona işgəncələr vermiş, söymüş, döymüş və zorlamışlar. Mütəmadi olaraq bu tip işgəncələrə məruz qalan qızın danışmağa belə halı yox imiş. Ermənilər orada saxlanılan 5-6 nəfər yaşlı azərbaycanlı qadını lüt soyundurub, soyuducunun içinə salmış, bir neçə saat saxladıqdan sonra onları yenidən kameraya gətirmişlər. Hansısa məhlulu iynə ilə Natiqin qoluna vurmuşlar. Bir neçə gün qolu bərk qaşınan Natiq özünü pis hiss etmişdir. Bir dəfə isə erməni əsgərlər Natiqin burnunu kəsmək istərkən, qardaşı Niyaməddin özünü qabağa verərək, buna imkan verməməyə çalışmışdır. Buna görə Niyaməddinin öz burnunu kəsəcəklərini bildirərək gülüşmüşlər. Sonra isə snayperçi Gülya Niyaməddinin qollarını tutmuş, Yurik isə bıçaqla onun burnundan bir az kəsmişdir. Ancaq Yurik "Onun qolunu kəsək ki, böyüyəndə əli silah tutmasın", – deyərək, 12 yaşlı Niyaməddinin sol qolunu da kəsərək, yaralamışdır. Bir müddətdən sonra Natiq və Niyaməddin İbadov qardaşlarını əsir-girovların alveri ilə məşğul olan Vitalik adlı erməni Ağdam rayon qəbiristanlığının yaxınlığına gətirmiş, ataları Manafdan 60 min rus rublu alaraq azad etmişdir.

İbadov Niyaməddin Manaf oğlu – 1980-cı ildə Azərbaycan Respublikası Ağdam rayonunun Şelli kəndində doğulmuşdur. 8 fevral 1992-ci ildə girov götürülmüş, həmin ilin 15 fevral tarixində azad olunmuşdur. İfadəsində bildirmişdir:

1992-ci il fevralın 8-də qardaşı İbadov Natiq və həmkəndliləri Qəzənfərov Xuduş kişi ilə birlikdə yaşadıqları Şelli kəndi ərazisində mal-qara otararkən, 20-30 nəfərdən

ibarət erməni terrorçu-quldur dəstəsi tərəfindən girov götürülmüş və Əsgəran rayonunun Naxçıvanlı kəndinə aparılmışlar. Azərbaycanlı girovlar ətrafda çoxlu mağazalar olan küçə ilə aparılarkən, erməni qadınları girovların üstünə hücum edərək saçlarını yolmuş, təpik, yumruq və küt alətlərlə döymüşlər. Fermaya bənzər bir yerdə saxlanılan azərbaycanlı girovları ermənilər mütəmadi olaraq yumruq, təpik və avtomat qundağı ilə döymüş, 4-5 gündən sonra Əsgəran şəhərinə aparmışlar. Yolda ermənilər maşını saxlayaraq, girovları yerə düşürmüşlər. Özləri bulaqdan su içmiş, Niyaməddini isə itələyib soyuq suya salmış, sonra onları yenidən maşına mindirərək, yaxınlığında stadion olan həbsxanaya oxşar beşmərtəbəli binanın zirzəmisinə salmışlar. Hərbçi və milislərlə dolu olan bu zirzəmidə onları iki saat eyni kamerada saxladıqdan sonra Natiq və Niyaməddin qardaşlarını Xocavənd rayonunun Qaradağlı kəndində girov götürdükləri 12-13 nəfər qadının saxlandığı digər kameraya keçirmişlər. Niyaməddin onlardan 38-40 yaşlı Quliyeva Sədaqət İmran qızını və adları Əntiqə olan 50 yaşlarında iki qadını xatırlayır. Sədaqət Niyaməddinə həyat yoldaşı ilə birlikdə Xocavənd meşəsində gedərkən, ermənilər tərəfindən tutulduqlarını, həyat yoldaşını öldürdüklərini, onu isə girov götürdüklərini bildirmişdir. Əntiqə adlı qadınlardan biri isə ermənilərin Xocavənd rayonunun Qaradağlı kəndini işğal etdikləri zaman onun gözləri qarşısında oğlunun başını kəsdiklərini, sonra isə ayaqlarından asaraq şaqqalayıb doğradıqlarını, həyat yoldaşını da qətlə yetirdiklərini danışmışdır. Əntiqə gecələr öz-özünə danışır, "İlqar, gəl", – deyə sayıqlayır və ağlayırmış. Niyaməddin kameranın nəfəsliyindən baxarkən, girov saxlanıldığı yerin həyətində çoxlu girov qadın görmüşdür. Qardaşı ilə birlikdə qadın kamerasında saxlandıqdan bir müddət sonra onları başqa kameraya keçirmişlər. Orada ermənilər onları mütəmadi olaraq kameradan bayıra çıxarıb təpik, yumruq və avtomatın qundağı ilə döymüşlər. Snayper qadın Gülya, hərbi geyimli Yurik və leytenant rütbəli Edik, əsir-girovları kəmərlə döyürmüşlər. Əsgərandakı beşmərtəbəli binada saxlandıqları müddətdə bir dəfə ermənilər əsir-girovların hamısını bir otağa salmış, erməni həkim isə müalicə etmək bəhanəsi ilə hansısa məhlulu iynə ilə onların qoluna vurmuşdur. Vurulan bu iynə əsir-girovların hamısına pis təsir etmiş, Niyaməddin huşunu itirərək yıxılmışdır. Bir dəfə isə Vitalik adlı erməni "A" vitamini adlandırdığı həbi əsir-girovlara verib udmağı əmr etmiş, onlar bundan imtina etdikdə, Gülya adlı erməni qadın hamısının burun-qulaqlarını kəsəcəyi ilə hədələyərək, dərmanı içməyə məcbur etmişdir. İçdiyi dərmanın təsirindən gözləri qaralan Niyaməddinin xeyli vaxt başı əsmişdir. Burada Xocavənd rayonu, Qaradağlı kəndindən olan İlqar, Murad və Zakirin də saxlandığının şahidi olan Niyaməddin İlqarın işgəncələr nəticəsində qırılmış qolunun sallandığını, ermənilərin isə onun sınıq qolunu o tərəf-bu tərəfə fırladaraq, işgəncə verdiklərini xatırlayır. Ermənilər Zakirin sifətinin sağ tərəfində iti alətlə xaç şəkli çəkmiş, kürəyindən güllə yarası almış Muradın isə qızıl dişlərini kəlbətinlə çıxarmışlar. Niyaməddin burada adını bilmədiyi daha 7-8 nəfər girovun da saxlanıldığını görmüşdür. Yurik adlı erməni II dünya müharibəsinin əlili olan yaşlı girov kişinin əsasını əlindən alıb onu döyərək yerə yıxmış, Qəzənfərov Xuduşu isə yerə yıxıb, ağzına qum tökmüşdür. Niyaməddin ermənilərin öldürdükləri azərbaycanlıların meyitlərini binanın sol tərəfində qazılmış kanalizasiya quyusuna atdıqlarını görmüşdür. O, gecə yarısı ayaqyoluna aparılarkən, quyunun qırağına kişi meyitlərinin atıldığının şahidi olmuş, həmin gecə yenidən kameranın pəncərəsindən baxarkən, quyunun kənarına daha 4-5 meyitin gətirildiyini,

ermənilərin kranla beton blok qaldıraraq, cəsədləri həmin kanalizasiya quyusuna tökdüklərini görmüşdür. Axşamlar erməni hərbçiləri bir qızı öz otaqlarına aparır, bəzən 1-2 saatdan sonra, bəzən isə səhərlər kameraya lüt qaytarırdılar. Bundan sonra qız özündən gedir, su içməyə, hətta danışmağa belə halı olmurmuş. Niyaməddini və qardaşı Natiqi 1992-ci il fevralın 15-də əsir-girovların alveri ilə məşğul olan Vitalik adlı erməni Ağdam rayon qəbiristanlığının yaxınlığına gətirmiş, ataları Manafdan 60 min rus rublu alaraq azad etmişdir.

İbrahimov Aydın Ələddin oğlu – 1973-cü ildə Azərbaycan Respublikası Bərdə şəhərində doğulmuşdur. 16 iyun 1993-cü il tarixdə əsir götürülmüş, 23 avqust 1993-cü il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Könüllü olaraq 1992-ci ildə Ermənistan Silahlı Birləşmələrinin Azərbaycan torpaqlarının işğalına qarşı mübarizəyə qoşularaq, Vətənin müdafiəsinə yollanmışdır. 16 iyun 1993-cü il tarixdə döyüş vaxtı, Ağdam ərazisində 7 nəfər döyüş yoldaşı ilə birlikdə ermənilərin mühasirəsinə düşmüşlər. Atışma zamanı silahdaşlarından biri həlak olmuş, döyüş yoldaşı, Bərdə rayon sakini Kamil ələ düşməmək üçün özünü öldürmüşdür. Döyüş zamanı yaralanan A.İbrahimov digər döyüş yoldaşları – Şəki rayon sakinləri Əsədov Rizvan İsfəndiyar oğlu, Musayev İdris Göyərçin oğlu, Şəmkir rayon sakini İsmayılov Yunis Suca oğlu və Əli Bayramlı şəhər sakini Abdullayev Rövşən Əbdülrəhman oğlu ilə birlikdə əsir düşmüşdür. Əsir düşdükləri andan A.İbrahimov və döyüş yoldaşları, hərbi və mülki geyimli ermənilər tərəfindən dərhal yumruq, təpik, həmçinin avtomatın qundağı ilə amansızcasına döyülmüş, əlləri bağlanılaraq, "KAMAZ" markalı maşınla işğal edilmiş Şuşa şəhərində yerləşən köhnə turist bazasına aparılmış və zirzəmiyə salınmışlar. İki gündən sonra oraya əlavə əsir və girovlar da gətirilmiş və nəticədə onlar 14 nəfər olmuşlar. Onlardan Gəncə şəhər sakinləri Süleymanov Yalçın Vaqif oğlunu, Məcidov Samir Hacı oğlunu və Bayramov Faiq Səlim oğlunu xatırlayan Aydın erməni hərbçilərinin əsir-girovları müntəzəm olaraq müxtəlif küt alətlərlə vəhşicəsinə döydüklərini və qul kimi, dayanmadan işlətdiklərini bildirir. Bu zaman ermənilər qocalara, xəstələrə, uşaq və qadınlara da eyni qəddar münasibəti göstərmişlər. Yaralı olmasına baxmayaraq, Aydın da müntəzəm olaraq döyülmüş, təhqir edilmiş, işgəncələrə məruz qalmış və ağır beton daşımağa məcbur edilmişdir. Ermənilər Yalçın Süleymanovun ağzından bütün dişlərini çıxarmış, bununla da hirsləri soyumadığından, atəş açaraq onun qulağını aypara şəklinə salmışlar. Təxminən 18-20 gündən sonra Yunislə Aydını işlətmək məqsədi ilə işğal etdikləri Xankəndi şəhərinə, tanımadıqları bir yerə gətirmişlər. Orada onları amansızcasına döyə-döyə işlətmiş, soyuq, nəm və beton döşəmə üstündə saxlamışlar. 20-25 gündən sonra onları yenidən Şuşaya qaytarmış, lakin bu dəfə cəhənnəmin tam ortasında – Şuşa həbsxanasında yerləşdirmişlər. Burada əsirlərin heç bir səbəb olmadan, sorğu-sualsız təpik, yumruq və küt alətlərlə döyülməsi adi hal idi. Sumqayıt şəhərindən olan bir azərbaycanlının erməni nəzarətçilər tərəfindən xüsusi amansızlıqla, qəddarcasına döyüldüyünü bildirən Aydın İbrahimov 1993-cü il avqustun 18-də həmin sumqayıtlı ilə birlikdə maşına mindirilərək, Ağdama aparılmış və tanımadıqları yerdəki binaya salınmışlar. Binada saxlanılan çoxlu sayda azərbaycanlı əsir-girovların arasında xeyli qoca kişi, həmçinin qadın girovlar da olmuşdur. Şuşada olduğu kimi, burada da ermənilər əsir-girovlara qarşı amansız və qəddar münasibət

nümayiş etdirmişlər. Ermənilər əsir və girovlara işgəncələr vermiş, onları zorlamış və bir-birlərini döyməyə, zorlamağa təhrik etmişlər. Məsələn, Yusif adlı girov 40-45 yaşlı girov qadını zorlamağa təhrik edilmişdir. A.İbrahimov 1993-cü il avqustun 23-də 39 əsir-girovla birlikdə azad edilmişdir.

İbrahimov Eldəniz Paşa oğlu – 1975-ci ildə Qəbələ rayonu, Yemişanlı kəndində doğulmuşdur. 12 yanvar 1994-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1994-cü il yanvar ayının 12-də Füzuli rayonunun müdafiəsi zamanı gedən döyüşlərdə əsgər yoldaşı Nəsibov Umar Nəsib oğlu ilə birlikdə əsir götürülmüşdür. Ermənilər onları əsir götürən anda möhkəm döydüklərindən, Eldəniz huşunu itirmiş və özünə gələndə Umarla birlikdə Xocavənd rayonunda olduğunu, üst geyimlərinin soyundurulduğunu və yalnız alt paltarda qaldıqlarını görmüşdür. Həmçinin ayaqyalın qarın içində saxlanılan əsirlərin əllərini ermənilər dəmir barmaqlıqlara bağlamışdılar. Burada hərbi geyimdə olan, təxminən 24-25 yaşlı əli avtomatlı bir erməni qız onları təpiklə amansızcasına döymüşdür. Eldəniz onları döyərkən, həmin erməni qızın sifətindəki nifrət hissindən onu bir qadından daha çox vəhşi heyvana oxşatdığını xatırlayır. Sonra onları Həsənov İlham Ümid oğlunun saxlandığı kameraya, oradan isə işğal altında olan Xocavənd rayonunun ərazisində yerləşən tanımadıqları bir yerə tütün daşımağa aparmışlar. Orada işlədildikləri zaman ermənilər araq içərək, şişləri közün üstündə qızdıraraq, Eldənizin İlhamın və Umarın qollarına, sinələrinə xaç şəklində damğa vurmuşlar. Ermənilər ənənəvi "Qarabağ kimindir?" sualına "Azərbaycanındır" cavabı verdiyinə görə Eldənizi döymüş və torpaq yeməyə məcbur etmişlər. E.İbrahimov onlarla bir yerdə əsirlikdə saxlanılan Atillanın zəncirlə it damında bağlandığının, Cəbrayıl rayonundan olan Azər və Aqşinin də itlə yanaşı bağlandıqlarının şahidi olmuşdur. Xocavənd rayonunda saxlanıldıqları 5 gün ərzində əsirlər hər gün ermənilər tərəfindən müxtəlif alətlərlə vəhşicəsinə döyülmüşlər. Döyənlər həm mülki, həm də hərbi geyimli şəxslər olmuşlar. Beş gündən sonra onların üçünü də Xocavənd rayonunda saxlanan 15-ə yaxın əsirlə birlikdə Şuşa həbsxanasına aparmışlar. Orada 8 nəfər erməni hərbçi gətirilən əsir-girovları sıraya düzüb, rezin dəyənəklə vəhşicəsinə döymüşlər. Döyülmə, işgəncələrin və zorakılığın adi hal olduğu Şuşa həbsxanasında ermənilər beyləqanlı İlqarı, Füzuli rayonundan İlhamı və digər bir neçə əsiri döyə-döyə öldürmüşdülər. Əsir-girovları armatur, qalın naqil və rezin dəyənəklə vurur, su şüşələrini başlarında sındırırmışlar. Eldənizin əl dırnaqlarını kəlbətinlə dartıb çıxararaq, ona işgəncə vermişlər. Aydın İbrahimovun burnunu qırmış, qulağını kəsmişlər. Eldəniz Şuşa həbsxanasında əsir və girovlara işgəncə verən nəzarətçilərdən Qor, Havo, balaca Jirik, böyük Jirik, Nercan, Yura və Con adlı ermәniləri xatırlayır. Con orada saxlanılan iki gənc əsiri zorlamışdı. Albert Voskanyan adlı *(müharibə dövründə erməni tərəfindən əsir və girovların "dəyişdirilməsi" ilə məşğul olmuşdur – tərt.)* erməni isə girov saxlanılan qadınların böyük əksəriyyətini zorlamış, əsir-girovları nəzarətçilərə döydürmüşdür. Qor adlı erməni əsirləri işləməyə apararkən onları bir-bir irəli çıxararaq, başlarına su şüşəsi qoyub avtomatla nişan alaraq atır, əylənirmiş. Bu zaman güllə Füzuli rayonundan olan bir əsirin başını 3-4 yerdən sıyırıb keçmişdir. Əsir-girovlar yavaş işləyəndə ermənilər onları vəhşicəsinə döyür, qarlı, soyuq havalarda ayaqyalın vəziyyətdə Şuşa həbsxanasının

həyətini süpürməyə məcbur edirmişlər. Erməni nəzarətçilər həbsxanada saxlanılan əsirlərin hər birinə gün ərzində rezin dəyənəklə 40 dəfə vurmağı bir qayda olaraq qəbul etmişdilər. Əsir-girovlar kameralarına getmək və ya həyətə çıxmaq üçün, hərəsinin əlində rezin dəyənək olan 2 erməni nəzarətçinin durduğu 4 qapıdan keçməli idilər. Hər qapıdan keçəndə, ermənilərin hərəsi onlara 5-6 dəyənək vururmuş. Eldənizin döyülməkdən çiyinləri şişsə də, ermənilər buna məhəl qoymayaraq, onu digər əsirlərlə birlikdə işləmək üçün Mısmına kəndinə aparmışlar. Ermənilərin əsir və girovlara təcavüz etdikləri, həmçinin bir-birlərini zorlamağa məcbur etdikləri Şuşa həbsxanasının azərbaycanlılar üçün bir cəhənnəm olduğunu söyləyən Eldəniz İbrahimov 1996-cı il may ayının 10-da əsirlikdən azad edilmişdir.

İbrahimov İlqar Aslan oğlu – 1966-cı ildə Lənkəran rayonu, Mamusta kəndində doğulmuşdur. 2 noyabr 1991-ci il tarixdə əsir götürülmüş, 10 noyabr 1991-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

İlqar İbrahimovun xidmət etdiyi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Xüsusi təyinatlı milis dəstəsinin müvafiq bölüyü qanunsuz erməni silahlı dəstələri ilə mübarizə aparmaq və yerli əhalini onlardan müdafiə etmək məqsədi ilə Füzuli rayonuna ezam olunmuşdu. Həmin vaxt Azərbaycan Respublikası hələ SSRİ-nin tərkibində idi. Vəziyyət elə gətirmişdi ki, İlqar İbrahimov və onun iş yoldaşı Mahir Qadaşov Mehman adlı yerli sakinin evində gecələməli olmuşlar. Gecə saatlarında qəflətən evə doluşan erməni terrorçu-quldur dəstəsi İlqarı və Mahiri tərksilah etmiş, ev sakini Mehmanı da onlara qoşaraq əllərini və ağızlarını bağlayıb, meşədəki düşərgələrinə aparmışlar. Səhər açılana kimi erməni silahlıları əsir götürdükləri azərbaycanlıları döyərək işgəncələr vermişlər. Onlar çəkdikləri siqaretləri yalnız əsirlərin əllərində söndürürmüşlər. İlqarı, Mahiri və Mehmanı ayaqlarından başı aşağı vəziyyətdə ağacdan asan ermənilər onları hər gün 5-6 saat bu vəziyyətdə döymüş və işgəncələr vermişlər. Onlardan idmanın boks növündəki məşq üçün kisə kimi istifadə etmiş və zərbələrin haradan dəyməsinin fərqində olmamışlar. Erməni silahlılarının məqsədi onları öldürmək deyil, qanunsuz quldur dəstəsi üzvlərinin Azərbaycan milisi tərəfindən saxlanacağı halda, əsirlərdən istifadə etməklə hökumət orqanlarını cinayətkar dəstə üzvlərini buraxmağa məcbur etməkdən ibarət imiş. Odur ki, erməni silahlıları azərbaycanlıları şikəst etmək məqsədi ilə yoğun ağac zopalardan, dəmir barmaqlıqlardan istifadə etməklə onların diz qapaqlarına və böyrək nahiyələrinə dəhşətli zərbələr vurmuşlar. İlqar və Mahir milis işçiləri olduqları üçün, ermənilər onların əsirlikdə keçən günlərini bıçaqla əllərində və ovuclarında qeyd etmişlər. Birinci gün 1 rəqəmini bıçaqla kəsib yazdıqdan sonra kəsiyin əmələ gətirdiyi yaranın üstünə duz səpmişlər. 10 noyabr 1991-ci il tarixdə İlqar, Mahir və Mehman erməni cinayətkar dəstəsinin Azərbaycan milisi tərəfindən saxlanılmış 3 üzvü ilə dəyişdirilərək azad olunmuşlar. Mahir Qadaşov verilən işgəncələr nəticəsində azad edildikdən az sonra vəfat etmişdir.

İmanov Böyükkişi Ağalar oğlu – 1944-ci ildə Azərbaycan Respublikası İmişli rayonu, Xəlifəli kəndində doğulmuşdur. 20 iyun 1991-ci il tarixdə ermənilər tərəfindən girov götürülmüş, 14 avqust 1991-ci il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

O, həmkəndlisi Qasımov Gülnəzər Abuzər oğlu ilə birlikdə Laçın rayonu ərazisində yerləşən ərazidə mal-qara otardığı zaman ermənilərin milis və mülki silahlı şəxslərdən ibarət quldur dəstəsi onlara hücum etmiş, atəş açaraq Qasımov Gülnəzəri yaralamış və hər ikisini girov götürmüşlər. Dişlərinin qızıl olub-olmadığını yoxladıqdan sonra "Qızıl olsaydı, dartıb çıxaracaqdıq", – demiş və girovların pullarını əllərindən almışlar. Sonra artıq yaralı olan Gülnəzər Qasımovu başından güllə ilə vurub öldürmüş, B.İmanovu isə dağın o biri tərəfinə aparmışlar. Orada xeyli milis və "UAZ" markalı maşın olmuşdur. Erməni silahlıları buradan "Alazan" tipli raketlərlə azərbaycanlılara məxsus fermaları atəşə tutmuşlar. Sonra Böyükkişini "UAZ" markalı maşına mindirərək əvvəl posta, sonra isə Ermənistanın Sisian rayonunun Milis şöbəsinə apararaq, döşəməsi beton olan kameraya salmışlar. Orada adlarını bilmədiyi 2 milis işçisi onu müntəzəm olaraq döymüş, dişlərini qırmış, qaynaq çubuğu (elektrod) ilə ayaqlarına, burnuna vurmuşlar. Nəticədə Böyükkişinin ayaqları şişmiş, barmaqlarının dırnaq mayası tökülmüşdür. Təpik, ağac və rezin dəyənəklə döydükləri azərbaycanlı girovu 4 gün ərzində susuz saxlamış, yeməyə isə yalnız 2-3 gündən bir azacıq quru çörək vermişlər. 15 gündən sonra ermənilər onu "Niva" markalı maşına mindirib, Yerevandakı beşmərtəbəli Milis idarəsinə gətirmişlər. Növbətçi otağına daxil olan 3 hərbçi israrla "Ver, bunun başını kəsək", – dedikdə, növbətçi: "Bunu nazir gətizdirib", – cavabını verərək, onları otaqdan çıxarmışdır. Növbətçinin yanında saxlanılan Böyükkişinin azərbaycanlı olduğunu öyrənən xadimə qadın əlindəki süpürgəni onun başına vurmuş, sonra içəri daxil olan mülki geyimli şəxs və milislər yanar siqareti onun qulağına və dodağına basmışlar. Az sonra onu yüksək vəzifəli milis işçisinin otağına aparmışlar. Həmin şəxs B.İmanova xüsusi təyinatlıların onu İcevan rayonuna aparacaqlarını və Gəncə şəhərində saxlanılan 5 zabitlə dəyişəcəklərini, dəyişmə baş tutmayacağı təqdirdə, orada ölüb qalacağını bildirmişdir. Ertəsi gün 5 hərbi geyimli şəxs Böyükkişini İcevan Milis idarəsinə aparmışlar. Həmin vaxt İcevan milisinin rəisi Ermənistan Ali Sovetinin deputatı, təxminən 1950-ci il təvəllüdlü Əmirxanyan olmuşdur. O da digər həmkarı kimi, Böyükkişini öz hərbçiləri və 2 nəfər erməni milis işçisi ilə dəyişdirməyi planlaşdırdıqlarını söyləmişdir. İcevan milisində saxlanan zaman adını bilmədiyi nəzarətçi Böyükkişiyə "Burada bir azərbaycanlı qız var, 3 aydır onu saxlayırlar", – demişdi. Sonralar kameranın nəfəsliyindən baxan B.İmanov dəhlizdə həmin qızı görmüş və bir müddət sonra onunla söhbət etmişdir. Söhbət əsnasında qız adını və Gəncə şəhərində yaşadığını, meşədə moruq yığarkən ermənilərin oraya hücum etməsi xəbərini eşitdiyini və camaat arasına düşən çaxnaşmadan sonra yoldaşlarından ayrı düşərək, ermənilər tərəfindən girov götürüldüyünü söyləmişdir. İcevan milisində saxlanıldığı zaman Kəlbəcər rayon sakini, Əli və ya Əhməd adlı cavan oğlanı da B.İmanovun yanına salmışlar. Həmin oğlan 3 aydır ki, İcevan milisində saxlandığını, ermənilərin onu işgəncələrə məruz qoyduqlarını, yeməyinə dərman qataraq, döyə-döyə yedizdirdiklərini danışmışdır. 1991-ci ilin avqust ayının 14-də, gecə saat 23:00 radələrində yuxarıda qeyd olunan 3 nəfər azərbaycanlı girov 5 erməni silahlısına dəyişdirilmişlər. Kəlbəcərli oğlan dərhal Tovuz rayon xəstəxanasına yerləşdirilmişdir. Böyükkişinin çəkisinin girovluqda 92 kq-dan 54 kq-a qədər azaldığı müəyyən olunmuşdur.

İsgəndərov İlham Əfrail oğlu – 1977-ci ildə Özbəkistan Respublikasında anadan olmuş, 1989-cu ildə ailəsi ilə birlikdə Azərbaycan Respublikasına köçmüş, 1990-cı ildə Xocalı şəhərində məskunlaşmışdır. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 3 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Erməni tankları, artilleriyası və digər texnikaları tərəfindən atəşə məruz qalan Xocalı şəhərinin əhalisi həmişə zirzəmilərə girərək, atəşdən qorunmağa çalışmışlar. Bu səbəbdən artıq neçə ay idi ki, uşaqlar zirzəmidə oynamağa məcbur olur, orada da böyüyürdülər. 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə təxminən saat 23:00 radələrində ermənilər Xocalıya hücum etdikdə, atəşdən qorunmaq üçün əhalinin bir qismi yenə də evlərin zirzəmisinə yığışmışdılar. Səhərə yaxın İlhamın gizləndiyi zirzəminin qapısı döyülmüş və o, qapını açanda şəhər sakini, tanışı Mürsəli görmüşdür. Mürsəl "Ermənilər Xocalını işğal etmişlər və buradadırlar. Üstünüzdəki silahları yerə atın və bayıra çıxın", – demişdir. İlham zirzəmidən çıxarkən, yuxarıda duran erməni avtomatın qayışını onun boynuna salaraq dartmışdır. Ermənilər camaatı zirzəmidən çıxarıb apararkən, yaxınlıqdakı evin içində adını bilmədiyi, yataq xəstəsi olan, ayaqları tutulmuş 60-70 yaşlı qadının yandırıldığını görmüşlər. Ona kömək etmək istəyən Mürsəlin oğlunu ermənilər güllələmiş, girovlara "Geri qalanı güllələyəcəyik", – deyərək, taxıl sahəsinin içi ilə 1 km-ə qədər qaçmağa məcbur etmişlər. Sonra dayanmağı əmr edərək, qadınları yük avtomaşınına mindirmiş, kişiləri isə maşının arxasınca qaçmağa məcbur etmişlər. Xeyli qaçırdıqdan sonra avtomaşını yenidən saxlamış, qadın, uşaq və qocaları ayırıb, üstlərindəki zinət əşyalarını əllərindən alaraq qarət etmişlər. Kişiləri amansızcasına döymüş, təxminən 76 nəfərə qədər girovu maşınlara yığaraq, Xankəndi şəhərinin avtovağzalına gətirmişlər. İlhamın anası Məhbubə, bacıları Şahsənəm və Kamilə, qardaşı Telman, 6 aylıq körpə qardaşı Nəriman da girovların içində olmuşlar. Avtovağzalda onları maşından düşürən kimi möhkəm bədənli, 35-40 yaşlı saqqallı erməni girovları döymüş, sonra balacaboylu 35-40 yaşlı Janna adlı qadın onları biri-birindən ayıraraq döşəməsi beton olan otaqlara salmışdır. Daha sonra oraya gələn saqqallı ermənilər girovları amansızcasına döymüşlər. Tanımadığı bir azərbaycanlı kişinin böyrünü bıçaqla yaralayan ermənilər İlhamın burnunu sındırmış və o, huşunu itirmişdir. Gözlərini açdıqda o, özünü maşında, erməni meyiti olan tabutun yanında görmüşdür. Ermənilər meyiti ona göstərib "Bunu sən öldürmüsən", – deyərək döymüş, sonra meşə ilə aparıb, 20-25 nəfər erməni yaraqlısının cəmləşdiyi yataqxanaya bənzər binaya salmış və yenidən möhkəm döymüşlər. Səhər ermənilər ona 2 ədəd çantaya bənzər qutu verib qayanın üstünə çıxmağı əmr etmişlər. Qayaya çıxmaq istərkən yer buz olduğundan bir neçə dəfə sürüşərək yıxılsa da, ermənilər "Mütləq çıxmalısan", – deyərək, rezin dəyənəklə onu döymüş və yükü oraya qaldırmağı əmr etmişlər. Bir neçə dəfə sürüşüb yıxıldıqdan və bu səbəbdən döyüldükdən sonra o, yükü qayanın üstünə çıxarmağa müvəffəq olmuşdur. Sonra erməni hərbçiləri İlhamın əllərini və ayaqlarını bağlayıb ağ rəngli "Niva" markalı maşının yük yerinə atmışlar. Bir qədər meşə ilə yol getdikdən sonra maşını helikopterin içinə salmışlar. Helikopter havaya qalxsa da, tez də enmişdir. Ermənilər İlhamı yük yerindən düşürüb "Düş, səni dəyişmək göstərişi verilib. Yoxsa səni Yerevana aparırdıq", – demişlər. Bu zaman ətrafdakı evlərdən mülki geyimli ermənilər azərbaycanlı girovun üstünə hücum edərək, onu öldürmək istəmişlər. Qəflətən kənarda duran saqqallı erməni pulemyotdan havaya atəş açaraq onları qovmuş, İlhamı isə təpikləmiş və boynundan tutaraq sürüyə-sürüyə "KAMAZ" markalı maşına tərəf aparmışdır. O bıçağı İlhamın boğazına dirəyərək, ağzını açmağı tələb etmişdir. Buna əməl etmədiyindən saqqallı erməni hərbçi yanar siqareti onun dodağına basmış və kötüyünü yeməyə məcbur etmişdir. Sonra "KAMAZ" markalı maşına atıb yaxınlıqdakı köhnə kolxoz

evlərinə bənzər binaya apararaq, oranı təmizləməyi tapşırmışdır. Orada olan digər bir saqqallı silahlı erməni bıçaqla İlhamın qulağını kəsmək istəsə də, nədənsə fikrindən daşınmış və ona bir neçə zərbə vurmuşdur. Sonra həmin erməni İlhamı "KAMAZ" markalı maşına atıb Noraguh kəndinə aparmış və anbar kimi istifadə etdikləri məktəb binasına salmışdır. Burada 15 yaşlı girovun bir əlini qandalla çarpayıya bağlayan erməni silahlılar onun atasının zabit olub-olmadığı ilə maraqlanmışlar. Atasının zabit olmadığını bildirəndən sonra da onu təpik və yumruqla möhkəm döymüşlər. Noraguh məktəb binasında saxlanılan zaman İlham ermənilərdən orada iki azərbaycanlı qızın saxlandığını eşitmişdir. 2 saat Noraguhda saxladıqdan sonra onu maşına mindirərkən, erməni yaraqlılarının yatdığı otaqda təxminən 16-17 və 21-22 yaşlarında iki qızın olduğunu görsə də, uzaqda olduğundan onların kimliyini müəyyənləşdirə bilməmişdir. Ermənilər maşını Xocalıda yolboyu səpələnmiş meyitlərin üzərindən sürür və cəsədləri İlhama göstərərək, azərbaycanlıları yaxşıca qırdıqları ilə öyünürdülər. İlhamı yenidən Xankəndi avtovağzalına gətirən ermənilər onu içərisində 50-55 yaşlarında iki qadın, 18 yaşında qız, qolunun oynaq hissəsində güllə yarası olan 5-6 yaşında oğlan uşağı və 35 yaşlarında kişinin saxlanıldığı köhnə, sınıq-salxaq avtobusun içinə salmışlar. Avtobusda ata-anası ermənilər tərəfindən öldürülmüş, bələkdə bir körpə də olmuşdur. İlham avtobusdakılardan Əhməd adlı Xocalı şəhər sakininin ermənilər tərəfindən başının kəsildiyini eşitmişdir. Səhər tezdən ermənilər girovların hamısını dəyişmək adı ilə harasa aparmış, İlhamı isə orada saxlamışlar. Ertəsi gün onu Əsgəran milisinə aparıb, kameraya salmışlar. Digər kameralardan müxtəlif işgəncələrə məruz qalan azərbaycanlıların səsini eşitsə də, yeniyetmə girov onların kimliyini öyrənə bilməmişdir. Təxminən 30 dəqiqədən sonra onu kameradan çıxaran erməni silahlıları maşına mindirərək Əsgəran-Ağdam körpüsünə aparmış və əvvəlcədən oraya gətirdikləri, təxminən 45-47 yaşında 2 qadın və 16-17 yaşında 2 yeniyetmə azərbaycanlı ilə birlikdə bir neçə hərbçi erməni və meyitlərlə dəyişdirmişlər.

İsgəndərov Pənah Mənsim oğlu – 1957-ci ildə Zərdab rayonu, Salahlı kəndində doğulmuşdur. 26 dekabr 1993-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ağdam rayonu, Mərzili kəndi uğrunda gedən döyüşlərdə yaralı vəziyyətdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüş, işğal edilmiş Xocavənd rayonuna, oradan isə Xankəndi şəhərinə aparılmışdır. Xankəndi şəhərinin kənarında yerləşən hərbi hissədə saxlanılarkən, Vartan adlı hərbçi əsir-girovlara işgəncələr vermiş, Pənahı kürək sapı ilə vəhşicəsinə döymüşdür. Hərbi hissədəki ermənilər Pənahın hərbçi olduğunu öyrənərək onun sağ gözünü çıxarmaq istəmişlər. Bu vaxt BQXK nümayəndələrinin gəldiklərini görüb onu buraxmışlar. Nümayəndələr getdikdən sonra ermənilər əsir və girovları yenidən döyərək kürəklə ağızlarının üstündən vurub, qanını tökmüş və içinə torpaq tökülmüş xörəyi yeməyə məcbur etmişlər. Girov götürdükləri iki nəfər Füzuli rayonunun Horadiz qəsəbə sakinlərindən birini ermənilər öldürmüş, digərini, Həsən adlı girovu isə damğalamışlar. Qış aylarının birində ermənilər ağır kötüklə vuraraq Bərdə rayonundan olan Zamiqin başını partlatmışlar. Xankəndi 3 saylı uşaq xəstəxanasında saxlanılarkən adını bilmədiyi bir erməni Pənahı sorğu-suala tutmuş, onun yaralı vəziyyətdə olmasına baxmayaraq, vəhşicəsinə döyərək ölümcül hala salmışdır. Ermənilər

uşaq xəstəxanasında girov saxlanılan səkkiz qadını *(adları məlumdur – tərt.)* orada olan əsir və girovların gözləri qarşısında zorlayır və ləyaqətlərini alçaldırmışlar. Bu qadınları ermənilər əlləri altında saxlayaraq, istədikləri vaxt döyür, söyür və zorlayırdılar. Bundan başqa, Bakının Əmircan qəsəbəsindən olan, adını bilmədiyi bir yaralı əsiri, hərbçi olduğuna görə ermənilər boğub öldürdülər. Xocavənd rayonunda yerləşən komendantlıqda saxlanılarkən, təxminən 30-35 nəfər əsir və girovu ac-susuz, soyuq beton yerdə saxlayıb, avtomatın qundağı, rezin dəyənək, lom, telefon məftili və sair alətlərlə vəhşicəsinə döyüb işgəncə vermişlər. Şuşa həbsxanasında isə əsirləri rezin dəyənək, kürək sapı, lom və dəmir parçası ilə döyür, bir-birinə qarşı əxlaqsız hərəkətlər etməyə məcbur edirmişlər. Əsirləri itlərlə baş-başa yatırdaraq, it kimi hürdürüb, onlara müxtəlif cür işgəncələr verirmişlər. Həbsxanada saxlandığı 15 gün ərzində bir nəfər döyülərək öldürülmüşdür. Bu cür vəhşiliklər adi hala çevrilmişdi. Pənahın yanında saxlanılan əsir və girovların bir neçəsinin başını erməni qəbirlərinin üstündə kəsmişdilər. Əsasən isə, Bakı və Sumqayıtdan olan əsirləri vəhşicəsinə döyərək, qətlə yetirmişdilər.

İsmayılov Arif Əziz oğlu – 1961-ci ildə Azərbaycan Respublikasının Salyan rayonunda anadan olmuşdur. 28 dekabr 1991-ci il tarixdə əsir götürülmüş, 26 yanvar 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Xankəndi şəhəri, Kərkicahan qəsəbəsinin müdafiəsi uğrunda gedən döyüşlərdə Arif İsmayılovun xidmət etdiyi taqım mühasirəyə düşmüş, nəticədə o və bir neçə döyüşçü ermənilər tərəfindən əsir götürülmüşlər. Erməni hərbçilər elə oradaca onları ebonitdən hazırlanmış dəyənək, armatur və avtomatın qundağı ilə huşlarını itirənədək döymüş, əl-ayaqlarını bağladıqdan sonra sürüyərək, yük maşınına tullamışlar. Bir neçə saat yol getdikdən sonra onları Xankəndində yerləşən hərbi hissəyə gətirmiş, əl-ayaqları bağlı halda yerə tullamışlar. Azərbaycanlı əsirləri qarşılayan hərbi geyimli şəxslər onları rezin dəyənəklərlə, avtomat qundağı ilə döymüşlər. Huşunu itirən Arif yalnız bir neçə saatdan sonra kamerada özünə gəlmişdir. A.İsmayılovu və digər əsirləri gün ərzində 5-6 dəfə huşlarını itirənədək döyən ermənilər zərbələri, əsasən, yaralı yerlərinə və başın arxa hissəsinə vururmuşlar. Arifi döyən şəxslərin arasında Kamo, Volodya, Karen adlı ermənilər və SSRİ Müdafiə Nazirliyinin 366-cı alayının zabiti, hündürboylu, sarışın 30-35 yaşlı Sergey adlı rus zabiti xüsusi amansızlıqları ilə seçilirmişlər. Şuşanın Malıbəyli kəndini işğal etmək məqsədilə həyata keçirdikləri hücum əməliyyatı zamanı kəndi müdafiə edən azərbaycanlı özünümüdafiə dəstəsi tərəfindən qardaşının öldürülməsindən qəzəblənmiş Şuşikəndin sahə müvəkkili bir-bir kameralara daxil olaraq, əsirləri amansızcasına döymüşdür. Onun da kamerasına gələn erməni sahə müvəkkili, onsuz da 3-4 gündən bir 1 stəkan su və quru çörək qırıntısı ilə qidalanmaqdan ayaq üstə dayanmağa taqəti olmayan A.İsmayılovun boğazından tutub başını dəmir barmaqlıqdan özünə tərəf çəkərək, gah tapançanın qundağı, gah da yumruğu ilə onun başına və sifətinə zərbələr endirmişdir. A.İsmayılov təkadamlıq kamerada saxlanılsa da, qonşu kameralardan gələn inilti, qışqırıq və fəryad səslərini açıq-aydın eşidir və bu səslərin kimə məxsus olduğunu da müəyyən edə bilirmiş. Ermənilər bütün azərbaycanlı əsirlərə vəhşi münasibət göstərmiş, onları ağlasığmaz işgəncələrə məruz qoymuşlar. Mütəmadi olaraq əsirlərin üstünə təlim keçmiş ovçarka və çoban iti buraxır, özləri isə itlərin dişlədiyi, üst-başlarını cırıq-cırıq etdiyi əsirlərin qışqırtılarından həzz alırmışlar. Bir dəfə Kamo və

Karen onu vəhşicəsinə döydükdən sonra başını kəsməyə aparacaqlarını bildirmiş, başına torba keçirmişlər. Təxminən 15 dəqiqə bu vəziyyətdə saxladıqdan sonra "otboy" komandası eşitmiş, bundan sonra torbanı çıxarmışlar. Həyəcandan az qala nitqi qurumuş əsirə ermənilər ertəsi gün mənşəyi və tərkibi məlum olmayan iynələr vurmuşlar. Nəticədə A.İsmayılov huşunu itirmişdir. Təxminən bir ay müddətində əsirlikdə qalmış A.İsmayılovun orada keçirdiyi günlər bir-birindən heç nə ilə fərqlənməmişdir. Hər gün döyülmə, işgəncə, təhqir və s. Ancaq bir gün "əlamətdar" hadisə baş vermiş və yaddaşına həkk olmuşdur. Həmin gün ayaq üstə güclə dayanan A.İsmayılovun üst-başı və saxlanıldığı kamera səliqə-sahmana salınmışdır. Bir neçə saat sonra isə kameraya məşhur "hüquq müdafiəçisi" Baronessa Koks özü gəlmişdi. A.İsmayılovun ifadəsindən: "Əsirlikdə olanda bir dəfə Baronessa Koks yanıma gəlmişdi. Məndən tərcüməçinin vasitəçiliyi ilə soruşdu ki, niyə ermənilərlə vuruşursunuz? Cavab verdim ki, biz öz torpaqlarımızı və ailələrimizi erməni işğalından qoruyuruq, bəs siz İrlandiyadan nə istəyirsiniz? Heç nə demədi, gülümsündü, başımı tumarlayıb çıxıb getdi. Amma o gedəndən sonra ermənilər məni yaxşıca döydülər."

O, 1992-ci ilin yanvar ayının 26-da erməni əsirlərlə dəyişdirilərək, azad edilmişdir.

İsmayılov Asif Sakit oğlu – 1975-ci ildə Bakı şəhərində anadan olmuşdur. 19 aprel 1994-cü ildə əsir götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ağdam rayonunun İlxıçılar kəndinin Ermənistan Silahlı Birləşmələri tərəfindən işğalı zamanı əsir götürülmüş Asif İsmayılovu vəhşicəsinə döydükdən sonra Xankəndində olan alaya aparmış və 28 nəfər əsir-girovun saxlandığı zirzəmiyə salmışlar. Burada saxlanılan azərbaycanlı əsir-girovları ermənilər gün ərzində bir neçə dəfə bayıra çıxararaq, rezin dəyənək, armatur, lom və digər küt, kəsici alətlərlə vəhşicəsinə döyürmüşlər. Elə ilk döyülmədə nəzarətçilər onun dişlərini qırmışlar. Bir dəfə isə nəzarətçilər Asifi üzü üstə yerə yıxmış, dörd nəfər ağır kötüyü qaldıraraq, onun kürəyinə atmışdır. Nəzarətçilərin yeyib içdikdən sonra onları daha həvəslə və qəddarcasına döydüklərini, müxtəlif işgəncə üsulları fikirləşdiklərini, üstlərinə quduz itlər buraxdıqlarını xatırlayan Asifin danışdıqlarından: "Xankəndi alayında saxlanılarkən, ermənilər bir kisə gətirdilər və onu açmaq üçün Hüseynov Cavid adlı azərbaycanlı əsirə verdilər. Cavid kisəni açdıqda orada bir kəsilmiş baş və iki qulaq olduğunu gördük. Ermənilər xeyli gülüşdükdən sonra "Azərbaycanlının başıdır, kəsib gətirmişik", – dedilər. Sonra həmin başı və qulaqları bütün əsir-girovlar görsünlər deyə qapının üstündən asdılar."

Asif kəsilmiş qulağı və başı təkcə torbada görməmişdir. O, alayda bir qulağı kəsilmiş və gözü çıxarılmış əsirləri də görmüşdür. Bir dəfə ermənilər döyüşlər zamanı üç nəfər ermənin həlak olduğunu söyləmiş və əsir-girovlardan onların yerini soruşmuşlar. Elsevər adlı əsir "Həmin erməni döyüşçülərin basdırıldığı yeri bilirəm" , – dedikdən sonra, ermənilər "İndi səni Ağdama aparacağıq, əgər o yeri göstərməsən, başını elə orada kəsəcəyik", – deyib onu aparmışlar. Geri qayıdan ermənilər Elsevəri diri-diri basdırdıqlarını bildirmiş və Asifə "Növbə sənindir", – demişlər. Xöşbəxt təsadüf nəticəsində ertəsi gün BQXK tərəfindən qeydiyyata götürülən Asifi ermənilər heç yerə apara bilməmişlər.

BQXK nümayəndələri ara-sıra onlara baş çəkirmişlər. Ancaq nümayəndələr gedən kimi gətirdikləri ərzaq və geyim əşyaları ermənilər tərəfindən əllərindən alınırmış.

Sonradan BQXK-ya bu barədə məlumat verilsə də, heç bir dəyişiklik baş vermirdi. 1994-cü ilin sonlarında, yaxud 1995-ci ilin əvvəllərində Xankəndi alayında saxlanılan bütün əsir-girovlar ermənilərin 1992-ci ilin may ayının 8-də işğal etdikləri Şuşa şəhərindəki SSRİ dövründən fəaliyyət göstərən həbsxanaya köçürülmüşlər. Həbsxananın həyətində maşınlardan düşürülən azərbaycanlı əsir-girovları "qarşılayan" erməni hərbçilər və nəzarətçilər onları ağac, armatur, rezin dəyənək, dəmir parçası, ümumiyyətlə, əllərinə düşən əşyalarla vəhşicəsinə döymüş, bəzilərinin dişlərini kəlbətinlə çıxarmışlar. Burada saxlanıldığı müddətdə müntəzəm olaraq ermənilər tərəfindən döyüldüklərini söyləyən Asif, Artur adlı nəzarətçi və Vanya adlı sürücü tərəfindən daha qəddar şəkildə döyül-düyünü xatırlayır. Asif İsmayılov ermənilərin həmişə olduğu kimi əsir-girovları günlərlə ac saxladıqlarını, hərdən qaynadılmış buğda və ya erməni nəzarətçilərin yeməklərinin artıqlarını verdiklərini bildirir. İsmayılov Asif Sakit oğlu ermənilərin vandalizm əməllərinin də şahidi və bilavasitə məcburi iştirakçısı olmuşdur. Şuşada saxlanılarkən ermənilər əsir-girovları işğal etdikləri Ağdam şəhərinə aparıb "KAMAZ" markalı yük avtomaşınının arxası ilə itələməklə yaxud əl qumbarası atıb partlatmaq yolu ilə uçurduqları evlərin daşlarını, bəzi evlərin isə dam örtüyünü dağılmasın deyə helikopterlə götürərək Xankəndinə daşıyaraq, orada 8 ədəd 2 mərtəbəli evlər tikmişlər. İşğal etdikləri ərazilərdə azərbaycanlılara aid qəbiristanlıqlardakı məzar daşlarını da sökdürüb daşımışlar. Ağdamda əsirləri dayanmadan işlədən ermənilər onlara hətta su içməyə belə icazə verməmişlər. Əsirlərin nəzarətçilərdən gizlin palçıq qarışdırılması üçün gətirilən sudan içdiklərini bilən ermənilər onları qəddarcasına döyərək cəzalan-dırmışlar. Bütün bu qeyd olunanlarla yanaşı, ermənilər əsir və girovları zorlamış, hətta bir-birini zorlamağa təhrik etmişlər. A.İsmayılov əsirlikdə keçirdiyi 2 ildən artıq bir müddətin onun və eyni həyatı yaşamış digər insanların taleyini məhv etdiyini qeyd edir. Ermənistanın və işğal edilmiş Dağlıq Qarabağın müxtəlif yerlərində saxlanılan bir qisim əsir-girovlar kimi, A.İsmayılov da 9 may 1996-cı ildə Yerevan şəhərinə aparılmış, qaraja bənzər böyük bir yerə salınaraq, vəhşicəsinə "vida" döyülməsinə məruz qalmışdır. Ertəsi gün, yəni 10 may 1996-cı il tarixdə A.İsmayılov və onunla birlikdə 67 nəfər azərbaycanlı əsir-girov Rusiyanın vasitəçiliyi ilə əldə edilmiş razılığa əsasən Azərbaycan tərəfinə təhvil verilmişlər.

İsmayılov İsrayıl Sarif oğlu – 1974-cü ildə Bakı şəhərində doğulmuşdur. 15 avqust 1993-cü il tarixdə Füzuli rayonu, Aşağı Veysəlli kəndində əsir götürülmüş – 10 may 1996-cı il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü ilin avqust ayının 15-də Füzuli rayonu, Aşağı Veysəlli kəndinin Ermənistan Silahlı Qüvvələrinin hücumundan müdafiəsi zamanı gedən döyüşlərdə yaralı vəziyyətdə əsir götürülmüşdür. İsrayıl İsmayılov Çartar kəndində, "Arayikin qrupu" adlanan terrorçu-quldur dəstəsinin yerləşdiyi kazarmanın zirzəmisinə salınmış, orada mütəmadi olaraq, təpik, rezin dəyənək və digər sərt əşyalarla döyülmüşdür. Ermənilər İsrayıla ondan qabaq burada bir azərbaycanlı zabiti yandırdıqlarını, Azər adlı birini isə güllələdiklərini söyləmişlər. Ermənistan hərbçiləri İ.İsmayılovun yaralarının üstünə duz tökmüş, 15 gün hər gecə yerdən bir metr hündürlükdə üfüqi vəziyyətdə əllərindən və ayaqlarından bağlayaraq asılı vəziyyətdə saxlamışlar. İfadəsindən: "On beş gecəni ayaqları bağlı, yerdən bir metr hündürlükdə keçirmişəm. Səbirsizliklə səhərin açılmasını

gözləyirdim. Səhər açılan kimi məni döyəcəklərini bilirdim, ancaq döyülmək, belə yatmaqdan yaxşı idi". Vaçik, Haykaz və Muşeç adlı erməni hərbçilər əsirlərə işgəncələr verməyə daha çox meyilli idilər. Sevak adlı erməni hərbçi İsrayıla Beyləqan rayonu istiqamətində hücum zamanı əsir götürdükləri 9 hərbçinin Füzuli rayonu, Yuxarı Veysəlli kəndində başlarını kəsərək qətlə yetirdiklərini bildirmiş və bütün azərbaycanlıları qırıb qurtaracaqlarını söyləmişdir. Havik adlı erməni hərbçi isə onu Çartaz kəndində yerləşən qəbiristanlığa apararaq, əsir götürdükdən sonra başlarını kəsdikləri üç azərbaycanlının meyitlərinə baxmağa məcbur etmiş və meyitləri lovğalıqla ona nümayiş etdirmişdir. İsrayılın özü isə qurban kəsilməkdən sırf möcüzə nəticəsində qurtulmuşdur. Bir gün ermənilər onu "qurban kəsmək" məqsədi ilə həmin qəbiristanlıqda hansısa bir ermənin məzarı üstünə aparmışlar. Erməni kilsəsinin keşişi ayinə rəsmi dini xarakter verərək, dualar oxuyub qurtardıqdan sonra ermənilər onun başını kəsmək istədikdə, qaça-qaça qəbiristanlığa gələn bir erməni silahlı oradakılara komandirlərinin əsiri hələ kəsməmək barədə tapşırığını çatdırmış və nəticədə İsrayıl xilas olmuşdur. Erməni komandir Civanyan Hovik əsir götürülmüş bir nəfəri şəxsən güllələmişdir. Sonralar H.Civanyan İsrayılı soyuq havada, zirzəmidə su qızdırmaq üçün olan böyük çənin içərisində yatmağa və yeməyi isə onunla birlikdə saxladıqları itlə yeməyə məcbur etmişdir. Çartaz kəndindən sağ çıxan yeganə əsir olmuş İsrayıl orada 7 ay saxlanıldıqdan sonra Xocavənd rayonunda yerləşən 15 nəfərə yaxın əsir-girovun saxlanıldığı komendantlığa aparılmışdır. Aralarında qoca, qadın, hətta uşaqların da olduğu azərbaycanlı əsir və girovlar binanın zirzəmisində ac-susuz, bit-birə içində saxlanılmışlar. Sonra Xankəndi şəhərində yerləşən müvəqqəti saxlama təcridxanasına aparılan İ.İsmayılov orada Zaqatala rayonundan olan Zeynal adlı əsirin ermənilərin işgəncələrinə və aclığa dözməyərək öldüyünün, adını xatırlamadığı digər bir əsirin bioloji silahın sınaqlarında istifadə olunduğunun, xeyli sayda azərbaycanlının isə Metsamor AES-də işlətmək məqsədi ilə Ermənistana aparıldığının şahidi olmuşdur.

İ.İsmayılov bir müddət sonra Şuşa həbsxanasına köçürülmüşdür. Şuşa həbsxanasında Slavik, Con, Emin və Qor adlı hərbçilər əsir və girovlara son dərəcə dəhşətli işgəncələr verir, onları nəzarətçilər yaşayan kazarmaya apararaq vəhşicəsinə döyməklə bir-biri ilə cinsi əlaqəyə girməyə və bir-birini qeyri-adi üsullarla zorlamağa məcbur edirmişlər. Nəzarətçi Slavik isə bir əsirin *(adı məlumdur – tərt.)* anal dəliyinə rezin dəyənək soxaraq, ona işgəncə vermiş və zorlamışdır. İfadəsindən: "Şuşa həbsxanası lap dəhşətli idi. Burada bir oğlanı işgəncələrlə zorladılar. Əsirləri bir-biri ilə cinsi əlaqəyə girməyə təhrik edir, razı olmadıqları üçün vəhşicəsinə döyürdülər. Elə vəziyyətə salmışdılar ki, sınıq qolla işləyən uşaqlar qollarının sınıq olmasını da hiss etmirdilər. Mənə, Nurəddinə və bir çoxlarına Qırmızı Xaç Komitəsindən verilən çəkmələr əlimizdən alındığı üçün ayaqlarımızı şaxta vurdu. Hələ də əziyyətini çəkirəm". Sınığı, əziyi, qızdırması və s. ağrıları və xəstəliyi olan əsir-girovlar da digərləri kimi işləməyə məcbur edilmiş və onlara son ana qədər tibbi yardım göstərilməmişdir. Əsir və ya girova yalnız ölüm ayağında olanda, o da, ermənilər istədiyi halda tibbi yardım göstərilmiş, məqsəd isə azacıq sağaldıqdan, ölüm təhlükəsi uzaqlaşdıqdan sonra onu yenidən işlətmək və işgəncələrə məruz qoymaq idi. Xoşbəxtlikdən, ayaqlarının don vurması BQXK-nın Pyer adlı nümayəndəsinin diqqətini cəlb etdiyindən, onu və daha iki əsiri müalicə üçün Xankəndindəki uşaq xəstəxanasına aparmışlar. Ancaq azərbaycanlı əsir-girovlar

xəstəxanada da rahat buraxılmamışlar. Tibbi təhsil alan erməni tələbələr təcrübəni azərbaycanlı əsir-girovların üzərində keçirmişlər. Müalicədən sonra yenidən Şuşa həbsxanasına qaytarılan İsrayıl bir neçə azərbaycanlını orada görməmişdir. Sonradan ona məlum olmuşdur ki, Heydər adlı əsir ermənilər tərəfindən döyülərək öldürülmüş, əslən Füzuli rayonundan olan, adını unutduğu mülki şəxs isə infarkt keçirərək ölmüşdür. Şuşaya gətirildikdən sonra ermənilər İsrayılı orada saxladıqları azərbaycanlıların bir qrupu ilə Mısmına kəndində gedən tikintidə işlətməyə aparmışlar. Ermənilər işğal etdikləri ərazilərdə evlərin və obyektlərin sökülüb daşınması, sonradan bu materiallarla ev, ferma və digər obyektlərin tikilməsində işlətdikləri 42 nəfər əsir-girov azərbaycanlını 8-10 kv. metrlik bir otaqda saxlamışlar. İfadəsindən: "Üfunət iyi bizi yatmağa qoymurdu, gündə 18 saat işləyirdik, bütün bunlara baxmayaraq, bizi hər gün döyür, bu qədər işin müqabilində yeməyə yarım stəkan buğda suyu və 4 nəfərə bir lavaş verirdilər". Belə bir şəraitdə işlədikləri üçün artıq taqətdən düşmüş İsrayılı, 11 nəfərlə birgə halsız vəziyyətdə Şuşa həbsxanasına qaytarmışlar. İsmayılov İsrayıl Sarif oğlu 10 may 1996-cı il tarixdə əsirlikdən azad edilmişdir.

İsmayılov Məhəmməd Yunis oğlu – 1935-ci ildə Azərbaycan Respublikası Cəbrayıl rayonunun Şahvəlli kəndində doğulmuşdur. 9 sentyabr 1993-cü il tarixdə girov götürülmüş, 24 sentyabr 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü ilin avqust ayının əvvəlindən etibarən Ermənistan Silahlı Birləşmələri tərəfindən Cəbrayıl rayonu ərazisinə intensiv hücumlar başlamışdır. Bu səbəbdən yaşadıqları Şahvəlli kəndinə hücumdan ehtiyat edən sakinlər kimi, o da ailəsi ilə birlikdə əşyalarını evdə qoyub kəndi tərk etmiş və Beyləqan rayonuna yerləşmişdir. Hər gün hələ ermənilər tərəfindən işğal edilməmiş kəndlərinə gedir, şəxsi əmlaklarının yerində olub-olmadığını yoxlayır və geri qayıdırmış. Sonuncu dəfə 1993-cü il sentyabrın 9-da oğlu Ramazan, bacısı oğlu Qurbanov Mürvət Əmrah oğlu və əmisi Maqsudov Əhməd Abbas oğlu ilə birlikdə Mürvətin idarə etdiyi "Jiquli" markalı maşınla kəndə gedən İsmayılov Məhəmməd ot tayalarının yandığını görmüş, kəndin girəcəyindəki məktəbin yanında atəş səsləri eşitdikləri üçün dayanmışlar. Lakin qəflətən peyda olan Ermənistan hərbçiləri onları tutaraq əllərini məftillə bağlamışlar. Özünü "Sarı Seyid" adlandıran sarışın, saqqalı qızarmış, hündürboylu, möhkəm bədənli erməni avtomatın qundağı ilə Məhəmmədin başından vurmuş, onları maşına mindirərək, Cəbrayıl rayonunun işğal etdikləri Novruzlu kəndində yaşamış azərbaycanlı bir seyidin *(seyyid – ərəbcə böyük və ağa mənasını verir. İslam peyğəmbəri Həzrət Məhəmmədin və onun övladlarının nəslindən olanlara deyilir – tərt.)* evinə aparmışlar. Çoxlu sayda erməni hərbçilərinin məskunlaşdığı bu evdə ermənilər qənimət kimi əldə etdikləri heyvanı kəsərək, ocaq üstünə düzülmüş qazanlarda cürbəcür xörəklər bişirir, Cəbrayıl rayonunun işğalını böyük bir bayram kimi qeyd edir, yeyib-içir, şənlənirmişlər. Həmin anda içəri daxil olan "Sarı Seyid" ləqəbli erməni Məhəmmədə "Sən türksən" – deyərək, çənəsindən təpiklə möhkəm vurmuşdur. Ermənilər girovlara arpa daşıtdıraraq maşına yığdırdıqdan sonra onlara maşına minməyi əmr etmişlər. Məhəmmədlə Ramazanı oturaq vəziyyətdə boyunlarından maşının bortuna bağlayaraq yola düşmüşlər. Yolda "Sarı Seyid" Maqsudov Əhmədin başından papağını götürüb atmış və təpiklə vurub Məhəmmədin burnunu sındırmışdır. "Sarı Seyid" yetirdiyi bu xəsarətdən sonra Məhəmmədin burnundan ayaq barmaqlarına qədər süzülən qanına

baxaraq fərəhlə gülmüşdür. Həmin gün Hadrut rayon Milis idarəsinə aparılan girovlar orada ermənilər tərəfindən döyüldükdən sonra kameraya salınmış, ertəsi gün isə onlara Milis idarəsinin həyətini təmizlətdirmişlər. Dörd gün orada saxlanılan girovları hər gün bir-bir kameradan çıxararaq rəisin otağına aparır və döydükdən sonra geri qaytarırdılar. Cürbəcür bəhanələrlə girovları döyən ermənilər üzlərinə baxan girova "Sifətimi yadda saxlamaq istəyirsən?" – deyə gözündən vurur, gözlərini yerə dikdikdə isə "Mənə niyə baxmırsan, iyrənirsən?" – deyərək, təpikləyirmişlər. Girovları, əsasən, 6-8 erməni dairəyə alıb rezin dəyənək, armatur və masanın ayaq hissəsi ilə bədənləri qaralanadək döydükdən sonra paltarlarını soyundurur, vücudunda qaralmamış yer aşkar etdikdə həmin nahiyə qaralana qədər müxtəlif alətlərlə zərbələr endirirmişlər. Məhəmməd İsmayılov da bu qaydada bütün bədəni qaralanadək döyülmüşdür. Dörd gün bir yerdə saxlandıqdan sonra ermənilər Ramazanla Mürvəti digərlərindən ayıraraq, naməlum istiqamətdə aparmışlar. İki gündən sonra Məhəmmədi əmisi Əhmədlə birgə Milis idarəsindən çıxararaq, təqribən 500 metrlikdə yerləşən hərbi hissəyə aparmışlar. Orada Ramazanı, Mürvəti, həmçinin soyadlarını bilmədiyi Cəbrayıl rayon sakinləri – Şükür, Cəlal Soltan oğlu, Əşrəf, Azər və Nizami adlı girovları görmüşdür. Ertəsi gün Yerevandan gəlmiş bir erməni ilə hərbi hissəyə gəlmiş Asif adlı erməni hərbçi Məhəmməd İsmayılovu çağıraraq söhbət etmişlər. Yerevandan gəlmiş erməni Spartak adlı hərbçi oğlunun itkin düşdüyünü, onun Azərbaycan tərəfində əsirlikdə saxlandığını ehtimal etdiyini söyləmişdir. Həmin erməni Məhəmmədi buraxdırmış və yalnız Spartakı gətirəcəyi təqdirdə qohumlarını – oğlu Ramazanı, əmisi Əhmədi və bacısı oğlu Mürvəti, ümumilikdə 53 nəfər azərbaycanlını da buraxdıracağına söz vermişdir. Bu məqsədlə 1993-cü il sentyabrın 24-də bir nəfər leytenant rütbəli zabitlə iki erməni hərbçi Məhəmmədin gözlərini bağlayıb maşına mindirərək, təmas xəttinədək gətirmiş və onu azad etmişlər. Azad edildikdən sonra apardığı axtarışlar nəticəsində Spartakı tapa bilməyən Məhəmməd İsmayılov ümidlərini itirməmişdir. Oğlu Ramazandan və bacısı oğlu Qurbanov Mürvət Əmrah oğlundan 1994-cü ilin dekabr ayınadək BQXK vasitəsilə məktublar gəlsə də, bir müddətdən sonra BQXK nümayəndəsi Ramazanın guya girovluqdan qaçmaq istəyərkən, minaya düşərək həlak olması barədə məktub gətirmişdir. Əmisi Maqsudov Əhməd Abbas oğlu isə 1995-ci ildə azad olunarkən "Mən orada uşaqları (Ramazanla Mürvəti) sağ-salamat qoyub gəlmişəm", – söyləmişdir. Əsir-girovluqdan azad edilmiş digər şəxsləri də taparaq onlarla danışan Məhəmməd İsmayılova məlum olmuşdur ki, bacısı oğlu Mürvət erməni girovluğunda ona verilən işgəncələrə tab gətirməyərək ölmüşdür. Ramazanı görmüş şəxslər onun BQXK-nın qeydiyyatında olduğunu və tezliklə azad olunacağına inandığı üçün qaçmaq barədə düşünmədiyini və belə bir addım ata biləcəyinə inanmadıqlarını bildirmişlər. Oğlunun girovluqdan qaçarkən minaya düşməsi barədə ona verilmiş məlumat təsdiqini tapmadığı üçün hələ də Məhəmməd İsmayılovun gözü yolda qalmışdır.

İsmayılov Mikayıl Sevdimalı oğlu – 1961-ci ildə Azərbaycan Respublikası Laçın rayonu, Vağazin kəndində doğulmuşdur. 24 may 1992-ci il tarixdə girov götürülmüş, 11 iyun 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

18 may 1992-ci ildə Laçın şəhəri Ermənistan ordusu tərəfindən işğal edildikdən sonra o, İsmayılov Nemət Fərhad oğlu, İsayev Baxşəli Məmmədbağır oğlu, İsayev Nadir Mikayıl oğlu və Nəsibov Nəsir Rəhim oğlu ilə birlikdə yaşadıqları Vağazin kəndini tərk

etməmiş və evlərində qalmışlar. 1992-ci il may ayının 24-də, saat 03:00 radələrində erməni hərbçiləri kəndə girib evləri yandırmağa başladıqda, onlar kəndi tərk etmək istəsələr də, buna müvəffəq olmamış və çoxlu sayda silahlı ermənilər tərəfindən mühasirəyə alınmışlar. Ermənilər İsmayılov Nemət Fərhad oğlunu, İsayev Baxşəli Məmmədbağır oğlunu, İsayev Nadir Mikayıl oğlunu və Nəsibov Nəsir Rəhim oğlunu vəhşicəsinə qətlə yetirmiş, İsmayılov Mikayılı isə girov götürmüşlər. Amansızcasına döyülən Mikayıl ayaq üstə dura bilmədiyindən, onun əllərini və ayaqlarını bağlayıb "KAMAZ" markalı yük maşınına atmış və huşunu itirmiş halda Laçın şəhərinə aparmışlar. Erməni hərbçilər M.İsmayılovu səhərədək növbə ilə döymüş, hər dəfə ağrılardan huşunu itirdikdə su ilə dolu hovuza basmışlar. Ermənilər girovu yerə uzadaraq belinə mişar daşları yığmış, ağrılardan huşunu itirdikdə yenidən suya basmış, özünə gələn kimi təkrar-təkrar döyərək işgəncələr vermişlər. Səhər açılanda "QAZ-53", "UAZ" və "Niva" markalı maşınlarla yola düşən ermənilər Mikayılı da özləri ilə götürmüşlər. İşğal etdikləri Zabux, Malıbəyli, Sultanlar, Kosalar, Bozlu, Quşçu, Mirik, Qarqışlaq, Minkənd, Kamallı, Çıraqlı, Alxaslı, Şeylanlı, Mişni, Sonasar, Hocaz, Qızılca, Kürttağı kəndlərini gəzən ermənilər bütün kəndlərdə evlərin əksəriyyətini yandırmışlar. Ermənilər hər kəndi odlayıb maşına minəndə "QAZ-53" maşınının üstünə atdıqları Mikayıla "Görürsənmi, Laçını nə günə qoyuruq? Al, bu da sənin payın!" – deyərək döyürmüşlər. Mikayıl hər kənddə belə döyüldükdən sonra huşunu itirir, ayıldıqda digər bir kəndi yandırdıqlarının şahidi olurmuş. Tamam huşsuz vəziyyətdə Laçının mərkəzinə gətirilən M.İsmayılovu ertəsi gün Ermənistanın Gorus rayonunun Milis şöbəsinə aparmışlar. Orada da milislər onu dartıb yerə salaraq xeyli təpikləmişlər. Artıq özünü hiss etməyən, zərbələrdən keyləşmiş Mikayıl gözünü açanda ətrafında bir neçə azərbaycanlı girovun da olduğunu görmüşdür. Yavaş-yavaş özünə gələn Mikayıl, Laçın rayon sakinləri olan girovların əksəriyyətini tanımışdır. Onlar – Rəhbər, Nəriman, Hüseyn, Nadir, Fəhmi, Qabil, Qara, Sayad, Yavər, Hüseynalı həyat yoldaşı ilə, Mişkənd kəndindən bir qadın, Musanın həyat yoldaşı və Ağbulaq kəndindən bir qadın olmuşlar. Mayın 27-də dörd nəfər qadın dəyişmə yolu ilə azad edilmiş, kişilərə isə dəhşətli işgəncələr və əziyyətlər vermişlər. İsmayılov Mikayıl 1992-ci il iyun ayının 11-də azad edilmişdir.

İsmayılov Şirin Nurəddin oğlu – 1977-ci ildə Goranboy rayonu, Dəliməmmədli kəndində doğulmuşdur. 17 avqust 1997-ci il tarixdə əsir götürülmüş, 17 sentyabr 1999-cu ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Şahbuz rayonunun Ermənistanla sərhəd ərazində xidmət keçərkən Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Həmin anda onu möhkəm döymüş, əllərini və gözlərini bağlayaraq, "UAZ" markalı maşınla hərbi hissəyə apararaq qaranlıq, rütubətli, döşəməsi beton soyuq kameraya salmışlar. Ertəsi gün döyə-döyə sorğu-sual etmişlər. Bu hal növbəti 6 gündə də davam etmişdir. Ermənilər hər gün Şirini rezin dəyənək, avtomatın qundağı, təpik və yumruqla vəhşicəsinə döymüş, acından ölməməsi üçün 100 qram quru çörək və azacıq su vermişlər. Yeddinci gün onu "Jiquli" markalı avtomobilə mindirib, Yerevandakı Hərbi Polisə aparmışlar. Orada saxlanılan Ş.İsmayılov sorğu-sual edilməsə də, hər gün erməni nəzarətçilər tərəfindən döyülmüşdür. Bir aydan sonra onu Ermənistan Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasına köçürmüş, Azərbaycan və rus dilini bilən üç erməni dustaqla eyni kameraya salmışlar. Dustaqlar Şirinə

toxunmasalar da, nəzarətçilər hər gün onu rezin dəyənək və avtomatın qundağı ilə döymüş, əsasən də baş nahiyəsinə zərbələr endirmişlər. 15 gündən sonra onu beton, soyuq və rütubətli bir kameraya salmış, bir neçə gündən sonra isə başqa bir azərbaycanlı əsiri – Tanrıverdiyev Ceyhun Arif oğlunu da gətirərək oraya salmışlar. Kiçik fasilələrlə ermənilər həmin kameraya daha dörd nəfər azərbaycanlı əsir gətirmişlər. Azad olunanadək orada saxlanılan Şirin və digər əsirlər mütəmadi olaraq erməni nəzarətçilər tərəfindən işgəncələrə məruz qalmış və döyülmüşlər. Ermənilər onları dalaşmağa, bir-birini döyməyə məcbur etmişlər. Onların istəklərini yerinə yetirməyən əsirləri isə daha qəddarlıqla döymüşlər. Digər yerlərdə olduğu kimi, orada da azərbaycanlı əsirlər ac-susuz saxlanılmış, ölməmək üçün onlara gün ərzində 50-100 qram quru çörək və bir stəkan çirkli su vermişlər. BQXK əsirləri qeydiyyata aldıqdan sonra, erməni nəzarətçilər bilməsinlər deyə yardım və siqaretləri gizlin versələr də, onlar getdikdən dərhal sonra nəzarətçilər verilən yardımları azərbaycanlıların əllərindən alır, özlərini isə döyürmüşlər. İsmayılov Şirin Nurəddin oğlu 17 sentyabr 1999-cu il tarixdə əsirlikdən azad edilmişdir.

İsmayılov Yaşar Vilayət oğlu – 1968-ci ildə Azərbaycan Respublikasının Sumqayıt şəhərində doğulmuşdur. 31 mart 1993-cü il tarixdə əsir götürülmüş, 24 avqust 1993-cü il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonu uğrunda döyüş zamanı əsir düşməmək üçün özünü çaya atan Yaşarı və bir neçə digər Azərbaycan əsgərini tankla çaya girən Ermənistan hərbçiləri tərksilah edərək əsir götürmüşlər. Həmin vaxt onlar təpik, yumruq və avtomatın qundağı ilə Yaşarın başına və bədəninə elə güclü zərbələr endirmişlər ki, onun başında və bədənində həmin zərbələrin izləri hələ də qalmışdır.

Şuşa şəhərindəki həbsxanaya göndərilən əsir orada sözün əsl mənasında insan vəhşiliyinin şahidi olmuş və çox məşəqqətli günlər yaşamışdır. Əsir-girovlar erməni hərbçiləri tərəfindən gün ərzində bir neçə dəfə döyülmüş, təhqir edilmiş və işgəncələrə məruz qalmışlar. Həbsxanaya yeni gətirilmiş əsirlərə ermənilər ağır işgəncələr verərək döymüşlər. Ermənilərin ona verdiyi işgəncəyə dözə bilmədiyi üçün, bədəninə elektrik cərəyanı verib özünü öldürmək istəmişdir. Lakin erməni hərbçiləri bunun qarşısını alaraq, Y.ismayılovu yenidən möhkəm döymüşlər. Ümumiyyətlə, orada özünə qəsd etmək istəyən əsir-girovları ermənilər "xilas" edərək, vəhşicəsinə döyürmüşlər. O, azərbaycanlılara işgəncə verən erməni hərbçilərdən Samvel, Aşot, Arkadi, Valera, Vazgen və Karpyanı xatırlayır. Bir müddətdən sonra saxlanma yerinə xarici jurnalistlər gəlmişlər. Əsirlər və girovlar jurnalistlərə ermənilərin onlara verdikləri işgəncələr barədə danışmışlar. Öz növbəsində Yaşar da Ermənistan hərbçilərinin onun ayaq dırnaqlarını kəlbətinlə çıxarmaları, döyərək iki qabırğasını sındırmaları barədə danışmış, o cümlədən, nəzarətçilərin əsir-girovları kameralardan çıxararaq, sifətlərində iz qoymadan möhkəm döydüklərini bildirmişdir. Jurnalistlər getdikdən sonra isə işgəncələr barədə məlumat verən əsir və girovları daha amansızlıqla döymüşlər. Qul kimi sutkanın böyük hissəsini ağır işlərdə, həm də qaçaraq işləyən əsir-girovlar arasında zəifləmiş, xəstə, qoca və əlillərin olmasına fərq qoyulmamışdır. İşləyə bilməyənlər nəzarətçi ermənilər tərəfindən ağır cəzalandırılmışlar. Yaşar Şuşa həbsxanasında əsirlikdə olarkən, oraya yeni gətirilmiş, adını xatırlamadığı, əslən Mingəçevir şəhərindən olan bir əsir zəif işlədiyinə görə ermənilər tərəfindən tez-tez vəhşicəsinə döyülmüş, nəticədə o, bir

həftədən sonra ölmüşdür. Onun meyitini Yaşar və adını xatırlamadığı, əslən Kəlbəcərdən olan girov Şuşa qəbiristanlığında dəfn etmişlər. Ermənilər 24 aprel – "erməni soyqırımı" günündə "Azərbaycanlı əsir-girovların saxlanıldığı hər məntəqədə bir nəfər öldürülməlidir", – deyərək, azərbaycanlıları sıraya düzmüş, bir erməni hərbçi əslən Kəlbəcərdən olan azərbaycanlını irəli çıxarıb tapançanı onun başına dirəyərək atəş açaraq qətlə yetirmişdir. Lakin əsir-girovları döyüb işgəncə verən təkcə erməni hərbçiləri və nəzarətçiləri olmamışlar. Həbsxanaya gələn mülki ermənilər də nəzarətçilərə pul verib azərbaycanlıları sıraya düzərək, döyüb işgəncə vermişlər. Belə halların birindən sonra əsirlərdən ikisi ölmüşdür. Bir dəfə isə oraya gələn mülki geyimli ermənilər BQXK-nın qeydiyyatında olmayan əsir-girovları kameralardan çıxararaq naməlum istiqamətdə aparmış və geri qaytarmamışlar. Nəzarətçi Samvelin hər bazar günü həbsxanaya gələn anası "Artıq Qarabağ bizimdir, onlara Qarabağ torpağı yedizdirin, gözləri doysun", – dedikdən sonra erməni hərbçilər əsir-girovları torpaq yeməyə məcbur edirmişlər. Şuşa həbsxanasında əsirlikdə olarkən Yaşar yüz illərlə yaşı olan tarixi abidələrin və məscidlərin ermənilər tərəfindən dağıdıldığının və bu işlərə əsir-girovların da cəlb edildiyinin şahidi olmuşdur. İşğal edilmiş Ağdam rayonuna aparılmış Y.İsmayılov orada yaxın günlərdə dəyişdiriləcəyi bildirilən, tanımadığı iki azərbaycanlı əsirlə birlikdə işləmişdir. Azad edilməzdən əvvəl ermənilər onlardan birinin qulaqlarını kəsmişlər. Yaşar İsmayılov Şuşa həbsxanasında saxlanılan zaman orada Xocalı şəhərindən girov götürülmüş iki qadının da saxlanıldığını görmüşdür. Onlardan biri 26-27, digəri isə 40 yaşlarında olmuşdur. Onlar girov götürülən zaman səkkiz qız olduqlarını, ermənilərin onları Fransaya aparıb fahişəliyə cəlb edərək, mehmanxanaların birində işlətdiklərini danışmış, tərkibini bilmədikləri iynələrin vurulduğunu bildirmişlər. Girov qadınlar Fransada olarkən qızlardan biri işgəncələrə və əzablara dözməyərək özünü öldürdükdən sonra onların geri qaytarıldığını, beş nəfərin isə orada saxlanıldığını söyləmişlər. Sonradan həmin qadınlardan biri qolunun damarını kəsməklə, digəri isə elektrik cərəyanı verməklə özlərini öldürmüşlər. Bir dəfə isə ermənilər əsir-girovları sıraya düzərək həkim müayinəsindən keçirən zaman, kəlbəcərli girovun onurğa sümüyündən iynə ilə 25-30 qram ilik çəkmiş və 30-35 min ABŞ dolları müqabilində satacaqlarını demişlər. İki gündən sonra Xankəndi şəhərinə aparılan Yaşar ermənilərin 21-22 yaşlı əsirin bədəninə iynə ilə dizel yanacağı və siqaret külü vurduqlarının şahidi olmuşdur. Yaşar İsmayılov 24 avqust 1993-cü il tarixdə əsirlikdən azad olunmuşdur.

Kərimov Əbülfət Rəşid oğlu – 1960-cı ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 28 fevral 1992-ci il tarixdə girov götürülmüş, 25 aprel 1992-ci ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

1992-ci il fevralın 25-dən 26-na keçən gecə, Xocalının işğalı zamanı Ermənistan ordusu azərbaycanlıları böyükdən kiçiyə qədər amansızcasına öldürməyə başladıqda, camaat canını qurtarmaq üçün bir neçə dəstəyə bölünərək, meşələrə üz tutmuşdur. Əbülfətlə atasının da qatıldığı təqribən 70 nəfərlik dəstə, əsasən, uşaq, qadın və qocalardan ibarət olmuşdur. Onların arasında 60 yaşlı Əliyev İsa, onun oğlu Əliyev Firidun İsa oğlu, qardaşı Əliyev Firdovsi İsa oğlu və ailə üzvləri, Əliyev Əlixan İsa oğlu, Həsənov Əzim Kazım oğlu, Nağıyev İsmayıl Zülfüqar oğlu da olmuşdur. Yaşlı və xəstə olduğu üçün yeriyə bilməyən atası ilə dəstədən geriyə qalan Əbülfət sonradan

ermənilərin dəstənin yolunu kəsərək insanların çoxunu qətlə yetirdiklərini öyrənmişdir. Fevralın 26-da, saat 15:00 radələrində 120-150 nəfər Xocalı sakinindən ibarət başqa bir dəstə gəlib onlara çatmış və onları ötmüşdür. Dəhraz meşəsində hansı istiqamətə getdiklərini bilməyən ata-bala qarın üstündəki adam izləri ilə getməyə başlamış və meşədə çoxlu meyit və halsız qalmış adamlar görmüşlər. İfadəsindən: "Onların hamısı donub qalmışdılar. Təxminən 20-dən artıq donmuş adam gördüm. Hamısı azyaşlı uşaqlar və qadınlar idi, Xocalı sakini Quliyev Qaryağdı Soltan oğlunun 12-13 yaşlı qızının donmuş meyiti də orada idi. Qalanlarını tanımadım. Həyəcan, soyuq və gərginlikdən keyləşmişdim. Fevralın 27-də, saat 14:00 radələrində tüstü gördüm və yaxınlıqda təxminən 13 Xocalı sakinin oturduğunu seçə bildim". Tanıdığı Səlim və Səfəralı adlı Xocalı şəhər sakinlərindən başqa, hamısı qadın, uşaq və yaşlılardan ibarət bu dəstəyə qoşulan Əbülfətlə atası bir gecəni də meşədə onlarla keçirmişlər. Axşam Səfəralı donaraq ölmüşdür. Səhər açıldıqda Əbülfət mühasirədən çıxmaq məqsədi ilə getməyi təklif etsə də, oradakı insanların heç birinin hərəkət etməyə taqəti olmamış və onun tək getməsini istəmişlər. Atasının təkidi ilə 10 min rublu və sənədləri götürən Əbülfət ağlaya-ağlaya onlardan ayrılmış və təkbaşına meşə ilə getməyə başlamışdır. O, şiddətli qarın yağdığı şaxtalı havada 6 saat meşədə yol getdikdən sonra bir kəndə rast gəlmiş, kənddən 100 metr aralıda qarşısına silahsız, hərbi geyimli bir oğlan çıxmışdır. O, Əbülfətdən hara getdiyini soruşaraq, qarşıdakı kənddə azərbaycanlıların yaşadığını söyləmişdir. Bu vaxt kənardan peyda olan saqqallı və silahlı digər erməni həmin oğlanla birlikdə Əbülfətə hücum edərək onu yerə yıxıb təpikləmiş, sonra isə kəndə – başçılarının yanına aparmışlar. Əbülfətin üstündəki pulu və sənədləri əlindən alan ermənilər onu iki gün əvvəl tutduqları 150 nəfər Xocalı sakininin saxlanıldığı fermaya salmışlar. Sonra ermənilər qadın və uşaqları kişilərdən ayırmış, Əbülfət də daxil olmaqla iyirmiyədək azərbaycanlı girovu üstüaçıq "KAMAZ" markalı yük avtomobilinə mindirərək, Xankəndi istiqamətində yola düşmüşlər. Əsgəran rayonu, Naxçıvanlı kənd yolu ilə gedərkən, Ə.Kərimov yolun kənarında çoxlu qadın və uşaq meyitlərinin olduğunu müşahidə etmişdir. İfadəsindən: "Təxminən 200-ə yaxın meyit yolboyu səpələnmişdi**,** Naxçıvanlı yaxınlığında və kəndin içərisində çoxlu hərbi geyimli saqqallı ermənilər var idi. Bizi Xocalıda inşaat materialları mağazasının yanında düşürdülər. Çoxlu sayda hərbi və mülki geyimli erməni üstümüzə töküldü və huşumuzu itirənədək döydülər. Məni 10-dan yuxarı erməni təpikləyirdi. Başıma rezin dəyənəklə, təpiklə vururdular. Yarım saat döydükdən sonra halsız vəziyyətdə əl-ayağımızdan tutub maşının yük yerinə atdılar. Şəhəri ermənilər və rus əsgərləri talan edirdi. Xocalı ilə Xankəndi arasındakı yol maşınlarla və piyada ermənilərlə dolu idi. Xocalıda evlərin çoxu yanmışdı, bir çoxunun isə çardağı tamam yanaraq tökülmüşdü. Dəhraz kəndinə aparılarkən, Əbülfət əvvəllər onunla birgə Xankəndindəki "Qarabağın 60 illiyi adına" Elektrotexnika zavodunda mühəndis işləmiş Yura adlı ermənini də orada görmüşdür. O, azərbaycanlıları söyür və: "Qarabağ bizim olacaq", – deyirmiş. Sonra onları Xankəndinə apararaq, Milis idarəsində saxlamışlar. Girovları hər gün bir neçə dəfə başqa-başqa adamlar döymüş və işgəncələr vermişlər. Milis serjantları Artur və Robik isə çox zaman kameraya sərxoş gəlir və azərbaycanlıları döymək məqsədi ilə özləri ilə saqqallı ermənilər gətirirmişlər. Onlar girovları rezin dəyənəklə, armaturla, təpiklə vururmuşlar. Orada ermənilərin işğal edərək qətliam törətdikləri Xocavənd rayonu, Qaradağlı kəndindən olan yaşlı bir girov işgəncələrə tab

gətirməyərək ölmüşdü. Əbülfət Kərimov 1992-ci il aprelin 25-də dəyişilmə yolu ilə azad edilmişdir. Əbülfət girovluqda olarkən müntəzəm olaraq erməni nəzarətçilər tərəfindən işgəncələrə məruz qalmışdır. Ermənilər dəfələrlə onun əlini kameranın dəmir qapısı arasına qoyaraq sıxdıqlarından, sol əlində iki, sağ əlində isə bir barmağı tamam sınaraq əyri bitmişdir. Sağ tərəfdən bir neçə qabırğası sınmış, ayaq sümükləri çatlamış, dizləri zərbələrdən əzilmişdir.

Kərimova Elmira Şahmalı qızı – 1957-ci ildə Azərbaycan Respublikasının Ağdam rayonunda doğulmuş, sonra ailəsi ilə birgə Xankəndi şəhərinə köçmüş, 1988-ci ildə ermənilər tərəfindən qovulduqdan sonra Xocalı şəhərində məskunlaşmışlar. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 3 mart 1992-ci ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

1992-ci il fevralın 25-dən 26-na keçən gecə işğalçı Ermənistan ordusunun Xocalıya hücumu zamanı, Elmira Kərimova ailəsi ilə birlikdə xilas olmaq üçün əhaliyə qoşularaq dəstələrlə meşəyə üz tutmuşlar. Səhərə yaxın Əsgəran rayonu, Naxçıvanlı kəndindəki ara yolda sarı rəngli "UAZ" markalı maşın, zirehli döyüş maşını və tankın gəldiyini görüb meşədəki xəndəkdə gizlənmişlər. Bu vaxt onlara yaxınlaşan Vasif adlı Xocalı şəhər sakini qardaşının meşədə ermənilər tərəfindən qətlə yetirildiyini söyləmişdir. Bir qədər keçdikdən sonra erməni hərbçilər onları mühasirəyə almış, Kərimova Elmiranı, həyat yoldaşı Əsədov Yalçın Asif oğlunu, oğlu Anarı, qızı Nərgizi, bacısı Sadıqova Züleyxanı, onun qızı Yeganəni, Xocalı sakini Rəsulun həyat yoldaşını, anası erməni olan Juliyanı, onun bacısı Laləni (girov düşəndən sonra adının Laura olduğunu bildirirdi) və digərlərini girov götürmüşlər. Girov düşdükləri vaxt Elmira Kərimova tanımadığı yaralı bir azərbaycanlı qadının ağzına atəş açaraq ermənilər tərəfindən öldürdüklərinin şahidi olmuşdur. Bir silahlı erməni həyat yoldaşı Yalçını avtomatın qundağı ilə vurub başını partlatmış, axan qanı silmək istəyən Elmiranı isə yerə yıxaraq təpikləmişdir. Ermənilər girovların hamısını Əsgəran Milis idarəsinə aparmış, onların pullarını, sənədlərini və zinət əşyalarını döyə-döyə əllərindən almış, qızıl dişlərini isə kəlbətin, vintaçan və ya hər hansı bir metal əşya ilə çıxarmışlar. Milis rəisi Ağacanyan Razmiki çoxdan tanıyan azərbaycanlı girovlardan biri ondan kömək istədikdə, o, yaraqlıların əksəriyyətinin Yerevandan gəldiyini və girovlara kömək edərsə, başının kəsiləcəyindən qorxduğunu bildirərək, yardım etməkdən imtina etmişdir.

Əvvəllər Xocalıda univermaqda işləyən və anası erməni olan Juliyanı meşədən çıxarkən adını bilmədikləri qardaşı girovlardan ayırıb "UAZ" markalı maşına mindirərək, harasa aparmışdı. Girov götürüldükləri günün sabahı Vaçik adlı erməni Juliyanı təkrar girovların yanına gətirmiş, onun şalını, paltosunu, ümumiyyətlə, bütün isti paltarlarını əlindən alıb girovlara vermiş, sonra saçından tutaraq "Satqınlıq edib müsəlmana ərə getmisən, oğlun və qızın var. İndi də satqınlıq edib ərini tullayıb, qardaşının evinə getmisən?" – deyərək, onu şillələmişdir. Əsgəran milisində saxlanıldıqları vaxt daim kameranın o biri tərəfindən güllə səsləri, azərbaycanlı girovların müxtəlif çığırtılarını: "dirsəyim çıxdı", "qolum qırıldı" kimi fəryadlarını eşidən E.Kərimova bir dəfə uşaqlarını ayaqyoluna apardığı vaxt qapının yanında qanlı parçaya bükülmüş üç insan başı görmüş, oradakı yaraqlı erməni isə ona "Sizin qəhrəmanların başıdır, qardaşlıq məzarında kəsib gətirmişik ki, itlərə yem edək", – söyləmişdir. Əsgəran milisində onlarla saxlanılan Ta-

maşa adlı qadın qapının arasından baxarkən, oğlu Vaqifin və yeznəsi Səlimin üzü üstə atılmış meyitlərini görmüşdür. Girovların yanına tez-tez gəlib-gedən Yura adlı erməni isə qadınları və qızları sorğu-sual bəhanəsi ilə aparır, sonra isə kameranın qapısını açaraq, zorlanmış qadınları halsız vəziyyətdə geri qaytarırmış. Ümumiyyətlə, orada ermənilər qadın və uşaqları tez-tez ayırıb rəisin otağına aparırmışlar. Əsgəranda saxlanılarkən həyat yoldaşı Əsədov Yalçın Asif oğlu qucağında saxladığı qızı Nərgizin üzündən son dəfə öpərək Elmiraya vermişdir. Bu hadisədən sonra E.Kərimova həyat yoldaşını bir daha görməmişdir. Gecələrin birində isə tanımadığı bir erməni əlində fənər kameraya daxil olaraq "Elmira kimdir? Qardaşı İntiqam, həyat yoldaşı Yalçın olan Elmira kimdir?" – soruşaraq girovları təpikləmiş, sonra E.Kərimovanı milis rəisi Ağacanyan Razmikin otağına aparmışdır. Gözləri və başı həddindən böyük, adi insana bənzəməyən bir saqqallı, yaraqlı erməni ona Azərbaycan dilində "İntiqam sənin qardaşındır? Hanı o, onu kim apardı, hara apardı?" və s. kimi suallar vermiş, qaneedici cavab almadığından Elmiranın sifətinə tüpürmüş, vəhşi kimi qışqırıb, saçından dartaraq zərbə ilə boynuna vurmuşdur. Huşunu itirən Elmira yalnız kamerada bacısı Züleyxanın dizləri üstündə gözlərini açaraq özünə gəlmişdir. Əsgəran milisində saxlandıqları vaxt oraya yeni gətirilmiş girovlardan Xocalı şəhər sakini Xəzəngül adlı qadın tez-tez qapını döyərək erməni nəzarətçilərə "Başım ağrıyır, mənə dərman verin!" – deyərək qışqırırmış. Erməni həkim ona balaca həb vermiş, nəticədə, bir neçə gündən sonra dəyişdirilərək girovluqdan azad olunmuş qadın qısa zamanda zəhərlənərək ölmüşdür. Beş gün girov saxlandıqdan sonra Elmira və qızı Nərgiz bir neçə qadınla birgə bir erməni hərbçinin meyiti ilə dəyişdirilərək, girovluqdan azad olunmuşlar. Azad edilərkən bir erməni E.Kərimovanın saçından tutaraq: "Hamınızı qıracağıq. Ağdamı da alacağıq. Əgər Ağdamda mənim əlimə keçsən, sənin başını mən özüm kəsəcəyəm", – demişdir.

Kolesov Dmitri Yuryeviç – 1980-ci ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur, milliyyətcə rusdur. 23 oktyabr 1999-cu ildə ermənilər tərəfindən əsir götürülmüş, 18 iyul 2000-ci ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

1999-cu ilin oktyabrın 23-də ön cəbhədə, Cəbrayıl rayonu ərazisində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində iki nəfər əsgər yoldaşı ilə səngərdə olarkən qəflətən başına ağır zərbə dəymiş və huşunu itirmişdir. Özünə gələndə ermənilərin onu əsir götürdüyünü anlamışdır. Erməni hərbçilər D.Kolesovu ağ rəngli "Niva" markalı maşına mindirərək, işğal etdikləri Füzuli rayonunda yerləşən ikimərtəbəli binaya aparmış, onu ikinci mərtəbədən atmaqla hədələmişlər. Elə həmin gün gözlərini bağlayıb yenidən maşına mindirmiş və "Lələtəpə" deyilən yüksəklikdəki mövqelərinə aparmışlar.

Sorğu-sual edən 35-40 yaşlarında mayor rütbəli zabitin göstərişi ilə ermənilər Kolesovu armatur, rezin dəyənəklərlə döymüş və itləri üstünə buraxmışlar. İtlərin dişləyərək ciddi xəsarətlər yetirməsinə baxmayaraq, ermənilər onu yenidən döymüş, yaralı yerlərinə zərbələr endirərək işgəncə vermişlər. Sonra ermənilər Dmitrini Cəbrayıl rayonu ərazisində olduğu ehtimal edilən üçmərtəbəli qərargaha aparmış və rezin dəyənəklə yenidən döymüşlər. Üç gündən sonra gözlərini bağlayaraq, Ermənistan Respublikasının ərazisində yerləşən qauptvaxtaya salmışlar. Qriqoryan *(sonradan Ermənistan Müdafiə nazirinin müavini işləmiş general Qriqoryan Manvel Sedrakoviçi fotoşəkildən tanımışdır – tərt.)* soyadlı zabit D.Kolesovu sorğu-sual etmiş və döydürmüş-

dür. Orada saxlanılan müddətdə ermənilər iki dəfə hansısa məhlulu iynə ilə Dmitrinin bədəninə yeritmişlər. Hər dəfə iynədən sonra qızdırması qalxmış, özünü pis hiss etmiş və başı fırlanmışdır. Bundan başqa, erməni silahlıları armatur və rezin dəyənəklərlə vuraraq qəsdən onurğa sütununa ciddi zədələr yetirmişlər. Sonra mayor rütbəli bir hərbçi Dmitrinin gözlərini və əllərini bağlayaraq maşına mindirmiş və Yerevan Hərbi Polisinə aparmışdır. Hərbi Polisdə bir gözü sarıqlı, möhkəm bədənli erməni müntəzəm olaraq onu döymüş və öldürəcəyi ilə hədələmişdir. 3-4 gün beton döşəməsi olan soyuq kamerada saxladıqdan sonra maşına mindirərək, digər hərbi əsir Rzayev Vaqif Kərəm oğlu ilə birlikdə Yerevan Təhlükəsizlik Komitəsinə gətirmişlər. İki gündən sonra Rzayev Vaqifi harasa aparan ermənilər Dmitrini Vaqan Sergeyeviç Arutunyan adlı məhbusun saxlanıldığı kameraya salmışlar. Üç ay Vaqan Arutunyan ilə bir kamerada saxlandıqdan sonra onu Ermənistan Parlamentində 8 nəfər deputatın ölümü ilə nəticələnən silahlı basqının iştirakçısı olmuş Vram adlı terrorçunun saxlanıldığı kameraya, sonra isə 10 nəfərədək azərbaycanlı əsirin saxlanıldığı kameraya salmışlar. Dmitri azad edilənədək, ermənilər onun olduğu kameraya Mehdiyev Elnur Fərman oğlunu, ad və soyadlarını bilmədiyi daha iki əsiri yerləşdirmişlər. Ermənistan hərbçiləri Mehdiyev Elnur Fərman oğlunu səhərədək şaxtada, qarın üstündə saxlamış, don vurmuş 5 ayaq barmağını müalicə etmək əvəzinə kəsmişlər. Dmitri Kolesov 18 iyul 2000-ci il tarixdə azad olunmuşdur.

Kərimov Ərəstun Həsən oğlu – 1971-ci ildə Şəki rayonu, Baş Göynük kəndində doğulmuşdur. 13 oktyabr 1992-ci il tarixdə əsir götürülmüş, 13 may 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ağdərə rayonunun Çıldıran – Sırxavənd kəndləri istiqamətində döyüş tapşırığını yerinə yetirərkən Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Ermənistan hərbçiləri tərəfindən möhkəm döyülmüş, burnu sındırılmış və nəticədə huşunu itirmiş vəziyyətdə Xakəndində yerləşən həbsxanaya gətirilmişdir. Yenicə özünə gələn Ərəstunu və orada saxlanılan digər azərbaycanlı əsir və girovları Vartanyan Slavik Yefremoviç və tanımadığı digər erməni hərbçilər yumruq, təpik və rezin dəyənəklə döyərək dəhşətli işgəncələr vermişlər. S.Vartanyan Ə.Kərimovu o qədər döymüşdür ki, üzündəki şişlərdən o, 15 gün görmə qabiliyyətini itirmişdir. Bundan əlavə, Ərəstun ac-susuz vəziyyətdə saxlanılmış, yalnız 13 gündən sonra ona bir tikə quru çörək və bir stəkan su vermişlər. Ermənilər görmə qabiliyyəti təzə bərpa olunmağa başlayan Ərəstunu 16 gün beton döşəməli soyuq kamerada saxladıqdan sonra yaxınlıqda yerləşən, taxtadan hasara alınmış bir yerə gətirmişlər. Qapını açdıqda erməni hərbçilərindən biri Ə.Kərimovu təpiklə vuraraq, 7-8 metr dərinliyi olan zirzəmiyə yıxmışdır. Əlləri və bədəni əzilmiş Ərəstun orada 15-20 nəfər mülki və hərbi geyimli meyitlər, həmçinin zirzəminin tavanından asılaraq qətlə yetirilmiş 25-27 yaşlı azərbaycanlı hərbçinin cəsədini görmüşdür. Ə.Kərimov ertəsi gün "UAZ" markalı avtomobillə Nəzərov Aqşin Nəcmi oğlu, Həmidov İlham Oqtay oğlu və adını xatırlamadığı 18-20 yaşlı digər azərbaycanlı əsirlə birlikdə Ermənistan Respublikasının Gorus rayonunun Milis şöbəsinə gətirilərək, digər əsir-girovların saxlanıldığı kameraya salınmışdır. Azərbaycanlı əsir-girovlar burada da, əsasən, ac-susuz və çirkab içində saxlanılaraq, tibbi yardımdan məhrum olmuşlar. Nəticədə sol ayağından güllə yarası almış Məmmədov Vəfadar əsirlikdə ölmüşdür. Sergey adlı erməni nəzarətçi əsirlərə onun meyitini haradasa basdırdığını söyləmişdir.

Təxminən ay yarım orada saxlanılan əsir-girovları ermənilər Ararat rayon Milis şöbəsinə gətirmişlər. Orada saxlanıldıqları müddətdə Nurik adlı erməni nəzarətçi qeyri-insani şəraitdə saxlanılan, həddindən artıq soyuq kamerada beton döşəmənin üstündə yatmağa məcbur edilən azərbaycanlı əsir və girovları müntəzəm olaraq küt alətlərlə vəhşicəsinə döymüş və işgəncələr vermişdir. 1993-cü ilin mart ayında Yerevanda yerləşən köhnə qadın həbsxanasına köçürülən Ərəstun və digər azərbaycanlılar orada da işgəncə və döyülmələrə məruz qalmışlar. Erməni nəzarətçi Samvel isə əvvəllər Gəncə şəhərində qonşu olduqları Natiq adlı azərbaycanlı əsirə işğal etdikləri Şuşa şəhərində yeraltı həbsxanada çoxlu azərbaycanlı qadının girov saxlanıldığını söyləmişdir. Kərimov Ərəstun Həsən oğlu 13 may 1993-cü il tarixdə əsirlikdən azad edilmişdir.

Qafarov Rauf Şəmşəddin oğlu – 1962-ci ildə Azərbaycan Respublikasının Füzuli rayonu, Kərimbəyli kəndində doğulmuşdur. 7 iyul 1994-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1994-cü il iyul ayının 7-də əsgər yoldaşları – Cəfərov Mübariz Qara oğlu, Ömərov Rafiq Əhməd oğlu və Məhərrəmov Orucəli Əhməd oğlu ilə birlikdə valideynləri ilə görüşmək üçün Kərimbəyli kəndindəki evlərinə gedərkən, 10-12 nəfər erməni hərbçi tərəfindən mühasirəyə alınaraq əsir götürülmüşlər. Onları Füzuli rayonunda yerləşən maşın yolunun kənarındakı ikimərtəbəli binaya aparmış, rezin dəyənək, lom, armatur, bel, yumruq və təpiklə döymüşlər. Verilən işgəncələr nəticəsində ağız-burunları partlamış, dişləri qırılmış, üz-gözləri qana boyanmışdır. Üç saat orada saxlandıqdan sonra Xankəndindəki qərargaha aparılmışlar. Orada Cəbrayıl sakini olan Ramazan İsmayılov *(əsirlikdə qətlə yetirilmişdir – tərt.)* adlı şəxsi görmüşdür. Qərargahın rəisi Aşot adlı erməni zabit imiş. Onlar qərargahda da hərbçilər tərəfindən lom, rezin və ağac dəyənəklər, armatur, şiş və təpiklə döyülmüşlər. Zərbələrdən Raufun sağ gözü ağır zədələnmiş, nəticədə görmə qabiliyyəti əhəmiyyətli dərəcədə zəifləmişdir. Əsirləri döyən ermənilərdən Raufun əvvəllər tanıdığı Armen adlı hərbçi mismardan düzəldilmiş kəlbətini Cəfərov Mübariz adlı əsirə verərək, onu öz qızıl dişlərini çıxarmağa məcbur etmiş, sonra alıb cibinə qoymuşdur. Fasiləsiz döyülməkdən tamam taqətdən düşən əsirlər halsız vəziyyətdə yerə yıxılırmış. Təxminən dörd saatdan sonra Raufu, Mübarizi, Orucəlini və Rafiqi 20 nəfərədək azərbaycanlı əsir-girovun saxlandığı Xankəndi müvəqqəti saxlama təcridxanasına aparmışlar. Təcridxananın rəis müavini Artur istədiyi vaxt kameranın qapısını açaraq əsir-girovları yumruq, təpik, müxtəlif alətlərlə döymüş, axşam saat 9-dan sonra isə onları mülki şəxslərə döydürmüşdür. Onları döyərək əzab verən mülki şəxslər çox zaman sərxoş vəziyyətdə olmuşlar. Orada saxlanıldıqları müddətdə əsir-girovlar kameranın soyuq beton döşəməsinin üstündə yatmağa məcbur olmuşlar. Elə həmin vaxtlarda BQXK nümayəndəsi Mark onları qeydiyyata götürmüş və ara-sıra yardımlar gətirmişdir. Markın əsir-girovlara gətirdiyi paltarları Artur götürmüş, ərzaq mallarını isə erməni nəzarətçilər öz aralarında bölüşdürmüşlər. 1994-cü ilin avqust ayında bütün azərbaycanlı əsir-girovlar Xankəndi təcridxanasından işğal edilmiş Şuşa şəhərindəki həbsxanaya köçürülmüşlər. Xeyli sayda azərbaycanlının saxlanıldığı Şuşa həbsxanasına gətirilən əsir-girovları, həbsxananın "qaydalar"ına uyğun olaraq, erməni hərbçilər və nəzarətçilər əllərində buraz, zəncir, lom, armatur, bel, kabel, simli dəyənəklə qarşılayaraq vəhşicəsinə döymüşlər. Şuşa həbsxanasında saxlandıqları zaman

Qor, Con, Lyoxa, Slavik, Armen, Raçik adlı nəzarətçilər və hərbçilər, həmçinin kənar şəxslər mütəmadi olaraq əsir-girovları dəhlizə çıxarıb əllərinə düşən alətlərlə möhkəm döymüş, bundan sakitləşməyərək həyətə çıxarıb orada da döymüş, sonra hamını yerə uzadıb kürəklərində o tərəf-bu tərəfə qaçaraq ölümcül vəziyyətə salmışlar. Nəzarətçi Armen isə bellə Sədrəddinin sağ qolunu vurub qırmışdır. Qor adlı nəzarətçi tərəfindən Şuşadakı xəstəxanaya aparılıb təmir işləri gördükdən sonra geri qaytarılan Rauf və bir neçə nəfər azərbaycanlı Mübariz adlı əsirin əlləri iplə bağlı vəziyyətdə, ağız-burnunun qan içində olduğunu görmüşlər. Bu vəziyyətə nəzarətçi Qor tərəfindən salındığını söyləyən Mübarizin sağ qolu ciddi xəsarət aldığından hadisədən sonra bükülü qalmışdır.

10-15 gündən sonra Raufla birlikdə 20 nəfəri Xocavənd rayonunun Mısmına kəndinə aparıb, əvvəllər mağaza olmuş tikiliyə salmışlar. Azərbaycanlı əsir-girovları qul kimi sutkada 17-18 saat, bəzən daha çox işlədən ermənilər Mısmınada onlara 8 ədəd ikimərtəbəli yaşayış binası, Qarabağın "ordu komandanı" Samvel Babayan üçün dördmərtəbəli villa, içərisi ağ mərmərlə hörülmüş iri su hovuzu, böyük bir bulaq, hündürlüyü 7, uzunluğu 50 metr olan bir taxıl anbarı, uzunluğu 60 metr, eni 6-7 metr olan toyuq ferması, iki ədəd eyni ölçüdə donuz ferması, donuzlar üçün yem anbarı, torpaq sürüşməsinin qarşısını almaq üçün bəndlər və s. tikdirmişlər. Tikintilərdə istifadə olunan materiallar isə Ermənistan ordusu tərəfindən işğal edilmiş Azərbaycan ərazilərindəki yaşayış məntəqələrinin əsir-girovlara sökdürülməsi hesabına əldə edilmişdir. Əsir-girovları müxtəlif vaxtlarda 7-8 nəfərlik qruplar halında aparıb, evləri, inzibati binaları və tarixi tikililəri sökdürmüş, əldə edilən mişar daşlarını, eləcə də başqa tikinti materiallarını maşınlara yüklədərək işğal edilmiş Qarabağın və Ermənistanın müxtəlif bölgələrinə, həmçinin Mısmına kəndinə daşımışlar. Samvel Babayanın villasındakı su hovuzunun tikintisində işlədilən ağ mərmərlər Füzuli rayonundakı azərbaycanlılara aid qəbiristanlıqlardan sökülüb çıxarılmışdır. Mısmınadakı bütün tikinti işlərinə Samvel Babayanın yaxın qohumu Armais rəhbərlik etmişdir. Armais əsir-girovları bütün işləri qaça-qaça görməyə məcbur etmiş, bir anlıq dayananı burazla döymüşdür. Mısmınadakı "Koşka" ləqəbli Artur, Karo, ortaboylu Andrey, balacaboylu Andrey, "Kruqlyak" ləqəbli Andrey, Vazgen, Davud və Artur adlı nəzarətçilər, demək olar ki, hər gün axşamlar saat 10-dan sonra spirtli içki içib, marixuana çəkdikdən sonra əsir-girovların saxlanıldıqları yerə girib küt alətlərlə onları döymüşlər. Bir dəfə onlar Firudin adlı əsiri aparıb maşın düzəltdirərkən montaj aləti ilə möhkəm döydükləri üçün o, iki gün özünə gəlməmişdir. Mısmınada yerli ermənilər də Artur və Armaisdən icazə alaraq əsir-girovları aparıb öz həyətlərində əli silahlı ermənilərin nəzarəti altında müxtəlif işlərdə işlətmişlər. Rauf, beyləqanlı Namiq, neftçalalı Eyvaz, sabirabadlı Müşfiqlə şəxsi həyətlərdə işləyərkən çoxlu miqdarda marixuana kolları görmüşdü. Bir dəfə əsir-girovları işğal edilmiş Füzuli rayonunda söküntüdə işlətdikdən sonra geri qaytararkən nəzarətçilərdən Karo, Andrey, Davud və "Koşka" ləqəbli Artur maşını yolda saxlatdırıb nahar etmiş, spirtli içki və narkotik maddələr qəbul etmişlər. Artur içdikləri araq şüşəsini Rəbi adlı əsirin başına qoyaraq avtomatla nişan alıb atəş açmışdır. Güllə Rəbinin başını sürtüb keçmiş və beyin sümüyünü zədələmişdir. Bundan sonra həmişə özünü pis hiss edən Rəbi tez-tez baş ağrılarından şikayətlənmişdir.

Mısmınada saxlanıldıqları zaman ermənilər çaqqal tutub dərisini soyduraraq götürdükdən sonra ətini əsir-girovlara yedirtmişlər. Çaqqal əti acı və yeməli olmasa da,

azərbaycanlı əsir-girovlar ölməmək üçün onu yeməyə məcbur olmuşlar. Mısmınada işlədilən azərbaycanlılara yeməyə adətən ancaq quru çörək, hərdən yağsız buğda suyu verilmişdir. BQXK-nın verdiyi ərzaqları isə Armais mənimsəyərək götürürdü. 1995-ci il oktyabrın axırlarında Mısmına kəndində işlər başa çatdıqdan sonra bütün əsir-girovları Şuşa şəhərinə aparmışlar. Şuşa türməsində əsirlərin hamısını müxtəlif vaxtlarda dəstə-dəstə Şuşa qəbiristanlığına aparır, oradakı mərmər baş və sinə daşlarını, metal şəbəkələri sökdürür, maşınlara yüklədərək müxtəlif istiqamətlərdə daşımışlar. Bu səbəbdən Rauf Şuşa qəbiristanlığında bir dənə də olsun mərmər qəbir daşı görməmişdir. Baş daşlarının hamısı sındırılıb dağıdılmış, meyitlərin ağzındakı qızıl dişləri qarət etmək məqsədi ilə qəbirlərin əksəriyyəti yan tərəfdən qazılmışdı. Bundan başqa, Rauf əsir yoldaşları ilə Şuşada yer qazarkən məscidin minarəsində ermənilərin qara mərmərdən xaç hördüyünü də görmüşlər. Əsirlərdən 10-12 nəfərini Ağdama aparıb, dəmiryol relslərini sökdürərək maşınlara yüklətmişlər. Şuşa həbsxanasının rəis müavini Qarik işğal olunmuş rayonlardan əlvan metal yığdıraraq iranlılara satmaqdan əldə etdiyi gəlirlə özünə avtomobil almışdı. 1996-cı il may ayının 9-da Şuşa həbsxanasında saxlanılan əsir-girovlar BQXK-nın maşınları ilə Yerevan şəhərinə gətirilərək qaraja bənzər bir tikiliyə salınmışlar. Axşam saat 10-dan sonra oraya gələn erməni hərbçilər: "Sizi öldürməsək də, şikəst edəcəyik", – deyərək əsir-girovların hamısını təpik və yumruqla vuraraq döymüş, xüsusilə qarın və böyrək nahiyələrinə zərbələr endirmişlər. Ertəsi gün oraya gəlib onları dəhşətli vəziyyətdə görən BQXK-nın əməkdaşı Pyer özünü saxlaya bilməmiş, hönkürərək ağlamışdır. Azərbaycanlı əsir-girovlar növbəti gün – 10 may 1996-ci il tarixdə Rusiyanın vasitəçiliyi ilə əldə edilmiş razılaşmaya uyğun olaraq azad edilmişlər.

Qaraşov Telman İsmayıl oğlu – 1947-ci ildə Azərbaycan Respublikası, Qubadlı rayonunun Həmzəli kəndində doğulmuşdur. 30 avqust 1993-cü il tarixdə girov götürülmüş, 7 sentyabr 1993-cü ildə azad olmuşdur. İfadəsində bildirmişdir:

1993-cü il avqustun 30-da yaşadığı Qubadlı rayonu işğal olunarkən Ermənistan hərbçiləri tərəfindən girov götürülən Telman Qaraşov Muğanlı kənd sakini, məktəb direktoru Nəzərov Fazil və Əhmədlə birlikdə bir həftə müddətində rayonun Şotlanlı kəndində yerləşən tövlədə saxlanılmışdır. Girov olduqları müddətdə adlarını bilmədikləri ermənilər tərəfindən gündə bir neçə dəfə heç bir səbəb olmadan ağac dəyənək, armatur, avtomat qundağı ilə döyülərək, işgəncə verilmişdir. Onlar bir həftə ərzində ac-susuz saxlanıldıqlarından danışmağa, tərpənməyə taqətləri qalmamış, susuzluqdan məcburən daşları yalamışlar. Sonuncu gün ermənilər Fazil müəllimi və Əhmədi huşlarını itirənədək döymüş, Telmanı isə oraya gəlmiş yüksək rütbəli erməni qadının göstərişi ilə döyüşdə həlak olmuş oğlunun qəbri üzərində qurban kəsmək üçün bir erməni mülki şəxsə vermişlər. Həmin şəxs onu götürüb apararkən, yaxınlıqda "Qrad" mərmisi partladığından qarışıqlıq düşmüş və yaranmış vəziyyətdən istifadə edən Qaraşov Telman İsmayıl oğlu oradan qaçaraq xilas ola bilmişdir.

Qaraşov Əlizamin Telman oğlu – 1979-cu ildə Azərbaycan Respublikası, Qubadlı rayonunun Həmzəli kəndində doğulmuşdur. 1 sentyabr 1993-cü ildə girov götürülmüş, 6 oktyabr 1994-cü il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

1993-cü ildə yaşadığı Qubadlı rayonu Ermənistan ordusu tərəfindən işğal olunan zaman qaçmaq istəyərkən, Rüstəmov Bayram, Yusifov Kərəm, Əliyev Mehman *(qətlə*

yetirilmişdir – tərt.) adlı həmyerliləri ilə birlikdə girov götürülmüşdür. Erməni hərbçilər onların qollarını bağlamış və səhərədək avtomatın qundağı ilə başlarına, sifətlərinə zərbələr endirərək döymüş, alçaltmış və söyüb təhqir etmişlər. Ertəsi gün onlar Xocavənd rayonuna aparılmış, hərbçilər tərəfindən işgəncələrə məruz qalmışlar. Sonra girovları Xankəndinə aparıb həbsxanaya salmışlar. Orada saxlanıldıqları müddətdə Aşot, Maksim, Armen və başqa nəzarətçilər əsir-girovlara ağır fiziki işgəncələr vermiş, Azərbaycan əsgərinin kəsilmiş başını gətirib göstərərək, onlara psixoloji əzab vermişlər. Əlizamin və digər girovlar xəstə olduğu üçün işləyə bilməyən Qubadlı rayonunun Həmzəli kəndindən olan Zakir adlı əsirin erməni əsgər və zabitləri tərəfindən işgəncə verilərək öldürülməsinin şahidi olmuşlar. Ermənilər onun meyitini basdırmağı Yusifov Kərəm adlı girova tapşırmışlar.

Əlizamin azyaşlı olmasına baxmayaraq, hər gün Maksim və Aşot adlı erməni nəzarətçilər tərəfindən armaturla döyülərək, işgəncələrə məruz qalmışdır. Başına vurulan armatur zərbələrindən ağır kəllə-beyin travması almış Ə.Qaraşov girovluqdan azad olunduqdan sonra müalicə olunmasına baxmayaraq, tez-tez baş ağrılarından əziyyət çəkir və xəstələnir.

Qarayev Bəşir Qəzənfər oğlu – 1972-ci ildə Azərbaycan Respublikası, Kəlbəcər rayonunun Taxtabaşı kəndində doğulmuşdur. 31 mart 1993-cü ildə girov götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü il mart ayının 31-də Kəlbəcər rayonunun Ermənistan hərbçiləri tərəfindən işğalı zamanı xilas olmaq məqsədi ilə yük maşınlarında ərazidən çıxmaq istəyən əhali "Tunel" adlanan yerdə ermənilərin atəşinə məruz qalmış və Bəşirin atası Qəzənfər Qarayev ermənilər tərəfindən öldürülmüşdür. Azğınlaşmış erməni hərbçiləri atasının meyitinin üstünə benzin töküb yandırmışlar. Hadisə zamanı ermənilər Bəşirin atasından başqa, aralarında qadın, uşaq və qocaların da olduğu daha 28-30 nəfər silahsız dinc Kəlbəcər sakinini qətlə yetirib maşınla birlikdə yandırmışlar. Yandırılanların arasında Bəşirin bibisi qızının həyat yoldaşı Əzizov Vəli Asif oğlu da olmuşdur. Onların arxasınca gələn "QAZ 53" markalı maşını da atəşə tutan erməni hərbçilər məktəb direktoru işləmiş Aslan müəllimi, qızı Afəti və onlarla həmkəndlilərini də qətlə yetirmişlər. Bütün meyitləri hadisə yerində qoyan ermənilər sağ qalan girovların hamısını maşına yığıb, işğal etdikləri Ağdərə rayonunun ermənilər yaşayan Drombon kəndinə aparıb zirzəmiyə salmışlar. Tibbi yardım göstərilmədiyindən yaralı girov Qarayev İslam Məhəmməd oğlu orada ölmüş və digər girovlar tərəfindən basdırılmışdır. Səhərə yaxın girovları maşına yığıb Xankəndi şəhərinə aparan ermənilər yaralıların hamısını uşaq xəstəxanasında yerləşdirmişlər. Bəşiri isə girov Quliyev Fərman Məhəmməd oğlu və adını bilmədiyi iki nəfər əsirlə birlikdə işğal edilmiş Şuşa şəhərindəki 10 nəfərədək əsir-girovun saxlanıldığı həbsxanaya gətirmişlər. Şuşa həbsxanasında saxlanıldığı müddətdə B.Qarayev gün ərzində bir neçə dəfə erməni hərbçilər və nəzarətçilər tərəfindən döyülmüş, mütəmadi olaraq işgəncələrə məruz qalmış və bu kimi hadisələrin şahidi olmuşdur. Ermənilər hər gün onları həbsxananın həyətində süründürmüş, lomla, bellə döyüb əl-ayaqlarını əzmiş, cins itləri onların üstünə buraxmış, gecələr it kimi hürməyə məcbur etmişlər. Demək olar ki, ac-susuz saxlanılan əsir-girovlar kameraların beton döşəməsinin üstündə və ya

dəmir çarpayılarda döşəksiz yatmağa məcbur olmuşlar. BQXK-nın onlara verdiyi paltar, yataq dəstləri və s. yardımları erməni nəzarətçilər əllərindən almışlar. Bundan başqa, Karo və Slavik adlı nəzarətçilər, həmçinin həbsxananın sürücüsü Vanya əsir-girovları ayrı-ayrı vaxtlarda Ağdama və işğal edilmiş digər ərazilərə aparıb evləri sökdürmüş, daşları və digər tikinti materiallarını maşınlara yüklədib Mısmına kəndinə daşıtmışlar.

Qarayev Bəşir Qəzənfər oğlu 10 may 1996-cı il tarixdə girovluqdan azad edilmişdir.

Qasımov Afiq Əjdər oğlu – 1974-cü ildə Azərbaycan Respublikası, Füzuli rayonunun Seyidmahmudlu kəndində doğulmuşdur. 4 yanvar 1994-cü il tarixdə əsir götürülmüş, 24 aprel 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Füzuli rayonunun Aşağı Veysəlli kəndi ərazisində gedən döyüşlər zamanı Ermənistan Silahlı Birləşmələrinin qəfil hücumu nəticəsində 30 nəfərədək itki verdikdən sonra Qasımov Afiq Əjdər oğlu 5 nəfər döyüş yoldaşı ilə birlikdə əsir götürülmüşdür. Onları Xocavənd rayonunun Qırmızı Bazar kəndinə gətirib fermaya salmış və dörd ay ərzində qapalı şəraitdə saxlamışlar. Onlar əsirlikdə saxlandığı bütün müddət ərzində fiziki, mənəvi-psixoloji işgəncələrə məruz qalmış, Ağdam rayonundan olan Habil adlı əsir ermənilər tərəfindən vəhşicəsinə döyülüb öldürülmüşdür.

Qasımov Afiq Əjdər oğlu 24 aprel 1994-cü il tarixdə əsirlikdən azad edilmişdir.

Qasımov Əbülfət Aslan oğlu – 1966-cı ildə Azərbaycan Respublikası, Mingəçevir şəhərində doğulmuşdur. 14 fevral 1994-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ağdam rayonunun Ermənistan Silahlı Birləşmələrinin hücumlarından müdafiəsi zamanı gedən döyüşlərdə əsir götürülüb, rayonun işğal edilmiş Şahbulaq kəndinə aparılmış, amansızcasına döyülmüşdür. Əbülfət Qasımov orada bir neçə əsirin saxlanıldığını da görmüşdür. Erməni hərbçilər onların arasından Bakı şəhərindən bir əsirin başını kəsmiş, qalanlarını isə işğal etdikləri Ağdam şəhərinə gətirmişlər. Burada əsirləri amansızcasına döyən ermənilər ayaqlarını don vurduğundan yalnız bir dəfə "Ayaqlarım ağrıyır", – deyən Həsən adlı əsirin heç bir ehtiyac olmadan ayaqlarını kəsmişlər. İki gün sonra Əbülfət Xankəndindəki təcridxanaya aparılmış və 1994-cü ilin fevral ayından 1996-cı ilin may ayına kimi Xankəndi və Şuşa həbsxanalarında saxlanılmışdır. Burada saxlanılan bütün azərbaycanlılar kimi, Ə.Qasımov da ağır fiziki işgəncələrə məruz qalmış, daim təhqir edilmiş və döyülmüş, ayrı-ayrı vaxtlarda Xocavənd rayonu, Mısmına kəndində təsərrüfat və tikinti işlərində işlədilmişdir. Ona və digər əsir-girovlara ən çox işgəncə verənlər Qor, Andrey, Roba Halo, Corc adlı ermənilər olmuşlar. Onlar əsir-girovları təkcə özləri döyməmiş, bir-birinə də döydürmüş, ləyaqətlərini alçaltmışlar. Şuşa həbsxanasında saxlanılarkən, 1995-ci ilin fevral-mart aylarında qonşu kamerada əslən Yardımlı rayonundan olan, təqribən 20 yaşlı Heydər adlı əsir erməni nəzarətçilər tərəfindən döyüldükdən sonra aldığı ağır bədən xəsarətlərindən ölmüşdür. Onun meyiti BQXK nümayəndələri Pyer və Elizabetin iştirakı ilə digər əsirlər Malıbəyli kəndindəki qəbiristanlıqda basdırılmışdır. Əbülfət Qasımov 10 may 1996-cı il tarixdə azad edilmişdir.

Qasımov Həsən Məmməd oğlu – 1930-cu ildə Azərbaycan Respublikası, Kəlbəcər rayonunun Milli kəndində doğulmuşdur. 3 aprel 1993-cü ildə girov götürülmüş, 19 avqust 1994-cü il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonunun Ermənistan ordusu tərəfindən işğalı zamanı, 1993-cü il aprelin 3-də həmkəndliləri – 60 yaşlı Nəbiyev Həmid Camal oğlu, 66 yaşlı Babayev Mehdi Məhəmməd oğlu, 60 yaşlı Nəcəfova Ağca Qasım qızı, 55 yaşlı Qasımova Pəri Talıb qızı və 25 yaşlı Camalova Gülzarla birlikdə ərazini tərk edərkən Qamışlı kəndində girov götürülmüşdür. Gülzar Camalova ermənilərin əlinə keçməmək üçün özünü çaya atmış və boğulmuşdur. Girov götürüldükdən sonra üstlərində olan əşyaların hamısını alıb özlərini möhkəm döyən erməni hərbçilər onları Drombon kəndinə aparmış, oradan isə Xankəndinə yola salmışlar. Həsəni, Həmidi və Mehdini Şuşa həbsxanasında, qalanlarını Xankəndi uşaq bağçasında yerləşdirmişlər. Şuşa həbsxanasında nəzarətçi və hərbçi ermənilər əsir-girovlara qarşı amansızcasına davranmış, onları gün ərzində bir neçə dəfə döymüş, işgəncələrə məruz qoymuşlar. Mehdi və İlqar adlı əsirlər döyülmələrə və verilən işgəncələrə dözməyib ölmüşlər. Andranikin *(XX əsrin əvvəllərində Türkiyə və Azərbaycan ərazilərində türk-müsəlman əhaliyə qarşı soyqırımı törətmiş erməni general – tərt.)* ölüm günündə əsir-girovları sıraya düzən ermənilər Həmid adlı əsiri irəli çıxarıb hamının gözü qarşısında güllələmişlər. Ümumiyyətlə, Əbülfət Şuşa həbsxanasında saxlanıldığı müddətdə 15 nəfərdən artıq əsir-girovun ağır fiziki işin öhdəsindən gələ bilmədiyi üçün və digər bəhanələrlə döyülüb öldürüldüyünün şahidi olmuşdur. Onların bir qismi işgəncələr nəticəsində daxili orqanlarının zədələnməsindən əzab çəkə-çəkə ölmüşlər. Həsən Qasımov 19 avqust 1994-cü il tarixdə azad olunmuşdur.

Qaybalıyev Fazil Abdulla oğlu – 1957-ci ildə Azərbaycan Respublikası, Ağdərə rayonunun Orta Güney kəndində doğulmuşdur. 1989-cu il noyabrın 20-də girov götürülmüş, noyabrın 28-də azad edilmişdir. İfadəsində bildirmişdir:

Münaqişə başlanan vaxtda o, Ağdərə rayonu, Canyataq kolxozunun 23 ailə və 93 nəfər sakindən ibarət olan Binələr kəndində yaşamışdır. Kəndi erməni terrorçu-quldur dəstəsinin hücumundan yalnız bir neçə ov tüfəngi ilə silahlanmış mülki əhali qorumuş və müqavimət göstərib onların qarşısını almağa çalışmışdır. Müəyyən vaxtdan sonra müqavimətin əbəs olduğunu görən azərbaycanlılar tam silahlanmış terrorçu-quldur dəstəsi ilə danışıqlara gedib kəndi tərk etməyə razılıq vermiş, bunun müqabilində ilk növbədə uşaq və qadınların kənddən çıxarılmasına imkan verilməsini istəmişlər. Ermənilər şərti qəbul etdikdən sonra azərbaycanlı kişilər uşaqlarla qadınları Ağdamın Soltanlı kəndinə keçirmiş, özləri isə vədlərinə əməl edib ov tüfənglərini onlara təhvil verib təslim olmuş və beləliklə, doğma kəndləri işğal olunmuşdur. Vəziyyətdən istifadə edən erməni terrorçu-quldur dəstəsi əhalinin fəallarından olan – Qaybalıyev Fazil Abdulla oğlu, Quliyev Ramiz Fərman oğlu, Quliyev Məstan və Mikayılov Şiraslan Yəhya oğlunu girov götürüb, Ağdərə rayonuna aparıb xəstəxananın yanındakı meydançada dayanmış avtobusa salmışlar. Maşının qapı və pəncərələrini tam açıb qılınc kimi kəsən soyuq qış küləyi ilə girovların donub əzab çəkməsinə şərait yaratmışlar. Özləri isə yeyib-içməklə məşğul olmuş, sonra isə girovları küt alətlərlə döyməklə "kef" məclislərini davam etdirmişlər. Fazil orada olan ermənilərdən Canyataq kəndində yaşayan iki Vladiki, Osipyan Kandiki, Marquşevan kənd sakini, milliyyətcə erməni Şahini tanımışdır. Girovları

daha çox döyüb incidən silahlı erməni Şahin olmuşdur. Ertəsi günü onları Ağdərə rayonunun Ortakənd kəndinə, Balayan soyadlı ermənin həyətinə aparmış, sonra isə böyük soyuducu maşına salaraq soyuducunu işə salmışlar. Donmuş girovları soyuducudan çıxarandan sonra küt alətlərlə döyüb yenidən soyuducuya salmışlar. Növbəti gün girovları Ortakənddən yuxarıda yerləşən, buludların dağıdılması üçün top atılan yerə – "Topatılan yal" adlanan əraziyə aparıb sıraya düzüb güllələmək istəmişlər. Bu vaxt ora yaxınlaşan "Jiquli" markalı maşından düşən bir erməni "Uşaqları tutublar, bunları güllələməyin, onlarla dəyişək", – demişdir. Məlum olmuşdur ki, girov götürüldüklərini öyrənən həmkəndliləri onları azad etmək məqsədi ilə bir neçə erməni silahlısını əsir götürmüşlər. Bu hadisədən sonra erməni silahlıları onları yenidən Orta Güney kəndinə qaytarıb, daha iki gün maşının soyuducusunda saxlamışlar. Beləliklə, bir həftə girov saxlanıldıqdan sonra azərbaycanlı girovlar 1989-cu il noyabrın 28-də azad edilmişlər.

Qəhrəmanova Əntiqə Baxşəli qızı – 1930-cu ildə Azərbaycan Respublikası, Laçın rayonunda doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 28 fevral 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinə hücum edən Ermənistan ordusu dinc əhalini qətlə yetirib evləri yandırmışdır. Xilas olmaq istəyən əhalinin bir qismi əkin sahələrinə tərəf, digər qismi isə yol qırağına səpələnmiş və dəstələrlə müxtəlif istiqamətlərdə qaçmağa başlamışdır. Ermənilər onları tank və döyüş maşınlarından açdıqları atəşlə qətlə yetirmiş, meyitləri Əsgəranın yaxınlığındakı silos quyusuna atıb üstünü traktorla torpaqlayıb örtmüşlər. Hücum zamanı Əntiqə ailə üzvləri ilə birlikdə meşəyə tərəf qaçmışdır. Həmin vaxt qızı Raya, onun həyat yoldaşı Təvəkkül Baxış oğlu, nəvələri – Xəzəngül, Yeganə, Nigar və digər qızı onunla birlikdə olmuşlar. Meşədə ermənilər Xocalı sakini Cananın oğlunun başını kəsmiş, başı Canana verərək onu azad etmişlər. Çiçək adlı cavan gəlinin döşünü və barmağını üzük qarışıq kəsib onu insanların gözləri qarşısında vəhşiliklə qətlə yetirmişlər. Qızının həyat yoldaşı Təvəkkül Baxış oğlu Əmirov silahlı olduğundan əhalini və ailəsini müdafiə etmək məqsədi ilə müqavimət göstərmişdir. Atışma zamanı ayağından və çiynindən yaralanmış Təvəkkül ağaclara söykənə-söykənə mülki əhali ilə birlikdə Əsgəran ərazisindəki şumlanmış əkin sahəsinə qədər gələ bilmişdir. Oradakı dinc sakinlərin yerini aşkar edən erməni silahlıları atəş açıb, atasının çiynində olan dörd yaşlı Nigarı yaralamışlar. Uşağın anası Raya yaralı qızı Nigarı qucağına götürdükdə ermənilər güllə ilə qadının başından vurub onu qətlə yetirmişlər. Azərbaycanlı dinc əhali xilas olmaq məqsədi ilə qaçmağa cəhd göstərdikdə, Ermənistan hərbçiləri atəş açıb Əntiqənin digər nəvəsi Yeganəni də qətlə yetirmişlər. Yaralı uşağa yaxınlaşmaq istədikdə "Yaxın getsəniz, hamınızı qıracağıq", – deyib onları hədələmişlər. Qızı Rayanın və nəvəsi Yeganənin meyitlərini orada qoyub, bir qədər getdikdən sonra, kürəkəni Təvəkkül yeriyə bilmədiyindən dayanmışdır. Bundan qəzəblənən erməni silahlıları Təvəkkülü yaralı ermənini qucağına götürüb aparmağa məcbur etmişlər. Özü güclə yeriyən Təvəkkül yaralı ermənini qucağına götürüb bir qədər apardıqdan sonra yerə qoymuş və "Daha apara bilmirəm, istəyirsiniz məni öldürün", – demişdir. Bundan sonra ermənilər Təvəkkülü Qarabağın ermənilərə məxsus olduğunu söyləməyə məcbur etməyə çalışmışlar. Təvəkkül isə bu torpaqlarda min illər boyu azərbaycanlıların yaşadığını, ulu babalarının burada dəfn edildiyini və Qarabağın tarixən Azərbaycana məxsus olduğunu söyləmişdir. Qəzəblənən

ermənilərdən biri avtomatın lüləsi ilə Təvəkkülə zərbə endirmiş və onu güllələmək istəmişdir. Təvəkkülün 10 yaşlı qızı Xəzəngül qaçaraq erməni əsgərinin ayaqlarını qucaqlayıb, ona "Ay erməni, anamı, bacımı öldürmüsən, heç olmasa atamı öldürmə, bəs bizi kim saxlayacaq?" – deyə yalvarmışdır. Onları bir qədər apardıqdan sonra Ermənistan hərbçiləri dayanmış və Təvəkkülü möhkəm döydükdən sonra yenə də ondan Qarabağın ermənilərin olduğunu söyləməyi tələb etmişlər. Təklifdən yenə də imtina edən Təvəkkül onlara "Adam ölümdən qorxub vətənini satmaz", – dedikdə, ermənilər onu daha da amansızcasına döymüş və məftillə ağaca bağlamışlar. Erməni silahlılarından biri benzini dizə qədər Təvəkkülün ayaqlarına töküb onu yandırmış, sonra isə "Yanırsan, de ki, Qarabağ ermənilərindir", – söyləmiş və alovu söndürmüşdür. Ermənistan əsgərləri "Qarabağ ermənilərindir", – deyərsə, Təvəkkülü azad edəcəklərini bildirsələr də, Təvəkkül onlara "Uşaqlarımı da gətirib yandırsanız, vətənimi satan deyiləm!" cavabını vermişdir. Bundan qəzəblənən Ermənistan hərbçiləri uşaqlarının gözü qarşısında benzini Təvəkkülün üstünə töküb onu diri-diri tamamilə yandırmış, bu əməlin uşaqlarına göz dağı olacağını bildirmişlər. Təvəkkülün yanmış meyiti ağaca bağlı vəziyyətdə meşədə qalmış, ermənilər Əntiqəni, qızı Çiçəyi, nəvələri – Nigarı və Xəzəngülü Əsgərana gətirib, orada qaranlıq bir binaya salmışlar. Ermənilər orada Əntiqənin qızı Çiçəyin üzüyünü, boyunbağısını və qulaqlarındakı sırğalardan birini zorla almışlar. Əntiqə Əsgəranda 30-35 nəfərə qədər azərbaycanlı girovun saxlanıldığını görmüşdür. Orada girovların pullarını, zinət əşyalarını alıb, uşaq, qadın və kişiləri ayrı-ayrı otaqlara salmışlar. Qonşuları Halayın üç oğlunu girovların arasında görən Əntiqə onlardan valideynləri barədə soruşmuşdur. Oğlanlar Əsgəranla Şelli arasında ermənilərlə danışıq apararaq, valideynlərinin azad edilməsi əvəzində özlərinin girov götürülməsi haqda razılığa gəldiklərini, bundan sonra ermənilərin Halayı və həyat yoldaşı Matanı azad etdiklərini və əvəzində onları girov götürüdüklərini demişlər.

Əntiqə Qəhrəmanova qızı Göyçək, nəvələri – Xəzəngül və Nigarla birlikdə 28 fevral 1992-ci il tarixdə girovluqdan azad olunmuşlar.

Qəniyev Ariz Məhərrəm oğlu – 1975-ci ildə Azərbaycan Respublikasının Siyəzən şəhərində doğulmuşdur. 10 yanvar 1994-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Füzuli rayonunun Qaraxanbəyli kəndi yaxınlığında müdafiə postunda olarkən Ermənistan hərbçilərinin gözlənilməz hücumu nəticəsində əsir götürülmüşdür. Ermənilər əsirlərin əl-qolunu bağlamış, xüsusi qəddarlıq və amansızcasına döyüb təhqir etmişlər.

Əsirlikdə olduğu müddətdə bir neçə məntəqədə saxlanılan A.Qəniyev hər yerdə eyni, qeyri-insani münasibətlə qarşılaşmış, döyülmüş, alçaldılmış və işgəncələrə məruz qalmışdır. Onu daha çox incidən və mənəvi əzab verən isə qədim Azərbaycan yaşayış məntəqələrinin, abidələrinin və qəbiristanlıqlarının dağıdılması və tar-mar edilməsi olub. İşğal edilmiş Şuşa şəhərindəki həbsxanada saxlanılarkən erməni hərbçilər Arizi Abuzər Manafov, Əli, Natiq, Ağagül, Nurəddin və adlarını xatırlamadığı digər əsir-girovlarla birlikdə azərbaycanlıların dəfn edildiyi qəbiristanlıqda işlədib, mərmər məzar daşları və qədim baş daşlarını sökməyə məcbur etmişlər. Mərmər daşlarından XX əsrin əvvəllərində Osmanlı İmperiyasının ordusundan qaçıb öz terrorçu-quldur dəstələri ilə Türkiyədə və Azərbaycanda türk-müsəlman əhaliyə qarşı soyqırımları törətmiş erməni

general Andranikin "şərəfi"nə Şuşa şəhərində ucaltdıqları abidənin tikintisində və digər məqsədlər üçün istifadə etmiş, qədim qəbir daşlarını isə Ermənistanın Yerevan şəhərinə göndərmişlər. Ariz Qəniyev 10 may 1996-cı il tarixdə azad olunmuşdur.

Qocayev Həsən Oruc oğlu – 1964-cü ildə Azərbaycan Respublikasının Zəngilan rayonunda doğulmuşdur. 14 fevral 1994-cü il tarixdə girov götürülmüş, 26 mart 1994-cü il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1994-cü ilin fevral ayında Şükürov Alısəfərlə birlikdə işğal edilmiş Əsgəran rayonu ərazisində Ermənistan hərbçiləri tərəfindən girov götürülmüşdür. 30-40 nəfər silahlı erməni onları girov götürən kimi möhkəm döymüş, paltarlarını soyundurub hər ikisini ayaqlarından asmışlar. Soyuq havada bu vəziyyətdə saxlandıqları üçün ayaqlarını don vurmuşdur. Ermənilər onları İki gün ərzində özlərini tanımayacaq dərəcədə döymüş, əzab-əziyyət vermişlər. Sonra işğal edilmiş Kəlbəcər rayonunun Yanşaq kəndinə aparılan girovlara dörd-beş gün aramsız əzab-əziyyət verilmiş, dişlərini tökmüşlər. Oradan işğal edilmiş Ağdama gətirilən Həsənin ehtiyac olmadığı halda hər iki ayağını çölün düzündə antisanitariya şəraitində amputasiya etmişlər. Həsən bu "cərrahiyyə əməliyyatı"ndan sonra "reanimasiya" adı ilə heç bir şəraiti olmayan, zibilxanaya bənzər bir yerə aparılmışdır. Ona heç bir tibbi yardım göstərilməmiş, əksinə, dizi üstə sürünməyə məcbur edilmişdir. Ertəsi gün erməni hərbçiləri tərəfindən dəmir qırıqları və armaturla döyülən Həsən iki gün orada saxlanıldıqdan sonra Xankəndində yerləşən yeniyetmə uşaqlar üçün həbsxanaya aparılmışdır. Artıq əlil olmasına və yarasının sağalmamasına baxmayaraq, orada da dizi üstə gəzməyə məcbur edilərək, ona işgəncə verilmişdir. BQXK əməkdaşları onu tapıb qeydiyyata aldıqdan sonra Xankəndindəki uşaq xəstəxanasına gətirilən Həsənə erməni həkimlər tərəfindən heç bir tibbi yardım göstərilməmiş, əksinə, o, tez-tez döyülmüşdür. Sarğısı isə yalnız iki gündən bir gələn BQXK nümayəndələri tərəfindən dəyişdirilmişdir. Azad olunana qədər xəstəxanada qalan H.Qocayev orada saxlanılan əsir-girovlardan xaçmazlı İqor Əliyevi, sumqayıtlı Eldarı, Atillanı, Qocayev Zahidi görmüş, döyülmələrinin, işgəncələrə məruz qalmalarının, erməni hərbçilərin çəkdikləri siqaretləri onların bədənlərinə basmaqla söndürməsinin şahidi olmuşdur. Xəstəxanada saxlanılan azərbaycanlı uşaq və qadınları görməsə də, eşitdiyi qışqırıq və fəryad səslərindən onların da müxtəlif işgəncələrə və zorlamalara məruz qaldıqlarını müəyyən edə bilmişdir. 1994-cü il martın 26-da azad ediləndən sonra tibbi müayinə zamanı Qocayev Həsən Oruc oğlunun ayaqlarının erməni həkimlər tərəfindən bilərəkdən kəsilərək şikəst edildiyi, amputasiyanın gələcəkdə protez qoyulmasını istisna edəcək şəkildə aparıldığı müəyyən olunmuşdur.

Quliyev Bəxtiyar Məhəmməd oğlu – 1959-cu ildə Azərbaycan Respublikası, Kəlbəcər rayonunun Kilsəli kəndində doğulmuşdur. 31 mart 1993-cü il tarixdə əsir götürülmüş, 22 sentyabr 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan ordusunun Kəlbəcəri işğal etmək məqsədi ilə hücuma keçdiyi barədə xəbərlər yayıldıqdan sonra, 1993-cü il martın 31-də yaxın qohumları və həmkəndliləri ilə birlikdə məktəbin "QAZ-52" markalı maşınına minib doğma kəndlərini qoyub ərazini tərk etmək məqsədi ilə yola düşmüşlər. Yük maşınları ilə hərəkət edən əhali təxminən 10 km aralıda Kəlbəcər şəhəri istiqamətində "Tunel" deyilən yerdə ermənilərin güclü

atəşinə məruz qalmışdır. Nəticədə kənd məktəbinin direktoru Mirzəyev Aslan və onun qızı Afət həlak olmuşdur. Afətin körpə oğlu Babək Həsən oğlu İlyasov isə başından ağır yaralansa da, maşının kabinəsində anasının ayaqları altında sağ qalmışdır. Hadisə zamanı Bəxtiyarın qardaşı İslam, atası Məhəmməd, bacıları Cəmilə, Şahnaz və Validə yaralanmışlar. Girovları maşına yığan erməni hərbçilər yaralı Şahnazı *(sonrakı taleyindən xəbər yoxdur – tərt.)* götürməyə icazə verməmiş və hadisə yerində qoymuşlar. Bir erməni yaraqlısı süngü ilə Bəxtiyarın qohumu, 6-7 yaşlı Məmişov Talehin *(sonrakı taleyindən bu günə qədər xəbər yoxdur – tərt.)* güllə dəyməsi nəticəsində çölə tökülmüş bağırsaqlarını qarnına yığmış, onu maşına qoyub naməlum istiqamətdə aparmışdır. "Tunel" deyilən yerdə ermənilər qonşu kəndin və Laçın rayon sakinlərinin mindiyi "KAMAZ" markalı maşını da qumbaraatanla vurub yandırmış, nəticədə onlarla dinc sakin ölmüşdür. Bəxtiyar orada olduqları zaman "Tunel" deyilən yerdə içərisində 7-8 nəfər olan "UAZ" markalı maşının da erməni hərbçilər tərəfindən gülləbaran edildiyini və orada 4-5 yaşlarında tanımadığı uşağın meyitini görmüşdür. Sağ qalanları və digər yaralıları maşına mindirən ermənilər onları Ağdərə rayonunun Drombon kəndinə aparıb qaranlıq zirzəmiyə salmışlar. Orada tibbi yardım göstərilməməsi səbəbindən yaralı qardaşı İslam ölmüşdür. Meyiti kiçik qardaşı Fərman dəfn etmişdir. Gecə girovları "Ural" markalı maşına mindirən ermənilər onları Xankəndi uşaq bağçasına gətirmişlər. Bir neçə saat keçdikdən sonra Ağasaryan Alik və Albert Voskanyan adlı ermənilər ağır yaralılardan Bəxtiyarı, atası Məhəmmədi, bacıları Validə və Cəmiləni Xankəndi xəstəxanasına aparıb 3-cü mərtəbədə yerləşdirmişlər. Sonra onların yanına Ağdam rayonundan tutulmuş milliyyətcə rus olan iki qadın və bir kişini, həmçinin Əliyev Müşfiq Nadir oğlu, Əliyeva Yeganə, Rəhimov Əsgərxan, Abdullayeva Muleyli, Füzuli rayonundan Nuxiyevlər ailəsini, eləcə də əsirlər – Əmirquliyev Nurbala və Zöhrabı gətirmişlər. Təxminən 65 nəfərədək əsir-girovun saxlanıldığı Xankəndi uşaq xəstəxanasında özünü cərrah kimi təqdim edən orta yaşlı Eduard Stepanyan adlı həkim bütün yaralıları başdansovdu "müalicə" etmişdir. O, heç bir ağrıkəsici dərmandan istifadə etmədən "Azərbaycan əsgəri" marşını oxuya-oxuya "Gülləni çıxardıram", – deyərək, Bəxtiyarın bud hissəsindəki əti qayçı ilə kəsmiş və vena damarını dartıb qırmışdır. Ayağını qan apardığından, Stepanyan gülləni çıxara bilməmiş, adi əl dəsmalını yaranın üstünə basmaqla qanaxmanı saxlamışdır. Erməni nəzarətçilər imkan düşdükcə əsir-girovları döymüş, yaralarını sıxmaqla və ya zərbə endirməklə işgəncələr vermişlər. Bir erməni hərbçi Bəxtiyarı qəzet yeməyə məcbur etmişdir. Xəstəxana olmasına, saxlanılanların müalicəyə və köməyə ehtiyacı olmasına baxmayaraq, buradakı azərbaycanlı əsir-girovlar təkcə erməni nəzarətçilər tərəfindən deyil, tibb heyəti, mülki şəxslər, döyüşdən qayıdan Ermənistan hərbçiləri və digərləri tərəfindən döyülmüş, alçaldılmış və təhqir olunmuşlar. Bununla bərabər, onlara normal tibbi yardım göstərilməmiş, baxımsız və natəmiz şəraitdə saxlanmış, bu səbəbdən bir çox azərbaycanlı dünyasını dəyişmişdir. Məsələn, baxımsızlıqdan xəstəxanada ölən Ağdam rayonundan olan Xasay adlı 60 yaşlı girov kişinin meyiti bir neçə əsir-girov tərəfindən işğal edilmiş Şuşa şəhərindəki azərbaycanlı qəbiristanlığında basdırılmışdır. Ayağındakı güllə yarasına infeksiya düşməsi və baxımsızlıq ucbatından ölmüş Laçın rayonunun Şamkənd kəndindən olan Səma adlı müəllimə qadının meyiti isə Malıbəyli kəndindəki azərbaycanlı qəbiristanlığında basdırılmışdır. Səmanın xəstəxanada qalan azyaşlı qızı Nurlanəyə Sona, sonra isə Məmişova İmarət adlı qadınlar baxsalar da, az sonra erməni nəzarətçilərin

avtomatın qundağı ilə döymələri və başına endirdikləri zərbələr nəticəsində uşağın görmə qabiliyyətini itirdiyi məlum olmuşdur. Bir müddət sonra Səmanın meyiti və qızı Nurlanə pul müqabilində Azərbaycan tərəfinə – qohumlarına təhvil verilmişdir.

Quliyev Bəxtiyar 1993-cü il sentyabr ayının 22-də girovluqdan azad edilmişdir.

Quliyev Elmar Zahid oğlu – 1966-cı ildə Azərbaycan Respublikasının Qusar rayonunda doğulmuşdur. 3 aprel 1993-cü ildə əsir götürülmüş, 1993-cü ilin noyabr ayında azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü ilin aprel ayının 3-də Kəlbəcər rayonunun Ermənistan ordusunun hücumlarından müdafiəsi zamanı "Tunel" adlanan ərazidə əl qumbarasının partlaması nəticəsində huşunu itirdikdən sonra əsir götürülmüşdür. Ermənistan hərbçiləri onu yaralı vəziyyətdə yüksəklikdən aşağı sürümüş, yolda vəhşicəsinə döymüş, əl qumbarasının arxası ilə başını partlatmış, dişlərini qırmışlar. Bir neçə əsirlə birlikdə əvvəlcə onu Drombon kəndinə, oradan isə işğal edilmiş Şuşa şəhərindəki həbsxanaya aparmışlar. Şuşa həbsxanasında metal qabları əsirlərin başına keçirib dəyənəklə zərbələr endirmiş, tüpürcək yalatdırmış, donuzu öpməyə, nəcisini yeməyə məcbur etmiş "Siz murdar türksünüz", – deyib onları ağır söyüşlərlə təhqir etmişlər. 24 aprel 1993-cü il tarixdə – "erməni soyqırımı"nın ildönümü günü səhər tezdən ermənilər əsirləri sıraya düzmüş, Həmid adlı yaşlı girovu ortaya çıxarıb tapançadan başına atəş açıb öldürmüşlər. E.Quliyev orada saxlanıldığı müddətdə ermənilər güllə yarası ilə həbsxanaya gətirilmiş Zahid adlı əsirə işgəncə verib, qətlə yetirmişlər. Ölüm faktını sənədləşdirmək məqsədi ilə Elmar Quliyev mərhumun kamerasına aparılmışdır. Meyitə vizual baxış zamanı Zahidin əllərinin qıc olduğunu, sifətinin göyərdiyini görən Elmar onun sinəsinin sağ nahiyəsindən aldığı dərin olmayan güllə yarasından deyil, boğulmadan öldüyü qənaətinə gəlmişdir. Erməni həkim və nəzarətçilər isə ölümü əsirin aldığı güllə yarası ilə əlaqələndirmişlər. Bir müddət sonra hadisənin şahidi olmuş, milliyyətcə rus olan digər əsir Gennadiy Kutiryev, Zahidin yaralı vəziyyətdə işləyə bilmədiyi üçün Robert adlı erməni nəzarətçi tərəfindən boğularaq öldürüldüyünü söyləmişdir. E.Quliyev bunlarla yanaşı, erməni hərbçilərin əsirləri onların ayaqqabılarını yalayıb öpməyə, bir-birini döyməyə və zorlamağa məcbur etdiklərinin, döyə-döyə qaçırmalarının və qul kimi ağır işlərdə işlətmələrinin şahidi olmuşdur. Başqa bir əsiri isə nəzarətçi ermənilər ayaqyolunu yalamağa məcbur etmişlər.

Quliyev Elmar Zahid oğlu 1993-cü ilin noyabr ayında əsirlikdən azad olunmuşdur.

Quliyev Elşad Ziyəddin oğlu – 1974-cü ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. 12 aprel 1993-cü il tarixdə əsir götürülmüş, 26 iyun 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Laçın rayonunun Ermənistan Silahlı Qüvvələri tərəfindən işğalı zamanı əsir götürdükdən sonra onun gözlərini bağlayıb harasa aparmış, ertəsi gün başı aşağı vəziyyətdə ağacdan asıb möhkəm döymüşlər. Sonra onu Suriyadan gəlmiş "Ərəb" ləqəbli muzdlu hərbçi və erməni komandirin yanına aparmışlar. "Ərəb" bıçağı onun boğazına dirəyib, azərbaycan dilində "Sənin son sözün?" – deyə soruşmuş, Elşadın "yoxdur" cavabını eşitdikdə, yanındakı digər ermənilərlə birlikdə onu döymüşdür. Bu hadisədən sonra qaçmağa cəhd göstərən Elşad tutulub təkrar, lakin daha dəhşətli işgəncələrə məruz qalmışdır. Yerevanda Hərbi Polisdə saxlanılarkən əsir və girovları qul kimi işlətmişlər.

Hərbi hissənin komandiri əvvəllər Naxçıvanda yaşamış podpolkovnik Gevorkyan, onun müavini Eduard adlı kapitan olmuşdur. Bundan başqa, əl və ayaqları donmuş, nitqi tutulmuş vəziyyətdə Hərbi Polisə gətirilmiş bir Azərbaycan əsgəri 2-3 gündən sonra ölmüşdür. Erməni hərbçilərin "dəli" adlandırdıqları girov isə davamlı şəkildə vəhşicəsinə döyülməkdən ölmüşdür. Ermənilər həmin şəxsin xəstə olduğunu inkar edib, özü barədə açıqlama verməsi məqsədilə dəfələrlə ayaq üstə dayanmağa məcbur etmiş, taqətdən düşənə qədər döymüşlər. Ermənistan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin zirzəmisində saxlanılarkən donmuş vəziyyətdə gətirilmiş bir nəfər azərbaycanlı əsirin öldüyünün şahidi olmuşdur. Elşad Quliyev 26 iyun 1994-cü il tarixdə əsirlikdən azad edilmişdir.

Quliyev Fərman Məhəmməd oğlu – 1976-cı ildə Azərbaycan Respublikasının Kəlbəcər rayonunun Kilsəli kəndində doğulmuşdur. 31 mart 1993-cü il tarixdə girov götürülmüş, 10 may 1996-cı ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ermənistan ordusunun Kəlbəcər rayonuna hücumu zamanı xilas olmaq məqsədi ilə 1993-cü il mart ayının 31-də məktəbin "QAZ-52" markalı yük maşınında ailəsi, qohumları və həmkəndliləri ilə birlikdə ərazini tərk etmək istəmişlər. "Tunel" adlanan yerdə Ermənistan hərbçilərinin pusqusuna düşmüşlər. Hər tərəfdən atəşə tutulan yük maşınındakı dinc sakinlərin çoxu yaralanmış, məktəb direktoru Aslan Mirzəyev və onun qızı Afət isə kabinədə oturduqlarından ölmüşlər. Hadisə zamanı əmisi oğlu Quliyev Tahir Binnət oğluna qulaq, qol və başından 3 güllə, bacıları – Cəmiləyə 11 güllə, Validə və İlhaməyə 2 güllə dəymiş, digər sərnişinlər də yaralanmışlar. Yolda müşayiət üçün onlara qoşulmuş Azərbaycan əsgəri mülki əhalini qorumaq məqsədi ilə maşından tullanıb ermənilərlə qeyri-bərabər döyüşə girmişdir. Nəticədə onlardan birini yaralayan, ikisini isə məhv edən əsgər özü də yaralanıb əsir götürülmüşdür. Baş verənlərdən qəzəblənən Ermənistan hərbçiləri əhali ilə son dərəcə qəddar davranmış, Fərmanın sol çiynindən yaralanmış 12 yaşlı bacısı Şahnazı yanan maşından çıxarmağa icazə verməmiş, "Özümüz götürəcəyik", – desələr də, onun taleyindən bu günə qədər bir xəbər verilməmişdir. Fərmanın qohumu, qarın nahiyəsindən yaralanmış azyaşlı Məmişov Taleh Ələsgər oğlunun isə çölə tökülmüş bağırsaqlarını süngü-bıçaq ilə bədəninin içinə yığan erməni hərbçi onu maşına qoyub naməlum istiqamətdə aparmışdır. Qohumları Talehdən bu günə qədər bir xəbər ala bilməmişlər. Digər bir erməni hərbçi isə yaralı vəziyyətdə yerə yıxılıb qalmış həmkəndlisi Rəhimov Əsgərxan Hüseyn oğlunu öldürmək istəsə də, Melkumyan soyadlı, "Avo" ləqəbli Suriya ermənisi buna imkan verməyib girovun lazım olacağını bildirmişdir.

Laçın rayonundan gələn və içi adamla dolu "KAMAZ" markalı yük maşınını da erməni hərbçilər həmin ərazidə pusquya salıb güllələbaran etmiş, nəticədə dinc sakinlərin əksəriyyəti ölmüş, yalnız bir neçə nəfər sağ qalmışdır. Girovları yük maşını ilə Ağdərə rayonunun Drombon kəndinə gətirən ermənilər onları qaranlıq zirzəmiyə salmışlar. Fərmanın yaralı qardaşı İslam yolda öldüyündən, ermənilər Fərmana bel verib qardaşını saxlandıqları yerin arxa tərəfində basdırmağı tapşırmışlar. Onları günortaya qədər zirzəmidə saxlayan Ermənistan hərbçiləri yaralılara heç bir tibbi yardım göstərmədən maşına yığıb Xankəndi uşaq bağçasına aparmışlar. Drombonda başqa zirzəmidə saxlanılan əsir götürülmüş şəxslər – Quliyev Elmar Zahid oğlu, Kərimov Yusif Şükür oğlu

və Yaşar adlı hərbçiləri də onlarla birgə Xankəndi şəhərindəki 3 saylı uşaq bağçasına aparmışlar. Orada Fərmanı və üç nəfər əsiri girovlardan ayırıb, işğal edilmiş Şuşa şəhərindəki həbsxanaya göndərmişlər.

Həbsxananın darvazasından içəri daxil olan kimi əllərində bel, armatur və rezin dəyənəklə gözləyən nəzarətçi ermənilər onları vəhşicəsinə döymüşlər. Həbsxananın rəisi, mayor rütbəli Armais (Armo) onların hər birini yumruqla vurmuşdur. Həbsxanada saxlanıldığı müddətdə Fərman və digər əsir-girovlar mütəmadi olaraq nəzarətçi və hərbçi ermənilər, həmçinin oraya gələn digər şəxslər tərəfindən vəhşicəsinə döyülmüş, alçaldılmış və işgəncələrə məruz qalmışlar. Şuşa həbsxanasının rəis müavini Valera ovçarka cinsli itini əsir-girovların üstünə buraxmış, it isə onları dişləmiş, paltarlarını cırıb-dağıtmışdır. Nəzarətçilər də öz növbəsində "Torka, torka, pırnı", yəni "Türkü tut!" – deyə iti azərbaycanlı əsir-girovların üstünə qısqırtmışlar. Ermənilər Şuşa həbsxanasının həyətindəki dörd qat asfalt və çınqılı əsir-girovlara qazdırıb qazanlara doldurtdurub daşıtdırmış, apara bilməyənləri isə döymüşlər. Armaisin qaynı, həbsxana yeməkxanasının müdiri Samvel də tez-tez həyətdə işləyən əsir-girovlara "baş çəkərək", əlinə düşən küt alətlərlə onları amansızcasına döymüşdür. Az sonra Şuşa həbsxanasına Kəlbəcər sakinləri – Budaq və Həmid adlı şəxslər də daxil olmaqla daha bir neçə əsir-girov gətirilmişdir. Şuşa həbsxanasında baş nəzarətçi – "boksçu" ləqəbli Valera, "Qaqo" ləqəbli Qarik, "uzun Qarik" çağırılan digər Qarik əsir-girovları mütəmadi olaraq əllərinə keçən küt alətlərlə döyürdülər. 1993-cü il aprelin 19-da Fərman və Qarayev Bəşir adlı girovlar Şuşanın Xəlfəli kəndinə aparılıb, dörd ay ərzində Edik adlı ermənin təsərrüfatında işlədilmişlər. Sonra onu yenidən Şuşa həbsxanasına qaytarmışlar. Orada Elmar, Yusif və Yaşar adlı əsirlər 1993-cü il aprel ayının 24-də – "ermənilərin soyqırımı" günü əlində tapança tutmuş bir ermənin gözləri yumulu vəziyyətdə azərbaycanlı əsir-girovların sırasının qabağında mahnı oxuya-oxuya gəzdiyini, oxuyub qurtardıqdan sonra isə gözlərini açıb qarşısında dayanmış Kəlbəcər rayonunun Mil kənd sakini Həmidin başından güllə ilə vurub öldürdüyünü danışmışlar. Həmidin meyiti Şuşa qəbiristanlığında basdırılmışdır. Həbsxanada dizenteriya xəstəliyinə tutulduğundan işləməyə taqəti olmayan Aslan adlı girovu isə Yerevandan gəlmiş Samvel adlı nəzarətçi döyə-döyə öldürmüşdür. Şuşa həbsxanasında nəzarətçilər – Qarik, Valera, Samvel və arxa cəbhə üzrə rəis müavini Robertin (Robik) mütəmadi olaraq döymələri nəticəsində Kəlbəcərin Mil kənd sakini Mehdi adlı girov 1993-cü ilin oktyabr-noyabr aylarında saxlanıldığı kamerada ölmüşdür. Sərdar adlı əsir də zəif olması səbəbindən "tələblərə uyğun" işləyə bilmədiyi üçün nəzarətçilər tərəfindən həmişə döyüldüyündən tez-tez xəstələnmişdir. Səhərlər əsir-girovlara daşla əzilməsi mümkün olmayan bir tikə çörək, günortalar isə yalnız şorba suyu verirdilər. Möhkəm xəstələndiyi üçün, 1994-cü ilin yanvar ayında Xankəndi uşaq xəstəxanasına göndərilən F.Quliyev, həmin ay Sərdarın da ölümcül halda ora gətirildiyinin şahidi olmuşdur. Su içmək iqtidarında belə olmayan Sərdar iki gündən sonra xəstəxanada ölmüşdür. Sərdarın meyitini adını xatırlamadığı bir girovla bərabər Malıbəyli kəndindəki qəbiristanlıqda Albert Voskanyan və BQXK-nın Pyer adlı nümayəndəsinin iştirakı ilə basdırılmışdır. Erməni hərbçilər və nəzarətçilər tərəfindən mütəmadi döyülməsi nəticəsində vəziyyəti ağırlaşmış Heydər Heydərov adlı əsir də Şuşa həbsxanasından Xankəndi uşaq xəstəxanasına gətirilmiş, lakin 3-4 gün qaldıqdan sonra ölmüşdür. Onun meyitini isə BQXK nümayəndəsi Pyer basdırmışdır. Fərman Quliyev Xankəndi uşaq xəstəxanasında saxlanıldığı müddətdə də

oradakı erməni hərbçilər tərəfindən alçaldılmış və döyülmüş, hər gün belə hallarla rastlaşmışdır. "Böyük Jirik", "balaca Jirik", Gena, Marat və Surik adlı nəzarətçilər azərbaycanlılara qarşı amansızlıq ilə xəstəxanada məşhur idilər. Azərbaycanlıların çoxunun BQXK-nın qeydiyyatında olmasına baxmayaraq, nəzarətçilər yenə də onları döyüb işgəncələr vermiş, bu barədə BQXK əməkdaşlarına danışacaqları təqdirdə öldürüləcəkləri ilə hədələnmişlər. Jirik adlı hər iki nəzarətçi isə BQXK nümayəndələrindən çəkindikləri üçün əsir-girovları adətən öz otaqlarına aparıb gizlincə döymüşlər. Quliyev Fərman 10 may 1996-cı il tarixdə girovluqdan azad edilmişdir.

Quliyev Hüseynağa Aydın oğlu – 1950-ci ildə Füzuli rayonu, Mərdanlı kəndində doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə əsir götürülmüş, 3 mart 1992-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Xocalı şəhərinin Ermənistan Silahlı Birləşmələri və terrorçu-quldur dəstələri tərəfindən işğalı zamanı girov düşməmək üçün özünü dağdan aşağı atmaq istəyərkən Məhəmməd adlı şəxs güllələnib öldürülmüş, H.Quliyev isə qaçmaq istəyərkən yaralanıb huşunu itirmişdir. Ayılanda ermənilərin əhatəsində olduğunu görən Hüseynağa yenidən huşunu itirmişdir. Özünə gələndə Pircamal kəndində bir tövlədə saxlanıldığını, əynindəki paltarının yandığını, ayağında ayaqqabısının olmadığını görmüşdür. Daha sonra erməni nəzarətçilər öldürmək məqsədilə Hüseynağa da aralarında olmaqla cavanları ayırıb bir kameraya salmışlar. Mütəmadi olaraq armatur və ağac parçası ilə əsir-girovları döyən erməni hərbçilər Faiq adlı şəhər sakinini işgəncə verib öldürmüşlər. Faiqdən sonra isə Hüseynağanı başqa bir kameraya aparıb armaturla döyüb ölümcül hala salmışlar. Armaturla başına arxadan möhkəm zərbə endirmiş, çənəsini, burnunu, qabırğasını qırmış, ayaq barmaqlarını, sol biləyini sındırmışlar. Döyüldükdən sonra buzun üstünə uzadılan H.Quliyev girovluqda olarkən, ermənilər tərəfindən qaynı Orucov Cavan Canan oğlunun başının kəsildiyini eşitmişdir. 3 mart 1992-ci il tarixdə əsirlikdən azad edilmiş Quliyev Hüseynağa Aydın oğlu verilən işgəncələrdən beyin zədəsi almış, bədəninin sol hissəsində iki qabırğası içəri batmış, hər iki böyrəyi ciddi şəkildə zədələnmiş, hər iki qulağının pərdələrində çürümə prosesi başlamış, burun sümükləri çıxarılmışdır.

Quliyev Marks Eyniş oğlu – 1960-cı ildə Azərbaycan Respublikası, Füzuli rayonunun Gorazıllı kəndində doğulmuşdur. 2 iyul 1993-cü il tarixdə girov götürülmüş, 26 noyabr 1994-cü ildə azad olmuşdur. İfadəsində bildirmişdir:

Ermənistan Silahlı Birləşmələri tərəfindən yaşadığı Gorazıllı kəndinin işğalı zamanı həyat yoldaşı Quliyeva Lətafət Müseyib qızı və 2 azyaşlı uşağı ilə birlikdə girov götürülüb Xankəndi təcridxanasına aparılmışdır. Bir gündən sonra onu ailəsindən ayırıb işğal edilmiş Şuşa şəhərindəki həbsxanaya köçürmüşlər. BQXK-nın köməkliyi ilə tezliklə həyat yoldaşı və uşaqlarının yerləri dəyişdirilib, Xankəndi uşaq xəstəxanasına yerləşdirilmişlər.

Təcridxanada saxlanılarkən əsir və girovları əslən Qarabağdan olan – Karo, Vaço, Xaçik, Artur, Slavik və Karen adlı ermənilər dəmir, lom, armatur, rezin dəynək və s. ilə döyüb işgəncələr vermişlər. Orada Murad adlı erməni nəzarətçi, əslən Zaqataladan olan əsiri onun gözləri qarşısında döyə-döyə öldürmüş, meyiti BQXK tərəfindən aparılmışdır. Marks Şuşa həbsxanasında saxlanılarkən, türmə rəisi Armo, nəzarətçilər – Slavik, Robik, Qaqo, Razmik, Artur və Raçik əsir və girovlara dəhşətli işgəncələr vermiş, onları döyə-

döyə işlətmiş, itləri üstlərinə buraxmış, dəyənək, armatur, lom, ağac və s. ilə döymüş, bir-birini döyməyə, it kimi hürməyə məcbur etmişlər. Valera adlı, milliyyətcə rus olan əsiri döyə-döyə öldürmüş, meyitini həbsxananın yanındakı qəbiristanlıqda basdırmışlar. Valera adlı erməni nəzarətçi isə Marksa Həsənabada işlətməyə aparılmış əmisi oğlu Vaqifin Slavik adlı erməni nəzarətçi tərəfindən döyülüb öldürüldüyünü söyləmişdir. Bir müddət sonra Marksı və Rasim adlı əsiri dəyişmək məqsədi ilə Xankəndi şəhərinə gətirib bir evin zirzəmisinə salmışlar. Lakin dəyişmə baş tutmadığından, 22 gün sonra onları Xankəndi şəhərindəki uşaq xəstəxanasına aparmışlar. Orada saxlanıldığı dövrdə yaşlı girov qadının və İlqar adlı gənc əsirin baxımsızlıq üzündən öldüklərinin şahidi olmuşdur. Şuşa həbsxanasında saxlanılan İlqarın üstünə itləri buraxıb, bədənini parçalatmışlar. Xankəndindəki xəstəxanaya gətirilən əsir çox qan itirməsi və baxımsızlıq səbəbindən ölmüşdür. İlqarın meyitini Marks iki nəfər əsir-girovla birlikdə Xankəndi yaxınlığındakı qəbiristanlıqda basdırmışdır. Təxminən bir həftə xəstəxanada saxlanılan Marks Quliyev Xankəndi şəhərindəki müvəqqəti saxlama təcridxanasına aparılmışdır. Orada təsərrüfat işlərinə cəlb edilən azərbaycanlı əsir-girovlar müntəzəm olaraq Jora, Vaço, Slavik, Artur, Xaçik, Karen adlı nəzarətçilər tərəfindən lom, rezin və dəmir dəyənəklər, armatur və dəmir parçaları ilə döyülmüş və işgəncələrə məruz qalmışlar. Marks orada saxlanıldığı müddətdə adını bilmədiyi, əslən Zaqatala rayonundan olan əsirin nəzarətçi ermənilər tərəfindən döyülüb öldürüldüyünün şahidi olmuşdur. Həmin əsir qeydiyyatda olduğu üçün BQXK-nın nümayəndələri onun meyitini özləri ilə aparmışlar. Təcridxanada saxlanıldığı müddətdə təsərrüfat işlərinə cəlb olunmaqla bərabər, mülki ermənilər tərəfindən də həyətyanı sahələrdə və evlərdə işlədilən Marks və digər əsir-girovlar yerli əhali – qoca, qadın və uşaqlar tərəfindən də döyülmüş və təhqir olunmuşlar. 26 noyabr 1994-cü il tarixdə növbəti dəfə mülki erməni şəxsin həyətində işlədilərkən, nəzarətçilərin sayıqsızlığından istifadə edən Quliyev Marks girov yoldaşı Əliyev Xəqani ilə birlikdə qaçaraq azad olmuşdur.

Quliyev Pənah Zakir oğlu – 1973-cü ildə Ermənistan Respublikası, Sisian rayonunun Urud kəndində doğulmuşdur. 29 avqust 1993-cü il tarixdə girov götürülmüş, 20 sentyabr 1994-cü ildə azad olmuşdur. İfadəsində bildirmişdir:

Qubadlı rayonunun Çaytumas kəndində yaşayan qohumu Rəhman Zeynalovun evinə qonaq getmiş və 29 avqust 1993-cü il tarixdə qohumu Elmar Hüseynovla birlikdə rayonun Sarıyataq kəndi yaxınlığında heyvan otararkən Ermənistan hərbçiləri tərəfindən girov götürülmüşdür. Ermənilər onların otardıqları 250 baş xırdabuynuzlu və 50 baş iribuynuzlu heyvanı piyada girovlara sürdürərək əvvəlcə rayonun Dağtumas kəndinə, oradan isə yük maşını ilə taxıl sahəsində yerləşən hərbi düşərgələrinə aparmışlar. Pənah və Elmar oradan digər 8 nəfər girovla birlikdə Xankəndinə aparılıb, hərbi hissənin təcridxanasına salınmışlar. Hərbi hissənin qərargah rəisi Elmira Ağayan adlı hərbçi qadın girovlarla söhbət etmiş, ailəsinə satmaq məqsədi ilə onların imkanlı qohumlarının olub-olmadığı ilə maraqlanmışdır. Girovları 15 gün ərzində qapalı şəraitdə ac-susuz saxlayan ermənilər onları müntəzəm olaraq döymüş, müxtəlif ağır işlərdə – işğal olunmuş yaşayış məntəqələrindəki binaların sökülməsində, qəbiristanlıqların mərmər daşlarının qarət edilməsində, yararlı tikinti materiallarının sökülüb maşınlara yüklənməsində istifadə etmişlər. Əsir-girovlarla görüşməyə gəlmiş BQXK nümayəndələrini alay komandiri Samvel adlı erməni hərbi hissəyə

buraxmamışdır. Xankəndi komendantlığından dörd nəfər azərbaycanlının qaçmasından sonra "Rıjik" ləqəbli nəzarətçi əsir-girovları sıraya düzüb möhkəm döymüş, nəticədə 63 yaşlı Elmar Hüseynovun başı yarılmış, Şükürov Şükür Yaşar oğlunun çənə sümüyü sınmışdır. Şükürün çənə sümüyü sağaldıqdan sonra Rıjik yenidən onu sındırmışdır. Qubadlı rayonundan 28-29 yaşlı Zakirin, Horadizdən 38-40 yaşlı Arifin ermənilər tərəfindən döyülüb qətlə yetirildiklərinin, cəsədlərinin itlərin qabağına atılmasının şahidi olmuşdur. Quliyev Pənah Zakir oğlu 20 sentyabr 1994-cü il tarixdə 6 nəfər əsir yoldaşı ilə birlikdə nəzarətin zəif olmasından istifadə edib işlədikləri Əsgəran rayonu ərazisindən qaçıb, cəbhənin Azərbaycan hərbçilərinin nəzarətində olan tərəfinə keçmiş və azad olmuşdur.

Quliyev Qoşqar Binnət oğlu – 1971-ci ildə Azərbaycan Respublikası, Kəlbəcər rayonunun Kilsəli kəndində doğulmuşdur. 31 mart 1993-cü il tarixdə girov götürülmüş, 24 avqust 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan ordusunun Kəlbəcərə hücumu zamanı əhali xilas olmaq üçün rayonu tərk etməyə başlamışdır. Həmin vaxt, 1993-cü ilin mart ayının 31-də ailəsi, qohumları və həmkəndliləri ilə bərabər "QAZ-52" markalı yük avtomaşınında yaşadığı Kilsəli kəndindən çıxıb "Tunel" adlanan əraziyə çatanda Ermənistan hərbçilərinin mühasirəsinə düşmüş və şiddətli atəşə məruz qalmışlar. Hadisə zamanı idarə etdiyi maşında olan həmkəndliləri – məktəbin direktoru Mirzəyev Aslan Əli oğlu və onun qızı Afət ölmüş, Qoşqar özü də daxil olmaqla, Rəhimov Əsgərxan, əmisi Quliyev Məhəmməd Məmiş oğlu, onun qızları – Cəmilə, Validə, Şahnaz, oğlanları – Bəxtiyar, İslam, Fərman Quliyevlər, Məmişova İmarət, Məmişov Taleh Əsgər oğlu və başqaları isə yaralanmışlar. Onları girov götürən ermənilər Şahnaz və Taleh adlı yaralı azyaşlıları götürməyə icazə verməyib, Talehi hərbi tibbi yardım maşınında naməlum istiqamətdə aparmış, Şahnazı isə yanan maşının yük yerində qoyub, digər girovları əvvəlcə Ağdərə rayonunun Drombon kəndinə aparmışlar. Qoşqarın əmisi oğlu Quliyev İslam Məhəmməd oğlu aldığı güllə yaralarından çoxlu qan itirmiş, heç bir tibbi yardım göstərilmədiyi üçün yolda ölmüş, erməni hərbçilərinin göstərişi ilə qardaşı Fərman onu Drombonda, saxlanıldıqları yerin arxasında basdırmışdır. Gecə yarısına kimi orada saxlanılan girovlar sonra avtobusla Xankəndi şəhərindəki 3 saylı uşaq bağçasına aparılmış, yaralılar, o cümlədən Qoşqar isə Xankəndi uşaq xəstəxanasına göndərilmişlər.

Orada həkim işləyən Stepanyan Eduard adlı erməni müalicə etmək əvəzinə yaralılara işgəncələr vermiş, onların şikəst qalmaları üçün açıq-aşkar əlindən gələni etmişdir. Heç bir keyidici vasitədən istifadə etmədən, adi qayçı ilə girovların bədəninin yaralı yerlərini kəsib doğrayan Stepanyan, Bəxtiyarın ayağında olan gülləni çıxarmaq bəhanəsi ilə ona olmazın işgəncələr vermiş, müxtəlif yerlərdən qayçı ilə bir neçə dəfə doğrayıb, vena damarını əli ilə çəkib qırmışdır. Rəhimov Əsgərxan adlı həmkəndlisinin ayağını isə elə bir vəziyyətə salmışdır ki, girovluqdan azad olunduqdan sonra onun ayağını dizdən aşağı kəsmişlər. Qoşqarın yaralı ayağını eyni vəhşiliklə doğrayıb tökmüş Eduard Stepanyan öz əməlləri nəticəsində yaralı qadın girovların da şikəst qalmasına səbəb olmuşdur.

Xəstəxanada işləyən Anjela adlı erməni qadın da yaralılarla qəddarcasına rəftar etmiş, yaraları dərman qoymadan sarımış, qayçı ilə vurub işgəncə vermiş, heç nəyə əhəmiyyət vermədən incitmişdir. İki aya yaxın xəstəxanada saxlanıldıqdan sonra Qoşqar

əmisi Məhəmmədlə birlikdə işğal edilmiş Şuşa şəhərindəki xeyli sayda azərbaycanlı əsir-girovun saxlanıldığı həbsxanaya köçürülmüşdür. Həbsxananın Samvel, Robert, Qaqo, Vanya, Valera adlı nəzarətçiləri əsir-girovlarla qəddarcasına davranmış, səhər saat 6:00-dan gecə saat 2:00-a qədər onları həm işlətmiş, həm də döymüşlər. Ağdam rayonundan olan Aslan adlı girov nəzarətçilərin onu soyuducuya salıb bir neçə saat saxladıqdan sonra amansızcasına döyməsi nəticəsində iki gün əzab çəkdikdən sonra ölmüşdür. "Tatarin" ləqəbli, təxminən 30-32 yaşlı girov da erməni hərbçilərinin qəddarlığının qurbanı olmuş, meyitini isə kəlbəcərli Rəhim adlı girov basdırmışdır. Bundan başqa, nəzarətçilər kəlbətinlə, vintaçanla, bıçaqla və digər əşyalarla əsir və girovların qızıl dişləri ilə yanaşı, sağlam dişlərini də çıxarmış, müntəzəm olaraq gün ərzində bir neçə dəfə döymüş, sutkada 16-18 saat, bəzən daha çox qul kimi işlətmiş, onların əksəriyyətini zorlamış və ya bir-birini zorlamağa məcbur etmişlər. Qoşqar Quliyev 1993-cü il avqust ayının 24-də azad edilmişdir.

Quliyev Rafiq Əliaslan oğlu – 1969-cu ildə Azərbaycan Respublikası, Xocavənd rayonunun Qaradağlı kəndində doğulmuşdur. 17 fevral 1992-ci ildə əsir götürülmüş, 29 mart 1992-ci il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Yaşadığı Qaradağlı kəndinin Ermənistan hərbi birləşmələrinin hücumundan müdafiəsi zamanı girov götürülmüş, 100 nəfərdən çox həmkəndlisi ilə bərabər yük maşınlarına mindirilib, 2-3 km məsafədə yerləşən silos quyusunun yanına gətirilmişlər. Onlarla mülki şəxsi seçib güllələmiş, meyitlərini həmin quyuya töküb üstünü isə traktor vasitəsi ilə torpaqla örtmüşlər. Erməni hərbçilər Qaradağlı kənd sakini Dadaşov Eldarı müxtəlif küt alətlərlə döymüş, dəfələrlə başına zərbələr endirib qətlə yetirmiş, kəndin müdafiəsi zamanı yaralanmış Əliqismətin başını kəsmiş, Məhi adlı şəxsi güllələmiş, digər sakin – Hüseynov Şahmuradın üstündən "KAMAZ" markalı yük maşını ilə keçib öldürmüşlər. Kənd məktəbinin direktoru Mobili, Həsənov Altayı və Hüseynov Xanalı adlı 22-23 yaşlarında olan gənclərin üstlərinə dizel yanacağı töküb diri-diri yandırmış, digər əsir-girovları "KAMAZ" markalı yük maşınına doldurub, Xankəndi istiqamətində aparmışlar. Erməni cəlladları maşını Cəmiyyət kəndi yaxınlığında saxlayıb, Bayramov Elmurad, Zahid və polis kapitanı Abbasov Sərvərin başlarını kəsmişlər. Xankəndinə gətirilən əsir-girovlar məktəbin zirzəmisinə salınmış və orada da işgəncələrə məruz qoyulmuşlar. Kəndlərinin müdafiəsi zamanı Rafiqin snayper atəşi ilə çiynindən yaralandığını bilən ermənilər onun digər çiynini bıçaqla deşmiş, sağ ayağına qızdırılmış şişlə damğa vurmuşlar. Qadınları qarət edən və azyaşlı qızın qulağından sırğasını dartıb qoparan erməni hərbçiyə müqavimət göstərdiyinə görə, digər bir kənd sakininin də başını kəsib girovların ayaqları altına atmışlar. Sinəsinə "Qarabağ" tatuirovkası döydürdüyünə görə, Əliyev Vətən adlı girovun başını erməni məzarının üstündə kəsmişlər.

Çox keçmədən Rafiq bir neçə əsir-girovla birlikdə Xankəndi həbsxanasına köçürülmüşdür. Həbsxanada ac-susuz saxlanılan əsir-girovlar axşam və gecə saatlarında hərbçilərlə yanaşı, həbsxanaya buraxılan mülki şəxslər tərəfindən də döyülüb, işgəncələrə məruz qalmışlar. Orada Rafiqin atası Əliaslan kişi də daxil olmaqla, 9 nəfər Qaradağlı kənd sakini – İmran, Fazil, Şura, Nofəl, Sədri, Axundov Şura, Quliyev Kamal, Tağıyev Böyükkişi ac qalma, döyülmə və işgəncələr nəticəsində ölmüşlər. Bundan başqa, ermənilər Fazil adlı digər Qaradağlı kənd sakinini və kəndin kolxoz sədri işləmiş Hüseynov Novruzu yeməyə

taxıl istədikləri üçün döyüb öldürmüş, Tağıyev Telmanın isə arxa tərəfini kəsmişlər. Quliyev Rafiq Əliaslan oğlu 29 mart 1992-ci il tarixdə girovluqdan azad olunmuşdur.

Quliyev Ramiz Fərman oğlu – 1961-ci ildə Azərbaycan Respublikası, Ağdərə rayonunun Orta Güney kəndində doğulmuşdur. 20 noyabr 1991-ci il tarixdə girov götürülmüş, 28 noyabr 1991-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1991-ci ilin noyabr ayında yaşadığı Ağdərə rayonunun Güney kəndində xalası oğlu Qaybalıyev Fazil Abdulla oğlu və Ağdərə rayonunda yaşayan Mikayılla birlikdə ermənilər tərəfindən girov götürülmüşlər. Girovları Ağdərə rayon mərkəzinə aparan silahlı ermənilər onları avtobusun içində saxlamışlar. Elə həmin gün Ağdərə rayon sakini, başına xaç şəkli çəkilmiş yaşlı azərbaycanlı kişini də onlara qoşub, Ağdərənin Ortakənd kəndinə aparmışlar. Onları elə həmin avtobusun içində əvvəllər sovxoz direktoru işləmiş, Balayan soyadlı ermənin evinin yanındakı stadionda saxlamışlar. Avtobusda saxlandıqları müddətdə adını bilmədiyi erməni əvvəl Fazilin, sonra isə Ramizin qulağını kəsməyə cəhd göstərmiş, lakin girovlar səs-küy saldığından "Bu, sənə heç nə verməyəcək, birdəfəlik öldür", – dedikdən sonra erməni fikrindən daşınmışdır. Ramiz sonradan girovların qulaqlarını kəsmək istəyən ermənin Balayanın kiçik oğlu olduğunu öyrənmişdir. Balayanın Milis idarəsində işləyən, 25-28 yaşlı digər oğlu bel sapı, armatur və əlinə keçən küt alətlərlə girovları hər gün döymüşdür. Ramiz və digər azərbaycanlılar təxminən 25-28 gün bu vəziyyətdə avtobusun içində saxlanılmış, həmin müddətdə onlara gün ərzində bir dəfə azacıq quru çörək və su verilmişdir. Bununla yanaşı, girovlar mütəmadi olaraq döyülmüş və təhqir edilmişlər. Belə ki, kənd əhalisi və silahlı ermənilər onları davamlı olaraq odun parçası, armatur, yumruq və təpiklə döymüşlər. Bir müddət sonra girovları Ağdərə rayonunun Ortakənd qəbiristanlığının yanındakı "Sarı Qaznaq" deyilən yerə aparan ermənilər onlara qəbir qazdırıb "Sizi diri-diri basdıracağıq", – demişlər. Girovlar özlərinə qəbir qazdıqları vaxt Balayanın "KAMAZ" markalı maşınını idarə edən sürücüsü ora gəlib ermənilərə nəsə demişdir. Yalnız bundan sonra erməni silahlıları onları diri-diri basdırmaq fikrindən daşınmış, acıqlı halda girovları küt alətlərlə döyərək yenidən avtobusa mindirib geri qaytarmışlar. Quliyev Ramiz və digər girovlar 28 noyabr 1991-ci il tarixdə azad edilmişlər.

Quliyeva (Əhmədova) Zərəfşan Qulu qızı – 1957-ci ildə Azərbaycan Respublikasının Füzuli rayonu, Yağlıvənd kəndində doğulmuşdur. 17 avqust 1993-cü ildə girov götürülmüş, 15 sentyabr 1994-cü il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ermənistan hərbçilərinin Füzuli rayonuna hücumlarının birində Zərəfşanın qızı Zülfiyyə Vilayət qızı Əhmədova və oğlu Fidai Vilayət oğlu Əhmədov qəlpə yarası almış, anası Orucova Səltənət isə yerindəcə ölmüşdür. Bu hadisədən təxminən ay yarım sonra qardaşı Quliyev Yaqub kəndin müdafiəsi üçün təyin edilmiş postda erməni hərbçilərinin hücumunun qarşısını alarkən həlak olmuşdur. Artıq atəş altında, azyaşlı uşaqlarla qorxu içində yaşamağın mümkünsüzlüyünü görən Zərəfşanın ailəsi yaşadıqları Yağlıvənd kəndini tərk edib, müvəqqəti olaraq döyüş zonasından nisbətən aralıda yerləşən qonşuluqdakı Əbdürrəhmanlı kəndinə köçmüşlər. Lakin çox keçmədən, irəliləyən Ermənistan ordusu həmin kəndə də hücum etmişdir. Məcburiyyət qarşısında əhali ilə

birlikdə kəndi tərk etməyə çalışan ailə erməni hərbçilər tərəfindən atəşə tutulmuşdur. Ermənistan ordusunun mülki əhalini atəşə tutması nəticəsində 15-20 nəfər dinc sakin ölmüş, Zərəfşanın həyat yoldaşı Əhmədov Vilayət Fidayəddin oğlu ayağından və qolundan yaralanmışdır. Vilayət yaralı olmasına baxmayaraq, özünü azyaşlı qızının üstünə atıb onu güllədən qoruyan zaman ikinci güllə yarası almışdır. 20 nəfərə yaxın kənd sakinini girov götürən erməni hərbçilər yaşlı bir kişini və cavan oğlanı yerə yıxıb güllələmiş, meyitlərini orada qoyub digər girovları işğal etdikləri Xocavənd rayonunun Edilli kəndinə aparıb, xəstəxana binasında yerləşdirmişlər. Bir neçə gündən sonra isə Zərəfşanı və ailəsini yaxınlıqdakı qaraja salıb iki ay orada saxlamışlar. Bu müddətdə onların yanına gəlmiş erməni həkim ağrıkəsici adı ilə həyat yoldaşı Vilayətin bədəninə naməlum maye yeritmiş, güllə yarası olan ayağını gipsə salıb, 10 gün açmamağı tapşırmışdır. Beş gündən sonra ayağının şişib qaraldığını görən Vilayət aldadıldığını başa düşüb gipsi açmışdır. Ermənilər həyat yoldaşı Vilayəti yaralı olduğuna görə çox döyməsələr də, hər gün Zərəfşanla birlikdə alçaltmış, təhqir etmişlər. Lakin ailə digər əsir-girovların mütəmadi olaraq daha amansızcasına döyüldüklərinin və işgəncələrə məruz qaldıqlarının şahidi olmuşdur. Məsələn, Zərəfşan su daşıyarkən yerə uzanmış, üzgözü qan içində olan yaşlı kişinin heç bir yardım edilmədiyindən öldüyünün şahidi olmuşdur. Onun meyitini digər girovlar Edilli qəbiristanlığında basdırmışlar. Döyülməkdən və xəstəlikdən ölmüş Füzuli rayonunun Horadiz qəsəbə sakinləri – Rəşid, Cümşüd və Fərman adlı yaşlı girovların da meyitlərini digər əsir-girovlar basdırıb. Erməni hərbçilərdən biri onlara hücum çəkib, əri Vilayəti də öldürmək istədikdə Zərəfşan səsküy salıb buna imkan verməmişdir. Edillidə saxlanıldıqları zaman əsir-girovları ən çox döyən və işgəncə verən erməni hərbçi Alyoşa olmuşdur. Bu hadisədən sonra BQXK nümayəndələri onları tapıb qeydiyyata almış, adyal vermişlər. Çox keçmədən Horadiz qəsəbəsindən olan Firəngiz, Səltənət və Nabat adlı girovları da onların yanına gətirən erməni hərbçilər yaşlı girovlardan bir neçəsini Yerevana göndərmiş, qalan əsir-girovları isə işğal altında olan Xankəndi şəhərindəki xəstəxanaya köçürmüşlər. Zərəfşan xəstəxanada Gülüstan, Validə və Füzuli rayonunun Horadiz kəndində toydan girov götürülmüş üç qardaşın ailəsinin saxlandığını görmüşdür. Orada saxlanıldıqları bir ay ərzində ermənilər əsir-girovları taxta, rezin dəyənək, eləcə də əllərinə keçən əşyalarla hər gün döymüşlər. Döyülmə və işgəncələr nəticəsində bir neçə nəfər girov ölmüşdür. Döyülənlər təkcə kişi əsir-girovlar olmamışlar. Nabat, Firəngiz və Zərəfşanın adını unutduğu başqa bir qadın da döyülmə və baxımsızlıqdan ölmüşlər. Azərbaycanlı əsir-girovları döyüb təhqir edən erməni hərbçilərdən Surik, Slavik və Andranik amansızlıqları ilə fərqlənmişlər. Surik dəfələrlə Zərəfşanın yaralı əri Vilayəti, həmçinin azyaşlı övladlarını da möhkəm döymüş, işgəncə vermişdir. Təxminən bir ay sonra Zərəfşan övladları ilə birlikdə çoxsaylı kəlbəcərli girovların saxlanıldığı Xankəndi uşaq bağçasına aparılmış, həyat yoldaşı Vilayət isə Edillidə saxlanılmışdır. Xankəndi uşaq bağçasında saxlanıldığı müddətdə çox çətin günlər yaşayan Zərəfşan müalicə edilməyən yaralı həyat yoldaşı üçün də narahatlıq keçirmişdir. O, BQXK tərəfindən verilmiş yardımları nəzarətçilərdən gizlədib, Rafina və Lida adlı erməni həkimlərə verib əvəzində onlardan əsir-girovların dəyişdirilməsi ilə məşğul olan Albert Voskanyana əri Vilayətin xəstə olduğunu söyləmələrini xahiş etmişdir. Nəticədə, bir müddət sonra Vilayət Quliyev girovluqdan azad edilmişdir. Albert Voskanyan dəfələrlə orada olan qadın və qızları

(adları məlumdur – tərt.) evini təmizlətmək adı ilə aparıb zorlamış və geri qaytarmışdır. Zərəfşan Xankəndi uşaq bağçasında da ermənilərin əsir-girovlara eyni, qeyri-insani münasibətlərinin, döyülmələrin, işgəncələrin, zorakılığın və cinsi istismarın şahidi olmuşdur. Erməni tibb heyətinin laqeydliyi və baxımsızlığı da əsir-girovların vəziyyətini ağırlaşdıran amillərdən olmuşdur. Məsələn, Nabat və Firəngiz adlı yaşlı qadınlar döyülməkdən, aclıq və baxımsızlıqdan ölmüşlər. Zərəfşan və övladları 15 sentyabr 1994-cü il tarixdə girovluqdan azad olunmuşlar.

Quliyev Yaqub Allahverdi oğlu – 1935-ci ildə Azərbaycan Respublikası, Laçın rayonunun Arduşlu kəndində doğulmuşdur. 1992-ci il fevralın 25-dən 28-dək erməni girovluğunda olmuşdur. İfadəsində bildirmişdir:

Xocalı soyqırımı zamanı gözləri qarşısında erməni hərbçilər dörd nəfər qohumunu güllələmiş, özünü isə ayağından, böyründən və əlindən güllə ilə yaralamışlar. Huşunu itirib yıxılan Yaqub özünə gələndə erməni əsgərlərinin ölmüş azərbaycanlıların üst-başını soyduqlarının və qızıl dişlərini kəlbətinlə çıxardıqlarının şahidi olmuşdur. Hər meyitin başına təzədən bir neçə güllə vuran erməni hərbçilər onun diri olduğunu görəndə, sürüyə-sürüyə Əsgəran yolundakı fermaya aparmışlar. Ölümcül vəziyyətdə olmasına baxmayaraq, ermənilər Yaquba heç bir yardım göstərməmiş, əksinə, avtomatın qundağı ilə başına, bədəninə çoxsaylı zərbələr endirmiş, sonra öldüyünü zənn edib atıb getmişlər.

Yaqub Quliyev gecə saatlarında ayılıb özünə gəlmiş, çətinliklə də olsa həmin vaxt hələ işğal edilməmiş Ağdam rayonu ərazisinə keçə bilmişdir.

Quliyev Ziyəddin Ziyad oğlu – 1979-cu ildə Azərbaycan Respublikası, Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndində doğulmuşdur. 28 avqust 1993-cü il tarixdə girov götürülmüş, 27 mart 1995-ci il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

1993-cü ilin avqust ayında Ermənistan ordusunun Füzuli rayonuna hücumları zamanı ailəsi ilə birlikdə doğma kəndlərini tərk edib, müvəqqəti olaraq Beyləqan rayonunda məskunlaşmışlar. Avqustun 28-də evlərinə baş çəkmək məqsədi ilə Füzuli rayonunun Şükürbəyli kəndinə ayrılan yola gəlmiş və orada tanışı Şıxəliyev Şəmsini görüb onun idarə etdiyi traktorla yaşadığı Aşağı Seyidəhmədli kəndinə tərəf yola düşmüşlər. Yolda üstünə Azərbaycan bayrağı sancılmış PDM-lə (piyadaların döyüş maşını) bir dəstə hərbçi onların qarşısını kəsmişdir. Hərbçilərin azərbaycanlı olduqlarını zənn edib onlara yaxınlaşmış, erməni olduqlarını anladıqda isə artıq gec olmuşdur. Onları aldadan Ermənistan hərbçiləri Ziyəddinlə Şəmsini girov götürmüş, burazla əllərini bağlayıb maşına atmışlar. Girovları işğal edilmiş Füzuli rayonunun Qorqan kəndindəki anbara aparıb, oradakı taxılı maşınlara yığdırmış, sonra ikisini də Aşağı Seyidəhmədli kəndinə aparmışlar. Aparıldıqları yerdə işğal edilmiş kəndlərin talan edilməsi nəticəsində avadanlıq və mal-qara yüklənmiş təxminən 10-15 yük maşını olmuşdur. İşğal edilmiş Xocavənd rayonunun Edilli kəndinə aparılan girovları birmərtəbəli tibb məntəqəsində yerləşdirmişlər. Ertəsi gün səhər Simonyan soyadlı hərbçi onları sorğu-sual etmiş, sonra oradakı erməni hərbçilər sınıq gitara, taxta parçası və dəmirlə döymüş, ağacı boğazlarına salıb başlarını geri dartmaqla işgəncə vermişlər. Bir neçə gündən sonra yanlarına başqa əsir-girovlar da gətirilmiş, təxminən iki aydan sonra isə Ziyəddini və

daha üç nəfəri avtobusa mindirib Ermənistan Respublikasının Eçmiədzin rayonuna, oradan isə Şaumyan rayonunda əvvəllər sürücülük məktəbi olmuş hərbi hissəyə aparmışlar. Hərbi hissənin komandiri Sumbatyan soyadlı erməni zabiti idi. Orada saxlanıldıqları müddətdə müntəzəm olaraq erməni hərbçilər tərəfindən döyülən, alçaldılan və işgəncələrə məruz qalan əsir-girovları ən çox incidən Qaqo adlı hərbçi olmuşdur. O, boks əlcəyini geyinib hər gün onları huşlarını itirənədək döymüş, üstlərinə su töküb ayıldaraq, yenidən döymüşdür. Döyülməkdən, aramsız işgəncələrdən özlərini və bir-birini güclə tanıyan əsir-girovların bütün bədənləri, baş-gözləri qan içində olmuş, üzləri şişmişdir.

Saxlandıqları hərbi hissədə anbarda işləyən Veroz adlı hərbçi də əsir-girovları tez-tez yumruqla döymüş, başlarının üstündən atəş açıb öldürməklə hədələmiş, mənəvi-psixoloji işgəncələr vermişdir. Rafiq adlı zabit isə Qaqoya göstəriş verib, girovları vaxtlı-vaxtında döyməyi tapşırmışdır. Şaumyan rayonunda saxlanılan zaman onlara erməni hərbçilərin qarşısından qalan yeməyin artıqları verilmiş, qalıqlar olmayanda isə ac qalmışlar. Əsir-girovların saxlanma şəraitləri də acınacaqlı olmuş, onlar soyuq kameranın beton döşəməsinin üstündə yatmağa məcbur edilmişlər. Soyuq olduğundan Səfərəliyev Səfəralı adlı girovun ayaqları şişmiş və müalicə edilmədiyi üçün bir müddətdən sonra ölmüşdür. Onun meyitini erməni hərbçilər naməlum istiqamətdə aparmışlar.

Quliyev Ziyəddin Ziyad oğlu 1995-ci il martın 27-də girovluqdan azad edilmişdir.

Quliyeva Validə Məhəmməd qızı – 1965-ci ildə Azərbaycan Respublikası, Kəlbəcər rayonunun Kilsəli kəndində doğulmuşdur. 31 mart 1993-cü il tarixdə girov götürülmüş, 15 sentyabr 1994-cü ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

1993-cü il martın 31-də Ermənistan ordusunun Kəlbəcərə hücumu zamanı ailəsi, qohumları və bir qrup həmkəndlisi ilə birlikdə xilas olmaq məqsədi ilə yaşadıqları kəndi tərk etməyə məcbur olmuşlar. Kənd məktəbinə məxsus "QAZ-52" markalı yük maşınında ərazidən çıxmaq istəyərkən, 10 km məsafədə yerləşən tunelin çıxışında Ermənistan hərbçiləri tərəfindən atəşə tutulmuşlar. Həmin vaxt onların qarşılarında gedən Kəlbəcər və Laçın rayonunun dinc sakinləri ilə dolu "KAMAZ" markalı yük maşını alışıb yanmışdır. Hadisə zamanı əmisi oğlu Quliyev Tahir Binnət oğluna qulaq, qol və başından 3 güllə, bacıları Cəmiləyə 11, İlhaməyə 2 güllə, Validənin özünə 2 güllə dəymişdir. Validənin qardaşı Quliyev İslam ölümcül yaralanmış, 12 yaşlı bacısı Şahnaz çiynindən yaralanaraq, yaşananlardan şok vəziyyətinə düşüb küncə qısılmışdır. Maşının kabinəsində olan Mirzəyev Aslan və qızı Afətə dəyən güllələrdən başları deşik-deşik olmuşdur. Qohumları Afətin körpə oğlu Babəkin öldüyünü güman etsələr də, uşağı yaxınlarının ayaqları altından çəkib çıxaranda onun sağ olduğunu görüb götürmüşlər. Həmin vaxt müşayiət məqsədi ilə yolda onlara qoşulmuş Azərbaycan ordusunun əsgəri yerə tullanıb dinc əhalini müdafiə etmiş, işğalçı ordunun çoxsaylı hərbçiləri ilə qeyri-bərabər döyüşə girmişdir. Azərbaycan əsgəri Ermənistan hərbçilərindən birini yaralamış, ikisini isə məhv etmişdir. Lakin atəşi daha da şiddətləndirən erməni hərbçilərin əl qumbarası atması nəticəsində Azərbaycan əsgəri yaralanmış və əsir götürülmüşdür. Bundan sonra daha da cəsarətlənən Ermənistan hərbçiləri yaxınlaşaraq hər iki maşında olan mülki şəxsləri girov götürmüşlər. V.Quliyevanın qarnından yaralanmış 7-8 yaşlı qohumu Məmişov Taleh

Ələsgər oğlunun yerə tökülən bağırsaqlarını süngü-bıçaq ilə qarnının içinə yığan erməni hərbçi onu maşına qoyub naməlum istiqamətdə aparmışdır. Validənin bacısı Şahnazı yanan maşından düşürmək istədikdə, erməni hərbçilər buna imkan verməmiş və özlərinin götürəcəklərini söyləmişlər. 12 yaşlı Şahnazı hadisə yerində yaralı vəziyyətdə buraxan erməni hərbçilər hər iki maşının sağ qalan sərnişinlərini girov götürüb, başqa bir yük maşını ilə Ağdərə rayonunun Drombon kəndinə aparıb, zirzəmiyə salmışlar. Orada tibbi yardım göstərilmədiyindən ölən qardaşı İslamın cəsədini digər qardaşı Fərman basdırıb. Bir neçə saatdan sonra azərbaycanlı girovları Xankəndi şəhərindəki 3 saylı uşaq bağçasına aparan erməni hərbçilər kişi girovları buradan işğal etdikləri Şuşa şəhərindəki həbsxanaya yola salmış, qadınları və yaralıları isə Xankəndi uşaq xəstəxanasına yerləşdirmişlər. Girov götürülən zaman erməni hərbçilərin vəhşiliyindən dəhşətə gələn V.Quliyeva bu dəfə erməni tibb heyətinin insana və həkim adına yaraşmayan qeyri-insani hərəkətlərinin şahidi olmuşdur. Xəstəxananın həkimi, təxminən 40 yaşlarında olan Edik Stepanyan azərbaycanlı girovlara cansız əşya kimi yanaşmış, müalicə etmək əvəzinə hər yolla onların şikəst olmaları üçün çalışmışdır. Ora gətirilən ilk gündə Validənin belinə təpik vurmuş, keyidici vasitələrdən istifadə etmədən, tibbi və gigiyena qaydalarına riayət etmədən barmaqlarını yaraya soxub əlindəki gülləni çıxarmış, nəticədə V.Quliyevanın həmin əli şikəst olmuşdur. Edik Stepanyan sağ ayağı omba sümüyündən sınaraq üzülmüş, sağ əli qırılmış, sol ayağının bud hissəsinə isə 4 güllə dəymiş bacısı İlhaməyə qarşı da eyni vəhşiliyi törətmişdir. O, əvvəlcə xəstəxanada olan BQXK nümayəndələrinin nəzarəti ilə İlhamənin ayağından tibbi qaydada daş assa da, sonradan həmin daşı vaxtından qabaq düşürmüş, nəticədə İlhamənin ayağı yığılmağa başlamış və şikəst olmuşdur. Ertəsi gün yenidən İlhamənin yanına gələn Stepanyan keyidicidən istifadə etmədən qayçını onun başına keçirib oynada-oynada "Başındakı gülləni çıxarmağa gəldim", – demişdir. Validəyə İlhamənin başını qaldırmağı tapşıran Edik qayçı ilə yaralının başının dərisini kəsib gülləni çıxarmışdır. Ertəsi gün İlhamənin qoluna batan güllə qəlpəsini çıxarmağa gələn E.Stepanyan barmağını qəlpə batan yerə salmışdır. Vəziyyəti ağırlaşmış, yarasından şiddətli ağrılar qopmuş İlhamənin fəryadına və Validənin yalvarışlarına məhəl qoymadan, barmağı ilə hansısa damarı qırmağa çalışmışdır. Xoşbəxtlikdən, dəhlizdən səs gəlmiş və erməni həkim BQXK nümayəndələrinin gəldiyini zənn edib başladığı işi yarımçıq qoymuşdur. Buna baxmayaraq, Edik Stepanyan Validənin qardaşı Bəxtiyara və həmkəndliləri Əsgərxana qarşı öz məkrli planını həyata keçirə bilmişdir. Erməni həkim Quliyev Bəxtiyarın bud hissəsindəki gülləni çıxarmaq adı ilə dartıb vena damarını qırmış, Əsgərxanın güllə dəydiyi üçün sallanan ayağının yara yerini kəsib, tamamilə şikəst olmasına zəmin yaratmışdır. Xankəndi uşaq xəstəxanasında azərbaycanlı girovlara qənim kəsilən yalnız E.Stepanyan olmamışdır. Bütün heyət onların məhvi üçün çalışmış və əllərindən gələni etmişlər. Belə ki, hadisə zamanı hamilə vəziyyətdə girov götürülmüş başqa bir qadın – Validənin qohumu və həmkəndlisi Quliyeva Gülcamal Binnət qızı qeydiyyata alındığından, BQXK əməkdaşları onun doğum evinə aparılmasına və doğuş prosesinə nəzarət etmişlər. Dünyaya gətirdiyi oğlan uşağını erməni tibb personalı əvvəlcə yandırmaq istəsə də, BQXK nümayəndələrinin orada olmasından çəkinib fikirlərindən daşınmışlar. Sonra hiyləgər addım atıb valideynləri müsəlman olan körpəni xaç suyuna salmış və ona Andranik adı vermişlər.

Qeyd *(tərt.): Gülcamal Quliyeva və övladı azad edildikdən sonra girovluqda olarkən körpəsinə vurulan preparatların onu inkişafdan saxlamaq və iflic etmək üçün qəsdən vurulduğu müəyyən edilmişdir. Gülcamal Quliyeva sonradan Rusiya telekanallarının birində guya girovluqda olan azərbaycanlılara "tibbi yardım göstərməsi" barədə danışan erməni həkim Aida Serobyanı tanımış və preparatın girovluqda doğulmuş övladına məhz onun tərəfindən vurulduğunu söyləmişdir. G.Quliyevanın iflic olmuş və inkişafdan qalmış oğlu Arzu Hacıyev 2003-cü ildə 10 yaşında vəfat etmişdir.*

Səma adlı hamilə qadın isə ermənilərin açdıqları atəş nəticəsində qarın nahiyəsindən güllə yarası almış və bətnindəki uşaq tələf olmuşdur. Vəziyyəti çox ağır olduğundan, Drombonda onun üzərində cərrahiyyə əməliyyatı aparılıb bətnində ölmüş körpə çıxarılmışdır. 10-15 gündən sonra Xankəndi uşaq xəstəxanasına gətirilən Səmanın vəziyyəti getdikcə ağırlaşmış, baxımsızlıq və natəmizlik səbəbindən yarasına infeksiya düşmüş, çox keçmədən ölmüşdür. Malıbəyli qəbiristanlığında basdırılmış Səmanın Nurlanə adlı körpə qızını İmarət və Sona adlı girov qadınlar himayə etsələr də, çox keçmədən 3-4 yaşı olmasına baxmayaraq, erməni hərbçilər tərəfindən tez-tez döyülən azyaşlının getdikcə görmə qabiliyyətini itirdiyi məlum olmuşdur. V.Quliyeva ayrı-ayrı vaxtlarda Karlen və Cahangir adlı əsirlərin məruz qaldıqları işgəncələr nəticəsində vəziyyətlərinin ağırlaşması səbəbindən müalicə məqsədi ilə Xankəndi uşaq xəstəxanasına gətirildiklərinin, lakin baxımsızlıq və laqeydlikdən əzab içində öldüklərinin şahidi olmuşdur. 3 saylı Xankəndi uşaq bağçasında saxlandıqları zaman isə qızı ilə birlikdə gətirilmiş Ağdam rayon sakini Zənifə adlı girov qadın digər girovlara Ağdamda gözünün qabağında erməni hərbçilərin 20 nəfər azərbaycanlı gəncin başlarını kəsdiklərini danışmışdır.

Quliyeva Validə 15 sentyabr 1994-cü il tarixdə girovluqdan azad olunmuşdur.

Mahmudov Möhlət Nəriman oğlu – 1967-ci ildə Azərbaycan Respublikası Salyan rayonunda anadan olmuşdur. 22 iyul 1993-cü il tarixdə əsir götürülmüş, 20 noyabr 1993-cü ildə azad olmuşdur. İfadəsində bildirmişdir:

Azərbaycan Silahlı Qüvvələrinin 28 nəfər əsgəri Ağdam rayonu, Sarıcalı kəndi ərazisində hərəkət edən zaman Ermənistan hərbçiləri tərəfindən güclü atəşə məruz qalmış, nəticədə 8-10 nəfər həlak olmuşdur. Möhlət Mahmudov başından yaralandığına görə huşunu itirmiş, ayılarkən özünü maşın parkının həyətində əsir alınmış digər yaralı döyüş yoldaşları – Göyçay rayonundan olan Əliyev Mənsur Bayram oğlu və Salyan rayonundan olan Adıgözəlov Ramizin yanında görmüşdür. Yaralı olmalarına baxmayaraq, ermənilər onları möhkəm döymüş, sonra Ağdamın Sarıcalı kəndində yerləşən qərargaha aparmışlar. Orada Benik, Samvel, Slavik və Elmira Ağayan adlı Ermənistan hərbçiləri əsirləri sorğu-sual etmişlər. Sorğu-sual zamanı erməni silahlılar azərbaycanlılardan, əsasən, nə üçün vuruşduqlarını soruşmuşlar. Əsirlər öz torpaqlarını qorumaq məqsədi ilə vuruşduqlarını bildirdikdə, qəzəblənən Samvel "Torpaq üçün gəlmisən? Al, ye!" – deyərək onları torpaq yeməyə məcbur etmişdir. 35-36 yaşlı David adlı ermənistanlı hərbçi isə yaralı Azərbaycan əsgəri Ramiz Adıgözəlovu vəhşicəsinə döyərək öldürmüş, cəsədini isə harasa aparmışdır. Sonra əsirləri Xankəndində azərbaycanlılar saxlanılan uşaq bağçasına, ertəsi gün isə şəhərdə yerləşən alaya aparmışlar. 19 nəfər əsir-girovun saxlanıldığı alayda hərbçi olduqları üçün daha çox döyülən Möhlət və onun döyüş

yoldaşlarından, əsasən, təmizlik işlərində istifadə etmişlər. Küçələri süpürərkən müharibədən əvvəl Xankəndində yaşamış 40-45 yaşlı Əsgər adlı azərbaycanlı girovu yerli ermənilər tanımış və bu barədə hərbçilərə bildirmişlər. Üç nəfər erməni zabit onu bir həyətə apararaq, kəlbətinlə ağzındakı bütün dişlərini çıxarmış, sonra isə asaraq öldürmüşlər. Möhlət Xankəndi hərbi hissəsində saxlanıldığı zaman Ağdam sakini, milliyyətcə tatar olan 70 yaşlı Şura kişini ermənilər döyə-döyə öldürmüşlər. Bir müddət sonra isə Şuşadan oraya gətirilən azərbaycanlı əsir-girovlar Şuranın Şuşa həbsxanasında saxlanılan oğlunun da ermənilər tərəfindən güllələndiyini bildirmişlər. Qubadlı rayonundan olan Zakir adlı girovu da döyə-döyə öldürmüş, Şirinova Şərqiyyə Ağca qızı adlı qadının 16 dişini vintaçanla çıxarmışlar. Bundan başqa, ermənilər əsir-girovları işğal etdikləri Ağdam rayonundakı evləri talan etməkdə, Qasımlı karxanasından mərmər kəsib yığmaqda, odun, un və s. daşınmasında, həmçinin, öz həyətlərində işlədirdilər. Möhlət ermənilər tərəfindən Ağdam şəhərində işlədilən zaman məsciddən başqa bir dənə də salamat binanın qalmadığının şahidi olmuşdur. Orada erməni hərbçilər əsir-girovları hər vəchlə BQXK-dan gizlətməyə çalışmışlar. Adını bilmədiyi bir erməni qadın qərargah rəisi Elmira Ağayanın öz evində azərbaycanlı girov qız-gəlinləri saxlayaraq, cinsi istismara cəlb etdiyini Möhlətə söyləmişdir. Bir müddət sonra M.Mahmudov və Əliyev Mehman Şuşa rayonunun Kosalar kəndi yaxınlığındakı yaylaqda çobanlıq etməyə göndərilmişlər. Nəzarətin zəif olmasından istifadə edən azərbaycanlı əsirlər noyabr ayının əvvəlində fürsət taparaq qaçmışlar. Cənub istiqamətində günlərlə yol getmiş və Azərbaycan-İran sərhədinin Ermənistan Silahlı Birləşmələrinin işğalı altında olan hissəsinə çatmışlar. Azad olmaq üçün əvvəlcə işğal olunmuş ərazidən çıxmaq vacib şərt olduğu üçün məcburi Araz çayını üzərək İran İslam Respublikasının ərazisinə keçmək zəruri idi. Hava soyuq olduğundan Əliyev Mehman donaraq çayda qalmış və su onu aparmışdır. Möhlət isə çayı keçməyə müvəffəq olmuş və Azərbaycana qayıda bilmişdir.

Manafov Abuzər Adıgözəl oğlu – 1968-ci ildə İsmayıllı rayonu, Mican kəndində doğulmuşdur. 9 yanvar 1994-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Füzuli rayonu, Kürdmahmudlu kəndinin Ermənistan Silahlı Qüvvələrinin hücumundan müdafiəsi uğrunda gedən döyüşlər zamanı omba sümüyündən yaralanmış və əsir götürülmüşdür. Həmin gün onu Hadrut rayonuna aparmışlar. Ertəsi gün oraya sinəsindən güllə yarası almış digər azərbaycanlı əsiri də gətirmişlər. Ona tibbi yardım göstərilmədiyindən, əsir gecə ikən ölmüşdür. Erməni hərbçilər onun meyitini ərazidə basdırmışlar. Bir gün sonra oraya qarın nahiyəsindən yaralanmış və yara yeri cırılmış başqa bir azərbaycanlı əsiri gətirmişlər. Ermənilərin Elman deyə çağırdıqları həmin əsir yarası ağır olduğu üçün danışa bilmirdi. Yanvarın 14-dən 15-nə keçən gecə hər iki əsir Abuzərlə birlikdə "UAZ" markalı avtomobillə Şuşa həbsxanasına aparılarkən, Elman yolda keçinmişdir. Abuzər bu barədə ermənilərə məlumat vermiş, onlar isə maşını saxlayaraq meyiti basdırmışlar. Şuşa həbsxanasında saxlanıldığı vaxt həbsxana nəzarətçiləri müntəzəm olaraq azərbaycanlı əsir-girovları yumruq, təpik, dəyənək və müxtəlif dəmir və taxta alətlərlə döymüş və işgəncələr vermişlər. Qor və Armen adlı ermənilər su şüşəsi ilə Abuzərin başını partlatmışlar. 1994-cü ilin noyabr-dekabr

aylarında Şuşa həbsxanasında Bakı şəhərindən olan Nadir adlı əsirin bədəninə elektrik cərəyanı verərək öldürmüşlər. Nadirin meyitini Abuzər digər azərbaycanlı əsir-girovlarla birlikdə həbsxananın yanındakı məzarlıqda dəfn etmişdir. Beyləqan rayonundan olan İlqar adlı əsiri isə ermənilər döyə-döyə öldürmüşlər. Ümumiyyətlə, onunla birlikdə Şuşa həbsxanasında və Mısmınada saxlanılan bütün əsir-girovlar rezin dəyənək və avtomatın qundağı ilə döyülmüş, işgəncələrə məruz qalmışlar.

Manafov Abuzər Adıgözəl oğlu 10 may 1996-cı il tarixdə Rusiya Federasiyasının vasitəçiliyi ilə əldə edilmiş razılığa əsasən azad edilmişdir.

Mehdiyev Cəfər Talıb oğlu – 1968-ci ildə Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olmuşdur. 23 avqust 1993-cü il tarixdə girov götürülmüş, 18 avqust 1994-cü ildə azad olmuşdur. İfadəsində bildirmişdir:

İşdən evə qayıdarkən Füzuli rayonu, Kərimbəyli kəndi yaxınlığında Ermənistan hərbçiləri tərəfindən 14 nəfərlə birlikdə girov götürülmüşdür. Onları Xocavənd rayonunda yerləşən alaya aparmış və dəmir, bel, avtomatın qundağı ilə döymüşlər. Sahə müvəkkili işləmiş baş leytenant Elşən Şükürova daha çox işgəncə vermişlər. Ertəsi gün ermənilər girovları müxtəlif işlərə, o cümlədən qətlə yetirdikləri azərbaycanlıların meyitlərinin basdırılmasına da cəlb etmişlər. O, vəhşicəsinə qətlə yetirildiklərindən, basdırdıqları cəsədlərin, əsasən, qolsuz, ayaqsız, başsız vəziyyətdə olduqlarının şahidi olmuşdur. Girovluqda olduğu müddətdə ermənilər onlara müxtəlif işgəncələr vermişlər. Qaraxan adlı girovun qızıl dişlərini sökmüş, Cəfərin barmaqlarını böyük, ağır borunun altına qoyub sındırmışlar. Quraşdırma aləti *(montirovka – tərt.)* ilə döyərək, C.Mehdiyevin qabırğalarını sındırmış, dəmir boru ilə vuraraq, başını bir neçə yerdən partlatmış, təpiklə vuraraq böyrəklərini zədələmişlər. Əsirlərin və girovların üzərinə vəhşi itləri buraxan erməni hərbçilər BQXK-nın gətirdiyi ərzaq və paltarları mənimsəmişlər. 1994-cü ilin avqust ayının 18-də işləmək üçün benzindoldurma məntəqəsinə aparılan Mehdiyev Cəfər Talıb oğlu digər girov Rafiq Quliyevlə birlikdə nəzarətin zəif olmasından istifadə edərək qaçmış və girovluqdan azad olmuşdur.

Mehdiyev Çingiz Tapdıq oğlu – 1970-ci ildə Füzuli rayonu, Aybasanlı kəndində doğulmuşdur. 23 iyul 1993-cü il tarixdə əsir götürülmüş, 12 may 1995-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Füzuli rayonu, Cuvarlı kəndinin müdafiəsi zamanı gedən döyüşlərdə mühasirəyə düşərək döyüş yoldaşları ilə birlikdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Erməni hərbçilər onun döyüş yoldaşları Rafiq, Ələddin və adını xatırlamadığı başqa bir əsgəri yerindəcə vəhşicəsinə qətlə yetirmiş, meyitlərini oradakı səngərdə basdırmışlar. Çingiz Mehdiyevi isə Rəhimov Xaləddin və Məmmədov Aslanla birlikdə Hadrut rayonunun Edilli kəndində yerləşən komendaturaya apararaq, amansızcasına döymüş və işgəncələr vermişlər. Bir neçə gündən sonra səngərdə basdırdıqları cəsədlərdən ikisinin çıxarılaraq komendaturaya gətirilməsi məqsədi ilə Çingizi və bir neçə əsiri oraya aparmışlar. Cəsədləri çıxaran Çingiz və yanındakı əsirlər onları tanıya bilməmiş və yoldaşlarının qəddarcasına qətlə yetirildiklərini anlamışlar. Ç.Mehdiyevlə birlikdə saxlanılan 13 nəfər əsir-girov da erməni hərbçilər tərəfindən eyni işgəncələrə məruz qalmışlar. Ən çox işgəncə verən Gevorq adlı nəzarətçi olmuşdur. Təxminən bir ay sonra Çingizi və onunla birlikdə bir neçə əsiri Ermənistanın Şaumyan rayonunda yerləşən hərbi hissəyə aparmışlar. Ermənilər orada

əsirləri ağır işlərə cəlb etmiş, ağacla, təpiklə, dəyənəklə, əllərinə keçən dəmir parçaları ilə döymüş, təhqir etmiş, ac saxlamış və bir-birini döyməyə məcbur etmişlər. Onların əllərini iplə bağlayaraq, üstlərinə itləri buraxmışlar. Orada əsirlərə ən çox işgəncə verən Vrej adlı erməni hərbçi olmuşdur. Verilən işgəncələrin nəticəsi olaraq Çingizin qabırğası, burnu sınmış, əllərini bağladıqları ip kəsdiyi üçün izi hələ də qalmışdır. İşgəncələri erməni əsgərləri və xaricdən gətirilmiş terrorçu-muzdlular vermişlər. Əsirlikdə saxlandığı müddətdə Çingiz ermənilərin Səfəralı adlı azərbaycanlı girovu döyərək öldürmələrinin şahidi olmuşdur. Çingiz Mehdiyev 1995-ci ilin may ayının 12-də əsirlikdən azad olunmuşdur.

Mehdiyev Elnur Fərman oğlu – 1981-ci ildə Qazaxıstan Respublikasında doğulmuşdur. 1 fevral 2000-ci ildə əsir götürülmüş, 18 iyul 2000-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Azərbaycan Respublikasının Goranboy rayonu ərazisində hərbi xidmətdə olarkən Ermənistan hərbçiləri tərəfindən Baranbat meşəsində əsir götürülmüşdür. Onu meşədə ağaca bağlayaraq, ayağından çəkməsini çıxarmış və bütün gecəni qarın içində ayaqyalın saxlamışlar. Ertəsi gün Elnuru ayaqyalın Ermənistan ordusu taborunun dislokasiya məntəqəsinə aparmış və döyərək təhqir etmişlər. Gecə saatlarında polkovnik və polkovnik-leytenant rütbəli iki erməni zabit onu sorğu-sual etmiş və yenidən döymüşlər. Həmin vaxt ora gələn baş leytenant rütbəli digər erməni hərbçi polkovnikə Elnurun qızıl dişinin olduğunu bildirmiş, lakin polkovnik "Mənə onun qızıl dişi yox, Bakı lazımdır", – söyləmişdir.

Əsir götürüldüyü gün səhərə kimi qarın üstündə ayaqyalın saxlanıldığı üçün ayaqlarını şaxta vurduğundan, E.Mehdiyevi Xocalı şəhərində yerləşən hospitala aparmışlar. Orada qaldığı iki ay müddətində ona işgəncələr vermişlər. Tüpürdükləri çörəyi yeməyə məcbur etmiş, imtina etdikdə, ümumiyyətlə, çox vaxt heç bir səbəb olmadan don vurmuş yaralı ayaqlarını təpikləmiş və döymüşlər. Hospital rəisinin sürücüsü Edik adlı erməni Elnuru daha çox döyürmüş. 5-6 erməni hərbçini də başına yığan Edik Elnuru erməni xaçını öpməyə məcbur edir, öpmədikdə, döyərək yataqdan yerə yıxırmış. Edikin sanitar işləyən qohumu – Viktoriya adlı qadın da Elnura çox işgəncə vermişdir. Belə bir şəraitdə saxlanılan azərbaycanlı əsirin ayağı dözülməz hala çatdıqda ermənilər onu işğal altında olan Xankəndi şəhərindəki hospitala apararaq, sol ayağının 5 barmağını kəsmişlər. Xankəndi hospitalında BQXK tərəfindən qeydiyyata götürülən Elnuru ermənilər Yerevan şəhərindəki hospitala köçürmüşlər. Orada dörd ay saxlandığı müddətdə onu mülki geyimli Artak adlı şəxs sorğu-sual etmiş, Hərbi Polisin zabitləri – Serop, Makar, Vaskan adlı ermənilər Elnura Azərbaycan əleyhinə işləmək məqsədi ilə Ermənistanda qalmağı təklif edərək, iş, maşın, pul və ev vəd etmişlər. İmtina etdiyi üçün döyərək işgəncə vermişlər. Ən çox işgəncə Sirun adlı erməni hərbçi tərəfindən verilmişdir. 2000-ci ilin iyul ayında E.Mehdiyevi Ermənistan Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasına aparıb, 40-45 yaşlarında İsmayıl adlı azərbaycanlı girovun saxlanıldığı kameraya salmışlar. Ermənilər İsmayıla işgəncələr verir, Azərbaycana qayıdaraq terror aktı törətməsini tələb edir, əks halda, 17 və 20 yaşlı uşaqlarının şəklini ona göstərərək, tapıb gətiriləcəkləri ilə hədələyirmişlər. Orada 7-8 gün saxlanılan Elnur Mehdiyev 18 iyul 2000-ci ildə azad edilmişdir.

Mehdiyev İlqar Ərşad oğlu – 1958-ci ildə Cəbrayıl rayonunda anadan olmuşdur. 23 avqust 1993-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Cəbrayıl rayonu Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilən vaxt xəstə və qocaları rayondan çıxarmaq istəyərkən, yaralı vəziyyətdə ermənilər tərəfindən əsir götürülmüşdür. Ermənistan hərbçiləri Cəbrayıl rayonunda əsir götürdükləri azərbaycanlıları vəhşicəsinə döydükdən sonra sıraya düzərək onlardan yaxınlıqdakı binanın qapısı üstündən çıxardıqları Azərbaycan bayrağına tüpürməyi tələb etmişlər. Qəflətən irəli şığıyan İlqar Azərbaycan bayrağını öpmüş və ikiəlli yuxarı qaldırmışdır. Bundan qəzəblənən ermənilər İlqarın üstünə tökülüşərək, onu huşunu itirənədək müxtəlif alətlərlə döymüşlər. Sonra İlqar Mehdiyevi Hadrut rayon mərkəzindəki hərbi hissəyə apararaq zirzəmiyə salmışlar. Erməni hərbçilər orada saxladıqları əsir və girovları tez-tez rezin dəyənəklərlə döymüş və işgəncə vermişlər. Döyülmə və işgəncələr nəticəsində saxlanılan 7 azərbaycanlının burunları, barmaqları, qollarının sınmasına əhəmiyyət verməyən erməni hərbçilər özləri yorulduqları üçün əsir-girovları döymək məqsədi ilə yaxınlıqdakı kəndin mülki əhalisini içəri buraxmışlar. Mülki əhali azərbaycanlıları döydükdən sonra Hadrut Milis idarəsinə aparmışlar. Orada da əsir-girovlar döyülərək işgəncələrə məruz qalmışlar. Nəticədə başı partladığından çoxlu qan itirən Mürvəti BQXK-nın qeydiyyatında olduğu üçün öləcəyindən ehtiyat edərək, Xankəndindəki hospitala aparmışlar. Bir müddət sonra Şuşa həbsxanasına köçürülən İlqar digər azərbaycanlılar kimi orada da müntəzəm olaraq döyülərək işgəncələrə məruz qalmışdır. Əsir götürüldüyü və təcridxanada saxlanıldığı zaman baş vermiş hadisələrdən xəbərdar olan erməni nəzarətçilər və digər hərbçilər daim onun iradəsini sındırmağa çalışmış və bu məqsədlə başqa əsirlərdən daha çox aclığa və işgəncələrə məruz qoymuşlar. Bir dəfə gecə saatlarında əlisilahlı iki erməni İlqarı yatdığı yerdən qaldırıb başqa bir yerə aparmışlar. Orada olan üç ermənidən birinin əlində videokamera olmuşdur. Onlar İlqardan beynəlxalq aləmdə yayılması məqsədi ilə ermənilərin xeyrinə çıxış etməyi tələb etmiş, ancaq əsir bundan imtina edərək, Ermənistanın işğalçı olduğunu söyləmişdir. Bu zaman həmin ermənilərdən biri əlindəki tapançanın qundağı ilə onun gicgahına ağır zərbələr endirmişdir. Üç gün ərzində ac-susuz olduğundan, müvazinətini saxlaya bilməyən İlqar yerə yıxılmışdır. Taqətsiz halda yerə yıxılmış azərbaycanlının üstünə tökülən digər ermənilər də onu təpikləmiş və huşunu itirənə kimi döymüşlər.

Əsirlikdən qayıdanların ifadələrindən: Xankəndi həbsxanasında saxlanılarkən Ermənistan hərbçiləri üç gün müddətində ac saxladıqları əsirləri sıraya düzmüş, qarşılarında Azərbaycan və Ermənistan bayraqlarını yanaşı asmış, yanında isə ağzına kimi yeməklə dolu olan qazan qoymuşdular. Bir erməni zabit əsirlərə Azərbaycan dilində səslənərək "Kim gəlib Ermənistan bayrağını öpüb, Azərbaycan bayrağına tüpürsə, ona doyunca yemək verəcəyik, sonra isə azad edəcəyik", – demişdir. Digər bir erməni isə hadisəni videolentə alırmış. Elə bu vaxt cəld irəli çıxan İlqar Mehdiyev Azərbaycan bayrağının önündə diz çökərək onu öpüb, erməni bayrağına tüpürərək, onu tapdalamağa başlayır. Ermənilər İlqarın üstünə hücum edib onu küt alətlərlə möhkəm döyürlər. İlqarın bir neçə dişi qırılır, ağzı qanla dolur. Ermənilər İlqarın erməni bayrağına tüpürməsini cəzasız qoymayaraq, onun bədəninə iynə ilə zəhərli maddə yeritmişlər.

Əsirlikdə dəhşətli işgəncələr görmüş, ağır bədən xəsarətləri almış və qanına zəhərli maddə yeridilmiş İlqar Mehdiyev 10 may 1996-cı il tarixdə əsirlikdən azad edildikdən sonra müalicə alsa da, 5 fevral 1997-ci ildə vəfat etmişdir.

Mehdiyev Nazim Hafiz oğlu – 1976-cı ildə Bakı şəhərində doğulmuşdur**.** 23 aprel 1996-cı il tarixdə əsir götürülmüş, 2 may 1997-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Goranboy rayonu ərazisində xidmət edərkən, Ermənistan ordusunun kəşfiyyat qrupu tərəfindən əsir götürülmüşdür. Ermənilər Nazimin başına avtomatın qundağı ilə vurduqları üçün o, huşunu itirmiş, ayılanda İncəçay çayının kənarında olduğunu görmüşdür. Orada ermənilər Nazimi döyərək, İncəçayın yaxınlığında olan qərargaha aparmışlar. Ermənilər Nazimi söyüb təhqir etmiş, təpik, yumruq, avtomatın qundağı və əllərinə keçən ağac parçaları ilə möhkəm döymüşlər. Bundan sonra isə onu sorğu-sual etmiş, hansı hərbi hissədə xidmət etdiyini və hərbi mövqelərin yeri barədə soruşmuşlar. İki gün Nazimi ac-susuz saxladıqdan sonra digər qərargaha aparmışlar. Orada onu yüksək vəzifəli zabitlər döymüş, eyni sualları vermiş və qaranlıq zirzəmiyə salmışlar. İki gündən sonra onu Xankəndində yerləşən "mudafiə nazirliyi"nin binasına aparmışlar. Erməni hərbçilər onun qarşısına xəritə sərərək, hərbi xarakterli suallar vermişlər. Nazim onların suallarına cavab vermədiyi üçün, ermənilər onu rezin dəyənək və taxta ilə möhkəm döymüşlər. Saxlandığı müddətdə Abramyan Sergey adlı mayor rütbəli hərbçi onu döyərkən eynəyi yerə düşüb sınmışdır. Bundan qəzəblənən Sergey Nazimi daha da möhkəm döymüşdür. Oradan onu "milli təhlükəsizlik nazirliyi"nin binasına aparmışlar. Orada da sorğu-sual etmiş, cavab ala bilmədikdə isə "Abo" ləqəbli Albert Voskanyan yanında olan iki erməni hərbçiyə "Bunu başa salın", – deyərək, onu möhkəm döydürmüşdür. Həmin yerdə ermənilər Nazimi rezin dəyənək və təpiklə döymüş, başını divara vurmuşlar. Bir müddət keçdikdən sonra Albert Voskanyan Nazimi yanına çağıraraq, onu əsirlikdən azad edəcəyini bildirmiş, bunun müqabilində ermənilərə işləməsini təklif etmişdir. Abo Nazimdən digər azərbaycanlı əsir – Qasımzadə Səlahəddinin saxlandığı kameraya girməsini və özünü zabit kimi qələmə verərək, ondan məlumat toplamasını tələb etmişdir. Nazim onlara etirazını bildirdikdə, Edik adlı erməni onu avtomatın qundağı, təpik və yumruqla möhkəm döymüş və tapşırığa əməl etməsini tələb etmişdir. Nazim tapşırığa əməl etmədiyindən, bir müddət sonra ermənilər onu kameradan çıxararaq həyətdə olan hovuzun içinə salmış və bir gün soyuq suda saxlamışlar. Sonra isə üç erməni hərbçi onun yanına gələrək rezin dəyənək, avtomatın qundağı, taxta, təpik və yumruqla möhkəm döyərək, yenidən Səlahəddinin saxlandığı kameraya salmışlar. Orada ermənilər Nazimə yemək üçün buğda suyu verir, bəzən isə 2-3 gün ac saxlayırmışlar. Şuşa həbsxanasında saxlandığı müddət ərzində isə Nazimi tez-tez həbsxananın rəisi Qarikin otağına aparıb sorğu-sual edirmişlər. Orada saxlanılan əsirləri ermənilər ağır işlərdə işlədirmişlər. 1997-ci ilin may ayının 2-də Nazim Mehdiyev 3 nəfər azərbaycanlı hərbi əsirlə birlikdə azad olunmuşdur.

Mehdiyev Rauf Mehdixan oğlu – 1979-cu ildə Tovuz rayonu, Əlibəyli kəndində doğulmuşdur. 30 iyun 1994-cü ildə girov götürülmüş, 11 avqust 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Rauf Nağıyev Osman və Sadıqov Şamil adlı həmkəndliləri ilə birlikdə yaşadıqları Tovuz rayonunun Əlibəyli kəndi yaxınlığında xırdabuynuzlu heyvanlarını otararkən, üç nəfər ermənistanlı hərbçi tərəfindən girov götürülmüşlər. Müqavimət göstərən Ş.Sadıqovun qulaqlarını ermənilər kəsərək, onu buraxmışlar. R.Mehdiyevlə O.Nağıyevi isə Ermənistanın Berd rayonundakı hərbi hissəyə apararaq qaranlıq və soyuq bir otağa salmışlar. Raufu polkovnik Xaçaturyan, onun müavini Kavalyan və Robert adlı zabit sorğu-sual edərək, ona hərbi hissələrin yeri, texnikalar və s. barədə suallar vermişlər. 15 yaşlı Rauf, məlumatı olmadığından cavab verə bilmədikdə onu hərbçilərə döydürmüş və təhqir etmişlər. 13 gün erməni girovluğunda olan yeniyetmələr soyuq, qaranlıq və rütubətli yerdə saxlanılmış, gündə bir dəfə erməni əsgərlərinin yeməyinin qalıqları verilmişdir.

R.Mehdiyev və O.Nağıyev 11.08.1994-cü il tarixdə girovluqdan azad edilmişlər.

Mehdiyev Vüqar Vaqif oğlu – 1973-cü ildə Füzuli rayonunda doğulmuşdur. 23 oktyabr 1993-cü il tarixdə girov götürülmüş, 18 dekabr 1993-cü ildə azad olmuşdur. İfadəsində bildirmişdir:

Bir neçə həmkəndlisi ilə birlikdə Füzuli rayonu, Böyük Bəhmənli kəndi yaxınlığında Ermənistan hərbçiləri tərəfindən girov götürülmüşdür. Onları Şükürbəyli kəndi yaxınlığındakı qərargahlarına aparan ermənilər girovları döymüş və sorğu-sual etmişlər. Erməni silahlıları Vüqarın hərbçi olduğunu zənn edib, onu daha çox sorğu-sual etsələr də, mülki şəxs olan V.Mehdiyev heç bir hərbi sirrə malik olmadığından sualları cavablandıra bilməmişdir. Sonra Vüqarı digər otağa keçirib, qapını bağlayaraq, ona narkotik maddə – marixuana çəkdirməyə çalışmış, bu baş tutmadıqda özləri çəkərək, tüstüsünün təsiri altına salaraq ondan hərbi sirləri almağa çalışmışlar. Sonda hərbçi olmadığına əmin olan silahlılar onu daha amansızlıqla döymüş və ertəsi gün Xocavənd rayonundakı hərbi hissəyə göndərmişlər. Ermənilər orada da onu döyə-döyə, işgəncələr verərək sorğu-sual etmiş, sonra isə Xocavənd rayonunda yerləşən komendantlığa aparmışlar. Vüqardan savayı 27 əsirin saxlanıldığı komendantlıqda onu rezin dəyənək, taxta və dəmir parçaları ilə döymüş, tütün yedizdirmişlər. Ermənilər bütün əsirləri müntəzəm olaraq döymüş və ya bir-birlərini döyməyə məcbur etmişlər. Erməni hərbçilər tərəfindən verilən işgəncələr nəticəsində onun bir neçə qabırğası və qabaq dişləri sınmışdır. Ən çox işgəncə verən Rafik adlı hərbçi olmuşdur. Əsasən, sutkanın böyük hissəsini tikintidə işlətmiş, yeməyə isə bir parça quru çörək vermişlər. Əkin sahəsində işlədərkən, erməni nəzarətçilər ondan sevdikləri Azərbaycan mahnılarını oxumağı tələb etmiş, səsi olmadığından oxuya bilmədiyini bildirdikdə onu döymüş və başını kanalizasiya suyu ilə dolu vedrəyə salmışlar. Bir dəfə Finlandiyadan gələn jurnalistlər əsir və girovların vəziyyətləri, ümumiyyətlə, müharibənin səbəbləri və s. ilə maraqlanmışlar. Azərbaycanlıların ifadələrini və cavablarını öz mənafelərinə uyğun olaraq tərcümə edən ermənilər xarici jurnalistləri aldatmışlar. Vüqar Mehdiyev 18 dekabr 1993-cü il tarixdə nəzarətin zəifliyindən istifadə edib qaçaraq azad olmuşdur.

Məhərrəmov Aydın Əziz oğlu – 1972-ci ildə Bərdə rayonu, Vəliuşaqlı kəndində doğulmuşdur. 9 dekabr 1993-cü il tarixdə əsir götürülmüş, 8 may 1995-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Beyləqan rayonu ərazisindəki Haramı düzündə Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Əsir düşən kimi ermənilər dərhal onu öz postlarına aparmışlar. Əvvəlcə ağzından avtomatdan atəş açmaqla onu öldürmək, sonra isə qulaqlarını, başını bıçaqla kəsmək istəmişlər. Ancaq nədənsə bu fikirdən daşınan ermənilər Aydını Xocavənddə yerləşən komendantlığa aparmışlar. Orada o, bir neçə gün sonra əsir düşmüş Ömər və Eldəniz adlı şəxslər qəddarcasına döyülmüş və təhqir edilmişlər. Xüsusi təyinatlı dəstənin əməkdaşları Artur və Armen Aydını daha qəddarcasına döymüşlər. 3-4 gündən sonra Artur onu xüsusi təyinatlı şöbənin həyətinə aparmış və oradan döyə-döyə qovub öz otaqlarına salmışdır. Orada Artur və adını bilmədiyi bir erməni sobada şişi qızdıraraq közərtmiş və Aydını onunla döyərək başını yarmışlar. Nəticədə Aydının başından axan qan yerə sərilmiş xalçaya axarıb onu al qana boyamışdır. Bunu görən ermənilər Aydına qanının murdar olduğunu söyləyərək, onu yenə də döymüşlər. Onu "işgəncə otağına" aparan erməni hərbçilər işgəncələri davam etdirmişlər. Aydını soyundurub dəmir çarpayıya uzadaraq ayaqlarını çarpayının dəmirinə məftillə möhkəm bağlamış və şişlə ayağının altından başlayaraq qurşağadək möhkəm döymüşlər. Yorulanda isə onları digər erməni hərbçilər əvəz etmişlər. Aydının qışqırtısına otağa gəlmiş Şamo adlı üzü çilli və möhkəm bədənli erməni əllərini Arturla Armenin çiyinlərinə qoyaraq yuxarı qalxmış və bir neçə dəfə zərblə Aydının sinəsinə, qarnına və ayaqlarına tullanmışdır. Səhərdən axşama qədər davam edən işgəncə Aydının sağ ayağının diz qapağının qırılması ilə yekunlaşmışdır. Bununla da sakitləşməyən ermənilər yıxılmış vəziyyətdə olan Aydına əvvəlcə məcburən araq, üstündən də su içirtmiş, sonra isə təlimləndirilmiş çoban itlərini onun üstünə buraxmışlar. Komendantlıqda saxlanıldığı dövrdə ermənilər onu soyuq və şaxtalı havada yerə uzanıb "Niva" markalı avtomobilin altını yumağa məcbur etmişlər. Xocavənddə saxlanılarkən ermənilərin ora gətirdikləri əsirin üstündən "KAMAZ" markalı yük avtomobili ilə keçərək onu qətlə yetirdiklərinin, Qəbələ rayonundan olan Eldəniz adlı əsirin isə arxa hissəsinə xaç şəklində dağ basdıqlarının şahidi olmuşdur. Bundan başqa, Aydın Məhərrəmov Emin adlı azərbaycanlı əsirin komendantlığın dəhlizində ermənilər tərəfindən burazla *(tros – tərt.)* başının partladılaraq öldürüldüyünü də görmüşdür. Komendantlıqda əsir-girovları acsusuz saxlayır, yemək verərkən isə yanlarına ovçarka cinsli itlərin küçüklərini buraxaraq onlarla birlikdə eyni boşqabdan yeməyə məcbur edirmişlər. Əsirlərdən cürət edib küçükləri qovanı Artur dərhal cəzalandırır, "Bu küçüklər sizdən qiymətlidir", – deyirmiş. Bir müddət sonra Aydın Məhərrəmov Xankəndi şəhərinə, oradan isə Şuşa həbsxanasına köçürülmüşdür. Həbsxanada erməni nəzarətçilər səhərdən axşama kimi əsirlərə zülm edirmiş. Əsirləri döyə-döyə işlədir, səhərə qədər it kimi hürməyə və ulamağa məcbur edirmişlər. Nəzarətçilərdən Kolya, Qor Spartakoviç və Slavik əsirlərə divan tuturmuş. Şuşa həbsxanasında erməni nəzarətçilər Aydını daş, torpaq və süpürgə qırığı yeməyə məcbur etmişlər. Orada saxlanıldığı müddətdə o, Füzuli rayonundan olan "Tiqr" ləqəbli birinin, Beyləqan rayonundan İlqar adlı şəxsin, təxminən 60-65 yaşlarında adını xatırlamadığı yaşlı kişinin və Bakı şəhərindən 35-40 yaşlarında adını xatırlamadığı başqa bir şəxsin erməni işgəncələri nəticəsində öldüklərinin şahidi olmuşdur. Şuşa həbsxanasında nəzarətçilərdən böyük Jirik və balaca Jirik adlı ermənilər əsir-girovlara əzab verməkdə xüsusi fəallıqları ilə seçilirmiş. Qor Spartakoviçin başçılığı ilə sərxoş nəzarətçilər kameraya doluşur və əsir-girovları rezin dəyənək, armatur, həmçinin

burazla vəhşicəsinə döyürmüşlər. Belə döyülmələrin birində Aydının sağ əlinin baş barmağı möhkəm əzilmişdir. Həbsxananın tibb bacısı Jasmin adlı erməni qadın Aydının barmağını iri, yoğun iynə ilə deşmiş, yaraya nə isə töküb sarımışdır. Bundan sonra onun barmağı çürüməyə başlamış, xoşbəxtlikdən, onun yarası BQXK həkiminin diqqətini cəlb etdiyindən, Aydın Xankəndi uşaq xəstəxanasına aparılaraq sağ əlinin çürüməkdə olan baş barmağı yarıdan kəsilmişdir. Aydın ermənilərin xəstəxanada da əsir-girovlara qarşı amansız və qeyri-insani münasibətlərinin şahidi olmuşdur. Orada saxlanılan azərbaycanlı kişilər nəzarətçilər tərəfindən döyülür, qadınlar isə cinsi istismara məruz qalırdı. Həmin dövrdə əsir-girovların azad edilməsi ilə məşğul olan Albert Voskanyan adlı erməni axşam saat 10-dan sonra müxtəlif bəhanələrlə azərbaycanlı girov qadınları harasa aparırmış. Yalnız səhərə yaxın geri qaytarılan qadınlar isə acı-acı ağlayırmış. Jirik adlı erməni nəzarətçi bir ay müddətində xəstəxanaya növbəyə gəlir və hər dəfə Aydını xəstəxananın dəhlizində divara söykəyib, sinəsinə yumruqla zərbələr endirirmiş. 1994-cü ilin sentyabr ayında Jirik Aydını bir saat müddətində dəmir əsa ilə döymüş, əsasən də başına güclü zərbələr vurmuşdur. Həmin gündən etibarən onun başında səs əmələ gəlmişdir. 1995-ci ilin may ayının 8-də azad edilmiş, tibbi müayinə zamanı məruz qaldığı fiziki işgəncələr və travmaların nəticəsində orqanizmində müxtəlif xəstəliklərin yarandığı müəyyən edilmişdir.

Məhərrəmov Pənah Şahmar oğlu – 1970-ci ildə Bakı şəhərində doğulmuşdur. 28 dekabr 1991-ci il tarixdə əsir götürülmüş, 28 fevral 1992-ci ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Xankəndi şəhəri, Kərkicahan qəsəbəsinin müdafiəsi zamanı bir neçə döyüş yoldaşı ilə birlikdə yaralı vəziyyətdə əsir götürülmüşdür. Yaralı olmalarına baxmayaraq, erməni hərbçilər əvvəlcə onları qəddarlıqla döymüş, sonra yük maşınına yığıb Xankəndi təcridxanasına aparmışlar. Əsirləri ac-susuz, qaranlıq və soyuq kamerada ayaqyalın saxlayan ermənilər yalnız üç gündən sonra onlara sutka ərzində bir dəfə şorba vermişlər. Orada saxlanılarkən erməni hərbçilər Rəhim adlı əsirə işgəncə verərək ayaqlarını sındırmış, sonda ağzına corab tıxayıb qətlə yetirmişlər. Qonşu kamerada saxlanılan Atakişiyev Fərhaddan hər dəfə Qarabağın Ermənistana məxsus olduğunu deməyi tələb etdikdə, onun ermənilərin işğalçı, qatil və zülmkar olduqlarını söyləməsindən daha da qəddarlaşan ermənilər güclü zərbələr endirərək onun boyun, əl, ayaq və qabırğalarını sındırmış, məftili bədəninin bir tərəfindən salıb digər tərəfindən çıxarmaqla verdikləri işgəncələr nəticəsində öldürmüşlər. P.Məhərrəmov da ağır işgəncələrə məruz qalmış, baş nahiyəsindən ağır zədələr almış, sağ qulağını ermənilər kəsmişlər. Bir müddət sonra onu Əsgəran təcridxanasına köçürmüşlər. Əsgərana gedən yol ermənilərin yenicə işğal etdikləri və soyqırımı törətdikləri, azərbaycanlıların yaşadığı Xocalı şəhərindən keçdiyindən, Pənah şəhər küçələrinin meyitlərlə dolu olduğunu görmüşdür. Əsgəran təcridxanasında saxlanılarkən isə ermənilər onun gözləri qarşısında bir ailəni – 40 yaşlarında kişini, onun 35 yaşlı həyat yoldaşını və onların təxminən 10 yaşlı övladını vəhşicəsinə döyərək qətlə yetirmişlər. Orada erməni nəzarətçi əzab vermək məqsədi ilə onu həyətdəki maşının yük yerinə baxmağa məcbur etmişdir. Maşının yük yerinə çıxan Pənah orada işgəncələr nəticəsində ölmüş 12 nəfər əsir-girovun eybəcər hala salınmış meyitlərini görmüşdür. Pənah Məhərrəmov 28 fevral 1992-ci il tarixdə azad olunmuşdur.

Məlikov Zamin Ataş oğlu – 1972-ci ildə Azərbaycan Respublikası Bərdə rayonu, Gülgəzli kəndində doğulmuşdur. 3 aprel 1993-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonunun müdafiəsi uğrunda döyüşlərdə iştirak edərkən Zamin Məlikov üç döyüş yoldaşı ilə birlikdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Əsirlərin əllərini bağlayıb "KAMAZ" markalı yük maşınına atmış və Drombon kəndinə apararaq yuxarısı qərargah olan ikimərtəbəli binanın zirzəmisinə salmışlar. Az sonra onların yanına Kəlbəcər sakini, tanımadıqları girovu da gətirmişlər. Erməni hərbçilər əsir-girovları mütəmadi olaraq rezin dəyənək, təpik və yumruqla döymüşlər. Onların döyülməsində Seqo və Vartan adlı ermənilər fəallıq göstərmişlər. Seqo döyüşlərdə yaralandığından azərbaycanlılara qarşı daha aqressiv olmuşdu. Seqo və Vartan Zaminin əl-ayağını da dağlamışlar. 5-6 gün keçdikdən sonra Zaminin yanındakı üç döyüş yoldaşını harasa aparmışlar. Onu isə qərargahda güllə və silah paylayan Feliks adlı ermənіyə satmışlar. Feliks pul qazanmaq məqsədi ilə onu evinə aparıb 6 ay ərzində işlətmişdir. Feliksin atasının adı Qurgen, arvadının adı isə Larisa olmuşdur. BQXK-nın Pyer adlı nümayəndəsi onu taparaq qeydiyyata götürdükdən sonra Zamin Xankəndi alayına aparılmışdır. Ermənilər alayda saxladıqları 5 azərbaycanlı əsiri – Hacıqabuldan Baxşəliyev Elmixan Ataxan oğlunu, Quliyev Fərman Məhəmməd oğlunu, əlləri yaralı Məhərrəmov Pənah Şahmar oğlunu, Kəlbəcərdən Novruzu və Beyləqandan Fazili müntəzəm olaraq səbəbsiz yerə döymüş və işgəncə vermişlər. Onları, əsasən, qarajların tikilməsinə, odun tədarükünə və təmizlik işlərinə cəlb etmişlər. 7-8 ay Xankəndi alayında saxlandıqdan sonra əsirləri Şuşa həbsxanasına aparmışlar. Orada əkin sahələrində işlədilən əsir və girovlar erməni nəzarətçilər tərəfindən sutkada bir neçə dəfə döyülmüş və BQXK nümayəndələrinə bu barədə məlumat verəcəkləri təqdirdə daha ağır işgəncələr verəcəkləri ilə hədələnmişlər. Onların üstlərinə it buraxır, yerə yıxıb tapdalayaraq, o tərəf-bu tərəfə qaçırmışlar. 1996-cı il mayın 9-da azərbaycanlıların hamısını Yerevan şəhərinə aparıb, böyük bir qaraja salmış və səhərə qədər rezin dəyənəklə döymüşlər. Zamin Məlikov 10 may 1996-cı ildə azad edilmişdir.

Məmişova İmarət Məmmədəli qızı – 1962-ci ildə Kəlbəcər rayonunda doğulmuşdur. 31 mart 1993-cü ildə girov götürülmüş, 15 sentyabr 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonunun Ermənistan hərbçiləri tərəfindən işğalı zamanı doğma yurdunu tərk etmək istəyərkən, "Tunel" adlanan ərazidə ermənilər tərəfindən atəşə məruz qalmışlar. O, alnından, əlindən və ayağından ağır yaralanmış vəziyyətdə azyaşlı oğlu Məmişov Yadigar Ələsgər oğlu və digər sağ qalmış həmkəndliləri ilə birlikdə girov götürülmüş, hadisə zamanı 8 yaşlı oğlu Məmişov Taleh Ələsgər oğlu aldığı güllə yarasından ölmüşdür. Girov götürüldükdən sonra onları əvvəlcə Ağdərə rayonunun işğal edilmiş Vəng kəndinə, 12 gündən sonra isə Xankəndi şəhərindəki uşaq xəstəxanasına aparıb üç ay orada saxlamışlar. Xankəndində saxlanılarkən Edik adlı erməni milis işçisi girovlara gizlətdikləri şəxsi qızıl-zinət əşyalarını, pullarını təhvil vermələrini əmr etmişdir. Təxminən 80 yaşlarında olan Şahxanım adlı girov qadın ləng tərpəndiyi üçün Edik avtomatın qundağı ilə onun başından vurmuş, nəticədə Şahxanımın qulağından və burnundan qan açılmış və o, ertəsi gün ölmüşdür. Bir il altı ay erməni girovluğunda

saxlanılan İ.Məmişova mütəmadi olaraq ermənilər tərəfindən işgəncələrə məruz qalmış, təhqir edilmiş və alçaldılmış, daim bu kimi hadisələrin şahidi olmuşdur. Erməni nəzarətçilər azərbaycanlı əsir-girovlara insan kimi yanaşmamış, onları daim incitmişlər. Saxlanıldıqları otağın pəncərəsindən bayıra baxan Quliyeva Ofeliya Əli qızını bir erməni əsgər əlindəki avtomatdan atəş açaraq kürəyindən vurmuş, güllə kürəyindən girib qarnından çıxmış, həmçinin həmin vaxt əlini qarnına qoyduğu üçün güllə əlini də deşib keçmişdir. Bu səbəbdən Ofeliyanın iki barmağı amputasiya edilmişdir.

İmarət Məmişova 15 sentyabr 1994-cü il tarixdə girovluqdan azad olunmuşdur.

Məmmədov Anar Zakir oğlu – 1973-cü ildə Beyləqan rayonunda doğulmuşdur. 23 sentyabr 1993-cü il tarixdə əsir götürülmüş, 23 noyabr 1994-cü ildə azad olmuşdur. İfadəsində bildirmişdir:

Beyləqan rayonu ərazisindəkı "Ağburun" yüksəkliyində əsir götürülmüşdür. Əsir götürdükdən sonra onu möhkəm döymüş və Xocavənd rayonuna aparıb Milis şöbəsinin köhnə binasında saxlamışlar. Əsirləri orada 7 gün ərzində müntəzəm döyərək ac-susuz saxlayan dəstənin komandiri Mero adlı erməni olmuşdur. Əsirləri hərbçilərlə yanaşı mülki şəxslər, hətta əli əsalı yaşlı və əlil bir erməni də döymüşdür. Xankəndi yaxınlığındakı Həsənabad kəndində saxlanılarkən aclıqdan, susuzluqdan, natəmizlikdən və tibbi yardım göstərilmədiyindən zəifləmiş əsir-girovları ermənilər sutkada 16-18 saat qul kimi işlətmişlər. Onlardan işğal olunmuş yaşayış məntəqələrinin dağıdılıb talan edilməsində istifadə edir və işgəncə verirmişlər. İşləyə bilməyən əsir və girovlar isə nəzarətçilər tərəfindən amansızlıqla döyülmüşlər. Yaşlı girovlar: Vaqifi və Ağdamdan olan Cahangiri işləyə bilmədikləri üçün Vahan və Arkadi küt alətlərlə vəhşicəsinə döyürmüş. İşgəncələr nəticəsində Vaqif adlı əsir 3 gün huşsuz halda qaldıqdan sonra ölmüş, Karlen və Cahangir adlı girovlar isə ağır vəziyyətdə olduqlarından və çox gec aparıldıqları üçün Xankəndi uşaq xəstəxanasında ölmüşlər. Süfrəni yığışdırmağı tapşırdıqları Valeh adlı əsiri süfrədəki çörək qırıntılarını toplayıb yoldaşları ilə bölüşdüyünə görə Vahan adlı nəzarətçi vəhşicəsinə döymüş və onu öldürəcəyi ilə hədələmişdir. Verilən əzab və işgəncələrə dözməyən Valeh ayaqyolu bəhanəsi ilə çayın kənarına getmiş, Ağdamda işlədilərkən ərazidən tapıb gizlətdiyi qumbaranı partladıb özünü öldürmüşdür. Şuşa həbsxanasında saxlandığı müddətdə isə Slavik və digər nəzarətçilər onu və digər əsir-girovları vəhşicəsinə döymüş və işgəncə vermişlər. Anar Məmmədov 23 noyabr 1994-cü ildə Ağdam şəhərində işlədilərkən iki əsir yoldaşı ilə birlikdə erməni nəzarətçini tərksilah edib əsirlikdən qaçmışdır.

Məmmədov Azər Zabit oğlu – 1966-cı ildə Cəbrayıl rayonunda doğulmuşdur. 17 avqust 1993-cü il tarixdə girov götürülmüş, 8 may 1995-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Cəbrayıl rayonunun Süleymanlı kəndinin Ermənistan Silahlı Birləşmələri tərəfindən işğalı zamanı 16 nəfər mülki şəxslə birlikdə girov götürülərək, Hadrut rayonuna aparılmışdır. Orada aralarında iki nəfər yaşlı qadının da olduğu azərbaycanlı girovlar ermənilər tərəfindən rezin dəyənək, armatur, ağac və digər küt alətlərlə amansızcasına döyülmüşlər. Nəzarətçilər girovları döyə-döyə onlara su daşıtdırmışlar. Bir müddətdən sonra A.Məmmədov da daxil olmaqla girovların çoxunu Şuşa həbsxanasına köçürmüşlər.

Azər Məmmədov 35 nəfərin saxlanıldığı 10-cu kameraya yerləşdirilmişdir. Nəzarətçilər gün ərzində bir neçə dəfə əllərinə keçən əşyalarla əsir-girovları döymüş və işgəncələr vermişlər. Ən çox işgəncə verənlər Abo, böyük Jirik, kiçik Jirik adlı nəzarətçilər olmuşlar. Həbsxanada əslən Bakı şəhərindən olan bir əsir ermənilər tərəfindən elektrik cərəyanı verilərək öldürülmüşdür. Əsir və girovlardan, əsasən, Şuşa şəhərindəki evlərin və qəbiristanlıqdakı məzar daşlarının sökülməsində istifadə edilmişdir. Azərə və bir çox azərbaycanlıya bir neçə dəfə erməni həkimlər tərəfindən tərkibində neft, sidik, solyarka və s. zərərli mayelər olan iynələr vurulmuşdur. Birinci iynədən sonra A.Məmmədov huşunu itirərək yerə yıxılmışdır. Getdikcə özünü daha da pis hiss edən Azəri və digər bir neçə başqa əsiri Xankəndi şəhərindəki uşaq xəstəxanasına göndərmişlər. Lakin vəziyyət Şuşadakından çox da fərqli olmamışdır. Orada da nəzarətçilər azərbaycanlıları döymüş və işgəncə vermişlər. Belə döyülmələrin birində Cəbrayıl rayonundan olan bir nəfər girov işgəncələrə dözməyib ölmüşdür. Təxminən bir il uşaq xəstəxanasında saxlanılan Azər Məmmədov 8 may 1995-ci il tarixdə azad olunmuşdur.

Məmmədov Etibar İslam oğlu – 1970-ci ildə Ağsu rayonu, Çiyni kəndində doğulmuşdur. 12 fevral 1993-cü il tarixdə əsir götürülmüş, 24 avqust 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ağdərə rayonunun Drombon kəndi yaxınlığında əsir düşən Etibarı erməni silahlıları avtomatın qundağı, təpik və yumruqla möhkəm döyərək, Xankəndi şəhərinə aparmış və təcridxanaya salmışlar. İkinci mərtəbədəki kameralardan birində saxlanılan Etibar müxtəlif işgəncələrə məruz qalmış və döyülmüşdür. Bir neçə gün ac saxladıqdan sonra gün ərzində ona bir tikə çörək vermişlər. On gündən sonra ermənilər Etibarı Xankəndindəki alaya gətirərək, Alıyev Zaur adlı digər əsirlə bir otaqda saxlamışlar. O, orada da eyni vəziyyətlə qarşılaşmışdır. Günün müxtəlif vaxtlarında əsirlərin otağına gələn erməni əsgərlər onları vəhşicəsinə döymüşlər. Üç gündən sonra isə onu Xankəndində yaşayan bir ermənin evinin zirzəmisinə salmışlar. Əsirlikdə olduğu müddətdə o, işğal altında olan müxtəlif məntəqələrdə saxlanılmış, dəhşətli işgəncələrə məruz qalmış və ya şahidi olmuşdur. Əsir-girovlar üçün ən dəhşətli və təhlükəli saxlama məntəqəsi qədim Azərbaycan şəhəri Şuşadakı həbsxana olmuşdur. Orada saxlanılanların həyatının dəyəri olmamış və onların ölüb-qalmasını ermənilər həll etmişlər. Etibar Şuşada saxlanılarkən İlqar və Zahid adlı əsirlərin ermənilər tərəfindən döyülərək öldürüldüyünün, 24 aprel 1993-cü il tarixdə Yerevandan gəlmiş yüksək rütbəli ermənin sıraya düzülmüş azərbaycanlıların qarşısında gəzə-gəzə 60-65 yaşlarında kəlbəcərli girovu tapança ilə vurub qətlə yetirməsinin şahidi olmuşdur. Şuşa həbsxanasında əsir və girovlara daha çox işgəncə verənlər həbsxana rəisi Armo, rəis müavinləri – Edik və Raçik, nəzarətçilər – Vanya, Valera, Robert və Artur adlı ermənilər olmuşlar. Məmmədov Etibar İslam oğlu 24 avqust 1993-cü il tarixdə azad olmuşdur.

Məmmədov Əbdüləzim Məcnun oğlu – 1961-ci ildə Ermənistan Respublikasının Amasiya rayonunda anadan olmuşdur. 28 dekabr 1991-ci il tarixdə əsir götürülmüş, 1992-ci ilin fevral ayında azad edilmişdir. İfadəsində bildirmişdir:

Xankəndi şəhəri Kərkicahan qəsəbəsinin müdafiəsi zamanı döyüşdə başından və sol ayağından güllə, kürəyindən qəlpə yarası alaraq huşunu itirmiş və əsir götürül-

müşdür. Əsir götürüldükdən sonra ağır yaralı olmasına baxmayaraq, ermənilər tərəfindən rezin dəyənəklə döyülmüş və 1,5 metr x 1 metr ölçüdə kameraya salınmışdır. Ermənilər onun ayağındakı güllə yarasına taxta parçaları soxaraq işgəncələr vermiş, öz qanı ilə alnına xaç şəkli çəkmişlər. Dəfələrlə bədəninə iynə ilə neft, narkotik və tərkibi məlum olmayan digər zərərli məhlullar yeridilmişdir. Ən çox işgəncə verənlər Lyova adlı mayor, Lzer adlı baş leytenant, Roma və Rusiyaya aid 366-cı alayın mayor rütbəli rus zabiti Saşa olmuşlar. Verilən işgəncələr nəticəsində Ə.Məmmədovla birgə əsir götürülmüş Kərkicahan kənd sakini Fərhad Atakişiyev erməni silahlıları tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. Yeni il gecəsi erməni nəzarətçilər şaxtalı havada onun üstünə soyuq su tökərək əylənmişlər. Əsirlikdə dəhşətli işgəncələrə məruz qalan Əbdüləzimi ermənilər son dəfə dəmir parçaları ilə amansızcasına döyərək qabırğalarını və qol sümüklərini sındırmış, boğazından və qollarından atın quyruğuna bağlayıb sürümüşlər. Verilmiş işgəncələr nəticəsində onun öldüyünü zənn edən ermənilər "meyitini" tabuta qoyaraq ətrafını qarla doldurmuş və 2-3 gündən sonra, 1992-ci ilin fevral ayında Azərbaycan tərəfdə saxlanılan bir erməni hərbçi ilə dəyişdirmişlər. Lakin Ağdam şəhərində "meyiti" dəfn üçün hazırlayarkən, tibb işçisi tərəfindən təsadüf nəticəsində cəsəddə həyat əlamətlərinin olduğu aşkar edilmiş və tibbi yardım göstərilərək onun həyata qaytarılması mümkün olmuşdur.

Məmmədov Əli Məhəmməd oğlu – 1947-ci ildə Cəbrayıl rayonu, Soltanlı kəndində doğulmuşdur. 23 oktyabr 1993-cü il tarixdə girov götürülmüş, 8 iyun 1995-ci ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

8 yaşlı oğlu Murad, bacısı oğlu Nadir, Qalası adlı qohumu və əvvəllər tanımadıqları bir neçə həmyerlisi ilə birlikdə Ermənistan hərbçiləri tərəfindən Füzuli rayonu, Horadiz qəsəbəsində girov götürülmüşlər. Ermənistan hərbçiləri əvvəlcə 8 yaşlı Muradı çaya atıb öldürmək istəmişlər. Lakin onlarla birlikdə girov götürülmüş Sabir adlı Füzuli rayon sakini erməni silahlılarından biri ilə tanış çıxmış və yanında olan həyat yoldaşı Lətafətin zinət əşyalarının ermənilərə verilməsi müqabilində ailəsinin sərbəst buraxılmasına nail olmuş, Muradı da öz övladı kimi təqdim edib, özü ilə apararaq xilas etmişdir.

Əli və digər girovları Xocavənd rayonuna apararaq Milis idarəsi ilə üzbəüz yerləşən köhnə hamamın binasına salan ermənilər onları orada müntəzəm olaraq döymüş və işgəncələr vermişlər. Bundan əlavə, Əlinin ağzındakı 8 ədəd qızıl dişi kəlbətinlə sökərək götürmüşlər. Bir gecə yaxınlıqdakı otaqda saxlanılan və işgəncələrlə sorğu-sual edilən Azad adlı yaralı Azərbaycan əsgərinin qışqırıq səslərini eşitmişdir. Ertəsi gün xəstəxananın həyətində işlədilərkən, oradakı erməni tibb bacılarından biri həmin əsirin tonqalda yandırılıb öldürüldüyünü demişdir. Ermənilər azərbaycanlıları "murdar köpək" deyə söyüb təhqir etsələr də, döydükləri, işgəncə verdikləri, yer üzündən silməklə hədələdikləri, yaralarından axan guya murdar qanlarının bir damcısının belə yerə düşməsinə imkan vermədikləri, qul kimi işləməkdən taqətsiz hala düşmüş əsir-girov azərbaycanlıların qanlarını zorla çəkərək, yaralı erməni əsgərlərinə vururmuş. Bir dəfə ermənilər əsir və girovları Xocavənd rayonu ərazisində döyüşlərdə həlak olmuş azərbaycanlılara aid meyitləri toplamaq üçün aparmışlar. Ə.Məmmədov orada əvvəllər tanıdığı Yaşar adlı zabitin başsız cəsədini, həmçinin azərbaycanlılara məxsus xeyli sayda dərisi soyulmuş meyitlərin olduğunu görmüşdür. Meyitlərin bir qismini dəfn etsələr də,

qalanını ermənilər dərəyə tökmüşlər. Bundan bir neçə gün sonra oraya odun yığmağa aparılmış Əli və onun yoldaşları həmin cəsədlərin vəhşi heyvanlar tərəfindən yeyildiyinin şahidi olmuşlar. Xocavənd rayonunda Milis idarəsində saxlanıldığı müddətdə əsir və girovları dəhşətli işgəncələrə məruz qoyan ermənilər əsgər çəkmələri ilə tapdalayıb Əlinin hər iki əlinin baş barmaqlarını qırmış, döyərək sağ tərəfdən iki qabırğasını sındırmışlar. Erməni hərbçilər azərbaycanlıları bir-birini döyməyə, Əlini Quliyev Rafiqlə dalaşmağa, yaşlı girovları ölüm hədəsi ilə çəkisi 80 kq-dan artıq daşları qaldırmağa məcbur etmişlər. Bir neçə əsirin kürəyinə xaç damğası vurmuşlar. Öz qəddarlığı ilə digərlərindən seçilən Artur adlı cavan bir erməni hərbçi əsir-girovları daha amansızlıqla döyüb işgəncələr vermişdir. O, bir dəfə Əlini döymüş və çəkiclə başına o qədər vurmuşdur ki, o, huşunu itirmişdir. Bir müddət sonra ermənilər azərbaycanlıların əksəriyyətini Şuşadakı həbsxanaya köçürmüşlər. Sutkada 17-20 saat qul kimi işlədildikləri Şuşa həbsxanasının digər yerlərdən əsas fərqi əsir-girovların daha sürətlə, qaçaraq işləməyə məcbur edilmələri, heç bir səbəb olmadan gündə bir neçə dəfə döyülmələri, nəzarətçi ermənilərin daha qəddarlığı olmuşdur. Şuşa həbsxanasında saxlanılarkən, "böyük Jirik" və "balaca Jirik" ləqəbli erməni nəzarətçilər üç əsiri *(adları məlumdur – tərt.)* armaturla, rezin dəyənəklə və s. küt alətlərlə döydükdən sonra dəfələrlə zorlamışlar. Əlini isə rezin dəyənəklə o qədər döymüşlər ki, növbəti zərbə zamanı dəyənək başında sınmışdır. Ermənilər azərbaycanlı əsir-girovları həbsxananın həyətindəki otları qoyun kimi dişləri ilə yolmağa, ayaqları ilə başlarını yerə basaraq torpaq yeməyə məcbur edirmişlər. Füzuli rayonunun Horadiz qəsəbəsindən olan İlham və Mürvət adlı girovları işgəncə ilə döyə-döyə öldürmüş, adını bilmədiyi bir əsirin isə döyüşdə ölmüş erməni əsgərinin qəbri üstündə başını kəsmişlər. Ermənilər Şuşa qəbiristanlığında əsir-girovlara məzar daşlarını sökdürür və satmaq məqsədi ilə yük maşınlarına yığdıraraq aparırmışlar. Lakin vandallıq bununla bitməmişdir. Əsir-girovları köhnə məzarları qazaraq, ölülərin də qızıl dişlərini çıxarmağa məcbur etmişlər. BQXK əməkdaşlarının tərcüməçisi Sergey erməni olduğu üçün, o, əsir-girovların şikayətlərini tərcümə etmir, əksinə, bu barədə nəzarətçilərə məlumat verirmiş. Bu isə onların vəziyyətlərini daha da ağırlaşdırırmış. Odur ki, erməni nəzarətçilər BQXK-nın payladığı yardımları rahatlıqla əsir və girovların əllərindən alır, qeydiyyata alınmış əsirləri isə işgəncə izləri görünməsin deyə sifətlərindən yox, digər nahiyələrindən vurmaqla döyürmüşlər. Bir müddət sonra Əli və bir neçə azərbaycanlı xəstə, işləməyə yararsız olduqları üçün Xankəndi şəhərində Milis şöbəsinin təcridxanasına aparılmışlar. Orada ac-susuz, tibbi yardımsız, çirkab və bit-birə içində saxlanılmaqdan bədənləri yara tökən, hər gün döyülən əsir-girovların vəziyyəti daha da pisləşmiş, nəticədə Zaqatala rayonundan olan Zeynal adlı hərbi əsir ölmüşdür.

Girovluğunun sonuna yaxın BQXK-nın heyətində dəyişiklik nəticəsində bölgəyə Pyer və Elizabet adlı yeni əməkdaşların gəlməsi ilə vəziyyət nisbətən dəyişmişdir. Belə ki, ölüm ayağında olan Məmmədov Əli Məhəmməd oğlu məhz Pyer və Elizabetin təkidi ilə xəstəxanaya yerləşdirilmişdir. O, 8 iyun 1995-ci il tarixdə girovluqdan azad edilmişdir.

Məmmədov Əlif Fərhad oğlu – 1963-cü ildə Azərbaycan Respublikasının Laçın rayonunda doğulmuşdur. 18 may 1992-ci il tarixdə girov götürülmüş, 18 yanvar 1995-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci il may ayının 18-də Ermənistan ordusu tərəfindən Azərbaycanın Laçın rayonunun işğalı zamanı qohumu Hümbətov İsrafil Xasay oğlu və tanışı Həsənlə Füzuli rayonu, Kərimbəyli kənd sakininin idarə etdiyi "QAZ-53" markalı yük avtomobili ilə ərazini tərk edərkən, Fətəlipəyə kəndinin girəcəyində Ermənistan hərbçiləri tərəfindən atəşə tutulmuşlar. Atəş nəticəsində İsrafil sol çiynindən ağır yaralanmış və onlar ermənilər tərəfindən girov götürülmüşlər. Ermənilər onları girov götürən kimi vəhşicəsinə döymüşlər. Aldığı zərbələrdən huşunu itirən Əlif ayılanda İsrafili yanında görməmişdir. Erməni hərbçilər onu Çanaqçı kəndinə apardıqlarını söyləmişlər. Sonra ermənilər ora daha bir neçə girovu, o cümlədən Kotos kənd sakini olan yeniyetmə Əliyev Taleh Valeh oğlunu da gətirmişlər. Taleh ağlayaraq atası və bacısının ermənilər tərəfindən güllələnərək öldürüldüyünü bildirmişdir. Girovların sayı yeddiyə çatdıqdan sonra onları Xankəndinə gətirib qaraja salmış və səhərədək orada saxlamışlar. Ertəsi gün Əlifi, Rasimi və Talehi Xankəndində 4-cü paralel küçəsində ikimərtəbəli şəxsi evin zirzəmisinə salmışlar. Evdə Aida adlı erməni qadın və onun Savak və Davud adlı qohumları yaşayırmış. Bir il iki ay orada saxlandıqdan sonra 4 nəfərlə qaçmağa cəhd etmiş, onlardan ikisi buna nail olsalar da, Əlif və Taleh erməni hərbçiləri tərəfindən yenidən tutulmuşlar. Ermənilər aclıqdan taqətsiz girovları qəddarcasına döymüş və çörəyi onlara uzadıb geri çəkməklə ələ salmışlar. Ertəsi gün Əlifi bir neçə əsir-girovla birlikdə "KAMAZ" markalı yük avtomaşını ilə Sisian rayonuna aparmış, təxminən iki ay müddətində Sisianın Şəki kəndinin yaxınlığında, köhnə hava limanı istiqamətində yerləşən hərbi hissədə saxlamışlar. Əlif Məmmədov orada 38 nəfər azərbaycanlı əsir-girovla birlikdə erməni hərbçiləri tərəfindən dəhşətli işgəncələrə məruz qalmışlar. Ermənilər onları müntəzəm olaraq döymüş, bir-birini döyməyə məcbur etmişlər. Əlif orada saxlanıldığı müddətdə səkkiz nəfər azərbaycanlı ermənilər tərəfindən öldürülmüşdür. Onun başına rezin torba keçirib, nəfəsi dayanana qədər boğmuş, rezin dəyənəklə fasiləsiz döymüşlər. Erməni hərbçilər onu və digər əsirləri Azərbaycan Respublikasının rəhbərlərinin əleyhinə yazılar yazmağa, Azərbaycan vətəndaşlığından imtina etdirməyə çalışmış, bu baş tutmadıqda isə yenidən döyərək işgəncələr vermişlər.

Məmmədov Əlif Fərhad oğlu 18 yanvar 1995-ci ildə girovluqdan azad edilmişdir.

Məmmədov Fəxrəddin Musa oğlu – 1962-ci ildə Azərbaycan Respublikasının Füzuli rayonunda doğulmuşdur. 18 avqust 1993-cü il tarixdə girov götürülmüş, 12 may 1995-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü ilin avqust ayında Ermənistan ordusu Füzuli rayonu, Yuxarı Əbdürrəhmanlı kəndini işğal edərkən, bir neçə həmkəndlisi ilə birlikdə girov götürülərək Hadrut rayonunun Edilli kəndinə aparılmış və 28 nəfər əsir-girovla birlikdə saxlanılmışdır. Aralarında qadınların, uşaqların və qocaların da olduğu azərbaycanlı əsir-girovlar hər gün ermənilər tərəfindən döyülmüş, işgəncələrə məruz qalmış və öz kəndlərinin talan edilməsində işlədilmişlər. Girov azərbaycanlılar fiziki işgəncələrlə bərabər, kəndlərinin, evlərinin talanında, sökülərək daşınmasında işlədildiklərinə görə mənəvi işgəncələrə də məruz qalmışlar. Azərbaycanlı əsir-girovlar orada ac-susuz saxlanılmış, hər gecə döyülərək işgəncələrə məruz qalmışlar. Bir müddətdən sonra Fəxrəddin 12 nəfər əsir-girovla birlikdə Yerevan şəhərinin 30 km-də yerləşən Şaumyan qəsəbəsindəki hərbi hissəyə aparılaraq, azad olunanadək orada saxlanılmışdır. Əsasən, təsərrüfat işlərində işlədilən azərbaycan-

lılar orada da erməni hərbçiləri tərəfindən döyülüb işgəncələrə məruz qalmışlar. Bir gün səhər Füzuli rayonu, Horadiz qəsəbə sakini Məmmədov Mübariz Telman oğlu və Araytılı kənd sakini Rəhimov Xaləddin Şahmar oğlu ilə birlikdə işləməyə aparılan Fəxrəddin qayıdarkən onlarla eyni zirzəmidə saxlanılan əsirlərin və girovların ermənilər tərəfindən başlarına tapança tuşlamaqla bir-biri ilə cinsi əlaqəyə girməyə məcbur edildiyinin şahidi olmuşdur. Bu iyrənc işgəncə səhnəsində iştirak etməkdən boyun qaçırdığına görə, ermənilər Fəxrəddini o qədər döymüşlər ki, o, huşunu itirərək yıxılmış və bir neçə gün hərəkət edə bilməmişdir. O, 12 may 1995-ci il tarixdə girovluqdan azad edilmişdir.

Məmmədov Hikmət Məhəmməd oğlu – 1960-cı ildə Füzuli rayonunda anadan olmuşdur. 29 avqust 1991-ci il tarixdə girov götürülmüş, 5 sentyabr 1991-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Beş nəfər həmkəndlisi ilə birlikdə yaşadığı Füzuli rayonu, Aşağı Veysəlli kəndi ərazisindəki taxıl sahəsində işləyərkən, erməni terror-quldur dəstələri tərəfindən girov götürülüb Xocavənd rayonunun Keşi kəndinə aparılmış və evlərdən birinin zirzəmisinə salınmışdır. Təxminən 12 nəfər olan erməni silahlıları onların başlarına torba keçirib yolboyu döymüşlər. Girovluqda saxlanıldığı müddətdə ermənilər hər gün onları taxta parçaları, şifer qırıqları, avtomatın qundağı və təpiklə döymüş, təhqir etmişlər. Xaçik adlı erməni girovları bir-birini döyməyə və zorlamağa məcbur etməyə çalışmışdır. Onların tələblərini yerinə yetirməyən girovları daha da amansız döyən ermənilərin verdikləri işgəncələr nəticəsində Hikmətin burnu və qabaq dişləri sınmışdır. O və həmkəndliləri yalnız yeddi gündən sonra ailə üzvlərinin verdikləri pul müqabilində girovluqdan azad edilmişlər.

Məmmədov İlham Yusif oğlu – 1973-cü ildə Ermənistan Respublikasında doğulmuşdur. 10 may 2002-ci il tarixdə əsir götürülmüş, 19 noyabr 2002-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Orduda zabit kimi xidmət etdiyi zaman Füzuli rayonu, Alxanlı kəndində yerləşən posta qayıdarkən əsir götürülmüşdür. Onu gözü bağlı vəziyyətdə bir binaya gətirərək, 7-8 gün kamera tipli yerdə saxlamışlar. İlham Məmmədov orada saxlanıldığı müddətdə erməni hərbçiləri tərəfindən sorğu-sual edilərək döyülmüş, başına təpiklə, yumruqla zərbələr endirilmişdir. May ayının 18-dən sonra gözü bağlı vəziyyətdə Yerevana, Ermənistan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasına aparılmışdır. Orada ona "Səni heç kim axtarmır, sən heç kimə lazım deyilsən, qayıtsan, səni ömürlük həbs edəcəklər", – deyərək psixoloji təzyiqlər etmişlər. Ona baş çəkməyə gəlmiş BQXK əməkdaşlarına fiziki və psixoloji işgəncələrə məruz qaldığını söyləsə də, onlar inanmamış, "21-ci əsrdir, indi əsirləri döymürlər", – demişlər. O, 19 noyabr 2002-ci il tarixdə əsirlikdən azad edilmişdir.

Məmmədov Kamil Cəmil oğlu – 1962-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 27 fevral 1992-ci il tarixdə girov götürülmüş, 29 fevral 1992-ci ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan ordusunun 366-cı rus alayı ilə birlikdə ağır texnikalarla Xocalıya hücumu zamanı şəhər sakinləri dəstələrlə xilas

olmaq məqsədi ilə meşələrə üz tutmuşlar. Məmmədov Kamil Cəmil oğlu da 170-180 nəfər şəhər sakinlərindən ibarət dəstə ilə meşəyə tərəf qaçmışdır. Gecəni qarlı və soyuq meşədə gizlənmiş əhalidən Usubova Şərqiyyə Usub qızı donvurmadan ölmüş, ermənilər Salahov Məhəmməd adlı şəhər sakininin həyat yoldaşını, həmçinin Həsənov Mehdini, İsfəndiyarov Eldarı meşədə öldürmüşlər. Qaçarkən, ermənilər İmanov Maliki yolda qarnından yaralamış, bağırsaqları dağıldığından onu götürmək mümkün olmamışdır. Sara adlı qadının iki uşağı da şaxtadan donub ölmüş, sakinlərin təkidinə baxmayaraq, övladlarını itirən ana erməni hərbçilərindən xilas olmaq üçün heç yerə getməyərək, uşaqlarının meyitlərinin yanında qalmışdır. Davud adlı şəxsin anası, əvvəllər Xankəndində yaşamış və ermənilər tərəfindən qovularaq Xocalıya köçmüş Hümbət adlı şəxsin oğlu da meşədə şaxtadan ölmüşdür. Onların dəstəsindən qalan 150 nəfərədək adamı ermənilər girov götürüb, Dəhraz kəndinə aparıb, bağlı bir tikiliyə salmış və döymüşlər. Kamil orada daha 15-20 nəfər Xocalı sakininin olduğunu görmüşdür. Sonra içəri daxil olan ermənilər Rövşən Həsənov, Əlyar, Zakir və Elşən Usubov qardaşlarını, Siyavuş Usubov, Ələddin Paşayev, Ülfət Əliyev, Usubəli Süleyman oğlu, Şamo Bağırov, Tofiq Aslan oğlu, Şahin, Vüqar Hilal oğlunu və daha bir nəfəri, cəmi 13 nəfər gənc oğlanı yaxın qohumlarından zorla ayırıb aparmış və bir daha geri qaytarmamışlar. Onları bayıra çıxardıqdan sonra girovlar güllə səsləri eşitsələr də, meyitlərini görən olmamışdır. Dəhrazda girov saxlanarkən, əvvəllər tanıdığı və pivə zavodunda birlikdə işlədikləri Arutunyan Armen və Kamo adlı erməni silahlıları Kamili əllərinə keçən küt alətlərlə döyüb işgəncələr vermiş, Vaqif adlı erməni isə onu yerə yıxıb ağacla zərbələr endirmiş və təpikləmişdir. İşgəncələr nəticəsində Kamilin bir neçə qabırğası sınmış, əl barmaqlarını isə erməni silahlıları kəlbətinlə sındırmışlar.

O, 29 fevral 1992-ci il tarixdə girovluqdan azad olunmuşdur.

Məmmədov Mayıl Məhəmmədəli oğlu – 1976-cı ildə Göyçay rayonunda anadan olmuşdur. 21 oktyabr 1992-ci il tarixdə əsir düşmüş, 7 may 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ağdam rayonu, Sırxavənd kəndi uğrunda döyüşlər zamanı Ermənistan hərbi birləşmələrinin hücumunun qarşısını alarkən, yaxınlığına düşmüş mərminin partlaması nəticəsində əllərindən, başından və sol ayağından qəlpə yarası alan Mayıl huşunu itirib yıxılmışdır. Ertəsi gün ermənilər tərəfindən əsir götürülən M.Məmmədov əvvəlcə Xocavənd rayonuna, oradan isə Xankəndində yerləşən hərbi hissəyə aparılmışdır. Əsirlikdə olduğu müddətdə dəfələrlə erməni hərbçiləri tərəfindən huşunu itirənədək döyülmüşdür. Ermənilər onun paltarlarını soyundurub qollarını arxadan bağlamış, məftil torlu çarpayının altına uzadaraq, özləri çarpayının üstünə tullanmaqla və silkələməklə işgəncələr vermişlər. Xankəndində saxlanılarkən isə ona yalnız su vermiş, telefon naqillərini qollarındakı yaralara sancaraq telefon aparatının diskini fırlatmaqla bədəninə elektrik cərəyanı buraxmışlar. Qızdırılmış dəmir parçası ilə Mayılın sinəsinə xaç şəkilli damğa basmışlar. Hərbi hissədə xidmət edən xaricdən gəlmiş ermənilər müntəzəm olaraq onu döymüş, işgəncələr vermiş, çılpaq halda qarın altında saxlamışlar. M.Məmmədovu yaralı əlləri ilə odun doğramağa və digər ağır işlər görməyə məcbur etmişlər. 1993-cü il yanvar ayının 8-də Hadrut rayonundan gəlmiş kapitan rütbəli erməni hərbçi onu özü ilə aparmış və bir müddət hərbi obyektdə saxlamışdır. Orada qolunu dəmirin üstünə qoyub çəkiclə vuraraq biləyini əzmiş, dəmir boru ilə vurub sağ qolunu

və ayağını sındırmış, kəlbətinlə iki ədəd qızıl dişini çıxarmışlar. Ermənilər Mayılın vena damarına zərərli kimyəvi məhlul – göydaş vurmuşlar. Aşot adlı bir erməni milis nəfəri bıçaqla onun alnını, ülgüclə isə qulağının arxasını kəsmiş, başına qaynar su tökmüşdür. Mayıl Məmmədov 7 may 1993-cü ildə əsirlikdən azad edilmişdir.

Məmmədov Nemət İnayət oğlu – 1966-cı ildə Azərbaycan Respublikası Yevlax şəhərində doğulmuşdur. 29 aprel 1994-cü il tarixdə əsir götürülmüş, 25 iyul 1995-ci ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Beyləqan rayonu, Haramı-düzü ərazisində Ermənistan hərbçiləri tərəfindən əsir götürülən Nemət Məmmədov Xocavənd şəhərində tanımadığı hərbi düşərgəyə aparılmışdır. Orada Vartan adlı erməni hərbçi dörd nəfərlə birlikdə Neməti amansızlıqla döydükdən sonra ağzındakı dörd ədəd qızıl dişini bıçaqla çıxarıb mənimsəmişdir. Bıçaq onun ağzını parça-parça etdiyindən, Nemət bir həftə ağzını aça bilməmişdir. Bir müddət sonra işğal altında olan Füzuli rayonundakı hərbi hissəyə göndərilən Nemət orada da eyni vəziyyətlə qarşılaşmışdır. Erməni hərbçilərinin onu döyərək işgəncə vermələri nəticəsində sol qolu, üç sağ və iki sol qabırğası qırılmışdır. Mütəmadi olaraq döyülən və orada saxlanılan digər əsir və girovların başına gətirilən müsibətlərin də şahidi olan N.Məmmədov fiziki əziyyətlərdən başqa psixi sarsıntılar da keçirmişdir. Digər azərbaycanlı əsirin erməni hərbçiləri tərəfindən möhkəm döyüldükdən sonra üstünə benzin tökərək yandırıldığının, verilən işgəncələrdən cana doymuş başqa bir əsirin isə qaçmağa cəhd göstərərkən minaya düşüb parça-parça olmasının şahidi olmuş Nemət dərin psixi sarsıntılara düçar olmuşdur. Nəticədə ölümcül hala düşmüş azərbaycanlı əsir Xankəndindəki hərbi hospitala aparılmışdır. Müalicə edilməsə belə, qısa müddət fiziki işgəncələrdən canını qurtaran N.Məmmədov orada BQXK-nın qeydiyyatına alınmışdır. Bundan sonra döyülmə və işgəncələr azalsa da, əvəzində onu ən ağır fiziki işlərə cəlb edib, sutkanın çox hissəsini işlətmişlər. Nemət Məmmədov 25 iyul 1995-ci il tarixdə azad edilmişdir.

Məmmədov Novruz Qurban oğlu – 1958-ci ildə Kəlbəcər rayonunda anadan olmuşdur. 11 may 1993-cü il tarixdə girov götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Aralarında qadınların da olduğu bir neçə qohumu ilə birlikdə Kəlbəcər rayonunun Qaradırnaq kəndində Ermənistan hərbçiləri tərəfindən girov götürülüb və işğal edilmiş Kəlbəcər rayonunun Yanşaq kəndinə aparılaraq, 6 gün məktəb binasında saxlanılıb. Orada tabor komandiri olan Sveta adlı erməni qadının göstərişi ilə hərbçilər əsirləri möhkəm döymüş, güllələmək məqsədi ilə sıraya düzüb, başlarının üstündən atəş açmaqla psixoloji işgəncələr vermişlər. Saxlanıldıqları müddətdə digər azərbaycanlılar kimi Novruz Məmmədov da hər gün ağac, dəmir parçası, rezin dəyənək və avtomatın qundağı ilə döyülmüş və təhqir olunmuşdur. İlk işgəncə zamanı Novruzu o qədər döymüşlər ki, o, huşunu itirib yerə yıxılmış, ayılanda özünü saxlandığı məktəb binasında qadınların arasında görmüşdür. Erməni hərbçilər qadınları da rahat buraxmamış, mütəmadi olaraq onları bir-bir apararaq döyüb, zorladıqdan sonra geri qaytarmışlar. Girovları ağır işlərə cəlb edən ermənilər meşədəki ağacları onlara kəsdirib daşıtdırmış, ağır ağacları apara bilməyənləri isə vəhşicəsinə döymüşlər. Kəlbəcər rayonunun işğal edilmiş Yanşaq

kəndində saxlanılarkən Novruz kəndin işğalı zamanı məftillə ağaca bağlayıb yandırdıqları azərbaycanlı əsgərin cəsədini ermənilərin göstərişi ilə məktəb binasının yanında basdırmışdır. Altı gün döyüldükdən və ac-susuz saxlanıldıqdan sonra girovların bir qismini Xankəndi uşaq bağçasına, Novruz da daxil olmaqla dörd kişini Şuşa həbsxanasına aparmışlar. Orada nəzarətçilər və hərbçilər girovları Şuşa həbsxanasının ənənələrinə uyğun olaraq əllərində lom, bel, dəmir və ağacdan olan müxtəlif ağır alətlərlə qarşılamış və qəddarlıqla döymüşlər. Sonra Slavik adlı erməni nəzarətçi onları 6 qapıdan keçirərək, kameralarına qədər "müşayiət" etmişdir. O, hər qapıdan keçərkən, əlindəki rezin dəyənəklə girovların kürəyinə iki, zərbədən yayınanlara isə əlavə dörd zərbə vurmuşdur. Novruz Şuşa həbsxanasında saxlanılarkən ermənilər ora çox sayda əsir-girov gətirmiş, ertəsi gün isə harasa aparmışlar. Həbsxanadakı əsir-girovlara zibil və şəhərdəki binaların sökülməsi nəticəsində əldə edilmiş mişar daşlarını daşıtdırmışlar. Mülki geyimdə olan ermənilər də hər gün onları möhkəm döymüşlər. Qarik adlı erməni Şuşa həbsxanasının rəisi olarkən, onun göstərişi ilə nəzarətçilər əsirləri döyərkən onların başında 26 ədəd rezin dəyənək sındırmışlar. Bundan başqa, yenə Qarikin göstərişi ilə Samvel, Ovik, Slavik, Qor və digər nəzarətçilər əsir-girovları bir-birini zorlamağa məcbur edir, bəzən isə özləri həmin əsir-girovları zorlayırmış. Həbsxana rəisi isə bu əyləncələrdən zövq alırmış. Novruz Şuşa həbsxanasında girov saxlanıldığı dövrdə adları çəkilən nəzarətçilər azərbaycanlı əsir-girovları hansısa şəkli yeməyə məcbur etmişlər. Kəlbəcər rayonundan olan girov Quliyev Məhəmmədin başına dəmir boru ilə elə zərbə vurmuşlar ki, o, huşunu itirmiş və uzun müddət özünə gəlməmişdir. Valera adlı idmançı nəzarətçi təpiklə vurub Mikayıl adlı girovun üz sümüyünü sındırmışdır. Hazırladıqları naməlum şüaverici silahı əsir-girovların üzərində sınaqdan keçirərkən, Eyvaz adlı girov ölmüşdür. Seqo, Artur, və digər erməni nəzarətçilər isə qış aylarında əsirləri və girovları döyə-döyə su kranının altına salıb çimməyə məcbur etmiş, onları qarın üstündə saatlarla süründürmüşlər. Qor adlı nəzarətçi Qubadlıdan olan Hidayət adlı əsirin başını müxtəlif əşyalarla vurub partlatdıqdan və pis hala saldıqdan sonra kameraya gətirmiş, digər əsir-girovlara: "Müsəlman qanını bura tökülməyə qoymayın", – deyərək yerə və ayaqqabısına tökülmüş qanı onlara yalatdırmışdır.

Erməni nəzarətçilər əsir-girovların üstünə ovçarka cinsli itləri buraxaraq əylənmiş, onları ən ağır işlərə cəlb etmişlər. Qəniyev Ariz adlı xəstə, cansız və zəif əsirin odun doğrayarkən yorularaq yıxıldığını görüb ona kömək etmək istədikdə, Artur adlı nəzarətçi avtomatın qundağı ilə vurub Novruzun qabırğalarını sındırmışdır. Nəzarətçilər çəkdikləri siqaretləri əsir-girovların, o cümlədən Novruzun da bədənində söndürmüş, onları torpaq yeməyə məcbur etmişlər. Novruzun yanında saxlanılan Eldəniz adlı girovun bədəninə xaçşəkilli damğa vurmuşlar. Bir il iki ay Şuşada saxlanıldıqdan sonra nəzarətçi Qor Novruzu Elmixan və Pənah adlı əsirlərlə birlikdə Xankəndində yerləşən 4-cü tabora gətirmişdir. Bir müddət orada saxlanılan əsirləri nəzarətçi Qor təpiklə vurub su ilə dolu hovuzun içinə yıxırmış, Seqo adlı erməni zabit isə onları yerə uzadıb üstlərindən ora-bura gedir, rezin dəyənək və odunla başlarına zərbələr endirir, üstlərinə itləri buraxırmış. Yenidən Şuşa həbsxanasına qaytarılan Novruz azad olanadək orada saxlanılmışdır. Girovluqda olduğu müddətdə BQXK-nın nümayəndələri ayda bir dəfə onlara baş çəkib yardım gətirsələr də, onlar getdikdən dərhal sonra ermənilər yardımları onların əlindən alır, özlərini isə döyürmüşlər.

Novruz Məmmədov 1996-cı ilin may ayının 10-da girovluqdan azad edilmişdir.

Məmmədov Pənah Hüseyn oğlu – 1968-ci ildə Ermənistan Respublikasının Basarkeçər rayonunda doğulmuşdur. 3 aprel 1993-cü il tarixdə əsir götürülmüş, 2 mart 1994-cü ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonunun Ermənistan Silahlı Qüvvələri tərəfindən işğalı zamanı hər iki ayağından yaralanaraq əsir düşmüşdür. Əvvəlcə erməni hərbçiləri P.Məmmədovu işğal etdikləri Ağdərə rayonunun Drombon kəndindəki qərargaha aparmış, huşunu itirənədək döydükdən sonra ölməməsi üçün yüngülcə tibbi yardım göstərmişlər. Drombonda iki gün ərzində ac-susuz saxlanılmış, üçüncü gün Yerevan şəhərinə aparılaraq Hərbi Polisə təhvil verilmişdir. Pənah Hərbi Polisin ərazisində yerləşən və xeyli azərbaycanlının saxlanıldığı həbsxanaya salınmışdır. Həbsxanada bir neçə kamerada əsir-girov kişilər, bir kamerada isə 5-6 azərbaycanlı girov qadın saxlanılırmış. Saxlanılan azərbaycanlılar günün böyük hissəsini ağır işlərdə işlədilmişlər. İçkili və narkotik maddələrin təsiri altında olan erməni hərbçilər axşam və gecə saatlarında kameralara girib onları sıraya düzüb səhərə qədər dəmir və digər bərk materialdan olan əşyalarla döyərək işgəncələr vermişlər. Ermənilər Kəlbəcər rayonundan Gürşad, Saatlı rayonundan Elşən, Yevlax rayonundan Elmanı və digər 5 əsiri hamının gözü qarşısında vəhşicəsinə qətlə yetirmiş, meyitlərini isə sürüyərək harasa aparmışlar. Pənah Məmmədov gecələr qonşu kameradakı qışqırıq və fəryad səslərindən orada saxlanılan azərbaycanlı girov qadınlara erməni əsgərləri tərəfindən işgəncə verildiyini və zorlandıqlarını başa düşür və onlara kömək edə bilmədiyi üçün mənəvi əzab çəkirmiş. Erməni nəzarətçilər orada saxlanılan bəzi kişi əsir-girovları da zorlamış və ya bir-birini zorlamağa təhrik etmişlər. Əli-qolu bağlı əsirlərə amansızcasına işgəncələr verərkən, köməksiz, yaralı insanları incitməkdən zövq alan ermənilər əsir-girovlar qışqırarkən qəhqəhə ilə gülüşürmüş.

Pənah Məmmədov 2 mart 1994-cü il tarixdə əsirlikdən azad edilmişdir.

Məmmədov Qədir İmamqulu oğlu – 1963-cü ildə Füzuli şəhərində doğulmuşdur. 20 avqust 1993-cü il tarixdə girov götürülmüş, 22 oktyabr 1995-ci ildə azad olmuşdur. İfadəsində bildirmişdir:

Füzuli şəhərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən işğalı ərəfəsində şəhərdə qalmış atasını çıxarmaq üçün oraya getmiş, lakin erməni hərbçilər tərəfindən tutulub girov götürülmüşdür. Onu tutan hərbçinin briqada komandiri, general Manvel Qriqoryan olduğunu öyrənmişdir. Girov götürən zaman onu huşunu itirənə kimi döymüşlər. Özünə gələndə başdan ayağa qan içində olduğunu görmüşdür. Erməni silahlıları pulunu və sənədlərini əlindən almış, ayaqqabılarını soyundurmuş, "UAZ" markalı maşına uzadıb üstünə çıxmışlar. Xeyli getdikdən sonra maşın Füzuli rayonu, Cuvarlı kəndində dayanmışdır. Ermənilər "Marqarita" deyə çağırmış və dəyirmandan 50-55 yaşlı arıq qadın çıxıb onlara yaxınlaşmışdır. Marqarita Qədirdən Füzulinin kimə məxsus olduğunu soruşub onu döymüş, saçından yapışıb sürümüş, cırmaqlamış və təhqir etmişdir. Bundan sonra ermənilər əlləri və ayaqları bağlı vəziyyətdə onu maşının arxasına bağlayıb Edilli kəndinə qədər sürümüşlər. Edillidə onu qadın və kişi hərbçilər təkrar döymüşlər. Orada onu Manvel Qriqoryan və onun müavini Simonyan döyüb sorğu-sual etmişlər. Edillidə qarajlarda saxlanılan 35-40 nəfər əsir və girovlara həddindən artıq ağır, dözülməz və dəhşətli işgəncələr verilmişdir. İşgəncələr nəticəsində Fərman, Ənvər, Rəşid, İlyas, adlarını unutduğu bir qadın və üç kişi ölmüşdür. Onların və qətlə yetirilmiş 18-20 nəfər

azərbaycanlı hərbçinin meyitini Edillidə dağın döşündə dəfn etmişlər. Yerevandan gəlmiş Gevorq adlı erməni daha çox işgəncə verirmiş. Girovluqda olduğu 45-ci gün o, digər iki nəfərlə birlikdə qaçmağa cəhd etmiş, lakin minaya düşüb təkrar tutulmuşlar. Gevorq yaralı vəziyyətdə onları möhkəm döymüş, bıçaqla gözünün altını vurub yaralamışdır. Edillidə saxlanılanları beynəlxalq təşkilatlardan gizlətmiş və müxtəlif işlərdə qul kimi istifadə etmişlər. İşıqlı kəndində işləyərkən Qədir və bir neçə nəfər azərbaycanlı təkrar qaçmağa cəhd göstərsələr də, bir sutkadan sonra itlərin köməyi ilə tutulub kənddəki poçtun həyətinə gətirilmişlər. Orada silahlı ermənilər onları sıraya düzüb əhatəyə almış, ortada dayanmış ermənilər – Volot, Vaqif və Lyova Quba rayonu, Nüvədi kəndindən olan Laçın adlı əsiri meydanın ortasındakı kötüyün üstünə çıxarıb avtomatlardan aramsız atəş açıb güllələmişlər. Sonra isə Q.Məmmədovu kötüyün üstünə çıxarmışlar. Bu vaxt kənardan atəş açılmış və səs-küy qopmuşdur. Ako adlı yüksək rütbəli komandir gəlmiş və girovun öldürülməsinə icazə verməmişdir. Laçının meyitini poçtun həyətində basdırmışlar. Onları təkrar Edilliyə qaytardıqdan sonra əvvəlki kimi müxtəlif işlərdə və evlərdə işlətmişlər. Bir dəfə beynəlxalq yardımı boşaldan zaman yükü gətirmiş hansısa təşkilatın nümayəndəsi olan əcnəbi qadın Qədirin və digərlərinin üst-başlarından onların əsir olmasından şübhələnmiş, bu səbəbdən azərbaycanlılar bir daha beynəlxalq yardımın boşaldılmasına cəlb edilməmişlər. Lakin az sonra BQXK nümayəndələri onlardan gizlədilmiş əsir-girovları qeydiyyata almışlar. Ermənilər Laçının ölümü barədə BQXK nümayəndələrinə məlumat verməməyi tapşırmış, dəhşətli işgəncələrlə hədələmişlər. Tərcüməçi Slavik isə milliyyətcə erməni olduğundan əsir və girovların şikayətlərini BQXK nümayəndələrinə özü bildiyi kimi tərcümə edir və onların doğru-dürüst məlumat almalarını əngəlləyirmiş. Edilli kəndinin hərbi komendantı – əslən kəndin özündən olan Alyoşa adlı erməni əsir və girovlara ən dəhşətli işgəncələri şəxsən özü vermişdir. 1994-cü ilin iyun ayında Q.Məmmədovu digər əsir və girovlarla birlikdə Xankəndinə, bir həftədən sonra isə Şuşa həbsxanasına aparmışlar. Şuşa həbsxanasının xüsusi "qayda-qanunları" olmuşdur. Həbsxanaya çatan əsir-girovları erməni nəzarətçilər əllərində lom, bel, armatur, gürz və s. kimi küt alətlərlə qarşılayırdı. Həbsxanaya yeni gələn hər bir əsir əvvəlcə maşından düşən kimi diz çöküb asfaltı öpməli, "evimə xoş gəlmişəm" deməli, bundan sonra dizi üstə sürünə-sürünə dəhşətli zərbələr altında həbsxananın qapısına qədər getməli idi. Qapıya çatmış əsiri əlində iri, ağır gürz tutmuş nəzarətçi gözləyirmiş. Nəzarətçi əlindəki gürzlə əsiri qüvvətli zərbə ilə vurub içəriyə salırmış. Bundan sonra isə həbsxanaya təzə gəlmiş əsirləri müntəzəm şəkildə fasiləsiz döyürmüşlər. Belə döyülmələr nəticəsində əsir Heydərov Heydər Zabit oğlu ölmüşdür. Əsirlərə ən ağır işgəncələri Qor, Armen, Okan, Slavik, Yaşa, Emin, Yura və Jora adlı ermənilər verirmiş. Həbsxana rəisinin müavini olmuş Asirov isə qəddarlığına görə xüsusilə seçilirmiş. Asirov bir dəfə Q.Məmmədova rezin dəyənəklə 300 zərbə vurmuşdur.

1995-ci ilin sentyabrında ermənilər əsir-girovların bir qismini işlətmək məqsədi ilə Mısmına kəndinə aparmışlar. Təxminən 42 nəfər azərbaycanlı 10-12 kv. metrlik bir otaqda saxlanılmış, onlara yeməyə bir stəkan buğda suyu verib, sutkada 17-18 saat işlətmişlər. Q.Məmmədov Mısmınada separatçı Dağlıq Qarabağ rejiminin "müdafiə naziri" Samvel Babayan üçün tikilən evdə işləyərkən, 1995-ci il oktyabr ayının 8-də bir neçə əsir-girovla birlikdə qaçmışdır. Qədir və onun yoldaşları işğal altında olan Ağdam şəhərinin içi ilə gedib təmas xəttini keçmək qərarına gəlmişlər. Qədir Ağdam şəhərini

tamamilə dağıdılmış vəziyyətdə görüb dəhşətə gəlmiş və təsirlənmişdir. Q.Məmmədovun ifadəsindən: "Ağdamı dağıdılmış vəziyyətdə görəndə gözlərimə inana bilmirdim. Şəhər xarabalığa çevrilmişdi. Həm yorğunluqdan, həm də gördüklərimdən halım pisləşdi. Yıxılmamaqdan ötrü özümə dayaq verməyə bir ağac tapa bilmədim. Ermənilər ağacları da kəsib aparmışdılar". 14 gün gizlənə-gizlənə yol gedən əsirlər 22 oktyabr 1995-ci il tarixdə Ermənistan–Azərbaycan qoşunlarının qarşıdurma xəttini Ağdam rayonu istiqamətindən keçərək azad olmuşlar.

Məmmədov Qafqaz Hilal oğlu – 1958-ci ildə Hadrut rayonu, Haxullu kəndində doğulmuşdur. 3 yanvar 1990-cı il tarixdə girov götürülmüş, 6 yanvar 1990-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Yaşadığı kənddə axşam saatlarında mağazaya gedərkən, qəflətən peyda olan bir neçə silahlı erməni onu tutub kəndin kənarına aparmışlar. O, orada 20-30 nəfər silahlı ermənini və girov götürülmüş 5 həmkəndlisini görmüşdür. Erməni terrorçu-quldur dəstəsi onları Edilli kəndi istiqamətində aparmışlar. Hadrut rayon Milis şöbəsinin əməkdaşı Vaqif Zolayanın rəhbərlik etdiyi silahlı dəstə Edilli kəndində girovları təpiklə və avtomatın qundağı ilə döymüşdür. Sonra girovları uşaq bağçasına aparıb balaca bir otağa salmışlar. Səhər açılanda bağçanın həyətinə çıxarılan girovları ora yığışmış erməni mülki sakinlər daşqalaq etmiş və üzlərinə tüpürmüşlər. Onların arasında Hadrut rayon İcra Komitəsinin sədri Navasardyan da olmuşdur. Yenidən həmin otağa salınan girovların yanına gələn ermənilər onların hər biri üçün 15 min rubl ödəniləcəyi halda azad edəcəklərini bildirmişlər. 6 yanvar 1990-cı il tarixdə tələb olunan məbləğ ödənildikdən sonra ermənilər azərbaycanlı girovları buraxmışlar.

Məmmədova Qənimət Həmid qızı – 1913-cü ildə Azərbaycan Respublikası Kəlbəcər rayonu, Qılınclı kəndində doğulmuşdur. 31 mart 1993-cü il tarixdə girov götürülmüş, 8 dekabr 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan ordusu Kəlbəcər rayonuna hücum edən vaxt Q.Məmmədova beş nəfər həmkəndlisi ilə birlikdə İstisu qəsəbəsini tərk etməyə çalışarkən atəşə məruz qalmış və girov götürülmüşlər. Həmin vaxt ermənilər Sənəm adlı qadını güllələyib qətlə yetirmiş, qalanlarını isə artıq işğal etdikləri Kəlbəcər şəhərinə aparmışlar. Mülki və hərbi paltarlı ermənilərin qarışqa kimi evlərə doluşub, Kəlbəcər şəhərini talan etmələrinin şahidi olmuş Q.Məmmədova və həmkəndliləri erməni silahlıları tərəfindən ağac, avtomat qundağı, dəmir parçaları və digər əşyalarla döyülmüşlər. Ermənilər cavana-qocaya baxmadan girovların hamısına işgəncə vermişlər. Oradan Xankəndi şəhərinə aparılan girovlar əksəriyyəti qadın və uşaqlar olan daha 50 nəfər azərbaycanlının saxlanıldığı 3 saylı uşaq bağçasında yerləşdirilmişlər. Bağçada saxlanılan girovlardan 12 nəfəri qoca kişi, qalanları isə qadın və uşaqlar olmuşdur. Ermənilər yaşlı girovları da digərləri ilə birlikdə döymüş və təhqir etmiş, yaşlı qadınların saçlarından yapışıb sürümüşlər. Erməni nəzarətçilər qadınları bir-bir kameralardan çıxararaq harasa aparmış, zorladıqdan sonra geri qaytarmış, uşaqları belə döyməkdən çəkinməmişlər.

Məmmədov Rafiq Sevindik oğlu – 1972-ci ildə Füzuli rayonunda anadan olmuşdur. 24 oktyabr 1993-cü il tarixdə əsir götürülmüş, 7 iyul 1994-cü ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ermənistan hərbçiləri tərəfindən Horadiz qəsəbəsinin işğalı zamanı əsir götürülüb Xankəndi şəhərində yerləşən hərbi hissəyə aparılmışdır. Həmin gün erməni hərbçiləri Rafiqi döyüb, qolunu üç yerdən sındırmış, bel nahiyəsini və onurğa sümüyünü zədələmiş, qabırğalarının arasını deşərək, oradan armatur soxmuş və bədəninin içində hərəkət etdirmişlər. Saxlanıldığı müddətdə Rafiq Məmmədov erməni hərbçiləri tərəfindən bu cür dəhşətli işgəncələrə məruz qalmış, müntəzəm olaraq döyülmüşdür. 4-5 ay sonra Hadrut rayonunun Edilli kəndinə aparılan Rafiq, orada da eyni vəziyyətlə üzləşmişdir. Erməni hərbçilərinin işgəncələri nəticəsində sağ gözünün altındakı almacıq sümüyü sınmış, bədən üzvləri zədələnmiş, başının ortasını paslı dəmirlə deşmişlər. Rafiq bir neçə azərbaycanlı əsirin işgəncələr verilib qətlə yetirildiklərinin də şahidi olmuşdur. Belə ki, erməni hərbçilər Füzuli rayonundan olan Arif adlı əsiri paz ilə, Ağdamdan olan yaşlı bir girovu isə armaturla vəhşicəsinə döyərək qətlə yetirmişlər. Amansızcasına uzun müddət fasiləsiz olaraq döyüldükdən sonra zirzəmiyə atılmış, Ağdamdan olan Elman adlı əsir yerindən tərpənə bilməmişdir. Nəticədə onu bit-birə basmış, ac-susuz və murdarlıq içində ölmüşdür. Qubadlıdan olan başqa bir əsirin atəş açaraq 4 avtomat darağı güllə ilə bədənini deşik-deşik etmiş və qətlə yetirmişlər. Avar millətinə mənsub bakılı əsirin isə ermənilər qulaqlarını və burnunu kəsdikdən sonra başını bədənindən ayırmışlar. Rafiq Məmmədov 7 iyul 1994-cü il tarixdə əsirlikdən azad edilmişdir.

Məmmədov Sədrəddin Nəsib oğlu – 1954-cü ildə Azərbaycan Respublikası Füzuli rayonu, Böyük Bəhmənli kəndində doğulmuşdur. 23 oktyabr 1993-cü il tarixdə girov götürülmüş, 25 iyul 1995-ci ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

İşdən evə qayıdarkən Füzuli rayonu, Horadiz qəsəbəsi ərazisində Ermənistan hərbçiləri tərəfindən 14 nəfərlə birlikdə girov götürülərək Xocavənd rayonuna aparılmışdır. Erməni silahlıları gecə qaranlığında əvvəlcə əsir-girovların üzünə fənərlə işıq salıb kimin qızıl dişləri varsa, adi kəlbətinlə çıxarmış, avtomatın qundağı ilə döymüşlər. Orada saxlanıldıqları müddətdə avtomat qundağı, dəyənək, yumruq və təpiklə döymüş, dəhşətli işgəncələr vermişlər. Sədrəddini 10 metrlik məsafədə saxlayıb, başını nişan alaraq daş atmışlar. Nəticədə başı 6 yerdən yarılmış, huşunu itirib yerə yıxılmışdır. Ayılanda isə özünü kamerada qan içində görmüşdür. Üç gün ac qalmış, lakin heç kim onunla maraqlanmamışdır. Bundan başqa, ermənilər onun sol qolunu lomla vurub sındırmışlar. Azər adlı bir əsir erməni hərbçiləri tərəfindən itin yanına bağlanılaraq üç gün orada saxlanmışdır. Nəticədə it onun bədənini cırıq-cırıq etmişdir. Ümumiyyətlə, itləri əsirlərin üstünə buraxmaq ermənilərin sevimli əyləncəsi idi. Horadizdən olan İlhamı digər əsir-girovların gözü qarşısında döyə-döyə öldürmüşlər. Onun meyitini gizlədən ermənilər BQXK-ya guya onun qaçdığı barədə yalan məlumat vermişlər. Bir müddət sonra Şuşa həbsxanasına aparılan əsir-girovları həbsxananın həyətində əllərində lom, bel, gürz, çəkic və s. küt alətlər tutan nəzarətçilər qarşılamışlar. Onları amansızcasına döymüş və kameralara salmışlar. Orada daha ağır vəziyyətdə saxlanılan əsir-girovları erməni nəzarətçilər harasa apararkən, yolboyu döymüş və döyə-döyə işlətmişlər. Əsirləri torpaq yeməyə, bir-birini döyməyə, zorlamağa məcbur etmişlər. Horadizdən olan Mirzalını soyuqda lüt soyunduran nəzarətçilər onu qarın üstündə saxlamış, nəticədə yaşlı girov soyuqdan donaraq ölmüşdür. 24 aprel – "ermənilərin soyqırımı" günündə kameralardan bir neçə nəfər azərbaycanlını çıxarmış, qəbiristanlığa

aparıb başlarını kəsmişlər. 1994-cü ilin qışında məcburi surətdə əsir-girovların qanını çəkib döyüşlərdə yaralanmış erməni hərbçilərinə köçürmüşlər. Bu zaman heç bir məhdudiyyətə yol verməmiş, ürəkləri istədiyi qədər qan çəkmişlər. Nəticədə zəifləyən əsir-girovların səhhəti daha da pisləşmiş və aylarla özlərinə gələ bilməmişlər. Adını bilmədiyi başqa yaralı əsiri erməni hərbçilər hamının gözü qarşısında yük avtomaşını ilə üstündən keçərək qətlə yetirmişlər. Əsirləri döyüb işgəncə verən təkcə erməni nəzarətçilər və hərbçilər olmamışdır. Mülki ermənilər də pul müqabilində, bəzən də pulsuz həbsxanaya girib kameralardakı azərbaycanlı əsir-girovları döymək, onlara işgəncə vermək imkanına malik olmuşlar. Sədrəddin Məmmədov 25 iyul 1995-ci il tarixdə əsirlikdən azad olmuşdur.

Məmmədov Söhrab Sərxan oğlu – 1968-ci ildə Ermənistanın Sisian rayonunda doğulmuşdur. 27 dekabr 1993-cü il tarixdə əsir götürülmüş, 10 may 1995-ci il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ağdam rayonunun Salahlı, Qızıl Kəngərli və Boyəhmədli kəndlərinin müdafiəsi zamanı yaralı halda Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüş və işğal altında olan Xankəndi şəhərinə aparılaraq, 366-cı hərbi hissənin təcridxanasına salınmışdır. Orada saxlanıldığı müddətdə erməni hərbçiləri tərəfindən hər gün döyülmüş, mənəvi-psixoloji və fiziki işgəncələrə məruz qalmışdır. Əsir olduğu müddətdə erməni hərbçilərinin 18 yaşlı azərbaycanlı əsirin başını kəsdiyinin şahidi olmuşdur. Sonra ermənilər həmin başın basdırılmasını Söhraba, Ramiz və Kərəm adlı əsirlərə tapşırmışlar. Bundan əlavə, daha bir neçə əsir-girovun öldürülməsinin şahidi olan Söhrab onlardan Arif adlı əsiri xatırlayır. Əsir-girovların gözləri qarşısında ermənilər tərəfindən qətlə yetirilən Arifi və digərlərini Söhrab Məmmədov, Şükürov Şükür Yaşar oğlu, Bayram, ağdamlı Ərşad kişi, Qubadlı sakini Yelmar Məmmədhüseyn oğlu Hüseynov, Həsən və Kərəm müxtəlif vaxtlarda Xankəndi ətrafındakı azərbaycanlı qəbiristanlıqlarından birində dəfn etmişlər. 1994-cü ilin axırından 1995-ci ilin fevral ayınadək Şuşa həbsxanasında saxlanıldığı müddətdə də əsir-girovlara qarşı amansız münasibətlə qarşılaşan Söhrab ağlasığmaz işgəncələrə məruz qalmışdır. Erməni hərbçilər və nəzarətçilər əsirləri gün ərzində bir neçə dəfə döymüş, bir-birlərini döyməyə və alçaltmağa məcbur etmiş, sutkada 17-18 saat qul kimi işlətmişlər.

Məmmədov Söhrab Sərxan oğlu 10 may 1995-ci il tarixdə azad olunmuşdur.

Məmmədov Şamil Əli oğlu – 1934-cü ildə Azərbaycan Respublikası Xocavənd rayonunun Qaradağlı kəndində doğulmuşdur. 17 fevral 1992-ci il tarixdə girov götürülmüş, 10 aprel 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Yaşadığı Xocavənd rayonunun Qaradağlı kəndi Ermənistan hərbi birləşmələri tərəfindən işğal edilərkən girov götürülmüşdür. Erməni hərbçilər girov götürdükləri 100 nəfərdən çox kənd sakinini döydükdən sonra cavanları ayrı, yaşlıları ayrı olmaqla yük maşınlarına mindirib, Xankəndi istiqamətində hərəkət etmişlər. Girovlara başlarını əyib əllərini qarınlarına qoymağı əmr edən ermənilər yolda Şahmurad adlı 65 yaşlı kənd sakinini maşından endirib güllələmiş, meyitini hadisə yerinə ataraq yollarına davam etmişlər. Nigi kəndinin girəcəyində yenidən maşını saxlayan erməni hərbçilər girovları maşınlardan düşürdüb, əvvəlcə 45 yaşlı Xəlilov Zahidi və Hüseynov Həbibi, daha sonra

ümumilikdə 30 nəfərdən çox Qaradağlı kənd sakinini güllələyib qətlə yetirmişlər. Girovlarla dolu maşınlar ermənilər yaşayan Nigi kəndinin içərisindən keçəndə yerli erməni qadınlar, uşaqlar və qocalar yolun hər iki tərəfinə düzülüb onları daşqalaq etmişlər. Həmin vaxt atılan daşlardan biri də Şamilin başına dəyərək yarmışdır. Malıbəyli kəndi yaxınlığındakı körpünün yanında maşınları yenidən saxlayan erməni hərbçiləri girovları maşından düşürmüş, onları döyüb qış paltarlarını, palto və papaqlarını, jaket və pencəklərini soyundurmuş, saat, qızıl-zinət əşyalarını və pullarını zorla əllərindən almışlar. Sonra girovların hamısını möhkəm döyüb, on qadını və üç kişini ayırıb naməlum istiqamətdə, qalanlarını isə əlləri başlarının arxasında Xankəndi şəhərindəki həbsxanaya piyada aparmışlar. Birinci gün səhər saat səkkizdən axşam saat səkkizə qədər girovları həbsxananın həyətində üzü üstə uzanmış vəziyyətdə saxlayan ermənilər, axşam saat 22:00-dan sonra onları kameralara salmışlar. Kameraya girən Hüseynov İmran adlı əsir "Bura nə yaman soyuqdur", – dediyi üçün dərhal üç erməni onun üstünə atılıb vəhşicəsinə döymüş, qarnına güclü təpik vurmuşlar. Yeddi gün yerdə zarıyan və inildəyən İmran baxımsızlıqdan, aclıqdan və susuzluqdan ölmüşdür. Meyiti isə üç gündən sonra kameradan aparmışlar. Hər gün kameralara gələn saqqallı ermənilər "Bütün azərbaycanlıların qanını içəcəyik", – deyərək, onları möhkəm döymüş və işgəncə vermişlər. Şamil Məmmədov 10 aprel 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Məmmədov Vaqif Əliş oğlu – 1964-cü ildə Azərbaycan Respublikası Hadrut rayonu, Haxullu kəndində doğulmuşdur, 3 yanvar 1990-cı il tarixdə girov götürülmüş, 6 yanvar 1990-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Yaşadıqları kəndi erməni terrorçu-quldur dəstələrindən müdafiə etmək məqsədi ilə müxtəlif istiqamətlərdə qurulmuş postlardan birində bir neçə həmkəndlisi ilə keşik çəkərkən, gecə saat 23:00 radələrində hərbi geyimli ermənilərin hücumuna məruz qalmışlar. Nəticədə maskalı və avtomat silahlarla silahlanmış ermənilər yalnız bir ədəd ov tüfənginə malik olan azərbaycanlıları girov götürüb döyə-döyə Edilli kəndinə aparmış, qarət etmiş və uşaq bağçasında kiçik bir otağa salmışlar. Orada saxlanılarkən erməni hərbçiləri onları möhkəm döyüb çınqıl qırıntıları üstündə dizi üstə yeriməyə məcbur etmişlər. Ermənilər girovları kürəklərindən vurub üzü üstə yerə çırpmış və təpikləmişlər. Zərbələri daha çox böyrək nahiyələrinə endirən ermənilər bu yolla onları şikəst etmək istəmişlər. Girovlar təkcə silahlı ermənilərin deyil, kənd əhalisinin də işgəncələrinə məruz qalmışlar. Erməni əhali onları daşa basmış, qadınlar girovların saçlarını yolmuş və üzlərini cırmışlar. Uşaqlar isə əli-qolu bağlı girovları yumruqlamış və təpikləmişlər. Yanvar ayı olmasına baxmayaraq, ayaqyolunda əlləri divara dirənmiş vəziyyətdə saxlanılan azərbaycanlıların üstünə vedrə-vedrə soyuq su tökmüş və döymüşlər. 6 yanvar 1990-cı il tarixdə ermənilər külli miqdarda pul müqabilində girovları azad etməyə razı olmuşlar.

Məmmədov Vüqar Yavər oğlu – 1974-cü ildə Azərbaycan Respublikasının Astara rayonunda anadan olmuşdur. 9 may 1994-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Hərbi xidmətdə olarkən, 1994-cü ilin may ayının 9-da Tərtər rayonunun Ermənistan hərbi birləşmələrindən müdafiəsi zamanı ayaq nahiyəsindən yaralanıb huşunu itirmişdir.

Özünə gəldikdə üç erməni hərbçi tərəfindən əsir götürüldüyünü anlamışdır. Yaralı olmasına baxmayaraq, onu döyüb ölümcül hala salmış və əvvəlcə öz mövqelərinə, oradan isə Şotlanlıda yerləşən tank briqadasına aparmışlar. Erməni hərbçilər orada Vüqarı vəhşicəsinə döyüb, bir neçə azərbaycanlı əsirin də olduğu otağa salmışlar. Sonra sorğu-sual edilməsi üçün qərargaha aparmışlar. V.Məmmədova müxtəlif suallar verilmiş, düzgün cavab verməyəcəyi təqdirdə ayağını kəsməklə hədələmişlər. Bundan başqa, yaralarına duz səpmiş, dəmir fincanı və digər əşyaları onun başına çırpmış, təpikləmişlər. Az sonra Vüqar Məmmədov əvvəlcə Şuşa həbsxanasına, 1994-cü ilin iyul ayında isə Şuşa hərbi alayına göndərilmişdir. Erməni nəzarətçilər həbsxanaya yeni gələn Vüqarı ayağı yaralı olduğundan istifadə etdiyi qoltuq ağacı ilə qırılanadək döymüşlər. Orada əsir-girovlar sutkada 17-18 saat işlədilmiş, ən ağır işgəncələrə məruz qalmışlar. Erməni nəzarətçilər azərbaycanlıları bir-birini döyməyə, alçaltmağa məcbur etmişlər. Vüqar orada saxlanılarkən, əsir və girovlardan, əsasən, Şuşa qəbiristanlığındakı məzarların sökülməsində istifadə edilmişdir. Şuşa alayında saxlanılarkən isə hərbi hissənin əsgərləri sərxoş vəziyyətdə əsir və girovları döyüb, işgəncələr vermiş, əllərinə keçəni onların başına vurmaqla əylənmişlər. 1995-ci ilin mart ayında əsirlərdən 5 nəfər qaçmağa müvəffəq olmuş, bundan sonra ermənilər əsir və girovların hamısını bir kameraya salıb, 2 həftə onlara yemək verməmişlər. 1995-ci ilin avqust ayında əsirlərə baş çəkən BQXK əməkdaşları Vüqarın sağlamlıq durumunun ağır olduğunu görüb onu müalicə etdirmək məqsədi ilə özləri ilə aparmış, lakin az sonra onların tibb məntəqəsi bağlandığı üçün onu Şuşa həbsxanasına qaytarmışlar. Yenidən nəzarətçi ermənilər tərəfindən mütəmadi olaraq rezin dəyənək, armatur və s. ilə döyülən və işgəncələrə məruz qalan Vüqar yaşlı bir girovun işgəncələr nəticəsində öldüyünün şahidi olmuşdur. Ermənilər şaxtalı havada onu soyundurub, üstünə soyuq su tökmüş və üzü üstündə uzanmağa məcbur etmişlər.

Vüqar Məmmədov 10 may 1996-cı il tarixdə əsirlikdən azad edilmişdir.

Məmmədov Yaqub Qədir oğlu – 1940-cı ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 27 fevral 1992-ci il tarixdə girov götürülmüş, 23 mart 1992-ci ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Xocalı şəhərinin Ermənistan Silahlı Birləşmələri tərəfindən işğalı zamanı xilas olmaq üçün əhali ilə bərabər meşəyə üz tutmuşdur. Ermənilərin gözlərini qan tutmuşdu, uşağa, qocaya, qadına fərq qoymadan hamını qəddarcasına öldürürdülər. Xocalı camaatı silahsız, köməksiz, başıaçıq, ayaqyalın, ac-susuz və dəhşətdən sarsılmış halda qarlı meşələrə dağılıb, yol axtarırdı. İki gün meşədə dolaşandan sonra, fevralın 27-də, saat 18:00 radələrində Yaqub Məmmədov, Abbasov Elbrus Ələmdar oğlu, Abbasova Mələk Allahverdi qızı və Elbrusun anası ilə birlikdə erməni hərbçiləri tərəfindən girov götürülüb Dəhraz kəndinə aparılmış, iri bir tövləyə salınmışlar. Orada döyülmüş, soyuqdan donmuş və sarsılmış vəziyyətdə çox sayda Xocalı sakini saxlanılırdı. İnsanları elə hala salmışdılar ki, heç kimin başqası ilə maraqlanmağa halı yox idi. Girovları davamlı olaraq döyür, təhqir edir, alçaltmaq üçün ən pis vasitələrdən istifadə edirdilər. Bir gecə Dəhrazda saxlandıqdan sonra onu Xankəndi şəhərinə aparmış, orada Milis idarəsinin təcridxanasına salmışlar. Onunla bir kamerada həmkəndliləri – Hacıyev Qənahət Məhəmmədəli oğlu, Abbasov Elbrus Əlamdar oğlu, Əliyev Hüseyn Sarı oğlu, Qasımov

Məhəmməd Salman oğlu və Elçin adlı bir hərbi əsir saxlanılırdı. Saxlandığı müddətdə ermənilər Elçini təpiklə, dəyənəklə vəhşicəsinə döymüş, var gücləri ilə harasından gəldi vurmuşlar. Sonra onu başqa kameraya köçürmüşlər. Bir gün Yaqub Məmədovla Elbrusu kameradan çıxarıb Elçinin yanına köçürmüşlər. Elçin artıq huşsuz vəziyyətdə yerdə yıxılıb qalmışdı. Ermənilər onu öz kameralarına aparmağı əmr etmişlər. Girovlar Elçini çətinliklə öz kameralarına gətirmişlər. Lakin Elçin bir daha özünə gəlməmiş və həmin gecə ölmüşdür. Ertəsi gün ermənilər Elçinin meyitini harasa aparmışlar. Kamera çox soyuq və qaranlıq idi. Girovlara yalnız bir tikə quru çörək, azacıq da su verirdilər. Əvəzində isə gündə 3-4 dəfə erməni milislər tərəfindən döyülürdülər. Hər dəfə azı 4 milis nəfəri içəri girib, onları dəyənək, ağac, avtomat qundağı və təpiklə döyüb işgəncə vermişlər. Nəticədə Yaqub Məmədovun başı sağ tərəfdən ağır zədələnmiş, sağ qulağı eşitmə qabiliyyətini tamamilə itirmişdir. Bu səbəbdən, azad olunduqdan sonra da başında vaxtaşırı kəskin ağrılar olur. Döş qəfəsi və mədəsi elə ağır zədə almışdır ki, onların müalicəsi indi də davam edir. Erməni milislər təpiklə vuraraq sol ayağını dizdən qırmış, sağ ayağı isə dizdən aşağı ağır xəsarətlər almışdır. Yaqub Məmmədov 23 mart 1992-ci il tarixdə girovluqdan azad olmuşdur.

Məmmədov Zülfü İbrahim oğlu – 1974-cü ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 27 fevral 1992-ci il tarixdə girov götürülmüş, 5 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan hərbi birləşmələrinin Xocalı şəhərinə hücumu zamanı həyat yoldaşı Məmmədova Aybəniz Rəşid qızı, üç aylıq oğlu Ziya, azyaşlı qızı Aygün və həmkəndlisi Rəsul kişi və digər sakinlərlə birlikdə ölümdən qurtulmaq üçün meşəyə qaçmışlar. Ermənilər meşədə bacısının həyat yoldaşı Mehdiyev Muradı, Muradın iki uşağını və atasını qətlə yetirmiş, digər sakinləri isə girov götürərək, Əsgəran rayon milisinə aparmışlar. Orada kişi, qadın, qoca və cavanları bir-birindən ayırmışlar. Əsgəranda Qəhrəmanov Elxan Hidayət oğlunun, Hüseynin, Faiqin və Abışov İlqar, Səxavət, İntiqam, İlham və İntizam qardaşlarının saxlandığını görmüşdür. Kamerada saxlanılarkən bir dəfə Faiqin qışqırığını və güllə səsi eşitmişdir. Atəşdən sonra Yanğınsöndürmə idarəsinin rəisi Karo adlı ermənin Əliməmmədov Faiq Şahmalı oğlunu qətlə yetirdiyini eşitmişdir. Səhər tezdən bayıra çıxıb qayıdan İlham da Şahmalı müəllimin oğlu Faiqin öldürüldüyünü söyləmişdir. Digər saqqallı erməni isə avtomatın qundağı ilə Səlimov Fəxrəddinin başından vurub öldürmüşdü. Sonra Hüseyni də aparıb möhkəm döymüşlər. Mobil ilə Elxanı isə öldürmək adı ilə harasa aparmışlar. Saat 11:00 radələrində saqqallı bir erməni Vidadi ilə Mürvəti qardaşının qəbri üstündə kəsəcəyini deyib, mənəvi-psixoloji işgəncə vermiş və özü ilə aparmışdı. Girovları qurşağa qədər soyundurub, milli ordu əsgərlərinin harada olduğunu soruşur, avtomat qundağı və rezin dəyənəklə döyürdülər. Bir dəfə tualetə gedərkən Araz adlı girovun meyitini görmüşdür. Ermənistan hərbçiləri onu vəhşicəsinə armaturla döyüb öldürmüşlər. Ermənilər kamerada öldürdükləri girovların meyitlərini aparıb döyüş bölgəsinə ataraq, guya orada öldüklərini sübut etmək istəyirdilər.

Zülfü Məmmədov 1992-ci il martın 5-də girovluqdan azad edilmişdir.

Məmmədova Arzu Umud qızı – 1967-ci ildə Qubadlı rayonunun Qaraimanlı kəndində anadan olmuşdur. 30 avqust 1993-cü il tarixdə girov götürülmüş, 15 sentyabr 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan Silahlı Qüvvələrinin hücumu ilə əlaqədar o, anası Babayeva Şahsənəm İsa qızı və südəmər uşağı ilə birlikdə döyüş bölgəsindən çıxmaq istəyərkən, Qubadlı rayonu, Xoçik kəndi ətrafında girov götürülmüşlər. Həmin vaxt onlarla birlikdə bir neçə həmkəndlisi və digər azərbaycanlılar da ermənilər tərəfindən saxlanılmışdır. Orada cavanları qurşağa qədər soyundurub döymüş, şərab zavoduna aparıb iki gün saxlamışlar. Girovları Xocavənddə yerləşən xüsusi təyinatlı hissənin təcridxanasına aparmış, orada bir ay saxladıqdan sonra isə komendantlığın kameralarına salmışlar. 19 avqust 1994-cü ildə Arzu Məmmədova anası ilə birlikdə Xankəndi uşaq bağçasına aparılmışdır. O, hər yerdə ermənilərin əsir-girovlara qarşı qəddar və qeyri-insani münasibətinin şahidi olmuşdur. Erməni hərbçilər cavan, qoca, qadın, uşaq bilmədən bütün əsir-girovlara işgəncələr vermiş, döymüş, qadınların əksəriyyətini zorlamışlar. Bütün məntəqələrdə əsir-girovlar ac-susuz saxlanılmış, acından ölməmək üçün onlara bir tikə quru çörək, bir stəkan su vermişlər. Xankəndindəki uşaq bağçasında saxlanıldığı zaman BQXK-nın verdiyi ərzaq, isti paltar, sabun və s. yardımları erməni nəzarətçilər əsir-girovların əllərindən döyə-döyə alır və bu barədə heç kimə danışmamağı tapşırırmışlar. Bundan şübhələnən BQXK əməkdaşlarının azərbaycanlılara gizlin yardım etməyə başlaması da işə yaramamış, ermənilər belə halları dərhal aşkarlayıb, yardımı gizlədən əsiri və ya girovu ciddi şəkildə cəzalandırmışlar. Arzu Məmmədova anası Şahsənəm Babayeva ilə birlikdə 15 sentyabr 1994-cü il tarixdə girovluqdan azad edilmişdir.

Məmmədova Gülər Qubad qızı – 1936-cı ildə Füzuli rayonunda anadan olmuşdur. 7 dekabr 1991-ci il tarixdə girov götürülmüş, 11 dekabr 1991-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan hərbçiləri yaşadıqları Füzuli rayonu, Divanalılar kəndindəki evlərinə basqın edərək onları döymüş, həyat yoldaşı Səfərov Kərim Köçəri oğlunu qətlə yetirmişlər. Gülər Məmmədovanı və bir neçə qadını isə döyə-döyə Xocavənd rayonunun Qırmızı bazar kəndinə aparıb fermada saxlamışlar. Hər cür döyülmələrə, təhqirə, işgəncəyə məruz qalan azərbaycanlı girov qadınlar dörd gün sonra Cəmilli kəndinə gətirilib, benzin müqabilində girovluqdan azad edilmişlər.

Məmmədova Məqbulə Həmdi qızı – 1955-ci ildə Özbəkistan Respublikası Sırdərya Vilayətində doğulmuşdur, Ahıska türküdür. 25 fevral 1992-ci il tarixdə girov götürülmüş, 1 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Xocalı şəhərinin Ermənistan Silahlı Birləşmələri tərəfindən işğalı zamanı girov götürülmüşdür. Girovluqda olduğu müddətdə müxtəlif və çox amansız işgəncələrə məruz qalmışdır. Erməni hərbçilər qocaya, uşağa, qadına fərq qoymadan hamını döymüşlər. Məqbulənin gözü qarşısında Xocalı sakini Binəliyev Gülalı Binəli oğlunun başından bıçaqla vurmuş, bədəninin başqa yerlərinə də müxtəlif xəsarətlər yetirmişdilər. Məmməd müəllimin böyrəklərinə bıçaqla zərbələr vurmuşlar. Məqbulənin oğlu İlhamı da döyüb, ona ağır xəsarətlər yetirmişlər. Ermənilər hər dəfə spirtli içki qəbul edəndən sonra

Məqbulənin gözü qarşısında oğlunun əlini bağlayır, dəyənəklə başından vurur, yanan siqareti ağzına soxur və döyürmüşlər. Döyülmələr nəticəsində Məqbulənin burnu sınmış, qabırğaları çatlamışdır. Onun və oğlunun gözləri qarşısında Xocalıda girov götürülmüş qadınları zorlamışlar.

Məmmədova Qızbəs Əbdüləzim qızı – 1948-ci ildə Laçın rayonu, Minkənd kəndində doğulmuşdur. 18 may 1992-ci il tarixdə girov götürülmüş, 10 gün sonra azad edilmişdir. İfadəsində bildirmişdir:

Laçın rayonunun Ermənistan Silahlı Birləşmələri tərəfindən işğalı zamanı girov götürülmüşdür. Ermənistan hərbçiləri tərəfindən döyülmüş Qızbəs Məmmədovanın başının arxa nahiyəsində avtomatın qundağı ilə vurulmuş zərbədən 7-9 sm uzunluğunda yara açılmışdır. Saxlanıldıqları Gorus rayon Milis şöbəsində nə ona, nə də ayağından güllə yarası almış girov Bəsti Əmirxanovaya heç bir tibbi yardım göstərilməmişdir. Girovlar fiziki və mənəvi işgəncələrə məruz qalmış, ac-susuz vəziyyətdə saxlanılıb, gündə bir dilim çörəklə bir stəkan su almışlar. Keçirdiyi psixoloji sarsıntıların nəticəsində kəskin baş ağrısından əziyyət çəkir.

Mirzəyev Alik Yasin oğlu – 1973-cü ildə Bakı şəhərində anadan olmuşdur. 25 sentyabr 1992-ci il tarixdə əsir götürülmüş, 12 noyabr 1992-ci ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ağdam rayonu, Kiçik Fərruxlu kəndinin Ermənistan Silahlı Qüvvələrinin hücumundan müdafiəsi zamanı yaralanmış əsgər yoldaşını qucağına alıb atəş altından çıxarmaq istəyərkən, minaya düşüb huşunu itirmişdir. Ayılanda artıq əsir götürüldüyünü anlamışdır. Xankəndinə aparılıb kameraya salınan A.Mirzəyevin yanına az keçmədən Azərbaycan dilində danışan bir erməni gəlmişdir. Erməni onu döymüş, ayaqqabısının dabanı ilə vurub sağ gözünün üstünü partlatmış, əllərini dəmir boruya bağlayıb getmişdir. İki gün bu vəziyyətdə saxlanılan Alik, üçüncü gün, gecə saat 23:00 radələrində əllərində rezin dəyənək, zopa və s. ilə içəriyə girmiş üç nəfər saqqallı erməni tərəfindən huşunu itirənədək döyülmüşdür. Sentyabrın 29-da başqa kameraya aparılan A.Mirzəyevin sol ayağını orada yanan manqalın üzərinə basmış, qollarını və ayaqlarını dəmir masaya bağlayıb, yüksək gərginlikli elektrik cərəyanı vermişlər. Şiddətli gərginlikdən və ağrıdan huşunu itirən Alik qışqırarkən erməni hərbçiləri gülüşüb təkrar-təkrar onun bədəninə cərəyan vermişlər. Oktyabr ayının 6-da Füzuli rayonu, Mumansır kənd sakini, qarayanız, gözünün üstündə çapıq olan, Rövşən adlı şəxsi yaralı və döyülmüş vəziyyətdə onun yanına gətirmişlər. Rövşən snayper tərəfindən vurulduğundan ayağının əti sallanırmış. Heç bir tibbi yardım göstərilməyən, dəhşətli ağrılara dözə bilməyən və ermənilərin ona daha böyük əzab, işgəncə verəcəklərini anlayan Rövşən Alikin gözləri qarşısında əli ilə yaralı ayağının damarlarını qoparıb intihar etmişdir. Bu hadisədən sonra Alik başqa kameraya keçirilmişdir. Orada əsləndə yerevanlı olan Nəsimi və Kəlbəcər rayon sakini Mahirlə tanış olan A.Mirzəyev ermənilərin döyərək Nəsiminin qollarını sındırdıqlarının şahidi olmuşdur. Bir neçə gün sonra Aliki gözü bağlı şəkildə maşına mindirib, Xankəndinin yaxınlığındakı kəndə aparıb zirzəmiyə salmışlar. Erməni həkim onun əllərini dirəyə bağlayıb, gözlərinin üstündəki yaranı heç bir keyidicidən istifadə etmədən tikmişdir. Mirzəyev Alik Yasin oğlu 12 noyabr 1992-ci il tarixdə əsirlikdən azad olunmuşdur.

Mirzəyev İdris Usubəli oğlu – 1973-cü ildə Biləsuvar rayonu, Ağalıkənd kəndində doğulmuşdur. 14 aprel 1994-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Tərtər rayonu, Malakan kəndi uğrunda gedən döyüşlər zamanı mühasirəyə düşüb, Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Əvvəl onu qarət etmiş, sonra möhkəm döyüb Xocavənd rayonunun Madagiz kəndində yerləşən qərargaha aparmışlar. Əsir düşdüyü ilk gün bir erməni zabit İdrisi yerə yıxıb başını süngü bıçaqla kəsmək istəmiş, ancaq qərargah rəisi Arqo ona mane olmuşdur. O, İdrisi öz qohumu Aram adlı şəxslə dəyişməyi nəzərdə tutmuşdur. Üç gündən sonra ora daha dörd nəfər azərbaycanlı əsir gətirmişlər. Ertəsi gün ermənilər həmin dörd nəfəri çıxarıb aparmışlar. İdris oradakı ermənilərdən onların başlarının kəsildiyini öyrənmişdir. Xocavənddə bir ay saxlanıldıqdan sonra o, Ağdərəyə göndərilmişdir. İdris Ağdərədə Aşot adlı erməninin evinin zirzəmisində saxlanmışdır. Orada ondan başqa bir neçə nəfər azərbaycanlı da varmış. Mütəmadi olaraq ermənilər tərəfindən döyülən İdrisi bir müddətdən sonra Xankəndi şəhərinə, oradan isə Şuşa şəhərindəki həbsxanaya göndərmişlər. Türmədə vəziyyət daha da acınacaqlı olmuş, əsir-girovlar gün ərzində erməni nəzarətçilər tərəfindən bir neçə dəfə döyülmüş, təhqir edilmiş və işgəncələrə məruz qalmışlar. Bundan başqa, nəzarətçilər azərbaycanlıları bir-birini döyməyə, bir-birini alçaltmağa məcbur edirmiş. Bir axşam Yerevandan gəlmiş həbsxana rəisinin göstərişi ilə azərbaycanlıları sıraya düzüb, huşlarını itirib yıxılana qədər armaturla başlarına, üzlərinə, bədənlərinin müxtəlif yerlərinə vurmuşdular. İdris təxminən bir il Şuşa həbsxanasında saxlanmışdır. Əsir-girovlardan təxminən 40 nəfəri Mısmına kəndinə aparan ermənilər onları ferma, villa və müxtəlif obyektlərin tikintisində qul kimi, sutkada 17-18 saat işlətmişlər. Əvəzində isə onları cəmi 10-12 kv. metr sahəsi olan bir otaqda saxlamış, yeməyə isə yalnız buğda suyu vermişlər. Mısmınada işləyərkən əsir-girovlardan bir-neçə nəfəri imkan tapıb qaçmışdır. Bu hadisədən qəzəblənmiş ermənilər qalan azərbaycanlıları vəhşicəsinə döymüşlər. Şampan şüşəsi qırılanacan İdrisin başına vurmuşlar. Bu hadisədən sonra o, huşunu itirmiş və üç gün özünə gələ bilməmişdir. Onun başı şişmiş, yarası irinləmiş, qulaqlarından qan gəlmişdir. İ.Mirzəyev BQXK-dan ciddi cəhdlə gizlədilsə də, xoşbəxtlikdən, komitənin Pyer adlı əməkdaşı onu tapmış və tibbi yardım göstərmişdir. Vəziyyəti ağır olduğu üçün BQXK əməkdaşları İdris Mirzəyevi Xankəndi uşaq xəstəxanasına aparmışlar. İdris əsirlikdə olarkən Füzuli rayonundan olan Mehman adlı şəxs verilən işgəncələrə dözməyib ölmüşdür. Aldığı xəsarətlərin nəticəsində azad edildikdən sonra uzun müddət müalicə almasına baxmayaraq, İdris Mirzəyevdə yaddaş pozğunluğu yaranmış və başında mütəmadi ağrılar olur. İdris Mirzəyev 10 may 1996-cı il tarixdə əsirlikdən azad olunmuşdur.

Mirzəyev Mehman Ziyad oğlu – 1969-cu ildə İsmayıllı rayonunda doğulmuşdur. 13 fevral 1994-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonunun Yanşaq kəndinin Ermənistan Silahlı Qüvvələrinin hücumlarından müdafiəsi uğrunda gedən döyüşlər zamanı Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Ermənilər onu tərksilah etmiş, möhkəm döymüş və işğal edilmiş Ağdam şəhərindəki Milis şöbəsinin xeyli sayda əsir-girovun saxlanıldığı müvəqqəti

saxlama təcridxanasına salmışlar. Orada o, 1994-cü ilin aprel ayının 29-na kimi saxlanılmış və digər əsir-girovlarla birlikdə Xankəndi şəhərinə aparılıb müxtəlif işlərdə işlədilmişdir. Saxlanma şəraitləri olduqca ağır olan əsir-girovlara çox az yemək verir, soyuq döşəmənin üstündə yatmağa, sübh çağından gecəyə kimi ağır işlər görməyə məcbur edirmişlər. Bir müddət sonra, 1994-cü ilin aprel ayının 29-da Mehmanı və Sabirabad rayonundan olan Kamili separatçı Dağlıq Qarabağ rejiminin "müdafiə naziri" Samvel Babayanın əmisi Sergeyin işğal edilmiş Əsgəran rayonunun Naxçıvanlı kəndində yerləşən fermasında işlətməyə aparmışlar. 1995-ci ilin avqust ayının 11-nə kimi Mehman orada ev heyvanlarına qulluq etmişdir. Sonradan Mehmanı Kamillə birlikdə Ağdam rayonunun Şahbulaq kəndində yerləşən alaya işləməyə aparmışlar. On gün sonra BQXK-nın Pyer adlı nümayəndəsi erməni tərəfdən əsir-girovların dəyişdirilməsi məsələləri ilə məşğul olan Voskanyan adlı şəxslə onların yanına gəlmişdir. Mehman səhhətinin pisləşməsindən şikayətləndiyi üçün, Pyer onu Xankəndi şəhərindəki uşaq xəstəxanasına aparmışdır. Həmin vaxt orada ondan başqa altı azərbaycanlı əsir-girov saxlanılırmış. M.Mirzəyev 1995-ci ilin sentyabr ayının 13-nə kimi uşaq xəstəxanasında müalicə olunduqdan sonra Şuşa həbsxanasına köçürülmüşdür. Həbsxanada o, 1996-cı ilin may ayının 9-na kimi saxlanmışdır. Orada ermənilər gün ərzində bir neçə dəfə müntəzəm olaraq azərbaycanlı əsir-girovları dəmir parçaları, avtomatın qundağı ilə döymüş, qış vaxtı şaxtalı havada qarın üstündə saatlarla saxlamış, gecələr it kimi hürməyə məcbur etmişlər. Ən ağır işlərə cəlb edilən azərbaycanlı əsir-girovlar qul kimi sutkanın böyük hissəsini işlədilmiş, əvəzində isə ac saxlanılmış, bir tikə quru çörəklə qidalanmışlar. Mehman Mirzəyev 10 may 1996-cı il tarixdə əsirlikdən azad edilmişdir.

Misirov Bayram Məmmədhüseyn oğlu – 1951-ci ildə Azərbaycan Respublikası Ağdam rayonu, Gülablı kəndində doğulmuşdur. 3 sentyabr 1990-cı il tarixdə girov götürülmüş, 27 sentyabr 1990-cı il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Münaqişənin ilk illərində Füzuli rayonundan Ağdam rayonuna gedərkən, həmin dövrdə Xocavənd rayonu Partiya Komitəsinin ikinci katibi işləmiş Arif Əliyevlə birlikdə Xocavənd yolunda girov götürülmüş, müxtəlif yerlərdə saxlanılaraq erməni terrorçu-quldur dəstələri və mülki ermənilər tərəfindən dəhşətli işgəncələrə məruz qalmışlar. Ermənilər onları daş, ağac, dəmir parçası və armaturla möhkəm döymüş, sonra girovları ayrı-ayrı istiqamətlərdə aparmışlar. Onu Xocavənddə yerləşən karxananın binasına aparıb, təkrar möhkəm döymüş və dəmir barmaqlıqlı bir otağa salmışlar. Bayrama iki gün ərzində ağır işgəncələr vermiş, dişlərini kəlbətinlə çıxarmış, əlləri bağlı vəziyyətdə ac-susuz saxlamışlar. Sonra Xocavənd rayonunun Sos kəndinə, Arif Əliyevin saxlanıldığı zirzəmiyə salmışlar. Quldur dəstəsinin üzvləri, eləcə də mülki erməni əhali tərəfindən ağır işgəncələrə məruz qalmış, vəhşicəsinə döyülmüş, ac-susuz saxlanılmışlar. Oradan girovları Xocavənd rayonu ərazisindəki meşəyə aparıb əlləri və ayaqları bağlı halda yenə də avtomatın qundağı və təpiklə huşlarını itirənədək döymüşlər. Meşədə 3-4 gün saxladıqdan sonra girovları rayonun Çartaz kəndinin girişində yerləşən kilsəyə aparan ermənilər Bərdə rayonundan olan daha iki azərbaycanlı girov – Baxşəliyev Əmirxan Teymur oğlu və Ələkbərov Xasay Surxay oğlunu da ora gətirmişlər. Kilsədə girovlara işgəncələr vermiş, bir gündən sonra Bayramı və Arifi yenidən meşəyə aparmışlar. Girovlara özlərinə qəbir qazdırmış, döymüş və alçaltmışlar. Girovluqda saxlandığı

müddətdə verilən işgəncələr nəticəsində onurğa sümüyü və ayaqları zədələndiyindən hazırda əlildir. Bayram Misirov 27 sentyabr 1990-cı il tarixdə girovluqdan azad edilmişdir.

Muradəliyev Ağamir Əzizullah oğlu – 1975-ci ildə Azərbaycan Respublikası Qusar rayonunda doğulmuşdur. 25 may 1998-ci il tarixdə əsir götürülmüş, 18 iyul 2000-ci il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Hərbi xidmətdə olarkən, Füzuli rayonunun Alxanlı kəndi ərazisində Ermənistan hərbçiləri tərəfindən əsir götürülən A.Muradəliyev Xankəndi şəhərində "təhlükəsizlik idarəsi"nin təcridxanasında və Şuşa həbsxanasında saxlanılmışdır. Əsirlikdə olarkən, Ermənistan hərbçiləri onu rezin dəyənəklə döyüb sağ qolunu sındırmışlar. Uzunboğaz çəkmələrlə döydüklərindən, başında iri yaralar əmələ gəlmişdir. Bir dəfə dişini ağrıkəsici iynəsiz çəkmiş, digər bir halda isə çürük dişin əvəzinə sağlam dişini çəkib, vaxtı keçmiş dərmanla "müalicə" etmişlər. Nəticədə boğazında şiş əmələ gəlmişdir. Erməni həkim şişi müalicə etmək adı ilə qəsdən 6 dəfə bıçaqla kəsmişdir. Ağamirin əsirlikdə sındırılmış qolu əyri bitdiyi üçün funksiyasını itirmişdir. Ağamir Muradəliyev 18 iyul 2000-ci il tarixdə azad edilmişdir.

Muradova Səlimə Mərdəli qızı – 1973-cü ildə Azərbaycan Respublikası Xocalı şəhərində doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 28 fevral 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Xocalı şəhəri Ermənistan hərbçiləri tərəfindən işğal edilərkən, Səlimə Muradova ailə üzvləri ilə birlikdə qonşuları Güləli Binəliyevin həyətində olan zirzəmidə gizlənmişlər. Onları və digər zirzəmilərdə gizlənmiş, əsasən, Ahıska türklərindən ibarət əhalini girov götürmüş, əvvəlcə bir binaya toplayıb döymüş, əllərində və üstlərində olan qiymətli əşyaları almış, sonra onlara işgəncə verə-verə Xankəndi şəhərinə piyada aparıb, ac-susuz saxlandıqları üç gün ərzində də ağır işgəncələr vermişlər. Girov götürülərkən vəhşicəsinə döyülüb naməlum istiqamətdə aparılan bir neçə nəfər barədə indiyədək məlumat yoxdur.

Musayev Azər Məhəmməd oğlu – 1969-cu ildə Azərbaycan Respublikası Zəngilan rayonunda doğulmuşdur. 5 oktyabr 1990-cı il tarixdə girov götürülmüş, 7 oktyabr 1990-cı il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1990-cı ilin oktyabr ayının 5-də Zəngilan rayonu, Seyidlər kəndinin üç sakini ilə birlikdə Ermənistan Respublikasının Qafan rayonunun Heyrək kəndi ərazisində ermənilər tərəfindən girov götürülmüşlər. Girov götürüləndə müqavimət göstərmiş və silahlı ermənilərlə əlbəyaxa olmuşdur. Bu zaman büdrəyib yerə yıxıldığından, ermənilər təpiklə, avtomatın qundağı ilə onun başına, boynuna, sifətinə zərbələr endirmişlər. Girov götürdükdən sonra bıçaqla Azərin kürək nahiyəsinə üç zərbə endirmiş, siqareti yandırıb kürəyinə basmışlar. Yara izləri indiyə kimi onun bədənində qalır. Azər Musayevin həmkəndliləri də ermənilər tərəfindən döyülmüş və işgəncələrə məruz qalmışlar. Onlar Nuriyev Nurəddin Xıdır oğlunun baş nahiyəsinə küt alətlə, avtomatın qundağı ilə zərbələr endirmişlər. Məmmədov Ramiz Məmməd oğlunu isə döyməklə bərabər mənəvi işgəncələr vermiş, körpünün üstündən atmaq və öldürməklə hədələmişlər. 7 oktyabr

1990-cı il tarixdə Azər Musayev digər həmkəndliləri ilə birlikdə Zəngilan rayonunun Seyidlər kəndi ilə Qafan rayonu, Qaraçimən kəndinin sərhədində girovluqdan azad edilmişdir.

Musayev İdris Göyərçin oğlu – 1974-cü ildə Azərbaycan Respublikası Şəki rayonunda doğulmuşdur. 16 iyun 1993-cü il tarixdə əsir götürülmüş, 26 dekabr 1993-cü il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ağdam rayonunun Xaçındərbətli kəndinin ərazisində gedən döyüşlər zamanı mühasirəyə düşmüş və 13 nəfər döyüş yoldaşı ilə birlikdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Əsirləri döyə-döyə müharibədən və işğaldan əvvəl Şuşa şəhərində mövcud olmuş istirahət bazasında yerləşən alaya aparmışlar. Həmin dövrdə alay komandiri Vaço, qərargah rəisi isə Seqo adlı Ermənistan hərbçiləri olmuşdur. Alayda saxlanılarkən, erməni hərbçiləri əsirləri, əsasən, gündüzlər evlərinə aparıb ac-susuz işlətmiş, axşamlar geri qaytarmışlar. Gecələr erməni nəzarətçilər onları döyüb işgəncələr vermişlər. Alay komandirinin təxminən 25-26 yaşlarında, idmançı görkəmli bacısı oğlu Aram əsirlərə daha çox işgəncə vermişdir. Rusiyada böyüdüyü üçün erməni dilində zəif danışan Aram, boksçu olduğundan əsirlərin gicgah nahiyəsindən ağır zərbələr endirməklə yerə yıxılanadək döymüşdür. O, bütün əsirləri hər gün döyüb işgəncələr vermişdir.

Musayev İdris Göyərçin oğlu 26 dekabr 1993-cü il tarixdə əsirlikdən azad edilmişdir.

Musayev Qamboy Mütəllim oğlu – 1935-ci ildə Azərbaycan Respublikası Laçın rayonunda doğulmuşdur. 1992-ci ilin may ayının 18-də girov götürülmüş, 1993-cü ilin mart ayında azad olunmuşdur. İfadəsində bildirmişdir:

Laçın rayonunun Ermənistan hərbçiləri tərəfindən işğalı zamanı girov götürülən Qamboy Musayev Xankəndi şəhərində, Ermənistanın Artaşat və Gorus rayonlarında saxlanılmışdır. 1992-ci ildə Gorus həbsxanasında saxlanıldığı müddətdə ermənilər onu dəfələrlə avtomatın qundağı və lüləsi ilə döymüşlər. 1993-cü ildə Artaşat rayonunda saxlanıldığı müddətdə də Ermənistan hərbçiləri tərəfindən müntəzəm olaraq döyülmüş və işgəncələrə məruz qalmışdır. Xankəndi həbsxanasında onunla birlikdə saxlanılan təxminən 60-70 yaşlı Müseyib adlı girov Şuşa şəhəri işğal olunan zaman Ermənistan hərbçilərinin onu traktorun arxasına bağlayaraq yerlə sürüdüyünü söyləmişdir.

Musayev Samir Əlixan oğlu – 1986-cı ildə Azərbaycan Respublikası Xocalı şəhərində doğulmuşdur. 1992-ci ilin fevral ayının 26-da girov götürülmüş, fevral ayının 28-də azad olunmuşdur. İfadəsində bildirmişdir:

1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə Xocalı şəhəri Ermənistan hərbçiləri tərəfindən işğal olunan zaman 6 yaşlı Samir ailə üzvləri ilə birlikdə evlərində olmuşdur. Erməni hərbçilər onların evlərinə basqın edib, əvvəlcə onun atasını girov götürüb həyətə çıxarmış, bu zaman atasının qışqırığını və güllə səsləri eşitmişdir. Sonradan atasına əzab verərək başını kəsdiklərini öyrənmişdir. Ermənistan hərbçiləri şəhəri işğal etdiklərindən anası ilə birlikdə evdən qaçmaq istəyərkən, onlar da girov götürülmüşdür. Anası onu və qardaşı Sabiri üşüməsinlər deyə adyala büksə də, erməni hərbçilər həmin adyalları da uşaqların əllərindən almışlar. Anası, İbahimova Fatma

Mədət qızını girov götürən erməni hərbçilər onu naməlum istiqamətdə aparmışlar. Samir bu günədək anası barədə dəqiq məlumat ala bilməmişdir. Onu və qardaşı Sabiri girovluqdan atalarının dostu olmuş Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırov qurtarmışdır.

Mustafayev Afər Mustafa oğlu – 1969-cu ildə Azərbaycan Respublikası Qax rayonunda doğulmuşdur. 28 fevral 1994-cü il tarixdə əsir götürülmüş, 12 may 1995-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonunun müdafiəsi zamanı gedən döyüşlərdə Murovdağ yüksəkliyində Neftçala rayonundan olan döyüş yoldaşı Xankişi Qafarovla birlikdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Ermənilər onları soyundurub divara söykəmiş, əvvəlcə başlarını kəsmək istəsələr də, sonra fikirlərindən daşınıb, əllərini arxadan bağlayıb maşınla Yerevan şəhərinə aparmışlar. Əsirləri Yerevanda bir məktəbin həyətində düşürən erməni hərbçilər onları eksponat kimi nümayiş etdirib məktəblilərə göstərmiş, "Bunlar sizin düşmənlərinizdir", – demişlər. Məktəbli uşaqlar azərbaycanlı əsirlərin üstünə tüpürüb təpikləyərək döymüşlər. Bundan sonra onları aparıb qaranlıq zirzəmiyə salmış və dörd gün orada saxlamışlar. Bu müddətdə əsirləri mütəmadi işgəncələrə məruz qoymuş və döymüşlər. Sorğu-sual zamanı Afərin kürəyinə avtomatın lüləsini dirəyib zabit olduğunu boynuna almasını tələb etmiş, əks təqdirdə, öldürəcəkləri ilə hədələmişlər. Erməni hərbçilər onu Azərbaycanda əsir saxlanılan bir erməni zabiti ilə dəyişmək niyyətində olduqlarını söyləmişlər. Ancaq sıravi əsgər olduğunu bildirdiyi üçün, cavabından narazı qalan komandir onu vəhşicəsinə döymüşdür. Sonra ermənilər onun əllərini bağlayıb Ermənistan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin (MTN) təcridxanasına aparmışlar. Orada saxlanılarkən, bir dəfə jurnalistlər əsirləri danışdırıb səslərini lentə almışlar. Hərbi əsirlərdən orada onlara yaxşı baxılması, Qarabağın Ermənistana məxsus olması və Azərbaycanın yürütdüyü siyasəti pisləməyi tələb etmişlər. Bütün bunları söyləməyəcəkləri təqdirdə onları döyəcəkləri, qulaqlarını kəsəcəkləri ilə hədələmişlər.

1994-cü ilin aprel ayında onu 27 nəfər azərbaycanlı əsirin saxlanıldığı Ermənistan Respublikasının Leninakan rayonunda yerləşən Hərbi Polisə aparmışlar. Saxlanma şəraiti çox ağır olan təcridxanada əsirləri hər gün döymüşlər. Hərbi Polisdə o, ermənilərin əsirləri bir-biri ilə cinsi əlaqəyə girməyə məcbur etdiklərinin şahidi olmuşdur. Bir il ərzində cəmi üç dəfə yuyunmağa şərait yaratmışlar. Ac-susuz saxlanılan əsirlərə Vartan adlı erməni bəzən yemək gətirsə də, nəzarətçilər yeməyin yarısını özlərinə götürürmüş. 6 aprel 1995-ci il tarixdə onu yenidən Yerevan şəhərində yerləşən MTN-in təcridxanasına qaytarmışlar. Orada nəzarətçilər mütəmadi olaraq əsirləri kameradan çıxarıb müxtəlif üsullarla döymüş, taqətdən düşdükdən sonra yenidən kameraya qaytarmışlar. Ermənistan hərbçiləri əsirləri döyüb, yerə uzatmış və təpikləyib bellərində gəzmiş, birbirinə qarşı qeyri-əxlaqi hərəkətlər etməyə məcbur etmişlər. Mustafayev Afər Mustafa oğlu 12 may 1995-ci ildə əsirlikdən azad edilmişdir.

Mustafayev Eyvaz Yusif oğlu – 1948-ci ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunda doğulmuşdur. 4 aprel 1993-cü il tarixdə girov götürülmüş, 4 iyun 1993-cü ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonu Ermənistan hərbi birləşmələri tərəfindən işğal edilərkən, ailə üzvləri və qonşuları ilə birlikdə girov götürülmüşdür. Girov götürdükdən sonra erməni hərbçilər Eyvazın həyat yoldaşı – İsayeva Sənəm Həsən qızını qətlə yetirmiş, girovların sənədlərini və pullarını əllərindən almış, özlərini isə birbaşa Yerevan şəhərinə aparmışlar. Saxlanıldıqları yerdə təxminən 20-25 əsir-girov olmuşdur. Onları şəraitsiz yerdə ac-susuz saxlayıb, mütəmadi olaraq döymüş və işgəncələrə məruz qoymuşlar. Mustafayev Eyvaz Yusif oğlu 1993-cü ilin iyun ayının 4-də girovluqdan azad edilmişdir.

Muxtarov Əvəz Şahmar oğlu – 1955-ci ildə Azərbaycan Respublikası Qubadlı rayonunun Xocik kəndində doğulmuşdur. 30 avqust 1993-cü il tarixdə girov götürülmüş, 11 dekabr 1995-ci il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ermənistan hərbi birləşmələri tərəfindən Qubadlı rayonunun Xocik kəndinin işğalı zamanı girov götürülən Əvəz Muxtarov girovluqda olduğu müddətdə erməni hərbçiləri tərəfindən fiziki, mənəvi işgəncələrə məruz qalmış, digər azərbaycanlı əsir-girovlara qarşı törədilmiş vəhşiliklərin şahidi olmuşdur. Martuni alayının komandiri Mosi, xüsusi təyinatlı dəstənin üzvləri, Xankəndi müvəqqəti saxlama təcridxanasının nəzarətçiləri – balaca və böyük Jiriklər, Karen, Tolik, Şuşa həbsxanasının rəisi Vaço, nəzarətçilər – Qarik, Karen, Slavik və Xocavənd rayonunun Mısmına kəndində yerləşən kolxozun sədri Armais əsir-girovlara daha çox işgəncə vermişlər. Bədənlərini yandırıb yerinə duz tökmüş, qızdırılmış dəmirlə bədənlərinə xaç işarəsi basmışlar. 1993-cü ilin avqust ayının 31-də onunla birlikdə girov götürülmüş bacısı oğlu Hüseynov Rövşənə də eyni işgəncələri vermiş, Cəbrayıl rayonundan olan Mahmudov Nadir Sərməst oğlunun belinə qızmar şiş ilə xaç şəkli çəkmiş, Ömər adlı azərbaycanlı əsirin isə ağzına köz salmışlar. Bütün bu vəhşiliklər Nelsonun, Mosinin və Vaçonun əmrləri əsasında yerinə yetirilmişdir. 1994-cü ilin sentyabr ayında Zaqatala rayonundan olan Zeynal adlı əsiri Xankəndi müvəqqəti saxlama təcridxanasında erməni nəzarətçilər döyüb qətlə yetirmişlər. Azərbaycanlı əsir-girovlardan müxtəlif silahların sınaqdan keçirilməsində istifadə edən erməni hərbçilər Qubadlı rayonundan olan Eyvaz adlı girova Şuşa şəhərinin Malıbəyli kəndində şüa vermişlər. Ermənilər Eyvaz kişini Xankəndi müvəqqəti saxlama təcridxanasının 4-cü mərtəbəsində, BQXK-nın nümayəndələrindən gizli saxlamış və eksperimentlərdə istifadə etmişlər.

Əvəz Muxtarov Yardımlı rayon sakini olmuş Heydər Heydərovun 30 dekabr 1994-cü il tarixdə Karo adlı erməninin rəhbərlik etdiyi Şuşa həbsxanasında Karen və Saşa adlı ermənilər tərəfindən döyülüb öldürülməsinin şahidi olmuşdur. Əsir-girovların və meyitlərin dəyişdirilməsi ilə məşğul olan Albert Voskanyan, əvvəlcə H.Heydərovun meyitinin basdırılmasına razılıq versə də, basdırılma gecikdiyi üçün cəsəd həbsxanada siçanlar tərəfindən dağıdılmışdır. Əvəz Muxtarov əslən Zaqatala rayonundan olan azərbaycanlı əsirin 6 sentyabr 1994-cü ildə ermənilər tərəfindən döyülüb öldürüldüyünü də öz gözləri ilə görmüşdür. Karo Babayan və onun qardaşı Samvel Babayanın rəhbərlik etdiyi bir qrup mafioz dəstə azərbaycanlılara insanlığa sığmayan fiziki və mənəvi işgəncələr vermişlər. Həmin dəstə Yardımlı rayon sakini Nüreddin adlı əsiri 45 dəqiqə fasiləsiz armaturla döymüş, Ağdam rayon sakini Əliağa kişini döyüb dişlərini çıxarmışlar. Xocavənd rayonunda komendant işləmiş Karo Ermənistandan gəlmiş iki qonağın yanında "Türkü döyməkdən ləzzət alıram", – deyib, Ağdam rayon sakini Mirzə kişini

huşunu itirənədək döymüşdür. Mirzə kişi 15 gün özünə gələ bilməmişdir. Bir dəfə erməni hərbçilər Əvəzi işğal etdikləri Şuşa şəhərində azərbaycanlı əsir-girovların saxlanıldığı həbsxananın həyətində mayor Şahnazaryanın abidəsi önünə gətirərək "Şahnazaryanı necə öldürmüsünüzsə, sən də elə ölməlisən", – deyərək onu ölümcül hala düşənədək döymüşlər. Əvəz Füzuli rayon sakini olmuş İlhamın erməni hərbçiləri tərəfindən döyülərək öldürüldüyünün, Cəbrayıl rayon sakini olmuş 2 azərbaycanlı girovun qaçmaq istəyərkən tutulub vəhşicəsinə qətlə yetirildiyinin və bu məlumatların BQXK-dan gizlədildiyinin şahidi olmuşdur.

Xocavənd rayonunda saxlanıldığı altı ay müddətində erməni hərbçilərinin iki azərbaycanlı girov qadını *(adları məlumdur – tərt.)* cinsi istismara məruz qoyduqlarının, digər əsir-girovları bu qadınları və bir-birini zorlamağa məcbur etdiklərini şəxsən görmüş Əvəz Muxtarov 11 dekabr 1995-ci il tarixdə girovluqdan azad edilmişdir.

Mürşüdov Sədrəddin Aslan oğlu – 1978-ci ildə Azərbaycan Respublikası Şəmkir rayonunda doğulmuşdur. 2 fevral 1997-ci il tarixdə əsir götürülmüş, 25 oktyabr 1999-cu il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Hərbi xidmətdə olarkən, Füzuli rayonu ərazisində Ermənistan hərbçiləri tərəfindən əsir götürülüb tanımadığı yerə aparılmış və bir binada otağa salınıb möhkəm döyülmüşdür. Ondan xidmət etdiyi bölüyün briqada ilə əlaqə kodunu soruşmuşlar. Ancaq o, kodu bilmədiyini söyləmişdir. Həmin gün Sədrəddini Xankəndi şəhərinə aparıb, "təhlükəsizlik idarəsi"nin təcridxanasına salmışlar. Erməni nəzarətçilər hər gün onu və onunla bir kamerada saxlanılan digər əsirləri döyüb, dözülməz əzab-əziyyətlər vermişlər. Hətta bir dəfə onu şüşə qırıntılarını udmağa məcbur etmişlər. Müxtəlif vaxtlarda Koçaryan Viktor, Arutunyan Sergey, Qasparyan Yuriy, Vaqram, Artur, Lyova, Armen adlı və Serkina soyadlı ermənilər əsirləri sorğu-sual etmişlər. Vaqram adlı erməni zabit dəfələrlə ona əməkdaşlıq təklif etmiş, razılıq vermədiyi üçün adları qeyd olunan şəxslər tərəfindən işgəncələrə məruz qalmışdır. Vaqram işgəncələrdə istifadə etdiyi dəyənək qırılana qədər Sədrəddin Mürşüdovu döymüşdür. Qəddarlığı ilə "təhlükəsizlik idarəsi"nin zabitləri arasında seçilən Koçaryan Viktor da mütəmadi olaraq əsir-girovlara "baş çəkib" onları döymüşdür. Erməni nəzarətçilər BQXK nümayəndələrinin gətirdikləri ərzaq məhsullarını və dərman preparatlarını əsir-girovların əllərindən almış, özlərini isə döymüşlər. Onu da digər əsirlərlə birlikdə hər gün Ağdam və Xocalı şəhərinə aparıb, azərbaycanlıların evlərinin sökülüb, tikinti materiallarının daşınmasında istifadə etmiş, bununla bərabər, əsasən, Aşot, Vladik, Seyran adlı erməni nəzarətçilər və mayor rütbəsində olan Sergey adlı şəxs tərəfindən müntəzəm olaraq döyülüb, işgəncələr verilmişdir.

Mürşüdov Sədrəddin Aslan oğlu, 25 oktyabr 1999-cu ildə əsirlikdən azad edilmişdir.

Nadirov Bayram Cahangir oğlu – 1965-ci ildə Azərbaycan Respublikası, Qax rayonunun Zəyəm kəndində doğulmuşdur. 17 fevral 1992-ci il tarixdə əsir götürülmüş, 29 mart 1992-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

17 fevral 1992-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndinin müdafiəsi zamanı yerli əhali ilə birlikdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Erməni hərbçilər onları "KAMAZ" markalı yük maşınına mindirib, Xocavənd rayonunun mərkəzinə doğru aparmışlar. Yolun yarısında onlarla əsir-girovu düşürüb güllələmişlər.

Sonra isə əsir-girovların gözlərinin qarşısında erməni hərbçiləri Bakı şəhəri, Suraxanı rayonu, Əmircan qəsəbəsindən olan Malik adlı hərbçinin başını kəsmişlər. Yolda daha bir azərbaycanlını güllələyən erməni hərbçilər Bayramı tabeçiliyində olduğu hərbi hissələrin yeri, ordunun tərkibi, zirehli texnikanın sayı və harada yerləşməsi barədə sorğu-sual etmiş, döyüb işgəncələr vermişlər. Bayrama ailə üzvlərindən birini girov qoyaraq, Şuşa şəhərinə getməsini və "qrad" qurğusunu partlatmasını təklif etmişlər. Təklifi rədd etdiyinə görə ona torpaq yedirdib, möhkəm döymüşlər. Bayram Nadirov 29 mart 1992-ci il tarixdə əsirlikdən azad edilmişdir.

Nağıyev Bəxtiyar Bayram oğlu – 1975-ci ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. 5 may 1994-cü il tarixdə əsir götürülmüş, 22 mart 1996-cı il tarixdə azad olmuşdur. İfadəsində bildirmişdir:

1994-cü ilin may ayında Tərtər rayonunun Seysulan kəndi uğrunda gedən döyüşlər zamanı kontuziya alaraq, Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüş, işğal edilmiş Şuşa şəhərində yerləşən alayın təcridxanasına salınmışdır. Orada saxlanıldığı müddətdə gün ərzində bir neçə dəfə döyülüb işgəncələrə məruz qalmışdır. Əsir-girovlara ən çox işgəncə verən alay komandiri Vaçaqanın qohumu Aram, Parul və Arnold adlı erməni nəzarətçilər olmuşlar. Nəzarətçilər əsirləri rezin və dəmir dəyənəklərlə və müxtəlif küt alətlərlə döymüş, başlarında su şüşələri sındırmış, dəmir çubuqlarla zərbələr endirmişlər. Gecə-gündüz qul kimi işlətdikləri əsirlərə gündə bir dəfə qaynadılmış buğda vermiş, soyuq kameralarda beton döşəmənin üstündə saxlamışlar. Hər gün kameraya daxil olan istənilən şəxs əsir-girovları taqətdən düşənə qədər döymüşdür. Diz qapağından yaralı olan əsir Vüqar Məmmədova heç bir güzəşt etmədən, digər əsirlərlə bərabər işlətdiklərindən onun ayağı şişmişdir. Növbəti gün erməni nəzarətçi işləməyə gedə bilməyəcəyini söyləyən Vüqara "Bizdə ölülər də işləyir", – deyib avtomatın qundağı ilə onu vəhşicəsinə döymüşdür. Nəzarətçilər mütəmadi olaraq itləri əsirlərin üstlərinə buraxmış, bir-birini döyməyə məcbur etmişlər. 10-13 yaşlarında olan erməni uşaqlarını ora gətirən erməni hərbçilər onlara "Azərbaycanlılar sənin düşmənindir", – deyib, əllərinə dəmir parçaları verərək əsirləri döydürmüşlər. Şuşa şəhərində yerləşən avtobazada işləməyə aparılan Bəxtiyar Nağıyev verilən işgəncələrdən bezib, üç nəfər azərbaycanlı əsirlə birlikdə erməni əsirliyindən qaçmaq qərarına gəlmişlər. Onlar 1996-cı ilin mart ayında erməni nəzarətçini tərksilah edib qaçmış, yeddi gün yol qət etdikdən sonra Azərbaycan ordusunun mövqelərinə çatmış və əsirlikdən xilas olmuşlar.

Nağıyev Hüseyn Behbud oğlu – 1926-cı ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 27 fevral 1992-ci il tarixdə girov götürülmüş, 30 mart 1992-ci il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ermənilərin Xocalıya hücumu zamanı şəhərin kənarında yerləşən evində oturmuş ikinci dünya müharibəsinin iştirakçısı Hüseyn Nağıyev güclü atışma səslərini eşidib həyətə çıxmış və şəhərin mərkəzinə tərəf getməyə başlamışdır. Həmin vaxt müxtəlif istiqamətlərdən şəhərə daxil olmuş Ermənistan ordusu dinc əhaliyə qarşı qətliam törətdikləri üçün hər tərəfdən fəryad səsləri eşidən H.Nağıyev dəstələrlə xilas olmağa çalışan əhaliyə qoşulub qaçmışdır. Şəhər sakinlərinin bir qismi atəş altında qaçaraq bir az aralıda yerləşən beşmərtəbəli binanın zirzəmisinə yığışmışdır. Ertəsi günədək

zirzəmidə gizlənmiş, sonra orada qalmağın mənasız olduğunu anlayıb, axşam qaranlıq düşəndə meşəyə qaçmışlar. Güclü şaxta olduğundan, gecəni meşədə keçirən əhalinin bir qismi donub ölmüşdür. İzlərinə düşən erməni hərbçilər onları tapıb mühasirəyə alaraq, girov götürmüşlər. Erməni silahlıları dəstədə olan Marış adlı qadının 30 yaşlı oğlu Hüseyni yerindəcə güllələyib öldürmüş, girovların üst-başını axtararaq onlarda olan pul, qızıl-zinət əşyalarını əllərindən almışlar. Sonra onları "KAMAZ" markalı maşının yük yerinə yığıb, Əsgəran rayonunun Milis şöbəsinə aparmışlar. Təzə paltarlarını əllərindən alıb, əvəzində yırtıq, köhnə, çirkli paltarlar vermişlər. Əsgəranda uşaqları və qadınları ayırmışlar. Uzun müddət Bakıda yaşadığı üçün Xocalı sakinlərinin çoxunu tanımayan Nağıyev Hüseyn onlardan yalnız Məmmədov Suren Heydər oğlunu, Abbasov Umudvar Məmmədvəli oğlunu və İbrahim adlı şəxsləri xatırlayır. H.Nağıyev girovların dəhşətli dərəcədə döyüldüklərinin, alçaldıldıqlarının və işgəncələrə məruz qaldıqlarının şahidi olmuşdur. Yaşlı olmasına baxmayaraq, erməni hərbçilər və silahlılar onu da döyüb, qabırğalarını sındırmış, ağzındakı bütün dişlərini əzab verə-verə çıxarmışlar. Əsirləri çılpaq soyundurub, əlləri bağlı halda küncə qoyan erməni hərbçilər, onları yerdə iməkləməyə, cinsiyyət orqanlarını bir-birinin ağzına soxmağa məcbur etmişlər. Gənclərə daha dəhşətli işgəncələr verən ermənilər, hətta onların bədənlərinə su şüşəsi yeritmişlər. Gənclərdən bəziləri işgəncələrə dözməyib ölmüşdür. Onları hər cür təhqirlərə məruz qoymuş, şəxsiyyət və ləyaqətlərini alçaltmışlar. H.Nağıyev döyülməkdən və işgəncələrdən çox vaxt huşsuz vəziyyətdə olsa da, bir çox vəhşiliyin, eləcə də Əsgəran Milis şöbəsində erməni hərbçilər, milis işçiləri və digərləri tərəfindən zorlanmış gənc qızın dayanmadan göz yaşları axıtdığının şahidi olmuşdur. Bir müddət sonra Noraguh kəndinə aparılıb donuz fermasına salınan əsir-girovların dini hisləri də təhqir olunmuşdur. Azərbaycanlılar aprel ayınadək orada zibil içində və işgəncələr altında saxlanılmışlar. Nağıyev Hüseyn 30 mart 1992-ci ildə girovluqdan azad edilmişdir.

Nağıyev Osman Yaqub oğlu – 1977-ci ildə Azərbaycan Respublikası Tovuz rayonunun Əlibəyli kəndində doğulmuşdur. 30 iyun 1994-cü il tarixdə girov götürülmüş, 13 avqust 1994-cü il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Tovuz rayonunun Əlibəyli kəndi istiqamətində Ermənistanla sərhəddə mal-qara otararkən, erməni hərbçiləri tərəfindən girov götürülmüşdür. Həmin vaxt orada olan qonşusu Sadıqov Şamil Əhməd oğlu erməni hərbçilərinə müqavimət göstərdiyi üçün onu özləri ilə apara bilməmişlər. Lakin Ermənistan hərbçiləri Şamilin qulaqlarını kəsmiş, otardığı 56 baş qoyunu da özləri ilə aparmışlar. Girov götürüldükdən sonra O.Nağıyevi Ermənistan Respublikasının Berd rayonunun Movses kəndinə aparmış və hərbi hissədə saxlamışlar. O, briqada komandiri Xaçaturyan Yuriy Qriqoryeviç və onun "kavaler" ləqəbli müavini, eləcə də Robert adlı bölük komandiri tərəfindən sorğu-sual edilmişdir. Sorğu zamanı suallara cavab vermədikdə, erməni hərbçiləri yaşının az olmasına baxmayaraq, onu döymüş, alçaltmış və təhqir etmişlər. Bir erməni zabiti ona rus dilində sual vermiş, rus dilini bilmədiyi üçün cavab verməyən Osmanın başına bıçaqla xəsarət yetirmişdir.

Nağıyev Osman Yaqub oğlu 13 avqust 1994-cü il tarixdə girovluqdan azad edilmişdir.

Nağıyev Seyyur Xanlar oğlu – 1961-ci ildə Azərbaycan Respublikası Xocavənd rayonunun Qaradağlı kəndində doğulmuşdur. 17 fevral 1992-ci il tarixdə girov götürülmüş, 27 mart 1992-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci ilin fevral ayının 17-də Xocavənd rayonunun Qaradağlı kəndi Ermənistan hərbçiləri tərəfindən işğal olunan zaman başından və çənəsindən güllə yarası almış Seyyur Nağıyev kənd sakinləri ilə birlikdə girov götürülmüşdür. Ermənilər kənd əhalisinin evini, avtomobillərini qarət etmiş, qadınlara, uşaqlara, qocalara rəhm etməyib, ağır işgəncələr vermişlər. Girovları maşınlara mindirən erməni hərbçiləri S.Nağıyevin əmisi Dadaşov Eldar İsa oğlunu və kənd sakini Hüseynov Şahmurad Hüseynalı oğlunu maşından endirib, ağac və müxtəlif dəmir əşyalarla döymüş, odlu silahdan atəş açıb hər ikisini qətlə yetirmişlər.

Girovları Xankəndi istiqamətində aparan ermənilər yolda, "Bəylik bağı" adlanan ərazidə maşınlarda olan cavanlara enmək əmri vermişlər. Avtomat və pulemyotlardan atəş açıb onları qətlə yetirmiş, maşınlarda olan qadın, uşaq və qocaları isə bu dəhşətli səhnəni seyr etməyə məcbur etmişlər. Orada 36 nəfərə yaxın dinc sakini qətlə yetirmiş, sağ qalanları yenidən maşınlara mindirib, işğal etdikləri Malıbəyli kəndinə aparmışlar. Orada girovları maşınlardan endirib, Xankəndi şəhərinə qədər döyə-döyə piyada aparmışlar. Kənd sakini, 55 yaşlı Əsədov İmran Hüseyn oğlu yolda ermənilər tərəfindən möhkəm döyüldüyünə görə bir neçə gündən sonra Xankəndi həbsxanasında ölmüşdür. Həbsxanada saxlanıldıqları müddətdə hər gün erməni hərbçiləri kameralara daxil olub əsir-girovları istədikləri qədər döymüş, işgəncələr vermiş və alçaltmışlar. Təxminən 40 gün orada saxlanılan Nağıyev Seyyur Xanlar oğlu 27 mart 1992-ci il tarixdə azad olunmuşdur.

Nağıyeva Əntiqə Dadaş qızı – 1930-cü ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 29 fevral 1992-ci il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ermənistan hərbçiləri tanklar və digər ağır zirehli texnikalarla Xocalı şəhərinə hücum edən zaman Ə.Nağıyeva evində olmuş, dörd oğlu – Füzuli, Eldar, Əlamdar və Etibar isə şəhərin müdafiəsi üçün qurulmuş postlarda dayanmışlar. Hücum başlayanda evdə olan ailə üzvlərini sakitləşdirməyə çalışmış, qonşuya keçib vəziyyəti öyrənmək istərkən oğlu Əlamdar evə daxil olub, təcili şəhəri tərk etməyin vacibliyini bildirmişdir. Hara gedəcəklərini bilməyən dinc əhali xilas olmaq məqsədi ilə dəstələrlə şəhərdən çıxmağa çalışmışdır. Əntiqə və digər ailə üzvləri oğlu Əlamdarın köməyi ilə çaylağa gəlib çıxmış, sonra isə oradan çətinliklə də olsa Kətik meşəsinə girə bilmişlər. Erməni hərbçilərinin əl qumbarası atması nəticəsində meşədə xeyli sayda dinc sakin həlak olmuş, daha bir neçə nəfər isə silahdan açılan atəşlə qətlə yetirilmişdir. Ə.Nağıyeva meşədə Hüseynova Maral Kamil qızının həlak olmasının, Hüseynova Məlahət Gəncalı qızının yaralanmasının, Səlimov Bahadur Mikayıl oğlunun, Səlimov Araz Bahadur oğlunun, Səlimov Mikayıl Bahadur oğlunun, Səlimova Gültəkin Bahadur qızının və Səlimov Tofiq Seydi oğlunun ermənilər tərəfindən güllələnməsinin şahidi olmuşdur. Ermənilər tanklarla yaxınlaşaraq, onları mühasirəyə almış və girov götürmüş, şəhər sakini Quliyev Taleh Zəkara oğlunu avtomatın arxası ilə başından vurub öldürmüşlər. İyirmi nəfərdən artıq şəhər sakini ilə birlikdə Əsgərana aparılan Ə.Nağıyeva orada başqa Xocalı sakinlərinin də girov saxlanıldığını görmüşdür. Əsgəranda saxlanıldıqları iki gün müddətində girovları gün ərzində dəfələrlə döyən ermənilər onları alçaltmış və işgəncələrə məruz qoymuşlar. Ermənilər orada uşaqların göz yaşlarına, qadınların fəryadına əhəmiyyət vermədən hamını döymüş, öldürməklə hədələmişlər. 29 fevral 1992-ci il

tarixdə Ə.Nağıyevanı və oradakı girovların bir hissəsini döyüşdə ölmüş bir neçə erməni hərbçinin meyitləri ilə dəyişdirərək azad etmişlər.

Namazov Lətif Abutalıb oğlu – 1937-ci ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun Bozlu kəndində doğulmuşdur. 1 aprel 1993-cü il tarixdə girov götürülmüş, 8 may 1995-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonu Ermənistan hərbçiləri tərəfindən işğal olunan zaman ailə üzvləri ilə birlikdə girov götürülmüşdür. Erməni hərbçilər onları Kəlbəcər rayonunun Yanşaq kəndinə aparıb, 8 gün saxlamışlar. Hərbçilərin komandiri Qriqoryan Bella Setrakovna adlı erməni qadın olmuşdur. Ermənilər əsir girovları ağac parçaları, avtomatın qundağı, təpik və yumruqla möhkəm döymüş, sonra Lətifi digər kişilərlə birlikdə Şuşa həbsxanasına aparmışlar. Həbsxanada 22 gün saxlanıldıqdan sonra BQXK-nın nümayəndələri onları qeydiyyata almışdır. Şuşa türməsində nəzarətçilər Həmid adlı gənci avtomatla vurub öldürmüş, Cəbrayıl rayonundan olan Mahmudov Nadir Sərməst oğlunu döymüş, bədəninin yan hissəsinə xaç şəklində damğa vurmuşlar. Füzuli rayonundan olan Vaqif Nuxiyevi əvvəlcə möhkəm döymüş, sonra isə soyuducunun içərisinə salıb, təxminən 2 saat 30 dəqiqə orada saxlamışlar. Hadisədən üç gün sonra Vaqif saxlanıldığı Həsənabad kəndində beton döşəməli otaqda ölmüşdür. Vaqifi soyuducunun içinə əvvəllər Beyləqan rayonunda müəllim işləmiş Vanya adlı erməni nəzarətçi salmışdır. Əsir-girovlara işgəncə verən nəzarətçilərdən "balaca Jirik", "böyük Jirik", Meroyan, Samson və Artur adlı ermənilər amansızlıqları ilə digərlərindən seçilmişlər. Şuşa həbsxanasında saxlanılan zaman Ağdam rayonundan olan Ələvsət Əliyevi Albert və Valeri adlı ermənilər ac-susuz saxlamış, üç gün möhkəm döymüşlər. Dördüncü gün Ələvsət həbsxananın həyətində ölmüşdür. Həsənabad kəndindəki istixanada işlədilən zaman isə nəzarətçilər Valeh adlı əsiri özünü öldürmə həddinə çatdırmışlar. Belə ki, Valeh yemək bişirərkən, Arkadi adlı erməni onu yoxlamaq adı ilə yanına getmiş və geri qayıdarkən Valeh olan mətbəxin partladığını görmüşlər. Valeh Ağdamda işlədilən zaman çayın kənarından tapıb gizlətdiyi qumbaranı partladıb özünü öldürmüşdür. Həsənabad kəndində Vanya, Slavik və Andranik adlı erməni nəzarətçilər əsirlərə dəhşətli işgəncələr vermişlər. Vanya və Arkadi əsirləri öldürməklə hədələmiş, tez-tez onların başlarının üstündən avtomatla atəş açıb, mənəvi-psixoloji işgəncələr vermişlər.

Ağdam rayonu Ermənistan ordusu tərəfindən işğal olunarkən əsir götürülmüş 24 nəfəri də Şuşa həbsxanasına gətirmişlər. Əsirlər arasından Ağdam rayonundan Cəbi adlı əsgər ona danışmışdır ki, ermənilər ona dörd litr avtomobil yağı içirtmişlər. Buna görə Cəbi tez-tez qusmağa başlamışdır. Dörd gün sonra Ağdam rayonundan olan həmin əsirləri ermənilər Yerevan şəhərinə aparsalar da, vəziyyəti ağırlaşdığından Lətifi Xankəndi şəhərində yerləşən 38 nəfər əsir-girovun saxlanıldığı uşaq xəstəxanasına aparmışlar. Orada saxlanılan zaman balaca Jirik əsir-girovları yerə tökdüyü şüşə qırıqlarının üstündə ayaqyalın gəzməyə məcbur etmişdir. Lətif Namazov 1995-ci ilin may ayının 8-də 15 nəfər azərbaycanlı əsir-girovla birlikdə Ağdam rayonunun Qərvənd kəndi yaxınlığında səkkiz erməni hərbçi ilə dəyişdirilərək azad edilmişdir.

Namazov Natiq Rahib oğlu – 1963-cü ildə Azərbaycan Respublikası Bakı şəhərinin Nizami rayonunda doğulmuşdur. 2 yanvar 1994-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Üç nəfər əsgər yoldaşı ilə birlikdə məzuniyyətdən qayıdarkən, Ağdam rayonunun Qərvənd kəndi yaxınlığında Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşlər. Ermənilər onları soyundurub qarın üstünə uzatmış, bir müddət belə vəziyyətdə saxladıqdan sonra işğal etdikləri Ağdam şəhərindəki həbsxanaya aparmışlar. Natiq və yoldaşları orada birgə xidmət etdikləri tankçıların yaralı və yanmış vəziyyətdə əsirlikdə olduqlarını görmüşlər. Sonra erməni hərbçiləri onları əlləri bağlı vəziyyətdə Xankəndi şəhərində yerləşən müvəqqəti saxlama təcridxanasına aparmışlar. Təcridxanada Armen, Sosun və Qarik adlı erməni nəzarətçilər əsirləri dəyənək, "makarov" tipli tapançanın dəstəyi və təpiklə döymüşlər. Mülki ermənilərdən əsir-girovları döymək istəyənləri nəzarətçilər həvəslə içəri buraxıb, ağıllarına gələn müxtəlif üsullarla əsir-girovlara işgəncələr vermələrinə şərait yaradıb, tamaşa etmişlər. Əsir-girovlara ən çox işgəncə verən nəzarətçilər Armen, "Rus" ləqəbli baş leytenant Karen, Sosun, komendantlığın rəisi Aşot adlı ermənilər olmuşdur. İşğal edilmiş Azərbaycan ərazilərində işlədilən zaman iki əsirin qaçmasına kömək etdikləri üçün, ermənilər Natiqi, Vaqifi və Camalı məftil və dəyənəklə möhkəm döydükdən sonra Vaqifi donuzxanaya salmış, Camalı isə müvəqqəti saxlama təcridxanasına aparmışlar. Təcridxanada vəhşicəsinə döyülməsi nəticəsində ölmüş Vaqifin cəsədini Natiq və İqor adlı əsirlər Şuşa şəhərinin Malıbəyli kəndindəki azərbaycanlı qəbiristanlığında basdırmışlar. Səhər tezdən isə ermənilər Camalın meyitini gətirmişlər. Təcridxanada Armen, Karen, Murad, Sosun adlı erməni nəzarətçilər Camalı döyüb öldürmüşlər. Camalın da cəsədini Vaqifin yanında basdırmışlar. Təcridxananın qarajında işləyərkən, Armen adlı nəzarətçi Natiqi küt alətlə vəhşicəsinə döymüşdür. Nəticədə Natiq bir neçə gün yoldaşlarının köməyi olmadan yataqdan qalxa bilməmişdir. Sonra BQXK-nın nümayəndələri onu xəstəxanaya aparmış, rentgenə salmışlar. Müayinə zamanı onun burnunun sındığı, sol əlinin qırıldığı və kəllə-beyin travması aldığı məlum olmuşdur. Natiq Namazov 10 may 1996-cı il tarixdə əsirlikdən azad edilmişdir.

Nəbiyev Cavad Qurban oğlu – 1943-cü ildə Naxçıvan Muxtar Respublikası, Ordubad rayonu, Dəstə kəndində doğulmuşdur. 5 dekabr 1991-ci il tarixdə girov götürülmüş, 13 dekabr 1991-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1991-ci ilin dekabr ayının 5-də 12 nəfər iş yoldaşı ilə birlikdə xidmət sahələrinə aid dəmiryolunda təmir işləri apararkən, Mehri dəmiryol stansiyasının yaxınlığında, nahar fasiləsində erməni terrorçu-quldur dəstəsi onlara hücum etmiş, yeməklərini təpiklə vurub-dağıdaraq döymüş və girov götürüb, Ermənistan Respublikasının Qacaran rayonuna aparmışlar. Oraya çatan kimi aralarında qadınların da olduğu mülki ermənilər girovlara hücum edərək, ağac parçası, küt alət, təpik və yumruqla onları döymüş, üzlərinə tüpürmüş və digər alçaldıcı hərəkətlərlə təhqir etmişlər. Sonra girovları bir binaya aparıb dəmir barmaqlıqlarla bərkidilmiş otağa salmış, bir-bir sorğu-suala çəkmişlər. Erməni silahlıları onların bütün sənədlərini və pullarını əllərindən almış, özlərini isə təkrar-təkrar möhkəm döymüşlər. Girovları maşınlara mindirib dağlıq və meşəlik ərazidə yerləşən hərbi bazalarına aparan ermənilər onları qaranlıq, nəm və beton döşəməli zirzəmiyə salmışlar. Girovları vaxtaşırı zirzəmidən çıxarıb döymüşlər. Cavadın başından yapışıb divara çırparkən o, huşunu itirmiş, onun üstünə buzlu su töküb ayıltmışlar. Girovları bazada iki gün vəhşicəsinə işgəncələr verərək saxladıqdan sonra, gecə yarısı döyə-döyə zirzəmidən bayıra çıxarmış və şaxtadan buz bağlamış asfaltın üstündə

uzanmağı əmr etmişlər. Yerdə uzanmış vəziyyətdə girovların əllərini arxadan məftillə bağlamış, başlarını buza söykəməyə məcbur etmişlər. Döyülməkdən və halsızlıqdan artıq bir-birini tanımayan girovlara "qalx" əmri verildikdə, əlləri arxadan bağlı olduğundan və üzü üstə uzandıqlarından çox çətinliklə ayağa qalxmışlar. Onları yenidən döyüb, "UAZ" markalı avtomaşının yük hissəsində, üst-üstə yığmış və xeyli yol getdikdən sonra Qafan rayonunun Milis şöbəsinə gətirmişlər. Cavad Nəbiyev digər azərbaycanlı girovlarla birlikdə 13 dekabr 1991-ci il tarixdə azad edilmişdir.

Nəcəfov Etibar Əli oğlu – 1964-cü ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə əsir götürülmüş, 8 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci il fevral ayının 25-də, saat 23:00 radələrində Xocalı şəhəri Ermənistan ordusu tərəfindən dörd tərəfdən atəşə tutulmuşdur. Yerli özünümüdafiə dəstəsinin tərkibində döyüşən və həmin vaxt müdafiə postunda olan Etibar Nəcəfov atışma zamanı rabitə qurğusunda rus dilində "Sanya, biz əməliyyata başladıq" ifadəsini eşitmiş və ermənilərin Xocalıya hücum əməliyyatına başladıqlarını anlamışdır. Onunla postda olan İlyasov Əhməd bir hərbçini güllə ilə başından vurmuş, yaxınlaşanda onun zənci olduğunu görmüşlər. Onun saçları qıvrım, silahı, geyimi və digər sursatları isə xarici ölkələrə aid olmuşdur. Bu vaxt E.Nəcəfov qarnından güllə yarası almış və onu qan aparmışdır. Döyüş yoldaşları – Əhməd və Soltan onun qoluna girib özləri ilə aparmağa çalışmışlar. Onlar mühasirədən çıxmağa cəhd etsələr də, çox keçmədən əsir götürülmüşlər. Əsirləri Həmid adlı Xocalı şəhər sakininin həyətinə aparan ermənilərdən biri onlara yaxınlaşıb, "Xocalının alınması şərəfinə bir türk qurban kəsilməlidir", – demişdir. Həmin erməni yerdə oturan Ahıska türkü Əhməddən qalxmağı tələb etmiş, Əhməd ayağa qalxanda erməni əlindəki avtomatın qundağı ilə onun gicgahından vurmuşdur. Əhmədin başı yarılmış, erməni bir də vurub onu yerə yıxmışdır. Əhməd yıxılan kimi iki erməni onun ayaqlarının üstünə çıxmış, üçüncüsü isə xəncərlə Əhmədin başını bədənindən ayırmış, qulağından tutaraq başı 1-2 metr aralıya tullayıb "türkün başını xəncərlə belə kəsərlər", – demişdir. Əhmədin başı ilə bədəninin bir-birindən aralı vəziyyətdə atılıb-düşdüyü dəhşətli səhnə girov götürülmüş əhalinin gözləri qarşısında baş vermişdir. Etibar Nəcəfov 8 mart 1992-ci il tarixdə əsirlikdən azad edilmişdir.

Nəcəfov Vüqar Əli oğlu – 1971-ci ildə Ermənistan Respublikasının Əzizbəyov rayonunda doğulmuşdur. Ermənistan rəhbərliyinin apardığı etnik təmizləmə siyasəti nəticəsində digər azərbaycanlılar kimi, Vüqar Nəcəfov da tarixi yurdundan qovulmuş və Azərbaycan Respublikasının Xocalı şəhərində məskunlaşmışdır. 1992-ci ilin fevral ayının 26-da girov götürülmüş, aprel ayının 3-də azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan ordusu Xocalıya hücum edərkən, Xocalı özünümüdafiə dəstəsinin tərkibində qardaşı Etibar, xalası oğlu Kərimov Soltan və Abdullayev Əhmədlə birlikdə fabrikin yanında qurulmuş postda olmuş və ermənilərin hücumlarının qarşısını almağa çalışmışdır. Lakin güllələri qurtardığı üçün, geri çəkilməyə məcbur olmuş və əhalini meşə ilə mühasirədən çıxarmağı qərara almışlar. Meşəyə girəndə ermənilər onları mühasirəyə alıb atəşə tutmuşlar. Ermənilər meşədə Mumuş kişini və həyat yoldaşını, onun 16 yaşlı oğlu Bəhramı, Cəmil kişinin oğlu Muğanı, həyat yoldaşını, qızı Simuzəri, Səmədov Tariyeli,

Mələk adlı qadını üç yaşlı uşağı ilə birgə, Rəhim Mütəllibovu, milis işçisi Əhmədi, daha bir neçə nəfəri atəş açaraq öldürmüş, Vüqarı, onun atasını, qardaşı Etibarı, Orucov Əlini, oğlunu, Nəbini, Talehi və tanımadığı bir neçə şəxsi girov götürüb Xankəndinə aparmışlar. Bir erməni onu əsirlikdə olan qardaşı ilə dəyişmək məqsədilə öz evinə aparıb zirzəmiyə salmışdır. Orada qaldığı müddətdə Vüqara vəhşicəsinə işgəncələr vermiş, zəncirlə ayaqlarından asıb bıçaqla bədənini deşmişlər. Bıçağı qızdırıb ayağını yandırmışlar. Gün ərzində gəlib onu tez-tez döymüş, sonra isə başı aşağı vəziyyətdə asmışlar. Ermənilər müxtəlif işgəncə üsulları fikirləşib taparaq, onun üzərində sınaqdan keçirmişlər. Həqarətlə "Ölsən də kimsə səni tapmayacaq, kimin nə vecinə ki, burada azərbaycanlı ölüb, amma bir erməni ölsə, biz dünyanı ayağa qaldırarıq, hamı bizə kömək edir", – deyərək, işgəncələrə davam etmişlər. Vüqar Nəcəfov 1992-ci il aprel ayının 3-də girovluqdan azad edilmişdir.

Nəcəfov Yavər Vəliqulu oğlu – 1959-cu ildə Azərbaycan Respublikası Laçın rayonunun Əhmədli kəndində doğulmuşdur. 18 may 1992-ci il tarixdə girov götürülmüş, 13 iyun 1992-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Laçın rayonunun işğalı zamanı 15 nəfərlə birlikdə rayon ərazisində Ermənistan hərbçiləri tərəfindən girov götürülmüşdür. Girov götürülən zaman 5-6 nəfər dinc rayon sakininin Ermənistan hərbçiləri tərəfindən güllələnərək öldürüldüyünün şahidi olmuşdur. Girovları Ermənistan Respublikasına aparıb, Gorus rayon Milis şöbəsinin təcridxanasına salmış, müntəzəm olaraq döymüş, ac-susuz saxlamışlar. Nəcəfov Yavər Vəliqulu oğlu 1992-ci ilin iyun ayının 13-də girovluqdan azad edilmişdir.

Nəsibov Ədalət Qaçay oğlu – 1972-ci ildə Azərbaycan Respublikasının Ağdam rayonunda doğulmuşdur. 21 mart 1992-ci il tarixdə girov götürülmüş, həmin gün azad edilmişdir. İfadəsində bildirmişdir:

İki nəfər həmkəndlisi ilə birlikdə Ağdam rayonunun Xaçındərbətli kəndində mal-qara otararkən, 12 nəfər erməni hərbçi tərəfindən girov götürülmüşdür. Qonşu Fərrux kəndindən olan Aqo adlı erməni girovları qaçacaqları təqdirdə güllələyəcəklərini bildirmişdir. Aqo erməni hərbçilərinə heyvanları aparmağı tapşırmış, girovları isə erməni yaraqlılarının məskunlaşdığı bir binaya aparmışdır. Erməni yaraqlıları, girovları boğazlarından məftillə ağaca bağlamış, avtomatın qundağı ilə döyərək, onları tanınmaz hala salmışlar. 12-14 yaşlı İbrahimlə də amansız rəftar edən erməni hərbçiləri girovları yerə yıxmış, süngü bıçağı ilə ağızlarını aralayaraq boşqablarında artıq qalan yemək qalıqlarını onların ağzına tökmüş, ayaqları ilə ağızlarından basaraq onları artıq yeməkləri yeməyə məcbur etmişlər. Əkbər adlı girovun qarnına siqaret basmış, alışqanla saçını ütmüş, Ədalətin və Əkbərin başları üstündən güllə atıb psixoloji zülm vermişlər. Nəticədə güllə onların saçlarının bir hissəsini qoparıb aparmışdır. Ermənilər siqaret çəkə-çəkə namaz qılmaqdan imtina etdiyi üçün, Ədalətin başının üstündən 5 güllə atmış, sonra isə ona 8 ədəd siqaret vermişlər. Onlardan ikisi siqaret, qalanları isə siqaret kağızına bükülmüş narkotik tərkibli bitki olmuşdur. Onu marixuana çəkməyə məcbur etmişlər. Həmin gün onların azad olunması üçün 2 milyon rus rublu gətirməsi məqsədilə Əkbəri azad etmiş, qayıtmayacağı təqdirdə qalan 2 nəfər həmkəndlisini öldürəcəklərini bildirmişlər. Ermənilər qohumlarından aldıqları 1 milyon 700 min rus rublu müqabilində 21 mart 1992-ci il tarixdə girovları azad etmişlər.

Nəsibov Umar Nəsib oğlu – 1974-cü ildə Azərbaycan Respublikası Qəbələ rayonunun Bum kəndində doğulmuşdur. 12 yanvar 1994-cü il tarixdə əsir götürülmüş, 8 may 1995-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Beyləqan rayonu ərazisindəki Haramı düzündə hərbi xidmətdə olarkən, Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüş və işğal edilmiş Şuşa şəhərindəki həbsxanaya aparılmışdır. Erməni nəzarətçilərin həbsxanada müəyyən etdikləri "qaydalar"a əsasən, həmin gün onu döyməklə ölümcül hala salmış, növbəti günlərdə də işgəncələri davam etdirmişlər. Vəziyyətinin ağırlaşdığını görən BQXK nümayəndəsi onun Xankəndi uşaq xəstəxanasına köçürülüb müalicə olunmasını israrla tələb etmişdir. Xəstəxanada vəziyyəti normallaşan kimi onu yenidən Şuşa həbsxanasına qaytaran ermənilər işgəncələri yenidən davam etdirmişlər. Bir müddət sonra Xankəndi şəhərindəki müvəqqəti saxlama təcridxanasına köçürülən Umar Nəsibov orada da eyni vəziyyətlə qarşılaşmışdır. Təcridxanada əsir-girovların saxlanma şəraiti çox ağır olmuş, onlar beton döşəmədə yatmışlar. BQXK-nın əsir-girovlar üçün göndərdiyi qida məhsullarını və yardımları isə erməni hərbçilər və nəzarətçilər mənimsəmişlər. Ermənilər əsir-girovların içərisindən seçərək Xocavənd rayonunun Mısmına kəndinə işlətmək üçün apardıqları 8 nəfərdən biri – Arzuman adlı əsir qaçdıqdan sonra digər əsirləri yenidən Şuşa həbsxanasına qaytarmışlar. Sonradan Ağdam rayonunda əsirlikdə saxlanılarkən erməni hərbçilər onun kürəyinə ağır çəkic və telefon kabeli ilə zərbələr endirmişlər. İşgəncələr nəticəsində onun ürəyində güclü ağrılar başlamış və iş qabiliyyətini itirmişdir. Müvəqqəti saxlama təcridxanasına qaytarılan Umarın tez-tez ürək tutmaları olduğundan, BQXK nümayəndəsi yenidən onun Xankəndi uşaq xəstəxanasına aparılmasını tələb etmişdir. Nəsibov Umar 8 may 1995-ci ildə əsirlikdən azad edilmişdir.

Nəsirov Namiq Fərman oğlu – 1970-ci ildə Azərbaycan Respublikası Lənkəran rayonunun Xolmili kəndində doğulmuşdur. 8 avqust 1993-cü il tarixdə əsir götürülmüş, 12 may 1995-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Hərbi xidmətdə olarkən, Füzuli rayonunun Kürdmahmudlu kəndinin müdafiəsi uğrunda gedən döyüşlər zamanı Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. İşğal altında olan Hadrut rayonunun Edilli kəndində bir qarajda saxlanılan Namiq erməni hərbçilərin işgəncələrinə məruz qalmış, dəfələrlə tapançanın dəstəyi və avtomatın qundağı ilə başından və belindən güclü zərbələr almışdır. Bu işgəncələrdən sonra onda şiddətli baş ağrıları və nəfəs çatışmazlığı yaranmışdır. Ermənistan hərbçiləri mülki ermənilərə təcridxanaya gətirib "Baxın bu türklərə, onlarla nə istəsəniz edə bilərsiniz", – demiş və əsirləri döyməyə şərait yaratmışlar. Əsirlikdə saxlandığı zaman verilən işgəncələrdən ruhi xəstəliyə düçar olmuş Nəsirov Namiq 12 may 1995-ci ildə azad edilmişdir.

Nəzərov Aqşin Nəcmi oğlu – 1973-cü ildə doğulmuşdur. 18 oktyabr 1992-ci il tarixdə əsir götürülmüş, 23 oktyabr 1992-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci ilin oktyabr ayının 19-da Laçın rayonu ərazisində Quşçular kəndinin müdafiəsi zamanı gedən döyüşlərdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Ermənistan Respublikasının Gorus rayonunun Milis şöbəsinə aparılaraq kameraya

salınan zaman bir erməni avtomatın qundağı ilə Aqşinin başına vurmuş, digərləri də ona qoşulub əsiri döymüşlər. Kamerada onunla birlikdə saxlanılan Əli adlı əsirə nəzarətçilər tərəfindən dəhşətli işgəncələr verilmişdir. Onun qabaq dişlərini kəlbətinlə qırmış, başını tapançanın qundağı ilə deşmişlər. Aqşinin gözlərinin qarşısında bir erməni milis əməkdaşı başındakı yaradan iki ay çirk axan Əlini arxadan tutmuş, digəri isə onun saqqalını alışqanla yandırmışdır. Sonra Aqşini başqa kameraya keçirmişlər. Aqşinin keçirildiyi kamerada saxlanılan Vəfadar Məmmədov adlı əsir ora gətirilməzdən öncə ayağından yaralanmış və çoxlu qan itirmişdi. Baxımsız qalan və heç bir tibbi yardım göstərilməyən Vəfadar oktyabr ayının 24-də aclıqdan və zəiflikdən kamerada ölmüşdür.

Gorus Milis şöbəsinin rəisi İqnat Beqleryan Aqşin Nəzərovu sorğu-sual etmiş, əgər suallara düzgün cavab verməsə, onu həyətdə güllələyəcəyini bildirmişdir. Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşları olan zabitlər Gorusda saxlanılan zaman, demək olar ki, yemək vermədikləri Aqşinə Ermənistan vətəndaşlığını qəbul etməyi, orada qalıb evlənməyi və ya başqa ölkəyə köçməyi təklif etmişlər. Təklifə müsbət cavab almayan ermənilər Aqşin Nəzərovu dörd nəfər əsirlə birlikdə Vedi rayon Milis şöbəsinə aparmışlar. Avtomobil gedə-gedə Aqşinin yanında oturan erməni nəzarətçi azərbaycanlı əsirlərdən birini zorlamışdır. Eyni hərəkətlərlə ona qarşı seksual xarakterli zorakılıq etmək istəyəndə, razılaşmadığı üçün erməni nəzarətçi əlində olan bıçaqla A.Nəzərovun başını və ayağını deşmişdir. Sürücünün yanında əyləşən erməni nəzarətçi isə yumruqla Aqşinin üzünə zərbələr endirmişdir. Bununla sakitləşməyən erməni nəzarətçi yandırdığı siqareti Aqşinin alnına basmışdır. Aqşin müdafiə olunmaq üçün ermənin əlini itələdikdə isə yenidən onu döyməyə başlamışlar. Sonra Aqşini Yerevana aparmış və orada general Arşakyan onunla söhbət etmişdir. Sorğu-sualdan sonra Aqşin Nəzərovu Zakaryan adlı ermənin Ermənistan Respublikasının Vedi rayonundakı evinə aparmışlar. O, Aqşini döyüşlər zamanı əsir düşdüyünü güman etdiyi qardaşı Kamo ilə dəyişmək məqsədilə bir müddət evində saxlamışdır. Lakin Zakaryanın qonşusu Aram adlı erməni Aqşin Nəzərova qaçmağı təklif etmiş və bu işdə ona "köməklik" göstərmişdir.

23 oktyabr 1992-ci il tarixdə Aram Aqşini Ermənistan-Gürcüstan sərhədinə gətirmiş və 7 milyon rus rubluna atasına satmışdır.

Niftəliyev Cavid Əli oğlu – 1972-ci ildə Azərbaycan Respublikasının Sumqayıt şəhərində doğulmuşdur. 16 avqust 1993-cü il tarixdə əsir götürülmüş, 24 avqust 1993-cü il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü ilin avqust ayında Ağdamın Xaçındərbətli kəndinin müdafiəsi uğrunda gedən döyüşlərdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Bu vaxt Xaqani adlı döyüş yoldaşı qarnından yaralanmış, digər bir azərbaycanlı əsgər isə erməni komandir tərəfindən başından güllələnib qətlə yetirilmişdir. Sonra Cavidi və Baxış adlı digər əsiri də güllələmək istəmiş, ancaq ailələrini satıb pul qazanmağı planlaşdırdıqları üçün, fikirlərindən dönmüşlər. Ermənistan hərbçiləri əsirlərə meyitləri səngərlərdə basdırmağı tapşırmış, sonra onları biri-birinə bağlayıb, meşənin içi ilə işğal etdikləri azərbaycan kəndinə gətirmişlər. Onları hündürlükdə yerləşən və aşağısından çay axan ikimərtəbəli bir evin həyətinə gətirən erməni hərbçilər zirehli döyüş maşınının arxasına əllərindən bağlanmış 30-35 yaşlı bir azərbaycanlı əsiri də çəkə-çəkə ora gətirmişlər. Ermənilər həmin əsiri Cavid və Baxışa göstərib "Baxın, bizimlə döyüşməyə gələnə nə

edirik", – deyib, onu döyməyə başlamışlar. Ermənilər döyülməkdən huşunu itirmiş əsiri elə huşsuz halda da maşınla sürüyüb aparmışlar. 10 dəqiqədən sonra geri qayıdanda, bir erməni hərbçi tanınmaz hala düşmüş əsirin başını bıçaqla bədənindən ayırıb götürmüş, bədənini sürüyüb harasa aparmışlar. Baş verənləri dəhşətli kino səhnəsinə bənzədən Cavidın və Baxışın əl-ayaqlarını bağlayan ermənilər onları möhkəm döymüş və evin zirzəmisindəki hinə salmışlar. Ertəsi gün onları yenidən döydükdən sonra əllərini açıb odun doğratmışlar. Bir müddət sonra işğal edilmiş Şuşa şəhərinə aparılıb oradakı həbsxanaya salınan əsirlər daha acınacaqlı vəziyyətə düşmüşlər. Nəzarətçi ermənilər qaranlıq zirzəmidə, rütubətli şəraitdə saxlanılan əsir-girovların qızıl dişlərini sökmüş, onları səhərdən axşama qədər qul kimi işlədib, gündə iki-üç dəfə möhkəm döymüşlər. Erməni hərbçilər və nəzarətçilər həbsxanada saxlanılan azərbaycanlıların əksəriyyətini zorlamış, onları bir-birini zorlamağa və döyməyə məcbur etmiş, Şuşa, Ağdam, Füzuli və işğal etdikləri digər ərazilərdə tikililərin, həmçinin qəbiristanlıqların sökülməsində, eləcə də ermənilərin yaşadıqları müxtəlif yaşayış məntəqələrində aparılan tikinti işlərində işlətmişlər. Məruz qaldığı işgəncələr nəticəsində Cavidin bədənində çoxlu izlər qalmış, saxlanma şəraitinin son dərəcə acınacaqlı olması və uzun müddət ac-susuz saxlanması səbəbindən vərəm xəstəliyinə tutulmuşdur. Niftəliyev Cavid 1993-ci il avqustun 24-də əsirlikdən azad edilmişdir.

Novruzov Elxan İmran oğlu – 1972-ci ildə doğulmuşdur. 19 iyun 1992-ci il tarixdə əsir götürülmüş, 10 may 1996-cı il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

19 iyun 1992-ci il tarixdə mühasirəyə düşüb yaralı vəziyyətdə əsir götürüldüyü zaman Ermənistan hərbçiləri Elxanı öldürmək istəsələr də, Yaşa adlı bir erməni hərbçi Azərbaycan tərəfinə əsir düşmüş qardaşı ilə dəyişmək məqsədi ilə buna imkan verməmişdir.

Yaşanın evinin zirzəmisində saxlanılan Elxana dəhşətli işgəncələr vermiş, heç bir ağrıkəsici olmadan dörd qızıl dişini kəlbətinlə çəkmişlər. Bir gün sonra Yaşa Elxanın yanına daha bir azərbaycanlı əsir gətirmişdir. Ermənilər hər gün onları dəyənək və armaturla döymüş, yaralı olmalarına baxmayaraq, dəhşətli işgəncələrə məruz qoymuş, yeməyə gün ərzində bir tikə quru çörək və azacıq su vermişlər. Gecələr yatanda qollarına qandal vurub qoyun pəyəsinə salmışlar. Bir müddət sonra Elxanı Xankəndi şəhərinin Polis idarəsinə aparmışlar. Orada saxlanılan əsir-girovları erməni nəzarətçilər tez-tez mütəmadi olaraq ağacla, dəmirlə döymüşlər. Ümumiyyətlə, gün ərzində bir neçə dəfə vəhşicəsinə döyülən əsir-girovlara ən çox işgəncə verənlər Artur və Karen adlı nəzarətçilər olmuşlar. 1994-cü ilin fevral ayında isə Elxana gecədən səhərə qədər işgəncə vermişlər. Həmin gün Elxanın belinə təxminən 50 vedrə su tökmüş, sonra isə təpiklə kürəyinə və başına vurmuşlar. Ermənilər Elxanı o qədər döymüşlər ki, o, bir həftə ərzində yerindən qalxa bilməmişdir.

Elxan Novruzov 1996-cı il mayın 10-da əsirlikdən azad edilmişdir.

Novruzov Hüseyn Oruc oğlu – 1954-cü ildə Azərbaycan Respublikasının Ağcabədi rayonunda doğulmuşdur. 6 sentyabr 1991-ci il tarixdə girov götürülmüş, 30 noyabr 1991-ci il tarixdə azad olmuşdur. İfadəsində bildirmişdir:

1991-ci ilin sentyabr ayının 6-da iki nəfər həmkəndlisi ilə birlikdə Xocavənd rayon mərkəzində erməni silahlıları tərəfindən girov götürülmüşdür. Ermənilər onları "UAZ" markalı maşına mindirib Xankəndi şəhərinin Həsənabad kəndinə, bir meşəyə gətirmişlər. Meşədə əllərini bağlayıb, vəhşicəsinə döymüş, axşam gözlərini bağlayıb müxtəlif əşyalarla yenidən vəhşicəsinə döymüşlər. Erməni silahlılarından biri Hüseynin aşağı ətraflarına güclü zərbələr endirdiyindən, o, huşunu itirmişdir. 19 gün orada saxladıqdan sonra onları Xocavənd rayonuna, Rafiq adlı bir erməninin həyətinə aparmış və 47 gün hində saxlamışlar. Hində saxlanıldıqları müddətdə girovlar mütəmadi olaraq döyülmüş, alçaldılmış və təhqir edilmişlər. Natəmiz şəraitdə, demək olar ki, ac-susuz saxlanılan azərbaycanlı girovlar 30 noyabr 1991-ci il tarixdə hinin divarını söküb girovluqdan qaçmışlar.

Nuriyev Məhərrəm Bayraməli oğlu – 1949-cu ildə Azərbaycan Respublikasının Füzuli rayonu, Aşağı Veysəlli kəndində doğulmuşdur. 29 avqust 1991-ci il tarixdə girov götürülmüş, 5 sentyabr 1991-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1991-ci il avqustun 29-da həmkəndliləri – Məmmədov Vaqif İsmayıl oğlu, Məmmədov Hümbət Məhəmməd oğlu, Nuriyev Qabil Sabir oğlu, Teymurov İntiqam Telman oğlu və Hüseynov Vidadi Qarakişi oğlu ilə birlikdə kəndin kənarındakı taxıl sahəsində işləyərkən, 12 nəfərdən ibarət silahlı erməni terrorçu-quldur dəstəsi tərəfindən girov götürülmüşdür. Onları girov götürən quldur dəstəsinə rəhbərlik edən –Xocavənd rayonunun Çartaz kəndinin sakini, Aşağı Veysəlli kəndinə yaxın ərazidə yerləşən çaxır zavodunda sürücü işləmiş Kamo adlı erməni olmuşdur. Kamonun atası Jora əvvəllər Xocavənd rayon Milis şöbəsinin rəisi vəzifəsində işləmiş, qardaşı Sarıbek sonradan Aşağı Veysəlli kəndinin Ermənistan hərbçiləri tərəfindən işğalında fəal iştirak etmişdir. Girovların əllərini kəndirlə bağlayıb, Xocavənd rayonunda yerləşən texniki bazaya gətirmişlər. Təxminən 15-20 dəqiqədən sonra başlarına torba keçirib Gişi kəndinə aparmış, orada bir gün saxladıqdan sonra yenidən maşına mindirib Qarakəndə köçürmüşlər. Heyvanlar üçün nəzərdə tutulmuş, beton döşəməli bir binada saxlandıqları yeddi gün ərzində çox ağır fiziki işgəncələrə məruz qalmışlar. İşgəncələri, əsasən, Xocavənd rayonu, Herher kəndinin sakini Şamo və tanımadığı digər ermənilər vermişdir. Hətta siqareti çəkdikdən sonra girovların bədənində söndürmüşlər. Bir dəfə Şamo ondan avtomat silahla girovlardan birini güllələməyi tələb etmiş, lakin Məhərrəm "Yaxşısı budur məni öldür", – dediyi üçün avtomatın lüləsini onun ağzına tutub, çaxmağı çəkməyə məcbur etmişdi. Məhərrəm avtomatın lüləsini ağzına alıb çaxmağı çəkmiş, bu zaman güllənin olmadığını anlamışdır. Bu hərəkət onunla saxlanılan İntiqam adlı girov ilə də edilmiş və onlara mənəvi-psixoloji işgəncələr verilmişdir. Ermənilər onları taxta parçası, daş, təpik, avtomatın qundağı və sair alətlərlə döymüş, girovları bir-birinə işgəncə verməyə, təcavüz etməyə məcbur etmiş, bundan imtina edənləri daha dəhşətli işgəncələrə məruz qoymuşlar. Nuriyev Məhərrəm 5 sentyabr 1991-ci il tarixdə girovluqdan azad edilmişdir.

Nuriyev Miryusif Umudvar oğlu – 1923-cü ildə Azərbaycan Respublikasının Füzuli rayonu, Qaraxanbəyli kəndində doğulmuşdur. 23 avqust 1993-cü il tarixdə girov götürülmüş, 7 sentyabr 1994-cü il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

23 avqust 1993-cü il tarixdə yaxınları ilə birgə Füzuli rayonunun Qaraxanbəyli kəndində dünyasını dəyişmiş həyat yoldaşının 7 mərasimini qeyd etdikləri zaman topdan açılan atəş səsləri eşidilmişdir. Çox keçmədən 12 nəfər ermənistanlı hərbçi yaxınlaşaraq onu, yaxın qohumu Əliyev Qəhrəman Həsən oğlunu, həmçinin Qəhrəmanın 10 yaşlı oğlu Əliyev Rövşəni girov götürmüşlər. Sonra pullarını və sənədlərini əllərindən alıb, onları Xocavənd rayonunun Milis şöbəsinə aparmışlar. Orada Füzuli rayonunun Aşağı Veysəlli kənd sakini Miryusif, Rəşid, İmişli rayonunun Əliqulular kənd sakini İbrahim, həmkəndlisi Quliyev Camal adlı girovların da saxlanıldıqlarını görmüşdür. Elə həmin gün onların yanına əsir götürülmüş iki azərbaycanlı hərbçi də gətirilmişdir. Əsirlərdən biri ayağından yaralı olmuşdur. Milis şöbəsində adlarını bilmədiyi bir neçə erməni, əsir-girovların ad və soyadını soruşduqdan sonra Miryusifi yumruqla vurmuş, Əliyev Qəhrəmana isə "Adın kimi özün də qəhrəmansan?" – deyib çənəsinə təpiklə zərbə endirmişdir. Aldığı zərbədən Qəhrəmanın ağzı partlayıb qanamışdır. Ertəsi gün girovların hamısını Xankəndi xəstəxanasına aparmış, ayağı yaralı hərbçini orada saxlayıb, qalanları işğal edilmiş Şuşa şəhərindəki həbsxanaya yerləşdirmişlər. 40 nəfərədək azərbaycanlının saxlanıldığı həbsxanada nəzarətçilər mütəmadi olaraq, səbəb oldu-olmadı, sutka ərzində bir neçə dəfə əsir-girovları döymüş, istədikləri zaman xidməti otaqlarına aparıb alçaltmış və işgəncələr vermiş, sıraya düzüb it kimi hürməyə məcbur etmişlər. Şuşa həbsxanasında saxlanılan zaman qocalara kartof yığdırmış, cavanları isə meşəyə aparıb odun doğratmışlar. Bir dəfə Şuşanın Xəlfəli kəndində kartof yığarkən, İmişli rayonundan olan İbrahim adlı əsir ayaqyoluna getmək bəhanəsi ilə nəzarətçi Vanyadan icazə almış və fürsətdən istifadə edərək qaçmışdır. Bundan xəbər tutan Vanya qəzəblənib girovları cəzalandırmışdır. O, bütün girovların əllərini bağlayıb, onları taqətdən düşüb yıxılanadək burazla döymüşdür. Bununla kifayətlənməyən Vanya girovların belinə çıxıb onları tapdalamış, 12 nəfər əsir-girovu yerə uzadıb, yük maşını ilə üstlərindən keçmək istəmişdir. Vanyanın məqsədini başa düşən əsir-girovlar yerlərindən qalxıb qaçmışlar. Mehdi Babayev isə maşının altında qalıb əzilmiş və bir həftədən sonra ölmüşdür. Bir müddət sonra İbrahimin qaçarkən minaya düşərək öldüyünü söyləmişlər. Ümumiyyətlə, nəzarətçi Vanya mütəmadi olaraq girovları amansızcasına döymüş və işgəncələr vermişdir. O, kəlbəcərli Binnət Əhmədovu odun parçası ilə vurub, başını yarmışdır.

Şuşa şəhərində işlədib geri qaytardıqdan sonra girovların üstünə it buraxır, həmçinin qorxutmaq məqsədilə üstlərinə maşın sürür, mənəvi-psixoloji işgəncələr verirmişlər. İşgəncə verən ermənilərdən Slaviki və "Ako" kimi çağırılan, 10 il Ağdamda pavilyon müdiri işləmiş Arqazini (Arkadi) xatırlayır. 1993-cü il sentyabrın 15-də ermənilər əsir və girovların hamısını Şuşa həbsxanasından Həsənabad kəndinə aparmışlar. Həsənabadda saxlandıqları zaman Arqazi Kəlbəcər rayonundan olan Lətif adlı girova iri kolları qırıb daşımağı tapşırmış, yaşlı və xəstə olduğundan bu işin öhdəsindən gələ bilmədiyi üçün onu bel ilə amansızcasına döymüş, Ağdam rayon sakini olan Karlen adlı girovu da döymüş, sonra isə soyuducunun içinə salmışdır. Arqazinin verdiyi zülmdən Lətif və Karlenin səhhəti ciddi dərəcədə korlanmış, bədənləri şişdiyindən onların hər ikisini Füzuli rayonundan olan Əliyev Əhliman Həsən oğlu ilə birlikdə Xankəndindəki xəstəxanaya göndərmişlər. İşgəncələri davam etdirən Arqazi Kəlbəcərdən olan Alışanov Budaq Əli oğlunu və Əhmədov Binnət Əbdüləli oğlunu qış aylarında soyundurub bir neçə saat hovuzda, buzlu suyun içində saxlamışdır. Onun bir

dəfə vəhşicəsinə döydüyü Füzuli rayonunun Gorazıllı kənd sakini Vaqif adlı əsir ertəsi gün ölmüşdür. Bütün girovlar Vaqifin öldüyünün şahidi olmuşlar. Bundan başqa, Arkadi İmişli rayonunun Qaralar kəndindən olan Valeh adlı hərbçini də qəddarcasına döymüşdür. Valeh Miryusifə artıq işgəncə və təhqirlərə dözmədiyini, canından bezdiyini söyləmişdir. Həmin söhbətdən 1-2 gün sonra Valeh işğal edilmiş Ağdam rayonu ərazisində işlədilərkən, tapıb gizlətdiyi qumbaranı partladıb intihar etmişdir. Əsir və girovların dəyişdirilməsi ilə məşğul olan "Abo" ləqəbli erməni Miryusifin BQXK tərəfindən qeydiyyata götürüldüyünü demiş və təcili olaraq Valehin ölümü ilə əlaqədar akt tərtib edib, tələb olunacağı təqdirdə mərhumun meyitinin qaytarılacağını bildirmişdir. Vaqif və Valehin meyitləri Miryusif, Beyləqan rayonundan Pəsiyev Rizvan Salam oğlu və Əhmədov Amil Əhməd oğlu, Kəlbəcər rayonundan Əhmədov Binnət Əbdüləli oğlu, Alışanov Budaq Əli oğlu, Füzuli rayonundan Rəşid və Qubadlı rayonundan Xəlilov Hidayət Nüsrət oğlu tərəfindən Həsənabadda "Qozluq" adlanan bağda basdırılmışdır. Nuriyev Miryusif 7 sentyabr 1994-cü il tarixdə girovluqdan azad edilmişdir.

Nuxiyev Arif Qutais oğlu – 1950-ci ildə Azərbaycan Respublikası, Füzuli rayonunun Gorazıllı kəndində doğulmuşdur. 2 iyul 1993-cü il tarixdə girov götürülmüş, 1 sentyabr 1993-cü il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

2 iyul 1993-cü ildə ailə üzvləri və həmkəndliləri ilə birlikdə Ermənistan hərbçiləri tərəfindən girov götürülmüşdür. Girovları Hadrut rayonunun Polis idarəsinə aparan ermənilər onları müxtəlif küt alətlərlə döymüş, Arifin qabırğalarını, qardaşı Vaqifin isə qolunu sındırmışlar. Şuşa həbsxanasına gətirilən zaman nəzarətçilər onları həbsxananın həyətində qarşılayıb, vəhşicəsinə döyüb kameralara salmışlar. Həbsxananın nəzarətçiləri hər gün spirtli içki qəbul edib, kameralara daxil olaraq əsir-girovları möhkəm döymüşlər. Nəticədə, Ağdam rayonundan olan bir nəfər azərbaycanlı girov işgəncələrə tab gətirməyib ölmüşdür. Ermənilər əsir və girovları beton döşəməli, rütubətli və nəm kameralarda, demək olar ki, ac-susuz saxlamış, gün ərzində yalnız 50-100 qram çörək vermişlər. Bir gün sərxoş halda olan həbsxana rəisi Arifi yanına çağırıb mahnı oxumasını tələb etmişdir. Ancaq Arif oxuya bilmədiyi üçün yumruqla onun burnuna ağır zərbə endirmiş, əlindəki silahla öldürəcəyi ilə hədələmişdir. Orada nəzarətçilər əsir-girovların qızıl dişlərini kəlbətinlə çıxarmışlar. Şuşa həbsxanasında erməni əsgər və zabitlər tərəfindən gecə-gündüz fiziki, psixoloji və mənəvi işgəncələrə məruz qalmışlar. Ağdam və Kəlbəcər rayonlarından olan iki əsirin döyülüb öldürüldüyünün şahidi olan Arif Samvel adlı nəzarətçinin ona və digər əsir-girovlara daha çox işgəncə verdiyini xatırlayır. Samvel tez-tez azərbaycanlıları döymüş, onların ayaqlarını əsgər çəkmələri ilə tapdalayıb əzmiş, əllərini və başlarını qapı arasına qoyaraq sıxmışdır. O, əsir-girovları yerə uzandırıb, onların üstündə atılıb-düşərək bədənlərinin müxtəlif hissələrinə təpiklə zərbələr vurmuşdur. Girovluqda olduğu 5 ay müddətində qardaşı Nuxiyev Vaqif Qutais oğlunun və Ağdam rayon sakini Karlen adlı girovun erməni hərbçiləri və nəzarətçilərin verdiyi işgəncələr nəticəsində öldüklərinin şahidi olmuş Arif Nuxiyev əmisi oğlu Eyniş Nuxiyev tərəfindən ermənilərin tələb etdiyi 2 milyon rus rublu məbləğində pul ödənildikdən sonra, 1 sentyabr 1993-cü il tarixdə azad edilmişdir.

Nuxiyeva Məxmər Eyniş qızı – 1956-cı ildə Azərbaycan Respublikasının Füzuli rayonu, Gorazıllı kəndində doğulmuşdur. 2 iyul 1993-cü il tarixdə girov götürülmüş, 10 iyul 1994-cü il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ailə üzvləri və digər qohumları ilə birlikdə Füzuli rayonunda yaşayan qohumlarının toy məclisinə gəlmiş Nuxiyeva Məxmər toyun ertəsi günü – 1993-cü il iyul ayının 2-də Ermənistan hərbçilərinin Gorazıllı kəndinə hücumu zamanı qohumları ilə birlikdə zirzəmidə gizlənmişlər. Erməni hərbçilər həyətə girib, evi atəşə tutmuş, onların zirzəmidə gizləndiyini başa düşüb bayıra çıxmalarını tələb etmişlər. Əvvəlcə kişilər, sonra qadın və uşaqlar zirzəmidən çıxmışlar. Aralarında 8 azyaşlı uşağın da olduğu təxminən 20 nəfər azərbaycanlını girov götürən ermənilər onları yaxınlıqdakı mağazanın binasına salmış, həyətdəki ev heyvanlarını və quşları güllələmişlər. Məxmərlə birlikdə girov götürülənlər – həyat yoldaşı Nuxiyev Arif, qayınanası Nadya Qutais qızı, qaynı Nuxiyev Vaqif Qutais oğlu *(girovluqda qətlə yetirilmişdir – tərt.)*, Vaqifin həyat yoldaşı Nuxiyeva Raisa Şirin qızı, Vaqifin qızı Nuxiyeva Sevil, qaynı Nuxiyev Balay Qutais oğlu, Balayın qızları – Mətanət, Arzu, Nərminə və Leyla, Raya və digər qohumları olmuşlar. Onları yaxınlıqdakı mağazaya aparan zaman erməni hərbçilər yolda Sumqayıtda yaşayan və kəndə toya gəlmiş Məmmədov Rəvan adlı bir azərbaycanlı kişini də girov götürmüş, onların üstlərində olan pullarını və qızıl əşyalarını əllərindən almışlar. Girovları Hadrut rayonundakı məktəbin binasına aparan ermənilər kişiləri döyüb, qadınlardan ayırıb başqa bir otağa salmış, ertəsi gün girovların hamısını məktəbin həyətinə çıxarmışlar. Ermənilər tərəfindən möhkəm döyülüb tanınmaz hala salınan və yeriyə bilməyən kişiləri maşınla Xankəndinə aparmışlar.

Girovların yerlərini müəyyən edən BQXK nümayəndələri ora gəlib, onları qeydiyyata almışlar. BQXK əməkdaşları getdikdən sonra ermənilər girovları xeyli sayda azərbaycanlı əsir-girovun saxlanıldığı Xankəndi uşaq xəstəxanasına aparmışlar. Xəstəxanada erməni hərbçilər yaralı olmalarına baxmayaraq, kişiləri qəddarcasına döymüşlər. Ermənilər azərbaycanlı kişilərə elə işgəncələr vermişlər ki, bağırtılarını qadınlar da eşitmişlər. Girovlara ən çox işgəncə verənlər "böyük Jirik", "balaca Jirik", Meroyan Gena, Artur və Armen adlı ermənilər olmuşlar. Onlar əsir-girovların bədənlərində yanmış siqaret kötüklərini söndürüb möhkəm döymüş, cavan oğlanlara qızdırılmış dəmirlə damğa vurmuşlar. Erməni hərbçilər özləri ilə azyaşlı uşaqları da gətirir, onlara azərbaycanlı əsir-girovları döyməyi öyrədirdilər. Məsələn, azyaşlı erməni Xasay adlı yaşlı girova "otur, dur, qaç, tullan" və s. əmrlər verib, məsxərəyə qoymuş, döymüş, alçaltmışdır. Azərbaycanlı girov kişilər erməni hərbçilər tərəfindən o dərəcədə döyülmüşlər ki, BQXK nümayəndələri oradakı girovların hamısını bir yerə toplayıb onlarla söhbət edərkən, Məxmər Vaqifi tanıya bilməmişdir. Ermənilər yalnız kişiləri deyil, qadınları da döyüb işgəncələrə məruz qoymuş, hər vəchlə onları incitməyə çalışmışlar. Belə ki, Meroyan familiyalı hərbçi Ofeliya adlı gənc qızı girovluqdan azad etmək adı ilə Xankəndi uşaq bağçasına apararkən avtomatla yaralamışdır. Azyaşlı bir qızın anası isə ermənilərin qızını zorlamasına dözməyib intihar etmişdir. Mütəmadi olaraq kef məclisləri təşkil edən erməni hərbçilər hər dəfə üç azərbaycanlı girov qadını özləri ilə aparıb cinsi istismara məruz qoymuşlar. Bir müddət sonra girov kişiləri Şuşa həbsxanasına aparmışlar. Orada Vaqifi həmkəndliləri Binnət kişinin gözü qarşısında boğub öldürmüşlər. Sonra ermənilər Binnət kişini Həsənabad kəndinə aparıb işlədən zaman möhkəm döymüş və Vaqifin öldürüldüyünü onun

girovluqda olan qohumlarına deməməsini tapşırmışlar. Bir müddət sonra Albert Voskanyan adlı erməni Məxmərgilin yanına gəlib, qaynı Vaqifin öldüyünü bildirmişdir. Məxmərlə birlikdə adını xatırlamadığı qadın və oğlu – Göyüşov İldırım da saxlanılmışdır. Ermənilər İldırımı Şuşa həbsxanasına apardıqdan az sonra anası girov qadınların yanında acından ölmüşdür. Lakin aclıqdan ölən təkcə bu girov qadın olmamışdır. Ermənilər girovları, demək olar, ac-susuz saxladıqlarından, onlar zibil atmaq adı ilə zibilliyə gedib, oradan atılmış kartof qabıqlarını yığıb yeyirmişlər. Belə vaxtların birində orada yaşlı bir girovun aclıqdan öldüyünün şahidi olmuşlar. Az sonra həbsxanadan Xankəndi uşaq xəstəxanasına gətirilən bir neçə əsir-girov İldırım Göyüşovun orada erməni nəzarətçilər tərəfindən döyülüb öldürüldüyünü bildirmişlər.

Xəstəxanada otaqların birində Ramiz adlı 25-27 yaşlarında gənc əsir də saxlanılmışdır. Ermənilər onun başına o qədər ağır zərbələr vurmuşlar ki, huşsuz vəziyyətdə başını aşağı salıb, sakit və ac-susuz oturan, çağırışlara və səslərə reaksiya verməyən Ramiz, bir müddət tək qaldıqdan sonra ölmüşdür. Bundan başqa, M.Nuxiyeva Ağdam rayonundan olan yaşlı kişi – Həsənov Karlenin ermənilər tərəfindən məruz qaldığı işgəncələr nəticəsində Xankəndi xəstəxanasında öldüyünün də şahidi olmuşdur. Ramizlə Karlenin meyitlərini Xankəndi uşaq xəstəxanasının yaxınlığındakı qəbiristanlıqda basdırmışlar. Nəzarətçilərin və hərbçilərin mütəmadi təhdidi altında olan əsir-girovlar oraya gələn BQXK əməkdaşlarına döyüldüklərini və işgəncəyə məruz qaldıqlarını söyləyə bilmirdi. Nəzarətçilər özləri yorulduqda əsir və girovları bir-birini döyməyə, işgəncələr verməyə məcbur etmişlər. Bir dəfə adını bilmədiyi erməni həkim, Məxmərin oğlu Elşənin qolunu qırıb orada saxlamaq istəmişdir. Lakin, xoşbəxtlikdən, Məxmər onun bu hərəkətini vaxtında görmüş və BQXK əməkdaşlarına bu barədə bildirəcəyini söyləmişdir. Məxmər Nuxiyeva 10 iyul 1994-cü il tarixdə girovluqdan azad edilmişdir.

Orucov Taleh Əli oğlu – 1971-ci ildə Ermənistan Respublikasının Əzizbəyov rayonunda (Dərələyəz bölgəsində) doğulmuşdur. 25 fevral 1992-ci il tarixdə girov götürülmüş, 28 fevral 1992-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan Respublikasında azərbaycanlılara qarşı başlanmış zorakılıq və etnik təmizləmə siyasəti nəticəsində Taleh Orucov ailəsi ilə birgə öz doğma kəndini tərk edib Azərbaycan Respublikasına köçməyə məcbur olmuşdur. Əvvəl Şuşa şəhərində, sonra Malıbəyli kəndində yaşamış, kəndin Ermənistan ordusu tərəfindən işğalından sonra Xocalı şəhərinə köçmüşdür. 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Xocalı şəhəri güclü atəşə məruz qalmış və Ermənistan hərbi birləşmələri şəhərə girmişlər. Xilas olmağa çalışan mülki əhali pərakəndə dəstələrlə müxtəlif istiqamətlərdə qaçmağa başlamışlar. Şəhər mühasirəyə alındığından ermənilər əhalinin bir hissəsini şəhərin içərisində qətlə yetirmişlər. Taleh aralarında qadın və uşaqların da olduğu 17-18 nəfər dinc sakinin erməni hərbçilər tərəfindən öldürüldüyünün şahidi olmuşdur. Onun da olduğu dəstənin bir hissəsini qətlə yetirən ermənilər sağ qalanları girov götürmüşlər. Girov götürülənlərin arasında Talehin anası Orucova Xanım Rəhim qızı, atası Orucov Əli Dadaş oğlu, qardaşı Nəbi, onun yeni doğulmuş körpəsi də olmuşlar. Xankəndi şəhərinə gətirilən yarıçılpaq, ac-susuz girovları şaxtalı havada avtobus parkındakı köhnə və pəncərələrinin şüşələri qırılmış avtobusa doldurmuş, Talehin atasını və qardaşını onlardan ayırıb başqa istiqamətdə aparmışlar. İşgəncələrə davam edən erməni hərbçilər

qadınlara və qocalara da rəhm etməmiş, hamını ucdantutma döymüşlər. Xocalı şəhər hava limanının mühafizə polisinin rəisi, şəhərin Ermənistan ordusunun hücumlarından müdafiəsində iştirak etmiş və qəhrəmancasına həlak olmuş Əlif Hacıyevin qardaşı Süleymana daha ağır, ağlagəlməz dərəcədə dəhşətli işgəncələr vermişlər. Talehi üç nəfər erməni əsgəri qaranlıq bir tövləyə salıb, iki saatdan artıq aramsız təpik, avtomatın qundağı ilə döymüşlər. Erməni hərbi birləşmələrindən birinin komandiri, sonradan Ermənistan Respublikasının Prezidenti seçilmiş Robert Koçaryan avtobus parkına gəlib, azərbaycanlı əsir-girovlara verilən işgəncələrə tamaşa etmişdir. Taleh Orucov 28 fevral 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Ömərov Araz Hüseyn oğlu – 1963-cü ildə Azərbaycan Respublikasının Göyçay rayonunda doğulmuşdur. 12 aprel 1993-cü il tarixdə əsir götürülmüş, 12 may 1995-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü ilin aprel ayında Kəlbəcər rayonunun Ermənistan ordusunun hücumlarından müdafiəsi uğrunda gedən döyüşlərin birində əsir götürülmüşdür. İşğal altında olan Ağdərə rayonunun Drombon kəndinə aparılan Araz orada məktəb binasında dislokasiya edilmiş hərbi hissənin zirzəmisinə salınmışdır. O, zirzəmidə döyülən azərbaycanlı əsir-girovların səsini eşidirmiş. Araz sonradan onlardan birini – 65-70 yaşlı Səadət adlı qadını tanımışdır.

Ermənilər zabit olduğu üçün A.Ömərovu daha çox işgəncələrə məruz qoymuş, dəmir armaturla vurub dişini və qolunu sındırmışlar. Sınmış qoluna bir həftə ərzində heç bir yardım edilməmiş, əksinə, yenə də döyülmüşdür. Hərdən suda qaynanmış arpa yarması verirmişlər. Hərbçilər qonşu kamerada olan azərbaycanlı qadınları zorlayaraq, bağırtılarına gülürmüşlər. Kəlbəcər rayonundan olan İdrisin dişlərini vurub sındırmışdılar. Minasyan Aşot adlı erməni komandir A.Ömərovu Ağdərə rayonunun hansısa kəndinə aparmışdır. Bakı şəhər sakini Salahov Bəxtiyarı da ora gətirmişdilər. Orada girovlar ən ağır işgəncələrə məruz qalmışlar. Ermənilər əsirləri əllərinə keçən hər şeylə döymüş, onları tövlədə qoyunlarla birlikdə saxlamışlar. 15 gün sonra onları Ermənistanın Sisian rayonuna aparıb Hərbi Polisə təhvil vermişlər. Həmin vaxt Sisian Hərbi Polisinin rəisi Azoyan soyadlı zabit olmuşdur. O, azərbaycanlı əsir-girovların döyülməsinə və işgəncələrinə şəxsən rəhbərlik etmişdir. Azoyanın göstərişi əsasında erməni hərbçilər əsir-girovları dəfələrlə soyuq və qarlı havada qarın üzərində süründürmüş, çəkdikləri siqareti əsir-girovların alnında və bədənlərinin müxtəlif yerlərində söndürərək, onlara dağ basmış, bəzən gün ərzində növbə ilə hər saatda gəlib döymüşlər. Sisianda əsir-girovları daha çox incidən hərbçi, "Əsgər" ləqəbli Armen Qriqoryan olmuşdur. O, əsir-girovları təkcə fiziki deyil, mənəvi-psixoloji işgəncələrə məruz qoyaraq ləyaqətlərini alçaltmış, onların əksəriyyətini bir-biri ilə cinsi əlaqəyə girməyə məcbur etmişdir. Əsir-girovları orada günlərlə ac-susuz, soyuq zirzəmidə saxlayan ermənilər BQXK tərəfindən verilən paltarları və digər əşyaları onların əllərindən almışlar. Ömərov Araz Hüseyn oğlu 12 may 1995-ci ildə əsirlikdən azad edilmişdir.

Ömərov Rafiq Əhməd oğlu – 1956-cı ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. 7 iyul 1994-cü il tarixdə əsir götürülmüş, 11 dekabr 1995-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1994-cü ilin iyul ayının 7-də Beyləqan rayonunun Haramı düzü adlanan ərazisində Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Əsir götürüləndən sonra Xankəndində, Şuşa həbsxanasında və Xocavənd rayonunun Mısmına (Ağbulaq) kəndində saxlanılmışdır. Ermənistan hərbçiləri tərəfindən daim döyülmüş, işgəncələrə məruz qalmışdır. Ermənilər əsirləri mütəmadi olaraq armatur, dəyənək, avtomat qundağı ilə döymüşlər. Əsir-girovlara qayğı ilə yanaşmış BQXK nümayəndəsi Pyer işgəncə hallarının qarşısını almağa çalışsa da, imkan düşən kimi ermənilər yenə də onları döymüşlər. Bir dəfə Müşfiq adlı əsirin verilən işgəncələrdən BQXK-nın nümayəndəsi Pyerə şikayət etdiyini öyrənən erməni nəzarətçilər onu huşunu itirənədək amansızcasına döymüş, Müşfiq bütün gün özünə gələ bilməmişdi. Xankəndində saxlanılarkən əsir-girovlar şəhərin təmizlənməsi, yolların süpürülməsi, zibilin yığışdırılması kimi işlərə cəlb edilmişlər. Mısmınada isə əsir-girovları daha ağır işlərə – tikintiyə cəlb edən ermənilər onları sutkada 16-18 saat qul kimi işlətmişlər. Xankəndi xəstəxanasında saxlanılan zaman bir nəfər azərbaycanlı əsir Xocavənd rayonunun Mısmına kəndində saxlanılarkən işgəncələrə məruz qaldığını, ermənilərin onun başına su şüşəsi qoyaraq avtomatdan atəş açdıqları üçün yaralandığını, başında qəlpə qaldığını danışmışdır. Ömərov Rafiq Əhməd oğlu 11 dekabr 1995-ci ildə əsirlikdən azad edilmişdir.

Paşayev Rafiq Osman oğlu – 1970-ci ildə Azərbaycan Respublikasının Şəki rayonunda doğulmuşdur. 14 avqust 1993-cü il tarixdə əsir götürülmüş, 22 sentyabr 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Füzuli rayonunun Yağlıvənd kəndinin müdafiəsi zamanı gedən döyüşlərdə ayağından güllə yarası alaraq, huşsuz vəziyyətdə Ermənistan hərbi birləşmələri tərəfindən əsir götürülmüşdür. Özünə gəldikdə Ermənistan hərbçilərinin onu təpiklədiklərini görmüşdür. Ağdam və Şuşa həbsxanalarında saxlanıldığı zaman Ermənistan hərbçiləri R.Paşayevi və orada saxlanılan digər azərbaycanlı əsir-girovları dəmir, bel sapı, yumruq, təpik və dəyənəklə huşlarını itirənədək döymüşlər. Erməni nəzarətçilər azyaşlı uşaqlarını da azərbaycanlı əsir-girovların döyülməsinə, alçaldılmasına cəlb etmişlər. Belə halların birində bir erməni uşaq Rafiq Paşayevin üzünə sementli palçıq yaxmış, onu müxtəlif alətlərlə döymüşdür. Nəzarətçilər isə Rafiqə palçıq yedirtmişlər. Əsirlik zamanı Ermənistan hərbçiləri və mülki şəxslər tərəfindən verilən işgəncələrin izlərini bədənində daşıyan R.Paşayev aldığı güclü zərbələr nəticəsində hələ də övlad sahibi ola bilmir, böyrək və ürək ağrılarından əziyyət çəkir. Paşayev Rafiq Osman oğlu 22 sentyabr 1993-cü il tarixdə əsirlikdən azad edilmişdir.

Paşayeva Gülnarə Yaqub qızı – 1968-ci ildə Azərbaycan Respublikasının Beyləqan rayonu, Dünyamalılar kəndində doğulmuşdur. 31 oktyabr 1993-cü il tarixdə girov götürülmüş, 8 aprel 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

31 oktyabr 1993-cü ildə qohumları ilə birlikdə avtomobildə gedərkən, Ağdam rayonu ərazisində Ermənistan hərbi birləşmələri tərəfindən girov götürülmüşlər. Ermənistan hərbçiləri girov götürülmüş şəxslərin, o cümlədən onun üstündə olan qızılları və pulları əllərindən almışlar. Sonra dörd nəfər erməni hərbçi Gülnarənin adını bildiyi girov qadınlardan birini binanın başqa otağına aparıb, paltarlarını cıraraq vəhşicəsinə zorlamışlar. Əmisi Zöhrab Sarıyevi qəddarcasına döyərək qızıl dişlərini

çıxaran ermənilər iki gün ac saxladıqdan sonra onlara çörək qırıqları vermişlər. Xankəndi uşaq xəstəxanasında saxlanılan zaman balaca Jirik adlı erməni nəzarətçi qadınlardan birini *(adı məlumdur – tərt.)* zorlamaq məqsədi ilə başqa otağa aparmış, qadın onun əlindən çıxıb qaçdığına görə, onu cəzalandırmaq məqsədi ilə ən ağır işlər tapşırmışdır. Nəzarətçilərin Xankəndi uşaq xəstəxanasında saxlanılan girov və əsirləri vəhşicəsinə döydüyünün şahidi olan G.Paşayeva Xankəndi xəstəxanasında saxlanılarkən, Şuşa həbsxanasından gətirilmiş, ayaqları parçalanmış və ölmək üzrə olan İlqar adlı əsir ermənilərin onun üstünə vəhşi itləri buraxdıqlarını danışmışdır. Bir müddət sonra Şuşa həbsxanasından gətirilmiş Bəxtiyar adlı digər əsir isə İlqarın öldüyünü və meyitinin Malıbəyli kəndində dəfn edildiyini söyləmişdir.

Paşayeva Gülnarə Yaqub qızı 1994-cü ilin aprel ayının 8-də azad edilmişdir.

Paşayeva (İsmayılova) Kübra Adil qızı – 1941-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 25 fevral 1992-ci il tarixdə girov götürülmüş, 4 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Fevralın 25-də gecə yarısı Ermənistan hərbi birləşmələrinin Xocalıya hücumu zamanı xilas olmaq məqsədi ilə bir dəstə şəhər sakininə qoşularaq, Naxçıvanlı kəndi istiqamətində qaçmağa məcbur olmuşdur. Kətik meşəsinə girəndə Ermənistan hərbçiləri onları mühasirəyə alaraq güllələbaran etmişlər. Sol qolundan və sağ ayağından güllə yarası alaraq kolluqda gizlənən Kübra 1932-ci il təvəllüdlü həyat yoldaşı Paşayev Şuranın və oğlu – 1961-ci il təvəllüdlü Elşadın hərbçilər tərəfindən avtomat silahla öldürüldüyünün şahidi olmuşdur. 40 nəfərə yaxın Xocalı sakinini girov götürən ermənilər, onları Əsgəran rayonuna gətirmişlər. K.Paşayeva burada Xocalı şəhər sakini Eyvazov Hidayət Əli oğlunun əl-ayağı bağlı halda tankın altına atıldığını və başının üstündən erməni tankının keçdiyini görmüşdür. Onları 300 nəfərə yaxın qadın, cavan qız və yaşlılardan ibarət girovların saxlanıldığı Əsgəran Milis şöbəsinin zirzəmisinə salan ermənilər gecə saatlarında təxminən 30-40 nəfərə yaxın Azərbaycan ordusunun əsgərlərinin başı kəsilmiş meyitlərini onların gözü qarşısına atmışlar.

Erməni hərbçilər Xocalı sakini olmuş və sürücü işləmiş Surxay adlı şəxsin başına iri mismarlar çalaraq qətlə yetirmişlər. Kübra Xocalı şəhərindən olan Vidadi adlı şəxsin, 16 yaşlı Talehin, 5-6 nəfər 6-8 yaşlı körpə uşağın diri-diri başlarının kəsildiyinin şahidi olmuşdur. Zirzəmidə saxlanıldıqları müddətdə ermənilər cavan qız və qadınların başlarını divara vuraraq, huşsuz vəziyyətdə aparıb cinsi istismara məruz qoymuşlar. Susuz qalan uşaqlara su əvəzinə sidik verən ermənilər öldürdükləri azərbaycanlıların dişlərini çıxarıb götürmüşlər. Kübra Paşayeva 4 mart 1992-ci il tarixdə azad edilmişdir.

Ramazanov Rəsul Nemət oğlu – 1975-ci ildə Azərbaycan Respublikası, Oğuz rayonunun Qumlax kəndində doğulmuşdur. 7 fevral 1994-cü il tarixdə əsir götürülmüş, 7 dekabr 1995-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1994-cü ilin fevral ayında Kəlbəcər rayonu uğrunda gedən döyüşlər zamanı üç nəfər əsgər yoldaşı ilə birlikdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Əsir götürülərkən, Karo adlı erməni küt alətlərlə onları döymüşdür. Zərbələrdən Füzuli rayonunun Horadiz qəsəbəsindən olan Elxan Ələkbərovun qabırğaları sınmış, onun sol qolu dirsək nahiyəsindən qırılmışdır. Ona heç bir tibbi yardım göstərilməmiş, əksinə,

sınığının olmasından xəbərdar olan ermənilər əzab vermək məqsədilə qolunu burub vəziyyətini daha da ağırlaşdırmışlar. O, şiddətli ağrılardan tez-tez huşunu itirmişdir. Xankəndi hospitalında Yirik adlı erməni nəzarətçi əsir-girovları dəhlizdə bir yerə toplayıb, əl əsası ilə döymüşdür. BQXK-nın tələbi ilə Xankəndi hospitalının həkimləri Elxan Ələkbərovun bağırsağında cərrahiyyə əməliyyatı aparmış, lakin əzab vermək məqsədi ilə əməliyyatı ağrıkəsici dərman istifadə etmədən keçirmişlər. Erməni nəzarətçilər Bakı şəhərindən olan Əhməd adlı kişini hər gün döymüş, odun parçası ilə başına vurmuş, qabırğalarını sındırmışlar. 1994-cü ilin avqust ayında işgəncələrə dözməyən Əhməd bədəninə elektrik cərəyanı verib, özünü öldürmüşdür. Rəsul Ramazanov 7 dekabr 1995-ci il tarixdə əsirlikdən azad edilmişdir.

Rəcəbov Nail Lamik oğlu – 1977-ci ildə Azərbaycan Respublikası, Şəmkir rayonunun Çinarlı kəndində doğulmuşdur. 6 aprel 1998-ci il tarixdə əsir götürülmüş, 18 iyul 2000-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Beyləqan rayonu ərazisində döyüş postundan qayıdarkən, Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Xankəndi şəhərində yerləşən "təhlükəsizlik idarəsi"nin təcridxanasına aparılmış və orada saxlanılarkən rəis müavini, baş leytenant Vaqram Qriqoryanın sorğu-sualına cavab vermədiyinə görə yumruq və rezin dəyənəklə möhkəm döyülmüş, sol ayağından dizdən aşağı dəmirlə vurub ağır fiziki işgəncələr verilmiş, sol əlinin barmaqları sındırılmışdır. Sonradan zədəli yerlərə tikiş qoymaqla BQXK-nın həkimləri tərəfindən müalicə edilmişdir. Bir müddət sonra Nurik, Aşot və Sergey adlı ermənilərin yenidən onu rezin dəyənək, təpik və yumruqla döymələri nəticəsində qulaqlarından qan açılmışdır. Nail Rəcəbov 18 iyul 2000-ci il tarixdə əsirlikdən azad edilmişdir.

Rəcəbov Nazim Rza oğlu – 1959-cu ildə Azərbaycan Respublikası, Qubadlı rayonunun Xocahan kəndində doğulmuşdur. 30 avqust 1993-cü il tarixdə girov götürülmüş, 19 avqust 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

30 avqust 1993-cü ildə Qubadlı rayonunun Xocik kəndi Ermənistan Respublikasının hərbi birləşmələri tərəfindən işğal olunan zaman girov götürülmüşdür. Əvvəlcə onu avtomatın qundağı və təpiklə döymüş, sonra qollarını arxadan məftillə bağlayıb, digər girovlarla birlikdə "Ural" markalı yük avtomobilinə mindirib, Laçın rayonu istiqamətində aparmışlar. Yolda Əvəz Muxtarovu və Rövşən Hüseynovu qəddarlıqla döymüşlər. Buna görə o, əsəbləşib ermənilərı söymüş, ermənilər isə vurub onun başını yarmışlar. Erməni hərbçilər girov götürülmüş Arzu Məmmədovanı anası Şahsənəm Babayevadan ayırıb başqa yerə aparmaq istərkən hər ikisi ağlayıb yalvarmışlar ki, onları ayırmasınlar. Təkrar onları möhkəm döydükdən sonra girovların hamısını "Ural" markalı yük maşınına mindirib, Cəbrayıl rayonunun Dağ Tumas kəndinə aparmışlar. Bundan sonra erməni hərbçilər qadınları Xocavənd rayonuna göndərmiş, kişiləri isə işğal olunmuş ərazilərdə boşaldılmış evlərin tikinti materiallarının sökülüb daşınması və qiymətli tikinti materiallarının qarət olunması işlərinə cəlb etmişlər. Şuşa həbsxanasında saxlanıldığı müddətdə 7 nəfər əsir-girovun erməni nəzarətçilər tərəfindən döyülüb öldürüldüyünün şahidi olmuşdur. Nazim Rəcəbov 19 avqust 1994-cü ildə əsirlikdən azad edilmişdir.

Rəhimov Arif Mövlan oğlu – 1956-cı ildə Azərbaycan Respublikasının Sumqayıt şəhərində doğulmuşdur. 28 iyul 1992-ci ildə əsir götürülmüş, 1 mart 1993-cü il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ağdam rayonunun Aşağı Veysəlli kəndi uğrunda gedən döyüşlərdə ayağından yaralanıb, 7 nəfər əsgər yoldaşı ilə birlikdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Ermənilər onların üst geyimlərini soyundurub, alt paltarda Çartaz kəndinə aparmışlar. Orada saxlanıldıqları 3-4 gün ərzində nəzarətçilər tərəfindən amansız işgəncələrə məruz qalmışlar. Onların gözü qarşısında Lənkəran rayonundan olan bir əsirin ağzına torpaq doldurub, sonra başını kəsmişlər. Elsevər adlı əsiri naməlum istiqamətdə aparmış, sonradan bildirmişlər ki, guya o, qəfil açılan güllədən ölmüşdür. Ancaq digər əsirlərdən eşitdiyinə görə, ermənilər onu işgəncə verib öldürmüşlər. 3-4 gündən sonra əsir-girovları Xankəndinə aparmışlar. Zabit olduğu üçün ona daha çox işgəncələr verilmiş, başqa əsirlərdən ayırıb zirzəmiyə salınmış, polkovnik rütbəli rus zabiti tərəfindən müntəzəm olaraq döyülmüşdür. İki erməni kəlbətinə oxşar alətlə qızıl dişlərini çıxardığı zaman ağrıdan huşunu itirmişdir. Ayıldıqdan sonra onu zirzəmidən çıxarıb şəxsi evə aparmışlar. Həmin evdə 14-15 yaşlarında, əlləri bağlı vəziyyətdə girov qız uşağı da saxlanılırmış. Orada olan üç ermənidən biri ona baxaraq "Bax gör, biz indi nə edəcəyik", – demişdir. Bundan sonra əl-qolu bağlı vəziyyətdə olan qızı hər üçü onun gözü qarşısında zorlamışlar. Sonra onu orta məktəbə aparıb, siniflərə salmış, "Uşaqlar, baxın, bu türkdür, yadınızda saxlayın ki, sizin düşməninizdir", – demişlər. Orada onu mal-qara tövləsində 11 gün saxladıqdan sonra Xankəndi şəhərinin mərkəzinə aparmışlar. Arif Rəhimov və 15-16 nəfərə yaxın əsir-girovu şəhər mərkəzində əl-ayaqları bağlı ətrafdakılara nümayiş etdirmək məqsədilə dirəyə bağlamış, üç gün bu vəziyyətdə saxlamış və şəhər sakinləri hər gün onları daş-qalaq etmişlər. 1993-cü ilin fevral ayında Hadrut rayonuna aparılan Arif Rəhimov, 1 mart 1993-cü il tarixdə əsirlikdən azad olunmuşdur.

Rəhimov Əsgərxan Hüseyn oğlu –1936-cı ildə Azərbaycan Respublikası, Kəlbəcər rayonunun Kilsəli kəndində doğulmuşdur. 31 mart 1993-cü ildə girov götürülmüş, 15 iyul 1993-cü il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü ilin mart ayının 31-də "Tunel" adlanan ərazidə sağ ayağından güllə yarası almış və Ermənistan hərbçiləri tərəfindən girov götürülmüşdür. Onunla birlikdə olan Quliyev İslam Məhəmməd oğlu da ağır yaralanmış və hadisə yerində ölmüşdür. Xankəndi uşaq xəstəxanasının həkimi Eduard Stepanyan heç bir ağrıkəsici dərmandan istifadə etmədən onun topuğunu əl burğusu ilə bir neçə yerdən deşmiş, bundan sonra ayağı əyri bitmişdir. Sonra həkim, müalicə etmək adı ilə onun ayaq damarını qəsdən kəsmişdir. Vaxtında müalicə olunmadığına görə, əsirlikdən azad edildikdən sonra həkimlər ayağını dizdən aşağı kəsmək məcburiyyətində qalmışlar. Xankəndi uşaq xəstəxanasında tibb bacısı işləyən erməni qadın onun bədəninə qəsdən iynə sancıb getmiş, nəticədə iynə qırılıb bədənində qalmışdır. Ağır yaralı olan Laçın rayonunun Şam kənd sakini Səma adlı qadın baxımsızlıqdan xəstəxanada ölmüşdür. Eduard Stepanyan Validə Quliyevanın barmağını qırmış, Tahir Quliyevin bədənində olan yaranı barmağı ilə deşib işgəncəyə məruz qoymuşdur. Əsgərxan Rəhimov 1993-cü il iyul ayının 15-də azad edilmişdir.

Rəhimov İbiş Firudin oğlu – 1953-cü ildə Azərbaycan Respublikası, Ağcabədi rayonunun Arasbar kəndində doğulmuşdur. 27 sentyabr 1989-cu ildə girov götürülmüş, 30 sentyabr 1989-cu il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1989-cu ilin sentyabr ayının 27-də yaylaqdan qayıdarkən həmkəndliləri ilə birlikdə Hadrut rayonunun Tağ-tuğ kəndi ərazisində erməni terrorçu-quldur dəstəsi tərəfindən girov götürülmüşdür. Erməni yaraqlıları girovları meşəlik ərazidə saxlayıb döymüş, təhqir etmiş, qoyun sürülərini və üstlərində olan pullarını əllərindən almışlar. İbiş Rəhimov üç gün saxlandıqdan sonra digər həmkəndliləri ilə birlikdə erməni girovluğundan azad edilmişdir.

Rəhimov Tahir Rəhim oğlu – 1966-cı ildə Azərbaycan Respublikasının Sumqayıt şəhərində doğulmuşdur. 28 dekabr 1993-cü ildə əsir götürülmüş, 20 sentyabr 1994-cü il tarixdə azad olmuşdur. İfadəsində bildirmişdir:

28 dekabr 1993-cü ildə Ağdam rayonunun Boyəhmədli kəndi uğrunda gedən döyüşlər zamanı Ermənistan ordusunun 7-8 nəfərlik kəşfiyyat dəstəsi tərəfindən əsir götürülmüşdür. Erməni kəşfiyyatçılar onu tutduqdan sonra silahını əlindən almış, döyüb dişlərini qırmış, sonra isə Ağdamda yerləşən hərbi hissənin qərargahına aparmışlar. Qərargahda mayor rütbəli erməni onu Azərbaycan tərəfinin hərbi qüvvələri, dislokasiya yerləri və s. barədə sorğu-sual etmişdir. Xankəndində yerləşən 366 saylı motoatıcı alayın cəza otağında saxlanılarkən, "Rıjik" ləqəbli erməni nəzarətçi və mülki ermənilər əsirlərdən nə məqsədlə vuruşduqlarını soruşmuş və onlara müxtəlif üsullarla işgəncələr vermişlər. Zəngilan rayonunun Mincivan qəsəbəsindən olan girovu erməni nəzarətçilər döyüb belini sındırmış, bir nəfər əsirin başını kəsmişlər. Zaqatala rayonunun Muxax kənd sakini Zeynal adlı əsirin dediyinə görə, başı kəsilmiş əsgər onun döyüş yoldaşı olmuşdur. Tahir Rəhimov 20 sentyabr 1994-cü ildə qaçaraq əsirlikdən azad olmuşdur.

Rəhimov Valeh Mirsadıq oğlu – 1940-cı ildə Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Vənənd kəndində doğulmuşdur. 5 dekabr 1991-ci ildə girov götürülmüş, 12 dekabr 1991-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

5 dekabr 1991-ci ildə Ermənistan silahlıları tərəfindən girov götürülüb, Ermənistan Respublikasının Qacaran rayonuna aparılmışdır. Orada erməni yaraqlıları girovlara işgəncələr vermiş, təhqir etmiş, şəxsiyyətlərini təsdiq edən sənədlərini və şəxsi əşyalarını əllərindən almışlar. Onu bir otağa salıb möhkəm döymüş və Naxçıvan Muxtar Respublikasındakı ictimai-siyasi və hərbi vəziyyətlə bağlı sorğu-sual etmişlər. Valeh Rəhimov 12 dekabr 1991-ci ildə Kilid postunda Milli ordu zabitlərinə təhvil verilmişdir.

Rəhimov Xaləddin Şahmar oğlu – 1971-ci ildə Azərbaycan Respublikası, Füzuli rayonunun Aratlı kəndində doğulmuşdur. 23 iyul 1993-cü ildə əsir götürülmüş, 12 may 1995-ci il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Füzuli rayonunun Cuvarlı kəndində yerləşən postda Ermənistan hərbi qüvvələrinin hücumunun qarşısını alarkən sursatları qurtarmış və döyüş yoldaşları – Füzuli rayonunun Ayıbasanlı kənd sakini Mehdiyev Çingiz Tapdıq oğlu və Yuxarı Əbdürrəhmanlı

kənd sakini Məmmədov Aslan Məhərrəm oğlu ilə birlikdə əsir götürülmüşdür. Onları Hadrut rayonunun Edilli kəndində yerləşən 74361 saylı hərbi hissəyə aparmışlar. Hərbi hissənin komandiri polkovnik Qriqoryan Manvel Sedrakoviç olmuşdur. Onunla birlikdə hərbi hissədə Şixəliyev Şəmsi Canəhməd oğlu, Məmmədov Mübariz Telman oğlu, Mehdiyev Çingiz Tapdıq oğlu, Məmmədov Fəxrəddin Musa oğlu və digər əsirlər saxlanılmışdır. Onları maşın qarajında soyuq şəraitdə, ac-susuz saxlamış, müxtəlif ağır işlərdə işlətmişlər. İşlədilərkən də müntəzəm olaraq yerli-yersiz döyülmüş, təhqir olunmuş, işgəncələrə məruz qalmışlar. Döyülməklə yanaşı, təlim keçmiş itləri əsirlərin üstlərinə buraxmış, özləri isə kənarda durub tamaşa edərək əylənmişlər. Dəfələrlə yorğun halda yatdıqları vaxt gecə yarısı qəfildən qışqırıb onları ayağa qaldırmış, avtomatın qundağı ilə, təpiklə döymüş, yatmağa qoymamışlar. Əsirlərə yeməyi it üçün nəzərdə tutulmuş qablarda vermiş və it kimi yeməyi əmr etmişlər. Onu döydükdən sonra ölümlə hədələyib tapança ilə başının üstündən bir neçə dəfə atəş açmış, psixoloji işgəncələr vermişlər. Əsirlərdən biri işgəncələrə, aclığa və susuzluğa tab gətirməyib ölmüşdür. Aslan Məmmədov adlı əsir döyülməkdən kar olmuşdur. Qriqoryan Manvelin Karen adlı 16 yaşlı oğlu Mehdiyev Çingizi və Məmmədov Aslanı avtomatın qundağı ilə döymüş, ovçarka itini əsirlərin üstünə buraxmış, əl-ayaqlarını dişlədib, al qana boyatmaqdan həzz almış, əl çalıb əylənmişdir. Hərbi hissədə qulluq edən alçaqboylu, uzunburun, saçları seyrək, 20 yaşlarında Artur adlı hərbçi ona, Çingizə və Aslana qarşı əsl vəhşilik və amansızlıq nümayiş etdirmişdir. Artur alışqanla əsirlərin üzlərini, bığ və saqqallarını yandırmış, onları ağacla, avtomatın qundağı ilə döymüşdür. Hərbi hissədə qulluq edən mayor rütbəli, ortaboylu, saçı tökülmüş, 30-35 yaşlarında Qaqo onu, Çingizi və Aslanı müntəzəm olaraq təpik və yumruqla döymüş, yerə yıxıb üstlərində o tərəf-bu tərəfə gəzərək təpikləmişdir. Sonra onları Edilli kəndində dəmir qarajda saxlamışlar. Qaraj soyuq, rütubətli və qaranlıq olduğundan xəstələnmişlər. Füzuli rayon sakini Ənvər şəraitsizlikdən qarajda ölmüşdür. Ənvərin meyitini ermənilər yük maşınına qoyub aparmışlar. Həmin hərbi hissədə ortaboylu, başının qabaq hissəsi keçəl, təxminən 40-45 yaşlarında Vaqif adlı erməni onun başına dəmir boru ilə zərbə endirdikdən sonra Azərbaycan bayrağının bir hissəsini ona yedirtmişdir. Vaqif adlı həmin erməni Füzuli rayon sakini Məmmədov Mübariz Telman oğlunu təpiklədikdən sonra araq şüşəsi ilə başına vurmuş, nəticədə şüşə sınmışdır. Zərbənin təsirindən başı partlamış Mübarizi qan aparmışdır. Hərbi hissədə saxlanılarkən həyətə "KRAZ" markalı yük maşını ilə təxminən 10 nəfər azərbaycanlı hərbçinin meyiti gətirilmişdir. Əsirlərə meyitləri boş bir sahəyə daşımağı tapşırmış və orada traktorla qazılmış xəndəyə atdıraraq üstünü basdırmışlar. 1993-cü ilin sentyabr ayının axırlarında onu digər əsirlərlə birlikdə Yerevan şəhərinin Şaumyan rayonunda yerləşən Manvel Qriqoryanın komandir olduğu hərbi hissəyə aparmışlar. Orada ermənilər qabaqlarından qalan yemək tullantılarını əsir-girovlara vermiş, yemək qalıqları olmayanda isə ac qalmışlar. Saxlandıqları yerdə Səfəralı adlı Füzuli rayon sakini aclıqdan ölmüşdür. Ermənistan hərbçilərindən biri işgəncə verərkən Fəxrəddin Məmmədovun burnunu və çiynini sındırmışdır. Varoj adlı erməni hərbçi onu divara dirəyib başının üstündən atəş açmışdır. Xaləddin Rəhimov 1995-ci il mayın 12-də əsirlikdən azad edilmişdir.

Rəsulov İlqar Mövlud oğlu – 1974-cü ildə Azərbaycan Respublikasının Ağdaş rayonunda doğulmuşdur. 15 fevral 1994-cü ildə əsir götürülmüş, 10 may 1996-cı il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

1994-cü ilin fevral ayında Ağdam rayonunun müdafiəsi zamanı mühasirəyə düşüb başından və ayağından güllə yarası almış və yaralı halda əsir götürülmüşdür. Onu Ağdərə rayonunun Meşen kəndində yerləşən hərbi hissəyə aparmışlar. Orada heç bir tibbi yardım göstərilmədən sağ ayağı dizdən aşağı kəsilmiş Azad adlı əsirlə rastlaşmışdır. 1995-ci il mart ayının 30-da hərbi hissə komandiri Qriqoryan Manvel Sedrakoviçin Karen adlı 16 yaşlı oğlu onu və Azadı 3-4 erməni əsgərlə birlikdə "UAZ" markalı maşına mindirib Ağdərə-Kəlbəcər yolu ilə aparmışdır. Bir müddət getdikdən sonra maşını saxlatdıran Karen yolun kənarında ona qəbir qazdırmışdır. Qəbir hazır olduqdan sonra Karen snayper tüfəngi ilə Azadın başından vurmuş, hələ də nəfəsi gəlməsinə baxmayaraq, onu qəbirə atdırıb, üstünü torpaqlatdırmışdır. Karen İlqarı müntəzəm olaraq təpik, yumruq və tapançanın dəstəyi ilə döymüş, yaşının az olmasına baxmayaraq, digərlərindən qəddarlığı ilə seçilmişdir. 1995-ci il sentyabrın 15-də kapitan rütbəli Lyova onu maşına mindirib Yerevan şəhərindəki 5-ci tabora aparmışdır. Orada Ermənistan hərbçiləri gündə bir neçə dəfə onu avtomatın qundağı, rezin dəyənək və burazla döymüşlər. Nəticədə sol qolu iki yerdən sınmış, müalicə edilmədiyindən sümüyü əyri bitişmişdir. Onu taborun həyətində müxtəlif ağır işlərə cəlb etmiş, yaralı olmasına baxmayaraq, qul kimi davranmışlar. İlqar Rəsulov 1996-cı il mayın 10-da əsirlikdən azad edilmişdir.

Rəsulov Nəzər Gülalı oğlu – 1969-cu ildə Azərbaycan Respublikası, Göyçay rayonunun Qızılağac kəndində doğulmuşdur. 12 mart 1994-cü ildə əsir götürülmüş, 10 may 1996-cı il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

1994-cü ildə Azərbaycan torpaqlarının müdafiəsi zamanı gedən döyüşlərdə əsir götürülmüş, Xankəndində, Ağdamda, Şuşada, Xocavənd rayonunun Mısmına kəndində saxlanmışdır. Əsirlikdə olduğu müddətdə dəhşətli işgəncələrə məruz qalmış, bir neçə dəfə bədənində və üzündə siqaret söndürmüşlər. Nəzarətçilər avtomat gilizinin içərisinə bərk kağız qoyub, yaxınlıqdan qoluna atəş açmışlar. Atəş nəticəsində əmələ gəlmiş yaranın içərisinə barıt töküb yandırmış, sonra isə armaturla huşunu itirənə qədər başından və böyrəyindən zərbələr endirmişlər. Onu dəfələrlə avtomatın qundağı və armaturla, dəyənəklə döymüşlər. Şuşada saxlanıldığı zaman gözünün qarşısında adlarını bilmədiyi 5 əsiri güllələyib qətlə yetirmişlər. Nəzər Rəsulov 10 may 1996-cı ildə əsirlikdən azad edilmişdir.

Rəşidov Təvəkkül Qədir oğlu – 1972-ci ildə Azərbaycan Respublikası, Xocavənd rayonunun Əmirallar kəndində doğulmuşdur. 2 oktyabr 1992-ci il tarixdə əsir götürülmüş, 10 dekabr 1992-ci ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

1992-ci ilin oktyabr ayında Xocavənd rayonunun Əmirallar kəndi uğrunda gedən döyüşlər zamanı Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Erməni hərbçilər ona və digər əsir-girovlara ağır işgəncələr vermiş, avtomatın qundağı və təpiklə vəhşicəsinə döymüşlər. Sonra onu kazarmaya aparmış, orada çarpayının ayağına

bağlayıb sinəsinə qızdırılmış dəmirlə xaç şəkilli damğa vurmuşlar. Təvəkkül Rəsulov 10 dekabr 1992-ci ildə əsirlikdən azad edilmişdir.

Rüstəmov Adil Baxşı oğlu – 1974-cü ildə Azərbaycan Respublikasının Xaçmaz rayonunda doğulmuşdur. 22 fevral 1994-cü ildə əsir götürülmüş, 7 dekabr 1995-ci il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Füzuli rayonunun Seyidəhmədli kəndinin müdafiəsi zamanı həmkəndlisi Useynov Roman Nəriman oğlu ilə birlikdə yaralı halda əsir götürülmüşdür. Ermənilər onu huşunu itirənədək avtomatın qundağı, dəmir, taxta və s. küt alətlərlə döymüş və nəticədə 3-4 gün huşsuz halda qalmışdır. Ayılarkən Füzuli rayonunda Hərbi Polisin tualetinə atıldığını görmüşdür. Romanın taleyindən isə bu günədək heç bir xəbər yoxdur. Əsirlikdə saxlanıldığı üç ay ərzində ermənilər tərəfindən odun parçası, rezin dəyənək, avtomatın qundağı və s. ilə hər gün amansızcasına döyülüb, ac-susuz saxlanılmışdır. Erməni hərbçilər Füzuli rayon sakini Adil adlı azərbaycanlının evindən qərargah kimi istifadə etmişlər. Qərargahda Sejan adlı erməni general otururmuş. Onu həmin qərargaha gətirib xeyli işgəncə vermişlər. Başına bel sapı ilə vurmuş, öldürməklə hədələmiş, üstünə benzin töküb kibrit çəkib yandırmaqla, tapançanı ağzına soxub tətiyi çəkməklə qorxutmuş və bundan ləzzət almışlar. Gündüzlər 12 erməni evinin odunla təmin olunmasında, otaqların yuyulub təmizlənməsində işlədir, gecələr isə binanın ayaqyolusunda saxlayırdılar. May ayında Hadrut rayonunun Tağasır kəndinə aparılmış və tövləyə salınmışdır. İki ay müddətində hər gün ağır və alçaldıcı işlərdə qul kimi işlədilmiş, müntəzəm olaraq döyülərək işgəncələrə məruz qalmışdır. Hadrut rayonundan, ayağını itirmiş Aşot adlı şikəst bir erməni əlindəki dəmir qoltuq ağacları ilə hər gün onu döymüş, sol əlinə, kürəyinə güclü zərbələr endirmişdir. Onu uçuq binaların təmiri, yol tikintisi, odun doğramaq və s. kimi işlərdə ac-susuz işlətmişlər. İyul ayında Tuğ sovxozundan Ağabekyan Artur adlı komandirin əmri ilə Böyük Tağlar kəndinə aparılmış və orada sökülmüş evlərin materiallarından komandir üçün yeni ev tikilməsində və yol çəkilməsində işlədilmişdir. İşlərin əziyyətli və ağır olmasına baxmayaraq, ermənilər əsir-girovları hər axşam döyüb işgəncələrə məruz qoymuşlar. Onlara təhlükəli vəziyyətdə qalmış 7-8 partlamamış minanı da çıxartdırmışlar. Avqust ayında onu Hadrut rayonunun Tağlar kəndinə aparmışlar. Orada Cəbrayıl rayonundan Mehdiyev İlqar, Ağdam rayonundan İlqar və adını bilmədiyi daha bir nəfər də saxlanılırmış. Erməni nəzarətçilərdən Vladik, Sergey, Serjik və Kamonun nəzarəti altında əsirləri yol tikintisində işlədir və hər gün işdən sonra onlar tərəfindən dəhşətli dərəcədə döyülürmüşlər. 7 yanvar 1995-ci ildə onu Xankəndinə aparıb "təhlükəsizlik idarəsi"nin təcridxanasına salaraq, 4 nəfər erməni rezin dəyənəklə huşunu itirənədək döymüşlər. Birlikdə saxlanıldığı Aleksandr Suslovu da eyni tərzdə vəhşicəsinə döymüşlər. Orada saxlanıldığı müddətdə bir dəfə də olsun yuyunmamış, həddindən artıq uzanan saqqalını qırxa bilməmiş və bu səbəbdən onu bit basmışdır. Sentyabrın 7-də Şuşa həbsxanasına aparılmışdır. Orada verilən işgəncələr nəticəsində 15 sağlam dişi qırılmış, həbsxana rəisi çənəsini sındırmışdır. Ağrıkəsici dərman istifadə edilmədən çənəsində necə gəldi cərrahiyyə əməliyyatı aparılmışdır. Kəskin ağrıdan huşunu itirməsinə baxmayaraq, yenicə qurtarmış əməliyyatdan sonra bir erməni onu təkrar vəhşicəsinə döymüşdür. Noyabr ayının 17-də BQXK nümayəndələri tərəfindən qeydiyyata alınmışdır. BQXK nümayəndələri tərəfindən əsir-girovlara

verilən ərzaq və paltarları erməni nəzarətçilər əllərindən almış, bu barədə nümayəndələrə məlumat verməməyi tapşırmışlar. Sonradan çənəsinin sınmış yeri baxımsızlıqdan irinləməyə başlamış, BQXK əməkdaşlarının tələbi ilə onu Xankəndindəki uşaq xəstəxanasına aparmışlar. Adil Rüstəmov 7 dekabr 1995-ci ildə əsirlikdən azad olunmuşdur.

Rüstəmov Azad Rəcəb oğlu – 1970-ci ildə Azərbaycan Respublikasının Mingəçevir şəhərində doğulmuşdur. 24 yanvar 1994-cü il tarixdə əsir götürülmüş, 7 dekabr 1995-ci ildə azad olunmuşdur. İfadəsində bildirmişdir:

24 yanvar 1994-cü il tarixdə gedən döyüşlərdə yaralanmış, huşsuz vəziyyətdə əsir götürülmüşdür. Xankəndi və Şuşa həbsxanalarında, Xocavənd rayonunun Mısmına kəndində saxlanılmışdır. Bu müddət ərzində onlara "türk" deyib küt alətlərlə, armatur və naqillə bədənlərinin müxtəlif hissələrinə zərbələr endirmişlər. Silah gücü ilə əsirlərin əksəriyyətini bir-biri ilə cinsi əlaqəyə girməyə məcbur etmişlər. 1994-cü ilin yay aylarında Şuşa həbsxanasında Bakı şəhər sakini Nadir adlı əsirin işgəncələrə dözməyib elektrik xəttindən yapışaraq intihar etməsinin, Beyləqan rayonundan olan Natiq adlı digər əsirin aldığı bədən xəsarətlərindən kamerada ölməsinin və əsir yoldaşları tərəfindən qəbiristanlıqda basdırılmasının şahidi olmuşdur. 1994-cü ilin yayında Xankəndindən Şuşa həbsxanasına aparılarkən, onların getdiyi maşına qoyulmuş Elman adlı əsirin meyitinə baxarkən onun qarnının sarı məftillə tikilməsini, cəsədin yolun başlanğıcında qarın altında basdırıldığını görmüşdür. Azad Rüstəmov 7 dekabr 1995-ci il tarixdə əsirlikdən azad olunmuşdur.

Rüstəmov Barxudar Fərhad oğlu – 1962-ci ildə Azərbaycan Respublikası Laçın rayonunun Hacılar kəndində doğulmuşdur. 2001-ci ilin sentyabr ayının 12-dən noyabr ayının 3-dək girovluqda olmuşdur. İfadəsində bildirmişdir:

Doğulduğu torpağı görmək məqsədlə 2001-ci ildə Gürcüstan Respublikasının Sadaxlı kəndinə getmişdir. Orada Malik adlı şəxslə tanış olub istəyini ona bildirmiş, Malik onu Artyom və Artur adlı ermənilərlə tanış etmişdir. Artyomdan onu Gorusa aparmağı xahiş etmiş, orada valideynlərinin öz evlərində gizlətdiyi zinət əşyalarını götürəcəyi təqdirdə, yarısını onlara verəcəyini bildirmişdir. Artyom təkliflə razılaşıb, özü ilə Armen və Artek adlı ermənləri də götürmüşdür. Sentyabr ayının 3-də onlar maşınla Ermənistanın Gorus rayonuna getmişlər. O, Gorusun Xənəzər kəndində ermənilərdən aralanmağa imkan tapıb Laçının Hacılar kəndinə getmişdir. Kənddə olan evlərin sökülüb talan edildiyinin, qəbiristanlığın dağıdıldığının, meşələrin qırıldığının şahidi olmuş, yaşadığı evin yalnız divarlarının qaldığını görmüşdür. 8-9 gün gizlənib kənddə qalmış, bu müddətdə ermənilərin kəndlərində mal-qara saxlamaqla məşğul olmasını, Laçın rayonunun Qarıqışlaq, Sadınlar, Ağoğlan, Malıbəy kəndlərində nəqliyyatın hərəkət etdiyini müşahidə etmişdir. O, geri dönməyi qərara alıb Gorusa qayıtmış, şəhərdə İran maşınlarına yaxınlaşıb bir neçə sürücüdən onu Gürcüstana aparmağı xahiş etmiş, lakin onlar razılaşmamışlar. Sonra erməni taksi sürücüsünə yaxınlaşıb onu Gürcüstan Respublikasının Sadaxlı kəndinə aparmasını xahiş etmişdir. Əvvəlcə razılığa gəlsələr də, 50-100 metr məsafə getdikdən sonra sürücü maşını saxlayıb gedə bilməyəcəyini söyləmişdir. 10-15 dəqiqədən sonra bir erməni polisi ona yaxınlaşıb sənədlərini tələb etmiş, sənədlərinin olmadığını bildirəndə, onu Polis idarəsinə aparmışdır. Orada gürcü

olduğunu desə də, qarşı tərəf onun azərbaycanlı olduğunu anlamış və zəng vurub Ermənistanın Təhlükəsizlik idarəsinə məlumat vermişdir. Növbəti gün Ermənistanın Gorusda yerləşən Təhlükəsizlik idarəsinə aparılmışdır. Təcridxanada olarkən əl-qolu bağlı vəziyyətdə polis işçiləri tərəfindən döyülüb işgəncələrə məruz qalmışdır. Sonra onu Yerevana aparmışlar. Hər dəfə yalnız BQXK nümayəndəsinin gəlişindən əvvəl ona yastıq və adyal verirmişlər. BQXK nümayəndəsi Matvey vaxtaşırı kameraya gələrək onunla maraqlanmış və beləliklə, 35-40 gün onların nəzarəti altında orada saxlanılmışdır. Barxudar Rüstəmov 2001-ci ilin noyabr ayının 3-də girovluqdan azad edilmişdir.

Rüstəmov Bayram Hüseyn oğlu – 1960-cı ildə Azərbaycan Respublikası Qubadlı rayonunun Qarağaclı kəndində doğulmuşdur. 27 avqust 1993-cü il tarixdə girov götürülmüş, 23 oktyabr 1995-ci il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

1993-cü ilin avqust ayında 9 nəfər həmkəndlisi ilə birlikdə girov götürülmüşdür. Ermənilər onunla birlikdə saxlanılan Mehman Əliyev, Kərəm Yusifov, Şəmil Məmmədov və Zakirə işgəncələr vermiş, avtomatın qundağı və armaturla başlarına, ayaqlarına zərbələr endirmişlər. Növbəti gün onları Xankəndində yerləşən hərbi hissənin təcridxanasına aparmışlar. Orada erməni zabitlər Armen və Maksim əsirləri bir-bir aparıb amansızcasına döymüşlər. Zakiri, Füzuli rayon sakini Arifi və Ağdam rayonundan olan Şuranı işgəncə verib öldürmüş, meyitlərini girovlar basdırmışlar. Onunla birlikdə saxlanılmış Hüseynov Kərəm, Qaraşov Əlizamin, Ağsudan Maqsud da bu hadisələrin şahidi olmuşlar. Girovluqda olarkən Slavik adlı erməni nəzarətçi Hüseynov Cavid Ağa oğluna şiddətli işgəncələr verərkən ağrılara dözə bilməyib nəzarətçiyə "Adama elə işgəncə verməzlər", – dediyi üçün Slavik armaturla başından vurub onu yerə yıxmış, bundan sonra bir neçə erməni üstünə düşüb rezin dəyənəklə, təpiklə döymüş, huşunu itirdikdən sonra aparıb kameraya atmışlar. Bayram Rüstəmov 23 oktyabr 1995-ci il tarixdə azad olunmuşdur.

Rüstəmov İlqar Malik oğlu – 1967-ci ildə Azərbaycan Respublikasının Əli-Bayramlı (indiki Şirvan) şəhərində doğulmuşdur. 23 avqust 1993-cü ildə əsir götürülmüş, 22 fevral 1994-cü il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

1993-cü il avqust ayının 23-də Füzuli rayonunun Kürdmahmudlu kəndinin müdafiəsi zamanı ayağından yaralanıb əsir götürülmüşdür. Onunla birlikdə bir neçə əsiri də tankın üstünə bağlayıb Xocavənd rayonuna aparmışlar. Orada huşunu itirmiş vəziyyətdə daha iki əsirlə rastlaşmışdır. Ermənilər onların başlarını hovuzun içinə salıb boğulma dərəcəsinə çatanadək saxlayır, sonra bayıra çıxarır, təzədən suya basırmışlar. Əsirlərdən birini döyüb ayaqlarını şikəst etmişdilər. İşgəncələrdən əsirlərin bir-biri ilə danışmağa belə taqəti qalmırmış. Orada saxlandıqları iki gün ərzində əsir-girovları müntəzəm döymüş, səhərədək işgəncələr vermiş, ayaq üstə saxlayıb danışmağa icazə verməmişlər. Kiminsə səsi eşidilsə və ya oturmaq istəsə, onu bayıra çıxarıb əlavə möhkəm döyürmüşlər. Bir müddət sonra onu və digər bir əsiri Şuşa həbsxanasına aparmışlar. Bu həbsxanada əsirlərlə heyvan kimi davranırmışlar. Həbsxananın həyətinə tökülmüş ağır daşları heç bir zərurət olmadan o tərəf-bu tərəfə daşıtdırır, huşunu itirən əsirləri sürüyüb kameraya atır, ayılanadək başlarını soyuq suya salıb saxlayırmışlar. Əsir-girovları lom, bel, avtomatın qundağı, rezin dəyənək, təpiklə döyürmüşlər. Əsirləri bir-birini döyməyə, zorlamağa məcbur

edirmişlər. Orada onun sinəsinin üstünə çıxıb əsgər çəkmələri ilə təpikləyib sol qabırğalarını qırmışdılar. Onu bu vəziyyətdə ağır işlər görməyə məcbur etmiş, iti uclu armaturu topuğundan yuxarı ayağına keçirmişlər. Nəticədə armatur ayağında ikitərəfli dəlik əmələ gətirmişdir. Əvvəllər Bakı şəhərində yaşamış, Şuşa həbsxanasının aşpazı Laura adlı qadın onun qulağını kəsmək istəmiş, bıçağı qulağına keçirərkən bir erməni əsgər yoxlamanın gəldiyini bildirmiş və onu buraxmışlar. Laura əsirlərlə qəddarcasına rəftar etmiş, onların döyülmə səhnələrini təşkil edib əylənmişdir. Sonra onu Şuşa alayına aparıb vəhşicəsinə döymüşlər. Çoxlu qan itirsə də, heç bir tibbi yardım göstərilməmişdir. Hərbi hissənin zirzəmisində onu dizə qədər suyun içində saxlamışlar. Orada 60-70 yaşlarında bir qoca kişini döyə-döyə öldürmüş, meyitini onlara basdırtmışlar. Alayın komandiri Vaçaqan adlı erməni olmuşdur. Onu və digər əsirləri Vaçaqanın xalası oğlu Aram adlı erməni müntəzəm olaraq döymüşdür. Aram hər gün onları sıraya düzüb idmançı olduğunu deyib, əsirləri döyməklə məşq etmişdir. Əsir-girovları hərbi hissənin həyətində ağır işlərə cəlb etmişlər. Ermənilər onun kürəyinə iynə ilə naməlum məhlul yeritmiş, o, bundan sonra keyləşib heç nə hiss etməmişdir. Bu iynə bir neçə dəfə vurulduğu üçün onda yaddaş pozğunluğu yaranmışdır. Hərdən üstlərinə təlim görmüş itlər buraxmışlar. Bu zaman it Salyandan Məmmədov Vəliəhdi parçalamış, digər bir əsirin cinsiyyət orqanından yapışıb sürümüşdür. Qan içində çabalayıb bağıran həmin əsiri ermənilər harasa aparıb, bir daha geri qaytarmamışlar. İlqar Rüstəmov 22 fevral 1994-cü il tarixdə azad olunmuşdur.

Rüstəmov Üzeyir Əşrəf oğlu – 1960-cı ildə Azərbaycan Respublikasının Cəbrayıl rayonunda doğulmuşdur. 23 avqust 1993-cü ildə əsir götürülmüş, 11 oktyabr 1993-cü il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

1993-cü il avqustun 23-də Cəbrayıl rayonu ərazisində gedən döyüşlər zamanı əsgər yoldaşları Səfiyev Yusif Oruc oğlu və Mehdiyev İlqar Ərşad oğlu ilə birlikdə əsir götürülmüşdür. Ermənistan hərbçiləri onların əllərini və gözlərini bağlayıb əvvəlcə pendir zavodunun həyətinə, sonra Milis idarəsinə aparmış, orada hər üçünü möhkəm döymüşlər. Bir müddətdən sonra Hadrut rayonunda yerləşən hərbi hissəyə aparıb binanın zirzəmisinə salmışlar. Zirzəmidə saxlanılan daha yeddi əsir-girovla rastlaşmışlar. Orada Zakir, Camal, Azər, Füzuli rayonundan üç nəfər qadın və adını unutduğu bir kişi saxlanılırmış. Əsir-girovları rezin dəyənək və müxtəlif əşyalarla müntəzəm olaraq vəhşicəsinə və xüsusi qəddarlıqla döymüş, Şükürün qabırğalarını, Camalın isə burnunu sındırmışlar. Bir müddət sonra Cəbrayıl rayonundan İsmayılov Ramazanı, onun atası Məhəmmədi, Qurbanov Mürvəti və onların ahıl qohumu Maqsudov Əhmədi də qaldığı kameraya salmışlar. Yeni gətirilən girovlar erməni milislər tərəfindən vəhşicəsinə döyüldüklərindən qan içində olmuş, qabırğaları, qolları qırılmış, başları yarılmışdı. Yeni gətirilənlərin verdiyi məlumata görə, onlarla birlikdə girov götürülənlərin bir neçəsi işgəncə nəticəsində ölmüşdür. Hərbi hissəyə aparıldıqları günün səhəri yanlarına İmişli rayonundan iki qardaş – Seyid və Ağarəzi adlı girovları da gətirmişlər. Sonra əsir-girovları Hadrut rayon Milis idarəsinə aparmış, orada milis əməkdaşları onları dəhşətli dərəcədə döymüşlər. Manvel adlı milis nəfəri əsir-girovlara qəddarlıqla işgəncələr verir, kimsə xoşuna gəlməyəndə, Yerevana aparıb döyüşdə övladını itirmiş erməni valideynlərin gözü qarşısında başını kəsirmiş. Manvel tərəfindən döyülərkən Mürvətin başı yarılmış və xeyli qan itirmişdir. Vəziyyəti ağırlaşdığı üçün onu xəstəxanaya aparmış, orada tələbələr

Mürvətin üzərində təcrübə keçmişlər. Ağrıkəsici iynə vurmadan əziyyət verə-verə Mürvətin başına tikiş qoymuşlar. Müalicə aparılmadığı üçün bir müddətdən sonra tikişin yeri irinləməyə başlamış, yenə də heç bir tibbi yardım göstərilməmişdir. Üzeyir Rüstəmov 11 oktyabr 1993-cü il tarixdə əsirlikdən azad olunmuşdur.

Rzayev Balış Nəbi oğlu – 1921-ci ildə Azərbaycan Respublikası, Ağdam rayonunun Sarıcalı kəndində doğulmuşdur. 23 iyul 1993-cü ildə girov götürülmüş, 29 iyul 1994-cü il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ağdam rayonunun Ermənistan hərbçiləri tərəfindən işğalı zamanı dörd nəfər silahlı erməni onun yaşadığı evə soxularaq onu tutub həmkəndlisi Şahmarın evinə aparmış, orada girov saxlanılan əmisi oğlu Əsgərlə rastlaşmışdır. Bir qədər orada saxlandıqdan sonra hər ikisini Ağdam rayon İcra Hakimiyyətinin binasının qarşısındakı qaraja salmışlar. Orada birlikdə saxlanılan 5-6 girovdan yalnız Abdullayev Ərşad Əvəz oğlu, Ağdam rayonundan olan ruhi xəstə Şərqiyyə və ruhi xəstə Elman adlı şəxsləri xatırlayır. Əmisi oğlu Əsgəri və rus millətindən olan digər bir girovu onlardan ayırıb naməlum istiqamətə aparmışlar. Qarajda saxlanıldıqları üç gün ərzində sahibsiz evlərin talan olunmasında istifadə olunmuşlar. Sonra əsir-girovları Xankəndi hərbi şəhərciyinə aparmışlar. Döyüş zamanı ermənilərdən ölən olduqda, nəzarətçilər kameraya daxil olur, əsir-girovları döyür, onlara ağır işgəncələr verirmiş. Bir dəfə həbsxananın rəisi Vladik onu yanına çağırıb, işləməməsinin səbəbini soruşmuş, cavabında əlinin şikəst olduğunu, yaşının 75-i ötdüyünü və sağlamlıq durumunun pis olduğunu bildirmişdir. Vladik əsir-girovlar barədə ona məlumat çatdırmağı təklif etmiş, lakin o, təklifdən imtina etdiyi üçün rezin dəyənəklə onu döydürmüş, yenidən zirzəmiyə atdırmışdır. Orada 8 gün taqətsiz və huşsuz vəziyyətdə qalmışdır. Ermənilər İbrahim adlı girovu vəhşicəsinə döydükləri üçün öskürəndə onun ağzından qan gəlirmiş. Füzuli rayonundan 24-25 yaşlarında bir əsiri amansızcasına döyüb öldürmüşlər. Dörd aydan sonra Abdullayev Ərşad istisna olmaqla, digər əsir-girovları Xankəndi uşaq bağçasına aparmışlar. Onunla saxlanan əsir-girovlardan – Kəlbəcər rayon sakinləri Şahverdiyeva Sərvinaz Məhərrəm qızı, Quliyeva Gülcamal Binnət qızı, Alışanova Tamara Göyüş qızı, Məmişova İmarət Məmmədəli qızı və hansı rayondan olduqlarını bilmədiyi Rəhim, Məmmədov Nəriman Qaraxan oğlu, Lətif və onun həyat yoldaşı – Məmmədova Arzu Ümid qızını xatırlayır. Orada bir çörəyi hərəsində 3 dişləm olmaqla 12 hissəyə bölüb əsir-girovlara paylayırmışlar. Qarlı-şaxtalı günlərdə yandırmaq üçün odun verməmiş, isinmək üçün onlar zibilləri yığıb yandırmışlar. Girov saxlanılan Şərqiyyənin qızıl dişlərini adi kəlbətinlə əzab verə-verə çəkmişlər. Füzuli rayonundan olan iki nəfər yaşlı qadın və bir yaşlı kişinin acından öldüyünün şahidi olmuşdur. Gülcamal adlı hamilə vəziyyətdə girov götürülmüş qadının uşaq bağçasında doğulan oğlunun adını ermənilər Andranik qoymuşlar. Nəzarətçi Merojyan iki girov qadını *(adları məlumdur – tərt.)* zorlamışdır. Balış Rzayev 29 iyul 1994-cü il tarixdə girovluqdan azad olunmuşdur.

Rzayev Mirzə Əli oğlu – 1939-cu ildə Azərbaycan Respublikasının Ağdam şəhərində doğulmuşdur. 12 iyul 1993-cü ildə girov götürülmüş, 8 iyun 1995-ci il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Ermənistan hərbi birləşmələri Xocavənd rayonuna hücum edərkən, Həsənov Əliağa, Qasımov Yaqub və Hacıyev Elfaqla birlikdə girov götürülmüşdür. Onları avtomatın qundağı, təpik və yumruqla döyə-döyə Şuşa həbsxanasına aparmış və qaranlıq zirzəmiyə salmışlar. Zirzəmidə 30 nəfərə yaxın əsir-girov saxlanılırmış. Nəzarətçilər hər gün onları həbsxananın həyətində it kimi hürməyə, yerdə sürünməyə, bir-birilə döyüşməyə məcbur etmiş, vaxtaşırı döyüb işgəncələrə məruz qoymuşlar. Bir müddət sonra onları aparıb Xankəndindəki 4 saylı taborun zirzəmisinə salmış, orada 13 ay saxlamışlar. Orada da Ermənistan hərbçiləri əsir və girovlara dəhşətli işgəncələr vermiş, əsirlərdən birini su şüşəsinin üstündə oturmağa məcbur etmişlər. Mirzə Rzayev 8 iyun 1995-ci ildə girovluqdan azad edilmişdir.

Rzayev Tofiq Əjdər oğlu – 1976-cı ildə Azərbaycan Respublikasının Ağdam rayonunda doğulmuşdur. 1993-cü il iyul ayının 23-dən 29-dək erməni girovluğunda olmuşdur. İfadəsində bildirmişdir:

1993-cü ilin iyul ayında Ermənistan hərbçiləri tərəfindən girov götürülüb, işğal edilmiş Xankəndində və Ermənistanın Yerevan şəhərlərində saxlanılmışdır. Girovluqda saxlanıldığı zaman başının arxa hissəsindən küt alətlə zərbə endirib kəllə sümüyünü sındırmışlar. Tofiq Rzayev 29 iyul 1993-cü ildə girovluqdan azad edilmişdir. Hazırda ruhi xəstədir.

Rzayev Xaqani Məhərrəm oğlu – 1974-cü ildə Azərbaycan Respublikasının Salyan rayonunda doğulmuşdur. 31 yanvar 1994-cü ildə əsir götürülmüş, 12 may 1995-ci il tarixdə azad olunmuşdur. İfadəsində bildirmişdir:

Döyüş bölgəsində huşsuz vəziyyətdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Özünə gələndən sonra atışma zamanı öldürülmüş 7 nəfər döyüş yoldaşının meyitlərinin yandırılmasının şahidi olmuşdur. Sonra onu Ermənistanın Yerevan şəhərinə aparıb Təhlükəsizlik Nazirliyinin zirzəmisinə salmışlar. Orada saxlanılan əsir-girovlara fiziki və mənəvi işgəncələr vermişlər. Yerevan Təhlükəsizlik idarəsinin əməkdaşı onun əlinə yanar siqaret basmışdır. İşgəncələrə dözməyən Gəray adlı əsir intihara cəhd etmiş, lakin qarşısı alındığı üçün sağ qalmışdır. Gəray döyülmələr barədə BQXK nümayəndəsinə məlumat verdiyi üçün, sonradan onu təkrar qəddarcasına döymüşlər. Əsirlikdə aldığı işgəncələr nəticəsində böyrək çatışmazlığından əziyyət çəkir, qaraciyər, epilepsiya xəstəliklərinə tutulmuş, ayağında isə 1 güllə hələ də qalmaqdadır. Xaqani Rzayev 12 may 1995-ci il tarixdə əsirlikdən azad olunmuşdur.

Rzayev Zaur Vahid oğlu – 1975-ci ildə Azərbaycan Respublikası Saatlı rayonunun Əlisoltanlı kəndində doğulmuşdur. 27 aprel 1994-cü il tarixdə əsir götürülmüş, 13 dekabr 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Füzuli rayonunun Alxanlı kəndinin müdafiəsi zamanı onunla döyüşən 500-600 hərbçidən yalnız 50-60 nəfəri sağ qalmış, digərlərini isə Ermənistan hərbi birləşmələri mühasirəyə salıb, iriçaplı silahla qətlə yetirmiş, yaralılar qaçarkən onların üstündən tankla keçmişlər. Ermənilər yaralıların ciblərini axtarmış, onlara aid sənəd və əşyaları götürmüşlər. Döyüş zamanı "AKM" markalı avtomatın gülləsi onun çiynindən dəyib bel sümüyünü zədələdiyindən, ağzından qan axmış və huşunu itirmişdir. Ayıldıqda bir

ermənin onları söyə-söyə təpiklədiyini və yanlarında ermənilərə məxsus tankın dayandığını görmüşdür. Ermənilər onu, Masallı rayonundan Famili və Bağıyev Tofiq Rafiq oğlunu tankın üstünə bağlayıb Ağdamın Güllücə kəndində yerləşən hərbi hissəyə aparmışlar. Orada hərbi formalı kök qadın ona və Bağıyev Tofiqə baxıb, ayağı ilə o üzbu üzə çevirmişdir. Sonradan onun Elmira Ağayan olduğunu öyrənmişdir. E.Ağayan əli ilə işarə edib, Famili göstərdikdən sonra iki erməni hərbçi onu sürüyə-sürüyə 30-40 metr kənara aparıb məftil torlu hasara söykəmişlər. E.Ağayan onların gözü qarşısında Famili güllələmiş, onun meyiti orada qalmışdır. Tofiqi də güllələmək məqsədilə aparmaq istəyəndə BQXK nümayəndəsi, isveçrəli Velina adlı qadın ora gəlmiş və əsirlərin ikisini də öz maşınına mindirib Xankəndi uşaq bağçasına aparmış, Familin güllələnməsinə heç bir reaksiya verməmişdir. Xəstəxanada o, Mehdiyev Tərlan Əlövsət oğlunun, İmişli rayon sakini Əhmədov Rasət Əhməd oğlunun, Atilla Yumak, Məhəmmədəli Əmir İbrahimin, Hüseynin, Qubadlı rayon sakini Rəcəbov Nazim Rza oğlunun, İmişli rayon sakini Ağarəzi Ağakərim oğlunun, Qubadlı rayonundan İlhamın, Füzuli rayon sakini Səfərov Bəxtiyar Azay oğlunun, Rəsulun, Siyəzən rayonundan Qəniyev Ariz Məhərrəm oğlunun, Raisanın, Nuxiyeva Sevil Vaqif qızının, Raisanın 11-13 yaşlarında adlarını bilmədiyi iki qızının və Quliyeva Lətafət Müseyib qızının saxlanıldığını görmüşdür. Xankəndi xəstəxanasında saxlanılarkən onların yanına gətirilmiş erməni məktəblilər əsir-girovları döymüş və təhqir etmişlər. Erməni döyüşçü dəmir lomla onun başını yarmış, nəzarətçilər isə bədənini yanar siqaretlə dağlamışlar. Jirik adlı nəzarətçi onun əzablarını daha da artırmaq üçün qoltuq ağacı ilə başındakı yaraya vurub təzədən qanatmışdır. Uşaq xəstəxanasında saxlanılarkən, Surik adlı nəzarətçi sərxoş vəziyyətdə otağa daxil olub əsir-girovları ayağa qaldırıb sıraya düzmüş, Məhəmmədəli Əmir İbrahimi isə ayağından yaralı olduğundan qalxa bilməmiş, bu zaman Surik tapança ilə ona atəş açarkən Suriklə birlikdə gələn erməni onu itələmiş və nəticədə güllə Məhəmmədəlinin qolunu yaralamışdır. Surik həkim çağırıb Məhəmmədəlinin yarasını sarıtdırmış və qolunun yarasını BQXK nümayəndələrindən gizlətməsini tapşırmışdır. Surik xəstəxanada yaralıları bir-birinin belinə minib o tərəf-bu tərəfə qaçmağa məcbur etmişdir. Surik onu ələ salmaq üçün çarpayının altında mina axtarmağı əmr etmiş, çarpayının altında mina olmadığını deyərkən, onu qalxmağa qoymamış, döşəmə ilə sürünməyə məcbur etmişdir. Sonra tapançanı başına dirəyib ona ""Part" sözü de ki, guya minaya düşüb partladın və arxası üstə yıxılıb qışqır, guya öldün", – demişdir. Surikin dediklərini etdikdən sonra təpiklə onun qarnına və ağzına vurub "Uzanıb burada qalası deyilsən ki, qalx ayağa", – deyərək əylənmişdir. Jirik, Qor və Surik adlı nəzarətçilər əsir-girovları mütəmadi olaraq, avtomatın qundağı, rezin dəyənək, kastel, tapançanın arxası ilə vəhşicəsinə döymüşlər. BQXK nümayəndələrinin verdiyi paltar və ərzağı əllərindən alıb onları ac-susuz, cırıq paltarda saxlamışlar. Əsir-girovları döşəmədə, çarpayıların altında süründürmüş, yanan siqareti üz nahiyələrində, bədənlərinin müxtəlif hissələrində söndürmüşlər. Jirikin əmri ilə əsirləri bir-biri ilə döyüşməyə məcbur etmişlər. Orada 30 yaşında Raisa, 40 yaşında Məxmər, 24 yaşında Sevil, 30 yaşında Lətafət, 11-13 yaşlarında iki azyaşlı qız uşağı saxlanılırmış. Onları təmizlik işlərində işlədirmişlər. Jirik, Rasətin əsasını götürüb qarşısına çıxan girovları döymüş, 10-12 metrlik dəhlizdə o tərəf-bu tərəfə sürünməyə məcbur etmişdir. Jirik gecə saat 2:00 radələrində əsir və girovların otaqlarda olub-olmadıqlarını yoxlamaq bəhanəsi ilə hamını sıraya düzmüş,

əlindəki əsa ilə başlarına vurduqdan sonra hərənin öz otağına getməsini əmr etmişdir. Jirik, Con və Qor üç gənc əsiri zorlamışlar. Bu hal tez-tez təkrar olunmuşdur. Xəstəxanada Qor adlı nəzarətçi onunla gəlmiş üç erməni ilə əsir-girovları sıraya düzmüş, sonra Rasətin əsalarını götürüb nağara çubuqları kimi girovların başına döyəcləmişlər. Xankəndi uşaq xəstəxanasında saxlandığı vaxt dizenteriya xəstəliyinə tutulmuş və bədənini yara basmış Sumqayıt şəhər sakini Həbibin saxlanıldığı otağa üfunətdən daxil olmaq mümkün deyilmiş. BQXK tərəfindən girovlara verilmiş paltarları, diş pastalarını və ülgücləri erməni nəzarətçilərin tapşırığı ilə Mehdiyev Tərlan bir yerə yığır və hamısını aparıb nəzarətçilərə verirmiş. Məhəmmədəli üçün ləyəndə su apardığı zaman nəzarətçi onu görmüş və "Bəs deyirsən qolun şikəstdir?" – deyib köynəyini cırmış, sonra Şuşa həbsxanasına zəng edib xəstəxanada iki nəfərin sağlam olduğunu bildirmişdir. Jirik Quba rayonundan olan hərbçi İlhamın da qolundakı gipsi açmış və onları birlikdə Şuşa həbsxanasına göndərmişdir. Orada onu İlhamla bir kameraya salmışlar. Ertəsi gün erməni nəzarətçilər onları avtomatın qundağı, rezin dəyənək və bellə vəhşicəsinə döymüşlər. Bir gündən sonra onu, İlhamı və Laçın rayonundan olan digər bir əsiri Xocavənd rayonunun Mısmına kəndinə aparmışlar. Kənddə onları ferma tikintisində, çox ağır rejimdə işlətmişlər. Əsirləri işğal olunmuş Ağdam rayonuna aparıb azərbaycanlıların evlərindən tikinti materiallarını sökdürüb fermaya daşıtdırmış və 32 yaşlı, Samo adı ilə tanınan Dağlıq Qarabağ ermənilərinin hərbi komandanı üçün üç ferma tikdirmişlər. 10-15 daşı birdən aparmağa məcbur edir, apara bilmədikdə vəhşicəsinə döyürmüşlər. Bir dəfə nəzarətçi Qor itə çörək atmış, sonra ondan həmin itin dalınca qaçıb çörəyi alıb yeməyi tələb etmişdir. O, çörəyi itdən aldıqdan sonra onu tualetdə yeməyə məcbur etmişdir. Bundan başqa, Jirik, Con və Qor əsirləri tez-tez zorlayır və onları cinsiyyət orqanlarını öpməyə məcbur edirmişlər. Nəzarətçi Artur və Mısmına kənd sakini Lyova əsir-girovları közü ovuclarının içində saxlamağa məcbur etmiş, yanar siqareti onun gözünün qarşısında tutmuş, gözünü yumduqda isə siqareti göz bəbəyinə basıb söndürmüşdür. Lyova əsirlərin ayaqqabılarını çıxartdırıb köz sönənə qədər onun üstündə saxlatdırmışdır. Artur isə xərəyə 5-6 mişar daşı yığıb aparan əsirləri 10 daşı birdən aparmağa məcbur etmişdir. Onu, Qazax rayonundan olan Mürşüdü, Qəniyev Arizi, Məhəmmədi və Mingəçevirdən İlhamı Ağdama aparıb elektrik naqillərini sökdürürmüşlər. On gündən sonra onu, Məsməliyev Mürşüdü, Məhəmmədi, Qəniyev Arizi, Zaqatala rayonundan Zeynalı və Yardımlı rayonundan Heydərov Heydəri Xankəndi müvəqqəti saxlama təcridxanasına aparmışlar. Orada Rubo adlı nəzarətçi əsirləri "QAZ-53" markalı maşınla hər gün Ağdam və Füzuliyə aparmış, elektrik naqillərinin sökülüb, Mısmına kəndində yaşayan ermənilər üçün işıq çəkilməsində istifadə etmişlər. Axşamlar Mısmınadan təcridxanaya qayıdarkən nəzarətçilər əsirləri sıraya düzüb rezin dəyənək, bel və avtomatın qundağı ilə döyürmüşlər. Heydərov Heydər adlı əsir hansısa tapşırığı gec yerinə yetirdiyi üçün, Rubo beli ondan alıb başına vuraraq "Bax, belə qazarlar", – demişdir. Təcridxanaya Amerika əsgəri formasında hündürboylu, adını bilmədiyi və ilk dəfə gördüyü bir erməni hərbçi gəlmiş, Zaqatala rayonundan Zeynalı kameradan çıxarıb harasa aparmış, bir saatdan sonra sürüyə-sürüyə geri qaytarmışdır. Zeynal bildirmişdir ki, ermənilər ondan Goranboy taborunda "dəmiryeyənlər" adı ilə tanınan döyüşçülərin kimlər olduğunu soruşmuş və Zeynalın da guya onlarla birlikdə döyüşüb çoxlu erməni öldürdüyünü söyləmiş, buna görə onu möhkəm döymüşlər. Səhər tezdən nəzarətçi Rubo hamıya kameradan çıxıb düzülmək əmrini vermiş, Zeynal sırada olmadığından Rubo onu Zeynalın

arxasınca göndərmişdir. Kameraya daxil olduqda Zeynalın əl-ayağının quruyub öldüyünü görmüşdür. Qışqırıb çölə çıxıb Zeynalın öldüyünü bildirdikdə, Rubo "Cəhənnəmə ölüb", – deyib rəisin otağına getmişdir. Rəisin yanından çıxandan bir saat sonra BQXK nümayəndəsi təcridxanaya gəlmiş, əsirlər Zeynalın meyitini kisəyə qoymuş və BQXK nümayəndəsi meyiti özü ilə aparmışdır. Con adlı erməni nəzarətçi avtomat silahının süngüsünü qızdırıb onun sinəsini dağlamışdır. 1994-cü il aprelin 12-də ermənilər Məhərrəmov Orucəli, Əliyev Famil Heydərəli oğlu, Salyan rayonundan Babayev Emin Şəmsi oğlunu, Xaçmaz rayonundan olan Həsənov Ələmşah Ənvər oğlunu və onu Füzulinin Alxanlı kəndinə aparıb azərbaycanlılar yaşamış evlərdən tikinti materiallarının sökdürüb daşınması işlərinə cəlb etmişlər. Sürücü Qaqo, nəzarətçi David və elektrik Rovo onlara nəzarət edirmiş. Rovo kənddə maşından düşmüş və ermənilərə "Qayıdanda məni də götürərsiniz", – demişdir. Əsirlər maşını tikinti materialları ilə doldurduqdan sonra nəzarətçi David və sürücü Qaqo yeyib-içməyə başlamış, əsirlərə isə kartof verib "Ocaqda bişirin, yeyin", – demişlər. Yeyib-içdikdən sonra nəzarətçi David anasının saxladığı cücələr üçün xırda gözlü tor lazım olduğunu bildirmişdir. Orucəli "Tor yeri bilirəm", – deyib, Davidi irəli aparmış, fürsət düşən kimi üstünə atılıb onunla əlbəyaxa olmuş, sonra köməyə gələn əsir yoldaşları hər iki nəzarətçini tərksilah edib, əllərini məftillə boruya bağlamışlar. Əsirlər ermənilərin istifadə etdikləri yük maşınına minib oradan uzaqlaşmışlar. Orucəli erməni dilini bildiyindən, yolda açıq olan postdan təhlükəsiz keçə bilmişlər. Füzuli rayonu ərazisində Köndələn çayında maşın batdığı üçün mühərrikin elektrik naqillərini qırmış, yanacaq bakına su tökmüş və təkərlərinin havasını boşaltmışlar. Oradan qaçıb Füzuli rayonunun Alxanlı kəndinə gəlmiş, axşamı orada gizlənmişlər. Səhər tezdən traktorla əsgərlərə ərzaq gətirildiyini görən Orucəli həmin əsgərlərin kimliyini müəyyənləşdirmək məqsədilə yoldaşlarından aralanıb onlara tərəf getmişdir. Təxminən 10 metr getdikdən sonra minaya düşmüş və partlayış nəticəsində yaralanmışdır. Onlar köməkləşib yaralı Orucəlini də götürüb Azərbaycan ordusunun nəzarəti altında olan əraziyə keçə bilmiş və beləliklə, 1994-cü il dekabr ayının 13-də əsirlikdən azad olmuşlar.

Sadıqova Yeganə Tahir qızı – 1973-cü ildə Xocalı rayonunda doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 1 mart 1992-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Xocalı şəhəri Ermənistan Silahlı Birləşmələri tərəfindən işğal edilərkən o, yaşadığı evi tərk edib meşəyə qaçmışdır. Əsgəran yolunun üstündə Ermənistan hərbçiləri onunla birlikdə şəhəri tərk edən sakinləri mühasirəyə alıb girov götürmüşdür. Ermənilər dayısı Kərimov İntiqam Şahmalı oğlunu onlardan ayırıb naməlum istiqamətdə aparmışlar. Qalan girovları Əsgəran həbsxanasına gətirib üstlərində olanları almış, onlara ağır işgəncələr vermiş və bir neçə qız-gəlinə təcavüz etmişlər. Həbsxanada onunla birlikdə saxlanılan xalası Elmira Kərimovanın həyat yoldaşı Əsədov Yalçın Asif oğlunu da onlardan ayırıb naməlum istiqamətdə aparmışlar. Yeganə Sadıqova 1 mart 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Sadıqova Züleyxa Şahmalı qızı – 1947-ci ildə Xocalı rayonunda doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 1 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1988-ci ildə, Dağlıq Qarabağ münaqişəsi başlayanda yaşadığı Xankəndi şəhərində təhqirlərə və təqiblərə məruz qalıb oradan qovulmuşdur. Əvvəl Şuşada, sonradan isə Xocalı şəhərində məskunlaşmışdır. Xocalı şəhəri Ermənistan Silahlı Birləşmələri tərəfindən işğal ediləndə oranı tərk edib meşəyə qaçmışdır. Əsgəran yolunun üstündə erməni terrorçu-quldur birləşmələri qaçanları mühasirəyə almış, atışma zamanı Vasif adlı Xocalı sakinini qətlə yetirmişlər. Girov götürülən zaman qardaşı Kərimov İntiqam Şahmalı oğlunu onlardan ayırıb naməlum istiqamətdə aparmışlar. Qalanlarını Əsgəran həbsxanasına gətirib, orada ağır işgəncələr vermiş, soymuş və bir neçə qız-gəlinə təcavüz etmişlər. Onun bacısının həyat yoldaşı Əsədov Yalçın Asif oğlunu onlardan ayırıb naməlum istiqamətdə aparmışlar. Girovları Laura adlı erməni qadın satırmış. Züleyxa Sadıqova 1 mart 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Salmanov Məhəmməd Adışirin oğlu – 1953-cü ildə Azərbaycan Respublikasının Laçın rayonunda doğulmuşdur. 27 fevral 1992-ci il tarixdə girov götürülmüş, 28 fevral 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Sovet ordusunun Xankəndindəki 366-cı alayın dəstəyi ilə Ermənistan Silahlı Birləşmələri Xocalı şəhərinə hücum etmişlər. Bu zaman o da əhali ilə birlikdə meşəyə qaçmış və orada silahlı ermənilərlə rastlaşmışdır. Bir neçə erməni hərbçiyə qarşı silahlı müqavimət göstərmişdir. Atışma zamanı xüsusi təyinatlı milis dəstəsinin Abdulla adlı əməkdaşı Ermənistan hərbçiləri tərəfindən öldürülmüşdür. O, Xocalı sakini Tahirlə birlikdə 2-3 gün meşədə qalmışdır. Lakin sonradan ondan ayrı düşmüş və fevralın 27-də, səhər saat 10:00 radələrində, Ağdam rayonu istiqamətində hərəkət edərkən ermənilər tərəfindən tutulmuşdur. Tutulduqdan sonra avtomat silahın qundağı ilə, təpiklə, yumruqla yıxılana qədər döyülmüşdür. Ermənilərdən biri onunla birlikdə olan Tahirin harada olduğunu soruşmuşdur. Görünür, onlar azərbaycanlıları görmüş və izləmişlər. O, Tahirin ondan qabaq tutulduğuna işarə edərək "Siz bilərsiniz", – demişdir. Erməni silahlılarından biri "Bax, gör budur?" – deyib kolun dibinə atılmış meyiti ona göstərmişdir. O, Tahirin başı, qulaqları və cinsiyyət orqanının kəsilib eybəcər hala salınmış meyitini tanımışdır. Sonra ermənilər onu Ağbulaq kəndi yaxınlığında 25-30 evdən ibarət olan bir yerə aparmışlar. Saxlanıldığı yerə Dəhraz kəndi istiqamətində girov götürülmüş Xocalı şəhər sakinləri – Ağayev Səttarın həyat yoldaşı Ağayeva Zabitəni, Ahıska türkü Bəxtiyarı, onun həyat yoldaşını və körpə uşağını da gətirmişlər. 1992-ci il fevral ayının 28-də orada olan girovlar azad edilmişdir.

Sarıyev Cavanşir Lətif oğlu – 1974-cü ildə Azərbaycan Respublikası Goranboy rayonunun Zeyvə kəndində doğulmuşdur. 11 fevral 1993-cü il tarixdə əsir götürülmüş, 8 may 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ağdərə rayonunun Ermənistan Silahlı Birləşmələrinin hücumundan müdafiəsi zamanı mühasirəyə düşmüşdür. Əsgər yoldaşları mühasirədən çıxa bilsə də, ayaqları donduğundan o, gedə bilməmiş və dəstədən ayrı düşmüşdür. Yolu yaxşı tanımadığından səhv istiqamətdə getmiş, ocaq qalayıb bir gecə meşədə qalmışdır. Ertəsi gün yoluna davam etmiş və yarı sökülmüş bir binanı görüb, dincini almaq üçün içəri girmək istəmişdir. Qapıdan daxil olduqda erməni dilində danışıqlar eşidib, geri qaçmaq istəyərkən, ermənilər tərəfindən əsir götürülmüşdür. O, binada təxminən 25 nəfərə yaxın

erməni hərbçinin olduğunu görmüşdür. Bir erməni onu vurub yerə yıxmış və boynundan ayağı ilə basaraq "Bu torpaq üçün döyüşürsən, alçaq, ye bu torpağı", – demişdir. Torpağı yediyi zaman onu avtomat qundağı və təpiklə döyməyə başlamışlar. Həmin vaxt orada ondan başqa heç bir əsir-girov olmamışdır. Əsirlikdə olduğu zaman onun yanına Yevlax rayonundan Bayram Əliyevi, Zaqatala rayonundan Bəxtiyar Tağıyevi və Qax rayonundan Məhərrəmi gətirmişlər. Ermənistan Respublikasının Qafan şəhərində saxlanılarkən ermənilər tərəfindən vəhşicəsinə döyülən Məhərrəm bir həftədən sonra ölmüş və ermənilər onun meyitini naməlum yerə aparmışlar. Orada saxlanıldığı vaxtda Şaumyan rayonu, Manas kəndindən "Baxo" deyə çağırılan milis starşinası əlinə imkan düşən kimi əsirləri dəyənək, təpik və avtomatın qundağı ilə döyürdü. Ondan başqa, 30-35 yaşlı Armen də onları döyür, söyür, təhqir edirdi. Sonra onu traktora mindirib tanımadığı bir kəndə aparmışlar. Orada bir erməni zabit ondan hərbi sirləri soruşmuş, cavab eşitmədikdə öldürməyi əmr etmişdir. Onu Xankəndi Milis idarəsinə aparmış, orada saxlanıldığı üç gün ərzində dəfələrlə dəyənəklə, təpik, yumruq, avtomat qundağı ilə döymüşlər. Yalnız huşunu itirdikdən sonra ondan əl çəkirlərmiş. O, ac-susuz, qaranlıq, rütubətli və nəm bir yerdə, beton üzərində saxlanılmışdır. Verilən işgəncələrə dözə bilmədiyi üçün ayağına sarınmış bintlə özünü asmağa cəhd etmiş, lakin bint nazik olduğundan cırılmış və yerə yıxılmışdır. Səsə gələn ermənilər onu vəhşicəsinə döymüşlər. Üç gündən sonra, fevralın 14-də gecə onu maşınla Şuşa-Laçın yolu ilə aparmışlar. Yol bağlı olduğundan bir gecə orada qalmışdır. Ertəsi gün yerli ermənilər maşında türk olduğunu biləndə, onu öldürmək üçün maşına hücum etmişlər. Lakin onu müşayiət edən Ermənistan hərbçiləri buna imkan verməmişlər. Oradan onu Yerevana apararaq sorğusual etmiş, sonra yemək təklif etmişlər. Ac olmadığını bildirəndə, yeməkxana rəisi yumruqla onun qarnından vurub yerə yıxmışdır. Sonra onu 26 nəfərin saxlanıldığı qadın həbsxanasına salmışlar. Orada onu qəsdən çox döymürlərmiş ki, xaricdən gələn nümayəndələrə əsirlərə qarşı amansızlıq etmədiklərini göstərsinlər.

Yerevanda sonradan köçürüldüyü hərbi hissədə saxlanılarkən digər əsirlərlə birlikdə ağır işgəncələrə məruz qalmış, çirkli işlərdə işləməyə məcbur edilmişdir. Cavanşir Sarıyev 8 may 1993-cü il tarixdə əsirlikdən azad edilmişdir.

Səfərov Bəxtiyar Azay oğlu – 1974-cü ildə Füzuli rayonunun Böyük Bəhmənli kəndində doğulmuşdur. 23 oktyabr 1993-cü il tarixdə girov götürülmüş, 10 may 1996-cı il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

O, Füzuli rayonunun Horadiz qəsəbəsindən Bəhmənli kəndinə gedərkən dörd nəfər qohumu ilə birlikdə Yağlıvənd kəndi istiqamətində girov götürülmüş və vəhşicəsinə döyülmüşdür. Həmin yerdə qətlə yetirilmiş dörd əsgər meyiti də var imiş. Bundan başqa, Ermənistan hərbçiləri yolda hərəkət edən "UAZ" markalı maşını saxlayıb, içərisində olan dörd nəfəri güllələmiş, 15 nəfəri isə girov götürmüşlər. Sonra onu və digər girovları Xocavənd rayonuna aparmış və vəhşicəsinə döymüşlər. Saxlandıqları iki ay müddətində əsir-girovlar ac-susuz qalmış və ağır işgəncələrə məruz qalmışlar. Orada Qəbələdən olan əsirin kürək nahiyəsinə xaç şəkilli damğa basmışlar. Sonradan Şuşa həbsxanasında saxlanılarkən, Slavik, Artur, Qarik, Emin, Valera, Lyoxa, "KAMAZ" markalı maşının sürücüsü Aram, Vaqram, Kolya və Raçik adlı nəzarətçilər əsir və girovlara vəhşicəsinə işgəncələr vermişlər. Slavik və həbsxana rəisinin qardaşı Artur Horadizdən olan İlhamı,

İlqar adlı əsiri və adı naməlum olan yaşlı kişini rezin dəyənəklə döyə-döyə öldürmüşlər. Xankəndindəki müvəqqəti saxlama təcridxanasında saxlanılarkən, Gena, Feliks, David və Ovik adlı nəzarətçilər əsir və girovları Malıbəyli kəndinə aparıb qul kimi işlədir, axşamlar isə təcridxanaya qaytarıb onlara ağır işgəncələr verirdilər. Malıbəylidə işləyərkən Ovik adlı nəzarətçi taxtanı nişan almaq bəhanəsi ilə tapançadan atəş açıb əsir İqor Əliyevi ayaq nahiyəsindən yaralamışdır. Xankəndindəki uşaq xəstəxanasında saxlanılarkən "balaca Jirik" və "böyük Jirik" ləqəbli nəzarətçilər əsir və girovları mütəmadi olaraq küt alətlərlə döyürdülər. Bəxtiyar Səfərov 10 may 1996-cı il tarixdə girovluqdan azad edilmişdir.

Səfərov Kamal Cəlal oğlu – 1958-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 27 fevral 1992-ci il tarixdə girov götürülmüş, 14 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Birləşmələri, keçmiş Sovet ordusunun Xankəndindəki 366-cı alayının dəstəyi ilə Xocalı şəhərinə hücum edib, şəhəri hər tərəfdən güclü atəşə tutmuşdur. Atəşdən canını qurtarmaq üçün müxtəlif tərəflərə qaçan şəhər əhalisi ölümlə üz-üzə qalmışdır. Həmin vaxt o, postların birində keşik çəkirmiş. Düşmənin hücumu şiddətlənən zaman dinc əhali ilə birlikdə o da şəhəri tərk etmək məcburiyyətində qalmış və Əsgəran rayonu istiqamətində hərəkət edərkən, Naxçıvanlı kəndinə gedən yolun yaxınlığında mühasirəyə düşmüşdür. Mühasirəyə düşən 30 nəfərin əksəriyyəti uşaq və qadın idi. Onlarda olan cəmi 4 ədəd atıcı silahla düşmənin çox saylı ağır texnikası ilə vuruşmaq mümkün deyildi. Buna baxmayaraq, silahı olanlar mümkün qədər camaatı xilas etmək istəmiş və bir neçə saat mühasirədə, gülləbaran altında qalmışlar. Atışmada Vasif, Həsən kişi, adını bilmədiyi bir qadın və daha bir neçə nəfər güllə yarası alıb şəhid olmuş, onun həyat yoldaşı Səfərova Şəhla Bahadur qızı isə qolundan yaralanmışdır. Xeyli müddət mühasirədə qaldıqdan sonra sağ qalanlar girov götürülmüş və ermənilərin yaşadığı Əsgərana aparılmışlar. Onlar yolboyu vəhşicəsinə qətlə yetirilmiş çoxsaylı adamların meyitlərini görmüşlər. Əsgəran Milis İdarəsində qadına, uşağa fərq qoyulmadan hamısı təpiklənib, dəyənək, taxta, dəmir parçaları və müxtəlif əşyalarla amansızcasına döyülmüş, Şahmalı kişinin oğlu Faiq Əliməmmədov güllələnib qətlə yetirilmişdi. Yaralı vəziyyətdə onunla birlikdə saxlanılan Quliyev Natiq Vəliyəddin oğlunu, Ağdamın Muğanlı kənd sakini olmuş bir milis işçisini, Şukəddin adlı qadının kiçik oğlunu, Xankəndindən gəlmiş Asifin oğlu Azəri kameradan çıxarıb öldürmək adı ilə aparmışlar. Girovları, əsasən, hərbçilər döymüşlər. On gün Əsgəranda saxladıqdan sonra onları Noraguh kəndinə aparıb, qarajın həyətindəki zirzəmiyə salmışlar. Jora Babayan adlı erməni öz adamları ilə onların saxlanıldığı yerə gəlmiş və o gedəndən sonra girovlar daha amansızcasına döyülmüş, təhqir edilmiş və alçaldılmışlar. 18 gün ərzində onlar amansız işgəncələrə məruz qalmışlar. Xocalı soyqırımı zamanı onun bibisi oğlu Məmmədov Məhəmməd itkin düşmüşdür. Qayınatası Səlimov Bahadur və onun oğlanları – Araz, Mikayıl, Fəxrəddin, qohumu Səlimov Seydi Mikayıl oğlu və onun oğlu qətlə yetirilmişlər. Kamal Səfərov 14 mart 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Səfərov Zabil Kamran oğlu – 1978-ci ildə Azərbaycan Respublikası, Kəlbəcər rayonunun Zivel kəndində doğulmuşdur. 5 aprel 1993-cü il tarixdə əsir götürülmüş, 30 oktyabr 1995-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan Silahlı Birləşmələrinin 1993-cü il aprel ayının 5-də Kəlbəcər rayonuna hücumu zamanı əsir götürülüb, helikopter meydançasına gətirilmiş və 10 gün orada saxlanıldıqdan sonra Ağdərə rayonunun Hatek kəndinə aparılmışdır. Orada onu Ermənistan ordusunun Ağdərə üzrə komandiri Norik Fanelyan adlı ermənin 15 yaşlı bacısı oğlu kənd sakinləri ilə birlikdə amansızcasına döymüşdür. Müntəzəm döyülmə və işgəncələrlə 5 ay orada saxlanıldıqdan sonra onu həmin rayonun Drombon kəndinə aparmışlar. Orada ona çoxlu işgəncələr verməklə 6 ay saxlamışlar. Bu müddətdə hər gecə səhərədək onu döymüş, işgəncələr vermiş, gündüzlər isə soyuq su ilə dolu hovuza atmışlar. Orada onunla bərabər Elman, Habil, Məzahir adlı azərbaycanlılar da saxlanılırmış. Əsirlərə mütəmadi olaraq müxtəlif işgəncələr verilir, əksəriyyətini bir-birini zorlamağa məcbur edirdilər. Erməni əsgərlərindən ibarət işgəncə qrupuna komandir müavini Aşot rəhbərlik edirdi. O, hər dəfə əsirlərə işgəncə verəndə "Qarabağ bizimdir!" – deyə bağırıb, nalayiq söyüşlər söyür, onları təhqir edirdi. Sonra onu Xankəndindəki uşaq bağçasına gətirmişlər. Orada təxminən 40-45 nəfər əsir-girov saxlanılırdı. Onlardan 25-i qadın, qalanları isə kişi və uşaqlar idi. Ermənistan hərbçiləri onun gözləri qarşısında 12-13 yaşlı azərbaycanlı qızları zorlayır, 5-7 aylıq körpələri təpikləyirdilər. Orada azyaşlı qızının zorlandığına dözməyən bir qadın özünü kəndirlə boğub öldürmüşdür. 7 gündən sonra o, Drombon kəndinə qaytarılmış, daha sonra isə yenidən Xankəndinə gətirilib xeyli döyülmüş və 19 nəfərlə birlikdə Şuşa həbsxanasına aparılmışdır. Həbsxanaya çatan kimi onları sıraya düzüb, zopa, zəncir və armaturla qəddarcasına döymüşlər. Orada 100-ə qədər əsir-girov saxlanılırmış. Hər 2-3 gündən bir yerli sakinlər əsir-girovlar saxlanılan kameralara sərbəst girir, onları döyür, işgəncə verirdilər. Həbsxana rəisi Armen bir əsirin bədənini qaynar şişlə yandırmışdı. Türməyə gətirildiyi ikinci gün onların yanına birinin burnu, digərinin isə qulağı kəsilmiş halda Bəxtiyar adlı iki əsir gətirmişdilər. Yeməyə səhər bir stəkan su, bir tikə kiflənmiş çörək, günorta və axşamlar isə öz süfrələrindən qalmış yemək qalıqları verilirdi. Elə vaxtlar olurdu ki, 2-3 gün heç nə verməyib, onları ac saxlayırdılar. Nəzarətçilərdən yeməyə bir şey istəyəndə, onları vəhşicəsinə döyürdülər. Şuşa həbsxanasında qaldığı 5 ay ərzində, əsir-girovları bir-birinə əziyyət verməyə, döyməyə məcbur edirdilər. Kameranın beton döşəməsinə salmaq üçün BQXK tərəfindən verilən döşək və adyalları da nəzarətçilər əllərindən alırdı. Əsirlikdə olduğu müddətdə onun sağ əlinin dırnaqlarını kəlbətinlə dartıb çıxarmışdılar. İşgəncələri ona daha çox həbsxana rəisinin müavini verirdi. Beş aydan sonra, ağır xəstələndiyinə görə o, Xankəndi uşaq xəstəxanasına aparılmış, 10 gün müddətində BQXK tərəfindən müalicə aldıqdan sonra həmin ərazidə yerləşən 4-cü tabora aparılmışdır. Orada onlar 10 nəfər olmuş, hər gün ağır işlərdə işlədilmişlər. Onların arasında olan Füzuli rayonu, Horadiz qəsəbə sakini Həsən adlı gənc əsirin ürəkgetməsi var idi. Həsən bir gün işə getdiyi zaman yolda huşunu itirmiş, bu zaman Serqo adlı baş leytenant rütbəli zabit onu döymüş və ayağını sındırmışdı. Bundan sonra Həsən bir ay xəstə vəziyyətdə yataqda qalmışdır. "Ermənilərin soyqırımı" adlandırdıqları gün onu 24 nəfər əsir-girovla birlikdə bərk döymüş, sonra gözlərini bağlayıb Yerevan şəhərinə aparmışlar. Orada onlara "Başınızı

kəsəcəyik", – deyirmişlər. Üç gün Yerevanda saxlanıldıqdan sonra o, 6 nəfərlə birlikdə 1995-ci il oktyabr ayının 30-da əsirlikdən azad edilmişdir.

Səlimov Ələkbər Əbdüləli oğlu – 1954-cü ildə Azərbaycan Respublikası, Kəlbəcər rayonunun Başlıbel kəndində doğulmuşdur. 2 aprel 1993-cü il tarixdə girov götürülmüş, 5 noyabr 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Kəlbəcər rayonu işğal olunan ərəfədə o, əvvəlcə ailə üzvlərini kənddən çıxarmış, sonra isə həyətyanı təsərrüfatından mal-qarasını uzaqlaşdırmaq istəmişdir. 1993-cü il aprelin 2-də helikopter meydançasının yaxınlığında bir neçə kənd sakini ilə birlikdə Ermənistan Silahlı Birləşmələrinin mühasirəsinə düşmüş, fasiləsiz atəşə məruz qaldığından, rayondan çıxa bilməmişdir. Nəticədə Kəlbəcər ət kombinatının yanında ermənilərin gülləsinə tuş gəlmiş dayısı Salahov Əhəd ölmüş, o isə bir neçə nəfərlə orada dayanan traktorun arxasında gizlənmişdir. Bunu görən Ermənistan hərbçiləri atəş açıb onu, Şahverdiyev Təhməz Qüdrət oğlunu, İsanı, Şahbəndiyev İmdad Şamil oğlunu, Şahbəndiyev Osman Şamil oğlunu və Babayev Abbası girov götürmüşlər. Həmin vaxt Babayev Abbası rayon Partiya komitəsinin binası qarşısında güllələyib öldürmüşlər. Sonra girovları Kəlbəcər stadionu yaxınlığındakı zirzəmiyə bənzər bir yerə salıb, 13-14 gün ərzində orada saxlamışlar. Orada adlarını xatırlaya bilmədiyi 24 nəfər Kəlbəcər sakinini görmüşdür. Ermənilər onu, Kəlbəcər rayonu, Zar kənd sakini Əhmədov Allahverdi Kərim oğlunu, Təhməzlə dayısı İsanı, İmdad və qardaşı Osmanı, İstisudan Məhərrəmov Əli Vəli oğlunu, Eyvazı və Laçın rayonundan olan 14 yaşlı uşağı helikopterə mindirib Ermənistanın Vardenis (Basarkeçər) rayonuna aparmışlar. Helikopterdən düşürülən kimi erməni milis işçiləri onları yumruq və təpiklə döymüşlər. Nəticədə onun sağ qabırğası qırılmış, ağzı partlamışdır. 2-3 gün ac saxladıqdan sonra ona xarab olmuş peçenye vermişlər. Vardenisdə 3 gün saxlandıqdan sonra girovlar Yerevan hava limanı yaxınlığındakı Hərbi Polisə aparılmışlar. Orada o, girov düşmüş yaşlı Kəlbəcər sakinlərini, həmçinin hərbi əsirləri görmüşdür. Qadınlarla kişiləri ayrı-ayrı kameralarda saxlayırmışlar. Hərbi Polis şöbəsində 30-35 yaşlı, adını bilmədiyi Şəmkir sakininin döyülə-döyülə öldürüldüyünün şahidi olmuşdur. Onun meyiti Hərbi Polisin həyətində əsirlərə basdırılıb. Ələkbər Səlimov 5 noyabr 1993-cü il tarixdə Kəlbəcər sakinləri – Camal, İsa, Təhməz, Əli, İdris və Laçın sakini olan 14 yaşlı uşaqla birlikdə girovluqdan azad edilmişdir.

Səlimov Kazım Həsən oğlu – 1947-ci ildə Zəngilan rayonunun Ördəkli kəndində doğulmuşdur. 6 dekabr 1991-ci il tarixdə girov götürülmüş, 9 dekabr 1991-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

O, 6 dekabr 1991-ci il tarixdə iş yoldaşları ilə birlikdə Ermənistan Respublikasının Mehri rayonu ərazisində, Azərbaycan dəmiryolunun 342-ci km-də erməni yaraqlıları tərəfindən girov götürülüb, müxtəlif yerlərdə saxlanılmış və döyülüb, dəhşətli işgəncələrə məruz qalmışdır. Sonradan Qafan rayon Milis şöbəsinin rəisi, polkovnik Edik Barseqyana təhvil verilmişdir. 9 dekabr 1991-ci il tarixdə dəyişmə yolu ilə girovluqdan azad edilmişdir.

Səlimova Nənəş Səməd qızı – 1930-cu ildə Xocalıda doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 28 fevral 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan Silahlı Birləşmələri tərəfindən Xocalı şəhəri işğal edilərkən o, ailə üzvləri ilə evlərindən çıxıb qaçmışdır. Onlar digər şəhər sakinləri ilə birlikdə Əsgəran rayonu istiqamətində hərəkət edərkən mühasirəyə düşərək, güclü atəşə məruz qalmışlar. Ermənistan hərbçilərinin aramsız atəşi nəticəsində həyat yoldaşı Bahadur, oğlu Mikayıl, digər sakinlərdən Rasif, Əyyub və Allahverdi həlak olmuşdur. Ölənlər və yaralananlar çox idi. Həmin gün çoxlu sayda insanlar girov götürülmüşlər. Saxlandıqları yerdə axşamlar Ermənistan hərbçiləri qız-gəlinləri seçib aparırmışlar. Orada onun digər oğlanları – Araz və Fəxrəddinə də işgəncələr verib öldürmüşlər. Nənəş Səlimova 28 fevral 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Soltanov Zülfi İsmayıl oğlu – 1978-ci ildə Azərbaycan Respublikasının Dəvəçi (indiki Şabran) rayonunda doğulmuşdur. 2 dekabr 1999-cu il tarixdə əsir götürülmüş, 26 fevral 2001-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Əsir götürülən kimi Ermənistan hərbçiləri tərəfindən döyülmüşdür. Onu aramsız olaraq təpikləmiş, başına, üzünə, böyrək nahiyələrinə zərbələr vurmuşlar. Sonra o, Yerevana aparılmışdır. Yolboyu onun başına, kürəyinə və qarnına zərbələr endirmiş, söymüşlər. Yerevan qarnizonunda olarkən onu sorğu-suala tutub yenidən döymüşlər. Onunla bir kamerada saxlanılan Axundov İsmayıl Məhəmməd oğlunu ona nisbətən daha çox döyür və amansız işgəncələr verirdilər. Orada əsir-girovların damarlarına tərkibi bilinməyən iynələr vurur, sonra isə istədikləri nalayiq hərəkətləri etdirirdilər. Hətta bir neçə nəfəri elektrik cərəyanına qoşub, öldürməklə hədələmişdilər. Cavab qaytardığı üçün dəmirlə onun başına vurmuş, bıçaqla qolunu deşmişdilər. Salyan rayonunun Xalac kənd sakini Rəhmanov Əhməd Məzahir oğlunu burazla ayağından maşına bağlayıb sürümüşdülər. Erməni nəzarətçilər və hərbçilər tapançanı əsir-girovların başına dirəyib güllələyəcəklərini deyir, onlara əzab vermək üçün müxtəlif işgəncələr axtarıb tapırdılar. Əsir-girovların başından çəngəl ilə tük qoparıb, bacardıqları qədər əzab-işgəncə verir, bundan ləzzət alır, ağrıdan qışqıranda isə gülürdülər. Zülfi Soltanov 26 fevral 2001-ci il tarixdə əsirlikdən azad edilmişdir.

Süleymanov Qarahəsən Abdulla oğlu – 1958-ci ildə Azərbaycan Respublikası, Füzuli rayonunun Əhmədalılar kəndində doğulmuşdur. 23 oktyabr 1993-cü il tarixdə girov götürülmüş, 7 dekabr 1995-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü il oktyabrın 23-də yaşadığı Füzuli rayonunun Horadiz qəsəbəsində kürəkəni Məmmədov Mehman Şura oğlu ilə birlikdə şəxsi "Moskviç" markalı avtomobili ilə hərəkət edərkən, Yağlıvənd kəndinin yaxınlığında yolu kəsmiş Ermənistan hərbçiləri tərəfindən girov götürülmüşdür. 16 nəfər girovla birlikdə onu da Xocavənd rayonunun qərargahına aparıb vəhşicəsinə döymüşlər. Xocavənddə, əsasən, Ermənistan xüsusi xidmət orqanı əməkdaşları tərəfindən döyülmüşlər. Onun dişlərinin əksəriyyəti sındırılmış, dəfələrlə vurulan ağır zərbələrdən başı yarılmışdır. 1994-cü il yanvar ayının əvvəllərində onunla birlikdə 10 nəfər əsiri Şuşa həbsxanasına aparmışlar. Həbsxanasında Alik və Slavik adlı ermənilər onlara ağır işgəncələr vermişlər. Onun sağ ayağı sındırılmış,

üstünə vəhşi itlər buraxılmışdır. Qolları bağlı olduğundan müqavimət göstərə bilməmiş və itlər onun üzünü bir neçə yerdən parçalamışdır. Slavik adlı erməni onun dırnaqlarını kəlbətinlə dartıb çıxarmışdır. Məmmədov Mehman Şura oğluna daha ağır işgəncələr vermişlər. O, bu işgəncələrə dözməyib ölmüş və girovlar tərəfindən basdırılmışdır. 1994-cü ilin axırlarında, Xankəndində saxlanıldığı vaxtda əsir-girovları 4-cü taborun həyətində sıraya düzmüş Vartan adlı erməni belin iti ağzı ilə onun burnuna ağır zərbə endirmişdir. Nəticədə, onun burnunun üst hissəsi tamamilə kəsilmiş, zərbənin ağırlığından 18 gün ərzində görmə qabiliyyətini itirmişdir. Ağdam rayonundakı komendantlıqda Goranboy rayon sakini Bəxtiyar adlı əsirin qulağı kəsilmiş, Füzuli rayonu, Böyük Bəhmənli kənd sakini Ələkbərov Qaraxan Bayram oğlunun qolu sındırılıb, şikəst edilmişdir. Qarahəsən Süleymanov 7 dekabr 1995-ci il tarixdə girovluqdan azad edilmişdir.

Süleymanov Zülfü Hətəm oğlu – 1964-cü ildə Xocalıda doğulmuşdur. 27 fevral 1992-ci il tarixdə girov götürülmüş, 28 fevral 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan Silahlı Birləşmələri tərəfindən Xocalı şəhəri işğal edilərkən o da əhali ilə birlikdə qaçmışdır. Onlar Dəhraz kəndi istiqamətində hərəkət edərkən mühasirəyə düşmüş, atışma zamanı Ermənistan hərbçiləri Mahir Kərəm oğlunu və Zəhra adlı yaşlı qadını qətlə yetirmişlər. Digərlərini girov götürüb Dəhraz kəndinə gətirmişlər. Orada ermənilər onları möhkəm döymüş, soymuşlar. 13 nəfər cavan oğlanı seçib aparmış, bir azdan geri qayıdıb, onları güllələdiklərini bildirmişlər.

Şabanov Eldar Əsədullah oğlu – 1974-cü ildə Azərbaycan Respublikası, Zaqatala rayonunun Dombabinə kəndində doğulmuşdur. 6 oktyabr 1992-ci il tarixdə əsir götürülmüş, 11 oktyabr 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Laçın rayonunun Mazutlu kəndi Ermənistan Silahlı Birləşmələri tərəfindən işğal edilərkən orada yerləşən bölükdə xidmət edirmiş. Bölüyün yerləşdiyi əraziyə düşmən qüvvələrinin girməsindən xəbəri olmamış və Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Tutularkən bərk döyülmüş, bir gecə saxlandıqdan sonra 7 hərbçinin müşayiəti ilə Laçın rayonunda yerləşən tanımadığı kəndə aparılmışdır. Orada çoxsaylı Ermənistan hərbçiləri və silahlı könüllülər olmuşdur. Bir erməni qadın əlinə zopa alıb onu döymüşdür. Sonra onu ərzaqla dolu yemək masasına dəvət etmişlər. Ancaq əlini süfrəyə uzadanda, təxminən 10 nəfərədək erməni əsgər onu təpik, avtomat qundağı ilə döymüş və qaranlıq otağa salıb işgəncə vermişlər. Əsgərlər siqareti yandırıb onun alnına, gözünün içinə və qarnına basmışlar. Ona zorla bir ovuc tütün yedirtmiş, üstündən solyarka içirtmişlər. Yumruqla beş dişini sındırmış, ayaqlarından tutub başını su çəninə soxub, təxminən bir dəqiqə saxlamışlar. Sonra onu Ermənistanın Qafan rayonundakı Milis şöbəsinə aparmışlar. Bir az orada saxlanıldıqdan sonra Gorus rayonunda yerləşən hərbi hissələrdən birinə aparmış, dəfələrlə huşunu itirənədək döymüşlər. Şabanov Eldar Əsədullah oğlu 11 oktyabr 1992-ci il tarixdə əsirlikdən azad edilmişdir.

Şahbəndiyev İmdad Şamil oğlu – 1964-cü ildə Azərbaycan Respublikası, Kəlbəcər rayonunun Başlıbel kəndində doğulmuşdur. 2 aprel 1993-cü il tarixdə girov götürülmüş, 9 may 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Yaşadığı Kəlbəcər rayonunun Başlıbel kəndi Ermənistan Silahlı Birləşmələri tərəfindən işğal olunan zaman bir qrup kənd sakini ilə birlikdə ərazini tərk edərkən güclü atəş altına düşmüşlər. Bir neçə güllə yarası alan həmkəndlisi Salahov Əhməd Mirfəttah oğlu ölmüş, qalanları isə girov götürülüb avtomat qundağı və təpiklə xeyli döyülmüşlər. Əhmədin meyiti güllələndiyi yerdə qalmış, üz-gözləri qan içində olan girovlar Kəlbəcər rayon stadionunun yanındakı bir evə aparılmışdır. Əfsəl adlı Kəlbəcər sakininə məxsus olan həmin ev ermənilər tərəfindən qərargaha çevrilmişdi. Onları xeyli sayda Kəlbəcər sakininin girov saxlanıldığı bir otağa salmış, amansızcasına döyüb təhqir etmişlər. Onun qardaşı Osmanın başını dəmir çəkiclə partlatmışlar. Girovları bir həyətə aparıb orada qəbir qazdırmışlar. Əvvəlcə ona və digər qardaşı Təhməzə qəbirə girməyi əmr etmiş və onların üstünə torpaq töküb, diri-diri basdırmışlar. Torpaq onların başını tamamilə örtəndə və nəfəsləri dayananda, rişxəndlə gülə-gülə onları qəbirdən çıxartmışlar. Sonra bədənində güllə yarası olan 30-35 yaşlı bir qadının meyitini həmin qəbirə atmışlar. Erməni hərbçinin dediyinə görə, həmin qadın evinin qapısını onlara açmadığına görə güllələnmişdir. Bu hadisədən bir müddət sonra onlarla birlikdə girov götürülmüş Abbas Babayevin meyitini gətirmiş və girovlara onu basdırmaq əmr edilmişdir. Girovların saxlanıldığı qərargahın rəisi Fransa vətəndaşı Osip adlı bir erməni idi. Bir müddət sonra onları Ermənistanın Vardenis (Basarkeçər) rayonuna aparmışlar. Vardenis rayon Milis şöbəsində işçilər onları soyundurub, çılpaq vəziyyətdə rezin dəyənəklərlə xeyli döymüş və Yerevandakı qadın həbsxanasına aparmışlar. Girovların saxlanıldığı yer çox soyuq və natəmiz imiş. Yeməyə yalnız yarma şorbası vermişlər. Orada da girovlar aramsız olaraq rezin dəyənəklərlə döyülürdü.

1993-cü il may ayının 9-da Şahbəndiyev İmdad və qardaşı Osman dəyişdirilərək azad edilmişdir. Dəyişilmək üçün onları Noyemberyan rayonuna gətirmiş, gecə səhərədək bir neçə dəfə dəyənəklərlə döyərək ağır xəsarətlər yetirmişlər.

Şahməmmədov Abbas Lətif oğlu – 1949-cu ildə Azərbaycan Respublikası, Zəngilan rayonunun Tiri kəndində doğulmuşdur. 2 noyabr 1993-cü il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan Silahlı Birləşmələrinin Zəngilan rayonuna hücumu ilə əlaqədar – 1993-cü ilin noyabr ayında ailəsi ilə birlikdə idarə etdiyi "UAZ" markalı avtomobilində yaşadığı Mincivan qəsəbəsini tərk edib, Araz çayı vasitəsi ilə İran İslam Respublikasının ərazisinə keçmişdir. Bir gün orada qaldıqdan sonra maşınının xarab olmuş hissələrini evindən götürmək üçün piyada təkrar geri qayıtmışdır. Qəsəbəyə çatarkən rayon Milis şöbəsinə məxsus "Moskviç" markalı maşını görmüş, yaxınlaşıb ermənilərin qəsəbəyə girib-girmədiyini soruşmuşdur. Orada olan 15-20 nəfərdən biri, hərbi geyimli şəxs "Bu, türkdür, tutun!" – demiş və bu zaman saqqallı bir erməni hərbçinin əmri ilə onu tutub burazla belindən "Ural" markalı avtomobilin arxasına bağlayıb, sürüyə-sürüyə Mincivan dəmiryolu stansiyasının istirahət otağına gətirmişlər. Orada 4 hərbçi onu avtomat qundağı, təpik və küt alətlərlə xeyli döyüb, şüşə qırıqlarını onun ağzına doldurub qapamış və çeynəməyə məcbur etmişlər. Bütün ağız boşluğu qana boyanmış, axan qan üstünə və ətrafa tökülmüşdür. İki saat sonra onun qollarını bağlayıb, "UAZ" markalı maşına mindirib beş nəfər hərbçinin müşayiəti ilə Xocavənd rayonunda yerləşən hərbi hissəyə aparmışlar. Onu içərisində azərbaycanlı əsir-girovlar – Verdiyev Camal, Şükürov

Şükür, "həkim" deyilən bir nəfər və adlarını bilmədiyi 2-3 nəfər naməlum saqqallı şəxsin olduğu, ətrafı tikanlı məftillərlə sarınmış yerə salmışlar. Orada saxlanıldıqları 10 gün ərzində hərbçilər tərəfindən müntəzəm olaraq döyülmüş və təhqir edilmişlər. Döyülmələr nəticəsində ləng hərəkət etdiyi üçün 50-55 yaşlarında "həkim" deyilən şəxs ölmüşdür. On gündən sonra onların hamısını yük maşınına yığıb, Xankəndindəki müvəqqəti saxlama kamerasına aparmışlar. Orada Cabbarov Eyvaz, Abbasov Əli, Ərşad və adlarını xatırlamadığı digər 20-30 əsir-girov saxlanılırdı. Təcridxanada onlara hər gün, gecə-gündüz dəhşətli fiziki işgəncələr verilirdi. Ən çox işgəncə verənlərdən biri "Mişa" kimi çağırılan Qarabağ sakini idi. İşgəncə verənlər o qədər çox idi ki, digərlərinin adlarını xatırlamır. Bir gün Cabbarov Eyvaz və Abbasov Əlini hara isə aparmış, axşama yaxın geri qaytarmışdılar. Eyvaz kişi onların tanımadıqları bir yerə aparıldığını, onlara şüa verildiyini söyləmişdir. Bundan bir neçə gün sonra Cabbarov Eyvaz ölmüşdür. Onun meyiti əsirlər tərəfindən basdırılıb. "Povar" (aşpaz) deyə çağırılan gənc oğlan da dəhşətli işgəncələrə dözməyib ölmüşdür. Orada girovları hər gün ağır işlərdə işlədir, yeməyi isə çox az verirdilər. Əsir-girovları müxtəlif mülki şəxslər evlərində və digər yerlərdə işlədirdilər. Təcridxanaya BQXK nümayəndələri gəlsələr də, əsir-girovlar döyüldüklərini onlara deyə bilmirdilər. Çünki bu barədə məlumat verənlər daha amansızcasına döyülürdülər. 1996-cı ilin may ayında 30 nəfərədək əsir-girovla birlikdə o, Xankəndindən Şuşa həbsxanasına aparılmışdır. Orada da 30-dan çox əsir-girov saxlanılırdı və onların da hamısı ağır işgəncələrə məruz qalmışdı. 9 may 1996-cı il tarixdə onları Şuşadan Yerevana gətirmiş və mayın 10-da azad etmişlər.

Şevelyov Vladimir İvanoviç – 1926-cı ildə Azərbaycan Respublikasının Ağdam şəhərində doğulmuşdur. 23 iyul 1993-cü il tarixdə girov götürülmüş, 28 aprel 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Vladimir Şevelyov ailə üzvləri ilə birlikdə Ağdam şəhərində yaşayır və yol istismar sahəsində fəhlə işləyirdi. Anası qoca, qardaşı isə yataq xəstəsi olduğundan Ağdam rayonu Ermənistan Silahlı Birləşmələri tərəfindən işğal edilən zaman şəhərdən çıxmamışdı. Böyük Vətən müharibəsində almanların işğal etdiyi ərazilərdə dinc əhaliyə dəymədiklərini və milliyyətcə rus olduqları üçün ermənilərin onlara toxunmayacağını düşünüb, bu addımı atmışdır. 21 iyul 1993-cü il tarixdə Ermənistan ordusu Ağdam şəhərinə genişmiqyaslı hücuma keçmişdir. İyulun 22-də o, çörək almaq üçün küçəyə çıxmış, bir az aralandıqdan sonra güllə səsləri eşitmiş, qonşu evlərin yandırıldığını görmüşdür. Çörək olmayacağını başa düşüb gizlənə-gizlənə geri qayıdarkən anasının "Qansızlar! Oğlumu niyə öldürdünüz?!" – deyə fəryad qopardığını eşitmişdir. Ermənistan hərbçilərinin anasına "Yum ağzını, yaxşı eləmişik!" – deyə uca tonla qışqırdıqlarını eşitmiş, xəstə qardaşının güllələndiyini başa düşüb, qaçıb gizlənmişdir. Gecə evə gələrkən, 58 yaşlı qardaşından sonra 89 yaşlı anasının da güllələndiyini və evinin talan edilib yandırıldığını görmüşdür. Bundan sonra həmin vaxt evdə olmayan 48 yaşlı bacısını axtarmaq istəmiş, tapa bilməyəcəyini başa düşüb, su kanalına tərəf qaçmışdır. Yolboyu çoxlu azərbaycanlı uşaq və qadınların tanınmaz hala düşmüş meyitlərini görmüşdür. Ağdam rayonunun Sarıcalı kəndindəki posta yaxınlaşarkən Ermənistan hərbçiləri tərəfindən girov götürülmüşdür. Sərxoş əsgərlər onun cibindəki pulları almış, möhkəm döyüb onu sorğu-suala tutmuşlar. Sonra onu Ağdam şəhərinə aparıb qaraja salmışlar. Orada Ağdamın bir neçə qoca sakini ilə birlikdə

saxlanmışdır. Qoca olmalarına baxmayaraq, girovların hamısını səhərdən axşamadək şəhərdəki evlərin qarət olunmasında işlədir, axşamlar isə döyürdülər. 29 iyul 1993-cü il tarixdə Canetta adlı erməni hərbçi qadın BQXK-nın nümayəndəsi ilə birlikdə qaraja gəlmiş və onu özləri ilə götürmüşlər. Yolüstü Ağdam ruhi-əsəb xəstəxanasından iki qadın da onun olduğu maşına mindirilmiş və birlikdə Xankəndindəki uşaq xəstəxanasına aparılmışlar. Səhərisi gün onu aparıb qocalar evində yerləşdirmişlər. Sentyabrın 8-də Omsk şəhərindən gəlmiş hərbi geyimli bir kilsə xadimi yalvarış dolu xahişlərini nəzərə alıb onu Ağdama aparmışdır. O, anası Vera Davıdovnanın, qardaşı Anatoli İvanoviçin və bacısı Svetlananın meyitlərinin qalıqlarını – başlarını, ayaq və qollarının hərəsini bir tərəfdən tapıb toplamış və dəfn etmişdir. 1993-cü ilin sonunda o, bir neçə yaşlı rus əsilli girovla birlikdə Yerevandakı qocalar evinə aparılmış, azad olunduğu – 28 aprel 1994-cü il tarixədək orada saxlanılmışdır.

Şəfiyev Yusif Oruc oğlu – 1940-cı ildə Azərbaycan Respublikası, Cəbrayıl rayonunun Daşkəsən kəndində doğulmuşdur. 23 avqust 1993-cü il tarixdə girov götürülmüş, 6 noyabr 1993-cü il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Cəbrayıl rayonunun Ermənistan Silahlı Birləşmələri tərəfindən işğalı zamanı rayon mərkəzinə getmişdir. 1993-cü il avqust ayının 23-də həmkəndlisi Mehdiyev İlqarla "Jiquli" markalı avtomobilində rayonun pendir zavoduna yaxınlaşarkən, 50-60 nəfər hərbçinin orada toplaşdığını görmüşdür. Onların Azərbaycan əsgəri olduqlarını zənn edib, yaxınlaşarkən Ermənistan hərbçiləri onları girov götürmüşdür. Ermənilər Rüstəmov Üzeyir adlı azərbaycanlını da girov götürmüşlər. Onların əl-qolunu bağlayıb pendir zavodunun içərisinə aparmışlar. Ermənistan hərbçilərindən biri ona yerə atılmış Azərbaycan bayrağına tüpürməyi əmr etmişdir. O isə bayrağı yerdən götürüb öpmüşdür. Bunu görən həmin erməni avtomatın qundağı ilə arxadan ona iki zərbə endirmiş və o, yerə yıxılmışdır. Sonra onları Hadrut rayonuna aparmışlar. Orada Cəbrayıl rayonunun Quycaq kəndindən Verdiyev Camal, Süleymanlı kəndindən Məmmədov Azər, Şükürov Şükür, Məhərrəmov Nizam, Xatınbulaq kəndindən Tamaşa, Səyyarə və Daşkəsən kəndindən ruhi xəstə Maya adlı girovlar saxlanılırmış. Ermənilər Maya arvadı bərk döymüşlər. Bir müddət sonra Maya ilə adını bilmədiyi iki qadını Hadrut rayonu ərazisində buraxıb azad etdiklərini demişlər. Həmin qadınlardan ikisi öz evlərinə gəlib çatmış, lakin Maya itkin düşmüş və ondan indiyə qədər də xəbər yoxdur. Yusif Şəfiyevin həkim olduğunu bilən ermənilər gecə saat 01:00 radələrində onun yanına gəlib, yaralı ermənin üzərində cərrahiyyə əməliyyatı aparmaq lazım gəldiyini bildirmişlər. Ermənilərin təkidli tələbi ilə o, 6 erməni üzərində cərrahiyyə əməliyyatı aparmışdır. Təxminən 1993-cü il sentyabr ayının əvvəllərində, gecə yarısı Ermənistan hərbçiləri ağır yaralı vəziyyətdə əsir götürülmüş bir azərbaycanlı hərbçini əməliyyat etməyi ondan tələb etmişlər. Səbəb həmin hərbçinin yaralı olmasına baxmayaraq, erməni həkimlərini onu əməliyyat etməyə imkan verməməsi olmuşdur. Ermənistan hərbçilərinin məqsədi hərbi sirləri öyrənmək üçün yaralı hərbçinin ömrünü az da olsa uzatmaq imiş. Azərbaycanlı hərbçiyə yaxınlaşarkən huşsuz olduğunu görən Yusif həkim onun sağ çiyin nahiyəsində sümüklərinin sındırılması nəticəsində əmələ gəlmiş böyükhəcmli yara aşkar etmişdir. Həkim iki saatdan artıq bir müddətdə onu əməliyyat edib qanaxmanı dayandırmışdır. Lakin təxminən on gün sonra o, eşitdiklərindən heyrətə gəlmişdir. Belə ki, erməni

həkimlərdən biri söhbət zamanı azərbaycanlı hərbçinin ayıldıqdan sonra "Mən sizin əlinizə sağ-salamat keçmərəm, məndən heç bir sirr ala bilməyəcəksiniz", – deyib sarğıları dartıb qopardığını və intihar etdiyini söyləmişdir *(Araşdırmaların nəticəsində həmin hərbçinin 31 avqust 1993-cü il tarixdə Füzuli rayonu, Yuxarı Kürdmahmudlu kəndində yaralı vəziyyətdə əsir götürülmüş, Bakı şəhər sakini, 1974-cü il təvəllüdlü, leytenant Əsədov Vüqar Qabil oğlu olduğu ehtimal edilir – tər.).*

Bir neçə gündən sonra onu Hadrut rayonu, Edilli kəndinə aparmışlar. Hadrutda onunla birlikdə 9 əsir, 22 girov saxlanılmışdır. Həmin əsir-girovlardan – Füzuli rayonu, Seyidəhmədli kəndindən Mehdiyev Çingizi, Allahverdiyev Mətləbi, Qubadan Novruzov Laçını, Ağstafadan Hüseynov Şahsuvarı, Lənkərandan Nəsirov Namiqi, Şıxəliyev Şəmsini, Əliyev Valehi, Kamalı, Yaqubu, Əhmədov Vilayəti və ailə üzvlərini, Novruzova Nabatı, İbişov Cümşüdü, Rəşidi, Quliyev Zirəddini və Səfərəliyev Səfəralını xatırlayır. Girovluqda olarkən Yusif həkim Laçının, Şahsuvarın, Vilayətin yaralarını müalicə etmişdir. Laçın iki dəfə erməni əsirliyindən qaçsa da, ermənilər onu tutmuşlar. Üçüncü dəfə qaçarkən yenidən tutmuş və oradakı əsir-girovların gözləri qarşısında güllələyib qətlə yetirmişlər. Ermənilər əsir-girovların ağzına sidik töküb təhqir edir, alçaldırdılar. Erməni hərbçilərindən biri ona danışmışdı ki, Goranboy rayonunun Gülüstan kənd əhalisindən 62 nəfərini girov götürən zaman onların arasında olan gözəl bir gəlini qucaqlamışdır. Gəlin onun üzünə tüpürüb geri çəkilmişdir. Bundan qəzəblənən həmin erməni girovların hamısını güllələyərək qətlə yetirmişdir. Ermənistanlı hərbçi bu hərəkəti ilə fəxr etdiyini də ona söyləmişdir. Girovluqda olduğu zaman Füzuli rayonu, Bala Bəhmənli kənd sakini Yaqub Tağıyev minaya düşdüyü üçün 12 yara almışdı. Yusif həkim onun üzərində cərrahiyyə əməliyyatı apardığı zaman Yaquba qan köçürmək lazım olduğunu bildirmiş, lakin ermənilər bunun mümkün olmadığını söyləmişlər. Ermənistan hərbçiləri əsir-girovları işlədən zaman təpiklə, dəyənəklə döyür, təlim görmüş itləri onların üstünə buraxırdılar. Ermənistan hərbçiləri əsir-girovları möhkəm döyməklə yanaşı, müqəddəs "Quran"ı və Məhəmməd Peyğəmbəri söyür və təhqir edirdilər.

Bir dəfə Manvel Qriqoryan adlı erməninin qardaşı onu möhkəm döyüb getdikdən sonra erməni nəzarətçi həmin şəxsin yalnız əsir-girovları öldürməklə məşğul olduğunu bildirmişdir. Bir müddət sonra onu 12 əsir-girovla birlikdə Hadrut rayonu, Edilli kəndindən Yerevan şəhərinə aparmışlar. Yolda 12 nəfərə cəmi 2 şüşə su vermişlər. İki gün Yerevanda ac-susuz saxlanıldıqdan sonra – 6 noyabr 1993-cü il tarixdə azad edilmişdir.

Şıxəliyev Şəmsi Xanəhməd oğlu – 1957-ci ildə Azərbaycan Respublikası, Füzuli rayonunun Aşağı Veysəlli kəndində doğulmuşdur. 28 avqust 1993-cü il tarixdə girov götürülmüş, 27 mart 1995-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü il avqust ayının 28-də ev əşyalarını çıxarmaq üçün Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndinə getmişdi. Aşağı Seyidəhmədli kəndindən olan 13-14 yaşlı Quliyev Zirəddin Ziyafət oğlu ilə birlikdə Quruçay körpüsünün altındakı bulaqdan su içib yuxarı qalxarkən üç erməni hərbçi tərəfindən girov götürülmüşlər. Girov götürülən gündən ermənilərin qəddar, qaniçən, qeyri-insani hərəkətlərinin şahidi olmuşdur. Onların əllərini, ayaqlarını məftillə sarıyıb yük maşınının arxasına atmışlar. Gözləri bağlı olduğundan o, heç nə görə bilməmişdir. Onları Hadrut rayonunun Edilli kəndinə aparmış, dəmir barmaqlıqlı

balaca, işıqsız, rütubətli bir otağa atmışlar. Orada başqa azərbaycanlı əsir-girovlar da saxlanılırdı. Onu erməni komandirin yanına aparıb kəşfiyyatçı olduğunu boynuna qoymaq istəmiş, inkar etdikdə isə müxtəlif küt alətlərlə döymüşlər. Sonra dəmir xaçı qızdırıb onun sinəsinə basmaq istəmiş, nədənsə komandir buna icazə verməmişdir. Ermənilər onu oradan çıxarıb başqa yerə apararkən yolda yenə qəddarcasına döymüş, nəticədə bütün bədəni qana boyanmış, dəhşətli ağrılardan huşunu itirmiş və bir həftə yarı huşsuz vəziyyətdə qalmışdır. Əsir yoldaşları onlara verilən azacıq suyu onun boğazına damızdırmış, öz köynəklərini cırıb yaralarını sarımışlar. Digərlərini də gündə ən azı üç dəfə belə döymüşlər. Hamısının bədəni, üz-gözü qançırla dolu idi. Birinin qolunu, digərinin qabırğalarını, ayaqlarını sındırmış, bədənlərinə qızdırılmış dəmirlə xaç çəkmişdilər. On gün ərzində onlara bir konserv bankasında su verir, içinə də sidik qatırdılar. Yemək isə gündə bir dəfə verilirdi. Axşamlar öz qabaqlarından qalan artığı toz-torpaqlı çirkli zibil vedrəsinə süpürüb tökür və itə yemək verən kimi, gətirib kameraya atırdılar. Hər 2-3 saatdan bir əsir-girovları bayıra çıxarıb, müxtəlif növ ağac, dəmir parçaları, yumruq və təpiklə vəhşicəsinə döyür, sonra otağa atırdılar. Əsir-girovlara bir-biri ilə danışmağa imkan verilmir, danışanda isə vəhşicəsinə döyürdülər. Kəndin qarajında 5 nəfər, digər qarajda Füzulidən olan bir ailə, başqa yerdə yaşlı qadınlar və uşaqlar saxlanılırdı. Füzuli rayonunun Kürdmahmudlu kəndində gedən döyüşlərdə ermənilər tərəfindən qətlə yetirilmiş və yaralanmış əsgərlərin meyitləri ilə dolu "KAMAZ" markalı maşını onlara boşaltdırır və basdırılması üçün qəbir qazdırırdılar. Orada olduğu müddətdə onları hər gün döyüb, ağır fiziki işlər gördürür, yemək, su vermir, hərdən çirkli su verirdilər ki, onu da girovlar növbə ilə içməli olurdu. Nəzarətçilər onlara bir-birini döymək, söymək kimi əmrlər verir, üstlərinə quduz itləri buraxaraq tamaşa edir, əl çalıb gülürdülər.

1993-cü il oktyabr ayının 13-də onu və bir qrup əsir-girovu Yerevan şəhərinin Şaumyan rayonunda yerləşən, əvvəllər sürücülük məktəbi kimi fəaliyyət göstərmiş, sonralar hərbi hissəyə çevrilmiş yerə aparmışlar. Ora çatan kimi hamısını vəhşicəsinə döyüb, dəmir qapılı, döşəməsi betondan olan zirzəmiyə salmışlar. Şərait o qədər dəhşətli və acınacaqlı idi ki, rütubət və soyuqdan, çirkdən, bit-birədən onların hamısı xəstələnmiş, bədənlərini yaralar basmışdı. Onlarla birlikdə saxlanılan Səfəralıyev Səfəralı xəstəliyə və natəmizliyə dözməyib elə oradaca ölmüşdür. Ermənilər onun meyitini çıxarıb harasa aparmışlar. Əsir-girovların vəziyyəti elə idi ki, heç ağızları açılmırdı. Hər axşam onların hamısını vəhşicəsinə döyüb təhqir edir, ölümcül hala salıb yarıölü-yarıdiri cəsədlərini kameraya atırdılar. Qonşu kameralardan qadın və qızların "Allah!" deyə çığırdıqlarını, haray çəkib kömək istədiklərini eşitmək dözülməz idi. Bu qədər vaxtda yuyunmadıqları üçün hamısının bədənini yara basmış, bit-birə düşmüşdü. Əsir-girovlara gündə bir neçə dəfə olmazın işgəncələr verir, ac saxlayır, ələ salır, üzlərinə tüpürürdülər. İşgəncələrdən onun bədəninin müxtəlif yerlərində – sol çənə oynağında sınıq və çat, hər iki yuxarı ətraflarında çapıq yerləri, sağ gicgah sümüyündə sınıq və çat, sol bazu-sütun oynağında çatlar əmələ gəlmişdir.

Əsir-girovları saxlandıqları yerdə vəhşi heyvanlar kimi hər gün yerli mülki şəxslərə, uşaq və böyüklərə göstərirdilər. Həmin şəxslər onları söyür, ağacla döyür, üzlərinə tüpürürdülər. Ağayev Rəşid Misir oğlu, Məmmədov Mübariz Telman oğlu, Məmmədov Fəxrəddin Musa oğlu, Məmmədov Aslan Məhərrəm oğlu, Mehdiyev Çingiz Tapdıq oğlu, Rəhimov Xaləddin Şahmar oğlu, Quliyev Ziyəddin Ziyad oğlu, Nəsirov Namiq Fərman oğlu, Əliyev Valeh Həsən oğlu və Əliyev Taleh Valeh oğlu saxlanılanlar arasında olmuşlar.

Əsirlikdə olduğu müddətdə o, fiziki işgəncələrlə yanaşı, mənəvi təcavüzə də məruz qalmışdır. Demək olar ki, ona hər gün erməni ordusunun Bakıya qədər Azərbaycanı zəbt etdiklərini və 1-2 günə Bakını da götürəcəklərini bildirmişlər. Azərbaycana qayıdan kimi həbs ediləcəyini və həbsxanada çürüyəcəyini bildirir, ondansa, Emənistanda qalıb erməni qızı ilə evlənməsini təklif edirmişlər. Yerevanda saxlanıldığı müddətdə onlar BQXK nümayəndələrindən gizlədildiyi üçün bu qurumun əməkdaşları onlara baş çəkməmişlər. Azad olunandan sonra, BQXK-nın Azərbaycandakı nümayəndəliyinə o, bu barədə məlumat vermiş və həmin yerin sxemini çəkib onlara təqdim etmişdir.

Ermənistan hərbçiləri onu 8 min ABŞ dolları müqabilində qardaşı Abdullaya satmışlar. Razılaşdırılmış danışığa görə, Hərbi Prokurorluğun Eçmiədzin qarnizon prokuroru işləmiş Eduard Sarkisyanın iki yaxın qohumu Rusiya Federasiyasının Saratov vilayətinə gedib, pulu götürüb Sarkisyana çatdırmalı idi. Qardaşı Abdullanın tələbi ilə ermənilərdən biri onun yanında girov kimi qalmış, digəri isə 1995-ci ilin mart ayında həmin pulu Abdulladan alıb Sarkisyana çatdırmışdır. Yalnız bundan sonra onu Gürcüstana gətirib sərbəst buraxmışlar.

Şirinova Şərqiyyə Rza qızı – 1933-cü ildə Azərbaycan Respublikası, Ağdam rayonunun Qaradağlı kəndində doğulmuşdur. 23 iyul 1993-cü il tarixdə girov götürülmüş, 28 aprel 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Tək və köməksiz olduğu üçün 1993-cü ilin iyul ayında Ermənistan Silahlı Birləşmələri tərəfindən Ağdam şəhəri işğal edilərkən şəhərdən çıxa bilməmişdir. Ermənilər onu öz evində girov götürüb maşınla Sarıcalı kəndinə aparmışlar. Orada digər Ağdam sakini Vladimir Şevelyovu da girov götürüb maşına mindirmişlər. Onları Ağdam şəhərinə gətirib maşın qarajına salmış və bir həftə saxladıqdan sonra Xankəndindəki hərbi hissəyə göndərmişlər.

Orada saxlandığı müddətdə, digər əsirlər kimi, yaşlı girovlar da hər gecə hərbçilər tərəfindən vəhşicəsinə döyülmüş, işgəncələrə məruz qalmışdır. Gecə saat 03:00 radələrində əsir-girovların yaşına, cinsinə fərq qoymadan, soyundurub, yumruq, təpik, şillə, rezin dəyənək və ağacla döyüb işgəncə vermişlər. Onun başını yarmış, səkkiz qızıl dişini adi mismar kəlbətini ilə çıxarmışlar. 1993-cü ilin avqust ayında onu Xankəndindəki uşaq bağçasına aparmış və azad olunduğu – 28 aprel 1994-cü il tarixədək orada saxlamışlar.

Şükürov Mürsəl Şəmsəddin oğlu – 1972-ci ildə Azərbaycan Respublikası, Xaçmaz rayonunun Xaspolad kəndində doğulmuşdur. 16 iyun 1993-cü il tarixdə əsir götürülmüş, 14 yanvar 1994-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ağdam rayonunun Xaçındərbətli kəndinin müdafiəsi zamanı mühasirəyə düşüb əsir götürülmüşdür. Həmin gündən avqust ayına qədər Şuşada turist bazasının zirzəmisində, 1994-cü il yanvar ayının 14-dək isə şəxsi evdə saxlanılmışdır. Şuşa şəhərində saxlanılan zaman ağır işgəncələrə məruz qalmışdır. Ermənilər əsirləri hər gün 7-8 dəfə sıraya düzüb armatur, taxta, ling və ağac dəyənəklərlə döyürdülər. Onları ən çox döyən Aram və Xaçı adlı ermənilər olmuşdur. Nəzarətçilər siqaretlə əsirlərin üzünü, əllərini yaralarından qan axanadək yandırırdılar. Aram bel sapı ilə vurub onun burnunu sındırmış, nəticədə o, huşunu itirmişdir. Ayılandan sonra məlum olmuşdur ki, Aram onun sol ayağının

topuğunu da sındırmışdır. Hər gecə ermənilər sərxoş vəziyyətdə özləri ilə kənar şəxsləri gətirib əsirləri onlara döydürürdülər. Döyülmə nəticəsində onun ayağı sındırılmış, çiyni əzilmişdir. Mürsəl Şükürov 14 yanvar 1994-cü ildə azad edilmişdir.

Şükürova Səidə Fikrət qızı – 1975-ci ildə Azərbaycan Respublikası Füzuli rayonu, Əbdürrəhmanlı kəndində doğulmuşdur. 17 avqust 1993-cü il tarixdə girov götürülmüş, 18 avqust 1993-cü ildə azad olmuşdur. İfadəsində bildirmişdir:

Füzuli rayonu Ermənistan Silahlı Birləşmələri tərəfindən işğal edilərkən o, ailə üzvləri ilə birlikdə yaşadığı kəndi tərk etmək istəmişdir. Həmin vaxt ondan başqa, atası Şükürov Fikrət Qubad oğlu, anası Ələkbərova Sona Həşim qızı, qardaşları – Xaliq, Qubad və bacısı Mənsurə də evdə imiş. Qəflətən onların həyətinə Ermənistan hərbçilərinin tankı daxil olmuş, oradan üç nəfər avtomat silahlı erməni hərbçi çıxmış və qışqırıb onlara rus dilində sıraya düzülməyi əmr etmişlər. Qardaşı Qubad imkan tapıb qonşunun həyəti istiqamətində qaçmışdır. Atası ilə qardaşı Xaliq erməni hərbçilərdən nə qədər xahiş etsələr də, onları buraxmamışlar. Erməni əsgərlərindən biri atasının başına qumbaranın alt hissəsi ilə çoxlu sayda zərbələr endirib, başını yarmış və onun üzü al qana boyanmışdır. Digər hərbçilər isə avtomat silahdan atəş açıb, onu övladlarının gözləri qarşısında qətlə yetirmişlər. Qardaşı Xaliq ermənilərə müqavimət göstərdiyi üçün onu da başından güllələyib qətlə yetirmişlər. Ermənilər ana və bacısının yalvarışlarına baxmayıb, onları buraxmamışlar. Anası ata və qardaşının meyitlərinin yanında qalmış, onu və bacısını silah qundağı ilə vurub və ayaqlarının altına güllə ataraq, sürüyə-sürüyə zorla tanka mindirmiş, işğal edilmiş və heç kimin yaşamadığı qonşu kəndə aparmışlar. Onu və bacısı Mənsurəni boş evlərdən birində yerləşdirib, onları huşlarını itirənədək döymüşlər. Ertəsi gün, avqustun 18-də Azərbaycan ordusunun ermənilərə atəş açdıqlarını eşidən Ermənistan hərbçiləri onu və Mənsurəni həmin evdə qoyub öz mövqelərinə sarı qaçmışlar. Qızlar kəndin yaxınlığından keçən Füzuli-Horadiz yoluna çıxmış, yük maşınında gələn Azərbaycan hərbçiləri ilə qarşılaşmış və onların köməyi ilə öz qohumlarını tapmışlar.

Tağıyev Bəxtiyar İbrahim oğlu – 1973-cü ildə Azərbaycan Respublikası, Zaqatala rayonu, Tala-3 kəndində doğulmuşdur. 9 dekabr 1992-ci il tarixdə əsir götürülmüş, 16 yanvar 1994-cü il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

9 dekabr 1992-ci il tarixdə Zəngilan rayonunun Ermənistan Silahlı Qüvvələrinin hücumlarından müdafiəsi zamanı gedən döyüşlərdə 5 nəfər döyüş yoldaşı ilə birlikdə əsir götürülmüşdür. Əsir düşən zaman onların əllərini məftillə bağlayıb möhkəm döymüş, axşam isə xəstəxanaya aparmışlar. Orada erməni tibb bacısı heç bir keyidici preparatdan istifadə etmədən B.Tağıyevin qoluna tikiş qoymuşdur. Bir müddət sonra Ermənistanın Qafan rayonunda yerləşən hərbi hissəyə aparılan əsirləri oradakı erməni hərbi qulluqçular amansızcasına döymüş və avtomatın qundağı ilə dişlərini sındırmışlar. Çox keçmədən Qafan rayon Milis şöbəsinə aparılan B.Tağıyevi və digər əsirləri döyüb, sorğu-sual etmişlər. Milis şöbəsində Bəxtiyar Tağıyevlə birlikdə əsir götürülmüş Ağdam rayonundan İlhamı və Sumqayıt şəhərindən Samiri şöbənin əməkdaşları güllələyib öldürmüşlər. Hacıqabul rayonundan Elmixan Baxşəliyevi döyüb üç qabaq dişini sındırmışlar. İki nəfər mülki geyimli erməni tez-tez narkotik maddələrin və spirtli içkinin

təsiri altında Qafan Milis şöbəsinə gəlib əsirləri döymüşlər. Armen adlı Qafan rayonundan olan serjant əsirlərə ən çox işgəncə verənlərdən olmuşdur. O, hər gecə saat 2:00 radələrində şöbəyə gəlib, əsirləri oyadıb döymüş və səhərədək ayaq üstə saxlamışdır. B.Tağıyev Yerevan şəhərində yerləşən hərbi hissədə saxlanılan zaman, Ermənistan hərbçilərinin orada da əsir-girovlara ağır işgəncələr verdiklərinin şahidi olmuşdur. Məsələn, Məhərrəm Məhyəddinov adlı əsir işgəncələrin təsirindən qan qusmağa başlamış və ölmüşdür. Bir dəfə içkili hərbçi gecə saatlarında B.Tağıyevin boğazına bıçağı dirəyib mahnı oxumasını tələb etmiş, Bəxtiyar oxuya bilmədiyi üçün möhkəm döyülmüşdür. B.Tağıyevin gözləri qarşısında erməni hərbçilərin Şəmkir rayonunun Tatar kəndindən olan Fikrət adlı girovu çarpayının dəmiri ilə möhkəm döyməsi nəticəsində onun yan hissəsi şişmiş və yara əmələ gəlmişdir. BQXK əməkdaşları bu hadisədən gec xəbər tutduqlarından Fikrətə tibbi yardım göstərilsə də, həyatını xilas etmək mümkün olmamış və o, dünyasını dəyişmişdir. Digər əsir, Bakı şəhərinin Maştağa qəsəbəsindən Nəsirov İlham Sədulla oğlu isə iki ay qaranlıq zirzəmidə ac-susuz saxlanıldığından ölmüşdür. Tağıyev Bəxtiyar İbrahim oğlu, 16 yanvar 1994-cü il tarixdə girovluqdan azad edilmişdir.

Tağıyev Tapdıq İnqilab oğlu – 1964-cü ildə Azərbaycan Respublikası Xocavənd rayonu, Qaradağlı kəndində doğulmuşdur. 17 fevral 1992-ci il tarixdə əsir götürülmüş, 10 aprel 1992-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci il fevral ayının 17-də Xocavənd rayonunun Qaradağlı kəndinin Ermənistan Silahlı Birləşmələri tərəfindən işğalı zamanı 100 nəfərdən çox həmkəndlisi ilə birlikdə girov götürülmüşdür. Ermənistan hərbçiləri girovları maşınlara yığıb Qaradağlı kəndindən Xankəndi istiqamətinə aparmışlar. Kənddən 2 km uzaqlaşdıqdan sonra Xocavənd rayonu ərazisində "Bəylik bağı" deyilən ərazidə maşınları saxlamış və onlarla Qaradağlı sakinini düşürüb, qətlə yetirmişlər. Qohumu və həmkəndlisi Tağıyev Telman Tevon oğlu bu vəhşiliyə dözməyib cibində gizlətdiyi qumbaranı çıxarıb ermənilərin üstünə atmış və qarışıqlıq düşmüşdür. Sonra erməni hərbçilər öldürülənlərin meyitlərini ərazidə qoyub, digərlərini yenidən maşınlara yığıb Xankəndi istiqamətində aparmışlar. Xocavənd rayonunun "Lingi" adlanan ərazisində maşını yenidən saxlamış Ermənistan hərbçiləri, Elmidar Rəşid oğlunu aşağı düşürüb güllələmiş, meyitini yolun kənarına atmışlar. Sonra bütün girovları Xankəndinə aparıb üçmərtəbəli binanın zirzəmisinə salmışlar. Orada onları təpik, yumruq və rezin dəyənəklərlə döymüş, gün ərzində 50 qram quru çörək vermişlər. Təxminən 10 gündən sonra Vəliyev Füzuli Cavad oğlu və Hüseynov Əbülfət Mehman oğlu *(hər ikisinin taleyindən bu günə kimi xəbər yoxdur – tərt.)* istisna olmaqla, digər girovları Xankəndi həbsxanasına aparmışlar. Xankəndində qeyri-insani şəraitdə saxlanılan girovlara erməni terrorçu-quldur dəstəsinin komandiri Manvelin əmri ilə dəhşətli işgəncələr verilmişdir. Qarik adlı hərbçinin 5-6 nəfər erməni ilə birlikdə girovları təpik, yumruq və avtomatın qundağı ilə döyməsi nəticəsində işgəncələrə dözməyib ölmüş Vəliyev Fazil Cavad oğlunun meyitini kameradan çıxarıb naməlum istiqamətdə aparmışlar. Bir aydan sonra girovları qeydiyyata götürən BQXK nümayəndəsi kameranın həddindən artıq soyuq olduğunun şahidi olmuş və onlara köhnə adyallar vermişdir. Tapdıq Tağıyev 1992-ci il aprel ayının 10-da girovluqdan azad edilmişdir. Onunla birlikdə saxlanılmış Familət Şirinov, Əvəz Tağıyev və Sərdar Tağıyev girovluqda məruz qaldıqları işgəncələr nəticəsində azad olunduqdan sonra vəfat etmişlər.

Tağıyev Tevon Habil oğlu – 1925-ci ildə Azərbaycan Respublikasının Xocavənd rayonu, Qaradağlı kəndində doğulmuşdur. 17 fevral 1992-ci il tarixdə girov götürülmüş, 31 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1991-ci ilin sonlarında Xocavənd rayonunun Qaradağlı kəndi ətraf kəndlərdə yaşayan ermənilər tərəfindən tam mühasirəyə alınmış, giriş-çıxış tamamilə kəsilmişdir. Fevral ayının 14-dən etibarən Ermənistan hərbçiləri ağır texnikalarla kəndə hücuma başlamış, kəndin özünümüdafiə dəstəsinin silah-sursatının bitməsi nəticəsində fevral ayının 17-də Qaradağlı kəndini işğal etməyə müvəffəq olmuşlar. Kəndə girən ermənilər 8 nəfəri güllələmişlər. Qaradağlının işğalı zamanı xeyli itki vermiş Ermənistan hərbçiləri döyüş vaxtı həlak olmuş ermənilərin meyitlərini yerə düzüb video çəkiliş aparmışlar. Həmin vaxt erməni jurnalist qadın beynəlxalq aləmə həmin ermənilərin guya erməni kəndinə hücum edən azərbaycanlılar tərəfindən öldürüldüklərini təqdim etmək məqsədi ilə veriliş hazırlamışdır. Qaradağlının işğalı günü girov götürülmüş 100 nəfərdən çox kənd sakinini iki yük maşınına – yaşlıları və qadınları birinə, cavanları isə digərinə yığıb Xankəndi istiqamətində aparmışlar. Kənddən 2 km aralıda yerləşən "Bəylik bağı" adlanan ərazidə maşınları saxlayan erməni hərbçilər əsir-girovlara yerə düşməyi əmr etmişlər. Girovlar maşından düşmək istəmədiyi üçün onları atəşə tutub bir neçə nəfəri qətlə yetirmişlər. Maşınlardan düşməyə məcbur olan girov gənclərdən bir neçəsini seçib Qaradağlı kəndinin işğalını qeyd etmək məqsədi ilə oraya yığışmış erməni qadın və uşaqların gözləri qarşısında sıraya düzüb güllələmişlər. Bu zaman Tevonun oğlu Telman baş verənlərə dözə bilməyib cibində gizlətdiyi əl qumbarasını partladıb, özünü və iki nəfər erməni hərbçini öldürmüşdür. 30 nəfərdən çox Qaradağlı sakinini qətlə yetirən ermənilər onlardan bir neçəsinin başını kəsmiş və başları sellofana bükərək götürmüşlər. Qətlə yetirdikləri azərbaycanlıların meyitlərini silos quyusuna dolduran Ermənistan hərbçiləri digər girovları ermənilərin yaşadığı Cəmiyyət kəndinə gətirmiş, iki nəfər Qaradağlı kənd sakinini – Hüseynov Həbib Həmzə oğlu və Xəlilov Zahid Əyyub oğlunu da orada, mülki əhalinin gözləri qarşısında güllələmişlər. Xankəndinə 5-6 km qalmış girovları maşınlardan endirib üst paltarlarını soyundurmuş və onları şəhərə piyada gətirmişlər. Yolboyu mülki erməni əhali onları daş-qalaq etmiş və üzlərinə tüpürmüşlər. Saat 6-7 radələrində girovları Xankəndi şəhərində yerləşən hərbi hissəyə aparmışlar. Orada onları qarın üstünə uzadıb, rezin, dəmir və ağac dəyənəklərlə və təpiklə möhkəm döymüşlər. Ertəsi gün 5 nəfər girovu hərbi hissədə saxlayıb, qalanlarını Xankəndində yerləşən həbsxanaya aparmışlar. Həbsxananın üçüncü mərtəbəsində, pəncərələri şüşəsiz bir otaqda yarıçılpaq və ac-susuz vəziyyətdə saxlanılan əsir-girovlar aramsız olaraq döyülmüş və işgəncələrə məruz qalmışlar. Həbsxanada Hüseynov Şura Hüseynalı oğlu, Hüseynov İmran Əhməd oğlu, Quliyev Əlastan Nəriman oğlu, Vəliyev Fazil Cavad oğlu və Nəzərov Şura İbad oğlunu ermənilər döyə-döyə öldürmüşlər. 16 gün Xankəndində saxlanıldıqdan sonra, Emil Balayanın oğlu Vartan Balayan Tevon Tağıyev də daxil olmaqla 14 nəfər girovu işğal altında olan Xocavənd şəhərinə gətirib yaxın qohumu Slavikin qarajında saxlamışdır. Həmin müddətdə ətrafda yaşayan ermənilər mütəmadi olaraq qaraja gəlib onları döymüşlər. Nəticədə oraya gətirildikdən 3 gün sonra Şirinov Böyükkişi Lələ oğlu döyülməkdən ölmüşdür. Səkkiz gün sonra Vartan Böyükkişinin meyitini aldığı pul müqabilində Azərbaycan tərəfinə qaytarmışdır. Daha 10 nəfər azərbaycanlının meyitini Vartan yaşadığı Heşan kəndindəki kolxozun qarajında saxlamışdır. Girovlar öldürülüb cəsədləri silos

quyusuna atılmış həmkəndlilərinin meyitlərinin çıxarılması məqsədi ilə Vartan tərəfindən həmin yerə aparılmışlar. Onlar birinci dəfə 9 meyit çıxarsalar da, erməni hərbçilər gəlib meyitləri təkrar quyuya atmışlar. Sonradan Vartan tərəfindən iki gecə oraya aparılan girovlar həmkəndlilərinin 8 meyitini çıxarıb maşına yığmışlar. Təkrar həmin əraziyə gələn erməni hərbçilər quyuda qalan digər meyitləri çıxarmağa yenə də imkan verməmişlər. Həmkəndliləri Hüseynov Dəmir Musa oğlu, Hüseynov Fədail Zülfüqar oğlu, Hüseynov Feyruz Mahmud oğlu, Vəliyev Mobil Mürsəl oğlu, Tağıyev Faiq Həsrət oğlu, Əzizov Atəş Əfqan oğlu, Tağıyev Kamil Sərdar oğlu və Arazov Eldar Kamil oğlunun meyitləri quyudan çıxarılmış, Xəlilov Zahid Əyyub oğlunun meyiti Cəmiyyət kəndində yolun kənarından, Kərimov Əliqismət Qara oğlunun meyiti Qaradağlı kəndinin kənarındakı kolxoz idarəsinin yanından götürülmüşdür. Əliqismətin kəsilmiş başı isə cəsədinin yanında tapılmamışdır. Digər meyitləri Tevon Tağıyev tanımış, lakin nə qədər axtarsa da, oğlu Telmanın meyitini quyudan tapa bilməmişdir. Quyudan çıxarılmış 13 meyiti Vartan maşınla naməlum istiqamətdə aparmışdır. Bununla yanaşı, meyitləri çıxarmaq məqsədi ilə Qaradağlı kəndinə aparılan Tevon Tağıyev doğma kəndinin ermənilər tərəfindən talan edildiyinin, kənd qəbiristanlığındakı mərmər baş daşlarından bəzilərinin sındırıldığının, digərlərinin isə mülki və hərbçi ermənilər tərəfindən çıxarılıb maşınlarla daşındığının şahidi olmuşdur. Tevon Tağıyev 31 mart 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Tağıyev Yaqub Oruc oğlu – 1962-ci ildə Azərbaycan Respublikası, Füzuli rayonunun Balabəhmənli kəndində doğulmuşdur. 21 avqust 1993-cü il tarixdə girov götürülmüş, 7 dekabr 1995-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Yeznəsi Nazim Quliyevlə birlikdə Füzuli rayonunun Dədəli kəndi ərazisində Ermənistan hərbçiləri tərəfindən atəşə tutulmuş, nəticədə Nazim Quliyev həlak olmuşdur. Yaqub Tağıyev isə yaralanıb girov götürülmüşdür. Erməni hərbçilər Nazimin meyitini yandırmış, Yaqub Tağıyevi isə döyüb əl-qolu və gözləri bağlı vəziyyətdə Hadrut rayonunun Edilli kəndinə aparıb qaraja salmışlar. Əvvəl Yaqub Tağıyevi xəncərlə doğramaq istəyən ermənilər, sonra nədənsə bu fikirdən daşınmışlar. Yerevan şəhərindən bir erməni hər gecə kameraya gəlib əsir-girovları lom, bel və sair küt alətlərlə döymüş, təhqir etmiş və bədənlərini bıçaqla deşmişdir. Füzuli rayonunun Dədəli kəndindən 50-55 yaşlarında bir kişinin qolunu Ermənistan hərbçiləri sındırmış, güllə ilə qulağından vurmuşlar. Həkimlərin laqeyd davranışı nəticəsində qolundakı yara çirk vermiş Yusif adlı girov ölmüşdür. Fərman, Cümşüd və Cahangir adlı girovlar döyülməkdən və baxımsızlıqdan ölmüşlər. Edilli kəndində saxlanılan zaman Yaqub Tağıyev 5 nəfər yoldaşı ilə birlikdə əsirlikdən qaçmağa cəhd göstərmiş, lakin ermənilər tərəfindən tutulub vəhşicəsinə döyülmüş və ağır işgəncələrə məruz qalmışdır. Quba rayonundan Laçın adlı əsir əsir-girovların gözləri önündə güllələnmişdir. Onun bədənini 3 avtomat darağı güllə ilə deşik-deşik edən Ermənistan hərbçilərinin bununla da hirsləri soyumamış, onun meyitini ayaqyoluna atmışlar. Digər əsir-girovları döyə-döyə yerlə sürüyən erməni hərbçilər onları torpaq yeməyə məcbur etmişlər. Şuşada saxlanılan zaman erməni nəzarətçilər tərəfindən həbsxananın yazılmamış qaydalarına görə, qaça-qaça hərəkət etməyə və işləməyə məcbur edilən əsir-girovlar hər gün armatur və dəmir parçaları ilə vəhşicəsinə döyülmüş, alçaldılmış və təhqir edilmişlər. Bu qaydalara əməl etməyənlər isə amansızlıqla cəzalandırılmışlar. Bir müddət sonra Yaqub Tağıyev Xocavənd

rayonunun Mısmına kəndinə aparılıb, tikinti-abadlıq işlərinə cəlb edilmişdir. Orada gündüzlər qul kimi işlədilən azərbaycanlı əsir-girovlar, gecələr spirtli içkilər və narkotik maddələrin təsiri altında olan erməni hərbçilərin və nəzarətçilərin işgəncə və təhqirlərinə məruz qalmışlar. Mısmına kəndində saxlanıldıqları müddətdə 5 nəfər azərbaycanlı əsir-girov oradan qaçdığı üçün erməni nəzarətçilər digər əsir-girovları 3 gün ac saxlamış və işgəncələr vermişlər. Səhhəti tamamilə pisləşdiyi üçün, BQXK əməkdaşlarının təkidi ilə müalicə məqsədi ilə Xankəndi uşaq xəstəxanasına aparılan Y.Tağıyev, orada da eyni mənzərə ilə qarşılaşmışdır. Nəzarətçi və hərbçi ermənilər, o cümlədən xəstəxananın işçi heyəti əsir-girovları döymüş və təhqir etmişlər. Hər gün xəstəxanaya gəlib, əsir-girovlarla təklikdə söhbətlər aparan Ermənistanın xüsusi xidmət orqanının əməkdaşı isə Yaqub Tağıyevi döyüb işgəncələr vermişdir. Yaqub Tağıyev 7 dekabr 1995-ci il tarixdə girovluqdan azad edilmişdir.

Talıbov Əli Əkbər oğlu – 1973-cü ildə Azərbaycan Respublikasının Zaqatala rayonunda doğulmuşdur. 22 mart 1996-cı il tarixdə əsir götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

22 mart 1996-cı il tarixdə dumanlı havada yolu azıb Ermənistan hərbçiləri tərəfindən əsir götürülən Əli Talıbov elə oradaca huşunu itirənədək döyülmüşdür. Kapitan rütbəli erməni hərbçinin taxta parçası ilə Ə.Talıbovun başına, belinə vurduğu zərbələr nəticəsində o, ayağa qalxa bilməmişdir. Digər erməni hərbçi isə kəllə ilə vurub Əlinin burnunu sındırmış, sonra döşəməyə tökülmüş qanının üstündə sürümüşdür. Başına torba keçirilib "Niva" markalı maşınla başqa bir hərbi hissəyə aparılan Ə.Talıbov orada yüksək rütbəli ermənilər tərəfindən sorğu-sual edilib təcridxanaya salınmışdır. Təcridxanada erməni hərbçilər sərxoş vəziyyətdə kameraya daxil olaraq "Qarabağ kimindir?" – deyə sual vermiş, istədikləri cavabı almadıqlarından, Əlini vəhşicəsinə döymüşlər. Orada saxlanıldığı müddətdə Əli Talıbov müntəzəm olaraq erməni hərbçilər tərəfindən döyülmüş və təhqirlərə məruz qalmışdır. Bir gün ermənilər "Turkes, turkes", – deyərək döyə-döyə gətirdikləri İdris adlı əsiri də Əlinin saxlanıldığı kameraya salmışlar. Talıbov Əli Əkbər oğlu 10 may 1996-cı il tarixdə əsirlikdən azad edilmişdir.

Talıbov Rəfail Bayram oğlu – 1968-ci ildə Azərbaycan Respublikasının Kəlbəcər rayonunda doğulmuşdur. 1993-cü ilin iyul ayında əsir götürülmüş, 14 oktyabr 1993-cü ildə azad olmuşdur. İfadəsində bildirmişdir:

Döyüş yoldaşları ilə birlikdə mühasirəyə düşüb, Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Digər əsir-girovlarla bərabər Şuşa həbsxanasında dözülməz şəraitdə saxlanılmış, bu müddətdə azərbaycanlı əsir-girovların erməni nəzarətçilər tərəfindən amansızcasına döyülmələrinin, alçaldıldıqlarının və müxtəlif ağlasığmaz işgəncələrə məruz qaldıqlarının şahidi olmuşdur. Erməni nəzarətçilərin və hərbçilərin onu döyməsi və işgəncələri nəticəsində sol qolu qırılmış, sağ qolunun damarına iri şprislə narıncı rəngli mayenin yeridilməsindən sonra isə Rəfail 12 gün müddətində harada olduğunu və başına nələr gəldiyini xatırlaya bilməmişdir. Elə həmin vaxtdan etibarən baş və əzələ ağrılarından, eləcə də yaddaş pozuntusundan əziyyət çəkməyə başlayan Rəfail Talıbov 14 oktyabr 1993-cü il tarixdə əsirlikdən qaçmağa müvəffəq olmuşdur.

Talıbov Səməd Rəhim oğlu – 1932-ci ildə Ermənistan Respublikası, Əzizbəyov rayonunun Çaykənd kəndində doğulmuşdur. 28 fevral 1992-ci il tarixdə girov götürülmüş, 4 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1988-ci ildə Ermənistan Respublikası rəhbərliyinin apardığı etnik təmizləmə siyasəti nəticəsində dədə-baba torpaqlarından qovulmuş və ölüm təhlükəsi altında doğma ocaqlarını tərk etmiş yüz minlərlə azərbaycanlı kimi ailəsi ilə birlikdə qaçqın qismində Azərbaycan Respublikasına gəlmiş, çox keçmədən azərbaycanlıların yaşadığı qədim Xocalı şəhərində məskunlaşmışdır. 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələri keçmiş Sovet ordusunun Xankəndində dislokasiya edilmiş 366-cı alayının köməyi ilə Xocalı şəhərinə irimiqyaslı hücuma keçdiyi vaxt, S.Talıbov 10 nəfər ailə üzvü – həyat yoldaşı Talıbova Səriyyə Ağa qızı, oğlanları – Söhbət və Adil, qızları – Mehriban və Afət, gəlinləri – Şəhla və Səbinə, nəvələri – Səməd Söhbət oğlu, Aybəniz Söhbət qızı ilə birlikdə şəxsi evində olmuşdur. Ermənistan hərbçiləri və terrorçu-quldur birləşmələri şəhərə girdiyi zaman S.Talıbov xilas olmaq məqsədi ilə müxtəlif istiqamətlərdən şəhərdən çıxmağa çalışan dinc sakinlərin bir dəstəsinə qoşularaq körpünün altı ilə meşəyə tərəf üz tutmuşdur. Əhalinin çoxu ayaqyalın, başıaçıq olduğundan, böyüklərin bir qismi soyuğa, şaxtaya, aclığa dözə bilsə də, uşaqlar üçün çox çətin olmuşdur. Meşə ilə yol axtardıqları zaman ermənilərin onları atəşə tutması nəticəsində bir çox dinc sakin həlak olmuşdur. Getdikləri hər yerdə ölümlə qarşılaşan insanların bir qismi də aclıq və soyuqdan donub ölmüşlər. Meşə ilə qaçarkən o, çoxlu sayda qətlə yetirilmiş Xocalı sakininin meyitlərini görmüşdür. Üç gün meşə ilə ac-susuz yol gedən Xocalı sakinlərindən ibarət dəstə yolu azıb ermənilərin yaşadığı Dəhraz kəndinə çıxmış və erməni hərbçilər tərəfindən mühasirəyə alınıb girov götürülmüşlər. Ermənilər onları döyə-döyə, təpikləyə-təpikləyə gətirib 100 nəfərdən artıq Xocalı sakininin saxlanıldığı mal tövləsinə salmışlar. Az sonra ermənilər içəri girib yaşından, cinsindən, səhhətindən asılı olmayaraq bütün girovları rezin dəyənəklərlə, avtomat qundağı ilə amansızcasına döymüşlər. Vurarkən səsini çıxaranları isə həmin dəqiqə güllələmişlər. Səmədin əvvəllər tanıdığı, Noraguh kənd sakini Nurik adlı erməni amansızlığı ilə seçilmişdir. O, hətta ölümcül hala saldıqları girovları yenidən döyüb incitmişdir. Ermənilər onları döydükdən sonra girovların pullarını, qızıl-zinət əşyalarını əllərindən almış, qadınların qulaqlarını dartıb cıraraq sırğalarını götürmüş, girovların qızıl dişlərini adi kəlbətinlə çıxarmışlar. İki gün ac-susuz qaldıqdan sonra kişiləri qadınlardan ayırıb, onlara daha dəhşətli işgəncələr vermişlər. Girovları yerə uzadıb üstlərində gəzmiş, yanar odunun közü ilə bədənlərinin müxtəlif yerlərini damğalamışlar. Ermənilər onlarla birlikdə saxlanılan gəncləri "Qurban kəsməyə aparırıq", – deyib, yığıb naməlum istiqamətdə aparmışlar *(həmin gənclərin sonrakı taleyi barədə bu günə qədər heç bir məlumat yoxdur – tərt.)*. Həmin cavanları aparan ermənilərdən biri də Nurik olmuşdur. Gəncləri bayıra çıxarandan sonra güllə səsləri eşidən Səməd, sonradan fermanın həyətinə atılmış iki cavan oğlan meyiti görmüşdür. Təxminən 5-6 gün orada ac-susuz saxladıqdan sonra girovların arasında olan 6 nəfər Ahıska türkündən birini güllələmiş, qalan 5 nəfərini isə naməlum istiqamətdə aparmışlar *(onların da sonrakı taleyi barədə indiyədək heç bir məlumat yoxdur – tərt.)*. Səməd onunla bərabər girovluqda olan və sonradan oradan çıxarılıb aparılan yeznəsini yalnız azad edildikdən sonra görə bilmişdir. Elşən Səmədə ermənilər tərəfindən Əsgəran rayonunda tanımadığı yerə

aparıldığını və ağzındakı qızıl dişlərinin adi kəlbətinlə çıxarılıb götürüldüyünü danışmışdır.

Səməd Talıbov qohumlarının toplayıb ermənilərə verdiyi 35 min rus rublu müqabilində 4 mart 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Talıbova Ağca Alxan qızı – 1915-ci ildə Azərbaycan Respublikası, Xocalı şəhərində doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 28 fevral 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan Silahlı Birləşmələri Xocalı şəhərinə hücum edən zaman 60 nəfərə qədər qohumu ilə birlikdə zirzəmidə gizlənmişlər. Əhalinin şəhəri tərk etməsindən xəbərsiz olan qohumlar səhər saat 7 radələrində zirzəmidən çıxıb, şəhərin küçələri ilə gedən zaman yol kənarlarında 10-dan çox şəhər sakininin başı kəsilib atılmış meyitini görmüşlər. Bir az yol getdikdən sonra Azərbaycan dilində çağırıldıqlarını eşitmişlər. Ancaq çağıranların ermənilər olduğunu anlayanda hərə bir istiqamətdə qaçmışdır. Erməni hərbçilər 17 yaşlı Məlahəti, Mələyi, 2 yaşlı Natəvanı yerindəcə güllələyib öldürmüş, 17 yaşlı Rəfiqəyə iki güllə dəymiş, onun atası Paşa isə itkin düşmüşdür. Nəvəsi Zahirənin həyat yoldaşı Tariyel Səmədovu, Adilin oğlunu, Cəmil kişinin oğlu Muğanı, anasını, həyat yoldaşını, 15 yaşlı bacısını Ağcanın gözləri önündə güllələmiş, milis əməkdaşı Əhmədin başını kəsmişlər.

Ermənilər onları nəfəs almaq mümkün olmayan, darısqal yerə salmış, körpə uşaqlar soyuqdan və acından durmadan ağlamış, nəzarətçilər isə heç nəyə məhəl qoymadan yaşından və cinsindən asılı olmayaraq, bütün girovları döymüş, gənc, gözəl qızları və qadınları aparıb zorladıqdan sonra qaytarmışlar. Ağca Talıbova 28 fevral 1992-ci il tarixdə girovluqdan azad edildikdən sonra 82 yaşlı həyat yoldaşı Talıbov Rəhim Xudaverdi oğlunun erməni hərbçilər tərəfindən güllələndiyini öyrənmişdir.

Tanrıverdiyev Ceyhun Arif oğlu – 1976-cı ildə Azərbaycan Respublikası, Şəmkir rayonunun Qaracəmirli kəndində doğulmuşdur. 12 iyul 1997-ci il tarixdə əsir götürülmüş, 17 sentyabr 1999-cu ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Murovdağda hərbi xidmətdə olarkən yolu azıb Ermənistan hərbçiləri tərəfindən əsir götürülmüşdür. Əsir götürüldüyü zaman amansızcasına döyüldükdən sonra Yerevan şəhərinə aparılıb Ermənistan xüsusi xidmət orqanının təcridxanasına salınmış, 17 sentyabr 1999-cu il tarixədək orada saxlanılmışdır. BQXK tərəfindən qeydiyyata alınmalarına baxmayaraq, təcridxananın nəzarətçiləri – Vahan, Suru, Artur və Arayik əsir-girovlarla pis rəftar edib, istədikləri vaxt onları döymüş, təhqir etmişlər. Vahanın dəmir əşya ilə Ceyhunun başına vurması nəticəsində o, huşunu itirib bir neçə saat ayılmamışdır. Özünə gələndə isə Vahan "Sizə bu da azdır", – deyib, onun üstünə qışqırmış və yenidən döymüşdür. Orada saxlanıldığı müddətdə nəzarətçilər əsirlərlə çox təhqiramiz şəkildə rəftar etmiş "Heç kim sizinlə maraqlanmır, ölsəniz də heç kimin vecinə olmayacaq", – deyərək, həqarət etmiş, mənəvi-psixoloji təzyiqlər də göstərmişlər. Ceyhun Tanrıverdiyev 17 sentyabr 1999-cu il tarixdə əsirlikdən azad edilmişdir.

Usubov Ramiz Hüseyn oğlu – 1943-cü ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 27 fevral 1992-ci il tarixdə girov götürülmüş, 2 aprel 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələri keçmiş Sovet ordusunun Xankəndində yerləşmiş 366-cı alayı ilə birlikdə Xocalı şəhərinə dörd tərəfdən hücuma keçmiş, şəhər şiddətli atəşə tutulmuşdur. Tanklarla hücuma keçən ermənilər yaşına, cinsinə fərq qoymadan əhalini amansızcasına qırmağa başlamışlar. Əhali, qaranlıqda üzlərini görməsələr də, rus və erməni dillərində verilmiş əmrləri aydın eşitmişlər. Od tutub yanan şəhərdə insanlar atəş altında fəryad qoparıb xilas olmağa çalışmışlar. Hər kəs öz yaxınlarını axtarır, güllələrdən canını qurtarmağa çalışırmış. Ramiz Usubov da şəhəri tərk edən əhalinin bir dəstəsinə qoşularaq meşəyə tərəf üz tutmuşdur. Lakin ermənilər bütün yolları bağladıqlarından və dinc insanları hər tərəfdən atəşlə qarşıladıqlarından, iki gün meşələrdə dolaşan, əsasən, qadın, kişi və qocalardan ibarət təxminən 180 nəfərlik dəstə erməni hərbi birləşmələri və terrorçu-quldur dəstələri tərəfindən girov götürülmüşdür. Fevralın 28-də erməni hərbçiləri girovların arasından 20 nəfəri seçib Xankəndi şəhərindəki təcridxanaya göndərmişlər. Orada onları ac-susuz saxlamış, hər gün döymüşlər. Ramizlə birlikdə saxlanılan Qəyyum Aslanovun qızıl dişlərini çəngəllə çıxarmış, Qənahət Hacıyevi amansızcasına döymüşlər. Əsir-girovların hamısını söyüşlərlə təhqir edən erməni hərbçilər hündürboy insanları öldürməklə hədələyib, vurduqları təpik onların ağız-burnuna çatsın deyə diz çökməyə məcbur etmişlər. Xocalı sakini Ələsgər Novruzov yaralı halda Ramizin saxlanıldığı kameraya gətirilmiş, heç bir tibbi yardım göstərilmədiyindən elə həmin gecə orada ölmüşdür. Ümumiyyətlə, saxlanıldıqları müddətdə əsir-girovlara heç bir tibbi yardım göstərilməmişdir. Usubov Ramiz Hüseyn oğlu 2 aprel 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Verdiyev Camal Soltan oğlu – 1958-ci ildə Azərbaycan Respublikası, Cəbrayıl rayonunun Mahmudlu kəndində doğulmuşdur. 17 avqust 1993-cü il tarixdə girov götürülmüş, 10 may 1996-cı ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü il avqustun 17-də yaşadığı Cəbrayıl rayonunun Süleymanlı kənd sovetinin sədri Müzəffər Qəzənfər oğlunun qonşu Sur kəndinin erməni əhalisi tərəfindən güllələndiyini eşitmiş və həmkəndlisi Şükür Şükürovla birlikdə Süleymanlı kəndinə getmişdir. Onlar Müzəffərin qolu bədənindən ayrılmış və üzərində qara ləkə izləri olan meyitini kənddən 150-200 metr kənarda, üzüm bağının içində tapmışlar. Lakin meyiti götürüb geri qayıdarkən, Ermənistan hərbçiləri tərəfindən girov götürülmüşlər. Ermənilər onları avtomatın qundağı, daş və təpiklə döymüş, əllərini məftillə bağlayıb, Hadrut rayon Milis şöbəsinə aparmış, yenidən avtomatın qundağı, rezin dəyənək və armaturla huşlarını itirənədək döymüşlər. Ertəsi gün erməni hərbçilər hər iki girovu Hadrut Milis şöbəsinin yaxınlığındakı tabora aparıb, kiçik bir otağa salmış, yenə dəyənək və armaturla döymüşlər. Hadrut taborunda olarkən, Camal Cəbrayıl rayon sakinləri – Üzeyir, Məmmədov Azər Zabit oğlu, Beyləqan rayonundan həkim Şəfiyev Yusif Əşrəf oğlu, Mehdiyev İlqar Ərşad oğlu, 2 qardaş – Hadıyev Ağarəzi və Hadıyev Ağarəhim Ağakərim oğlu, Şahməmmədov Abbas Lətif oğlu, Cəbrayıl rayonunun Dağkəsənli kənd sakini, təxminən 40 yaşlı Bəbirova Manya Məmmədalı qızı *(sonrakı taleyi barədə heç bir məlumat verilməmişdir – tərt.)* və Füzuli rayonundan olan 68-70 yaşlarında Məhbub adlı iki qadının girov saxlanıldıqlarını görmüşdür. Hadrut taborunda Vova adlı nəzarətçi növbədə olduğu vaxtlarda içkili vəziyyətdə 5-6 erməni ilə içəri daxil olub, əllərindəki

küt alətlərlə əsir-girovları döymüş, onların barmaqlarını qapının arasına qoyub sıxmış, sinələrini siqaretlə dağlamışlar. Vova girov qadınları – Manya və Məhbubu "KAMAZ" markalı maşına mindirib naməlum istiqamətdə aparmışdır. Hadrut alayında Edo adlı erməni, həmin alayın adını unutduğu tabor komandiri və 80-90 nəfərə qədər erməni əsgər əsir-girovları 30 dəqiqəyə qədər avtomat qundağı və təpiklə huşlarını itirənə qədər döymüşlər. Gün ərzində əsir və girovlara bir dəfə quru çörək və ya 2-3 gündən bir əsgərlərin yeməklərinin artığını vermişlər. 1993-cü il noyabrın 29-da bütün əsir-girovlar Hadrut alayından Xankəndi müvəqqəti saxlama təcridxanasına aparılmışlar. Təcridxanada Murad və Artur adlı nəzarətçilər əsir-girovları hərbi qərargahın yanğınsöndürmə avadanlıqları və rezin dəyənəklərlə döymüş, Camalı, Abbas Şahməmmədovu və Şükür Şükürovu Xankəndində yerləşən "ÇOR" adlı tabora aparıb zirzəmiyə salmışlar. Həmin taborda 20 nəfərdən artıq əsir və girovun saxlanıldığının şahidi olmuş Camalın yadında onlardan Ağdam rayonundan Abdullayev Ərşad Əvəz oğlu, Abbasov Əli Rəsul oğlu, Qubadlı rayonundan Rüstəmov Bayram Hüseyn oğlu, Zakir, Arif, Ağsu rayonundan Bayramov Ağagül və Şirin Əliəhməd oğlu qardaşları qalmışlar. 1994-cü ilin oktyabr və ya noyabr ayında Xankəndi qərargahında Artur adlı komandir və onun "Mişik" ləqəbli köməkçisi əsir-girovları dəmir barmaqlıqların arasına salmış və təlimləndirilmiş çoban itlərini onların üstünə buraxmışlar. Nəticədə Füzuli rayonunun Horadiz qəsəbəsindən olan Arif adlı azərbaycanlı faciəvi şəkildə ölmüşdür. Eyni aqibəti yaşamış Qubadlı rayonundan olan Zakirlə Arifin meyitlərini Ağdam sakinləri Ərşad, Əli və adlarını unutduğu yaşlı girovlar Malıbəyli kəndinə aparıb dəfn etmişlər. Ermənilər girovları 8 ay BQXK-dan gizlətməyə müvəffəq olsalar da, Camal Verdiyev Ağagül, Şirin və adını unutduğu bir nəfər əsirlə Xankəndi şəhərinin küçələrində işlədildikləri zaman Komitənin nümayəndəsi olan bir qadın onları görmüş və saxlandıqları yerə gəlib, qeydiyyata götürmüşdür. Həmin gün ora iki dəfəyə, əvvəl 5, sonra isə 8 nəfər azərbaycanlı əsir gətirilmiş və orada saxlanılan azərbaycanlıların sayı 28 nəfərə çatmışdır. Xankəndi qərargahında Manvel adlı erməni əsgər əsir və girovları döyməklə bərabər ləyaqətlərini alçaltmış və işgəncələrə məruz qoymuşdur. O, mütəmadi olaraq əsirləri hasara çıxarıb it kimi hürməyə, Abbas Şahməmmədovu isə əzilmiş şüşə qırıqlarını torpaq qarışıq yeməyə məcbur etmişdir. Komandir Artur, köməkçisi "Mişik", Manvel və adlarını bilmədiyi digər erməni hərbçilər əsir-girovları iki-iki, üç-üç kameradan çıxarıb qonşu otağa aparıb rezin dəyənəklə döyüb geri qaytarmışlar. Bununla kifayətlənməyən Manvel, döydükdən sonra əsir-girovları başlarını divara vurmağa məcbur etmiş, yavaş vurduqları halda özü onların başından tutub bərkdən divara çırpmışdır. Əsir-girovluqda olan azərbaycanlılar erməni hərbçilərin yemək qırıntıları ilə qidalanmış, baxımsızlıqdan və antisanitariya şəraitində saxlanılmaqdan onları bit-birə basmışdır. Kameradakı tualetdə kanalizasiya xətti tutulsa da, ermənilər əsir-girovları üfunətli kamerada saxlamaqda davam etmişlər. Xankəndi qərargahının zabiti, Artur adlı erməni yüngül iş gördürmək adı ilə Ağdam sakini olmuş Əli adlı əsiri özü ilə aparmışdır. Geriyə qaytarılanda Əli əsir-girovlara "UAZ" markalı maşınla Malıbəyli kəndində bir həyətə aparıldığını və orada şəklini çəkmək adı ilə maşında olan cihaz vasitəsilə 150 metr məsafədən bədəninə şüa verildiyini bildirmişdir. Verilmiş şüanın nəticəsində Əlinin gözləri və bədəni qızarmışdır. Rəngi dəyişmiş Əli paltarlarını çıxarıb bədəninin yandığını bildirib, təxminən 20 dəqiqə özünü divara sürtərək qışqırmışdır. Artur ikinci dəfə onu aparmaq istəyərkən, Əli inadla imtina

etmişdir. Belə olduqda, Artur, Qubadlı rayonundan olan girov Eyvaz kişini "UAZ" markalı maşına mindirib aparmışdır. Eyvazın bədəninə 3 dəfə həmin cihazla şüa verildikdən bir neçə gün sonra o, ölmüşdü. Aprelin 24-də "ermənilərin soyqırımı" günündə Xankəndi qərargahında işləyən, mütəmadi olaraq narkotik maddələr qəbul edən Karen adlı nəzarətçi erməni hərbçilərin və əsir-girovların gözləri qarşısında Mürvəti güllələyib, öldürmüşdür. Camal Verdiyev Şuşa həbsxanasına aparıldığı vaxt Karen orada rəis müavini işləyirmiş. Xankəndi alayında "Aşpaz" adı ilə çağırılan əsiri komendantlığın Armen, Manvel, Lyoxa, Raçik və Slavik adlı əməkdaşları əllərindən və ayaqlarından tutub tarım vəziyyətdə saxlayaraq, boru parçası ilə döyüb qolunu sındırmışlar. Sonra əsir-girovların hamısını ağır dəmirlərlə və "Jiquli" markalı avtomobilin mühərrikinin zənciri ilə döymüş, Camalın qabırğalarını və barmaqlarını sındırmışlar. Xankəndi alayının komandir müavini, mayor Elmira Ağayan adlarını bilmədiyi əsir-girovları, döyüşdə ölmüş ermənilərin qəbri üstündə başlarını kəsmək üçün onların valideynlərinə vermişdir. Qərargahın Artur adlı rəisi Elmira Ağayanın və əsirlərin gözləri qarşısında Eldəniz adlı bir gənci işlətmək adı ilə aparıb mülki ermənilərə vermiş, həmin gənci sonradan geri qaytarmamışlar. Manvel və Lyoxa Eldənizin başının erməni qəbri üstündə kəsildiyini, hətta hansı ermənin qəbri üstündə kəsildiyini də demişlər. Xankəndi alayında saxlanılarkən Elmira Ağayan döyüşə gedən Ermənistan hərbçilərində döyüşkənlik hislərini yüksəltmək məqsədi ilə əsirləri hasarın üstünə çıxarıb onlara nümayiş etdirirmiş.

Xankəndi komendantlığında saxlanılarkən erməni hərbçilər avtomat qundağı, lom və bellə əsirləri döymüş və təkcə fiziki deyil, mənəvi işgəncələrə də məruz qoymuşlar. Aprel ayının 24-də Xankəndi komendantlığının rəisi Arturun "Mişik" adı ilə çağırılan köməkçisi Camalı yanına çağırıb, ağzı bağlanmış kisəni açmağı əmr etmişdir. O, kisəni açarkən orada təxminən 19-20 yaşlarında olan dörd azərbaycanlının kəsilmiş başlarını görmüş və dəhşətə gəlmişdir. Onu kameraya qaytardıqdan sonra həmin kisəni Beyləqan rayonundan olan Ramizə də açdırmışlar. Manvel, "Mişik", Armen və Lyoxa kəsilmiş qulaqları əsirlərin görməsi məqsədi ilə qapının üstündən asdırmışlar. 1994-cü il sentyabrın 28-də orada olan 27 nəfər əsir-girov işğal edilmiş Şuşa şəhərindəki həbsxanaya köçürülmüşlər. Həbsxanaya daxil olan azərbaycanlı əsir-girovları adlarını bilmədikləri erməni nəzarətçilər həbsxananın həyətində lom, rezin dəyənək, ağac, dəmir parçaları və s. küt alətlərlə qarşılayıb amansız şəkildə döymüşlər. Şuşa həbsxanasında xeyli sayda əsir-girovun saxlanıldığının şahidi olan Camal onlardan, ermənilərin Cəbrayıl rayonu, Şahvəlli kəndindən Ramazanı, Cəbrayıl rayonundan Mübarizi və Təbriz həkimi döyə-döyə öldürdüklərini eşitmişdir. Orada Qor adlı nəzarətçi müntəzəm olaraq əsir və girovları rezin dəyənəklə yıxılana qədər döymüş, hürməyə, bellərinə çıxıb onları əlləri üstündə enib-qalxmağa məcbur etmişdir. Ermənistanın Gorus rayonundan Şuşa həbsxanasına gəlmiş Con adlı nəzarətçi isə əsir-girovları tez-tez rezin dəyənək və lomla döymüşdür. Burada çoxdan saxlanılan əsir-girovlar Qor və Con adlı nəzarətçilərin Qubadlı rayonundan olan yaşlı kişini döyərək öldürdüklərini bildirmişlər. Erməni nəzarətçilər və hərbçilər tərəfindən öldürüləcəkləri ilə təhdid edilən əsir-girovlar BQXK-nın nümayəndələrinə döyülmə və işgəncə faktları barədə məlumat verməkdən qorxurmuş. BQXK-nın tərcüməçisinin erməni olması da böyük rol oynamışdır. BQXK-nın Mark adlı əməkdaşı əsir-girovlardan sifətinin şişdiyini görüb səbəbini soruşduqda, erməni tərcüməçi "yıxılıblar" cavabını vermişdir. Eyni zamanda, BQXK nümayəndəsinə

işgəncələr barədə məlumat verən əsir-girovların adları sonradan tərcüməçi tərəfindən həbsxana nəzarətçilərinə təqdim edildiyi üçün onlar vəhşicəsinə döyülürmüş. BQXK nümayəndələrinin əsir-girovlara verdikləri ərzaq və digər yardımları nəzarətçilər mənimsəmişdir. Erməni nəzarətçilər dəfələrlə əsir və girovlara əziyyət vermək məqsədilə Şuşa həbsxanasının həyətindəki 4-5 maşın daşı hərəyə 3 ədəd götürməklə bir neçə dəfə daşıtdırmışlar. Con, Qor, Lyoxa, Manvel və Slavik adlı nəzarətçilər Camalı, Şükür Şükürovu, Ağagül Bayramovu, Nurəddin Ağayevi və Bayram adlı azərbaycanlını Şuşa qəbiristanlığına aparıb köhnə qəbir daşlarını çıxarıb daşımağa və sındırmağa məcbur etmişlər. Mərmərdən olan qəbir daşlarını isə ehtiyatla sökdürüb maşınlara yığdırıb naməlum istiqamətdə aparmışlar.

Camal Ağagül, Müşviq, Şükür, Əli, Ərşad və adlarını unutduğu 6-7 əsir-girovla bərabər 1995-ci ildə Mısmına (Ağbulaq) kəndinə aparılıb oradakı tikinti işlərinə cəlb edilmişlər. Burada istifadə olunan tikinti materialları Ağdamda və digər işğal edilmiş Azərbaycan ərazilərindəki yaşayış məntəqələrinin sökülməsindən əldə edilmişdir. Ermənistanın Kirovakan şəhərindən Mısmınaya "KRAZ" markalı maşınla ezamiyyətə gələn Artur adlı erməni orada 350 nəfərə yaxın azərbaycanlının saxlanıldığını söyləmişdir. Artur qardaşının Azərbaycanda əsirlikdə olduğunu, onu dəyişmək üçün bir azərbaycanlı əsiri satın almaq istədiyini, lakin nəzarətçilər çox baha qiymət söylədiyi üçün ala bilmədiyini də bildirmişdir. Mısmınada tikinti işləri başa çatdıqdan sonra əsir-girovların hamısı yenidən Şuşa türməsinə qaytarılmışlar. Camal Verdiyev və digər girovlar 9 may 1996-cı il tarixdə BQXK tərəfindən Dağlıq Qarabağdan Yerevanda yerləşən alayın qarajına aparılıb, oradakı Ermənistan hərbçiləri tərəfindən səhərə qədər təpik və rezin dəyənəklə döyülmüş, ertəsi gün, 10 may 1996-cı il tarixdə azad edilmişlər.

Vəliyev Əşrəf Məhəmməd oğlu – 1931-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində doğulmuşdur. 26 fevral 1992-ci il tarixdə girov götürülmüş, 12 aprel 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan Silahlı Birləşmələri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinə hücum etdiyi zaman girov götürülmüş və Xankəndindəki üçmərtəbəli həbsxanada saxlanılmışdır. Girovluqda olduğu müddət ərzində ona və digər 18 həmyerlisinə erməni nəzarətçilər dəhşətli işgəncələr vermişlər. Hər dəfə növbə dəyişərkən nəzarətçilər onları sıraya düzüb döymüş, alçaltmış, işgəncələr vermişlər. Mülki geyimdə olan saqqallı ermənilər daha dəhşətli əzablar vermişlər. Dəyənəklə döyülən girovlar ufuldayıb qışqıranda "Kökünüzü kəsəcəyik!" – deyib daha bərkdən vurmuşlar. Əşrəf Vəliyev ermənilər tərəfindən Laçın rayonundan Sevdimalıyev Abbasəli Məhəmmədəli oğlunun sinəsinə vurulan güclü zərbənin təsirindən qan qusmasının şahidi olmuşdur. Ə.Vəliyevin döş qəfəsindən aldığı zədə isə indiyədək ona əziyyət verir. Onunla birlikdə əsir-girovluqda saxlanılanlardan Kamal Xudayarov, Hüseyn Əliyev, Məhəmməd Salahov və Abbasəli adlı şəxs aldıqları zərbə və işgəncələrdən ölmüşlər. Əşrəf Vəliyev 12 aprel 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Vəliyev Qərib Rövşən oğlu – 1978-ci ildə Azərbaycan Respublikasının Bərdə rayonu, Alaçadırlı kəndində doğulmuşdur. 13 sentyabr 1999-cu il tarixdə girov götürülmüş, 6 oktyabr 1999-cu ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Yaşadığı kənddən atla ata-anasının yaşadığı Goranboy rayonunun Gülüstan qəsəbəsinə gedərkən, Tərtər rayonu, Tapqaraqoyunlu kəndi yaxınlığında 5-6 nəfər erməni hərbçi tərəfindən girov götürülmüşdür. Qəribi avtomatın qundağı, təpik, yumruq, rezin dəyənəklə döymüş, sonra gözlərini bağlayıb maşına mindirmişlər. Onu ikimərtəbəli evin zirzəmisində, kameraya bənzər bir otağa salmışlar. Ertəsi gün isə maşına mindirib əvvəllər azərbaycanlıların yaşadığı – dağıdılmış, tar-mar edilmiş hansısa kəndə gətirmişlər. "Buranı tanıyırsanmı?" – deyə ondan soruşmuşlar. O, tanımadığını deyəndə, buranın Laçın rayonu olduğunu söyləmişlər. Sahibsiz, yiyəsiz qalmış və xarabalığa çevrilmiş kəndi görəndə ürəyi göynəyən Qərib Vəliyevi yenidən maşına mindirib yollarına davam etmişlər. Yolda olarkən avtomobildə olan üç erməni hərbçi tez-tez onu yumruqla vurmuş, söymüşlər. Sonra onlar yenidən Qəribi maşından düşürmüş və üçmərtəbəli binanın birinci mərtəbəsindəki ayrı-ayrı kameralarda erməni dustaqlar, o cümlədən azərbaycanlı əsir-girovlar saxlanılan təcridxanaya bənzər bir yerə salmışlar. O, orada Elşən və Əhməd adlı azərbaycanlılarla tanış olmuşdur. Qərib orada bir gözü kor olan erməni nəzarətçi tərəfindən hər dəfə ayaqyoluna çıxarılanda dəyənəklə baş-gözünə vurulmaqla döyülmüş və alçaldılmışdır. Bir neçə gündən sonra onu başqa yerə aparan erməni hərbçilər 6 nəfər azərbaycanlının olduğu bir kameraya salmışlar. Ermənilər Qəribi tez-tez sorğu-sual edərək, hərbi sirləri öyrənməyə çalışsalar da, o, hərbçi olmadığı üçün bu barədə heç nə bilmədiyini demişdir. Qərib Vəliyevi qeydiyyata alan BQXK nümayəndələri 1999-cu il oktyabr ayının 6-da onu avtomobillə Yerevan hava limanına gətirmiş və Bakıya yola salmışlar.

Vəliyev Şahmar Əliabbas oğlu – 1930-cu ildə Azərbaycan Respublikasının Laçın rayonu, Piçənli kəndində doğulmuşdur. 28 fevral 1992-ci il il tarixdə girov götürülmüş, 13 mart 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

Ermənistan Silahlı Birləşmələri, keçmiş Sovet ordusunun Xankəndindəki 366-cı alayının köməkliyi ilə 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Xocalı şəhərinə hücum etmişlər. Köməksiz, müdafiəsiz qalan əhali müxtəlif istiqamətlərdə qaçıb xilas olmağa çalışmışdır. Şahmar Vəliyev – oğlu Kamal və nəvəsi Afətlə birgə əhaliyə qoşulub meşəyə üz tutmuşdur. Ermənistan hərbçilərinin meşədə açdıqları atəş nəticəsində bacısı Zəhra, Xocalının Qaladərəsi kəndindən Aslan və Familin oğlunun öldüyünün şahidi olmuşdur. Gözlərinin qarşısında adamlar qana boyanıb yerə yıxılmışlar. Ayaqlarını don vurmuş əlli nəfərə qədər insan meşədə qalmışdır. Onlardan Səfəralı, Lal Əsgər, Səlti, onun iki qızı və dörd nəvəsi, Gərəhməd, Məşədi müəllimin oğlu Şahin onun yadında qalmışlar. Altı gün meşədə qaldıqdan sonra ermənilər 200 nəfərə qədər Xocalı sakinini girov götürüb Dəhraz kəndindəki tövləyə salmışlar. Orada ermənilər adlarını bilmədiyi cavan oğlanları ağaca bağlayıb bıçaqla qarınlarını kəsmişlər. Onlar zarıya-zarıya ölmüşlər. Sürücü işləyən bir girovun gənc qızını *(adı məlumdur – tərt.)*, başqa bir qızı, həmçinin digər üç qadını erməni hərbçilər aparıb zorladıqdan sonra geri qaytarmışlar.

Şahmar Vəliyev 13 mart 1992-ci il tarixdə girovluqdan azad olunarkən, əvvəllər Sumqayıtda yaşamış Samvel adlı erməni ona bacısı Zəhranın meyitini aparmaq üçün 100 min rus rublu və 1 kanistr benzin gətirməsini tapşırmışdır. Girovluqdan azad edilən gün bacısı Zəhranın meyitini ermənilərdən geri almaq üçün qohum-əqrəbadan borc pul axtararkən, həmkəndlisi Aslan da oğlunun meyitinin ermənilərdə qaldığını söyləmiş və

Şahmardan onunla birlikdə Dəhraza getməsini xahiş etmişdir. O, azad edilən günün səhəri, saat 12-də, 100 min rus rublu və 1 kanistr benzin götürüb, Aslanla birgə Dəhraza getmiş, Samvellə görüşüb ona bacısının meyiti üçün 100 min rubl və Aslanın oğlunun meyiti üçün əlavə 100 min rubl vermişdir.

Vəliyev Şakir Nail oğlu – 1962-ci ildə Azərbaycan Respublikasının Gəncə şəhərində doğulmuşdur. 27 iyul 1992-ci il tarixdə əsir götürülmüş, 12 oktyabr 1992-ci il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

Yaralı vəziyyətdə əsir götürülən Şakir üç gün Ağdərə ərazisində, bir ay isə Xankəndi təcridxanasında saxlanılmışdır. Sonra onu başqa dörd nəfər əsirlə birlikdə Ermənistan Respublikasının Artaşat rayonuna aparmış və orada da üç ay saxlamışlar. Əsirlikdə olduğu müddətdə Şakir Vəliyev müxtəlif fiziki işgəncələrə və mənəvi-psixoloji təzyiqlərə məruz qalmışdır. Ağdərədə saxlanılan zaman saqqallı bir erməni döyülməkdən huşsuz vəziyyətdə olan Şakirin ayaqlarını yandırmış, Xankəndində saxlanılarkən onu və orada saxlanılan 48 nəfər əsir-girovun hamısını döyüb, işgəncələr vermişlər. Bakıdan Vadim adlı əsirin bədəninin sol tərəfi döyülməkdən iflic olmuşdur. Tez-tez kameraya girib Şakirə və orada olan yaşlı girovlara "Otur, dur, otur, qalx" kimi əmrlər verib onları döymüşlər. Əmr verilən anda qalxa bilməyəndə daha möhkəm döyülmüşlər. Şakir yaralı olsa da, ona tibbi yardım çox gec və nadir hallarda göstərilmişdir. Belə halların birində erməni həkim qadının onun ayağını sarıyandan sonra yarasına təpiklə güclü zərbə vurması nəticəsində Şakir huşunu itirib 3-4 saat özünə gəlməmişdir. Şakir Vəliyev 12 oktyabr 1992-ci il tarixdə əsirlikdən azad edilmişdir.

Yusifov Şərif Qasım oğlu – 1925-ci ildə Azərbaycan Respublikasının Qubadlı rayonu, Çaytumas kəndində doğulmuşdur. 30 avqust 1993-cü il tarixdə girov götürülmüş, 8 dekabr 1993-cü ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü il avqust ayının ikinci yarısından Ermənistan Silahlı Birləşmələrinin hücumları nəticəsində əhali yaşadıqları Çaytumas kəndini tərk etməyə başlamışdır. Həyat yoldaşı – 1932-ci il təvəllüdlü Mahmudova Kübra Məhəmməd qızı yataq xəstəsi olduğundan Şərif kişi onu tək qoyub getməmişdir. Ermənilər kəndi işğal etdikdən sonra Malo adlı erməni, döyüşçü bir qızla onların evinə girib həyat yoldaşı Kübranı orada saxlayıb, Şərifi zorla evdən çıxarmış və kəndin aşağı tərəfinə aparmışlar. Şərif orada 90 yaşlı qardaşı Yusifov Əli Qasım oğlunun güllələnib öldürüldüyünü, mühasib işləyən Mustafanın həyətində iki gənc qadının meyitini görmüşdür. Lakin üzü üstə yıxıldıqlarından onları tanıya bilməmişdir. Erməni hərbçilər talan zamanı topladıqları 200 başdan artıq xırda və 60-a yaxın iribuynuzlu heyvanı poçt müdirinin atası Bayramov Məhəmməd Əli oğlunun həyətinə toplamışlar. Şərifi heyvanları traktorun yedəklərinə, yük maşınlarına yığmaq üçün işlətmiş, maşınlara sığmayan mal-qaranı isə onun qabağına qatıb dörd nəfər nəzarətçi ilə birlikdə Xocavəndə aparmağı tapşırmışlar. Yolda o, bir benzindaşıyan maşın, yanında isə üç Azərbaycan əsgərinin meyitini görmüşdür. Meyitlərdən biri alt paltarında, digərləri başlarının dərisi soyulmuş vəziyyətdə olmuşdur. Ermənilər Xocik kəndindən girov götürdükləri Vəliyev Əvəz Əliabbas oğlunu, onun bacısı oğlunu və Xocahan kəndindən Nazimi də onlara qoşub ev heyvanlarını iki böyük maşına yığdırmışlar. Əlavə toplanmış 40-a yaxın qoyun və 45 qaramalı Şərifin qabağına qatıb,

Xocavəndə tərəf aparmağa məcbur etmişlər. Muradxanlı kəndi yaxınlığında basdırılmamış köhnə meyitlərin olduğunu görən Şərif işğal edilmiş Laçın şəhərinin tamam yandırıldığının, kəndlərinin isə tar-mar edildiyinin şahidi olmuşdur. Erməni hərbçilər Şərifi Xocavənddəki taborda 22 nəfər azərbaycanlı girovun saxlanıldığı təcridxanaya salmışlar. Girovlar işğal olunmuş rayonların talan və qarət edilməsində işlədilmiş, öz əlləri ilə öz yurdlarını, hətta öz evlərini sökməyə məcbur edilmişlər. Mənəvi əzab çəkdiyindən işləməkdən boyun qaçırdığına görə, Şərifi qəddarlıqla döymüşlər. Onu yerə yıxıb, çiyninə minmiş, boynunu az qala qırılana qədər arxaya dartaraq huşunu itirənədək təpikləmişlər. Bir neçə gündən sonra Şərif, Həmzə və Nazim adlı digər girov, 11 nəfər əsirlə birlikdə işğal edilmiş Şuşa şəhərindəki həbsxanaya aparılmışlar. Xocavənddən Şuşaya qədər bütün yolboyu onları amansızcasına döyüb təhqir etmişlər. Şərif Şuşadakı qəbiristanlıqda qəbir daşlarının qırıldığını, çoxunun isə çıxarılıb aparıldığını görmüşdür. Şuşa həbsxanasında saxlanılarkən Ş.Yusifov, digər azərbaycanlılar kimi ən qəddar işgəncələrə məruz qalmış, erməni nəzarətçilər tərəfindən gün ərzində dəfələrlə döyülmüş, alçaldılmış və ən ağır işlərdə qul kimi işlədilmişdir. Saxlanıldığı müddətdə Bakının Türkan kəndindən olan "Monqol" ləqəbli əsir, aldığı işgəncələrdən xəstəxanada ölmüşdür. Yusifov Şərif Qasım oğlu 8 dekabr 1993-cü il tarixdə girovluqdan azad edilmişdir.

Zeynalov Niyaz Balay oğlu – 1928-ci ildə Azərbaycan Respublikasının Şuşa rayonu, Quşçular kəndində doğulmuşdur. 11 fevral 1992-ci il tarixdə girov götürülmüş, 12 aprel 1992-ci ildə azad edilmişdir. İfadəsində bildirmişdir:

1992-ci ilin fevral ayında Ermənistan hərbçiləri və terrorçu-quldur dəstələri yaşadığı Quşçular kəndinə hücum etmiş, top atəşi ilə evləri yandırmış, mal-qaranı qırmış, camaata xəsarət yetirmişlər. Əhalinin kənddən çıxa bilməməsi üçün yaxınlıqda yerləşən Sıxnaq adlı qayadan onların kəndini atəşə tutan erməni hərbçilər gecə Dağdağan kəndi istiqamətindən də kəndə hücuma cəhd etmiş və atəş açmışlar. Döyüşdən sonra iki nəfər kənd sakininin itkin düşdüyü məlum olmuşdur. Onlardan biri ölümcül vəziyyətdə, o birisinin isə meyiti tanınmaz halda, beyni tamamilə dağıdılmış vəziyyətdə tapılmışdır. Onların hər ikisinin – Aydın və Faiqin meyitləri kənddə basdırılmışdır. 11 fevral 1992-ci il tarixdə, gecə saat təxminən 02:00 radələrində Ermənistan Silahlı Birləşmələri qonşu Malıbəyli kəndini işğal etmiş və həmin kəndin camaatı qaçıb Quşçular kəndinə gəlmişlər. Bir müddət sonra onlar yenidən Quşçular kəndinə hücuma keçmişlər. Kəndin azsaylı özünümüdafiə dəstəsi məhdud imkanlarla səhər saat 9-dək Ermənistan Silahlı Birləşmələrinə qarşı vuruşsa da, vəziyyət getdikcə gərginləşdiyindən, əhali kəndi tərk etmək məcburiyyətində qalmışdır. Yaşlı və xəstə anasını apara bilməyəcəyini görüb onları öldürməyəcəklərini güman edən Niyaz Zeynalov, anası Nübar, həyat yoldaşı – 1925-ci il təvəllüdlü Zeynalova Gülöyşə Qənbər qızı, qonşusu – 1910-cu il təvəllüdlü Quliyev Yunus Baba oğlu, əmisinin həyat yoldaşı – Səriyyə, Möhsüm adlı şikəst və yaşlı digər həmkəndlisi, onun həyat yoldaşı – 1920-ci il təvəllüdlü Əhmədova Gülüstan Bəşir qızı və Yeganə adlı digər yaşlı qadınla birlikdə kənddə qalmışlar. Onların hamısı Niyazın evinə yığışmış, o, özü isə bayırda erməni hərbçilərin kəndə girməsinə tamaşa etmişdir. Erməni hərbçilərin kəndin mədəniyyət evinə və məktəbə od vurub yandırdıqlarını görən Gülöyşə və Gülüstan qorxduqlarını bildirmiş və Ağdam rayonu Abdal kəndinə getmək məqsədi ilə evdən çıxmışlar. Onlar gedəndən 5 dəqiqə sonra 30 erməni silahlısı

avtomatla evə girib, 80 yaşlı Yunusla Niyazı avtomat qundağı və təpiklə döymüş, kənd camaatının yerini soruşmuşlar. Niyaz camaatın 5 gün əvvəl kənddən çıxdığını bildirmiş, lakin ermənilərdən biri "Yalan deyirsən, biz Ağdam yolunda 5 gündür post qurmuşuq. Orada postda olanlara və erməni kəndlərinə göstəriş verilib ki, Malıbəyli və Quşçular kəndinin camaatının hamısını öldürsünlər, sağ qalanları isə diri-diri yandırsınlar", – demişdir. Azərbaycan dilini bilən həmin erməni "Sizinkilər Xocalıya dolublarsa, hamısını qıracağıq. Xocalını mühasirəyə almışıq. Kəndə dolan ermənilərin çoxu xaricdən gələnlərdir. Qarayanız, qara paltar geyən ermənilər Amerikadan gəlmədir, çənəsi uzun, göygöz və batıq gözlü ermənilər Suriya-Livan ermənilərindir. Türkiyədən, Fransadan, İrandan gələnlər də çoxdur, Ermənistandan 10 min qoşun gəlib", – demişdir.

Həmin erməni Niyaza onları klubun yanına aparılıb yandırılacağını bildirmişdir. Anasını qoyub getmək istəməyən Niyazı ermənilər ayaqlarından tutub sürümüş, evindəki əşyaları və mal-qaranı maşınlara yığmış, oğlunun "Jiquli" markalı avtomobilini sürüb aparmışlar. 20 nəfər erməni onu döyə-döyə maşına oturdub klubun yanına gətirmişlər. Orada Türkiyədən gələn erməni ona "Türk, müsəlman, düşmən!" – deyib qışqırıb avtomat qundağı ilə bir neçə dəfə sinəsinə zərbə vurmuşdur. Zərbədən yıxılan Niyaz anasının və bir neçə yaşlı qohumunun da içində olduğu evinə od vurulub yandırıldığını görmüşdür.

Ermənilər kəndi talan edib, yandırmışlar. Girovları maşına mindirib, yolda xeyli döyüb saysız-hesabsız talançı ermənilərin doluşduğu Malıbəyli kəndinə aparmışlar. Niyaz məktəbin qarşısında – Xankəndinə gedən yolda içi ev əşyaları ilə dolu 13 böyük yük maşını saymışdır. Erməni hərbçilər Malıbəyli kəndindəki anbarda olan 800 ton buğdanı maşınlara yükləmiş, Niyazın 15 min rubl pulunu, paltosunu, xəz papağını, ayaqqabılarını da almışlar. Kolxozun 1200 başdan çox sağmal inəklərini fermanın həyətinə çıxarıb bölüşdürmüşlər.

Niyazı Xankəndi şəhərinə gətirən ermənilər kolxoz bazarının yanındakı çoxmərtəbəli binanın zirzəmisinə salmışlar. Orada böyük bir sobanın ətrafında toplaşmış çoxlu sayda erməni qadın və balaca uşaqlar hər tərəfdən əlləri ilə onun başına vurmuş "Səni sobanın içində yandıracağıq", – deyib onu itələyib sobanın içinə salmağa çalışmışlar. Bir erməni onlara "28 il Bakıda yaşamışam. Azərbaycanlılar yaxşı xalqdırlar. Qoca kişidir, yazıqdır, döyməyin!" – desə də, onlar Niyazı tamamilə keyləşənə, ağrı hislərini itirənədək döymüşlər.

Az sonra Şəmkir rayonundan olan cavan əsiri də döyə-döyə onun yanına gətirmişlər. Həmin oğlan Niyazı vuran erməninin üstünə qışqırıb "Köpək oğlanları, qoca kişini niyə incidirsiniz? Əgər öldürürsünüzsə, aparın adam kimi öldürün! Bəsdir Azərbaycan xalqının başına gətirdiyiniz oyun!" – demişdir. Boz kostyumlu ermənin göstərişi ilə 6 nəfər silahlı erməni həmin şəmkirli oğlanın üstünə yerimiş, qolunu burub aparanda gənc əsir "Qarabağ bizimdir! Sizə verməyəcəyik! Qarabağ Azərbaycanındır!" – demişdir. Erməni hərbçilər gənc əsiri zirzəminin girişində Niyazın gözünün qabağında yerə yıxıb, vəhşicəsinə başını bıçaqla kəsib atmışlar. Sonra Niyaza yaxınlaşan ermənilər: "Sənin də başını o cür kəsəcəyik, hələlik bizə lazımsan", – deyib vəhşicəsinə döymüşlər. Ömründə insan başının kəsildiyini görmədiyindən, şok vəziyyətə düşmüş Niyaz Zeynalovun döyülməkdən gözləri şişmiş və görmə qabiliyyəti çox zəifləmişdir. Az sonra qozbel bir erməni ona yaxınlaşaraq "Oturduğun mişar daşını mən gətirib ora

qoymuşam ki, sənin sümüklərini, qabırğalarını sındırım!" – deyib onun başına zərbələr endirmişdir.

Orada saxlanıldığı müddətdə Niyaz Zeynalov mütəmadi olaraq döyülmüş, alçaldılmış və təhqir edilmişdir. Bir gün onun yanına gəlmiş Qarakənd kənd sakini, Pirəməki kəndində kökəltmə məntəqəsində baytar işləmiş və azərbaycanlılara xüsusi nifrəti ilə seçilən Levon Niyaza "Səni bu saat bayıra çıxarıb paltarını soyundurub elə sarıyacam ki, özünü öldürə bilməyəsən. Gərək mənim əlimdə öləsən. Gündə səndən bir tikə ət kəsib ocaqda bişirib kabab edib sənə yedirdəcəm", – demişdir. Martın 11-də və 21-də – baharın gəlişinin qeyd edildiyi ilin son çərşənbə axşamı və Novruz bayramı günlərində zirzəmiyə gəlmiş ermənilər yenə də onu döymüşlər. "Türkün bayramıdır", – deyərək, onun üzünə tüpürmüş və ağzını açmasını tələb etmişlər. Əgər ağzını açmazsa, bıçaqla dodaqlarını kəsəcəklərini bildirib zorla dişlərini aralayıb, altı erməni bir-bir onun ağzına tüpürmüşdür.

Aprelin 4-də onu "Abo" ləqəbli erməninin yanına aparmışlar. Ona Abonun Quşçular və Malıbəyli kəndlərindən sağ qalanların hamısının yandırılmasına göstəriş verdiyini demişlər. Abo Niyazın necə girov götürüldüyünü soruşmuş və onun danışıqlarını diktofona yazmışdır. O, başına gələnləri, ermənilərin törətdikləri vəhşilikləri, evini və başqa evləri yandırdıqlarını söyləmişdir. Hirslənib Niyazı döyən Abo, onu da öldürəcəyini bildirmişdir. Niyaz Zeynalov 12 aprel 1992-ci il tarixdə girovluqdan azad edilmişdir.

Zeynalov Vaqif Xalac oğlu – 1968-ci ildə Azərbaycan Respublikasının Füzuli rayonu, Gorazıllı kəndində doğulmuşdur. 23 avqust 1993-cü il tarixdə əsir götürülmüş, 10 oktyabr 1993-cü il tarixdə azad edilmişdir. İfadəsində bildirmişdir:

1993-cü ildə Ermənistan Silahlı Birləşmələrinin Füzuli rayonuna hücumu zamanı 7 nəfər döyüş yoldaşı həlak olmuşdur. Əsir götürülmüş Vaqif Zeynalovu digər döyüş yoldaşları – Şıxəliyev Rauf Gülbaba oğlu və Rüstəmov İlqar Malik oğlunu əvvəlcə Xocavənd rayon Milis şöbəsinə aparan erməni hərbçilər, daha sonra Şuşa həbsxanasına köçürmüşlər. Vaqif və döyüş yoldaşları həbsxanada saxlanıldıqları dövrdə erməni nəzarətçilərin təhqirlərinə, işgəncələrinə məruz qalmış, digər əsir-girovlar kimi gün ərzində dəfələrlə rezin dəyənək, ağac və dəmir parçaları ilə vəhşicəsinə döyülmüşlər. Döyərkən onlara: "Qarabağ ermənilərindir", – deyən nəzarətçilər əsir-girovlardan da bunu deməyi tələb etmişlər. Azərbaycanın tarixini, mədəniyyətini, əsir-girovların ata-analarını, hətta ölülərinin ruhlarını da təhqir edən ermənilər Azərbaycan Respublikasını yerlə-yeksan edəcəklərini və onun yerində "Böyük Ermənistan" yaradacaqlarını söyləmişlər.

Sentyabr ayının son günlərində Vladik adlı erməni, ailəsinə satmaq məqsədi ilə Vaqifi meyit adı altında Şuşa həbsxanasından çıxarıb, Gürcüstanla sərhəddə yerləşən Ləmbərli kəndində yaşayan Aşot adlı erməninin evinə aparmışdır. Orada saxlanıldığı 17 gün ərzində Vladik Vaqifin atası ilə danışıqlar aparıb onu azad etmək müqabilində 25 milyon rus rublu tələb etmişdir. Nəhayət, çox danışıqlardan sonra, məbləğ 6 milyona endirilmişdir. Atası ilə Gürcüstan Respublikası ərazisində görüşən Vladik, 6 milyon rus pulunu aldıqdan sonra, 10 oktyabr 1993-cü il tarixdə Vaqif Zeynalovu azad etmişdir.

II FƏSİL

Sənədlər, faktlar

16 fevral 1994-cü ildə Ermənistan Respublikası Xarici İşlər Nazirliyinin yaydığı press-kommunikedə göstərilirdi ki, guya qaçmağa cəhd edərkən atışma zamanı 8 azərbaycanlı hərbi əsir öldürülmüşdür. Azərbaycan tərəfinin tələbləri nəticəsində Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə 23 mart 1994-cü il tarixdə 10 azərbaycanlı hərbi əsirin meyiti Yerevandan Bakıya çatdırılmışdır.

24-25 mart 1994-cü il tarixdə meyitlər laborator, məhkəmə-kimyəvi, məhkəmə-histoloji, məhkəmə-bioloji, tibbi-kriminalist müayinədən keçirilmiş və 8 əsirin çox yaxın məsafədən gicgah nahiyəsinə açılan atəş nəticəsində qətlə yetirildiyi müəyyən edilmişdir.

Cəsədlərdən üçünün baş nahiyəsində güllə dəyən hissədə aşkar edilmiş his qalıqları silahın lüləsinin atəş zamanı başa dirəndiyini sübut edir. Digər hərbi əsirlərə isə atəş çox yaxın məsafədən düşünülərək məhvetmə məqsədilə açılmışdır. Meyitlərin müayinəsi zamanı onların birində qara ciyər, dalaq və ürəyin çıxarıldığı, habelə sağ qulaq seyvanının kəsildiyi aşkar edilmişdir. Digər iki meyitdən birinin hər iki qulağı, ikincisinin isə sağ qulağı kəsilmiş, digərində sinəsini dəlib keçən güllə yarası aşkar edilmişdir. Meyitlərdən birinin boğazında dərin kəsik yarası müəyyən edilmişdir. Başqa bir meyitdə isə döş qəfəsinin hər iki hissəsində bir neçə qabırğa sümüyündə çoxsaylı sınıqlar aşkar edilmişdir. Sonuncu meyitdə kəskin arıqlama – kaxeksiya əlamətləri aşkarlanmışdır. 7-8 aprel 1994-cü il tarixdə Beynəlxalq Hüquqi və Sosial Təbabət Akademiyası Rəyasət Heyətinin və Böyük Britaniyanın «Həkimlər insan hüquqları uğrunda» təşkilatının üzvü, beynəlxalq statuslu məhkəmə-tibb eksperti, professor Derrik Con Paunder həmin meyitləri təkrar müayinədən keçirmiş və ilkin ekspertizanın nəticələrini təsdiqləyərək azərbaycanlı hərbi əsirlərin eyni silahdan (tapança) gicgah nahiyəsinə yaxın məsafədən açılan atəş nəticəsində qətlə yetirildiyini bildirmiş və əsirlərin guya «qaçmağa cəhd edərkən» öldürülməsi fikrini rədd etmişdir.

D.Paunderin rəyində deyilir: "Azərbaycan Respublikasının əsirlər, girovlar və itkin düşənlərlə iş üzrə Dövlət Komissiyasının təlimatı üzrə Derrik Con Paunder Bakıda Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Praktik və Təlim İdarəsinin Məhkəmə və Anatomik Patologiya İnstitutunda 10 hərbi əsirin cəsədi üzərində müayinə aparmışdır. Yarılma müayinəsi 1994-ci ilin 7 aprel, cümə axşamı saat 11:50-də başlamış, 8 aprel cümə günü saat 16:10-da qurtarmışdır.

Hərbi əsirlərin cəsədləri mənə doktor Zabit Məmmədov tərəfindən təqdim olunmuşdur. Bu cəsədlər Ermənistan tərəfindən Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinə verilmiş, o da öz növbəsində bu cəsədləri 1994-cü il 23-24 mart tarixində Bakıya qaytarmış və doktor Məmmədov tərəfindən müayinə edilmişdir. Cəsədlər mənə doktor Zabit Məmmədovun yarma müayinəsindən sonra təqdim olunmuşdur. Bu yarılma müayinəsində doktor Zabit Məmmədov, doktor Mənsur Bünyadov, doktor Vüqar Məmmədov və cəsədxana mütəxəssisi cənab İqor Krovets iştirak etmişdir.

Mən müayinələrimin nəticəsində 10 cəsəd barəsində fərqli yarılma rəyi hazırladım. Belə bir nəticəyə gəldim ki, ölümün səbəbi aşağıdakılardır:

İş 1. Ağayev Rüstəm Ramazan oğlu – başından aldığı güllə yarası;
İş 2. Cəfərov Ənvər Əsgər oğlu – boğaz nahiyəsində kəsik;
İş 3. Qiyasov Bəhram Akif oğlu – döş qəfəsində güllə yarası;
İş 4. Hüseynov Fikrət Həsən oğlu – çürümüşdür;
İş 5. Əhmədov Elşən Hüseyn oğlu – başından aldığı güllə yarası;
İş 6. Əhmədov Elman Məmməd oğlu – başından aldığı güllə yarası;
İş 7. Məmmədov Gürşad Qiyas oğlu – başından aldığı güllə yarası;
İş 8. Məmmədov Eldar Şahbaba oğlu – başından aldığı güllə yarası;
İş 9. Quliyev Faiq Qabil oğlu – başından aldığı güllə yarası;
İş 10. Nəsirov İlham Sədulla oğlu – çürümüşdür.

Müayinədən sonra gəldiyim nəticəyə görə, bütün 10 yarılma işi 1-ci dəfə Ermənistanda, 2-ci dəfə Azərbaycanda yerinə yetirilmişdir. Nəticədə mənim yarma müayinəm 3-cü hesab oluna bilər. Bir cəsəd (İş 4) tamamilə skeletləşmişdir. Başqa bir cəsəd (İş 10) çürümüşdür. O biri cəsədlərdə də çürümə dəyişiklikləri vardır. Ermənistanda aparılan yarılma zamanı cəsədlərin əzaları çıxarılmışdır. Bunlar barədə mənə heç bir məlumat verilməmiş və əzələlər müayinə üçün təqdim olunmamışdır. Azərbaycanda aparılan yarılmalar barədə bütün yaranan suallara doktor Zabit Məmmədov və cənab İqor Krovets cavab vermişdir.

Hər əməliyyatdakı mühüm tapıntılar aşağıdakılardır:

İş 1. Ağayev Rüstəm Ramazan oğlu

Güllə başın sağ gicgah nahiyəsindən dəyib başın arxa hissəsindən çıxmışdır. Güllə dəyən hissənin kənarındakı his qalıqları göstərir ki, silahın ağzı atəş zamanı gicgaha



dirənmişdir. Ermənistanda aparılan yarılmada sağ gicgahın güllə dəymiş hissəsi sağ qulaqla birlikdə kəsilmişdir. Həmçinin, 1-ci yarılmada daxili orqanların bir neçəsi, o cümlədən ürək, dalaq və böyük bağırsaq çıxarılmışdır. Bu orqanlar ölümdən sonra çıxarılmışdır. Bunun transplantasiya məqsədi ilə çıxarıldığını sübut edəcək dəlil yoxdur. Yeganə dəlil sağ qulağın ölümdən sonra kəsilməsidir.

İş 2. Cəfərov Ənvər Əsgər oğlu

Boynun sağ tərəfindən böyük kəsilmiş yara var. Bu yara dəridə paralel çoxlu kəsiklər vasitəsilə yaranmışdır. Yaranın dərinliyinə kimi kəsiklər gedirdi. Bu, sui-qəsdə daha çox oxşayırdı, çünki bədənin başqa hissəsində bunu inkar edəcək zədə yox idi. Hər iki ayaqda və sol dizdə ölümdən sonra əmələ gəlmiş zədə var idi.

İş 3. Qiyasov Bəhram Akif oğlu

Güllə yarası döş qəfəsində idi. Qəlpə sol ağ ciyərdən keçib kürəkdə 9-cu qabırğanı parçalayıb çıxmışdır. Döşün sol tərəfində cərrahi tikiş var idi. Sağ dirsəkdə iynə yarası



aydın görünürdü. Ağ ciyər zədəsinin cərrahi müalicəsi olmamışdır. Bu əsir cərrahi əməliyyat edilməmişdən ölmüşdür.

İş 4. Hüseynov Fikrət Həsən oğlu

Cəsədin skeleti qalmışdır. Heç bir yumşaq əzələ qalığı görünmürdü. Ölməmişdən əvvəl sağalmış səkkiz qabırğa sınıqları müşahidə olunmuşdur. Başqa sümük zədəsi yox idi. Yumşaq əzələ qalmadığı üçün ölümün səbəbini müəyyən etmək mümkün olmamışdır. Belə güman etmək olar ki, ölüm qabırğa sınıqları nəticəsində yaranan ağırlaşmadan və ya pnevmaniyadan olmuşdur.

İş 5. Əhmədov Elşən Hüseyn oğlu

Bu əsirin ölümünə səbəb sağ gicgahdan dəyən güllə yarası olmuşdur. Sağ gicgahın dərisi Ermənistanda aparılan yarılma zamanı güllə yarası ilə birlikdə kəsilmişdir. Kəllənin güllə dəyən hissəsindəki his qalıqları onu göstərir ki, silahın ağzı atəş zamanı

gicgaha dirənmişdir. Cəsəddə qançır var idi. Biri 5 sm ölçüdə sol baldırda, digəri 8 sm ölçüdə sol çiyin üzərində idi. Başqa qançır müşahidə edilməmişdir.



İş 6. Əhmədov Elman Məmməd oğlu

Güllə sol gicgahdan dəyib sağ tərəfdən çıxmışdır. Güllə dəyən hissə dəri ilə birlikdə Ermənistanda aparılan yarılma zamanı kəsilmişdir. Kəllənin güllə dəyən hissəsindəki his qalıqları onu göstərir ki, silahın ağzı atəş zamanı gicgaha dirənmişdir. Ermənistanda aparılan yarılma zamanı sağ və sol qulaq yara ilə birlikdə kəsilmişdir.



İş 7. Məmmədov Gürşad Qiyas oğlu

Güllə sağ qulağın arxasından dəyib sol qulağın üstündən çıxmışdır. Güllə dəyən hissə dəri ilə birlikdə Ermənistanda aparılan yarılma zamanı kəsilmişdir. Yarada his qalıqları müəyyən edilmədiyindən atəşin hansı istiqamətdən açıldığını demək çətindir. Alının sağ hissəsində güllə yarası ilə əlaqəsi olmayan 5 sm ölçüdə göyərmə var idi. Bu göyərmə ölümdən qabaq əmələ gəlmişdir. Göyərmənin mərkəzində dərinin bir hissəsi Ermənistandakı yarılma zamanı kəsilmişdir. Sol ayağın barmaqlarında əzələlərin bir hissəsi tökülmüşdür.

İş 8. Məmmədov Eldar Şahbaba oğlu

Güllə sağ gicgahından dəyib sol gicgahından çıxmışdır. Sağ gicgahın dərisi yara daxil olmaqla, sağ qulaqla birlikdə Ermənistanda aparılan yarılma zamanı kəsilmişdir. His qalığı aşkar olunmadığından atəşin hansı istiqamətdən açıldığını müəyyən etmək mümkün olmamışdır. Başın sağ tərəfində güllə yarası ilə əlaqəsi olmayan 5 sm ölçüdə göyərmə var idi. Bu göyərmə ölümdən əvvəl yaranmışdır. Qarın hissədə dəri yarıq tikişi ilə birgə ölümdən sonra çürüyüb tökülmüşdür.



İş 9. Quliyev Faiq Qabil oğlu

Güllə sağ gicgahından dəyib başın arxa tərəfindən çıxmışdır. Güllə dəyən hissə dəri ilə birlikdə Ermənistandakı yarılma zamanı kəsilmişdir. His qalığı müşahidə edilmədiyindən güllənin hansı istiqamətdən açıldığı müəyyən edilməmişdir. Başın sağ tərəfində güllə yarasına aid olmayan 5 sm ölçüdə göyərti var idi. Bu göyərmə ölümdən əvvəl olmuşdur.





İş 10. Nəsirov İlham Sədulla oğlu

Cəsəd çürümüş vəziyyətdə idi. Bədənində yara izi görünmürdü. Cəsədin vəziyyəti ölümün səbəbini izah etməyə imkan vermirdi.

Heç bir cəsəddə işgəncə və sistematik döyülmə əlamətləri göstərən dəlil yox idi. Birinci işdə bunu müəyyən etmək heç mümkün olmamışdır. Çünki cəsədin ancaq skeleti qalmışdır.



10 cəsədin altısında başından dəyən güllə yarası var idi. 6-dan 5-də güllə başın sağ tərəfindən dəyib sol tərəfindən çıxmışdır. 1 cəsəddə isə bu, əksinə idi. 6 cəsəddən üçündə güllə dəyən hissədəki his qalıqları göstərirdi ki, silahın ağzı atəş açılan zaman başa dirənmişdir. Başqa 3 cəsəddə güllə dəyən hissə Ermənistanda aparılan yarılma zamanı kəsildiyindən və əzələ çıxarıldığından atəşin başa dirənərək açıldığını təsdiq və ya inkar etmək mümkün olmamışdır. Bu 6 cəsədin 3-də qançır da vardı. 3 cəsədin qulaqları Ermənistanda aparılan yarılma zamanı kəsilmişdir.

Bildiyimə görə, bu 6 ölüm hadisəsinin qaçma cəhdinə görə baş verdiyi iddia edilmişdir. Amma güllə yaralarının nümunələri bu izahatla uyğunlaşmır. Atəş başa dirənərək açılmışdır. Bunu ancaq kontakt vəziyyətdə etmək olar".

University
Of Dundee
FORENSIC MEDICINE

On the instruction of the State Commission on War Prisoners, Hostages and Missing Persons of the Azerbaijan Republic, I , Derrick John Pounder, performed post-mortem examinations on the bodies of ten persons at the Forensic Medicine and Anatomical Pathology Institute of the Scientific Practical and Training Board of the Ministry of Public Health of the Republic of Azerbaijan in the city of Baku. The autopsy examinations began at 11.50 hours on Thursday 7th April 1994 and finished at 16.10 hours on Friday 8th April 1994.

The bodies were identified to me by Dr Zabit Mamedov as those deceased war prisoners whose bodies were released by the Republic of Armenia and transferred by representatives of the International Committee of the Red Cross to Baku, Azerbaijan on March 23rd 1994 and subsequently examined by Dr Mamedov on March 23rd and 24th 1994. The bodies were individually identified to me prior to each autopsy examination by Dr Zabit Mamedov. During the conduct of the ten autopsy examinations Dr Zabit Mamedov, Dr Mansur Buniatov, Dr Vugar Mamedov and Mr Igor Kravets (mortuary technician) were present throughout.

As a result of my examinations I prepared ten individual autopsy reports relating to each of the deceased. I concluded that the causes of death were as follows:

Case 1. AGEV, Roustam (Ramazan ogly). Cause of Death: Single gunshot wound to the head.

Case 2. DJAFAROV, Anvar (Asker ogly). Cause of Death: Incised wound to the throat.

Case 3. GUIASOV, Bakhram (Akif ogly). Cause of Death: Single gunshot wound to the chest.

Case 4. GOUSEINOV, Fikret (Gassan ogly). Cause of Death: Undetermined.

Case 5. AKHMEDOV, Elchan (Goussein ogly). Cause of Death: Single gunshot wound to the head.

Case 6. AKHMEDOV, Elman (Mamed ogly). Cause of Death: Single gunshot wound to the head.

Case 7. MAMEDOV, Kourchat (Kiyas ogly). Cause of Death: Single gunshot wound to the head.

Head of Department, Professor Derrick J Pounder

Dept. of Forensic Medicine, Dundee Royal Infirmary, Dundee DD1 9ND Scotland Tel (0382) 200794 Fax (0382) 22094

Case 8. **MAMEDOV, Eldar (Chakhbaba ogly). Cause of Death: Single gunshot wound to the head.**

Case 9. **GOUILIEV, Faig (Gabil ogly). Cause of Death: Single gunshot wound to the head.**

Case 10. **NAZIROV, Ilkhan (Sadoulla ogly). Cause of Death: Undetermined.**

As a result of my examinations I concluded that in all ten cases autopsy examinations had been performed in Armenia and I confirmed that autopsies had again been performed on each of the ten individuals following receipt of the bodies in Azerbaijan. Consequently the autopsies which I performed were the third autopsies each of these bodies was subjected to. One body (case 4, GOUSEINOV, Fikret (Gassan ogly)) was skeletonised, one body (case 10 NAZIROV, Ilkhan (Sadoulla ogly)) was severely putrefied and the other eight bodies showed moderate to advanced putrefaction. Tissues had been removed from the bodies at the time of the first autopsies in Armenia; these tissuss and the reports of the first autopsies were not available to me. Tissue had been removed from the bodies during the second autopsies in Azerbaijan; those removed tissues which I requested access to were made available to me and the results of the autopsies performed in Azerbaijan were made available to me verbally. All questions relating to the conduct of the autopsies in Azerbaijan were answered by Dr Zabit Mamedov and Mr Igor Kravets. The condition of the bodies arising from the state of putrefaction and decomposition and the conduct of two previous autopsies with the removal of some tissues, although limiting the information which could be obtained by further autopsy, did not preclude useful and productive examinations.

The essential findings in each case were as follows:

Case 1. AGEV, Roustam (Ramazan ogly).

There was a single gunshot wound to the head which entered at the right temple and exited on the left side towards the back of the head. The presence of soot deposits on the surface of the skull surrounding the entry wound indicate that the end of the muzzle of the gun was in contact with the head at the time the shot was fired. At the autopsy performed in Armenia the skin of the right temple which included the gunshot wound of entry was excised together with the adjacent right ear. Also presumed to have been retained at the first autopsy were several internal organs including part of the heart, the spleen and the liver together with the large bowel. These organs had been removed after death as part of the normal conduct of an autopsy and there is no evidence to substantiate the allegation that organs may have been removed for purposes of medical transplantation. The evidence clearly indicates that the right ear was excised after death and not during life and that it was excised as part of the autopsy procedure.

Case 2. DJAFAROV, Anvar (Asker ogly).

There was a large incised wound to the right side of the neck. This wound had been produced by multiple parallel cuts to the skin and repeated parallel cuts in the depth of the wound. The pattern of injury was typical of suicide and there were no other injuries to the body to suggest that the death was other than a suicide. There was post mortem damage to both feet and the left knee consistent with rodent activity.

Case 3. GUIASOV, Bakhram (Akif ogly).

There was a single gunshot wound to the chest which entered on the left side just below the nipple. The bullet passed through the left lung and exited the back on the left side splintering the ninth rib. There was evidence of emergency medical treatment in the form of a surgical incision to the left side of the chest and what appeared to be an injection mark to the front of the right elbow. There was no evidence of surgical treatment of the wound to the lung suggesting that he died before the emergency surgery could be completed.

Case 4. GOUSEINOV, Fikret (Gassan ogly).

The body was skeletonised with virtually no residual soft tissues. There were a minimum of eight healing rib fractures which must have been present many weeks or months prior to death. There were no other bony injuries. In the absence of soft tissues it was impossible to establish a cause of death. It is possible that the death was a complication of the rib fractures, such as a pneumonia.

Case 5. AKHMEDOV, Elehan (Goussein ogly).

There was a single gunshot wound to the head which entered at the right temple and exited at the left temple. The skin of the right temple which included the gunshot wound of entry had been excised at the first autopsy in Armenia. On the outer surface of the skull surrounding the gunshot entry wound there were soot deposits indicating that the end of the muzzle of the gun had been in contact with the head at the time the shot was fired. There were two fresh bruises to the body which had occurred during life. There was a 5 cm bruise to the left shin and a 6 cm bruise to the muscles of the front of the left shoulder, without bruising of the overlying skin in the latter injury.

Case 6. AKHMEDOV, Elman (Hamed ogly).

There was a single gunshot wound to the head which entered at the left temple and exited at the right temple. The skin of the left temple including the gunshot wound of entry had been excised at the first autopsy in Armenia. The outer surface of the skull of the left temple surrounding the gunshot wound of entry showed abundant soot deposits indicating that the end of the muzzle of the gun was in contact with the head at the time the shot was fired. The left ear had been excised in continuity with the skin of the left temple, which included the gunshot entry wound, at the first autopsy in Armenia. The right ear had also been excised at the first autopsy in Armenia.

Case 7. MAMEDOV, Kourchat (Kiyaz ogly).

There was a single gunshot wound to the head which entered behind the right ear and exited above the left ear. The skin surrounding the gunshot wound of entry had been excised at the first autopsy in Armenia; there were no identifiable soot deposits in the depth of the entry wound. Consequently it is not possible to determine the range at which this shot was fired from.

It is not possible to confirm or to deny that this may have been a contact wound (with the end of the muzzle of the gun in contact with the head at the time the shot was fired). There was an 8 cm bruise to the right side of the forehead which was unrelated to the gunshot wound. This bruise was fresh and had occurred during life. A portion of skin at the centre of this bruise had been excised at the first autopsy in Armenia. There was post mortem loss of some tissue from the toes of the left foot consistent with rodent activity.

Case 8. MAMEDOV, Eldar (Chakhbaba ogly).

There was a single gunshot wound to the head entering at the right temple and exiting at the left temple. The skin of the right temple, including the gunshot wound of entry, together with the right ear in continuity had been excised at the first autopsy in Armenia. There was no identifiable soot in the depth of the entry wound. Consequently is it not possible to determine the range of fire of the gunshot wound. It is not possible to confirm or to deny that it may have been a contact wound (with the end of the muzzle of the gun in contact with the head at the time the shot was fired). There was post mortem loss of skin on the wall of the abdomen in continuity with the autopsy incision and suggesting rodent activity.

Case 9. GOUILIEV, Faig (Gabil ogly).

There was a single gunshot wound to the head entering at the right temple and passing markedly backwards to exit towards the back of the head on the left side. The skin of the right temple including the gunshot wound of entry had been excised at the first autopsy in Armenia; there was no identifiable soot within the depth of the entry wound. Consequently it is not possible to determine the range of fire of the gunshot wound. It is not possible to confirm or deny that the gunshot wound may have been a contact wound (with the end of the muzzle of the gun in contact with the skin at the time the shot was fired). There was a fresh 5 cm bruise to the right side of the head unrelated to the gunshot wound. This bruise had been produced during life.

Case 10. NAZIROV, Ilkhan (Sadoulla ogly).

The body was in an advanced state of putrefaction. There was no apparent injury to the body. The condition of the body did not permit a cause of death to be established.

None of the bodies showed evidence of torture or systematic beatings (except that this could not be assessed in case 4 Gouseinov Fikret (Gassan ogly) because the body was reduced to a skeleton).

Six of the ten bodies showed a single gunshot wound to the head. In five of the six cases the entry wound was to the right side of the head and the exit wound to the left side of the head; in one of the six cases the entry wound was to the left side of the head and the exit wound to the right side of the head. In three of the six cases there were identifiable soot deposits on the outer surface of the skull surrounding the gunshot wound of

entry and indicating that, in each of these three cases the muzzle of the gun had been in contact with the head at the time the shot was fired. In the other three cases, because of the loss of physical evidence as a consequence of previous autopsies and the removal of tissue at the autopsies in Armenia, it is not possible to confirm or deny that the end of the muzzle of the gun was in contact with the head at the time the shot was fired. Of these six cases, three showed fresh bruises to the body: in one case a bruise to the right side of the head; in a second case a bruise to the right side of the forehead; in the third case a bruise to the left shoulder and a further bruise to the left shin. In three cases one or both ears had been excised post mortem and almost certainly at the time of the autopsies in Armenia. In two of these three cases the right ear had been excised and in the third case both ears had been excised.

I am aware that these six dead were alleged to have been shot whilst attempting to escape. The pattern of gunshot wounds is not consistent with such an explanation. The common pattern of gunshot wounds to the head, with three of the six wounds being definite contact wounds, is strongly suggestive of execution-type shootings.

ATTESTED ON SOUL AND CONSCIENCE

.....

DERRICK JOHN POUNDER

MB ChB FRCPA FFPathRCPI FCAP MRCPath FHKCPath

DJP/JH/13.04.94

Toplanmış materiallar sübut edir ki, Ermənistan Respublikası əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarına qarşı məqsədli soyqırımı siyasəti yeritmişdir. Uşaq, qadın və qocalara müxtəlif dəhşətli işgəncələr verilmiş, onlar vəhşicəsinə döyülmüş, qəsdən şikəst vəziyyətinə salınmış, bədənlərinə qızdırılmış xaç nişanları ilə damğa basılmış, dırnaqları və dişləri çıxarılmış, yaralarına duz basılmış, ölənə qədər rezin və dəmir dəyənəklərlə döyülmüş, damarlarına tərkibi məlum olmayan kimyəvi məhlullar, hətta solyarka və benzin yeridilmiş, özünü öldürmə həddinə çatdırılmışdır:

– Əliyev Şövqi Xəqani oğlu – 23.07.1993-cü ildə ailə üzvləri ilə birlikdə atası Əliyev Xəqani Vəliyəddin oğlunun şəxsi avtomobilində evlərinə gedərkən Ağdam rayonunun Sarıcalı kəndi yaxınlığında Ermənistan hərbçiləri onları güllələbaran etmiş, 7 yaşlı qardaşı Nicat və babası Oqtay Əliyev heç bir səbəb olmadan qətlə yetirilmişlər. Əliyev Şövqi Xəqani oğlu atası Xəqani Əliyev, anası Əliyeva Könül Oqtay qızı və nənəsi Əliyeva Zənifə Əşrəf qızı yaralı vəziyyətdə girov götürülmüşlər. Girov götürülərkən 3 yaşı olan Şövqi Xəqani oğlu Əliyev müalicə olunmaq əvəzinə bazu sümüyü əzələ qatı ilə birlikdə, çox ehtimal ki, sonradan Xankəndində erməni «həkimlər» tərəfindən çıxarılmış, nəticədə o, ömürlük şikəst olmuşdur.

– Kəlbəcər rayonunun işğalı zamanı girov götürülən (31.03.93) **Gülcamal Quliyevanın** yenicə dünyaya gəlmiş oğlu Arzu Hacıyevə erməni «həkimi» Aida Serobyan naməlum tərkibli iynələr vurmuşdur. Nəticədə ömürlük şikəst olmuş Arzu Hacıyev 2003-cü ildə ölmüşdür.

– Girov götürüləndə iki yaşı olan **Nurlanə Kərimova** ömrünün erməni girovluğunda keçmiş dörd ayı ərzində qolundan və başından aldığı ciddi zədələrdən görmə qabiliyyətini itirmişdir. Lakin balaca Nurlanənin ən ağır itkisi çəkdiyi hədsiz mənəvi və fiziki təhqirlərə dözə bilməyən anasının ölümü olmuşdur. Səmayə Kərimova müntəzəm alçaldılmalarla o həddə çatdırılmışdır ki, ana iki yaşlı balasını taleyin ümidinə buraxıb iki dəfə intihara cəhd edərək venasını kəsmiş və nəhayət, haradansa tapdığı zəhəri içib özünü öldürmüşdür.

– Kəlbəcər rayonunun işğalı zamanı mülki əhalinin olduğu yük maşını Ermənistan hərbçiləri tərəfindən pusquya salınıb atəşə tutulmuşdur. Atəş nəticəsində anası Afət Mirzəyeva və babası Aslan Mirzəyev vəhşicəsinə qətlə yetirilmişdir. Həmin vaxt cəmi yeddi aylıq olan **Babək İlyasov** sağ gözündən ağır güllə yarası alsa da, ona heç bir tibbi yardım göstərilməmiş və girov götürülmüş digər həmkəndliləri ilə birlikdə yalnız dörd aydan sonra azad edilmişdir. Hazırda Babək İlyasovun bir gözü kordur.

Məmmədov Mayıl Məhəmmədəli oğlu – 1976-cı ildə Göyçay rayonunda anadan olmuşdur. 21 oktyabr 1992-ci il tarixdə əsir düşmüş, 7 may 1993-cü ildə azad edilmişdir. Xankəndində saxlanılarkən qızdırılmış dəmir parçası ilə sinəsinə xaç şəkilli damğa basılmış, damarına kimyəvi məhlul yeridilmişdir.

Əsirlikdən azad edilmiş **Cəfərov Siyafər Həsən oğlu** ilə aparılmış söhbətə dair arayış:

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasına

Erməni əsirliyindən azad edilmiş Cəfərov Siyafər Həsən oğlu ilə aparılmış söhbətlə əlaqədar

Dövlət Komissiyasına DAXİL OLAN № 76/01 27. 01 2009 il

ARAYIŞ

Cəfərov Siyafər Həsən oğlu – 1974-cü ildə Naxçıvan MR, Şərur r-nu, Düdəngə kəndində anadan olmuşdur.

Yaşadığı ünvan: Naxçıvan MR, Şərur r-nu, Düdəngə kəndi.

Cəfərov Siyafər Həsən oğlu 3 iyul 1992-ci il tarixdə Şərur RHK-ı tərəfindən hərbi xidmətə çağırılmış və 217 saylı h/h-yə göndərilmişdir.

1996-cı ilin fevral ayının 19-dan 20-nə keçən gecə Sədərək bölgəsində sərhəd xəttində yerləşən postdan 3 nəfər əsgər yoldaşı ilə birlikdə ermənilər tərəfindən əsir götürülmüşdür.

Həmin gün ətrafda yerləşən dağlıq postlarda atışma baş vermiş, lakin bundan Siyafərgilin postu xəbərsiz olmuşdur. Siyafərin dediyinə görə, onların postu o vaxt tərəflər arasındakı razılığa əsasən danışıqların təşkil edilməsi və atəşkəsin qorunması məqsədilə müəyyən əlaqənin qurulması üçün yaradılmış və Ermənistanın Arazdəyən yaşayış məntəqəsinin yaxınlığında, sərhəd xəttində yerləşdirilibmiş. Qarşı tərəfin də eyni funksiyanı yerinə yetirən postu var imiş və həmin postlar yaxın məsafələrdə yerləşirmiş. Zərurət yarandıqda hər iki tərəf postda danışıq aparır, hətta komandirlərlə də telefon əlaqəsi saxlaya bilirmişlər.

19 fevral 1996-cı il tarixdə, təxminən saat 23-24 radələrində qarşı tərəfdəki əlaqələndirici postdan ermənilər Siyafərgili danışığa çağırıb, «Ucumiz»də və «Əjdəkan»da (Sərhəd ərazidə yerləşmiş strateji yüksəkliklər) «bizim tərəf»in atışmaya başladığını bildirmiş və atəşkəs dövrü olduğu üçün atışmanın dayandırılması barədə ermənilərin tələbinin yuxarı komandanlığa çatdırılmasını istəmişlər. Siyafər bildirir ki, onlar təlimata uyğun olaraq məlumatı telefon vasitəsilə öz komandirlərinə çatdırmışlar. Komandirlər atışmanı erməni tərəfinin başladığını bildirmiş və əmr etmişlər ki, atəşin saxlanması barədə Azərbaycan tərəfinin tələbini qarşı tərəfə çatdırsınlar. Postdakılar əmri yerinə yetirib məlumatı qarşı tərəfə çatdırmışlar.

Bir azdan ermənilər Siyafərgilin postuna gəlmiş və Azərbaycan tərəfindən olan yüksək rütbəli zabitlərlə telefon əlaqəsi saxlamışlar. Bundan sonra qarşı tərəf məlumat gətirmişdir ki, onların batalyon komandiri

27

Azərbaycan tərəfdə postda olanları danışığa dəvət edir. Komandirlərə bu barədə məlumat çatdırılır və komandirlər təcili atəşi dayandırmaqla bağlı qarşı tərəfin komandirləri ilə danışığa getmək əmri verir. Siyafər onu da qeyd edir ki, komandirlər bu əmri versələr də, baş verənləri onlardan gizlətmiş və onları ehtiyatlı davranmağa çağırmamışlar. Həqiqətdə isə güclü atışma olmuş və Azərbaycan postlarına yaxınlaşmış iki erməni əsgəri güllələnmişdir. Bu faktı əsir götürüldükdən sonra onlara ermənilər bildirmişdir.

Təxminən saat 23^{30}-u keçmiş qarşı tərəfin zabitləri ilə telefon əlaqəsi yaratmaq üçün postun başçısı, çavuş Faiq Ələkbərov və əsgər Zahid Paşayev erməni postuna getmişlər. İki post arasındakı danışıq dili isə əsasən Azərbaycan dili, qismən isə rus dili imiş. Siyafər bildirir ki, həmin gün postda onunla birlikdə aşağıdakı 5 nəfər olmuşdur:

1. Ələkbərov Faiq – çavuş, post başçısı (Bakı şəhəri).
2. Paşayev Zahid Bəylər oğlu – əsgər (Nax. MR Babək r-nu).
3. Eldar –əsgər (Soyadını və atasının adını unudub. Şərur r-nu Axura kəndi).
4. Xanlar r-nundan olan əsgər (adını unudub).

Bir müddətdən sonra komandirlər təkrar telefon əlaqəsi yaradıb qarşı tərəflə aparılmış danışığın nəticəsi ilə maraqlanmış, Siyafər danışığa gedən əsgərlərin geri qayıtmadığını bildirmişdir. Komandir ona qarşı tərəfdəki posta getməsini, danışıqda iştirak edib təcili məlumat gətirməsini tapşırmışdır. Siyafər bildirir ki, onlar danışığa həmişə silahsız gedirmişlər, lakin o bu dəfə vəziyyətdən şübhələnmiş və avtomat silahı özü ilə götürmüşdür. Ermənilərin danışıq məntəqəsinin yerləşdiyi köşkə daxil olan kimi boynunun arxasından möhkəm zərbə almış və huşunu itirmişdir. Ayılanda ondan əvvəl gəlmiş əsgər yoldaşlarını əlləri bağlı, yerdə divarın küncündə oturduqlarını görmüş və onlardan nə baş verdiyini soruşmuşdur. Faiq Ələkbərov - bizim 4-cü posta gəlmiş iki nəfər erməni əsgərinin güllələndiyi üçün ermənilərin onları əsir götürdüyünü bildirmişdir. Siyafər həmin gün erməni postunda olan hərbçilərin sayının nəzərdə tutulduğundan xeyli çox olduğunu bildirir.

Bir azdan ermənilər öz aralarında nə isə müzakirə etmiş və təxminən 8-10 nəfər köşkün arxa qapısından bayıra çıxmışdır. Çox güman ki, ermənilərin məqsədi bizim postda qalmış iki nəfəri də əsir götürmək imiş. Bu vaxt onların hər birini 4 erməni əsgəri sürüyüb bayıra çıxarmışdır. Erməni postunun yerləşdiyi köşkün üzərində projektor quraşdırılıbmış və həmin projektor daim Azərbaycan tərəfə (posta) istiqamətlənirmiş. Projektorun işığından postda qalmış iki əsgərin sanki vəziyyəti başa düşüb çaşqın halda durduqları aydın görünürmüş. Çox güman əsgərlər vəziyyəti başa düşüb qaçdığı üçün ermənilər onları əsir götürə bilməmişlər. Sonrakı vəziyyətdən Syafərgilin xəbəri olmamışdı. Oradan əsir götürülmüş üç nəfəri

26

– Cəfərov Siyafər Həsən oğlunu, Ələkbərov Faiqi və Paşayev Zahid Bəylər oğlunu əvvəlcə yaxınlıqda yerləşən çaxır zavoduna, oradan isə h/h-yə aparmışlar. Bir azdan h/h-yə gəlmiş mülki geyimli erməni uzun lüləli tapançasını çıxarıb Ələkbərov Faiqin başına dirəmiş və iki nəfər ermənin necə öldürüldüyünü soruşmuşdur. Faiq (rus dilində) yalnız danışıq məntəqəsində durduqlarını və tamam başqa vəzifə yerinə yetirdiklərini bildirmişdir. Siyafər həmin şəxsin batalyon komandiri olduğunu düşünür (adını öyrənə bilməyib.) Bu vaxt h/h-yə mülki geyimli digər bir şəxs də gəlmiş və onlar öz aralarında nə isə danışdıqdan sonra həmin şəxs əsirləri öz şəxsi maşınına mindirib təkrar çaxır zavoduna gətirmişdir. Orada əsirlərə onun çaxır zavodunun direktoru Razmik olduğunu bildirmişlər. Siyafərin bildirdiyinə görə, həmin vaxt çaxır zavodu güclü işlədiyindən Razmik aranın qarışacağından qorxurmuş. Çünki əgər atəşkəs yenidən pozulmuş olsaydı ilk zərbəni məhz çaxır zavodu alacaqdı. Hərəkətlərindən onlara elə gəlmişdir ki, Razmik onları erməni meyidləri ilə dəyişmək istəyir. Hətta Razmik Yerevan məsələdən xəbər tutmamış, həmin gecə meyidləri alıb əsirləri qaytarmaq istədiyini də bildirmişdir. Bu məqsədlə Razmik Faiqi (rus dilini bildyi üçün) özü ilə aparır. Gecə saat təxminən 2^{30}-3^{00} radələrində Faiq geri qayıtmışdır. Faiqin sözlərinə əsaslanan Siyafər bildirir ki, Razmik Faiqi özü ilə onların durduğu posta aparmış və Azərbaycan tərəfi ilə telefon əlaqəsi yaradılmasını istəmişdir. Lakin 33-cü postla rabitə əlaqəsi kəsildiyindən danışıq baş tutmamışdır. Bu halda Razmik Faiqə onlarla birlikdə bizim posta yaxınlaşmasını və «Faiq» olduğunu bildirərək əlaqə yaratmasını təklif etmişdir. Əgər Faiq əlaqə yarada bilərsə, Razmik meyidləri alıb əsirləri qaytaracağını bildirmişdir. Faiq Razmikin təklifi ilə razılaşmış və onlar postlara yaxınlaşmışlar. Lakin Faiqin Azərbaycan dilində çağırmasına və özünü təqdim etməsinə baxmayaraq, postdan - geri qayıtmasalar atəş açılacağını bildirmişlər. Bundan sonra Razmik daha heç nə edə bilməyəcəyini söyləmişdir.

Həmin gecə onları zavodda saxlamışlar. Siyafərin bildirdiyinə görə, zavod gecə mülki şəxslər tərəfindən qorunurmuş. Onlardan Samvel adlı biri Azərbaycan dilini yaxşı bilirmiş. Samvel deyirmiş ki, Razmik atəşkəs dövründə, tərəflər arasında böyük söz-söhbətin yaranmasını istəmədiyi üçün onları elə həmin gecə dəyişmək fikrindədir. Siyafərin dediyinə görə, səhəri gün fevral ayının 20-də görüş təyin olunsa da, Azərbaycan tərəfdən danışığa gələn və onların azad edilməsini tələb edən olmur. Ayın 21-nə və ya 22-nə təyin olunmuş görüşdə isə erməni tərəfinə meyidlər qaytarılsa da, əsirlər geri qaytarılmır. Meyidlərin qaytarıldığını Siyafər özü şəxsən görüb. Siyafər zavodda onlara işgəncə verilmədiyini bildirir.

Meyidlər qaytarılan gün axşamüstü onları Ararat rayonunun mərkəzində yerləşən h/h-yə gətirmişlər. Razmik də onlarla birlikdə h/h-yə gəlmişdir. Burada onları əvvəlcə podpolkovnik və polkovnik rütbəli iki

25

hərbçi sorğu-sual etmişdir. Əsas sualları erməni əsgərlərinin hansı şəraitdə öldürülməsi ilə bağlı olub. Sorğu-sual rus dilində aparıldığından suallara Faiq cavab verirmiş və o, burada da əvvəl dediklərini söyləmişdir. Sonra onları otaqda nəzarət altında saxlayıb, biri-birilə danışmamağı tapşırmışlar. Bir azdan Faiqi otaqdan çıxarıb aparmışlar. Siyafər bildirir ki, Faiq otağa qayıdanda başı ilə onlara «yox» işarəsi vermişdir. Bundan sonra Zahidi, ən nəhayət isə Siyafəri aparmışlar. Siyafərin dediyinə görə, onu üç video kamera quraşdırılmış bir otağa gətirmişlər və bildirmişlər ki, o, indi Ermənistan TV-nin 1-ci kanalı ilə canlı yayımda çıxış edərək deməlidir: «Mən, Cəfərov Siyafər Həsən oğlu, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin əsgəri öz istəyimlə, könüllü olaraq Ermənistan vətəndaşlığını qəbul edirəm və digər əsgər yoldaşlarımı da buraya çağırıram» və s. Dediyinə görə, o müsahibə vermək təklifini qəbul etmiş və demişdir: «Mən Cəfərov Siyafər Həsən oğlu, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin əsgəri atəşkəs dövründə, erməni muzdluları tərəfindən əsir götürülmüşəm». O, bu sözləri deyər-deməz kameranı söndürmüşlər. Ondan nə üçün belə dediyini soruşanda o, həqiqəti söylədiyini bildirmiş və atəşkəs dövründə əsir götürüldüklərini əlavə etmişdir. Siyafər bildirir ki, müsahibə almaq istəyənlər həm mülki, həm də hərbi geyimdə imişlər. Bundan sonra onu otaqdan çıxarmışlar. Siyafər hərbi hissədə onları dindirənlərin adlarını bilmədiyini deyir. Yalnız qeyd edir ki, ermənilər tez-tez «Haykaz» adını işlədir və onun kəşfiyyatın komandiri olduğunu bildirirmişlər.

Bir azdan onları Azərbaycan dilində, polkovnik rütbəli başqa bir erməni dindirməyə başlamışdır. O, təpiklə vurub Siyafərin ağzını partlatmış və onu ermənicə söymüşdür. Söyüşün mənasını təxminən başa düşən Siyafər də, öz növbəsində onu Azərbaycan dilində söymüşdür. Bundan daha da qəzəblənən polkovnik demişdir: «Bəxtin kəsib ki, sizi Yerevana aparırlar, yoxsa səni burada nələr gözlədiyini bilərdin». Ancaq polkovnik onun barəsində Yerevana məlumat çatdıracağını və orada Siyafərlə daha ciddi məşğul olacaqlarını bildirmişdir. Polkovniki daha çox Siyafərgilin xidmət etdiyi h/h-nin nömrəsi, komandirlərin adı, döyüş mövqelərinin yerləşməsi vəziyyəti, silahların növləri və s. hərbi sirlər maraqlandırırmış. Dediyinə görə, Siyafər verilmiş suallara cavab olaraq ikinci sinifdən sonra məktəbə getmədiyi üçün oxumaq-yazmaq bilmədiyini və iki ildir eyni postda saxlandığından heç nədən xəbəri olmadığını bildirmişdir. Polkovniki qəzəbləndirən digər amil isə postda olan iki əsgərin qaçması faktı imiş. O, postda olanların hamısının tutulmasının vacib olduğunu deyirmiş. Suallarına heç bir cavab ala bilməyən polkovnik Siyafəri təpik və yumruqla dəhşətli dərəcədə döymüşdür. Siyafər bilidirir ki, həmin vaxt onların üçünün də bir yerdə olmasına baxmayaraq, polkovnik yalnız onu sorğu-sual edib döyürmüş. Siyafər sonradan həmin polkovnikin Haykaz olduğunu öyrənmişdir. Haykazın işgəncələrindən sonra onları qauptvaxta salmışlar.

24

Siyafər bildirir ki, onlar əvvəlcədən, öz aralarında verilmiş suallara «yox» və «bilmirik» cavablarını verəcəklərini razılaşdırmışlar. Qauptvaxtda ermənilər tez-tez gəlib Azərbaycan dilində Bakıdan, Sumqayıtdan, Gəncədən və s. adam olub-olmadığını soruşurmuşlar. Səhərisi gün onların əllərini bağlayaraq iki «Niva» markalı maşına mindirib Yerevan şəhərində yerləşən h/h-yə gətirmişlər. Siyafərin bildirdiyinə görə, əsas zülm məhz bundan sonra başlamışdır.

H/h-də onların üçünü də bir kameraya salmışlar. Bir neçə saat onların yanına heç kim gəlməmişdir. Nəhayət hava qaralanda qapı açılmış, icəriyə zabitlərdən və əsgərlərdən ibarət on nəfərə yaxın hərbçi daxil olmuş və onlar əsirlərə işgəncələr verməyə başlamışlar. Siyafər bildirir ki, bu hadisə fevral ayının 23-dən 24-nə keçən gecə baş vermişdir. Siyafər fikirləşirmiş ki, gecəni sağ çıxsa, ona «ölüm yoxdur» və əsirlikdə ümummiyyətlə ölümdən qorxmurmuş. İşgəncə gecə saat 4-dək davam etmişdir. Daha çox böyrəklərindən və diz qapaqlarından təpiklə vururmuşlar. Kameranın ortasında yerə bərkidilmiş dəmir stul var imiş. Ermənilərin bir hissəsi stulun bir tərəfində, digər hissəsi isə qarşı tərəfində dururmuşlar. Əvvəl əsirləri həmin stulun üstünə çıxarır, sonra təpiklə möhkəm vurub qarşı tərəfə salırmışlar və bu hal dəfələrlə təkrar olunurmuş. Daha sonra ermənilər əsirləri yerə uzadıb ayaqlarının üstünə çıxıb tapdalayırmışlar. Məqsəd onların ayaqlarını sındırmaq imiş. Bu dəhşətli işgəncələr BQXK-nin İsveçrədən olan Serjio adlı nümayəndəsi kameraya gələnədək, yəni mart ayının 1-ə kimi davam edir. Siyafərin bildirdiyinə görə, mart ayının 1-də yuxarıda qeyd etdiyimiz nümayəndə gəlmiş və Azərbaycan əsgərlərinin əsir götürülməsi barədə onlara Azərbaycan tərəfdən müraciət olunmadığını, hadisə barəsində yalnız TRT-1 telekanalından eşidib əsirlərin axtarışına başladıqlarını söyləmişdir. Həmin gün BQXK əsirləri rəsmi qeydiyyata almışdır. Onlar dözülməz şəraitdə saxlandıqları və işgəncələrə məruz qaldıqları barədə nümayəndəyə məlumat vermişlər. Siyafər h/h-də demək olar ki, ac saxlandıqlarını, yalnız ölməmək üçün onlara bir az qırıntı verildiyini bildirir. BQXK-nin nümayəndəsi onların yerlərini dəyişməyə çalışacağını söyləmişdir.

Mart ayının 7-8-i onları yenə də «Niva» markalı maşınla böyük bir binaya gətirmiş və orada kiçik kameraya salmışlar. Kamerada saçı və saqqalı uzun bir nəfər saxlanılırmış. Siyafər əvvəl onun erməni olduğunu zənn etmişdir. Lakin söhbət zamanı həmin şəxsin Şahbuz rayonunun Kükü kəndinin sakini Afiq olduğu məlum olmuşdur. Afiq 1995-ci ilin noyabr ayında qoyun otararkən erməni kəşfiyyatçıları tərəfindən girov götürüldüyünü bildirmişdir. Siyafər Afiqin adını onun Qalib adlı, gizir rütbəli qardaşından əvvəllər eşitdiyini bildirir və qeyd edir ki, qardaşı onu axtarmaq məqsədilə Sədərək bölgəsinə gəlirmiş. Siyafər Afiqin həddindən artıq zəif

bir vəziyyətdə olduğunu, dəhşətli işgəncələrə məruz qaldığının aydın göründüyünü söyləyir.

Əsirlərə verilən işgəncələr burada da ara vermir və hətta daha dəhşətli olurmuş. Afiq zəif olduğu üçün çox vaxt verilən işgəncələrə dözmür, hönkürüb ağlayırmış. O, həm də əlil imiş və əsirlikdən əvvəl qolları sınmış sonra əyri bitmişdi. Siyafər qeyd edir ki, saxlandıqları yer Ermənistan MTN-nin müvəqqəti saxlama təcridxanası idi və orada onları əsasən mülki geyimli şəxslər döyürmüşlər. Beləliklə onlar kamerada 4 nəfər olurlar. Ermənilər onlara tapşırmışlar ki, danışanda səsləri kameradan kənara çıxmamalıdır. Döyülmələr müntəzəm olaraq davam edirmiş. Bir neçə gündən sonra Siyafəri digərlərindən ayırıb təkadamlıq kameraya salırlar və sol ayağından kameranın divarında quraşdırılmış, yığılıb açılan çarpayıya zəncirləyirlər. Gün ərzində bir neçə dəfə kameraya 3-4 nəfər daxil olur, Siyafəri dubinka və telefon şnurundan toxunmuş xüsusi dəyənəklə saatlarla döyür və sorğu-sual edirmişlər. Sualları isə əsasən - orduda vəziyyət, ordu quruculuğu, təlimlərin səviyyəsi, Silahlı Qüvvələrdə əhval-ruhiyyə, milli əhval-ruhiyyə, ölkədəki vəziyyət, əhalinin müharibəyə, ölkədəki vəziyyətə münasibəti, əsgərlərin müddətsiz xidmətə münasibəti və s. ibarət olurmuş. Verilmiş suallara cavab olaraq Siyafər əksəriyyətin könüllü olaraq orduya yazıldığını, güclü zabitlərin olduğunu və yüksək səviyyədə təlimlərin keçirildiyini, əhalinin müharibə şəraiti olduğunu qəbul etdiyini və hər cür əziyyətə dözdüyünü bildirmişdir. Verdiyi cavablara görə, Siyafəri daha çox döyürmüşlər. Dediyinə görə, döyülməkdən qorxmurmuş və sözünü deyirmiş. O, ölümü hər an gözlədiyini və bundan daha ağır bir vəziyyəti təsəvvür etmədiyini söyləyir. Siyafəri həmin kamerada 14 gün saxlamışlar və BQXK-yə bildirəcəyi təqdirdə daha pis vəziyyətə düşəcəyini demişlər. Siyafər onu da qeyd edir ki, həmin kamerada ona verilən işgəncələr o qədər dəhşətli olurmuş ki, işgəncə verməyə gələnlərin əllərində yalnız dubinka olduğunu görəndə sevinirmiş. Xüsusən telefon şnuru ilə döyəndə daha çox ağrı verirmiş. Nəhayət onun saxlandığı kameraya BQXK-nin nümayəndələri gəlmiş və onu divara zəncirlənmiş vəziyyətdə görmüşlər. Onlar Siyafərə təskinlik vermək üçün hər şeyin yaxşı olacağını, yaxın vaxtlarda yəqin ki, vətənə qayıdacaqlarını bildirmişlər. Onlardan biri bu məqsədlə (təskinlik məqsədilə) əlini Siyafərin kürəyinə çəkəndə Siyafər qeyri-ixtiyari olaraq ufuldamışdır. Vəziyyəti başa düşən BQXK-nin nümayəndələri onun köynəyini yuxarı qaldırıb kürəyindəki işgəncə izlərini görmüş və təəssüflə ermənilərin əsirlərlə davranış qaydalarını kobud şəkildə pozduğunu bildirmişlər. Siyafər onlardan yoldaşlarının yanına qaytarılmasına kömək etmələrini xahiş etmiş və həmin günün axşamı onu əvvəlki yerinə qaytarmışlar. Siyafər onu da bildirir ki, saxlandığı kameranı ermənilər 2-3 dəfə dərmanlamışlar. Orada olan nəzarətçilərin və ona işgəncə verənlərin adlarını Siyafər bilmir. Yalnız birini - əslən rus olan Pavliki tanıyır. Pavlik

əsirləri döymür və bu müharibənin ona aidiyyəti olmadığını bildirirmiş. O, Siyafərə Araratdakı davranışına görə belə ağır işgəncələrə məruz qaldığını söyləmişdir. Siyafər belə başa düşür ki, ona Haykazın tapşırığı ilə bu cür işgəncə verirmişlər.

Əsirlər qaytarılana kimi onların sayı 8 nəfər olur. Aprelin əvvəllərində Şahbuz istiqamətində dumana düşüb əsir götürülmüş, əslən Culfa rayonundan olan əsgəri (Adını unudub, Siyafərin bildirdiyinə görə, o xəstəhal imiş), sonra yenə də Naxçıvan istiqamətində əsir götürülmüş əslən Zakataladan olan Əli adlı əsgəri, onlardan sonra Beyləqan istiqamətində əsir götürülmüş əslən Şərur rayonunun Qarabağlar kəndindən olan Allahveridiyev Tahir adlı əsgəri, mayın 1-2-də əslən Tovuz rayonundan olan və həmin istiqamətdə girov götürülmüş İdris adlı ruhi xəstəni də kameraya gətirirlər. Onların hər birinə işgəncələr verirmişlər. İdrisin isə əsasən qıfılla başına vururmuşlar.

Bir neçə gündən sonra BQXK-nin nümayəndələri təkrar gəlmiş, Siyafərə tezliklə evə gedəcəklərini bildirmiş və bu barədə heç kimə məlumat verməməsini tapşırmışlar. Sonra ona doldurmaq üçün anket təqdim etmiş və xaricə getmək arzusunun olub-olmaması barədə soruşmuşlar. Xaricə getmək arzusu olmuş olsa, təmin edəcəklərini bildirmişlər.

Azad olunmalarından bir neçə gün əvvəl onları təkrar sorğu-sual etmişlər. Əvvəlcə kameradan çıxarıb şəkillərini çəkmiş, sonra isə bir-bir 3-cü mərtəbəyə qaldırıb böyük bir otaqda əyləşmiş 27-30 yaşlı, bığsız bir şəxsin yanına gətirmişlər. Həmin şəxs, Azərbaycan dilində niyə salam vermədiyini soruşmuş, Siyafər onun Azərbaycan dilində danışdığını bilmədiyini söyləmişdir. O, Siyafərdən haradan olduğunu, necə əsir düşdüyünü və iki nəfər erməni əsgərin hansı şəraitdə güllələndiyini soruşmuşdur. Siyafər qeyd edir ki, əsir düşdükləri zaman baş vermiş hadisəni yenə də olduğu kimi danışmışdır. Sonra həmin şəxs Siyafərdən xaricə getmək arzusunun olub-olmadığını soruşmuşdur. Siyafər qeyd edir ki, eyni sualla onun özünə müraciət etmiş və həmin şəxs «iş adamı» olduğunu bildirmişdir. Siyafər də öz növbəsində vətənə qayıtmaq istədiyini söyləyib.

Nəhayət mayın 10-da onları Yerevan hava limanına gətirmişlər (8 nəfər). Limanda Siyafər Dağlıq Qarabağdan gətirilmiş digər əsirləri də görmüşdür (adlarını bilmir). Onların sayı bütövlükdə 67 nəfər imiş (MTN-də saxlanmış 8 nəfərlə birlikdə). Dağlıq Qarabağdan gələn əsirlər deyirmişlər ki, onlara dəhşətli işgəncələr vermişlər və evlərin talan olunmasında istifadə etmişlər. Onlardan birinin bildirdiyinə görə, bir binanı bir neçə əsirə 20 dəqiqə ərzində sökdürərək maşına yığdırır və Ermənistana göndərirmişlər. Həmin şəxs qeyd etmişdir ki, birinci dəfə bu cür ağır işi deyilən vaxt ərzində yerinə yetirə bilmədiklərinə görə iki nəfəri əsirlərin gözləri qarşısında güllələmişlər (O, güllələnənlərin adların deməyib). Aeroportdan əsirləri

21

təyyarə ilə Bakıya yola salmışlar. Siyafər və onunla erməni əsirliyində olmuş digərləri Dövlət Komissiyasının səyləri nəticəsində azad edilmişdir.

Qeyd: *Müvafiq söhbət 11 iyul 2002-ci tarixdə çəkilmiş 52 saylı kasetdə öz əksini tapmışdır.*

İşçi qrupunun böyük referenti **E.Səmədov**

21 yanvar 2004-cü il

Girovluqdan azad edilmiş **Əhmədov Vilayət Fidayəddin oğlunun** ifadəsi:



Azərbaycan Respublikası
Milli Təhlükəsizlik Nazirinin
İstintaq təcrid müşahidə, girov-
götürülmüş vətəndaşlarla ola-
qədar Dövlət Komissiyasının
sədri əmək N.R. Abbasova

1960-cı ildə Füzuli rayonunun
Qacar kəndində anadan olmuş,
hazırda Tovuz rayonu Yeni Bəhrə
təpə qəsəbəsi ərazisindəki Fis ça
dır şəhərciyində məskunlaşmış
Əhmədov Vilayət Fidəyə oğlu tərə
findən

Dövlət Komissiyasına
DAXİL OLAN №282/DK
"01" 05 2003-cü il

İ z a h a t

İşbəsti zərərsizləşdirmə üzrə AR CM-nin 296-cı (bilə-
rək yalan xəbərçilik etmə) maddəsi ilə məsuliy-
yət daşıdığım barədə xəbərdar edildim.

Mənə verilən suallara cavab olaraq bildirirəm
ki, Qacar kəndi ermənilər tərəfindən tutulduğu
üçün mən ailəmlə birlikdə Abdülrəhmanlı kəndə
də yerləşən Şərab zavodunda yaşayırdıq. 1993-cü
ilin avqust ayının 18-də ermənilər Abdülrəh-
manlı kəndinə yaxın olan Kürdlər kəndini tut-
duqdan sonra biz kəndi tərk etməyə məcbur
qaldıq. Mən, həyat yoldaşım Əhmədova Zərifə xan
Qulu qızı 1957-ci il təvəllüdlü, uşaqlarım Həyat
1980-ci il, Elçin 1984-cü il, Zülfiyyə 1985-ci il

İşləmib

Fidayi 1986-cı il, işlədiyim „Belarus" traktorunu minib kənddən çıxarkən 50-60 nəfər erməni quraqlısına rast gəldik. Onlar bizi atəşə tutdular. Mən qolumdan və ayağımdan yaralandıqdan sonra traktorun sürücüsünü bilmədiyim üçün saxladım, bizi isə götürdülər. Bizi BTR zirehli maşını ilə Kürdlər kəndinə gətirdilər. Orada müddət Sətəroğlu
üst ərazidə olduqdan sonra məndən ailəmi və Sərxan Ərəb
adlı kürdlər kəndi sakinini, 60 yaşlarında ZIL (31) markalı maşınla yeğərəq Hadrut rayonunun Edilli kəndinə gətirdilər. Orada idarə qarşısına yığdılar. Biz 20 gün orada ac susuz qaldıqdan sonra (günəş bir parça quru çörək verirdilər) 20 metr yaxınlıqda yerləşən istirahətsiz tibb məntəqəsinə apardılar. Orada bizdən başqa 30-a yaxın azərbaycanlı əsirlər var idi.

1. Sərxan Sətəroğlu - öldü
2. Nabat - Novruzova - öldü
3. Firəngiz - İsmayılova - öldü
4. Qədir - Məmmədov - qaçıb
5. Cümşud - İbişov - öldü
6. Yaqub - Tağıyev - qaçıb
7. Fərman - öldü
8. Öz ailəsi (6 nəfər)
9. Rəşid Ağayev - qaçıb

Hamısı Füzuli rayon sakinləridir.
Və digərlərinin adları xatirimdə deyil.

10. Vəlixan Əliyevlər
11. Talıb Vəlixan oğlu
12. Ziyadxan Seyidəhməd Əliyev - qaçıb
13. Şəmşir Şəmşi Rəhim - qaçıb
14. Yusif hakim Şəfiyev - qaçıb
15. Cahangir Qəhrəmanov - 783

Yaralanmışam

// Orada olduğumuz dözdə Fərman adlı şəxs ruhi xəstə idi, öz bədənini şpritlə su vurmuş və intihar etmişdir. Belə ki ermənilər kəndə daxil olanda gəlib bizi əlbəyaxa keçmək məqsədi-

lik predmetlərlə (çubuq, armatur, laysetka şəpə və s.) müharibə döyürdülər. Bu minvalla biz 4 ay orada qaldıq. 1993-cü ilin gərginliyinin 31-i bizi Xankəndindən uşaq xəstəxanasında yerləşdirdilər. 1 ay orada qaldıqdan sonra 3 saylı uşaq bağçasında qaldıq. Orada əsasən qadınlar saxlanılırdı. Onlardan Kəlbəcərdən Əməyə, Arzu, İmarət, Tamara, Qalə adlı üç gəlin Qubadlı rayonundan, digərlərinin adlarını bilmirəm, təxminən 60 nəfərə yaxın adam var idi. 1994-cü ilin iyun ayında Abo bəyin Albert Vaskanyan nəvəsi, Tamara, Əfəliyənd və Mustafanın bəzilərini bilirəm. Füzuli rayonunun Dərəkəndinin dəyişməsi ilə bizi geri qaytardılar. Dəyişmə baş tutmadığı üçün bizi yenidən Xankəndinə gətirdilər. Gecə olduğundan bizi Xankəndi Hərbi Məktəbinin qarşısında saxladılar. Həm orada Əsgəri, Rafiqi, Müşfiqi, həmçinin koridorunda bir dəyirmançının şahidi olduqum. Əlimizdə olan armatur və taxta parçası ilə avtomatın gurultüsü ilə 2-3 saat ərzində xəfiyyələrə döyüldük. Səhəri gün bir nəfərə yaxın uşaq bağçasına gətirdilər. Orada olan erməni əsgərlərdən Surik - 28-30 yaşlarında, ortaboylu, qara saqqallı, Andranik - 23 yaşında, hündür, sarışın, polis formasında, orada bizi xilas etməsə işgəncələr verirdilər. Əlimizə keçən predmetlərlə döyürdülər. Onlar Kəlbəcər rayonundan olan 22-23 yaşlarında Əliyeva Cəmalə adlı gəlini çox döyürdülər. Onu özləri ilə aparıb zülmə məruz qoydular. Lakin qadınlar

yoxlanılsın

nəmiz bunu inkar edə bilərdi. Biz orada olduğumuz dəqiqələ Firəngiz və Nabat adlı gəlinlər sərgidən pişiyimizi xəstəliyə tutularaq öldülər. Mənim ayağımdan aldığım yara sağalmaq bilmirdi. Həyat yoldaşım bəşəri işləyən tibb bacısına və bəxtəvər müdiri Lidiya yalvararaq, BQXK-dən aldığımız yardımları onlara verərək mənim tərlikli Azərbaycana verilməyimi xahiş edirdi.

1994-cü ilin aqust ayının 28-də A. Vaskanyan mənə, Tamaraya, Oksanaya, Zhanetə və dördüncü adları bilmədiyim adamları Ağdamın Qərbində məndən götürərək 2 erməni ilə dəyişdirdilər.

1994-cü ilin sentyabr ayının 15-də Dəstə komissiyasının vasitəsi ilə ailə üzvlərimlə də azad edildim.

Yaza bilmədiyim üçün izahat məndən sözlərimlə yazıldı, oxudum, doğruluğunu imzamla təsdiq edirəm.

V. Zhanetov

Əsirlikdən azad edilmiş **Hüseynov Cavid Ağa oğlunun** ifadəsi:



150

Азербайджан Республикасы
Əsir və itkin düşmüş hərbçilərin axtarılması üzrə Dövlət Komissiyasının
1975-ci il təvəllüdlü, Bərdə rayonunun Alıa qəsəbəsində anadan olmuş, kəlmə bizbu əsir, 1-ci qrup əlil, Yeni rayon, A. Əhmədi küçəsi, ev № 57 vətəndaşı Rəşadət Yusif oğlu Hüseynov tərəfindən

№ 425/DK
29.06.01

İzahat

Mən bərəyi düşməyə yaxalı olduğum bildirmişəm ki, 1994-cü ilin fevral ayının 6-da Ağdam rayonunun Xıdırlı kəndi yaxınlığında hərbi əməliyyat zamanı əsir götürülmüşəm və 1995-ci ilin may ayının 8-də digər hərbçilərlə birlikdə azad edilmişəm. Hərbiçi əsirlərdə ölkə ət (USOR) (Stenoqrafçı) Xankəndi şəhərində Nərimanov rayonunda, Beşi ət Şuşa küçəsində, Səməd Vurğun rayonunda Mədəniyyət evində və Gəncədə Şuşa küçəsində olmuşam. Hərbiçi əsirlərə qarşı ən ağır şəkildə bütün hərbiçi əsirlərə qarşı ən ağır işkəncələr və təhqirlərə məruz qalmışam. Bir qayı müxtəlif bölmələrdə müxtəlif əməliyyatlar, Bəzi işkəncələrin bəzi qayı üzərində qısası avtomatın qundağı

нах вуруб гирдилар, чуруш в башмачье нарт-лайдилар. Сопра ибз 6 дуз гилза ришиан тахеб гихартдилар. Ани вишечбаш дорфуди сопра шунцаш ибердим, афлатда корду ки, тошкин архибата бальабоб сурибурар. Хакимдиш сан-дацдилар вахт ичин гилзу в габаргалариаш сандердилар. Ишчи автожир гидрогоб гилза басдилар, ротовым чурин кислота токубурар. Барабашаш балба нах вуруб гирибар, курбиш бур ацдилчиш устури дасс абыб, сопра ибз квала нах вурдилар. Шуша турибсидз оаси залаи ичи качиш Шуша турибсиш сраши рибчиш ацдари устуш ацдердилар. Ораца в-вазъ ичи турбаи кбаже ибтирдилар. Сопра фирязиди дашовоб башмака дзапрь вуруб рардилар. Сыргарбидаи ибыб адыш оалаца-ичи гарда бабдердилар, арагларыш в зазри-ан шахта тапалиш дандурацидз. 1885-ти ишш ацарь арбиш 21-дз (новруз байрам кунц) тиразиш рис ацдавиш Гарик адыш сраши дивара бальарарар дебтика ибз дорафз башлади в вуруб кодуди бирши сырадаи гихартды. Ишлаш бирициз оаси Балаиси рафициди

Ҳарамхона одами ишдан кейин ҳамма бошқалар ҳам тарқалиб кетишгач, Ғайбулла раҳбатидаги бешовлон ҳамма ёқни бошдан-оёқ текширишди. Ғайбулла-ю Зокирлар, Ҳамидулла-ю Ариф ҳар-ҳар ерларни кўздан кечиришди. Ғайбуллалар ёнларига чироқларини олиб текширишди. Бир ерда қорни унча ҳам кўп эмас, ерларини янги ағдарилган ағдармага ўхшатиб қазишди. Ҳар ерда қорни ўнлаб кўндаланг кесиб, ерларини янги ағдарилган ағдармага ўхшатиб қазишди. Ҳеч нарсага ҳеч ҳам ҳеч нарсага ўхшамаган ғалати ишларни қилишди. Ҳаммалари ҳам ҳеч ҳам ҳеч нарсага ўхшамаган

Girovluqdan azad edilmiş **Hüseynov İlqar Qardaşxan oğlunun** ifadəsi:



Azərbaycan Respublikasının
Milli Təhlükəsizlik nazirliyi
Əsir və itkin düşmüş kiçik
Kəturqunun vətəndaşlarla əlaqələr
dövlət komissiyasının sədri
general-mayor N. Abbasova

I

Ş. Səfərov

İzahat verən şəxsin soyadı, adı və atasının adı (əgər varsa) təhsili, ailə vəziyyəti, iş yeri və vəzifəsi, yaşayış ünvanı, şəxsiyyəti təsdiq edən sənədin növü, seriyası və nömrəsi, kim tərəfindən və nə vaxt verilməsi göstərilməklə

23.11.02 Səfərov

Dövlət Komissiyasına
DAXİL OLAN № 516/02
25 " VI 2022-ci

İzahat

Mən 01.06.1958-ci il Xocavənd rayonunun Qaradağlı kəndində anadan olmuşam hazırda Səbail r/n Nemətzadə 17 ünvanında yaşayıram Yusifov Ingar Qardaşxan oğlu tərəfindən

İzahat verilməsi mənə ƏR Cinayət Məcəlləsinin 298-ci maddəsi ilə nəzərdə tutulmuş cinayət əməlinin baş verdiyi barədə xəbərdar edilmişəm

Mən Xocavənd rayonunun Qaradağlı kəndini sakinləşdirmə işinə başlıq Qarabağda ermənilərin törətdiyi cinayətləri məndən olmuşam

1990-cı ilin noyabr ayında 9-da bölgədən mebeli aparma 2 azərbaycanlı bizim kəndə atılıb bebeli saatdan sonra onlar iyirmi gündən artıq müddətdə onlarla birlikdə Yusifov Xəzəmiyyə Ağdam r/n ləğv olub 6-cı kəndin sakinləri onlarla birlikdə Abdallar stansiyasında yaşayıblar sonra stansiyanın xalq - məişət büruğa bunları təhvil aldıqdan kənd təsərrüfatı sədri Anjoma (1987-93) olmuşla birlikdə Martuni rayonunun rəhbəri Artur və bəzi adamlar edilib. 1991-ci ilin yanvarının 9-da

2 Мэжим биби оғлу Бәйрамов Султанси Ағдондағы
кэнд иедэрiэт кулпэзiвэр бүлгари шiраkсиси
Шаһмурад адаи ерэмэ һэкiкэ ода Мишкабат
кэдiнiи калтоз содири иди о да һэми надiстi
Тэкiпатгiсодур. 1991-ии илии ијун ајынын
27 дэ ермэлэр јеш бир һадиса төрәдiлэр.
фермада б-нәфәри јаиаб бир отогда јандирдылар
Шiрiков Илтифат, Шiрiкова Гөнаид, Тогијев
Бәсир. Мэмдова Тәһид, Ахундова, Мәһмур
Јусејнова Сәбига бу надисәдә төрәдэ ....
Кэдiнiи калтоз содири төрәдiлэ төрәдiлмiшдiр
1991-ии илии 8 сентјаб. Ағдам гәрадағлы марш-
туну јолда јарылмышдыр орадаја Јусејнова Тәһәр.
Јусејнова Гәнiрэ, Јусејнова Гүлүјева Кулдуз),
Гүлүјева назлы, Јусејнова Јаша, (гәни 13 нәфәр.)
бүлгарыда әсас тәкмiлчiси ~~әсас~~ ~~оғлу~~ Кәнiи
кэдiнiз анадан олмуш Роберт Кочарјан
(Јени-Һајдуд ермэнiстан Президенти) о бәһтәр
о марш рајонуна дашнағсүн партјасына
рәһбәрлiк едирди.
1992-ии илии февралын ајынын 15 сәһәр саат 6-да
бизим кэнд һүгуна кечдiлэр бу орада 118-
нәфәр идмс олуб 11-гадын гоншулары иле хејли
иди дөјүш башлады дүздүр бизим тәрәфдән
јох иди онлар бизә онлара гаршы вурмурдулар.
1 сутка бу онларла дөјүшдүк онда биздэ
8-нәфәр олдүрдүлэр Зејнал Мобил, Јусејнов эмиш
Рустәмова Зивәр, Бәйрамов Тәһид, Јусејнов Нәби
Нәсимова Алтај, Јусејнов Хоһаш, Фәрзалов Ағамәр.
онларын ичиндән бағлајараг бу јеш дөјмүрдүк.

3 Биз онлары вурубюлтдук гонфрдан ойун 125
16-кы јил дејил бомбадыл. онлар техника
ил нүгүма кечдилер биз ортаг тобюлтүрэ
биларди онлар эсас нөјөмнилэ шитүрэн
едүрди онлара бамгөлеч едэ Манвел адлы
дыга иди онларын чөјилэри гара иди
јеравандан газлылэри формасы ала иди
јерли ермилэрилэ иеч хебе иди. ојун 12-
саат 3-дэ ортаг сынаглы гүртарды ичин бипи
ајдын дөјүндүрдүлэ она ғөр онларданда өлэ
гох. ид ермилэ бири-бирини дедилэрки,
бизди чө-идэр өлүб/ сонра 92-кы ғөйа
хонкэди истиғанлэ онлардылар бејик бамгы
тайында 32-нөмрэлэ орада ғүлүјүб вэ бамы-
ғы ичиб купоклара јығылардылар Онлардан
Мамедов эрэстун, Гулујев Нәби, Нағыјев, Телман, Јусифов
Шаһмурад, Мустафајев Гәриб, Мэһи Гәнијев, Велијев
Мобил, Аббасов, Сәлбэр, Гулујев Нүрэли, Элијев Зәһра
Эзизов Анов, Эзизов Атэш, Элијев.. Долханов
Гәнијев, Јусејнов Нәби, Јусиф ... Дадашов Елдар
Дадашов. - Бајрамов. -- Элијев. Дадашов Јусејнов
Әзиз, Јусејнов Фәрһад, вэ бамгөлэр, онлары
аманласын гәтиј дејилэр сонра јердэ галан
јемэк бамгылара долдуруб хонкэди истиғанла-
дован едилэр 3 ичи. гайытдыгы нисбэтэ
пинчи дејилэ истәдэ Бајрамов Елнуфун
Машындан дүшүрдү Топуга ит вурдулар
Нәмин истидэ фәјан чыг истэ савет сәдүрү
Нәмин ерлэ ермэни иди. Хәлисв Зәһидэ
Нәмин верди 1/ки арамда вурдулар.

сонгра бизи вен ханкэди истиқлэл аморуи
бизи Малобэлинои јонида шаһидан дүшуб
сорэја дэздур сонгра бизи учини дејиш
мэктэб отарыб погриб дондуб сонгра еүју
дэз гэдэр бүрэјола бэ орада гонгрэш
јен Жүсејлов эбилдэ, Дадашов адэ Мэһэ
Вејчев Физули
эмјев Вэли, Ахундов адэ јаш гиб отарыб
гитардоб һара апардылар бирмэдик кеч
бу кэнд гэдэр дэ бир хэбэр јохдур
сонгра јэ бизи гоһ пие һала еапардылар
бу кэндэ һеч надиләр тэбэрлэјэјдэ
дэн онурам эсае бизи офада еэтлэјэн
нөјомчүләр идиләр эн гоһуда ермәнәдан
сүрүдән кэтирдиләр бизе орада 7 кэнд
гонандан сонгра бизи апардылар Турмэ
пончоп бу надиләрдэ ханкэдинэ 3 мүр-
тэбэ турмэ хикмэтдэр орада бизэ нөзөрэт
едэн нөзөрләр идиб отарыб бир бизим
гочу ишдэн иди оны адэ Артур иди
дөјүшдэ гэлхэ сүнүк иди О ишдэн
шаша эн бүјүк өшдэ башлар едэн ермэни
иди. биз орада 38-кэн гондэ биз орадаја
гоһ эзүјэт верирдиләр э сүтүсада 50 грам арпа
горүч верирдиләр еү в нөгтэ 300 грам.
бизим ишдэ орада ачындан еүсүнди
отүрдэ одду

5 Општина Лучани Шура, Гутић Властимир 123
Назаров Шура, Лучанов Имран, Вељић
Фазил, Тогић Хамид, Ширић Бојанкин
сопра буи дјшћитер горњој општи
тћам ито бу дјшћитер Гутић Пафиг
Дохановић Мехмед, Лучанов Фирудун
Казимов Казим Гутић Хамза о Агдана
тотанда рћнћић кећи авицам.
Бах ажним хировопуда олам кордустурит
ат бућар опуб.

Изјаснила буте података из пријавног листа
Елиза / / Лучанова С.

22/XI-02

Əsirlikdən azad edilmiş **Abdullayev Rövşən Əbdülrəhman oğlunun** ifadəsi:



32

Azərbaycan Respublikası Milli Təhlükəsizlik nazirliyi, Şəhər və əraziyə xidmət, Kiçik Kontrrazvedka Əməliyyat Departamentinin rəisi polkovnik-leytenant N.P. Abbasova

14 Oktyabr 1973-cü ildə Əlibayramlı şəhərində anadan olmuşam hazırda hazırda Əlibayramlı şəhəri Vidadi küçəsi ev 20 də yaşayıram Abdullayev Rövşən Abdülrəhman oğlu tərəfindən

Dövlət Komissiyasına
DAXİL OLAN №220/ok
„09" 04 2023 i.

İzahat

İzahatıma bərpkən mən N.P.Ü.M-nin 296 saylı müəssisə məhkumiyyət zamanında bərdə əsəbərdar edildim. 2 1992 ilin martın 9-da Əlibayramlı şəhəri hərbi komissarlığın tərəfindən hərbi xidmətə çağırılmışam və doxsan nəfər hazırlıqdan 36-45 saylı hərbi hissəsində xidmətə başlamışam Avqust ayının 25 də mən Ağdam bölgəsində 701 saylı hərbi hissəyə göndərdilər. 1993 cü ilin iyun 16 sında. Ağdam rayonu uğrunda gedən döyüşlərə əsir düşdük Gupşe (Qaşqırdan) Bağanis (Salyan), Murəzi Xaçmazdan Qərib (Şəki) Talış (Kəngərli) əsir düşdüyümüz ərazi bizi döyüşlər müddəti ərzində pis şəraitdə bəylədilər və şuşa şəhərinin sanatoriyada yerləşən hərbi hissəyə aparıldılar orada bizi sorğu sual edilər və döyüşlər

Палкун командири Вагагон адлы ермэни обизи шэхсэн ози муптэзи дэшэтли шэкилдэ доуур тэгиредиб во ришкэнгэлэр верирди бизи бой суун ичиндэ сохла-доглор Вагагон узун гара ара гора боглы иди. орда бизи энгох дорэн Гаф иди обизэ ашогдокой ришкэнгэлэри верди. ~~бизи~~ бизи сорундурурду суун ичиндэ чиен эт аргонгэлэзи тэпиля вурду бизи зубиткора. вирди раузр узун бору ара гарион луки кулидэ алурду. Арам. Вагагн гонулу обизи сора дузур демэк олорки нэркуи зубиткора вирди элиэи тэпикэ доуур бизим узэримизэ машг едирди бизи садлорла зоь усть сохлор-рду. (~~балаь бой~~) Арам 1,50 - 1,60 сонтметир боуунда ара гара сачлы иди нэда бизи Шука адлы ермэни командирин 13,14. Гашлы Мороуда (доуурду) муптэзи доуурду бизи вирмоч учун ошуи бой чатлодоглидан дашын вэ дикэр бир нуфур лерэ чэхэрдир бизи доувурурдуиэр.

Нэрби нисэдэи бизэи башга (6 нафэрдэи) дикэр озэрбэчэнлы нэрби деирлэрдэ сохлонурду биз чэми 14 нафэр идик.

1 Карим обузбан - Kazimov - gay
2 Гачаи кэнъэ - Süleymanov - gay
3 Эуис шэкир - Ismayilov - gay
4 Осмон нардан олдугуш биллирэи) — ? Tahirov d(Qax)
5 Гоуши хачлоз - Əzizov - gay
6 Фикрэт физули — Əliyev · gay
7 Вугор талыш — Məmmədov - gay - Astara r.
8 Вэхдиэар Бока — ? gay. siy bis nede Bəxt. var.
9 Вэлиээ сэлэи — Məmmədov - gay

10 Ингор Ибодуллин - Rüstəmov - gay
11 Мурсал Кадыров — Фёдоров - gay
12 Дорис Бизли - Мисаулей - gay

Дикер 2 нафари ва Јухорда адлорини чакдиким
шахсларин сој адлорини хотирлолирам
ермишлар озлари бизи докизлиз бирбир
бизи бир-биримизи дөмирдә мәчбур едирдилер
усулсуз тәлим корлуғи итлер гиғирдар
итлер бизи дишлиб олгона. бүлөрдүлөр
каро адлы ермиш мени дөјүр агыр ришт-
кәнәлер вердир. бирдәфә О. дејәндә мени
дөјүб топуғуна Јохлы мәсәфәни чыхыш
вур ухардан ашағы атды агыр кирпи
кирпи чыхмады кириб ера душду. коро кок сорг
көкөз адам иди 1,60 - 1,70 см һундурлуғунда
адарды коро ва Јухарда адларини чакдыгым
мәнз ва дикер озер бөчөкләрә шикәнә
верән ермишлер давлыг гаробағы сакин-
лери иди тапуғуна мени Јарадыдығдан
сонра мени малыг етишдирмәр ва нәзә
рәуф мени дана чох дөмәр басмадә
бутун бу шикәнәлери бирабир бизи
нәрби нисәнин нәзәтиндә ва дикер
әрзиларда мүхтәлиф агыр ишләрдә
ишләдирдилер дини дашлар кучәлери
сапурдурдулер Јер Јалуну тәмизләдирдилер
ва е.ғ.б. бизи шуша шәһәрдә ермишлер
Азәр бөчөкләрә мәхсус гәбир сопмаја сокун-
мәсиндә шикәнәләр. гәбирсопмаја
дамғ адарды сокуб догрәдмаја мәчбур
дашлары машынлара Јүкләдиб апарар
Ишдән сонра ДГХК бизи нәрби нисәдә

S. Vəliyev
N. Nəzərova
tərcümə edib
Сувеле
06.04.03

топыб гудиота олдо ерлэшилэр бизи
олордан кизлэдирдилэр. 1996-чы илдэ март
айынын 16 сында бизи шуша нэрби нисбэтиндэ
нашылыгда шуша нэгиб хонасына апардылар
Апрелин бирдэ нэгиб хонада олан назарэтчилэр
бизи камирода сойуб 1 нефэсолют бизи дэфэлэк
шикэлэ вердилэр бизлэр дэлэ 30-40 нэфэр
Озэрбайчанын сохфонарлэр адларын хатырламаларын
шушов сохлоидыглэ лидэрдэ биз шиддэтли дэруб
нэгиб хонокой нэтижэ шикэлдирдилэр.
нэгиб хонода озгалыглы учун бизэ шикэлэ верэн
ерлэшилэрин адларыны вэ эламэтларини
хатырлайа билмирэм. 1996 ынчы илин марта
9-да бизи шуша нэгиб хонасындан БГХК-нын
машынларына дагыб гервок ичэрисиндэ 1 нэфэр
несаб ерлэшдирдилэр тэхминэн 67 нэфэр
идик кечэ нэрби нисбэтин эскэрлэр вэ
забитлэри бизи бир-бир, ики-ики
чэкэрэк сорушмага дэвам едирдилэр. сонракы
1996 ынчы илин мартын 10-да гервок аэрапорт-
тундан 67 нэфэри тэрэфэ минэрэк Бакы
да кэтирдилэр вэ довлэт комиссиясынын
комиссиясынын эсирликдэн озад едилдик.
Изаланын озуну дозэлэ догрултмуну имзалаа
тэклиф едирэм.

Имза: Абдулоев Рэшид Абдулрэшид оглу

2 Апрел 2003-чү-ил

Əsirlikdən azad edilmiş **Kərimov Ərəstun Həsən oğlunun** ifadəsi:



Азәрбајҹан Республикасы
Милли тәһлүкәсиз назирлији
Әсир вә иткин дүшмүш кишиләр
көчүрүлмүш вәтәндашларла
әлагәдар Дөвләт Комиссијасынын
әлагәдар сәдри чәнаб А.Ә.Аббасов
1991-ҹи- илдә Шәки р/ны Баш кәнҹлик
кәндә ~~јашајан~~ олдуғу, һазырда
Бинәгәди р/ны 6-ҹы микрорајон
мүвәггәти јашајан
Керимов Ərəstun Həsən оғлу
тәрәфиндән Тел. 69.85.89

Dövlət Komissiyasına
DAXİL OLAN № 182/pk
25. 03 2003-ҹү

Ариза

Азәрбајҹан Республикасынын А.Ә.Ч.М.-нин 296-ҹы (било билә) маддәси илә мәсулиҝәт дашыдығым барәдә хәбәрдар едилдим.

Мән Керимов Ərəstun Həsən оғлу 1992-ҹи илдә (тарих вә ај дәгигләшдирилмәлидир) гоһум Мурадов Сөһраб Әмир оғлу илә бирликдә Азәрбајҹанын мүдафиәси үчүн көнүллү олараг Шәки р/ны һәрби комиссарлығына мүраҹиәт етдим (1989-1991-ҹи илдә Приморский вилајәти, Олгинский р/ны һәрби хидмәтдә олмушам) сонра мән вә Сөһраб бакыја көчдүкдән сонра Сөһрабын ағсаггал тәхминән 25-30 нәфәрлә бирликдә Кәнчә шәһәриндә јерләшән 732 S-ли һәрби һиссәјә көчдүкләри сонра 4-5 һәфтә ичиндә олмасына бизи Шәмкирдә јерләшән тәлим дәстәсинә

(давоми) операциялар. 1-ой оилада муҳтожлар
таълимлар кенгайди сокра Наманган Аъдорё
районуни колдирган кенгайда ўғилларни мевага
операциялар бир ойга қадар биз ермакларга
ўтказдик ўзини ерини 50-60 гектарга қадар
ҳарбири мевалари кўрдим мевалари
Азербайжанга ва ермани олдигини биларим
взвод командири Шайбазов Ваҳи (праприщик)
мени ва оиларини эътиборлашдиларим икки
гектари кенгаймаган мевали ер (табиати
ермакларни олиб олишмаганини билмаи учун)
Аъдорё районуни сўрганда ҳаммаларидаги
дала ўғру кўрдилишлар биз оилада
орга-орги истиғомаларга ўрнашдик
мен оилам мушкилда ерда вахта даги
бошлиқа 8-гектар киши-2 гектар гадан ✓
ермани ҳарбиларини кўрдим мен кўри
гувоҳлаб бу малумотни взвод командири
Шайбазов Ваҳига ўдим. Оилада
ермани ола билмаз ўғлак кавасини ўлимим
мен ҳамин икки гектарга бирликда ўекидан
орга-орги истиғомаларда этрофи мушкилда
етмаз кўндарди. мен мушкилда замонан
уч ҳарбиги мейдон кўрдим оилагани биринчи
бошлиқ ўқ иди дигари иш гапини ўтказдик
иди (Азербайжанга ва ермани олдиларини
ўрганишларга биларим мен мейдондан
ораланишдан сокра дала ўуксалишларга
сапкарган ҳамон ермалаш ели шалаш
тутдилар атеш очмага имконим олмади.
оилам мени тутоп ҳимоя-ўумуғ
ва ағакам ўлмаз бошладилар

Ж.А

катикдаф бурғули сапфи ёзуи иш
там олмиқчи воситаси ўшидум мани
горак машинани ишдиниб хон қатидаф
ўрлаши 3-4 мартабали пастқанаға апардилар.
мани ёрдамиға сакиб ретиди мани ёрдаки
ишбошилари (садинга биллиридам тапик-тушуруғ
ва ретиш ўрлашқа ёрдам берди) бошлаётилар
катикдаф мен 15-кун қорғи габлиратини
итиридим. 13-куи мен ўғлак су ёрлидим
бетонди устидаф сахлаётилар 13-кун ак суғуз
қалдиғдан сонра мен бир тика қорак (чурумуш
ва бир гуруғча су ёрдилар 15 кундан сонра
мекин ул қозиндаки шиплар азалдиғдан
сонра бир ад қорғи бошлатдим
16-куи камарада қалдиғдан сонра мени
пастқанага ёзилишиға чақиридилар. ораданда
ёрдимлак адиёни мени пастқанадан чақириб
тахминан 100 метр апардиғдан сонра ишбоши
писоғ дахли тахтадан насара олинмиш
бир ёрға апардилар мен ораға тахта
ганиқи апаргра ёрдами олдуғуну қорғум.
мени ёрдан ишбошиси (садинга биллирам)
мени тапикла ёрғу. мен 7-8 метр ёрғида
олан ёрдамиға ёқилдим. ёрдамиға 15-20
нафара ёрғи мулар ва ишбоши қорғили
мечидлар қорғум бўлган бошқа ёрдамини
табаниндан асфальтни тахминан 25-27 ғасқи
ишбоши мечити қорғум (мен оларға
тапилмадим бир кундан сонра мени ёрдам-
мидан чақардилар.) Уч марказ машина
минидириб қорғис тилисиб апарилиб камарага
салдилар машинда мен Назаров Акбарни (Бойқи)

Микчаке Кир шаҳридан олти ҳарбийки
Hamidov — дот
илтамы (атасининг адини бо соҳасини биламиздм)
Во адины бо ҳаккы расондан олдуздуну умутдуздум
18-20 ёшли ҳарбийки керди. Буни камерада
салдыгда орада ашадыда адлари какилдилари
керди.

дауд 1) Ҳайдаров али (бузовка ҳобби, 20.22 ёшли, ҳарбийки)
2) Вафадар (сафди во атасини адини биламиздм,
Самаркант шаҳри, 19.21 ёшларда ҳарбийки)
фуз 3) Ҳазим (Сало кулан адиламки сафди Ибраким-
-ович, Шуша шаҳридан, 55-60 ёшлы, мулки)
Вафадар сол арадыдан кулда ранги алмиш-
ди. она ҳеч бир тиббий ранди кесдидил-
мадилари Вафадар бизим кезимиздаги гапдалыда
камерада олди. Онди медики лаз Во
али (бузовка) лимис идарасидан аржадида
олди 6 кв-метрлик дамир бармалыклардан
дизалмиш ёрга гойди. 5-6 кундан сонра
сеҳ адли ермаки (балаға бойлу, сарғайды, кезлари
кеч ранги, ары, 42-43 ёшларида) камераға
кирди ва элини апарди Вафадарни
медики гара кулдонага (салафана) бурдимидир
биз Вафадарни медики уз машина гойдидан
сонра денидан камераға гайтди 2-3 кундан
сонра ҳамин сеҳ бизга ади ки Вафадарни
медики дизилмиш истидиздан сизилмилар
разы олмадилари Вафадарни медицини
алди етиб (ёрики билдирмади) тахминан
40-кун корис мидида галдидан сонра
ҳалиды уз маҳалы машина мидириб
аралат р/н-ди лимис идарасида апарды
камераға салдилар. 6-7 кун кечидан сонра

Тах Р)и нач. әнбәрчәј кәҗиндәи һәрбики Хәлмәи Шөвкәт оғлуну (соғадыны биллирәм) бизим камераға кәтирдилар. Әрарат милисиндә бизи иззәрәткә ишләри ачыг, һүкүрбоғлу, гәшларыны галын 25-26 јашлы пурик адлы ермәни тәпик-јумруғ әлиә душан күт әләтләр-ләдөјүрдү. Биз камерада бетонун дөшәмәнин үстүндә гатыдаг камера һәдиндә ачыг сојуғда јатырдыг. Бир дәфә бизә бир аз гуру көрәк вә сорабаны сујуну верирдилар. Бир нечә күн кечдикдән сонра Әлирза Зәкәр (сарыјаныз, орта боғлу, долу тәхминән 40 јашларында) адлы ермәни Назим (Шуша) истисна олмагла һамыны әрарат рајонуна ҝөндәрмәји Фәрдәшәнлән евинә апарды. (Адәти ушагмуғамы Зәкәр бизә дејирдики сизи Азәрбајчанлыларда әсир олан гардашым илә дәјишәҹәм.

Зәкәр бизәт кимин әмәлиндә пулу вә ҝөј вәзифәдә ишләдијини сорушдуғда Назаров Акимин дәрәсиндән (адыны биллирәм) Рәхмәли ишләр нәзарәтиндә ишләдијини биләрәм. 10-ҹу күндән сонра Зәкәр бизи ҝәҗәдән әрарат Р)и милисинә кәтирди. Акимини исә әсир олан гардашынын евинә сөјләдиләр. (Һәмин евдә сахлады) 1992-ҹи илин Мајут ајында мәнә Хәлмәни (Тәх ј/о) низамини (соғадыны биллирәм) Јеревандакы тәдрис тәшкилатында өјрәнмәјә. Орада тәхминән 38-ҹи нәфәрә ҝөрә әсир вә кәшов вар идә. Онлардан ајрыдыгда адлары фамилијаларыны јазмајыбдыр.

дау 1) Аминг Ёйваз Жалбакар р/и 55–60 ёшида
содасини отасининг ерини биллирам
дау 2) Илёс Mustafayev Ляудилим 55-60 ёшида содасини отасининг
ерини биллирам Жалбакар р/и
дау 3) Ислом Mamadov (содаси отасиниг ерини биллирам ёши 75–80
ч Жалбакар Jumadov? (дау)
Алан Бердиев (содаси отасиниг ерини биллирам
ёши 70–75 Жалбакар мулки
дау 5 Чавлиншир Sachyev Чоранбой р/и ёши 20-23 содаси
отасиниг ерини биллирам нарбики
дау 6 Рафаил Szilov Сумгасит шаҳри ёши 30-32 содасини
отасиниг ерини биллирам мулки
дау 7 Канка шаҳри Натиг Jumadov нарбичи содасини отасиниг
ерини биллирам ёши 20–23
дау 8 Шагаев Бахтиёр закатала р/и ёши 20-21
нарбики

Ҳеровар ёшлар турмасида назоратчи ишлаган
йўллар Канка шаҳрида ёшаганлиги (ёлғу
орта бўлу ёши 28-30) Сапвел Натиго (Канка
шаҳри) ёдиб ки Ишидов олан ўзаро
турмада гохлу ёши сохлан~~ганлиги~~ олиш Натиг
сапвелин бу сўзлари кировларни ёпанда
ёдиб. (Натиго Сапвел йўллар ёшларда гонгу
олублар)
Гузакатга олиб олаётган биллирилган ЭЛМ (Бузовна
ёшаси) ва Ильяс (Минкасевич шаҳри) ёшлилар
адашган корус милисидан отлиллиларлар
Жан Карилов Эрастун Ёсан оглу 1992-йил-и
октябрни 13-да Азёрр р/и сарсавоз ёшида
эсир фуллиндим. 1993-йил июн ойни 13-да
Кыргызстан республикасиниг Думанини р) тукун
ёшида (содаси ёатиллиларам) Едуард (Сафин)

одли ерлари ила ёзишмишлар. (32-55 йиллар
мулку) элаво олорак билдирирлики ёзишмо
вахты Едуардни Ата ва Анасы (ёзларини
билмирам) мани ила Гардашым Расулов Гусейн
Наби оглу, Керимов Вагиф Закир оглу
Сатамын амиси оглу ва Халам Адилэли
кызы Ёлдашы Адлан шикаят етмишлар
Иззатлы ёзум ёзум, ёзгулугуну
истэмэ тэлэб едирэм

Имз Ж. Э. Керимов

11. 03. 2003

Иззатлыма элаво олорак билдирирлики
мэн кэнарымдан шэкиллэрдэн 44-ни
варэда олан Сартиган Славик Ефремовикя
тэкидлэ о хан кэнди турмэкдэ
мэни ва эмлэрини, намысыны рэзил ёзэнлэри
Автоматын, гундагы кимк ёгурду. Славик бэзи ваги
кими ёзмэри ила баше иззетлэрдэ фэрг
элирдик. Славик мэни ёлдюрмэк 15-кэн кэрла
габилиэтини итирдим.

11. 03. 2003

Yazılı olan işçi qiymətini bəyənir

У. Керимов

11.03.2003

Əsirlikdən azad edilmiş **Məhərrəmov Pənah Şahmar oğlunun** ifadəsi:

122

Азәрбајҹан республикасы
Милли Тәһлүкәсизлик Назирлиji
Әсир вә иткин дүшмүш, кировлу
көчүрүлмүш, вәтәндашларла
әлагәдар Дөвләт комиссијасынын
сәдри ҹәнаб N.R. Аббасова

1970-ҹи илдә 17 октјабр Бакы шәһәри
сәбаил р-ну Мәһәри Гусејин
күчәси дөнкә 2 евдә 10 нөмрәли 5-ҹи
ҹамаәтдә Мәһәррәмов Пәнаһ Шаһмар
оғлу тәрәфиндән

Dövlət Komissiyasına
DAXİL OLAN № 515/01
„25" IV 2022-ci il

Изаһат

Изаһаты верәркән мән (AR CM-) АР ҹ.м-нин
296-ҹы (билә-билә ҹалан хәбәрчилик етмә)
маддәси илә мәсулиjjәт барәдә хәбәрдар едилдим.

Мән Мәһәррәмов Пәнаһ тәрәфимиздән
мүдафиә етмәкдән өтрү 1991-ҹи Нојабр
ајында охудуғум Политехник институтуну
атәшкар конулу сәбәбиә вуруламаг үчүн
701-сәјлы батальона чәлб олдум. 1991-ҹи
ил декабр ајынын 28-си көркәкан угрун-
да кедән ҹәнкә дөјүшләрдә Мүрасиләә
дүшдүк, амма бүтә батальонумуз чәсарәтлә
вурушду нәтиҹәдә 7 нәфәр мә-
нимлә вәрдиш, ушаглыкдан ҹохлу ҹамаатдан
ән ҹәсарәтлә дөјүшү сон 5 саатда кетди
лакин бизә Шүшадан көмәк кәлмәди.
Мәнимлә олан ушаглардан 4-ү Нүсрәт, Тофиг
фәрман, рауф бүтүнлүкдә мүјәссәсә көтүр
ә ја мүмкүн олуб, ҹәмән 3 нәфәрин мүјәтә
әсарәт орада ҹалдыг Мәһәр, Расим, Елман

121

онларга кери алиш мумкун алмаган
сөзларинга хабарламидим. Артиг сурсатга
мяз гурбермидим ва ёзувчилиги бил-
мидим. Бунга карам ёлгизлар олдугумуз
мавзеъ ва гулбеталарга ёлгиз бош-
лардилар натижада ушбу гурбаларга
кар айд ва ҳамин вазифатга ёлгиз-
лар шаъни дахли олиб ушбу
ўзларига табе этдилар. Бизи дўз
дўз жой бўйи сўз-сўз хонакери ҳангаму
ханасина ёлгизлар. Орада узун бурун
ҳаким вазифа куда ёрдам эшитдим ик
жойдан етмиш иди лекин ё бунга мяъ
гарлади деди ки, дозарсан нейга авлод
мяъни ва бошқалар гак су кими
кидарди. Сонра бизи дўз-дўз жойга
алмаштиза бахмаларга ёк-ёк кон-
ларга дуд-дудлар. Мяъни берилгз
алмаштаги мяъни:

Аталиқлиев фарход ҳамид оғли. - ўғли
Фарходов Фарход - дау
Нусайнов Мехмон - дау
Мехмон (сўзловчи билан ёлғиз)
Исмаилов Дилфуз Азиз оғли. - дау
Исроил Шамаров 5000
дау Айдан (сўзловчи билан ёлғиз) Ahmadov
Маъмуров Абдулазим Мазкун оғли. - дау
Рзаев Рзаил (сўзловчи билан ёлғиз). Rasulov

Мяъни ғаҳсан ҳар кун шикоятлар берилб дўйдурлар
гокки конверда алан Аталиқлиев Фарходни ва
ҳусуси гуруҳларга дўйдр ва шикоятлар
берилдиғи натижада О ёлғизлик Тўғрисида
ўзларини. Бошқа ишларга ёлғиз ўзини
ва ўзлиги берилдилар.

120

онларни сени мен олиб кетаётганимни бу ўғилларга кўрмаслик ва менсиз ёлғиз қолишларини кутаётган эдим. Мени январ ойининг 29-су 1992-йил куни Эскиполга олиб келишди. Орада ва гохлу анкетага ёзишди. Орада мени яна психиатрга олиб боришди масалан устимга Толстой ёзувчи ёзган халатни кийдириб. Сўнгра мени фотосуратга олишди сени собиқ асаримга назоратчи қилиб келишни гох сўрес ичида кечирдим. Сўнгра мени бир машина кузовда олиб кетишди Онлар бизни фотосуратга олди. Онлар мени ёдимда ки, бўйи қолиб бахбеъ да кетдик. Бир жойга мени ёдимда гох ғалати-ғалати ўтказиб ё қорли тоғларни мен ўз олдимга ўтказиб ёдим Онлар устимда мени гохлу ёдишди. Онлар 3-4 кеъин мени кичик хонага олиб ёдишди. ва бирда оғзимга энди анестезия озорбаётганини олишни ўз-ўзимдан ёлғиз қолиб сўнгра ухлаб қолдим.

кечаси 10-га яқинлаш ёки 35-ёшлар ёшлар ёки 10 ёшга ёшлар ёдим. Мен ҳаққимда 10 ну февралдан ёзишди мени ёнимдан олиб кетишди. Ҳаққимда ахшам ёнимга Роберт келгандан кейин ва мени гохлу сўзлаш ёки шуни ёки, бундасан энди ёнимистакга кўчасига олдик сен кимсасиз. Ора кеъин гайбга ёзиб ёки мени эк гох бахс наъзимга ва бўлишиб кетишди. Ёзим олиб ёзди досиъзидан анкетага ёзишлар гайбга ёзишди.

Турмуш начальниги сержик офье иди.
Кок кишилери јаша 50-55 - Тахмини ошурган
~~Ева аюрган~~ Мени Балассајан

Мени февраль ојандаи 10-ид Ханкондина
кетирдилер. Мен орада ачиган кеч бир
отага кетирдилер ва орада мени гума-
нитар уст кисмини богиб курдур бу-
ју ерини кади. Сонра мени ~~Ева~~ Ева
ева апардилер. Мени Балассајаг
француз кисмида ерини ачи-
ска кетирдилер. Мина Балассајан
Ветаник балассајан гордаи иди.
Мина ојилмуди. Оппокей бачассаре
вор иди. Флора, Сусан. Флорани эри
рафик иди, Онуи ошу Самвел вуду-
шуди. Иткин душмани гордашлари ~~вор~~
иди Валерик Балассајан ора ојуи
замани етишдилер. Мени февраль ~~ојуи~~
28-ги ојишлиз апарилган хогалерди кеч
дик Орада Хогалеки нечи гарат етиш-
ларини шарди айуи онлар звурина
кеч бутун шахарни Хенконфиз фашистлар
ишгал. Хогаки гана бурушуди шахар да-
ју медет иди. Онлар хогаларда кучини
кетказмендан габаг онлар ојилдилер
ки, хогаки гурбонлар гу-ји кичи кагаз-
јик. Инда ~~к~~ ~~ИВ~~. Сонра мени кичи кари
28-и февраль 1992-ге иди Агдам Искаран
јаду арасинда ојилдилер Мени коркичалик
канд сакиеи Тора адам ерини кичи из
ојилдилер. Ва кезер сонгаи зох писди
Бани канојандан айрилмаи јора ва зада ва
ојилмаклари докалаи мени 2 гун дем
алмадим сабаб олуд.
Газакаги озуи ј'озфеки Дуз кукулуди имзо из ефири
22 II-92. Гасфи

Əsirlikdən azad edilmiş **Məmmədov Mayıl Məhəmmədəli oğlunun** ifadəsi:



Ж

162

07.07.01

АР əsir və kеrov kötürulmuş, itkin düşmüş vətəndaşlarla işlər üzrə Dövlət Komissiyasının sədri cənab Н.Р.Abbasova
Ucar rayonu 28 May küçəsi ev 7-də yaşayan keçmiş hərbi əsir Məmmədov Mayıl Məhəmməd oğlu tərəfindən

№352/ОК
22.06.01.

İzahat.

Mən Sizin sualınıza cavab olaraq bildirirəm ki, mən 1992-ci ilin oktyabr ayından 1993-cü ilin may ayınadək erməni əsirliyində olmuşam. Əsirlikdə olduğum müddətdə ermənilər mənə işkəncələr vermişlər. Stepanakertdə müvəqqəti saxlanılan zaman ermənilər mənim üzümə qızğın ✓ ayaqlarımı bağlayıb yerə yıxdılar və sonra üzüaşağı ağır maşınla ermənin xalqı daşlayıb öldürdülər. Bundan başqa onlar mənim gözümü və qıçımı sındırdılar. Eyni zamanda dodaqlarımı dişlə yaralayıb yeritdilər.

Əsirlikdə olduğum müddətdə ermənilər mənim vəziyyətimi nəzərə almayaraq daim ağır və kirovlara əhəmiyyətli işlərdə vadar edirdilər. 1992-ci ilin oktyabrında Stepanakertdə tank qoşunları hərbi hissəsində mənimlə birlikdə saxlanılan 18 nəfər Xocalıdan olan qızları növbə ilə götürüb aparırdılar. Fiziki rəşadətdən əlavə satqın Qurbanov Inqlabın Ağdam rayonu Kərkəbiyə kimi sakitcə aparmağa məcbur etdilər. 1993-cü ilin yanvar ayında Xankəndi rayonunun Tuğ kəndində saxlanılan zaman Kəlbəcər rayonundan olan XTPD-nin (OMON) əməkdaşı Quseynov Vaqifin başçılıq etdiyi dəstə bizi döyərək incitdi. Onlar dedilər ki, sabah da eyni başlıqla bizə gələcəklər. Yerevanda müvəqqəti həbsxanada saxlanılan zaman mənimlə eyni kamerada saxlanılan Xocalı sakini, 3 uşaq atası Mehrəban adlı qadının uşaqlarının birinin gözlərini qarşısında çıxardılar. Permyakovkalarda saxlanılan zaman gözlərimin qarşısında 8 nəfər azərbaycanlını əsirləri divara dirəyib güllələdilər. 1993-cü ilin may ayının əvvəlində Xankəndi türməsinə gətirilən Kəlbəcər rayon sakini Kərimov Şahin Yusif oğlunun burnunu və qulaqlarını kəsərək, dişlərini isə döyüb çıxarmışdılar.

İzahat mənim sözlərim əsasında yazıldı, yuxarıdan oxundu, düzdür, imzamla təsdiq edirəm.

İmza: Y. Məmmədov

12.06.2001.

Əsirlikdən azad edilmiş **Məmmədov Pənah Hüseyn oğlunun** ifadəsi:



Əsir və kirov nəzarətçisi,
müstəntiq-leytenant
Ə. Əliyevə
Bakı 05.08.01

174

Əsir və kirov nəzarətçisi,
müstəntiq-leytenant
Ə. Əliyevə
Dövlət
Komissiyasının sədri
H. Abbasov tərəfindən

1968-ci ildə Ermənistanın
Basarkeçər rayonunda
anadan olmuşam, ailəliyəm,
Bakı Beynəlxalq Əsir
düşərgəsi məlumatına əsasən
Sumqayıt şəhəri, Z. Təbriz
küçəsi (Nəsimi) 15-ci kilsə
yanında yerləşir. Hərbi
vəkilləri tərəfindən 3 saat
müddətində dindirildikdən
sonra yataxanamızda yerləş-
dirildə olan, kazarda nəzarət-
çiləri məsuliyyətsizliyə məhkəm
Məmmədov Pənah Hüseyn
oğlu tərəfindən

№ 575/DK
10.08.01.

İfadənamə.

Mənə verilmiş suallara əsasən aşağıdakı
məlumatları verirəm ki, 1993-cü ilin aprel ayının
6-da Kəlbəcər rayonu uğrunda gedən
döyüşlərdə iştirak etdiyim və həmin
döyüşdə əsir düşdüyümdən sonra ermənilər
tərəfindən əsir götürülməyimdən.
(5) əsir düşdüyümdən sonra mənə Yerevanda
yerləşən hərbi hissənin ərazisində
və olan zirzəmidə (çuxurda) təqribən 40-50
nəfərə yaxın əsir və kirovçularla birlikdə
saxlanılmışam. (Saxlanıldım) Saxlanıldığım
(yerdə) yerin yeraltı otağa 5-6 nəfərdən
ibarət gözətçi kirovçuları saxlanılırdı.

İmza. /imzə/ H. Məmmədov
02.08.2001-ci il

Эсирлекэ олдуғум (1 ел) ле 1993-чү ны 1994-чү
илен март айна кёлле мүдэттэ ермэкле
забит вэ эскэрлэри этрафында мүхтэлиф ми-
кънчлэрэ мэруз галмышам. (мэнэви, психоло-
жи, вэ физики мэкэнлэрэ мэруз галмышам)
Белэ ке, кундэлэр лэн, о чэмлэшэн, онлар
эсир вэ керавларча бирлэкэ мүхтэлиф чүр
оғыр фишки шэлэрэ гэлб едилэрдилэр. Кечэлэр иоғ
дэкэлэр (ермэклэр) сэрхош вэзиййэтдэ (ичкили
вэ ичкисиз) камераја кэлэрэк бизи сорағa дүзүб
онлар вэ эмэлларча дэлэлэ олар ны сёвдэ кёлэ
горурдулар. Эсирлэкэ олдуғум мүддэтдэ көзүмүн
гаршысында эсир голбагларвэлэн Кэлбэчэр рајо-
нундан ЧВ олан Курбанов, Сабирабад рајонундан
олан Елшэн, Товуз рајонундан олан Елмајев
вэ онлар 5 нэфэр эсири (онларын хатирламларын)
вэтэнимиз камерасынын ичэрэ палчыглы көзү габа-
ғына кирмэздилэр. Сонрадан вэлэри ичмэлэрэ
елэ рэгиблэшдилэр, чэкэлэшэ дүшэрэк бир-
бирлэри. Тэкиз бэтэрэ сахланылмын гафан-
лардан комерасындан көнлэр ермэни эскэрлэри
этрафында шишэлэр (дэлмэ вэ зорламаја палчыг)
вердикэлэри галдыгларын ичмэчэрэк сэлэрэк-
дэ бизэ атмаға башлады. 1994-чү илин март
айынын 2-дэ эсир вэ Киров ојунчусу вэтэнда-
шымыз ичи чүр Довлэт Ҹэмилэрэ этрафын-
дан ојунчулэрэ лэн вэ онун 2-эсир
олдуғу едилэрэк Азэрбајчана гајтырылдылар.

(А.Р. Ҹ.П.М.-нин 106-чы мэнтэгэсинэ эсасэн бил-
дирилэн фактлар барэсиндэ бэрэлинэн бэрэлинэ
мүвафиг сорғучаныз тарафындан ајдынлашдырыла
елэ едилмэлидир. Имза: Мајор В.П. Исмајылов.)
Чэкинэ өзүм разыјам вэ өз имзамла тэсдиг
едирэм.

Имза: Мајор В.П. Исмајылов.

02.08.2001-чи ил.

Girovluqdan azad edilmiş **Məmmədov Qədir İmamqulu oğlunun** ifadəsi:



N. Dadaşova
S. Vəliyevdə

Rəsmən təhkim edilmiş şəxslərin iştirakı ilə dindirilmə aparılmaqla yoxlanılsın.

Bakı,
12.02.03.

11

Azərbaycan Respublikası
Milli Təhlükəsizlik nazirinin
əsir və itkin düşmüş şəxslər götürülmüş əsirlərlə əlaqədar
Dövlət Komissiyasının sədri
cənab N.R. Abbasovdan
14 dekabr 1963-cü ildə Füzuli
şəhərində anadan olmuş, hazırda
Sumqayıt şəhəri, sulk rüc. 26-cı
məhəllə, 5 saylı yataqxanada
müvəqqəti məskunlaşmış Məm-
mədov Qədir İmamqulu oğlu
tərəfindən

Dövlət Komissiyasına
DAXİL OLAN № 64/04
„12" 02 2003 il

İzahat.

İzahatı verərkən mən AR Cinayət Məcəlləsinin 296-cı maddəsi ilə məsuliyyət daşıdığım barədə xəbərdar edildim.

Mən Məmmədov Qədir İmamqulu oğlu orta məktəbi bitirdikdən sonra 1981-ci ildə Şuşa rəssamlıq texnikumuna daxil oldum. Texnikumu bitirdikdən sonra Şuşa şəhərində yaşamağa başladım. 1992-ci ildə Şuşa işğal edilən zaman oradan gecəyarı düşdülər. Əvvəl Füzuli sonra isə Ağcabədi rayonunda məskunlaşdıq.

20 avqust 1993-cü il tarixdə Füzuli şəhərinin işğalı nəticəsində şəhərdə qalmış atamı çıxartmaq üçün oraya yollandım. Evimizə çatıb heç kimi görmədim. Həftədən çıxıb əsgəranla gəldim. Yolum kənarında ələ keçirdilər, əlaz. müşəlu. Onlara yaxınlaşıb əmrlərini

MM

soruşdum. Yaxınlıqda dayanmış ABŞ markalı maşını göstərib ozdədir. dedilər. Mən maşına yaxınlaşmaq istərkən maşından ermənilər fəryad qoparıldı. Qaçmaq istədim arxadan boynumun dalından vurdular huşumu itirdim Ayılanda gördüm iki əlimi də ayaqlarımı əliminən mıxlıb sarıyıblar. Mıxlının bir ucunu isə ecton şalbana bağlamışdılar Bir azdan ABŞ markalı başqa bir maşın gəldi. Maşından bir nəfər sarışın arıq bir qız də yerəşdi bir erməni düşdü. Sonradan məni birinin ermənin adının Manuel Qriqoryan yanındakı qızın isə adını Nazik (çağırırdılar) olduğunu öyrəndim. Getdiyim yerdən məni möhkəm döyüb pullarımı götürdülər, ayaqqabılarımı çıxardılar. Huşum özümdə gələndə başım içində idim. Pasportumu da aldılar. Əlimi ABŞ-a uzadıb istəmə çıxdılar maşı bir müddət getdikdən sonra maşın dayandı. dedilər dur. Başımı qaldıranda gördüm iki Füzuli rayonunun Cuvarlı kəndindir. Ermənilər Margarita, Margarita çağırdılar. Bu vaxt dəyirmandan 50-55 yaşlı arıq bir qadın çıxdı. Birinci qadın məni yanındakı haradan olduğumu soruşdu Füzulidənəm- dedim. Soruşdu iki, Füzuli sizindir yoxsa bizim? Mən nə bilim dedim. Bu vaxt azəbad bağladı məni döyməyə üzümü cırmaqlamağa, söymüşür, saçımı yolmağa. Bıradan bir az irəli getdikdən sonra sel düşdü. Ermənilər qətsiyyən bir nəfər danışdırdı bir azdan səpli bir maşın gəldi. Onlar ABŞ-ı birinin maşınına yedəyinə qoşdular. Əlimi isə maşından

düşürüb əlim ayağım bağlı vəziyyətdə arxasına bağladılar. Təxminən bir saat
onu gözü qırıdılar.
Əlini tanımadığım bir yerə gətirdilər
böyük bir binaya daxil olduq binada təzə
binalı qədimlərində olduğu kimi pəncərə var
idi. Onlar üstümü tökülüşüb onu döyməyə
başladılar. Bir azdan onu başqa bir otağa
ya aparadılar. Orada Manvel Qriqoryan
Nazik adlı birinin qız. O on nəfər elə
olardı pərdə geyimli şəxslər var idi.
Onlardan biri başladı məni sorğu-sual
etməyə suallar əsasən prezidentin harada
yerləşməsi, qərargahın neçə yerləşməsi, hansı
plan hazırlanır, şəhərdə niyə sakitlikdir?
və s idi. Sonradan mən birinin adının
Simonyan olduğunu öyrəndim. Sorğu-sual
zamanı məni döyürdülər. Simonyan
Manvel Qriqoryanın müavini idi.
Manvel özü işə komandir Erqroda idi
onu ermənilər illər əyisi deyirdilər.
Sorğu-suallar sonra məni gətirib
qəfəsə saldılar. Qəfəsdə üç nəfər var
idi döyülmüş pis vəziyyətdə idilər.
Onlar: Məmmədov - qoy.
1. Aslan - əsgər, Füzuli r-nu Əlibəylimanlı
2. Cingiz - əsgər. Mehdiyev - qoy Ayvəzəkli kəndi
3. Xəlilədin - əsgər. - Rəhimov - qoy Kərimbəyli kəndi
əsgərlərin soyadlarını bilmirəm.
Təxminən yarım saatdan sonra bir dəstə
erməni gəldi başladılar məni qəfəsdəyə
döyməyə. Döyülmə yeni çəkdi. özümü pis
etmişdim. Əsir tezdən Füzulinin Əbdəli
kəndindən olan Ənvər adlı 60-65 yaşlı
Tağıyev - Əlib (əsirlikdə)

Biz içişi qrtizdilər. Öyrəlmiş ağır əzziyyət
də idi, ölüb sağ tutmurdu. Bir saatdan
sonra biz dəstə yeraltı camamatı gəldi
başladılar bizi bayıra dəstə döyməyə.
Ştil-rəşə dabanları sürtə yazalədılar,
əllərinidə olan butuk kiti ələtlərlə, silah
larla ağac parçası, dəmir ə s-lə döyür-
dülər.

Avqust ayının 23-də Balabəkirmədi kəndin
dən gizir götürülmüş Yaqub Tağıyev-qayı Ədili bizimi
qrtizdilər. Təxminən 30-32 yaşı var idi
soy adını bilmirəm. Sonradan bilalim ki,
qonşu qazaqda da azərbaycanlılarla saxlanıb
dığını. Həmin qazaqda Füzuli rayonunun
Qaraz kəndindən tutulmuş bir ailə-
bilayət, Əhmədovlar-qayı qrəət yoldaşı Zərifşan Əsgəqları
-iki qız, iki oğlan (adları yadımda deyil).
və Füzuli rayonunun Kiziloğlu kəndindən
tutulmuş Sofu Səfərəliyev-qayı Sofəli-öldü(əsirlikdə) içişi (60-65
yaşlarında) saxlanılırdı. Sonradan saxlanıldığımız
yerin adının Ədilli kəndi olduğunu öyrən
dim.

Demək olar ki, hər gün yanımıza gizir
götürülmüş azərbaycanlıları qrtirirdilər.
Biz azalan gizir və əsirlərin soyutu
mun 35-40 nəfər qatmışdı onlar:

1. Fərmən - Füzulidən 38-40 yaşında
2. Lalın - Novruzov-əsir. öldü Qubanın Nüvədi kəndindən
3. Qubad ? Hüseynov-sahbaz-qayı - Ağstafadan.
4. Natiq - əsgər Xeyirdən. (?-Quşayev-?)
5. Müştiq - Füzulidən - əsgər (Əliyev-qayı)
6. Rafiq - Füzuli ş-nu Xocadiş qəs - 20-25
7. Ərməni - Füzulidən Ərkən. - 35-40 yaşlı
8. Yusif - Beyləqandan Ərkən - 50 yaşında

Səfiyev-qayı

Mən

Yaxşılıdır
Qubadlıdır
12.02.03

Ağayev-qay

9. Rəşid. – Xoradiz. 45-50 yaş

?-10. Rəsid. – Xaradan olduğunu bilmirəm.

11. Rəsim. Quliyev-kay – Xoradiz kəndi-əcgər

?-12. Nəsrəddin – Xaradan olduğunu bilmirəm. 40-50a

Hüseynova 7832-13 Mustafa – Xoradiz kəndi 60-65 yaş.

14 Mustafa – Füzulidən – Allahverdiyev-qay müəllim. 40-45 yaş

15 Valeh – Füzuli şəhəri Ağayev-qay 50-55 yaş

16 Valeh – Valehin oğlu – 12-13 yaş

?-17 Əkbər – Xaradan olduğunu bilmirəm.

Adını yaxşı yadımda qalan 3 nəfər qadın və digər şəxslər.

Bizi bir gün müntəzəm döyüzdürlər. Döyülmə zamanı əsir və girovlardan aşağıdakı şəxslər oldu.

1 Fərman – Füzulidən.

2 Ənvər – Ərdəbildən.

? 3. Rəşid. – Xocavəlidən? ?

? 4 Ilyas – Xaradan olduğunu bilmirəm.

Yoxlanılsın Aslanov 12.02.03

Adlarını yaxşı yadımda qalan 8 nəfər qadın və üç nəfər kişi. Onların meyidlərini Edilli kəndinin kənarında dağın döşündə dəfn etdilər. Burada yerdə eyni zamanda 18-20 nəfər döyüşdə həlak olmuş Azərbaycan əsgərini dəfn etdilər. Təkcə bizimkinin adını sonradından oxudum. Adı Bünyad idi, Idmançıya oğlu yazılıb.

Bizi kəndin ətrafında işlətməyə aparırdılar. Edillidə camaat ilə əhatələnmiş əsgər adlı azərbaycanlı da yaşayırdı. Üç oğlu iki qızı var idi. Qızlar məni həmişə döyüzdürdülər.

Edillidə ən çox bizi döyən Gevorq adlı yerlidən gəlmiş çərkəz döyüzdü. Boyu təxminən 170-180 sm., sarı ortabəli rusa oxşayırdı.

6

Gizir saxlandigimizin 45-ci günü mən Yaqub və şəmsi gecə izmeradan qaçdıq polisin barmaqlıqlarını və getdik üç gün sonra biz qaçdıq. Üç təpə deyilən yerdə minaya düşdük bizi yaxalı əsgiyyətlər 4 nəfər gizir götürdülər. Bizi dəhşətli dərəcədə döydülər təzən Edilliyə apardılar orada pulumuzu itirdik yəni döydülər. Sevdiq öcaqla gözümün altına yazalamışdılar.

Oktyabrın 11-də təxminən 11-12 nəfər Yerevana apardılar.

Edillidə edirdən işləyirəm məni diz edə apardılar. Cə yiyəsi qadın azərbaycan dilində danışırdı, o, deyirdi ki, mənim oğlum Qarabağda prezidentdi olub. Onu Robert Koçaryan öldürüb yerinə keçdi.

Yanvarın sonları Edilliyə xəzinələr yazılım gətirmişdi hamımız yazılımı nəsil nələn doldurduqda xəzinə qız mənim gizir olduğumdan şübhələndi. Ermənilər bundan sonra bizi gizlətməyə başladı. Bir müddətdən sonra Qarmuzi Kərə bizi tapıb qeydiyyata aldı.

Mayın təxminən 2-si bizi 6 nəfər Füzuli rayonunun İşıqlı nəhəlinə işləməyə apardılar. Orada:

1 Rafiq
2. Müşfiq
3 Həsən
4 Ilqar – ?
5 Yaqub

İşləyirdik. Odun doğradıb hazırsa göndərirdilər.

Mən

5

Işiqlida olduğumuzun biz neçə günü zəncir
qoşmaq barədə düşünürdük. 1994-cü il.
may ayının 8-də Şiliolı sözünü qoçaq
Biz sutkadan sonra ittirin vasitəsilə bizi
oxtarıb tutdular üç gün müntəzəm döy-
dülər. Bizi işiqlı rəhbərin poçt idarəsinin
qrupuna sizə ilə düşdülər. Ətrafımızda silah
li əsgərlər durmuşdular. Bizi ortada
üç nəfər silahlı əsgər - Dolot - 180-185
qarayanız. Qoşqiyat dəstəsinin komandiri
Dağıt - 155-160sm. - 45 yaşında qoçaq kə-
mandir zəta, Lyoşa - 2025 yaş 170-175sm
arıq rusca oxuyurdu. meydanın ortasında
iri kötüyün üstündə biz-biz çıxarıb qalstukumuz
istəyirdilər. Əsgərlər Lacini güllələdilər.
onlar doxsan güllə vurdular. Sonra
onu kötüyün üstünə çıxartdılar güllə
yerləri eşitdim. hay-küy qopdu. Baxdım ki
biz tərəfə dağılır kimsə gəlmişdi. Bələn
komandir AKO idi Yerevanlı idi.
Lacini poçtun həyətində dəfn edəcəklər
Zəlilliyin komandiri Artur idi - boy 190-
sm. pundur arıq, 30-35 yaşında. sarışın. O
Dalotun qardaşı idi.
Ordubadlının komandiri Xozan - idi hun-
dur boylu 180-190 sm. möhkəm vücudlu 35-40-
yaşı tund qara saçlı.
Ağbulaq rəhbərinin komandiri Yuri idi
160-165 sm - 30-35 yaşında, kök. qalın qara
arıq qara rəngli
AKO - 180-190 sm kök 30-35 yaş qara
şin
Bizi tərəzə Zəlilliyə qaytardılar

Təxminən 20-günədən sonra Qızmızı Xaç təşkilatı gəldi. Əvvəllər bizə demişdilər ki, dəqiq öldüyünü deməyin sorğu-sual edəcəklər deyə ki, o gecə. Qızmızı Xaç tərcüməçisi Sadiq adlı erməni idi. O bizim dediklərimizi öz dilimizə tərcümə edirdi. Qızmızı Xaç verdiyi qərarkəni əlimizə aldılar.

Ədilliddə komendant Alyoşa adlı erməni idi. Özü əslən Ədilliddən idi, əsir düşərgəsində dəhşətli işgəncələr verirdi. - Boyu 160-165, yaşı 30-40 arası qəddarlığı ilə şöhrətlənmişdi.

Təxminən 1984-cü il iyun ayında bizi Xankəndinə gətirdilər. Ədilliddə minin gözləklərimizdən heç kim qalmadı Xankəndində bizi MVS-ə saldılar. Orada:

1. Emin - Əlyaşadan - əsgər Babayev - qaz
2. Fərdəz - Füzulidən - 40-45 yaşlı mülki
3. Idris - Bilasuvar - əsgər Mirzəyev - qaz
4. Rafiq - Bakıdan - əsgər - Əmirov - qaz
5. Rauf - Bakıdan - əsgər - Budaqov - qaz
6. Əbdüləli - Beylərqan - əsgər - İsmayılov - qaz
7. Rafiq - Naxçıvandan - 35-36 yaş, Məmmədov - qaz
8. Elçin - Astaradan - 30-35 yaş Sadiqov - qaz

Digərlərinin adını unutmuşam. Təxminən 30 nəfər adam saxlanılırdı Xankəndində əsirlər müntəzəm dəyişdirilirdi.

Bir müddət sonra Xankəndində saxlanan azərbaycanlıları Şuşa həbsxanasına apardılar.

Mən

9

3

Hərbxanaya çatanda gördüm ki, əzmənlər
əllərində kəm, kəpətkə, əzmətur tutmuş əs
gilyotin dişi qəzşıdırlar. Başladılar dişi
döymeyə. üç-dörd gün müntəzəm döyüldük
ən dəhşətli döymə altı müddətində idi.
ilaşından düşən kimi dizlərimi yerə çü-
rüb əsəltı öpmüşəm və demişəm ki,
vətənim xoş gəlmişəm» sonra dizlərin üstün-
də kameraya qədər getməliyəm. Hərbxana-
nın qapısına çatanda müəllimə çevrilib içəri
salırdılar. Orda hərbxanasında gördüklərim-
dən yadımda qalanlar:

1. Rizvan. – Beyləqanlı. – əsgər Pəsiyev – qay
2 İlham. Qurbanov – Füzulidən. – qay.
3 İlham – Mingəçevirdən Həmidov – qay
4 Bəxtiyar – Füzulidən. – Səfərov – qay
5. Bəxtiyar – Qazaxlı – Məmmədov – qay
6 Əli Bayıyev – Beyləqanlı – qay
7 Ağabəyov – Bərdədən. – qay Şükürov
8 1902 – Əliyev – Bərdədən – qay
9 1902 Əlizadə – Bərdədən – qay.
10 Cəcəli – Yevlaxdan – Məhərrəmov – qay
11 Raul – Füzulidən – Qafarov – qay
12 Rafiq – Bakıdan – Əmirov – qay
13 Müştiq – Saatlıdan (? Səbirabad – Əliyev Müştiq)

Hərbxanada təxminən 20-100 nəfər sal-
lanılızalı

14 Bayram – Qubadlıdan – Rüstəmov – qay
15 Elşən – Qubadlıdan Muxtarov – qay
16 Asif – Bərdədən. – İsmayılov – qay
17 Ağgül – Ağsudan. – Bayramov – qay
18 Qabilə – Bərdəmizdən – qay Əmiyev
19 Nurəddin – Yardımlıdan – Ağayev – qay
20 Heydərov Heydər Zahid oğlu – Yardımlıda – öldü

Şuşa hospitalında ən çox işgəncə görən əsirlər:

1. Qoç - sarışın, 35-40 yaş, boyu 165-170 sm.
2. Azmen - sarışın, 165-170 sm. dolu bədənli 20-22 yaş,
3. Orxan - qəza ağır, 155-160 sm 25-30 yaş.
4. Vladik - boyu 180-190 sm. 40-45 yaş qəza yaxşı orta bədənli
5. Yaşa - boyu 150-155 ağır - 40-45 yaş, qəzayan
6. Emin - boy - 160-170 sm, yaşı - 30-35, turad qəza. Müəyyənləşdirilən böyüyü
7. Yura - boyu 160-170 sm. yaşı - 35-40 sarı rəngə oxşar.
8. Jora - 170-180 sm. 45-50 yaş.

Şuşa hospitalında Heydərov Heydər Zabit oğlu müntəzəm də döyülməkdən öldü

əsirləri dəstə-dəstə bölüb müxtəlif yerlərə işləməyə aparırdılar. Mən də yaxşı rus dilini bildiyimdən ucun əsirlərin tərcümə olunmasında mənə köməklərinin düşməsində istifadə edirdilər.

1995-ci ilin sentyabr ayında bizi Ağdama rəngdən işləməyə gətirdilər. Orada rəngi dəyə-dəyə xəstə halına salırdılar. Mən Samvel Babayanın evində işləyirdim.

1995-ci ili oktyabr ayının 8-də mən Bayram - Qubadlıdan, o Yuqar - Suleyandan. Ağdama rəngindən qaçdıq. Oktyabr ayının 22-də Ağdam istiqamətindən gələrək sağ-salamat öyünə çıxdım.

Yaza bilmədiyim ucun izahat mənim sözlərim ilə yazıldı, ucadan mən oxudum, doğruluğunu imzamla təsdiq edirəm.

Məmmədov Qədir İmanqulu oğlu 16.01.03

11

1

Izahatıma əlavə olaraq bildiririəm ki, Xəstəxananın rəis müavini Asirov Biz dəfə mənə dəyərsiz ölümcül vəziyyətə saldı öcün nimə bəzin dəyərsiz 300 gəzə ötürdü

Asirov - 165-170 sm yəşi -25-30 aqıbəniz qara saçlı orta bədənli ermənı idi. əsln Qarabağdan idi

Məmmədov Qadir İmaməli oğlu

16 yanvar 2003.

Əsirlikdən azad edilmiş **Mirzəyev İdris Usubəli oğlunun** ifadəsi:

Азәрбајҹан Республикасы
"Һәрби әсир, иткинләрин
дәјишдирилмәси" үзрә Дөвләт
Комиссијасынын сәдри
Н.Р. Аббасов ҹәнабларына.

Азәрбајҹан Республикасы, Биләсувар рајон Ашағыканд кәнд сакини, 1973-ҹү ил тәвәллүдлү, ермәни һәрби дәстәсиндә әсирликдә олмуш, азадлыға бурахылмыш Азәрбајҹанлы Мирзәјев Идрис Усубәли оғлу тәрәфиндән.

№271/ДК
12.06.01

И з а һ а т.

Мән, өзүмдән хәбәрдарлыг етмә вә ҹәлб едилмәк мәгсәдилә АР-ин Ҹинајәт Мәчәлләсинин 178-ҹи маддәсиндә нәзәрдә тутулмуш ҹинајәт мәсулиййәти барәдә хәбәрдарлыг едилди.

Имза. Мирзәјев Идрис Усубәли оғ.
8-ҹи ијун - 2001-ҹи ил.

Мәнә верилән суаллара ҹаваб олараг, билдиримки, мән Мирзәјев Идрис Усубәли оғлу 1994-ҹү илин 20-ҹи јанварында Биләсувар рајон Һәрби Ко-

Мирзәјев. И.

Мисарычлы тәрәфиндән һәрби хидмәтә чағырылмышам. ДР-ин Н-сајлы һәрби һиссәсиндә Тәр-Тәр рајонунун Маргушаван кәндиндә јерләшдик. 11 Апрел 1994-чү илдә Ағдәрә рајонун Малакан кәндиндә ермәнләрин һүчумуну заманы мүһасирәјә дүшмәрәк, әсир дүшдүм. 10 Мај 1996-чы илә гәдәр, јәни 2-ил бир ај ермәнләрин әлиндә һәрби әсир кими, әввәлчә Ағдәрәдә, Ханкәндиндә, Шушада, Мәсләһәт кәндиндә вә ахырынчы дәфә Шушада мүхтәлиф вахтларда (тарихләр јадымда дејил) сахланылмышам.

Әсир олдуғум мүддәтдә ермәниләр һәрбчиләри тәрәфиндән әлчатмаз шикәнҗәләрә мәруз галмышам. Әсир дүшдүјүм биринчи күн бир нәфәр ермәни забити мәни јерә јыхараг, сүнкү бычағы илә башымдан кәсмәк истәркән, ондан рүтбәчә бејүк баш ча бириси ермәни дилиндә ona нә дејә вә о, мәни бурахдыг, нә ја мәни кими нә дә дәјишдәкдиләр. Бундан сонра мәни бир мүддәт Ағдәрәнин тәнһалығында бир кәндә Әлиәт адлы ермәнин евиндә сахладылар сонра Ханкәндинә кәтирдиләр, орада тирмә дә сахладылар. орада мәнән башга 20-нә фәр Азәрбајчанлы әсир сахланылырдыг. сонра бизи Шуша тирмәсинә кәтирдиләр, бурада бизә чохлу шикәнҗә верир, инҗидирдиләр. Шуша тирмәсиндә бир ахшам Ереванда кәлмиш турнанын рәнсин кәстәриләрә бизи-20 нәфәр әсири сүрүјә дүзәрәк ермәтүр вә лопатка сапы илә башымыза,

Мирзәјев Ч.

көзүмүзүн бешмишә, мухтәлиф јерләримиздә өзүндән кедиб, јүзләлә гәдәр дөјүшләр, тәхминән 25-дән сонра бизи Нафтуни рајонунун Мисмиха кәндинә кәтирдиләр. биз бурада 1996-чы илин јанвар ајына гәдәр галдыг. сонра бураја тәхминән 20-нәфәр әлавә әсирдә кәтирдиләр. тәхминә биз 40-нәфәр олдуг. бурада бизи мухтәлиф шүбһәдә шүбһәдиләр, фәрглә тикширдиләр. бурада 6-нәфәр әсир әсирликдән гачмаг үчүн күрә бизи мәкәмә дөјдүләр. Мәним башымда шампан бутулкасыны гырмаға чалышдылар. Мән һушум итирдим və 3-күн өзүмә кәлә билмәдим. сонра башым шишди və ири верәмә бөнәдиләр, јараларымдан ган кәлди. тәсадүфән „Гәрибә Хач"-дан кәлдиләр, мәним вәзијјәтимлә марагландылар, Исвечрәли Пер адлы һәким ифа. мәнә дәрман верди, башымы сарыды, јараларымы силди. О, күндән бәри башым ағрајыр, јаддашым дәләк олар ки, зәифләшиб. 2-чи дүнја мүһарибәси.

1996-чы илин Мајын ајынын 10-да Дөвләт Комиссијасы тәрәфиндән дәјишмәрәк, әсирликдән азад едилмишәм.

Имза: Мирзәјев Идрис Јусубәли оғлу.

Изаһаты вахтында јазмағы və доғрулуғуну тәсдиг едирәм.

Имза: Мирзәјев Идрис Јусубәли оғлу.

8-ијун 2001-чи ил.

Girovluqdan azad edilmiş **Mehdiyev Cəfər Talıb oğlunun** ifadəsi:



Əsir və kiçik kəmiyyətli, ətkəm dumanlı vəziyyətlərlə əlaqədar Dövlət Komissiyasının sədri N. Abbasova zənnələrinə Füzuli rayon Böyük Bəhmənli kənd sakini, azərbaycanlı, ər vəziyyətində, orta təhsilli, evsiz, ermənin əsirliyindən qayıtmış və hal hazırda Böyük Bəhmənli kəndində yaşayan Mehdiyev Cəfər Talıb oğlu tərəfindən

№513/DK
12.07.01.

İzahat

Mənə verilən suallarla əlaqədar olaraq bildirirəm ki, 1993-cü il Avqustun 23-də mənim kəlbəkar ermənilər tərəfindən əsir götürülmüşəm. Məni və 14 nəfəri maşına yığıblar. Kəlbəkardan yaz maşınları nəbiginəri arxaya kuzəyiblər. Biz maşının rəqəmini əzbərlədik və bütün kurovlara əzbərlədik ki, maşın kəlbəkar avtomatın sürəti ilə yüyürək hərəkət vəziyyətə salırlar. Kəzmizin qabağında Qarabağın xəritəsini (rəqsini) sərdilər. Böyük əmr qurğularını yerləşdirmələrini ustuna salırlar. Bu sənədlərlə qabırğamın dəstəyə ilə sənədlərlə qurğu ilə başımın yarılması. Ermənilər tərəfindən bəzi hərəkətlərə məruz qurğuların bəzi hərəkətlərini xatırlamıram.

Марҳумнинг ўғлларини ҳаёти ҳамда
иш ҳар ҳанday ғайритабиий ўлимдан
ғовоб олиб қолган камера кириб
келганда оилавий ишхонаҳар
вериодинар. Бунинг натижасида
ранг устуни бурахар ўзгардинар
ҳамкасбда олиб ғолган Азербайжон
ҳарбийлари биз келиб ўз ғолоб
ғайтирдик. Ўғли олдимиз келиб
ғаерлиқча ондурулиши ҳақда ишлар,
ўни бошлари, бўйлари, ўғлари, ўх
ишлар. Комфран ғачарат ермиз
жиҳозини хилас олишмай,
ҳал назарда ермизлар тарафидан
вериди ишхонларда ишлаб ғолди.
Изланиш олиб ўзини ва оилаҳуни
имзомиз тасдиғ ермиз.

Имзо Ўзб. Мехнат ўйфр
17. июл 2004 ил.

Girovluqdan azad edilmiş **Muxtarov Əvəz Şahmar oğlunun** ifadəsi:



Azərbaycan Respublikası əsir, girov və itkin düşmüş iş üzrə Dövlət Komissiyasına

1993-1995-ci illərdə erməni girovluğunda olmuş, Qubadlı rayonu sakini Muxtarov Əvəz Şahmar oğlu tərəfindən

İfadə.

Mənə AR. CPM-nin 106-cı maddəsinə uyğun olaraq bilə-bilə yalan ifadə vermə görə məsuliyyət barədə xəbərdarlıq edilmişdir. №407/DK-7 25.05.01

Muxtarov Əvəz.

Mənə verilən suallara cavab olaraq bildirirəm ki, 1993-cü ilin avqustun 30-da rayon işğal olunan gün erməni quldurları tərəfindən əsir götürülmüşəm. 1995-ci ilin dekabrin 11-də İran Qızmiri Aypara cəmiyyətinin vasitəçiliyi ilə azad olunmuşam.

Girovluqda olduğum müddətdə, Murtuzu komendaturasında, Xankəndi müvəqqəti saxlama, kamerasında, xəstəxanədə, Şuşa türməsində və Mişmina xəndində olmuşam.

Girovluqda olduğum müddətdə, demək olar ki, hər gün, heç bir əsası olmadan, əlləri və müxtəlif küt alətlərlə (bel sapı, armatur, Dubonka) bizi döyür, mənən, psixoloji, əsəblər vəzifələ Mənim dövlətimə əsas iştirak edənlər. Murtuzu polkovnik (polkun komandiri Musa) spesnazın boyabaşları, Xankəndi müvəqqəti saxlama kamerasını nəzarətçi (balaca, Mirik, bir böyük Mirzikan, Karen, Tolik). Şuşa türməsinin rəisi Borçi, nəzarətçi, Qarik, Karen, Slavik, Mişminədə isə polkovnik Sədri (adı yadımdan çıxıb) və bir neçə erməni Yandan gəlmiş boyabaşlar olmuşlar. Onlar bizə ən çox mənəvi əzabın bütün növlərinin verilməsi olmuşdur. İndi qarşında insanların dəyilməsi

Muxtarov

bədənlərinin yandırılıb diri basılması, bədənlərin xəc çəkilməsi olmuşdur. Məsələn. 1993-cü il. avqustun 31-də Bəcim oğlu. Hüseynov. Rövşənin. bədənin yandırıb. yerin diri basılması. Cəbrayıl rayonunda olan Səxməsor Ağdərənin. belinə. xəc. çəkilməsi, (yəni qızmar. giş ilə Ağdamlı, Mirzə və Ələyə xiçinin. dəyilməsi, qayda olan. Ömərin ağsın. odlu közün salınması və bir çox dəhşətli hadisələri göstərmək olar. Ən dəhşətli si isə bütün bunları hamısını məsələndirəndən sonra, çox vəhşicəsin, yerinə yetirdilər. Bütün bu vəhşilikləri. onların komandirləri, Nelsonun. Mosinin. Bəconun əmrlərinə əsasən yerinə yetirirdilə. Onlar əsirləri o qədər. döyürdülər ki, əsirlə bunla dözməyib ölürdülər. Məsələn Neftçi. rayonundan. olan. Heydərov. Heydər. o qədər döyüldülər ki. 1994. cü ilin. dekabrin 31-də. öldü. əsirlərin ağzında olan. metal dişləri bəhşiliklə çəkiclə vurub salırdılə. Məsəm Ağdamlı Ələş kişin, Fizulidən Həsənin. və başqalarını göstərmək olar.]

1994. cü ilin Martarın 24-də. Ucarın rayonun. Muğanlı kəndində, Şəvəsin çölünün yaxılığından və həsəmi tərəfdə yığılmış 24. meyidi bizə basdırdılər. Onların. kim olması haqqa məlumatım. olmadı çünki onların bütün əmədlərini. Mosinin olmasından olan Ləyhinə rübbəli biz. boyavik çəkirdi. Ucar. Ağdam - Fizuli. yolunun 12 km-də. Qarə kəndin. aldında. olan. istiqamət. yolun. Sol. tərəfində Ağar olan təpədə Mirəcəvi batalyonun 14- ölmüş əsgərin, qazılmış arxada basdırdıq. Sonrada onlarda bizim çıxarıb dəyişməyə apardıqlarını və bizə dedilər ki bu Mirəcəvir. rəisəl. zavodun qardaşıdır. Onuda geydirdim xp onun, başı yox idi
Bundan. başqa biz. Muğanlı kəndi yaxınlığında kəndin aşağasında. Ürüm dərmanlama yerinin yaxınlığında. 24- azərbaycan əsgərini dəfn etdik Bunlar bizə Dedilər ki, Sumqayıt batal. yerinin əsgərləridir.

Bütün bu dəfn etmə prosesləri ondə olunmuş 89
barəbə Qubadlıdan Allahverdiyev Əlyəmə, Səbrə
yıldan əli xişi, kürdəmirdən Qaləsi, və başqaları
iştirak etmişdilər.
Əlavə olaraq bildirirəm ki, [1994-cü ilin
sentyabr ayında Zəgəzəldən olan Zeynalı
Xankəndi müvəqəti saxlama kamerasında
o qədər döyüb aç saxladılar ki, oradaca
öldü. Onu Ulaqbəyli kəndinin girəcəyində
dəfn etdik. Onu da qeyd edim ki, ermənilər
əsirləri müxtəlif silahları sınaqda keçirmək
üçün istifadə edirdilər. Buna misal olaraq
Qubadlıdan olan Eyvaz kişini göstərmək
olar. Ölənə qədər məlumatı çörə onu Ulaqbəyli
də qəsəbə verdilər. Sonra onu Xankəndində
müvəqəti saxlama kamerasının 4-cü mərtəbəsin
ayrıca kamerada saxlayıb onu sizmiz xəc
əmiyyətindən çıxartdırdılar.] Ölənə qədər
məlumatı çörə onu 1995-ci il yanvarın
14-də saat 2-də ixtisarı erməni həbsxanasına
mənə mindirib aparıblar. Sonrakı taleyi
isə məlum olmadı.
Şəxsən özüm yazdım Düzgünlüyünə
imza atıram: Məmmədov Ə
14 iyun 2001-ci il

Əsirlikdən azad edilmiş **Səfərov Bəxtiyar Azay oğlunun** ifadəsi:



Azərbaycan respublikası
Milli təhlükəsizlik naziri
əmr və etmək qüvvəsi
kimi normativ
xarakterli
aktlar
Dövlət Komissiyasının
Sədri Yaqub H Abbasova

1974-cü ildə Qubadlı
rayonunun Şəhərciyə kəndində
anadan olmuşam hazırda
Səbirabad rayonu 13.5 kəmi
texniki peşə məktəbində
müəllimlik edirəm.
Səfərov Bəxtiyar
Azay oğlu Tərəfimizdən

Dövlət Komissiyasına
DAXİL OLAN № 118/01
"03" III 2023-cü il

Ittihamdan azad edilmiş şəxs kimi
ifadə vermək hüququm
izah olunmuşdur.
07.03.23

Azərbaycan Respublikasının
Cinayət Məcəlləsinin 296-cı
maddəsi (dövlət
əleyhinə yalan
məlumat vermə) üzrə
cinayət işi üzrə
Dövlət Komissiyasının
Sədri Yaqub H Abbasova

Mən Azərbaycan Respublikasının
Cinayət Məcəlləsinin 296-cı maddəsi
(dövlət əleyhinə yalan
məlumat vermə) üzrə
məsuliyyət daşıdığım barədə
xəbərdar edildim
1991-ci ildə könüllü olaraq
Torpaqlarımızı müdafiə etmək uğrunda
Ordu sıralarına çağırılmamışam 1993-cü
ilin oktyabr ayının 23-də Qubadlı
rayonundan batalyonla kəndimizə
gəldik (bəradərim atamın
əlaq bağını almaq niyyəti ilə
getdim) 4 nəfərlə (gəlmələr
əlifçi qan Abbasova-qan
Səbir, bağını xətirə?
Xeyr Xatirə?

гоҳи Жетиев Бугар ва маҳ-
ҳамин вахт мән маъруфәтда
идим) бирликда јашиваҗт кәҗи
јахшилигида Ерманилар тәрәфи-
ндән дәир көтүрүлдүк. бизи
дәир көтүрән Ерманә һәрбиләри
иди. Онлар бизи дәир көтрән
кими јериндәчә атрәлатын гунәч
илә мәјкәм дәјмәр биз орадә
ләркән 4 һәрдә кәчимли әкәр
мәјиди вар иди бунлардан ала-
ва уаз марҳәм машинада
тутуб ичиндә олан 4 нәфәри
автоматла өлдүрдүләр. орада
биздән ҳәва тәхминән 15 нәфәр
дәир вә хйрәв вар иди. бизи онларла
бирликд хоҳавәдә атардылар.
бизи сра апарәгдан сонра
орада олан Ерманә һәрбиләри
бизи автоматын гунәчы, резин
дәјәкла ва әлдиҗә на хегирдиә
онунла вашгәсилә дәјдүләр.
биздән алава Орада 14-15 нәфәр
да дәир вә хүрәв вар иди
онлардан Јубәдлидән олан 40-45
јашлы Әли, бакыдан олуб р 25-26 ш
јашы ревмаҗ, 60-63 јашлы, ~~бакыдан~~
Тирдә, бакыдан 26-27 јашлы Ешин,
Тәз райондан 18 јашлы Елфәк
адларыны хатрләјирәм (диҗәрләрини
адыны унутмушам) биз орада тәхминән
36-35 нәфәр вар идик.

мартында саҳналадигимиз замон (комендурада) Турткашеван олам (адашиб ўхшатишам) олан декаври шиомлаб атаркан курак мар-деиган хат шаклида домкрат курарлар бизим ҳамкасбларимиз. Бизи орада ат. еуеуз бетон олиб бўлгунда сайёр шаҳарчада тахминан 2. ой саҳналарда ишлаш эрзинда ермонлар бизи ташвиш деган ва агар шиларда шилар-да шиладилар. 2. ойдан сонра бизи (16-17 нафар) шуша турмасига апардилар. Олардан сўнг роҳатланиб шишиб, ёрдадан Ҳамид Тораевдан Пасаж Бўлеутанов-гача, Мирзаев бўйлаб бозоримиздан садинин Мамедов-гача Ҳалқарини хатларимиз. Фикрларимин адашиб ўтишам. орада бизда олиб 50-60 нафар киров ва деир вар иди оларни адиб хатламирам. Оларни мендан ошиб даимат учун шиладирди, бизи орада. Славик (орта бўйли, узун, сарышан 45-46 ёшлар) Артур (орта бой, кок гора 37 38 ёшлар) гафик ш (орта бой, орта бадани гора 39-40 ёшлар) Елиш (ўрта узун сары 30-33 ёшлар) Валера (орта бой, кок гора бўйли, 38-40 ёшлар) Ёжа (узун, орта бадани, сарышин, бўйли 37-38 ёшлар) Ярам (кализ сўрғуч-су, гора, ингач бой, ариг 29-30 ёшлар)

Вагранд (эламатлари йўқлиги
дейилади) Хомила (Жинси бор) Кек 35 ҳафта
ичида (узун бор) ташхиси 40-41 ҳафтада
одам ёрилмалар бизи вақтида
ма кут олатларга дўқурдлар
мен орда саволларкан ёлғизда
берилаган рақамлар олам (Агар
(декар) одам эмри ёлғиз,
ортиқ (турмаши рақамини гарудаш
одам назоратлар резин дағалик
дўқ дўқ олдирдилар. Бораётган
олам Ислом ва Адами учрадиган
(нафар ёшли кишида онлар
дўқ дўқ олдирдилар. Ислом ва
ёшлар кишини шўқидаги мола
бўлида ёрилмаган тобрстанлгда
бастырдилар. Олари бастырган ерлари
одам унутилиши. Агарда шўқини
иса шуша тобротланиши, мен,
мирза хини ва бир нафар одами
учрадиган деир олун шўқини
бастырдиг. Агари кўқаётган учун
гўқлиши буданы ёшли учун
олдурдилар. Ёзи сарада ҳаркун
ахбор шаҳарда шифохона ахволлар
вақтида дўқрдилар.
Тахминан бир ой шундан
сахландигдан сонра мени шунинг
сани тасбасидан олиб Агари
ман-бўлиш апарлб шифохона
ахшам иса Хом кандида ёрилган
ЧВС. д апардилар. Орада бизда
олов 6-7 дейр курол бориди.

Олардан Чабрәүлдән Әнгәф Бакыдан нәни, Газагдан Бәзәүкәр калебәгардан елхәи, адларини хатрлаурам. Биздә орада кенәк (алчак бөј, кек, гара чибрым сач, 29-30 јашлы) Әлекпс (узун бөј, гара, ары, чибрым сач, 42-43 јашлы) Давид (алчак бөј, ары гара сач 28-30 Овик, (орта бөј, орта бәдәнли, гарачын 30-32 јашлы) Адлы Ермәнләр. Мәни Әнгәр. Ва мүшәүги мәни бәрләшәлән ерманый тикинтисиндә ишләр. дә ишләдирдиләр. дашлары биздә 3-3-4-4 дашдырдылар. биз машбәјиндә ојаркән јанымызда олдү Әлијев-дәү Игорын фајда нәһәнәк Овик адлы ермәни тапанчак илә тахдәни нишан алмак бәһанәси илә ојун ајаг ки бүрду. Орада биз әдир сахландыгмыз мүдәт сәһәрләр мәни бәрлинин ерманыда тикиндә ахшамлар иә ИВС апарыр орада дејүрдләр. Шумада адун Кедурархан белми Зәдә адыгма керә хон кәнә ушак бәлнисәндә галдагым о мүдәт Орада бәлага Жирик (орта бөј, сәүк, кек, 30-32 јашлы) бөјүк Жирик (узун бөј, орта бәдән сары 29-30 јашлы) Ермәнләр орада олан әдир кироләры

Кут ағатларга дөгүрдүмэр
ушаг эдета жанаскиндэ
Тэжикиэн 18-26 нэфэр эвүр вэ
кировлар саженнэрды. Олларин
адларын эвүтпрэдмүрэм.

1996 чы ил май айынын
10 да Дөвлэт комиссиясы
тэрэфиндэн 67 нэфэрлэ
бинэдэ мэни эсирлэдэн
азад едилэр.

Изэнат Өзүм /эздым
дөгрүдүмү өз инзамла
тэстиг едирэм.

Имза. [redacted] Б. Сафаров.

04.02.03.

S. Hüseynov

Dövlət komissiyasının (birləşdirilmiş) işçi qrupu Azərbaycan Respublikasının vətəndaşı, [illegible] rayonunun [illegible] kəndində anadan olmuş, [illegible] ilə [illegible] dövlətinin [illegible] edilməsi barədə

07.02.03.

İzahatı alan Dövlət Komissiyasının işçi qrupunun rəhbəri S. İ. Hüseynov.

Girovluqdan azad edilmiş **Quliyev Marks Eyniş oğlunun** ifadəsi:



Azərbaycan respublikası
Daxili işlər nazirliyi
Əsir və itkin düşmüşlər, hərbi
qulluqçuların və ailə üzvləri
üzrə dövlət komissiyasının sədri
cənab N. Abbasova

1960-cı ildə Ermənistan
respublikasının Kəlbəcər rayonu
ərazisində hərbi xidmət
keçdikdə, Sədərək rayon Daxili işlər
şöbəsi 2-ci şöbə rəisinin
MTDY-nun bilavasitə müvəkkili
tərəfindən həqsizcə
Quliyev Marks Eyniş oğlu tərəfindən

Ərizə

Dövlət Komissiyasına
DAXİL OLAN № 519/02
„25" XI 2002 il

Ərizəçi hərbi xidmət üzrə AR Cinayət
296-cı (əsir-əsir götürmə
etmə) maddəsi ilə məsuliyyət doğuran
barədə xəbərdar edildiyini
1993-cü il iyulun 3-də şəxsi imzası
ilə təsdiq etdiyini, həmçinin xüsusi
əhəmiyyətə malik, əhval bir ozdan ərizəçi
üzrə həyata keçirdiyini bildirir.
Əlavə: 19 vərəq.

Ərizəçi

ольмэн вэ гэхдэлгэлгэнэн блэнкдэ
ермэжны нэрбэчилэри Гэрэфилэн
Кировэ котурудчук. онгэлэн офэгэ
онолодокилэрдэгэ.

1 Бибгэси Кухудэвэ Гэлгэнэ нэдэр жэли
Гэхилэн 7ой дэлгэндэ/ Кировлугэн озэд
офилэн 1 ой сэнэ вэгэт ефеб.-1

2 Эгилэн оглу Кухудэв-Вэгэр Гутэлс оглу
*1947-гэ ил Гэвэлгэдэн/ Кировлугэн
ермэлилэр Гэрэфилэн дэдэгэ-дэдэгэ
олдурулуб.1

3 1950-ил Гэвэлгэдэн Эгилэ оглу
Кухудэв Арэф Гутэлс оглу/ довлэт
комиссиэлэ Гэрэфилэн озэд ефилэб

4 Эгилэ гызы Кухудэвэ нэдэдэ
Гутэлс гызы Гэхилэн 1946-48-ил Гэвэ
лилэдэн/ Кировлугэн озэд ефилэб.

5 Эгилэ оглу Кухудэв Бэкир Гутэлс
оглу/ 1954-гэ ил Гэвэлгэдэн/ Киров
лугэн озэд ефилэб/

6 Эгилэ оглу Вэгэфэн гызы Кухудэвэ
Севил Вэгэф гызы/ 1974 Гэвэлгэдэн
Кировлугэн озэд ефилэб.-1

7 Эгилэ оглу Вэгэфэн гызы Кухудэвэ
Севдэ Вэгэф гызы/ 1977-гэ ил
Гэвэлгэдэн Кировлугэн озэд
олунуб

Хелл

8- Эмин оглу Бәхтияр Ләтиф оглу
Нуҗуева (кызы Гөлчәчәк 1954-нче т.е. Кировоград
өлкәсе единицә)
9 Нуҗуева кызы Гөлия 1959-нчы т.е. Ташкентта / Эмин оглу Баһадир
Ләтиф оглу Кировоград өлкәсе
10 Эмин оглу Ариф Ләтиф оглу Бәхтия
Гуҗуева кызы Сөнәй 1956-нчы т.е. Ташкентта Кировоград өлкәсе
11 Эмин оглу Нуҗуев Ләтиф оглу
Ариф оглу (1976-нчы т.е. Ташкентта Кировоград
өлкәсе)
12 Эмин оглу Ариф оглу Нуҗуев Әлфия
Ариф оглу (1978-нче т.е. Ташкентта
Кировоград өлкәсе)
13 Эмин оглу Баһадир кызы
Нуҗуева Арзу Баһадир кызы (1986-нчы
т.е. Ташкентта / Кировоград өлкәсе
14 Эмин оглу Баһадир кызы Нуҗуева
Мутагат (1984-нче т.е. Ташкентта /
Кировоград өлкәсе)
15 Анасы Гуҗуева Мәүлә кызы 1927-нче т.е. Ташкентта / Кировоград
өлкәсе.
16 Ләтифовлар Гуҗуева Ләтифә кызы
(1964-нче т.е. Ташкентта / Кировоград
өлкәсе.

Нәсел

1443

~~18~~ Гозыев Гулмедов Мерген Маркс
1 гозы 1986-чы ил Тәвилгәси/Кировар
дон азад едиледи,
*8. Гозыев Гулмедов Нурмет Маркович
1988-чы ил Тәвилгәси/Кировабад
азад едиледи/
Эмэх 2 нэфэр Нэнкэнчилэрин
комиссиясы Рэис нэзэрилэ газы
ез мэнзилдэ Рэван/атасынын адына/
бланкэси/ бизэ Кировабад котэрдиляр
Вахт олмэды бизим кэлэ котэрмэк
артыг 21 нэфэр олдуг. Бизи Кировабад
котэрдикдэн сонра Коровлумун кэндиндэ
Кэнарда олан ерлэшдирдилэр Тэхминэн рэдди
ил бизи Гондрут ~~Кондрутдан~~ Комбэк
Кэндиня пиядэ апардылар. Тэхминэн
дорд саат 1 саат гондрутдан сонра
Комбэк мэнтэгэси устунэ Гондрут рэдди
дэ дэрэнин русларын гоншусу Гарабаг
нисбэ Кэтирдилэр тэхминэн ярым
1 саат сонрадан сонра. бизим
Гарабаг дүк мэнтэгэ дэгэрэ Гондрут
рэдди полис тэбэссүм апардылар

Нам

Ороодоо гоодог уйлсчлөгч 1 комфорд
Кемпингт дөнгөр комфорд сөөдөнгөр
тэхимтэй 15 ширхэг кемпингт сонгон
полис цэцэрлэгийн гэрлэлтэй дүүрэн
ергэлт / тэхимтэй 20-25 хоног өдөр бүү 170.
гарын бүгдээр / километр сонсогдолтой
комфорд камер дефицит хөрөг ряссан
гоолтой оногдуулсан бизи бар-бар хөнгөн
дэлгүүр мэнд эвлэл рэлэх комплекс
ге огноо нэг сонгон пожарны инструкц
лопатка сарьсан коктейл онцгой
дэлгүүр, бизи дэлхий ергэлтэрлэн офицер
нэг бэлэгдэл онгөр үг нэгэн цэцэг
онгөрөх хөрөнгө комплексээс нэрсэ
Кемпингт бар нүдүүр, бөөрөө кетэл кок.
гоолтой, инженер нүдүүр, гарч чөлөө
сэч кок бэлэг, үүрэг гарч нүдүү бөгсөө
кок хөдөө, нэлээд кауч бизи ороодоо новш
гоолтой кино соёлдэлгэр. сонгон нэг
Зөөл комплекс нэг конкурсын ЕЕС.
дөрөвт тэрэгээ оногдуулах 1 км/ц
бизи ороодоо сөөнгөдлөгдөн сонгон
ертэсэн кауч бизи 5 нэгэн комплекс
Шүүгч тэрэгсэнд оногдуулах бизи
ороо ажлаархан комплекс лекцийн
Нэр

145

дом недждэ дэгдэрдэгэр /онгор безэн автоматын гурдаты иез дэгурдэгэр. Бэзи чеуиэн тирлэхэнэ опэгэрэкэн орадэн бездэн бэлэгэн Тэхеилэнэдэ нэгэр вэр иди онгорэн иеидэ нэрбэе дэгэгэрдэ вэр иди. онгор одэсэры дэдыиеда гэлэн онгодакиэурдэгэр.

1 Новруз /кэибэгэр рэгэкурдэн Тэхеилэи 35-40 дэлеи онгорды кировдэр)

2 Гуиуев Дениэр /Пусэр рэгэкурдэн Тэхеилэи 22-25 дэлеи дэгэрдэгэр

3 Нэзэн /кэибэгэр рэгэкурдэн Тэхеилэн /55-60 дэлеи кировэ.

4. Гэлэгэр /кэибэгэр рэгэкурдэн Тэхеилэн 22.25 дэлеи дэгэр

5 Гусиф /Сэлеи Пэзэбэси Тэхеилэн 22-24 дэлеи дэгэр.

дэкэрдэгэлеи одэсэрэнэе уиегтэдэлеиэе ерлеилэгэр бизэ орда иеилэгэр вэгэр дэдэр вэ онгор иеилэгэрэк дэгурдэгэр Бэзиеи усгуиуз иегэри бурадэр дэдбелка иез орлатур иез лэи иез агэлеи вэ автоматын гурдаты иез нэр кирк дэгурдэгэр. Бэз дэгэр кировэгэрэи пэлеегэлеилэи кирз сигурлеилда, одуи догротеилда, дэр газдэрлеилдэр иг кеиеи курдэгэлеилда, вэ бизи бир бирлеилэ дэдэрлеилда легэбдэр едэрдэгэр.

дэлеи

ерим эркак бутун бу шахсларни ер
юзида нэзд аналогларнор. Чунки бизда бу
шахслар ерда ерим эркак (бола) бўйи
тахминан 180-190 сони орасида бўлади.
2. Робек гора тепасида соқоли бўйи 170 ортиқ бадани
ни 25 ёшли оғирди.
3 Гало 25 ёшлик ортиқ бўйли горилланинг оғирлиги.
4 Тур-шахар раҳбари Арно тахминан 40 ёшлар
гора бағрида гора соқоли тахминан бўйи 180
кўзлари ини ҳаёлий горилласи.
5 Раззак ном сариқлар ранги 35-40 бўйи 170-180
6 Артур ҳужум Сариқлар тепаси бошқа ранги 40
оғирди
7 рачик бўйи тахминан 160-170 ранги 30 ортиқ
бадани сариқлар сони бошқа.
Бунлар оқсоқолдир. (Онлар назарларида)
Ким чоғ ғорлар Чунгидан сакланувчи
мундан ташқари мўйлардан бегона
да сақланган Валера оғзаки рус миллатли
ган одам эсарет (пленда) оқсоқолдир ва Чунги
Туристлар гуруҳи одам Робертсонни
бақувватлаган ким шафқатсиз
сонра (Новрузов раҳбар маҳорат) ҳафтадан
кейин (элементар ёнғинлар. Оқсоқолдан
тонган одам ҳаётдан шафқатсиз ўлим.
ТШИ.

Бир иш вақт кечикиш сонра Вассерг одам ёрдамида Элиша олиб Вожерин Иорданбодда ёрдамчи Гаргентан оқар-иш оқизувчиларни ишлаш Вагнер Гарнисондан Бизи ободон шаҳарга учун ариқлар ораға Сеховая одам ёрдамида оқизувчилар. Бир иш вақтда сонра Ион ва Бергетан ротапринт олиб эсар Васселин ўзгаришлар олиб иккинчидан олиб бир ва ариқлар. Бизда бошқа ораға 2 нафарда вар иш Чабрилидон. Низом/руку ҳаста. Ағдонидан олиб экбар одам гоча. Бизи сохалари ишсиз Пата одам ёрдамчи иш. Окун дефицит кора окун оқиш Вагнер Гобустан Гарнисонга корбе эсар Киев сохалашар. Обезе оқиш иш ўзгаришлар учун сохалаштирдик. Ораға 22 нафар гонадогдан сонра Або одам ёрдамчи ора кабар ўзгаришларни обаётган гочалиги блокировка Ионе Хонкаги ишсиз ҳаста ҳолатсизлик капитали. Ион ора капиталлардан Кабар ротапринт фурилон эсар Киев ларек ораға оқизувчи Корбусе. Ораға тафтишлар ишлашлар ҳарбий экспертиза вар иш Ҳаш

Отчордон бир дэн Кыргызстан
одысы гадыкчы одыс радиотелефон
эскэриздэн
Чекчи физули ревизиядан
дискриминит одыгорыны умтылдыган
мэн ороскэн кун Агидаси ревизиядан
осон бир гоча арыздан отчитыну
ыстдэн сэбэп отчордон донос бир
эскэрчиден хэсти гонодэ отдыгыну
ыстэри ады рацияда дэнс бэ Бэрэ
гон ревизиядан иден. Ону чыгыш турыз-
синдэ ИТЭ тутдурчыдыр бэ отчет
рапорын тэсдиктэн отчитдыр.
Отчордо мэн Чекчи учуктыру ады
рацияда дэнс бэз отчорыс дэп
цехдэк мэн ородо87 гонцертэдэн сэбэп
жэн хонкэндижи евс дэнэт
турыгэ кэтиродэнэр. мэн ородо
чыгыда аз ыгыдэтэ кордируы
Агидаси ревизиядан осон хогорыс одыс
Кыровля корупцыя. Без ыгыдэ
1 комерода сохлокчыдыгыз гарнитур
Бурун дэтчиктэри гэр кыровлэр
ороскэнэрэ ородон дэтчэрдэнэр.
мэн хогоны бэ бэгэ дэтчыгыз
кэтирдэн эгер бэ кыровлэр турыгэн
тэссэрыфат ыгыдэ корупцыя

Конец

Дунёнинг энг биринчи конкурсда
қатнашган Кибэтэр рейтингдан олган
Киров Бэнер. Разминкадан олган Сенсация
оқибатда энг кўпроқ балл тўплаган
спортчимиз Бизга бугунги спортдаги
муваффақиятдан Гапиб бергин олган

1 Кора бўйи 170-180 гори сочи бигиз орыг
танаси тахминан 25-30

2 Вачо бўйи 180-190 сариқ бигиз ранги тахминан
35-40

3. Хачик бўйи 180-190 гори Сочи ранги
тахминан 25-30.

4 Артур бўйи 170-180 гори сочи ранги 22-24
ёшларда

5 Спортчик бўйи 180-190 сариқ бигиз ранги
28-30

6 Карен гори сочи бўйи 170-180 ранги
тахминан 25-30

Энг ёшларни биги дунёнинг
дубляжи ичи оригинални номини
фотомодел биз ёрдам олишган
Энг закатлар рейтингдан олган
биз энг ёшларни шундай сўрадик биз
Назар фото оқибатдаги тонгги
олдиги энг ёшлар ҳақидаги фикр
лари

Биз шуни тушунишимиз керакки Гарбийлар ҳеч бизнинг ҳаётимизда ғалабамизга аҳамиятсиз. ЮНЕСКО-да ҳам ислом ҳақида нотўғри тушунчалар ва Гарбийлар ҳеч қачон ислом ҳақида тўғри фикрга келмаслиги.

Бошқа 180-190 ҳужжатлар ва бошқа бошқа ғоялар тўплами 35-40 саҳифадан иборат

Мана Ҳалқаро Бошқарув Институтининг ҳалқаро ташкилотлар ҳақидаги ўқитувчиларнинг ёзган бизни қаттиқ ҳафа қилди/ Содда тилда қилган танқидлар Биз ислом, Бошқа Ҳалқаро ва мен ҳақимда нотўғри, Бошқача ёндашувдан йироқ Тоталитар ғояларга эга ташкилотдан бўлган 1-2 та сатр ҳалқаро ва мен ҳақимда нотўғри ёзилган Бу ерда келтирмоқчи ҳамма керакмасдан ёзилган/ оддий бегона одам/

Ҳаммаси

ИВС-дэ 12 учиргу мэлгэхдэд
сохеонгиогдов. Онгор бэзэ Корри
мэдиклэгч учир ва оюу бэздэг сурвэ
сохеофгиогч учир О бизнээс гоюа
бэлгэдэг. Мэн Хэгорее цаг 7ЯЧ-гуйн
Корабрин 26-да охиоон Сеот 7.8 продэгрэлгэ
ИВС Туреэсэнгэн заборгуйдэн гоюа гоюдэг
бэз эвэзи техникумын Нэутэнд продэгч
мэгэрдэгч евэгрэч ерасэе цаг хэивэт
хэивэт мэгэрдэн гоюоб Ядоее истегоогэгч
дэ. олон ГДИ посгуйоо гоюгоогээ
Горгэр гоюоюа Тэгэр дуцэб чорэн истегоогэ
рэнгэ гоюсолэн бэлгэдэдэг Сэнэр олэлгэдэ
бэз Кэлб цэгээе дагьсэн бэлгэдэн гоюдэг
ва ородэя охиоогоо гэдэр Коомэгдэн гоюдэг
ва бурэдэя гоюдэгдэгээ вэхт бэзэ охгорэн
ерилгээгэн корруйн горэгээвэг дуцэгдэ
бэз Ядоее истегоогэгдэ кэгэцэ бэлгэдэг
дэгэн Ядоегэдэн гоюдэг Сэнэр Ядоевэн
олгэдэгээгээ Тэгэр кэлдэг ва охиоогоо гэдэр
ородэя гоюдэг охиоее горэгээвэг дуцэгдэ
Хэгоее кэлэн Кэгдэгдэг Кэлб гоюдэг
кэгэцэ олэн эгээсэн кэлэн Нэутэнд
гоюдэг сонэр узуцэгдэгэн ородее цаг
Горондоглэе кэгдэгдэ Тэгэр кэлэб
горэгээдэ сэсэгэр ealдэгб олиоогоо гэдэр
ородэя гоюдэг. Ахиоэн олгорэн бэзэгээ
эскэгрэр олдугуйдэ сэсэгрэгдэн гоюдэгэб
хэивэт Горондоглэе кэгдэгдэ кэлдэг

Шуъба нэбс хэлсэнгэ легчемез ахлах
кантонер оснэ гидрометеорэлэр

1 Кантон Книбэгэрдэн (Киров)
2 Гэлэр суегэлгэрдэн (2 эсер)
3 Дэнгыл Элгэбурэлгэн радиорелэен (h эгр)
4 Зэлэр Ачкабэдэн радиорелэен (h эгр)
5 Бенгнэт Книбэгэр радиорелэен (Киров)
6 Будэл книбэгэр радиорелэен (Киров)
7 Тэгэр Шурэ Ачдэлэн радиорелэен (дэлэрэ одуруулгэр)
одуруулгэн офырэ дегдегэрэн
8. Вагир Бэкнгдэен
9 Мэнгэл нэгэбэн сэрдэр бэкнгдэен (дуунгэ олуб)
10, Зелэнэл вагир Бэкнгдэн,
11 Шэхэнгэл Вагиф
12 Бедиэгэндэн 11 нэфэр нэрбэ эсер офицеры,
Анар рясин ва гэрнигэн офицерэл ушгэгэр
13 Гусейнов Шэриф,
Мэгдэгэз хэлэнэ ИЛС-дэ сэхлэгдэгэчэ
инструктэр
Цекнгдэров Гэлэнэ пэнэл огэу инженер радиотехник
Дэнгыл кучэзи ев чэ
Эгчуев Мушвиг Нэфир оглу (Мэчкэн радиоцех/Киров)
Сэфэров Бэхтияр (физкультрадиоцех/Киров)
Физвэл Шэкнгдэн 19 чэлгэнгэдэ.
Хэсэн физкультрэдэн 60-65 дегдегэдэ.
Орэ кэгирилгэн азэф сүегэлгэлгэгэр.

Хэсэл.

14 134

Изобретен двуцев роздвоен
дорулеутлку от чугунена
тесена единица.

Цилиндрите: тесен Гуцулев Мирко Еуреке отец

22.11.2002

Girovluqdan azad edilmiş **Quliyev Pənah Zakir oğlu** ilə aparılmış söhbətə dair arayış:

46

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasına

Erməni girovluğundan azad edilmiş Quliyev Pənah Zakir oğlu ilə aparılmış söhbətlə əlaqədar

Dövlət Komissiyasına DAXİL OLAN № 2996 04. 05 2004

ARAYIŞ

Quliyev Pənah Zakir oğlu-1973-cü ildə Qubadlı rayonunda anadan olub.

Yaşadığı ünvan-Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan qəsəbəsi.

Quliyev Pənah Zakir oğlunun sözlərinə görə o, 1993-cü ildə Ərşad adlı şəxslə birlikdə Qubadlı rayonunda ermənilər tərəfindən girov götürülmüşdür. Ermənilər onları girov götürərək hərbi hissəyə aparıb möhkəm döymüşlər. Bir müddətdən sonra onları Qubadlı rayonunda tanımadıqları kəndə aparmışlar. Ermənilər girovları həmin kənddə təxminən 2-3 saat saxladıqdan sonra Xankəndində yerləşən hərbi hissəyə aparmışlar. Orada onları hərbi hissənin qaupvaxtına salaraq rezin dəyənək, təpik və avtomatın qundağı ilə möhkəm döymüşlər. Pənah bildirmişdir ki, orada təxminən 60 yaşlı Abbasov Əli, Eyvaz, 63 yaşlı Elmar, Ərşad kişi, Şükür, Əlizamin, Fikrət (ruhi xəstə), Hüseynov Cavid Ağa oğlu və Şükürün adını xatırlamadığı qohumunun girov saxlandığını görmüşdür. Ermənilər həmin girovlara bildirmişlər ki, hansı girovun Bakıda olan qohumlarından pullusu və yuksək vəzifədə olanı varsa onu tezliklə girovluqdan azad etmək mümkün olacaq. Orada ermənilər girovları avtomatın qundağı, rezin dəyənək, təpik və mantirovka ilə möhkəm döyərək ağızlarında olan qızıl dişlərini kəlbətinlə çıxarmışlar. Ermənilər həmin girovları Ağdam rayonuna apararaq işğal olunmuş kəndlərdəki evlərin söküntüsündə işlədirmişlər. Ermənilər həmin kəndlərə hücum edən zaman əhali mal-qaranı və evlərində olan əşyaları kənddən çıxara bilməyib kəndi tərk etmişlər. Ermənilər həmin kəndlərdən geri qayıdarkən təxminən 400 baş mal-qaranı özləri ilə aparmışlar.

Quliyev Pənah Zakir oğlu bildirmişdir ki, ermənilər onları hərbi hissədə təxminən bir il iki ay ac-susuz saxlamış, möhkəm döymüş və qış ayında hərbi hissənin həyətində olan hovuza salıb bir neçə saat suyun içində saxlayaraq işgəncə vermişlər. Ermənilər girovların üstünə həm də xüsusi təlim keçmiş itləri buraxırmışlar. Pənahın sözlərinə görə, ermənilər onların yanına yaralı girovlar gətirmişlər. O, həmin yaralı girovların adlarını xatırlamır. Həmin girovlardan birinin (Sumqayıt şəhərindən) yaralı olmasına baxmayaraq erməni hərbçiləri onu gecə səhərə kimi möhkəm döymüşlər.

Ermənilər girovları bir-birlərinə döydürmək istəmişlər. Lakin girovlar bunu etmədikdə erməni hərbçiləri onları möhkəm döymüşlər. Orada erməni hərbçiləri Pənahı, Ərşad kişini, Elmarı (başını yarmışlar) və Şükürü (çənəsini qırmışlar) möhkəm döymüşlər.

45 bazaya salınıb

Pənah bildirmişdir ki, orada onları döyənlər Armen ilə Rıjı ləqəbli (adlarını bilmir) erməni zabitləri olmuşdur. Ermənilər orada girovları yerə yıxaraq onlara torpaq yeməyi məcbur etmişlər. Pənahın sözlərinə görə, BQXK-nın nümayəndələri onların yanına gələn zaman erməni hərbçiləri orada olan girovları möhkəm döyərək onlara verilən işgəncələr haqda nümayəndələrə heç bir söz deməməyi tapşırmışlar. Pənah bildirmişdir ki, Qubadlı rayonundan olan 35-40 yaşlı Zakiri və Füzuli rayonu, Horadiz qəsəbəsindən olan 35-40 yaşlı Arifi ermənilər möhkəm döyərək öldürmüşlər. Ermənilər onların meyidlərini traktorla harasa aparmışlar.

Bazaya salınıb

Pənahın sözlərinə görə, ermənilər girovlardan Abbasov Əli ilə Eyvazı lazer şuası altında işlətdikləri üçün onların gözləri şişmişdir. Bir müddət sonra ermənilər Eyvazı girovlardan ayıraraq harasa aparıb geri qaytarmamışlar.

Ermənilər qış aylarında girovlara buz təmizləməyi əmr etmişlər. Girovlar bir az gec işlədikdə ermənilər onları qarın altında basdıraraq bir müddət orada saxlamışlar.

Qeyd: 03.08.01 tarixdə aparılmış müvafiq söhbət 39 saylı video kasetdə öz əksini tapmışdır.

İşçi qrupunun referenti **C.İ.Hüseynov.**

Girovluqdan azad edilmiş **Şevelyov Vladimir İvanoviçlə** aparılmış söhbətə dair arayış:

84

ƏSİR VƏ İTKİN DÜŞMÜŞ,KİROV MƏTURÜLMÜŞ VƏTƏNDAŞLARLA ƏLAQƏDAR DÖVLƏT KOMİSSİJASINA

Ermәni әsarәtindәn qajıtmış V.Şevelјovla apарılmış sөhbәtlә әlaqәdar

A R A J I Ş

Şevelјov Vladimir Ivanovich -- 1926-cı ildә Ağdam şәhәrindә anadan olmuş, јol istismar cahәsindә fәhlә işlәmişdir

Ашағыдакы ünvanda јaşaјaчagdır: Baкы şәhәri,Piraллahı qәsәbәsi,2213 nөmrәli mәhәllә,39/40 nөmrәli kүчә,ev 14,mәnzil 7

Anası qoча,qardaşı isә xәstә olduғundan Ağdam raјonu alınarkәn ketmәmişdir. Işғal olunmuş zonalarda alманların dinч әhalijә dәјmәdijinә vә millijәtinin rus olmasına bel bağlamışdır.

21 ijul 1993-cү ildә sәhәr saat 11 radәlәrindәn başlaјaraq күчlү atışma sәsi eşidilmişdir. Ermәnilәr şәhәrә kirmişlәr. Bir kүn evdәn chыxmamışdır. 22 ijulda чөrәk almaq үчүn hәjәtә enmiş vә azча araландығдан sonra күллә sәslәri eşitmişdir. Qonşu mәnzillәrin jandırıldığını kөrmүşdүr. Чөrәk olmaјaчağını başa dүşүb kizlәnә-kizlәnә kери qajıtmışdır. Anasının "Tanrısızlar,oғluму nijә өldүrdүnүz?" fәrjadını vә ona "Jum ağzını,belә-belә olmuş, jaxşı elədik" chavabını eşitmişdir. Başa dүşmүşdүr ki, jataғda xәstә olan qardaşını күлләlәmişlәr vә ermәnilәrdәn aman kөzlәmәk xүljadır. Qorxudan kizlәnmişdir. Kechә saat 1 radәlәrindә dalдaланачağını tәrk etmiş,dәmir jolu istigamәtindә gachmışdır. Janından kechәrkәn evlәrinin jandığını,89 jaşlı anası Vera Davıdovnanın vә 58 jaşlı xәstә qardaşı Anatoli Ivanovichin өldүrүldүjүnү kөrmүş, jaxınlaşıb 48 jaşlı bacısı Svetlanana ahtarmağa ehtijatlanmışdır.

Gача-gача өzүnү kanala jetirmişdir. Onun janında Azәrbaјчan ordusunun vurulmuş tankını,ətrafında ekipaж үzvlәrinin,gadın vә uşaqların mejidlәrini kөrmүşdүr. Onların sifәtlәri vә bәdәnlәri tanınmaz hala salınıbmış.

Үzүmlүjү kechәrәk Sarıчalı kәndinә чatmış vә oradakı postda tutulmuşdur. Sәrxoş әskәrlәr чibindәki pulları almış,өzүnү dejmүş,sorғu-sual etmiş vә Ağdama apararaq maşın garajına salmışlar. Hәmin vaxt orada ашағыдакы azәrbajчanlılar olmuşlar:

Әrşad -- Ağdam rajonundan kәnd sovetinin sәdri

№15-1/02
22.05.94

Елман - Ағдам

Балыш — Ағдамын Сарычалар кəндиндəн

Шура — Ағдам раjонундан татар /өлмүшдүр/

Əскəр — Ағдам раjонунун Сарычалар кəндиндəн, Балышын əмиси оғлу

Гочалыгларына бахмаjараг онлары сəһərдəн ахшама гəдəр Ағдамын евлəринин гарəтиндə ишлəдирмишлəр. 29 иjул 1993-чү илдə Чанетта адлы ермəни һərбчи гадыны Беjнəлхалг Гырмызы Хач Комитəсинин нүмаjəндəси илə гараjа кəлмишдир. Онлар галанларына мəһəл гоjмадан В.Шевелjову машына отуртмушлар. Ағдамын руһи хəстəлəр хəстəханасындан 2 нəфəр гадын да көтүрəрəк Ханкəнди ушаг хəстəханасына апармышлар. Сабаһы В.Шевелjов гочалар евинə jола салынмыш вə 10 сентjабра гəдəр орада сахланмышдыр. 8 сентjабрда Омск шəһəриндən кəлмиш һərби формалы бир килсə хадими хаһишлəрини нəзəрə алараг ону Ағдама апармышдыр. Анасынын, бачы вə гардашынын галыгларыны jығыб басдырмышдыр. Иfадəсинə көрə сүмүкləри, бачысынын галыгларыны, башыны, сачларыны һərəсини бир jердən тапыб топламышдыр.

1993-чү ил сентjабрын ахырларында о, Коротковлар, Мариjа, Татjана вə бачысы Jеревандакы гочалар евинə апарылмыш вə 28 апрел 1994-чү илдə гаjтарылана гəдəр орада сахланмышдыр.

И.һүсејнов

4.Y.1994

ое. Алиев
13.06.94.

QEYD ÜÇÜN

Bədii və texniki redaktoru ***Abdulla Ələkbərov***
Kompüter tərtibatçısı ***Təhmasib Mehdiyev***
Nəşriyyat korrektoru ***Pərvin Quliyeva***

Çapa imzalanmışdır 05.12.2017. Kağız formatı 60x90 1/8.
Ofset çapı. Fiziki çap vərəqi 46. Sifariş 170. Tiraj 510.

"Təhsil Nəşriyyat-Poliqrafiya"
müəssisəsinin mətbəəsində çap olunmuşdur.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 149
Tel.:(+994 12) 567-81-28/29; Faks: (+994 12) 567-82-68
e-mail: tahsil_az@yahoo.com

ERMƏNİ ƏSİRLİYİNDƏ:
işgəncə və qətl antologiyası
Bakı, "Təhsil", 2017.